The article is devoted to the study of heavy metal pollution of the soil cover of the coastal zones of the northern part of the Absheron Peninsula. The pollution of the coastal zones of the Caspian Sea, which serve more as a recreation area for the population, with toxic substances is of great concern, and to solve this problem, periodic studies of these zones for the presence of heavy metals are necessary. For the first time, a comparative analysis of the content of heavy metals in different directions (Buzovna, Sumgayit, Novkhany) of the northern part of the Absheron Peninsula was carried out and the hypothetical reasons for their accumulation were presented. The studied soils in the northwestern and northeastern parts of the peninsula were grouped according to the degree of concentration of heavy metals, depending on the depth of the studied soils. Zinc (77.0 mg/kg, at a depth of 0–16 cm, section No. 03), copper and cadmium (88 mg/kg and 0.36 mg/kg at a depth of 0–20 cm) have the highest concentration compared to other trace elements. , section No. 05). The concentration of zinc and copper in the northwestern direction of the peninsula increases, respectively, by 1.5 and 3-3.5 times compared to generally accepted norms. Under the influence of flooding of coastal zones by the waters of the Caspian Sea, the average content of heavy metals, especially Ni, Cd, Pb in flooded soils at a depth of 0-100 cm increased by an average of 2.7

times. The value of the total amount of heavy metals reaches a maximum in the northwest direction.

Rəyçi k.e.n.,dos.Bağırova N.N.
Neft-kimya texnologiyası və sənaye ekologiyası kafedrasının 14 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu
Daxil olduğu tarix 22 sentyabr 2022-ci il

UOT.668.395.5

QƏRB REGİONUNDA TERMAL SULARIN ANALİZİ VƏ TƏDQİQİ

[1]Nağıyev Nizami Qəzənfər, [2]Məmmədova Aynur Teyyub,
[1]Məmmədova Mehriban İsmayıl, [2]Zeynalova Aygün Elxan
[1]AMEA Gəncə Bölməsi, [2]Gəncə Dövlət Universiteti
mammadova 54@ mail.ru

Xülasə: *Azərbaycanın Qərb regionunun termal sularının kimyəvi və fiziki göstəriciləri, eləcə də tətbiq sahələri tədqiq edilmişdir. Termal suların istifadəsi mühüm iqtisadi tətbiqə malikdir və bölgədə müalicə sanatoriyalarında, tibbdə, baytarlıqda, kosmetologiyada, bələdiyyə müəssisələrində və kənd təsərrüfatında geniş istifadə olunur.*

Acar sözlər: Alternativ enerji, qlobal istiləşmə, istixana effekti, termal sular, fiziki göstəricilər, çıxarıldığı mənbə, səmərəlilik, müalicəvi.

Ключевые слова: Алтьтернативная энергия, глобальное потрепление, парниковый эффект, термические воды, физические показатели, источник нахождения, экономичность, лечебный.

Key words: Alternative energy, global narming, grenhouse effekt, thermal water, physical flatures, finding source, economically curative.

Azərbaycan Respublikasının Prezidenti müasir dövrdə dünyanın inkişaf etmiş ölkələrinin həllinə çalışdıqları problemlə əlaqədar olaraq 2012- 2020- ci illər üçün ölkəmizdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə dair Dövlət strategiyasının hazırlanması haqqında 29 dekabr 2011-ci il tarixli sərancam imzalamışdır.[1]

Müstəqillik əldə etmiş Respublikamız sosial – iqtisadi problemlərin həllini mütərəqqi ölkələrin təcrübəsindən istifadə edərək, qəbul etdiyi öz qanunları əsasında həyata keçirməyə başlamışdır. Bu baxımdan həmin qanunlarda təbii resurslardan və təbii sərvətlərdən daha düzgün, səmərəli, eyni zamanda itkisiz istifadə etməklə, ölkənin sosial- iqtisadi problemlərinin həllini elmi əsaslarla yerinə yetirməyə üstünlük verilmişdir. Bu təbii sərvətlərdən biri də yeraltı sulardır.

Bu gün bəşəriyyətin inkişafı elə bir mərhələyə çatmışdır ki, onun texniki tərəqqisi təbiətdə milyon illər boyu bərqərar olmuş mühüm qanunlara bilavasitə təsir edərək, qlobal dəyişiklərin yaranmasına gətirib çıxarmışdır.[2]

İnsanı təbiət yaratmış və öz sərvətlərini səxavətlə onun istifadəsinə vermişdir. 600 min ildən artıqdır ki, müasir insanla təbiət arasında münasibət müəyyən nisbətdə davam edir.

Bəşəriyyət öz inkişafının yüksək pillələrinə ayaq qoyduqca bu nisbət müəyyən mənada insanların xeyrinə dəyişir. Başqa sozlə desək, Yer üzərində əhalinin sayı artdıqca və insan öz əlində daha mükəmməl texniki vasitələri cəmləşdirdikcə, təbiətdən çox mənfəət götürür,

müqabilində isə ona az şey verir. İnsan təbiəti dəyişdirir, qırır, dağıdır və əvəzini qaytarmırsa,demək bu dəyişmə onun zərərinədi.

Ətraf mühitə vurulan zərbələrin və atmosfer havasına atılan texnogen qazların miqdarının azaldılması yollarının biri də insanların enerjiyə olan gündəlik tələbatını ödəmək üçün bərpa olunan alternativ enerji mənbələrindən istifadə etməkdir. 1992- ci ildə Rio- de-Janeyro şəhərində davamlı inkişaf strategiyasının ekoloji aspektinin müddəalarından biri "üzvi" yanacağın yandırılmasına əsaslananenergetikadan, tədricən enerjinin bərpa olunan mənbələrindən istifadə edən alternativ enerjiyə keçmək olmuşdur.

Bu baxımdan perspektivli energetika günəş, külək, kiçik çayların enerjisi hesab olunur. Qərb bölgəsində günəş, termal və biokütlələrin enerjisindən istifadə etməklə müxtəlif məqsədli və istiqamətli sahələri enerji ilə təhciz etmək mümkündür. Bərpa olunan enerji mənbələrindən istifadə yollarının araşdırılması və tətbiq olunması günün tələbindən irəli gələn obyektiv reallıqdır. Regionda ilk araşdırmalar nəticəsində bu istiqamətdə böyük potensialın olduğu aşkarlanmışdır.

Respublikada böyük potensial ehtiyatlara malik enerji mənbələrindən biri də termal sulardır. Tədqiqatlar göstərir ki, region ərazisindəki istixanalarda termal sulardan isti su təchizatında balneoloji məqsədlər üçün xammal kimi istifadə etmək olar.[3]

Gəncə-Qazax düzənliyində böyük ehtiyatları olan və istiliyi 80-90^{0}C- yə çatan termal sulardan kənd təssərüfatı məhsulları istehsal etmək məqsədi ilə istixanalarda istifadəsi əhəmiyyətli ola bilər.

Termal sulardan istifadə etməklə yaradılmış istixanalarda istehsal olunan məhsul ölkəmizdə ərzaq təhlükəsizliyinin təmini və əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ilin bütün fəsillərində ödəməklə, bu təsərüfatlar regionların sosial- iqtisadi inkişafı dövlət proqramının tərkib hissəsiolaraq həm də bölgəyə böyük iqtisadi səmərə verməklə, yeni iş yerlərinin açılmasına və sahibkarlığın inkişafına təkan verə bilər. Əldə olunmuş yüksək keyfiyyətli məhsulları ölkədən xaricə ixrac etməklə Respublikamızın dünyada artan nüfuzuna daha da təkan vermiş olar.Arasdırmalar nəticəsində məlum olmusdur ki, Qərb bölgəsinin mineral ve termal sularının tədqiqi onların mürəkkəb kation və anion tərkibinə malik oldugunu göstərir. Kimyəvi elementlərin sularda paylanması, onların miqrasiyasi, su laylarında diffuziya prosesi, həllolma zamanı məhlulun qatılıgının dəyisməsi, ionların hərəkətində osmos hadisəsi minerallasmanın dərin qatlarında gedikcə artması, yeni qravitasiya differensasiya hadisəsinin bas verməsi, suların bir-birinə qarısması ve s. belə faktorlardandır.

Alternativ enerji mənbəyi kimi istifadəsi nəzərdə tutulan və Qərb bölgəsində yerləşən termal sulardan götürülən nümunələrin analizi aparılmışdır.

Qazanbulaq termal suyunun kimyəvi tərkibi

Cədvəl 1.

Komponentlər	**1 litr suda komponentlərin miqdarı**		
	qr	**ml/ekv**	**ml/q-ekv**
	K a t i o n l a r		
Kalium K	-	-	-
Natrium Na	2.3529	102.30	35.00

Maqnezium	0.1216	10.00	3.42
Kalsium	3.6000	180.00	61.07
Barium	-	-	-
Dəmir 2-oksid	0.0007	0.03	0.01
Dəmir 3-oksid	0.0005	0.03	0.01
Ammonium	0.000017	-	-
Manqan	YOX	-	-
Mis	0.00009	-	-
Kobalt	0.000016	-	-
Nikel	Yox	-	-
Sink	0.000024	-	-
Vanadium	0.00002	-	-
Civə	-	-	-
Qurğuşun	-	-	-
Xrom	-	-	-
Kationların cəmi	6.0757	292.36	100.00
A n i o n l a r			
Flor	Yox	284.81	97.42
Xlor	10.0993	0.44	0.15
Brom	0.0346	0.13	0.04
Yod	0.0168	5.75	1.96
Sulfat	0.2750		
Hidrosulfid	Yox	1.25	0.43
Hidrokarbonat	0.0762	-	-
Karbonat	Yox	-	-

Hidrofosfat	Yox	-	-
Nitrit	0.00002	-	-
Nitrat	Yox	-	-
Anionların cəmi	10.5019	292.36	100.00
Ionların cəmi	16.5776		
Suyun 1 litrində dissosasiya olunmayan molekullar		Qramla	
	Karbon qazı	Yox	
	Ümumi hidrogen sulfid	Yox	
	Sərbəst hidrogen sulfid	yox	
	Silisium turşusu	0,0240	
	Arsen	yox	
	Ortobor	Yox	
	Üzvi maddələr	0,0020	
	Bitum	0,0008	
	Humin maddələr	0.0004	
	Naften turşuları	0.0007	
	Permanqanat oksidləşmə	7,136	
	Ümumi minerallaşma	16,6016	
	Quru qalıq 180 C	17,9800	

Goranboy rayonu, Qazanbulaq qəsəbəsi ərazisində yerləşən termal mənbənin suyunun tam fiziki-kimyəvi analizi nəticəsində məlum olmuşdur ki, temperatur 50- 60^0 C, PH 6-7, yəni

tərkibcə qatı xloridli- natriumlu- kalsiumlu olub, minerallaşma dərəcəsi orta hesabla 16,6-20,8 q/l-dir. Yodun və bromun miqdarı müxtəlif olaraq Y -16,8 mq/l, Br-34,6 mq/l-dir. Mühitcə (PH -7,6) zəif qələvidir. Kimyəvi tərkibindəki gostəricilərə görə su balneoloji əhəmiyyətli müalicəvi sudur.

Təsnifata görə su yodlu və bromlu sular qrupuna aiddir [4,5].

Suyun tərkibi haqqında belə nəticəyə gəlmək olar ki, yüksək termal, yüksək minerallaşma dərəcəsinə, qələvi mühitə malik yodlu- bromlu, xloridli- natriumlu- kalsiumlu sular qrupuna aiddir. Sudan ətraf oynaqların xroniki xəstəliklərində, ürək qan-damar xəstəlikləri, genekoloji xəstəliklər, aterosklerozun müalicəsində istifadə edilə bilər.

Respublikamızda mineral sular kimi termal suların da geniş miqyasda yayılmasına və böyük ehtiyatlara malik olmasına baxmayaraq onlardan səmərəli və düzgün istifadə edilmir. Belə ki,yer səthinə 40-45^0 C temperatur arasından çıxan bu sulardan ucuz istilik enerji mənbəyi kimi istifadə etməyin vaxtı çoxdan çatmışdır. Son illərdə respublika ərazisində istilik mənbələrinin (qaz, neft, odun, elektrik enerjisi və daş kömür) çatışmazlığı üzündən meşə və yaşıllıqların məhv edilməsi bu sulardan istifadənin elmi əsasının layihəsi və bu yataqlardan istifadənin qiymətləndirilməsi kimi məsələlər ən ümdə məsələlərdi.

Nəhayət, Azərbaycan Respublikasının qanunlarının müddəalarını rəhbər tutaraq yeraltı suların hədər axmasının qarşısının alınması sahəsində hidrogiokimyəvi və hidrodinamik rejim müşahidə işləri araşdırılmalıdır.

Beləliklə, regionda alternativ və bərpa olunan enerji mənbələri mövcuddur. Onlardan istifadənin təşkili ətraf mühitin qorunması ilə bağlı fəaliyyətləri həyata keçirməklə yanaşı, Azərbaycan Respublikası Prezidentinin alternativ enerji mənbələrindən istifadəsi haqqında sərəncamın həyata keçirilməsində mühüm rol oynamış olar.

Ədəbiyyat

1. Əzizov Ə. B., Cəlilova R.Ə. “Alternativ enerji mənbələrindən səmərəli istifadə olunması və ekoloji problemlər”. Bakı, “Elm” 2005.
2. Əyyubov Ə. C., Rəhimov X. Ş. “Əlverişsiz atmosfer hadisələri və onlara qarşı mühafizə tədbirləri”. Bakı “ Elm” 2006.
3. Əliyev F. Ş. “Azərbaycanda termal proseslər. ”Bakı, “Elm” 1994.
4. Abbasov M. Ş. “ Qlobal istiləşməyə səbəb nədir,” Bakı “ elm” 2006.
5.Güllərli G.H., Məmmədova N.Q., İmrəliyeva G.E. Qeyri- üzvi kimya praktikumu. Bakı 2019, s.33-34.

ИССЛЕДОВАНИЕ И ИСПОЛЬЗОВАНИЕ ТЕРМИЧЕСКИХ ВОД ЗАПАДНОГО РЕГИОНА

Нагиев Низами Газанфар, Мамедова Айнур Тейюб,
Мамедова Мехрибан Исмаил, Зейналова Айгюн Эльхан

Резюме

Были исследованы химические и физические параметры, а также области применения термических вод Западного региона Азербайджана. Применение термических вод имеет важное экономическое применение и расщиренное использование в лечебных санаториях, и медицине, в ветеренарии, в косметалогии, в каммунальныххозяйствах,в сельском хозяйстве региона.

RESEAREH AND USING OF THERMAL WATER OF THE WESTERN REGION

Nagiyev Nizami Gazanfar, Mammadova Aynur Teyyub,
Mammadova Mehriban Ismayil, Zeynalova Aygun Elkhan

Summary

Have been investigated the chemical and phsycical features water of the western region of Azerbaijan.Application of thermal water has a great importance in such fields economics, treatment sanatorium, in medicine, veterinary, cosmetology, hausehold agriculture of region.

Rəyçi: fəxri professor Elxan Firat oğlu Kərimov
Kimya kafedrasının 22 noyabr 2022-ci il tarixli iclasın04 saylı protokolu
Daxil olma 26 noyabr 2022-ci il

AUOT:54.

AŞAĞI TEMPERATURLU EMAL ÜSULU İLƏ FINDIQ VƏ QOZ QABIĞLARININ QARIŞIĞINDAN SORBENTİN ALINMASI

dosent Məmmədova Rəna İsgəndər qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
maxmudrena1946@mail.ru

Xülasə: *Sorbent kimi fındıq və qoz qabığının qarışığı tədqiq edilmişdir. Sorbsiya səthini yaxşılaşdırmaq və artırmaq üçün yağsızlaşdırma və sonra bu qarışığın aşağı temperaturda su ilə təmizlənməsi mərhələləri təklif olunur. Sorbent əldə etmək üçün bir neçə mərhələni əhatə edən sxem təklif olunur. Qabıqların ilkin və delignifikasiya olunmuş qarışığının və alınmış sorbentin metilen mavisinə görə adsorbsiya aktivliyi müəyyən edilmişdir. Müəyyən edilmişdir ki, aşağı temperaturda emal qabıqların ilkin qarışığı ilə müqayisədə materialın adsorbsiya aktivliyini 4 dəfə artırmışdır. Bitki toxuması materialdakı məsamələrin sorbsiya səthinin sahəsinin artmasına kömək edir.*

Açar sözlər: sorbent, qabıq, fındıq, qoz, sorbent səthi, aktivlik, aktiv karbon, yağsızlaşdırma, karbon.

Key words: sorbent, shell, hazelnut, walnut, sorbent surface, activity, active carbon, deoiling, carbon.

Ключевые слова: сорбент, скорлупа, фундук, грецкий орех, сорбирующая поверхность, активность, активный уголь, обезмасливание, углерод.

Giriş

Bu günə qədər sorbentlərdən ağartma məhlulları, qazların təmizlənməsi, ağır metalların sorbsiyasında və digər məqsədlər üçün istifadə edilməsində zəngin təcrübə toplanmışdır. Qida və əczaçılıq sənayesində ənənəvi olaraq müxtəlif karbonlu xammallardan karbonlaşma və sonra qaz/buxar və ya kimyəvi reagentlərlə aktivləşdirmə yolu ilə əldə edilən aktivləşdirilmiş karbonlar ən çox istifadə olunur.

Aktivləşdirilmiş karbonlar alındıqdan sonra onların xassələri idarə oluna bilər, kömürün məhsuldarlığı və istismar xüsusiyyətlərinə xammalın təbiəti, aktivləşdirmə üsulu, prosesin şərtləri və müddəti təsir edir. Pirolizdən sonra buxarla aktivləşdirmə aşağı kül tərkibli və mikro gözenekli bir quruluşa malik məhsul verir; kimyəvi aktivləşdirmə mikro və mezoporlarla kömür istehsal edir, lakin bu, istifadə olunan reagentlərdən kömürün

təmizlənməsi xərclərini artırır [1]. Piroliz zamanı amorf karbonun ən az sıx təbəqələrinin yanması sorbent məhsuldarlığının azalmasına səbəb olur [2].

Sənaye əhəmiyyətli xammal üçün aktiv karbonlar ənənəvi olaraq yonqar, torf, bərk və qəhvəyi kömürlərdən istehsal olunur. Son illərdə qoz qabıqları [3], meyvə çuxurları [4] və taxıl bitkilərinin qabıqları [5] kimi digər təbii materiallardan istifadə etmək təklif edilmişdir.

Qoz qabıqları da piroliz yolu ilə sorbentlərin istehsalı üçün perspektivli xammal hesab olunur [6-9]. Nəticədə, qoz qabıqlarından yüksək temperaturda yandırılmaqla əldə edilən aktivləşdirilmiş karbonların əsasən kiçik molekulyar ölçülərə malik çirkləri sorb etmək lazım olan sənaye sahələrində istifadə edilməsi təklif olunur: məsələn, suyun təmizlənməsində. Ancaq bəzi sənayelər üçün, makroölçülülərlə xarakterizə olunan çirkləri sorb edə bilən daha spesifik sorbentlərə də ehtiyac var.

Bu işin məqsədi sorbent səthinin sahəsini və materialın strukturunda makro- və mezoporların nisbətini artırmağa imkan verən sorbent əldə etmək üçün dəyişdirilmiş bir üsul hazırlamaq idi.

Eksperimental hissə

Tədqiqatın obyekti fındıq və qoz istehsalının tullantıları olan fındıq və qoz qabıqlarının qarışığı olmuşdur [10]. Sorbent almaq üçün xammal kimi qabıq qarışığının kimyəvi tərkibinin təhlili dərman bitki materiallarının [11] və ağacın [12, 13] analizi üçün standart üsullara əsasən aparılmışdır.

Emalın birinci mərhələsində qabıqların qarışığı spirt-benzol qarışığı ilə yağdan təmizlənmişdir. Yağdan təmizləndikdən sonra bu qarışıq delignifikasiyaya məruz qaldı. Quruluşun mümkün qədər qorunub saxlanması üçün 140°C temperaturda və 4% natrium hidroksid məhlulu konsentrasiyasında delignifikasiya avtoklavda aparılmışdır.

Şəkil 1-də, bir neçə mərhələni əhatə edən sorbent əldə etmək üçün sxemi göstərir.



Şək. 1. Sorbentin alınma etapları

Aşağı temperaturda emaldan əvvəl qabıq qarışığı pH=7-yə qədər distillə edilmiş su ilə yuyulur, distillə edilmiş suda saxlanılır və -20÷-18°C temperaturda dondurma kamerasına qoyulur. Model qarışığı istənilən temperatura çatdıqdan sonra 22 saat saxlanmışdır. Növbəti addım dondurulmuş materialın 4 saat ərzində 140°C temperaturda qızdırılan sobaya köçürülməsi idi.

Qurudulmuş məhsul əzilmiş və fraksiyalaşdırılmışdır. Sorbsiya xüsusiyyətlərini qiymətləndirmək üçün hissəcik ölçüsü 0,5-0,8 mm (kütləvi sıxlıq 0,895 q/sm3) olan fraksiya seçilmişdir.

Orijinal və deligified qabıqların və hazır sorbentin məsaməlik strukturu skan edilmiş elektron mikroskop vasitəsilə öyrənilmişdir. Metilen mavisi üçün adsorbsiya aktivliyi GOST 4453-74 [14] uyğun olaraq müəyyən edilmişdir.

Nəticələr və müzakirə

Qabıqların qarışığı 140°C temperaturda su ilə müalicə olunur. Nəticədə piyəbənzər birləşmələrin bir hissəsi qarışıqdan yuyulur və müvafiq olaraq qabıqların qarışığının kimyəvi tərkibi dəyişir [15]. Qabıq qarışığının kimyəvi tərkibi cədvəl 1 verilmişdir. Cədvəl 1-dən göründüyü kimi, çıxarılan neftin miqdarı 0,6%-dən çox olmamışdır.

Cədvəl 1

Findıq və qoz qabığlarının qarışığının kimyəvi tərkibi

Component	Tərkib, %
Su	9,0
Kül (tam quru maddəyə görə)	0,5
Ekstraktiv maddələr (tam quru maddəyə görə)	3,4
Suda həll olunan və asan hidroliz olunan maddələr (tam quru maddəyə görə)	21,8 8,3
Yağ (tam quru maddəyə görə)	0,6

Aktiv karbonların istehsalı üçün ənənəvi üsullar, onların yandırıldığı karbonlaşma prosesinin nəticəsidir. Bu işdə sorbent əldə etmək üçün bu hadisəni azaltmaq üçün bir üsul seçilmişdir.

Qabıq qarışığının yağdan təmizlənməsi nəticəsində tərkibində neft fraksiyası olmayan material əldə edilmişdir. Spirt-benzol qarışığının istifadəsi bitki toxumasının polimer quruluşunun qorunmasına kömək etdi və qabıqların qarışığından liqninin daha səmərəli yuyulması üçün səthi açdı. Avtoklavda qələvi məhlulu ilə müalicə olunduqdan sonra qabıqların qarışığı kövrək bir material idi ki, bu da "sementləşdirmə" komponenti kimi çıxış edən liqninin bitki toxumasından qismən yuyulduğunu göstərir.

Məlumdur ki, su donduqda özünü anormal aparır, genişlənir. Məhz bu təsirə görə, qabıqların qarışığının toxumalarının hüceyrə divarlarının qismən qırılması səbəbindən materialın sorbsiya aktivliyinin artırılmasına əsaslanan bir texnika hazırlanmışdır.

Su ilə hopdurulma və deligified qabıqların yavaş dondurulması suyun kristallaşması ilə hüceyrə divarlarının çoxsaylı qırılmasına səbəb oldu. Sonrakı sürətli qızdırma hüceyrələrin buxarla əlavə boşalmasına kömək etdi və aşağı temperaturda nisbətən uzun müddət saxlanılması hazır sorbent əldə etməyə imkan verdi.

Son mərhələdə isə ilkin və deliqnifikasiya olunmuş qabıqların və alınan sorbentin metilen mavisinə görə adsorbsiya aktivliyi ölçüldü (şək. 2).



Şəkil 2. Adsorbsiya aktivliyinin (X) qabıqların qarışığının emal dərəcəsindən asılılığı: 1 – ilkin qabıq, 2 – delignifikasiya olunmuş qabıq, 3 - təklif olunan üsulla alınan sorbent

Əldə edilən məlumatlar, gözlənildiyi kimi, qabıqların qarışığını təşkil edən maddələrin artıq özbaşına müəyyən adsorbsiya aktivliyi nümayiş etdirdiyini göstərir. Shell deligification adsorbsiya fəaliyyətinin 3 dəfə artmasına kömək etdi. Sonuncu aşağı temperatur müalicəsi qabıqların ilkin qarışığı ilə müqayisədə materialın adsorbsiya aktivliyini 4 dəfə artırdı və qabıqların karbonlaşmış qarışığından aktiv karbonların səviyyəsinə yaxın olan metilen mavi aktivliyi olan sorbent verdi.

Nəticə

Beləliklə, aşağı temperaturla müalicə metodunun istifadəsi arzu olunan xüsusiyyətlərə malik sorbent istehsalı üçün perspektivlidir və müxtəlif məsamələri olan material əldə etməyə imkan verir.

Sorbentin eksperimental partiyasının adsorbsiya aktivliyinin əldə edilmiş dəyəri, şübhəsiz ki, piroliz yolu ilə əldə edilən sorbentin adsorbsiya aktivliyinə dair ədəbiyyat məlumatlarından aşağıdır (200-300 mq/q-a qədər), lakin bu göstərici əhəmiyyətli dərəcədə artırıla bilər. prosesin şərtlərini və müddətini dəyişir. Bundan əlavə, təklif olunan üsul hazır sorbentin daha yüksək məhsuldarlığı ilə xarakterizə olunur:76%-ə qarşı 32%-maksimum 59%

Alınan sorbentin performans xüsusiyyətlərinin daha dolğun qiymətləndirilməsi üçün metilen mavisindən daha yüksək molekulyar ağırlıqlı çirkləndiricinin ağlabatan seçimi tələb olunur ki, ona görə də əldə edilən sorbentin makroməsamələrinin sorbsiyasını standartlaşdırmaq mümkün olacaq, bunun üçün əlavə tədqiqatlar tələb olunur.

Ədəbiyyat

1. Габрук Н. Г., Олейникова И. И., Шутеева Т. А., Смальченко Д. Е. Получение, активация и модификация углеродного материала из скорлупы грецкого ореха // Региональные геосистемы. Ч.24, №7 (160), 2013, с.114-116.
2. Кельцев Н.В. Основы адсорбционной техники. – М.: Химия, 1984. – 592 с.
3. Шайхиев Ильдар Гильманович, Свергузова Светлана Васильевна, Шайхиева Карина Ильдаровна, Сапронова Жанна Ануаровна Использование скорлупы грецкого ореха (Juglans Regia) в качестве сорбционных материалов для удаления поллютантов из природных и сточных вод // химия растительного сырья. №2, 2020, с.5-18.
4. Нумонов Мухаммадражаб Адхамжон Угли, Курбанов Жахонгир Хамитович Изучение свойств адсорбента полученного из местных фруктовых косточек и деревьев // Universum: технические науки. №12-3 (69) 2019, с.15-17.
5. Сиволобова Н.О., Грачева Н.В., Жашуева К.А., Сикорская А.В. Адсорбционные

материалы на основе лузги подсолнечника // ИВД. №1 (44), 2017, с.5.
6. Везенцев А.И., Нгуен Хоай Тьяу, Габрук Н.Г., Олейникова И.И., Шутеева Т.А. Получение углеродсодержащих сорбционных материалов из вторичного растительного сырья // Региональные геосистемы. Ч.40, №18 (267), 2017, с.15-20.
7. А.В. Рудковский, О.Г. Парфенов, М.Л. Щипко* , Б.Н. Кузнецов. ТЕХНОЛОГИЯ КОМПЛЕКСНОЙ ПЕРЕРАБОТКИ КЕДРОВЫХ ОРЕХОВ // Химия растительного сырья. 2000. №1. С. 61–68.
8. Пат. 2154603 РФ. C01B31/08, C01B31/10.Способ получения активного угля / Т.Н. Поборон- чук, В.С. Петров, Л.П. Рубчевская (Россия). —№99102933/12; Заявлено 15.02.1999; Опубл.20.08.2000.
9. Темирханов Б.А., Султыгова З.Х., Арчакова Р.Д., Медова З.С-А. Синтез высокоэффективных сорбентов из скорлупы грецкого ореха // Сорбционные и хроматографические процессы. Т. 12 Вып. 6, 2012, с.1025-1032.
10. Салиева К.Т. Салиева З.Т. Боркоев Б.М. Перспективные методы сохранения качеств ядер ореха (Juglans Regia) при хранении// Журнал Успехи современного естествознания. № 12 , 2020, с. 55-61.
11. ГОСТ 24027.2-80. Сырьё лекарственное растительное. Методы определения влажности, содержания золы, экстрактивных и дубильных ве- ществ, эфирного масла. – М.: Изд-во стандартов, 1980, 12 с.
12. Оболенская А.В. Лабораторные работы по химии древесины и целлюлозы. А.В. Оболенская, З.П. Ельницкая, А.А. Леонович. М.: Экология, 1991, 320 с.
13. Фенгел Д. Древесина (химия, ультра- структура, реакции) / Д. Фенгел, Г.Вегенер. – М.: Лесная промышленность, 1988, 512 с.
14. ГОСТ 4453-74. Уголь активный осветляющий древесный порошкообразный. Технические условия. – М.: Изд-во стандартов, 1992, 32с.
15. Богаев А.В., Полетаева М.А., Черняева Е.С. СВОЙСТВА И ХАРАКТЕРИСТИКА СОРБЕНТОВ НА ОСНОВЕ СКОРЛУПЫ КЕДРОВОГО ОРЕХА // Ползуновский вестник, №3, 2015, с.117-119.

ПОЛУЧЕНИЕ СОРБЕНТА ИЗ СМЕСИ СКОРЛУП ФУНДУКА И ГРЕЦКОГО ОРЕХА МЕТОДОМ НИЗКОТЕМПЕРАТУРНОЙ ОБРАБОТКИ

доцент Мамедова Рена Искандер кызы

Резюме

Исследована в качестве сорбента смесь скорлуп фундука и грецкого ореха. Для улучшения и увеличения сорбирующей поверхности предположены этапы обезмасливания с последующей обработкой этой смеси водой при низких температурах. Предложена схема получения сорбента, включающая несколько стадий. Определена адсорбционная активность по метиленовому голубому исходной и делигнифицированной смеси скорлуп и полученного сорбента. Установлено, что низкотемпературная обработка повысила адсорбционную активность материала в 4 раза по сравнению с исходной смесью скорлуп. Растительная ткань способствует увеличению площади сорбирующей поверхности пор в материале.

OBTAINING A SORBENT FROM A MIXTURE OF HAZELNUT AND WALNUT SHELLS BY LOW-TEMPERATURE PROCESSING

associate professor Mammadova Rena Iskander

Summary

A mixture of hazelnut and walnut shells was studied as a sorbent. To improve and increase the sorption surface, the stages of de-oiling are proposed, followed by treatment of this mixture with water at low temperatures. A scheme for obtaining a sorbent is proposed, which includes several stages. The methylene blue adsorption activity of the original and delignified mixture of shells and the obtained sorbent was determined. It was found that low-temperature treatment increased the adsorption activity of the material by 4 times compared to the initial mixture of shells. Plant tissue contributes to an increase in the area of the sorbing surface of the pores in the material.

Rəyçi k.ü.f.,dos.Hüseynova M.A.
Məqalə kafedranın 14 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu
Daxil olduğu tarix 04 oktyabr 2022-ci il

UOT:54.

ABŞERON YARIMADASINDA YERLƏŞƏN NEFT MƏDƏN SULARININ ÇİRKLƏNMƏSİNİN QARŞISININ ALINMASI PROBLEMLƏRİNİN ÖYRƏNİLMƏSİ

dosent Cavadova Xədicə Aqil qızı, Kərimova Əzizə Əfqan
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Kaziza7888@gmail.com

Xülasə: *Məqalə Abşeron yarımadasında yerləşən neft mədən sularının çirklənməsinin qarşısının alınması problemlərinin öyrənilməsinə həsr olunmuşdur. Abşeronun neft-mədən çirkab suları əsasən lay sularından ibarət olub, çoxkomponentli kimyəvi mürəkkəb, polidispers və dəyişkən, yüksək neft və mexaniki qarışıqlı bir sistemdir. Çirkli suların bu və ya digər təmizləmə üsullarının seçilməsi konkret neft mədənində təmizlənmiş suların tərkibinə olan tələbləri ilə müəyyən edilir.*

Açar **sözlər:** Neftli su, çirklənmə, təmizləm
Ключевые слова: маслянистая вода, загрязнение, очищение.
Key words: oily water, contamination, purification

Giriş

Azərbaycan neft mədənlərində texniki su kimi əsasən dəniz suyundan istifadə edilir ki, bu da yüksək miqdarda sulfatlığı ilə fərqlənən cod sular tipinə aiddir.

Mədən çirkli sularında neft məhsullarının miqdarı 0,5-20 q/l həddində olur, asılı maddələrin miqdarı isə geniş diapazonda dəyişir. Mexaniki qarışıqların tərkibi müxtəlif minerallardan kvars qumu, gil və metal oksidlərinin hissəciklərindən və s. ibarətdir. Məlumdur ki, neft tərkibli suların təmizlənmə metodlarının seçilməsinə və təmizləyici qurğuların işinin səmərəliyinə çirkləndiricinin suda yayılması böyük təsir göstərir. Bu fiziki hal əsasən neft yatağının işlənmə üsulundan, quyu məhsulunun yığım, nəqlə hazırlanma texnoloji sxemindən, suayırıcı sistemindən və s. asılıdır.[1]

Bildiyimiz kimi neft sularının tərkibi çox müxtəlifdir. Bu salar ayri-ayrı kimyəvi maddələrin alınması üçün çox vacibdir.Bu mənada Abşeronda yerləşən neft-mədən suları da istisna deyildir.

Neft-mədən çirkab sularının təmizlənmə üsullarının seçilməsi əsasən onların xüsusiyyətlərindən və çirkləndiricilərin suda yayılmasından asılıdır.Abşeronun neft sularının müxtəlifliyini nəzərə alaraq kompleks emalı texnologiyasının işlənilməsi üçün tədqiqat obyekti kimi Binəqədi neft-qaz çıxarma idarəsinin (NQÇİ) neft suları daha böyük maraq doğurur. İlk növbədə bu onunla izah olunur ki, həmin NQÇİ-də yeraltı layların istilik emalı aparılır.

Digər tərəfdən bu NQÇİ Abşeronun sənaye zonasına yaxındır. Binəqədi NQÇİnin sularının ion tərkibi cədvəl 1-də verilmişdir [2]

Cədvəl 1.

Binəqədi NQÇİ-nin neft-mədən sularının ion tərkibi

Sıra №-si	Quyuların №-si	Suyun duzluluğu q/l	Ekvivalentlik					
			$Ca2+$	$Mg2+$	Na^{+}	Cl^{-}	SO_42-	HCO_3^{-}
1	2252	13,03	0,3	0,41	99,27	92,58	0,93	7,7
2	737	7,25	1,33	1,67	97,06	90,11	0,11	10,53
3	2040	14,92	0,3	1,26	98,64	92,1	1,6	6,2
4	2053	16,6	0,33	0,71	98,96	94,52	1,73	3,47
5	457	13,69	1,09	1,0	98,00	49,09	0,47	54,90
6	1907	8,28	2,0	1,82	96,15	92,09	0,06	7,2
7	2093	5,29	0,26	2,1	97,7	68,97	0,06	31,36
8	1772	2,75	0,8	1,33	97,4	46,92	0,08	53,33
9	1033	14,76	0,34	0,97	98,87	93,9	16,9	4,82
10	586	3,09	0,4	0,83	98,83	53,28	3,0	43,6
11	1154	2,4	2,27	2,11	95,67	64,05	5,08	31,07
12	1169	2,02	2,0	1,5	97,0	33,87	1,4	65,00

Məlumdur ki, neft və qaz ehtiyatlarının çıxarılması həmişə su ilə müşahidə olunur. Su neft yataqlarında həm neftlə eyni layda, həm də ayrı-ayrı laylarda ola bilər. Bəzən isə su məhsuldar laylarda yerləşir.

Azərbaycan neft mədənlərində texniki su kimi əsasən dəniz suyundan istifadə edilir ki,bu da yüksək miqdarda sulfatlığı ilə fərqlənən cod sular tipinə aiddir.

Mədən çirkli sularda neft məhsullarının miqdarı 0,5-20 q/l həddində olur. Neft-mədən sularının tərkibində müxtəlif duzların və qiymətli komponentlərin olması həmin suların minerallı xammal mənbəyi kimi tapılmasına gətipib çıxarır. Qiymətli komponentlər sırasında yod, brom və litium eyid edilir. Bu sahələrdə aparılmış bəzi tədqiqatlara nəzər salsaq görərik ki, neft sularında yodun qatılığı müxtəlif amillərdən asılı olaraq 1-100 mq/l həddində olur. [3]

Neft sularının əsas duz komponenti xörək duzudur. Ona görə də həmin sular məhz bu duzun sənaye miqyasında alınması baxımımdan böyük maraq doöurur.

Demək lazımdır ki,neft sularından duzların alınması texnologiyaları sənaye müəssisələrinin kimyəvi su təmizləmə qurğularının çirkab sularının emal texnologiyasına çox yaxındır.

Çirkab suların tərkibi əksər hallarda $NaCl$-$CaCl_2$-$MgCl_2$-H_20 sistemi ilə izah olunur. Bu emal texnologiyalar şəkildə verilmiş sxem üzrə aparılır.

Göründüyü kimi birinci (a) sxemində emal olunan su iki mərhələli qatılaşdırmaya uğradılır. Suyun ümumi duzluluğu ilkin qatılaşdırma mərhələsində təxminən 150-200q/l-dək artır. İkinci qatılaşdırma mərhələsində emal olunan məhlulun duzlulugu 400-450 q/l-dək çatdırılır. Nəticədə NaCl kristallarının əksər hissəsi çökür. Yaranan NaCl suspenziyası sentrafuqada emal olunur və kristallar məhluldan ayrılır. Beləliklə üç komponentli sistemdən yalnız biri ayrılır, digər komponentlər isə ($CaCl_2$,$MgCl_2$) istifadəyə yararsız halda atılır. İkinci sxemə (b) görə ilkin qatılaşdırma mərhələsindən sonra məhlul əhəngləşdirmə yolu ilə $Mg(OH)_2$çökdürülür. Sonuncu mərhələdə dərin qatılaşdırma hesabına birinci sxemdə olduğu kimi NaCl alınır.

Üçüncü sxemə (c) görə ilkin qatılaşdırma mərhələsindən sonra məhlulun sodalaşdırılması aparılır və $CaCO_3$alınır. Sonuncu mərhələdə NaCl kristalları $MgCl_2$ məhlulu alınır. Aparılan analizlərdən göründuyu kimi bu texnoloji sxemlərin əsas mənfi cəhəti odur ki, ərpin qarşısını almaq üçün hər bir tədbir nəzərdə utulmamışdır və ilkin qatılaşdırılma mərhələsində ancaq termiki üsuldan istifadə edilmişdir. Xəzər dənizi suyunun kompleks emalı üçün bir çox tədqiqatlar aparılmasına baxmayaraq yenə də problem həll olunmamış qalır.Bunun əsas səbəbi problemin mürəkkəbliyi ilə əlaqədardır.

$NaCl$ – $CaCl_2$ – $MgCl_2$ – H_2O sisteminin kompleks emalı üçün təklif edilmiş funksional sxemlər



Şəkil 1.

a) reagentsiz emal; b) əhəngləşdirmə üsulu; c) sodalaşdırma üsulu.

1-emal edilən su; 2-konsentratlaşdırma; 3-konsentrat; 4-NaCl-un kristallaşdırılması; 5- NaCl-un suspenziyası; 6-NaCl məhluldan ayrılması; 7-NaCl-un kristalları; 8-qalıq $CaCl_2$ + $MgCl_2$ məhlulu; 9-Mg çökdürülməsi; 10-$Ca(OH)_2$; 11-$Mg(OH)_2$; 12-neytrallaşdırma; 13-HCl; 14-$CaCl_2$ məhlulu; 15-kalsiumun çökdürülməsi; 16-Na_2CO_3; 17-$CaCO_3$; 18-$MgCl_2$ məhlulu.

Tədqiqatlar əsas texnologiyaların sadələşməsindən və xərclərin azaldılmasından ibarətdir. Bunu nəzərə alaraq dəniz suyunun kompleks emalı zamanı natrium duzlarının təmiz halda alınması məsələsi qəbul edilmişdir. Kompleks emal texnologiyası turşulaşdırılmış dəniz suyunun Cl anionlaşdırma üsulu ilə sulfat ionlarından təmizlənməsi prosesi işlənmişdir [4]. İlk əvvəl qalıq məhlulu dəniz suyu ilə qatılaşdırıldıqdan sonra anionit süzgəcində sulfat ionlarlndan təmizlənir sulfatlaşdırılmış su əks-osmos qurğusunda şirinləşdirilir. Qurğunun çıxışında şirinləşdirilmiş su ilə birlikdə qatılaşdırılmış konsentrat alınır. Həmin məhlulun qatılığı 400-500mq/l -ə çatdırılır. Nəticədə NaCl-$CaCl_2$-$MgCl_2$-H_2O sistemində həll olunma qabiliyyəti daha kiçik olan NaCl duzları kristallaşır və məhluldan ayrılır.

Qalıq məhlulun əhəngləşdirilməsi ilə $Mg(OH)_2$ çökdürülür.Gipsin alınması qalıq məhlulu ilə anionit süzgəcinin işlənmiş regenerasiya məhlulunun qarışması nəticəsində baş verir. Ən əvvəl $CaCl_2$ məhlulunun bir hissəsi çıxarılır. Bununla Ca+Mg=SO4 balansı əlavə edilir.[5]

Aparılan tədqiqatların nəticələrindən belə məlum olur ki, texnologiyanın sadələşdirilməsi zamanı maddələr qarışıq alınır. Sənayedə bu qarışıq ayrı-ayrı komponentlərə bölünə bilər. Cl-anionlaşdırma prosesinin bütün ionbübadilə proseslərində olduğu kimi iki texnoloji göstəricisi vardır: anionitin işçi mübadilə tutumi və sulfat ionlarının qalıq konsentrasiyaları. Sulfatlaşdırma prosesinin bu göstəricilər çıxış funksiyası hesab edilir. Suyun pH-ı,onun süzülmə sürəti,reqenerasiyanməhlulunun qatılığı,anionit təbəqəsinin hündürlüyü,anionitin markası.

Cl-anionit süzgəcinin fiziki modeli qurğunun əsas elementidir. Anionitlə doldurulmuş şüşə borudan ibarətdir. Anionit təbəqəsini hündürlüyü 72 sm, həcmi 360 sm təşkil edir. Proses düz və əks axınla aparılmıüdır. Tədqiqat dəniz suyunun aşağıdakı tərkibli məhlulu ilə aparılmışdır (mq-ekv/l), NaCl-140;Na_2SO_4-70; $NaHCO_3$-4.

Beləliklə, deyə bilərik ki, bu üsulla emal olunmuş suların neft emalı, neft- kimya və neft çıxarma sənayesində dövrü su təchizatı sistemində istifadə etmək olar.

Ədəbiyyat

1. K.M.Abdullayev, M.M.Ağamalıyev, R.H.Məmmədbəyova. “İstilik elektrik stansiyalarında kimyəvi su rejimləri” dərslik, Bakı, 2011, “Zaman -3”, 351 səh.

2. Нуриев А.Н. Микроэлементы нефтяных вод и возможности их комплексного извлечения. Издательство «Элм». Баку. – 1981. с. 148.Kərimov A.K.

3. Neft mədənlərində çirkli suların əmələ gəlməsi və onların xüsusiyyətləri, Azərbaycanın neft təsərrüfatı, №3. 2005. – s.50-63

4. Minerallı suların texniki su təchizatında istifadəsi yolları.I Beynəlxalq Kimya və Kimya mühəndisliyi konfransı.2013.Bakı,Azərbaycan.

5. Водоподготовка:Процессы и аппараты.Учеб.пособие для вузов А.А.Громогласов, А.С.Копылов, А.П.Пильщиков; под.ред. Щ.И.Мартыновой. Энергоатомиздат. 1990.-272с.

ИЗУЧЕНИЕ ПРОБЛЕМ ПРЕДОТВРАЩЕНИЯ ЗАГРЯЗНЕНИЯ ВОД НЕФТЯНЫХ ШАХТ, РАСПОЛОЖЕННЫХ НА АБШЕРОНСКОМ ПОЛУОСТРОВЕ

доцент Джавадова Хадижа Агил кызы, Каримова Азиза Афган кызы

Резюме

Статья посвящена изучению проблем предотвращения загрязнения вод нефтяных шахт, расположенных на Абшеронском полу острове. Сточные воды Апшеронского

нефтяного месторождения в основном состоят из пластовых вод, представляют собой многокомпонентную химически сложную, полидисперсную и неустойчивую, высоко нефтесодержащую и механически смешанную систему. Выбор того или иного способа очистки грязных вод определяется требованиями к составу очищаемой воды на конкретном месторождении.

STUDYING THE PROBLEMS OF PREVENTION OF OIL MINE WATER POLLUTION LOCATED ON THE ABSHERON PENINSULA

Javadova Khadija Agil, Karimova Aziza Afgan

Summary

The article is devoted to the study of the problems of preventing oil mine water pollution located on the Absheron Peninsula. Absheron's oil field wastewater mainly consists of reservoir water, it is a multi-component chemically complex, polydisperse and volatile system with high oil and mechanical mixing. The choice of one or another wastewater treatment method is determined by the requirements for the content of treated water in a specific oil field.

Rəyçi: K.ü.f.d. Abdullayeva K.S.
Məqalə kafedranın 14 sentyabr 2022 tarixli iclasın 01 saylı protokolu
Daxil olma tarixi 21 noyabr 2022 ci il

UOT:574.

SƏNAYE VƏ MƏİŞƏT TULLANTILARININ TEXNOLOJİ VƏ EKOLOJİ PROBEMLƏRİNİN ÖYRƏNİLMƏSİ

Dosent Cavadova Xədicə Aqil qızı, Müslümova Mədinə Mehman qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
mmslmova@bk.ru

Xülasə: *Dünya əhalisinin artımı, artan urbanizasiya və yüksələn həyat standartları bərk tullantıların istehsalının artmasına səbəb olmuşdur. Bərk tullantıların utilizasiyası bir çox ölkələr üçün çətin problemə çevrilir, belə demək olar ki, bərk tullantıların səmərəli təkrar emalı hazırda bərk məişət tullantılarının davamlı idarə olunması üçün qlobal problemdir. Bərk tullantıların utilizasiya vasitəsilə minimuma endirilməsi tullantıların miqdarının azalması yollarından biridir.*

Açar sözlər: urbanizasiya, ekoloji böhran, zərərli maddələr, zibilxanalar, kompost
Key words; urbanization, environmental crisis, harmful substances, landfills, compost
Ключевые слова: урбанизация, экологический кризис, вредные вещества, свалки, компост

Giriş

Ətraf mühitin mühafizəsi və təbii ehtiyyatların qorunması problemi dünya ictimaiyyətinin daim diqqət mərkəzindədir. Təbii ehtiyyatlar əhalinin sürətli artımı və kor-koranə istifadəsi ilə getdikcə azalır. Müasir dövrdə təbii ehtiyyatların böyük miqyasda istifadə olunması biosferin sənaye və məişət tullantıları, pestisidlər,kimyəvi maddələr və radioaktiv element birləşmələri ilə çirklənməsinə, ekoloji sistemlərin dayanıqlılığının pozulmasına, növlərin, o cümlədən, insanların kütləvi sürətdə qırılmasına səbəb olur. Müasir dövrün ekoloji problemlərindən biri olan tullantılar insanların müxtlif yerlərdə fəaliyyəti nəticəsində əmələ gəlir. Hazırkı dövrdə dünyada tullantıların miqdarı elə səviyyəyə çatmışdır ki, onun qarşısının

lınması mühüm ekoloji iqtisadi problemə çevrilmişdir. Bu problemlərdən biri məişət tullantılarının iqtisadi dövriyyəyə cəlb edilməsidir. Bu problem bərk məişət tullantılarının əhəmiyyətli bir hissəsinin təbii mühit faktorları tərəfindən təbii komponentlərə çevrilməyən, süni şəkildə istehsal olunan materiallar olması ilə bağlıdır./1/ Problemin mürəkkəbliyi ondan ibarətdir ki, yeni materialların istehsalı və hazırlanması, eləcə də istehlakı təkrar emal üçün texnologiyaların inkişafından üstündür.

Bərk tullantıların minimuma endirilməsindən əldə edilən ən ümumi iqtisadi faydalar xərclərdən qaçınmaq, təkrar emal gəlirləri, azaldılmış xammal xərcləri, azaldılmış enerji xərcləridir. Bildiyimiz kimi, qlobal ekoloji böhranın inkişafının əsas səbəblərindən biri ətraf mühitə daxil olan, toplanan, oksidləşən, çürüyən və təhlükəli hala gələn bərk məişət tullantılarının həcminin artmasıdır. Hal-hazırda bərk məişət tullantılarının formalaşması, toplanması, utilizasiyası, idarə edilməsi problemi aktual olub, sistemli tədqiqat və təhlilə məruz qalır. Bərk məişət tullantılarının idarə edilməsi həcmi, tərkibi, strukturu və tənzimləmə xüsusiyyətlərinə görə sənaye tullantılarının idarə edilməsi sahəsindən əsaslı şəkildə fərqlənən ən sosial əhəmiyyətli problemdir.

Bərk məişət tullantıları sənaye tullantıları ilə birlikdə şəhərlərdə və ona bitişik ərazilərdə ətraf mühitin çirklənməsinin əsas mənbələrindən biridir. Bu, bir tərəfdən tullantıların tərkibində kimyəvi maddələrin, o cümlədən zəhərli maddələrin yüksək olması, digər tərəfdən isə yaranan tullantıların müxtəlifliyi və böyük həcmdə olması ilə bağlıdır. Əksər zibilxanaların yeri, təşkili və istismar şəraiti normativ tələblərə cavab vermir ki, bu da həmin obyektlərin ekoloji təhlükəsini artırır./2/.

Tədqiqatın obyekti bərk məişət tullantılarının idarə edilməsi sferasının təşkilidir. Burada, yığılmış bərk məişət tullantılarının həcminin illik artımı və onların tərkibinin mürəkkəbləşməsi, uzun müddət təhlükəli xassələrini saxlaya bilən mürəkkəb polimerlər əsasında yeni qablaşdırma materiallarının yaranması qeyd edilir.Tullantıların idarə olunmasının təşkili sahəsində yerli və xarici təcrübənin nəzərdən keçirilməsinə əsasən belə qənaətə gəlinmişdir ki, onların ardıcıl şəkildə həllinə nail olmaq mümkündür. /3,4/

Üzvi maddələrin parçalanması mexaniki məhvetmə, biokimyəvi çevrilmə və üzvi komponentlərin kimyəvi parçalanması proseslərini əhatə edir. Çürümə sürəti üzvi maddələrin keyfiyyət tərkibindən, canlı orqanizmlərin fəaliyyətindən və ətraf mühit şəraitindən asılıdır və yarımparçalanma müddəti bir neçə gündən bir neçə ilə qədər qiymətləndirilir/5/.

Torpaqda üzvi maddələrin parçalanması kimyəvi elementlərin torpaq məhluluna keçməsi ilə müşayiət olunmalıdır. Üzvi gübrələrin torpaqla qarşılıqlı əlaqəsi prosesində elementlərin mobil formalarının konsentrasiyasının dəyişməsi minerallaşma sürətindən asılı olmalıdır. Üzvi tullantıların parçalanması zamanı torpaqda elementlərin mobil formalarının konsentrasiyalarının ikiqat artması minerallaşma sürətinin dolayı göstəricisi hesab edilə bilər.

Aparılan təcrübədə torpağın turşuluğunun dinamikası və mobil Ca^{+2} birləşmələrinin tərkibi üç vegetasiya dövründə müşahidə edilmişdir. Kompostların zərərsizləşdirmə qabiliyyəti əhəngin təsiri ilə müqayisə edilmişdir. Müəyyən edilmişdir ki, əhəng və kompostların torpağın reaksiyasına ən güclü təsiri onların torpağa daxil olmasından sonra ilk 20-50 gündə özünü göstərir .

Torpaq məhlulunda hidrogen ionlarının aktivliyi pH dəyərlərindən hesablanmışdır. H* aktivliyinin zamanla dəyişməsi eksponensial asılılıqdan asılıdır.

Hidrogen ionlarının aktivliyinin 2 dəfə azalması vaxtı (gün) T = 0,693't.

732 gün ərzində 1-dən 5-ə qədər olan opsionlarda T-nin dəyəri: 17.2; 6.9; 6.9; müvafiq olaraq 7.7 və 26 gün (cədvəl1). Nəticə etibarı ilə, kompostlar daxil edildikdə (2-4 variantları) torpaqda H^+ ionlarının aktivliyi əhəngdaşı unun təsiri altında olduğundan 2,2-2,5 dəfə tez azalır.

Cədvəl 3.2

Torpaqda H^+-nin aktivliyinin dəyişməsi üçün modellərin parametrləri
(q - qiymətləndirmə funksiyasının düzgünlüyünü göstərən əmsaldır)

Parametr-lər	Variant				
	Nəzarət	Təzə kompost	Birillik Kompost	Bioyanacaq	Kanalizassiya lilindən Kompost
T, günlər	17,2+0,3	6,9±1,0	6,9+0,6	7,7±0,8	26±7
q	0.96	0.99	0.99	0,99	0,88

H^+ aktivliyinin 2 dəfə azalması vaxtı ən labil formalar üçün xarakterik olan torpaq, üzvi maddələrinin yarı ömrünün ən kiçik qiymətləri ilə üst-üstə düşür. Əhəng gübrələrinin

Cədvəl 2

Variant	Günlər, Ca^{2+} ,mq-ekv/ l								
	0	100	200	300	400	500	600	700	800
Əhəng	27	30	40	37	35	38	36	34	32
Təzə kompost	30	48	52	49	45	43	42	40	39
Birillik kompost	42	48	47	46	44	43	45	46	47
Bioyanacaq	40	52	50	47	42	42	42	41	40
Kanalizasiya lildən kompost	25	42	37	34	27	27	29	31	32

zərərsizləşdirmə qabiliyyəti onların kimyəvi tərkibi, kütlə sıxlığı, üyüdülmənin incəliyi ilə müəyyən edilən aktivliyindən asılıdır.

Alınan nəticələrdən belə çıxır ki, bərk tullantı kompostu uzun müddət zərərsizləşdirmə qabiliyyətinə malikdir. Turşulu çəmən-podzolik torpaqlarda üzvi gübrə kimi kompostun istifadəsi əhəngləməyə bərabərdir.

Tədqiqatlar göstərdi ki, gübrələrin torpağa daxil edilməsindən 28 gün sonra 1-dən 5-ə qədər variantda dəyişdirilə bilən kalsiumun konsentrasiyası 1,3; 1.5; 2.1; Təcrübənin bütün variantlarında dəyişdirilə bilən Ca^{+2} tərkibi meliorantların torpaqla qarşılıqlı təsirinin 109-cu gününə qədər mütənasib olaraq artır. Konsentrasiya əyriləri maksimumdan keçir və yavaş-yavaş azalır.

Zamanla torpaqda Ca^{+2}konsentrasiyasının dəyişməsi.

Tədqiqat zamanı bir sıra məişət tullantılarının idarə edilməsi sahəsində davamlı inkişaf strategiyasını həyata keçirən prinsiplər məsələn məişət tullantılarının əmələ gəlməsinin

minimuma endirilməsi; ekoloji cəhətdən səmərəli məişət tullantılarının idarə edilməsi; ətraf mühitə çirkləndiricilərin emissiyasının azaldılması; məişət tullantılarının qiymətli komponentlərinin və xassələrinin istifadəsi işlənib hazırlanmışdır.

Aparılan tədqiqatlar təkrar emal edilmiş məişət tullantılarının gübrələmə xüsusiyyətləri haqqında məlumatları təsdiqləyir.

Ədəbiyyat

1. Abbasov V.M., Əliyeva R.Ə., Səlimova N.Ə., Abbasov M.M., Babayev Ə.İ., Ekoloji kimyaya giriş, Bakı 2003, səh 141-145.
2.Клинков А.С., Утилизация и переработка твердых бытовых отходов, учебник, ТГТУ – 2015.-187с.
3. Анопченко, Т.Ю. Зарубежный опытуправления в сфере твердых бытовых отходов /Т.Ю. Анопченко, С.А. Кирсанов, М.А. Чернышев // Российский Академический журнал. – 2014, с. 8-14.
4. Managing municipal solid waste – a review of achievements in 32 European countries // EEA Report: Luxembourg: Publications Office of the European Union. -№ 2. -2013, с. 49-54.
5.Слюсарь, Н. Н, Д. Л. Борисов, В. Н. Григорьев, Вестник ПНИПУ. Урбанистика, 2011, с. 75-82.

ИЗУЧЕНИЕ ТЕХНОЛОГИЧЕСКИХ И ЭКОЛОГИЧЕСКИХ ПРОБЛЕМ ПРОМЫШЛЕННЫХ И БЫТОВЫХ ОТХОДОВ

доцент Джавадова Хадижа Aqil, Муслимова Медина Мехман

Резюме

Рост населения мира, усиление урбанизации и повышение уровня жизни привели к увеличению образования твердых отходов. Утилизация твердых отходов становится сложной проблемой для многих стран, поэтому можно сказать, что эффективная переработка твердых отходов в настоящее время является глобальной проблемой устойчивого управления твердыми отходами. Сведение к минимуму твердых отходов за счет утилизации является одним из способов сокращения отходов.

STUDY OF TECHNOLOGICAL AND ECOLOGICAL PROBLEMS OF INDUSTRIAL AND HOUSEHOLD WASTE

associate professor. Javadova Khadija Aqil, Muslimova Medina Mehman

Summary

World population growth, increasing urbanization and rising living standards have led to an increase in solid waste production. Solid waste disposal is becoming a difficult problem for many countries, so it can be said that efficient recycling of solid waste is now a global challenge for sustainable solid waste management. Minimizing solid waste through disposal is one way to reduce waste**.**

Rəyçi k.ü.f.d Abdullayeva Kəmalə
Məqalə kafedranın 14.09.22 tarixli 1 saylı protokolundan keçmişdir.
Daxil olma tarixi 16 sentyabr

BİOLOGİYA VƏ AQRAR ELMLƏRİ

UOT: 59.

BARAMA SARIMA DÖVRÜNDƏ TUT İPƏKQURDUNUN YEMLƏNDİRİLMƏSİ VƏ SAXLANMASININ MƏHSULDARLIĞA TƏSİRİ

Şeyxzamanlı Arifə Bahəddin qızı, Babarabova Esmira Seyfulla qızı
Gəncə Dövlət Universiteti
aynuriw@mail.ru

Xülasə*:* *Məqalədə tut ipəkqurdunun məhsuldarlığına və saxlanma qaydalarının təsirindən söhbət gedir.*

Qeyd edilir ki, tut ipəkqurdunun yemləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Belə ki, tam yetişməmiş qurdlar seçilməli və əlavə yemləndirilməlidir. Saxlama temperaturu 2-3 dərəcə artırılmalı, rütubət 5-10 % aşağı düşməli, gecələr 2-3 dəfə yem verilməlidir.

Bu qaydada yemləndirən, saxlanan qurdlarda fizioloji proseslər güclənir, onlar tez böyüyür və inkişaf edir, bu da məhsuldarlığa müsbət təsir edir.

Açar sözlər: tut, ipəkqurdu, barama, ipək
Ключевые слова: тутовый шелкопряд, кокон, шелк
Keywords: mulberry, silkworm, cocoon, silk

Məhsulun keyfiyyəti barama sarıma dövründə qurdlara edilən qulluqdan və şəraitdən çox asılıdır.

Yemləməni başa vurmuş qurdlar yem qəbul etmir, bir qədər sarımtıl kəhraba rənginə keçərək barama sarımaq üçün münasib yer axtarır.

Bu zaman həmin qurdlar başını qaldıraraq yanlara fırlayır, sanki nəsə axtarır. Bu əlamət qurdun barama sarımaq üçün artıq tamamilə yetişdiyini bildirir. Məhz bu vaxtı həmin qurdların üzərinə şax qoyulmalıdır.

Bunun üçün əvvəlcədən yığılıb kölgədə qurudulmuş tülpək və sarı çiçək otlarından, habelə xüsusi sintetik materiallardan istifadə edilir. Hər qutu qurd üçün 200-300 dəstə ot şaxı qoyulur. Yemləmədə olan qurdların hamısı eyni vaxtda şaxa çıxmır, buna görə də geri qalan qurdlar şax qoyulmuş tərəcələrdən seçilib ayrıca yemləndirilir və yetişdikcə üzərlərinə şax qoyulur. Belə etdikdə ayrı-ayrı tərəcələr üzrə barama eyni vaxtda sarınır və eyni vaxtda yığılır ki, bu da onun keyfiyyətini xeyli yaxşılaşdırır. Barama sarıma dövründə kümxanada istilik 23-24 dərəcə, nəmlik 60-70 faiz olmalıdır və havası müntəzəm olaraq dəyişdirilməlidir, bu barama pərdəsinin içərisindəki qurdun normal tənəffüsü və bədənində olan ipəyin hamısını qırılmadan sarıması üçün çox vacibdir.

Bəzi təcrübəsiz kümçülər yemləmədə bir neçə yetişmiş qurd gördükdə bütün qurdları şaxlayıb, yemləməni dayandırırlar. Beləliklə hələ yemləməni başa vurmamış qurdlar ac qalır və bir neçə gün sısqalaşdıqdan sonra xırda barama sarımağa məcbur olur, bu da öz növbəsində məhsuldarlığı azaldır, həm də müxtəlif vaxtlarda sarınmış baramaların eyni vaxtda yığılması onların keyfiyyətini pisləşdirir. Ona görə də qurdlar yetişdikcə şaxlanmalı və inkişafca geri qalanları isə mütləq seçilib yetişənə qədər 2-3 gün yemləndikdən sonra şaxlanmalıdır.

İpəkqurdu yemləmələrinin əsas aqrozootexniki qaydaları ilə yanaşı olaraq, alimlər və təcrübəli kümçülər tərəfindən daha mütərəqqi və səmərəli yemləmə qaydaları və onların ayrı-ayrı məsələləri hazırlanıb tövsiyə edilir və onların haqqında qısa da olsa məlumat verilir.

Bu mütərəqqi yemləmə qaydaları adi qaydada tələb edildiyindən daha artıq diqqət və zəhmət tələb etdiyi kimi, bir o qədər də əlavə səmərə verir. Məhz, bunu nəzərə alaraq,

yemləmənin daha tez başa çatmasını təmin edən və məhsuldarlığı yüksəldən, sürətli yemləmə qaydası işlənmişdir.

Sürətli yemləmə qaydasında qurdlar bütün yaşlarında, adi qaydada olduğundan 2-3 dərəcə yüksək temperaturada saxlanmaqla, rütubət 5-10 faiz aşağı endirilir və yemləmələrin sutkalıq sayı 1-2 yem artırılmaqla, gecələr də 2-3 dəfə yem verilir.

Bu qayda ilə yemləndirilən qurdlarda fizioloji proseslər daha sürətlə getdiyindən, onlar tez böyüyür və ikişaf edir. Bunu nəzərə alaraq, kümxananın havasını hər 2-3 saatdan bir, xüsusilə beşinci yaşda və barama sarıma dövründə, dəyişdirmək tələb olunur.

İpəkqurdlarının yemləndirilməsinin ən mütərəqqi və səmərəli qaydalarından biri ictimailəşmiş yemləmələrdir. İctimailəşmiş yemləmələr, yəni ipəkqurdlarının birinci 2-3 yaşlarında isidilmiş ümumi binada yemləndirilib, sonra kümçülərə paylanması barama istehsalının artırılmasında və onun maya dəyərinin ucuzlaşdırılmasında, xüsusilə ipəkçiliyin sənaye təməli üzərinə keçirilməsində olduqca böyük əhəmiyyət kəsb edir. Bu üsul az əmək və vəsait sərf etməklə 20-30 qutu qurdun bir binada, özü də düzgün aqrozootexniki qaydada üçüncü yaşın axırına qədər yemləndirilməsini təmin edir. Burada binanı isitmək üçün yanacağa, xüsusilə işçi qüvvəsinə qənaət edilir, aqrotexniki nəzarət artır, ən başlıcası da odur ki, çox zəhmət tələb edən yemləmə prosesinin mexanikləşdirilməsinə imkan yaranır və məhsulun maya dəyəri aşağı düşür. Yemləməni bu cür təşkil etdikdə birinci üç yaşda 1 qutu qurdu adi qayda ilə yemləyərkən tələb olunan 11-12 işçi gününə qarşı 3 işçi günü kifayət edir. Bu üsulu tam həyata keçirmiş Özbəkistan Respublikasının Əndican vilayətinin ipəkçiləri hər qutudan barama istehsalını 25-26 kq artıraraq 75-80 kq-a çatdırılmış və vilayət üzrə ipəkçilikdən ümumi pul gəlirini 2-3 dəfə artırmışlar. İqtisadi hesablamalar göstərir ki, qurdları bu qayda ilə yemlədikdə adi yemləməyə nisbətən hər qutudan əlavə olaraq 100-120 manat xalis gəlir götürmək olur.

Tut ipəkqurdlarının, İpəkçilik İnstitutunun tövsiyə etdiyi sortdəyişmə qaydasında yemləndirilməsi, yəni onların birinci üç yaşda erkən yarpaq verən Azəri-tut, Zakir-tut sortlarının yarpaqları ilə, dördüncü-beşinci yaşlarında isə nisbətən gec və yüksək qidalı yarpaq verən Zərif-tut, Xanlar-tut kimi sortların yarpaqları ilə yemləndirilməsi geniş tətbiq edilir. Qurdları bu qayda ilə yemlədikdə yemləmə müddəti iki gün qısalır və yemləmə üçün sərf edilmiş yarpağın hər tonundan barama məhsulu 20-25 faiz artır, beləliklə heç bir əlavə xərc çəkmədən hər qutu barama qurdundan pul gəliri 100-120 manat artmış olur.

Müəyyən edilmişdir ki, tut yarpağı inkişaf etdikcə, yəni yarpaq, belə demək mümkünsə, yaşa dolduqca onun qidalılığı dəyişir. Buna görə tut ağaclarında yarpağın inkişafından asılı olaraq, ipəkqurdunun yaz yemləmələrinin başlanması vaxtı barama məhsuldarlığına və keyfiyyətinə təsir edən əsas amillərdən biridir. Bu məsələnin öyrənilməsinə dair təcrübə aparmış tədqiqatçıların demək olar ki, hamısı yemləmənin nisbətən tez başlanmasını məsləhət görür. Çoxlu tədqiqatlar nəticəsində sübut edilmişdir ki, tut yarpağı əmələ gələndən 30-40 gün keçdikdən sonra onun tərkibindəki bütün qida maddələri - zülallar, yağlar, vitaminlər, DNT, RNT və su - kəskin surətdə azalır. Ona görə də yaz yemləmələrini elə başlamaq lazımdır ki, qurdun ən çox yarpaq tələb etdiyi beşinci yaş dövrü yerli tut sortlarında yarpaq məhsulunun maksimum toplanması və onun tam fizioloji yetkinlik, yəni yüksək qidalılıq dövrünə düşsün. Bunu isə praktiki olaraq ağaclarda 3-5 yarpağın kütləvi əmələ gəldiyi vaxt yemləməni başlamaqla etmək olar.Yemləməni həmin vaxtdan 10 gün sonra başladıqda məhsuldarlıq orta hesabla 11 faiz azalır və baramanın keyfiyyəti pisləşir.

Yemləmənin optimal vaxtdan gecikdirilməsinin hər bir günü məhsuldarlığı əvvəlki günə nisbətən ən azı bir faiz azaldır.

Müxtəlif işıq şüalarının tut ipəkqurdunun inkubasiyasına, yemlənməsinə və barama sarımasına müsbət təsiri öyrənilmiş və müəyyən edilmişdir ki, başqa rəngli bütün işıqlardan

fərqli olaraq inkubasiyası sarı işıqda aparılan qrenadan qurdların dirilməsi yüksək olmuşdur. Belə qurdlar yemi bərabər qəbul edir, yatıb durmaları eyni vaxtda olur, barama sarımaları kütləvi xarakter daşıyır və yem itkisinin də qarşısı alınır. Sarı işıq şəraitində yemləndirilən qurdların yemləmə müddəti adi yemləmələrə nisbətən 3 gün tez başa çatır, yaşama qabiliyyəti yüksəlir və barama kütləsinin artması hesabına hər qutudan məhsuldarlıq orta hesabla 10%-ə qədər çoxalır.

Barama məhsuldarlığının yüksəlməsi və keyfiyyətinin yaxşılaşması hesabına sarı işıqda aparılan yemləmələrin baramasından ümumi ipək çıxımı adi yemləmələrin məhsulundan alınan ipək çıxımına nisbətən 15% artıq olur. Sarı işıq ipəkqurdunun qrenaj göstəricilərinə də müsbət təsir göstərir.

Buna görə də kümxanalarda adi lampa əvəzinə sarı rəngə boyanmış lampalardan istifadə edilməlidir.

Barama məhsuldarlığını artırmaq məqsədilə ipəkqurdu yemləmələrində tətbiq olunan əsas qaydalardan tut yarpağının yemlik keyfiyyətinin müxtəlif stimuləedici maddələrlə zənginləşdirilməsidir. Bu məqsədlə müxtəlif kimyəvi birləşmələrdən və bioloji aktiv maddələrdən istifadə edilir, yəni həmin maddələrin müxtəlif kəsafətli məhlulu tut yarpağına çilənir və qurda yedizdirilir. Bu zaman həmin maddələrin ya özləri qurd tərəfindən mənimsənilir və yaxud da onlar yarpağın tərkibində olan qida maddələrinin (xüsusilə zülal birləşmələrinin) qurd tərəfindən mənimsənilməsini yüksəldir, bu da öz növbəsində ipək istehsalını artırır.

Müəyyən eidlmişdir ki, tut yarpağını mikroelementlərin (mis kuporosu və bor turşusu müvafiq olaraq 1:10000+1:5000) 1:1 nisbətində məhlulu ilə çiləyib qurda yedizdirdikdə yemin həzm olunması sürətlənir və nəticədə barama məhsulu 9,7 % və ipək çıxımı 6,7 % çoxalır.

Mikroelementlərdən selenin də yemləmələrdə tətbiqi yaxşı nəticə verir. Bu məqsədlə qurdlara birinci yaşın ikinci günü 8 və yaxud 12 mkq % natrium selenit məhlulu ilə çilənmiş tut yarpağı verilir. Nəticədə onların yaşama qabiliyyəti yüksəlir, sarıdıqları baramaların orta kütləsi artır və hər qutudan 4 kq-a qədər artıq barama məhsulu götürülür. Tut ipəkqurdu yemləmələrinin məhsuldarlığını artırmaq məqsədilə tətbiq olunan aqrotexniki tədbirlərdən biri də qurdların xlorella ilə yemləndirilməsidir. Müəyyən edilmişdir ki, xlorella əlavə edilmiş tut yarpağı ilə yemləndirilən qurdların bioloji göstəriciləri yaxşılaşır və barama məhsuldarlığı adi yemləmələrə nisbətən 15-20 faiz yüksəlir. Bunun üçün qurdların üçüncü yaşından başlayaraq onlara verilən yemin hər kiloqramına 200 ml xlorella suspenziyası (bir millilitrində 150-250 mln nüvə olan sıxlıqda) çilənir. Bu tədbir yarpağı zülal birləşmələri ilə zənginləşdirir və qidalılığını artırır.

Bunlardan başqa müxtəlif bioloji aktiv maddələrin zülal birləşmələrinin, vitaminlərin, fermentlərin və s. tut yarpağına əlavə edilməsi yolu ilə yemin tərkibi zənginləşdirilir və məhsuldarlıq yüksəldilir.

Ədəbiyyat

1.С.Салимджанов «Качество листья шелковицы-один из путей повышения эффективности шелководства». Душанбе. 2011 г.

2.Тихомиров А.В.Основы практического шелководства. «Государственное издательство сельскохозяйственной науки».

3. Акитушкиы И. Мир животных. Наикомые. Москва. Мысль. 1993 г.

КОРМЛЕНИЕ И УХОД ЗА ТУТОВЫМ ШЕЛКОПРЯДОМ В ПЕРИОД КОКОНОЗАВИВКИ

Шейхзаманлы Арифа Бахадиновна, Бабарабова Есмира Сейфулла кызы

Резюме

В статье говорится о влиянии кормления и условий содержания тутового шелкопряда на его продуктивность.

Отмечается, что на кормление тутового шелкопряда нужно уделить особое внимание.

Бывают случаи, когда некоторые гусеницы отстают в созревании. Надо их отделить и дополнительно выкормливать.

Увеличение температуры на 2-3°, уменьшение влажности на 5-10 %, кормление в ночное время 3-4 раза ускоряет физиологические процессы в организме, они быстро растут и развиваются и это положительно влияет на продуктивность тутового шелкопряда.

MULBERRY SILKWORM DURING COCOONING EFFECTS OF FEEDING AND STORAGE ON PRODUCTIVITY

Шейхзаманлы Арифа Бахадиновна, Бабарабова Есмира Сейфулла кызы

Summary

The article discusses the effect of mulberry silkworm productivity and storage conditions.

It is noted that special attention should be paid to feeding the mulberry silkworm. So, immature worms should be selected and fed additionally. Storage temperature should be increased by 2-3 degrees, humidity should be reduced by 5-10%, feed should be given 2-3 times at night.

Physiological processes are strengthened in worms fed and stored in this manner, they grow and develop quickly, which has a positive effect on productivity.

Rəyçi: dos.T.V.Rüstəmova
Anatomiya, fiziologiya və zoologiya 12 dekabr 2022-ci il tarixli iclasın 08 saylı protokolu
Daxil olma tarixi 21 dekabr 2022-ci il

UOT: 631:634.8.

AĞ XƏLİLİ VƏ PRİMA SÜFRƏ ÜZÜM SORTLARININ BİOMORFOLOJİ XÜSUSİYYƏTLƏRİNİN MÜQAİSƏLİ TƏDQİQİ

dosent Ələkbərova Məhsəti Mikayıl qızı, Səfərova Nailə Şirin qızı
Azərbaycan Dövlət Aqrar Universiteti
Alekberova_1979@mail.ru

Xülasə: *Süfrə üzümü beynəlxalq təyinetmələrə görə təzə halda yeyilməsi nəzərdə tutulan və bu məqsədlə xüsusi becərilmiş üzüm sortlarıdır. Respublikamızda da xalqımız tarixi inkişaf prosesində xalq seleksiyası yolu ilə yüzlərlə qiymətli yerli üzüm sortları yaradaraq yerli genofond formalaşdırıblar. Öyrənilən intraduksiya olunmuş Prima və aborigen sortumuz olan Ağ Xəlili sortları da süfrə istiqamətli üzüm sortlarına qoyulan tələbata tam cavab verdiyi üçün tədqiqat obyekti olaraq seçilmişdir.*

Tədqiq edilən süfrə istiqamətli üzüm sortlarının biomorfoloji xüsusiyyətlərini öyrənən zaman hər bir sortu xarakterizə edən, üzümün əsas orqanları olan, zoğun, yarpağının, çiçəyin, salxımın, gilənin, toxumun quruluşu, ölçüsü, rəngi vəs. *morfoloji əlamətləri öyrənilir.*

Açar sözlər: adaptasiya, intradukdiya, botaniki təsvir, zoğ, biomorfoloji

Ключевые слова: адаптация, интрадукция, ботаническое описание, побег, биоморфология

Keywords: adaptation, introduction, botanical description, shoot, biomorphology

Azərbaycan Respublikasında üzümçülük aqrar-sənaye sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Üzüm digər kənd təsərrüfatı məhsulları arasında hər 100 hektar torpaq sahəsi üzrə yeni yaradılan iş yerlərinin sayına və ümumi məhsul buraxılışına görə ən yüksək göstəriciyə malik olan bitkilərdən biridir. Bununla belə, üzümçülük kənd təsərrüfatı istehsalının ən çox kapital tələb edən sahəsidir. Bu səbəbdən də dünyanın üzüm becərən bütün rayonlarında sort tərkibini zənginləşdirmək üçün introduksiyadan geniş istifadə olunur. Ona görə də dünya ölkələrində özünü doğrultmuş sortların respublikamıza introduksiya edilməsi aktual problemlərdən biridir.

Süfrə üzümü beynəlxalq təyinetmələrə görə təzə halda yeyilməsi nəzərdə tutulan və bu məqsədlə xüsusi becərilmiş üzüm sortlarıdır. Respublikamızda da xalqımız tarixi inkişaf prosesində xalq seleksiyası yolu ilə yüzlərlə qiymətli yerli üzüm sortları yaradaraq yerli genofond formalaşdırıblar. Tədqiq etdiyimiz Ağ Xəlili sortu da tez yetişən qiymətli yerli sortlarımızdandır. Ümumiyyətlə, öyrənilən Prima və Ağ Xəlili sortları süfrə istiqamətli üzüm sortlarına qoyulan tələbata tam cavab verir və tez yetişən sortlar olaraq şirin konveyerin təşkilində istifadə edilir.

Süfrə üzümçülüyündə şirin konveyer ifadəsi ilk dəfə professor F.H.Şərifov tərəfindən işlədilmişdir. Bu başqa sözlə «üzüm konveyeri» adlanır. Bu məvhum öz mənasına görə il boyu əhalinin təzə üzümlə fasiləsiz olaraq təmin olunması deməkdir.

Tədqiqat işində öyrənilən sortlar Vitis L. cinsinin mədəni üzüm (*Vitis vinifera sativa*) növünə daxildirlər. Belə ki, Ağ Xəlili *convar orientalis subcon. antasiatica* Negr. Prima sortu isə Qərbi Avropa sortları (*convar osgidentalis* Neqr,) qrupuna mənsubdur.

Tədqiq edilən süfrə istiqamətli üzüm sortlarının biomorfoloji xüsusiyyətlərinin öyrənən zaman hər bir sortu xarakterizə edən, üzümün əsas orqanları olan, zoğun, yarpağının, çiçəyin, salxımın, gilənin, toxumun quruluşu, ölçüsü, rəngi və s. morfoloji əlamətləri tədqiq edilir.Mənşə və inkişafetmə xüsusiyyətlərindən asılı olaraq üzüm sortları daxil olduğu cinsin, növün, ekoloji-coğrafi qrupun əlamətlərini özündə daşıyırlar.

Prima sortu. Fransanın Milli Aqronomik Tədqiqatlar İnstitutunda (İNRA) Lival və Kardinal sortlarının çarpazlaşdırılmasından alınmışdır.

Yaşıl zöglar. Yaşıl və birillik zoğun botaniki təsviri sortun əsas əlamət göstəricilərindəndir. Belə ki, zoğlar yeni böyüyən vaxtı (10-20 sm olarkən) ekoloji-coğrafi qruplara, eləcə də sortlara məxsus rəng əmələ gəlir.

Yarpaq. Üzüm bitkisində yarpaq başlıca orqandır. Yarpağın morfoloji xüsusiyyətlərinə görə sortu təyin etmək olar. Tədqiq etdiyimiz Prima sortunun yarpaqları orta və iri ölçüdə (uzunluğu 15-22 sm, eni 15-21sm) olub, girdə formalı və 5 dilimlidir. Çiçəyi ikicinslidir.

Salxım. Tədqiq etdiyimiz sortun salxımları orta və iri ölçüdə olub (uzunluğu 16-22 sm, eni 9-13 sm), forması uzun silindrşəkilli, dar konusvari və qanadlıdır (Şəkil 1).

Şəkil 1. Prima

Gilə. Gilələri orta və iri (uzunluğu 18-24 mm, eni 17-28 mm), simmetrik,

girdə formada olub, göyümtül-qara rəngdədır. Qabığı nazik və elastikdir. Gilələrinin tam yetişməzdən qabaq qara rəng alması sort üçün xarakterikdir. Lətdən asanlıqla ayrılır. Ləti ətli-şirəli yaxud selikvari olub, dadı şirin və xoşagələndir, harmonikdir. Giləsində 1-2 ədəd toxum vardır.

Sort tezyetişəndir. Vegetasiya müddəti 125 gün davam edir. Tənəklərinin böyümə gücü orta və yüksək (200-230 sm) olmaqla, zoğların yetişmə dərəcəsi 85-92% təşkil edir. Sort oidium və mildiu xəstəliklərinə tolerantlıq və boz çürümə xəstəliyinə qarşı isə davamlılıq nümayiş etdirir.

Yüksək, yaxud çox yüksək məhsuldar sortdur. Barlı zoğların miqdarı 53,6%; zoğun bar əmsalı 0,82; salxımların sayı 23-36 ədəd; salxımların orta kütləsi 300-344 q, məhsuldarlığı 7,5 kq, hektardan məhsuldarlıq 150-170 s/ha təşkil edir. Giləsində şəkərlilik 20,7 q/100 sm3, titrlənən turşuluq 5,7-6,5 q/dm3 olur.

Salxımlar üzüm sortlarının bioloji-təsərrüfat əhəmiyyəti ilə seçilən orqanlarından biridir. Hər bir sort üzrə salxımın bəzi morfoloji xüsusiyyətləri öyrənilmişdir. Salxım və gilələrinin xarici görünüşü gözəldir, gilələrinin dadı şirin və xoşagələndir. Təzə halda istifadə edilir. Saxlanmaya və daşınmaya nisbətən davamlıdır. İlk bazara çıxarılan faraş üzüm sortlarından biridir.

Suvarma şəraitində, münbit torpaqlarda və yüksək aqrotexniki fonda yük-sək boy atır və yüksək məhsul verir. Zoğların bar əmsalı çox yüksəkdir. Bu xü-susiyyətini nəzərə alaraq bar barmaqları qısa və orta uzunluqda kəsmək olar. Suvarma şəraitində sortun tənəyinə hündürştamblı kordon (ikiçiyinli, ikimərtə- bəli kordon), çoxqollu yelpik forması verməklə, 38-50 və daha artıq gözcük yükü vermək olar. Dəmyə şəraitində isə tənəklərinə ikiçiyinli birmərtəbəli kor-don, Güyo və çoxqolu (3 qollu) forma verməklə, kolda 24-32 gözcük saxlamaq olar.

Ağ Xəlili üzüm sortu. Azərbaycanın tezyetişən yerli süfrə üzüm sortudur. Azərbaycanın yerli üzüm sortları əsasən şərq (*Convar orientalis* Negr.) ekoloji-coğrafi qruplarına daxildirlər. Şərq ekoloji-coğrafi qrupu zəngin biomüxtəlifliyə və polimorfizmə malik olduğundan -*Convar orientalis subconvor antasiatica* Negr. (süfrə sortları) yarımqrupuna ayrılırlar. Ağ Xəlili üzüm sortuda bu qəbildəndir və şərq ekoloji-coğrafi qrupuna (*convar orientalis subcon. antasiatica* Negr.) aid edilir.



Şəkil 1. Ağ Xəlili üzüm sortu

Sinonomi: Növrəst, Yay üzümü və Ağagörməzdir.

Yaşıl zöglar: İnkişaf etməkdə olan yeni zoğları açıq-yaşıl, zoğun tacı və ilk 3-5-ci yarpaqların üzəri parlaq-yaşıl rənglidir, çılpaq və hamardır. Yeni açılmış yarparların alt səthində az miqdarda ağ tükcüklərə və damarlar üzərində isə tək-tək qılçıqlara rast gəlinir.

Yarpaq: Yarpaqları əsasən dairəvi formadadır (uzun. 12,4 sm, eni 12,6 sm), səthi tünd yaşıl rənglidir, kənarları isə yuxarı yönəlir. Yarpaq sahəsi 92,84 sm2, yarpaq indeksi 0,90, orta damarın uzunluğu 8,0-8,5 sm-dir. Yarpagın alt səthində ağ rəngli tükcüklərə və damarlar üzərində xırda qılçıqlara rast gəlinmir. Yarpaqları beşpəncəlidir, yuxarı yan kəsikləri dayaz, bəzən orta dərinlikdədir. Orta dərinlikdə olan yuxarı yan kəsiyi əsasən qapalı formada, iti dibli, ensiz kəsiklidir. Yuxarı yan kəsiyi dayaz, itibucaq kəsikli olan yarpaqlara da rast gəlinir. Aşağı yan kəsikləri əsasən orta dərinlikdədir, açıq və qapalı formalarda olur. Pəncələrin ucundakı dişciyi iri, enli

oturacaqlıdır, kənar dişcikləri isə xırdadır, müxtəlif ölcüdə, küt ucludur. Payızda yarpaqları açıq qəhvəyi rənglənir.

Saplaq: Yarpaqların saplağı sarımtıl-qəhvəyi rənglidir. Orta damardan nisbətən qısadır, uzunlugu 6,0-8,5 sm-dir. Saplaq oyuğu əsasən qapalıdır, ensiz oval kəsiklidir, bəzən açıq, ensiz tağlı oyulu yarpaqlara da rast gəlinir.

Çiçək: İkicinsli çiçək qrupuna malikdir. Erkəkcik saplağı yaxşı inkişaf etmişdir. Tozluqlar uzunsov oval şəkillidir, yumurtalığı isə üst formalıdır və yaxşı inkişaf etmişdir. Tozcuqların fertilliyi 89,2 - 91,5 %-dir.

Salxım: Salxımları əsasən xırda və orta irilikdədir. Xarakterik salxımları ikiqanadlı konusvari, qanadlı- silindrik formalardadır. Salxımların (uzun. 17,0-20,5 sm, eni 12,5 - 16,0 sm-dir) orta uzunluğu 19,0 sm, eni isə 15,0 sm, saplağı 5,0-6,5 sm-dir. Tozlanmadan asılı olaraq salxımlarda gilələr müxtəlif sıxlıqda yerləşə bilər.

Gilə: Salxımda gilələr orta irilikdədir, uzunluğu 18,0-20,0 mm, eni 10,0-12,0 mm-dir. Gilələr bərkdir, əsasən uzunsov- silindrik formadadır, sıxgiləli salxımlarda tərsyumurtaşəkillidir, uc hissəsi dairəvidir. Gilələrin qabığı göyümtül-ağ rənglidir, qabığı nazik olmaqla, lətli hissədən çətin soyülür. Kölgə yerlərdə açıq-göyümtül rəngdədir və gün düşən nahiyələri qızarır. Gilələrdə cücərməyə tam yararlı 3- 4 ədəd oxum olur.

Birillik zoğlar: Tənəkləri güclü boy atır (230-235 sm). Buğumaraları açıq ağımtıl-qəhvəyi, buğumlarda isə qəhvəyi rəngdədir, üzəri tünd qəhvəyi rəngli qısa zolaqlıdır. Yetişmə dərəcəsi qənaətbəxşdir (75-80 %).

Sort tezyetişəndir. Gilələrinin tam yetişməsi avqust ayının birinci ongünlüyündə baş verir.

Çiçəklərin tökülmə dərəcəsi 44-50%, salxımlarında gilələrin noxudlaşma miqdarı 10,0% təşkil edir. Sort Gəncə-Daşkəsən şəraitində oidium və antraknoz xəstəliyinə qarşı tolerantlıq (3 bal), boz çürümə xəstəliyinə qarşı davamlılıq (2,5 bal) nümayiş etdirmişdir.

Tənəyində məhsuldarlıq əmsalı 0,62, barlı zoğlarda 1,3; salxımların sayı 20-25 ədəd; salxımların orta kütləsi 190-200 qram olmaqla iri salxımlı; tənəyin məhsuldarlığı becərmə şəraitindən asılı olaraq 4-6 kq; hektardan məhsuldarlıq 100-120,0 s/ha təşkil edir.

Giləsində şəkərlilik 16-16,5q/100 sm3, titrlənən turşuluq 5-5,87 q/dm3 olmuşdur. Sort tipik süfrə istiqamətlidir.

Məhsullarının istifadəsi və keyfiyyət xüsusiyyəti: Çox qiymətli süfrə sortudur. Özünəməxsus dada və keyfiyyətə, xoşagəlim əmtəə görünüşünə malikdir. Ən çox təzə halda yeyilir. Ən tez yetişdiyinə, cəlbedici əmtəə görünüşə malik olduğuna görə bazarlarda yaxşı qiymətə satılır və iqtisadi səmərəliliyi yüksəkdir. Məhsulu uzaqməsafəli nəqliyyatla daşınmağa dözümlüdür. Salxımları bir aya qədər tənəklərdə və sərin otaq şəraitində saxlanıla bilər.

Sortun tənəkləri kifayət qədər nəmlikli və münbit torpaqlarda böyük formavermələrdə yüksək nəticə verir. Sortun yelpik formasında yetişdirilməsi, tənəyinə əsasən çoxqollu (3-5 qollu) yelpik formasının verilməsi və bar zoğlarını uzun kəsməklə, 38-52 gözcük yükünün verilməsi məqsədəuyğundur.

Ədəbiyyat

1. Azərbaycan ampeloqrafiyası. I cild Bakı 2017, s 344-349
2. Abduləliyeva S.Ş., Ələkbərova M.M. Üzümçülük. Laborotor-praktikum. Bakı, 2017. 121-125
3. Səlimov V.S., Şükürov A.S., Nəsibov H.N., Hüseynov M.Ə. Üzüm: innovativ becərmə texnologiyası, mühafizəsi və aqroekologiyası. Bakı, “Müəllim” nəşriyyatı, 2018, s 440-515
4. Səlimov V.S. Üzümün ampeloqrafik skrinqi. Bakı, “Müəllim” nəşriyyatı, 2019.s 132-152
5. Şərifov F.H. Üzümçülük. Bakı: “Şərq-Qərb” nəşriyyatı, 2013, s. 486-546.

СРАВНИТЕЛЬНОЕ ИЗУЧЕНИЕ БИОМОРФОЛОГИЧЕСКИХ ХАРАКТЕРИСТИК СТОЛОВЫХ СОРТОВ ВИНОГРАДА БЕЛЫЙ ХАЛИЛИ И ПРИМА

доцент Алекперова Мехсети Микаил гызы, Сафарова Наиля Ширин гызы

Резюме

В соответствии с международными обозначениями Столовый виноград-это сорта винограда, предназначенные для употребления в свежем виде и специально выращенные для этой цели. В нашей республике наш народ в процессе исторического развития путем народной селекции создал сотни ценных местных сортов винограда, сформировал местный генофонд. Изученный интродуцированный сорт Прима и наш аборигенный сорт Аг Халили, были выбраны в качестве объекта исследования, поскольку они полностью отвечают требованиям на сорта винограда столового назначения.

При изучении биоморфологических характеристик исследуемых сортов винограда столового назначения изучались морфологические признаки основных органов винограда, характеризующих каждый сорт, строение, размер и окраска, побегов, листьев, цветков, гроздей, ягод, семян др.

COMPARATIVE STUDY OF BIOMORPHOLOGICAL CHARACTERISTICS OF WHITE KHALILI AND PRIMA TABLE GRAPE VARIETIES

Associate professor of Alekperova Mehseti Mikail, Safarova Naila Shirin kızı

Summary

According to international designations, table grapes are grape varieties that are intended for fresh consumption and are specially grown for this purpose. In our republic, people in the process of historical development through folk breeding created hundreds of valuable local varieties of grapes, formed the local gene pool. The studied introduced variety Prima and our native variety Ag Khalili were chosen as the object of study, since they fully meet the requirements for table grape varieties.

When studying the biomorphological characteristics of the table grape varieties under study, the morphological features of the main grape organs characterizing each variety, structure, size and coloring, shoots, leaves, flowers, bunches, berries, seeds, etc., were studied.

Rəyçi: Bağçılıq kafedrasının dosenti Abduləliyeva Sevil Şəmşir qızı
Bağçılıq kafedrasının 20 dekabr 2022-ci il tarixli iclasın 6 saylı pratokolu
Daxil olma tarixi 22 dekabr 2022-ci il

TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR

UOT-94

1950-1960-CI İLLƏR ARASINDA SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF SƏBƏBLƏRİ

t.ü.f.d.İsmayılov İsmayıl Akif oğu
Gəncə Dövlət Universiteti
ismayilov81@mail.ru

Xülasə: *XX əsrin 50-60-cı illərində SSRİ və Türkiyə qarşı tərəflərdə olduqları üçün, onlar arasındakı münasibətlər çox məhdud olmuşdur. İkitərəfli əlaqələrin nisbi sürət qazanması isə 1960-cı illərin ikinci yarsına təsadüf etmişdir. SSRİ və Türkiyə qərar vericiləri tərəfindən bu münasibətlər qarşılıqlı şəkildə sabitləşdirilmişdir. Nəticə də siyasi baxımdan hər iki ölkə üçün səmərəsiz olan münasibətlər dinamizm və rəngarənglik qazanmışdır. Bu yaxınlaşma siyasəti Sovet İttifaqından da qarşılıq görmüşdür. 60-cı illərin ikinci yarsına gəlindiyində regionu təhdid edən Kipr məsələsində Moskva Ankara ilə əməkdaşlıq etmək nöqtəsinə belə gəlmişdir.*

Vurğulamalıyıq ki, SSRİ və Türkiyə münasibətləri beynəlxalq arenada tarixçilərin və politoloqların hər zaman maraq dairəsində olmuşdur. Bu hal bu gündə davam etməkdədir. Odur ki, bu məqalədə də, 1950-1960-ci illər arasında SSRİ və Türkiyə münasibətlərinin əsas inkişaf səbəbləri araşdırılmışdır.

Açar sözlər: SSRİ, Türkiyə, NATO, Kipr məsələsi, beynəlxalq münasibətlər, Soyuq Müharibə.
Keywords: USSR, Turkey, NATO, Cyprus issue, international relations, Cold War.
Ключевые слова: СССР, Турция, НАТО, кипрский вопрос, международные отношения, холодная война.

İkinci Dünya Müharibəsi bitdikən sonra dünya beynəlxalq sistem baxımından çox böyük dəyişikliklərin şahidi oldu. Bu zaman Avropanın böyük dövlətləri müharibədən sonra beynəlxalq siyasətdə və iqtisadiyyatda aparıcı aktor kimi mövqelərini itirdilər. Əsas aktorlar Amerika Birləşmiş Ştatları (ABŞ) və Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) ilə əvəz olundu. Avropanın dünya siyasət səhnəsindən güc mərkəzi kimi geri çəkilməsindən sonra dünya ən azı iyirmi il ərzində ABŞ və SSRİ ətrafında "ikiqütblü" xarakter aldı. Müharibədən sonrakı bu dövr 1970-ci illərə qədər beynəlxalq münasibətlərin tarixi iki əks ideologiyaya - kapitalizm və sosializmə əsaslanmağa başladı. ABŞ-la SSRİ arasında başlayan bu mübarizə prosesi isə SSRİ və Tükiyəni ayrı düşərgədə düşmən tərəflər kimi qarşı-qarşıya gətirdi.

ABŞ 1949-cu ildə Şimali Atlantika Müqaviləsi Təşkilatını (NATO), SSRİ isə 1955-ci ildə Varşava Müqaviləsi Təşkilatını yaratdı (Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Yardım Müqaviləsi). [1, səh. 27] Bu təşkilatları ABŞ və Sovet İttifaqının Yer kürəsinə təsir göstərmək səylərinin hekayəsi kimi təsvir etmək yerinə düşərdi. Bütün bu iqtisadi, siyasi və hərbi inkişaflar beynəlxalq münasibətlər ədəbiyyatında "soyuq müharibə" və ya "ikiqütblü sistem" adlanan yeni bir dövrü başlatdı. SSRİ-nin öz qütbünü qurması və nüvə silahına sahib bir ölkə kimi Türkiyənin sərəddində yerləşməsi Türkiyənin də bu ölkəni "birinci dərəcəli hərbi və siyasi təhlükə" kimi qəbul etməsi ilə nəticələndi. [2, səh. 371] Nəticədə, SSRİ-nin Türkiyəyə qarşı düşmən münasibəti və ərazi tələbləri artdı ki, bu isə Türkiyəni Qərbə yönləndirdi.

İkinci Dünya Müharibəsindən sonra ortaya çıxan yeni dünya düzənində gündəmə gələn sovet ekspansionizmi, şübhəsiz ki, Türkiyəyə də təsir etmiyə bilməzdi. Türkiyənin İkinci Dünya Müharibəsinə girməməsi, torpaqlarını müharibəyə bağlaması və buna görə də müharibə zamanı Sovet İttifaqına yardımın getməsinə mane olması Sovet İttifaqını Türkiyəyə bu təzyiqi sövq edən səbəblər idi. [3, səh. 65] Əslində Türkiyə bu təzyiqlərlə müharibə bitdikdən sonra təkbaşına üzləşmişdi. Lakin sovet təzyiqləri və tələbləri dözülməz hala gələndə Qərbdən kömək istədi. Bu çərçivədə Vaşinqton administrasiyası ilə dialoq artırılmağa başlanıldı və ikitərəfli əlaqələr inkişaf etdirildi. Sovetlərin ekspansionist siyasətindən narahat olan Qərb dünyasının yeni lideri Amerika Birləşmiş Ştatları bu

kontekstdə Türkiyə ilə əlaqələrini gücləndirməyə başlamış və sovet ekspansionizminə qarşı Türkiyəni Avropa ölkələrinə yardım proqramlarına daxil etmişdir. [3, səh. 65]

Türkiyə, Truman Doktrinası çərçivəsində ABŞ-dan hərbi-iqtisadi yardım almağa və ölkəsini amerikalı kadrlara açmağa başlayanda açıq şəkildə SSRİ-nin əleyhinə və ABŞ-ın tərəfində olduğunu bəyan etmiş oldu. Ardınca 8 avqust 1949-cu ildə Türkiyə Avropa Şurasına qəbul edildi. 23 sentyabr 1949-cu ildə SSRİ-nin atom bombasına sahib olduğunu elan etdi. Bundan sonra bütün qərb dünyası, xüsusən də ABŞ SSRİ-nin sərhəd qonşusu olan Türkiyə və onun dövlətinə geosiyasi baxımdan daha çox əhəmiyyət verməyə başladılar. [4, səh. 26]

NATO-nun yaradılması həmin dövrün CHP hökuməti, həm də Türkiyədəki Demokrat Partiyası tərəfindən müsbət qarşılandı. CHP hökuməti 11 may 1950-ci ildə NATO – ya üzvlük müraciəti eildi. Lakin müraciət rədd cavabı aldı. [1, səh. 34] Göründüyü kimi, SSRİ təhlükəsi qarşısında İsmət İnönü NATO-ya üzv olmaq üçün müraciət etsə də, NATO rəsmiləri Türkiyənin tələbini nəzakətlə rədd edərək, çoxpartiyalı demokratik sistemə keçsələr, onları üzv kimi qəbul edə biləcəklərini bildirmişlərdi. Bunun üzərinə Türkiyə 1950-ci il seçkiləri ilə çoxpartiyalı demokratik rejimə keçdi. Bununla da, Qərb dövlətlərinin demokratiya baryeri aradan qaldırıldı. [3, səh. 65] Hadisələrin davamında isə, 1950-ci il iyulun 18-də Yalovada bir araya gələn Türkiyə hökumətinin rəsmiləri Koreyaya əsgər göndərmək qərarına gəldilər. [5, səh. 274] 4500 türk əsgəri Koreyaya göndərildi. [6, səh. 68] Əslində NATO tərəfindən Türkiyədən belə bir şey istənilməmişdi. Türkiyə höküməti bu qərarı almaqla NATO-ya girməyi hədəfləyirdi.

Bu arada onuda qeyd etməliyik ki, İkinci Dünya Müharibəsi zamanı Yaponiyanın müstəmləkəsi olan Koreya yarımadası, müharibə başa çatdıqdan sonra ABŞ və SSRİ arasında bağlanmış müqaviləyə əsasən süni şəkildə 38-ci paralelin şimalına və cənubuna bölünərək işğal olunmuşdu. Yapon qoşunlarının yerləşdiyi şimal torpaqlarını SSRİ, cənub torpaqlarını isə ABŞ ələ keçirmişdi. Beləliklə də, Koreya yarımadasının siyasi gələcəyi ilə bağlı ABŞ və SSRİ arasında aparılan danışıqlar nəticəsiz qalmışdı [8, səh. 87-88] Ona görə də, Koreyaya qəfil qoşun göndərmək qərarı Türkiyə mətbuatında antisovet əhval-ruhiyyəsinə səbəb oldu.

Qərarın qəbul edildiyi gündən mümkün SSRİ hücumlarına qarşı yeni müdafiə bloklarının yaradılmasından tutmuş ABŞ-dan daha çox silah alınmasına qədər geniş çeşiddə məqalələr dərc olundu. Moskvada da bu tipli yazılar öz əksini tapdı. Sovet mətbuatı Türkiyəni Amerika boyunduruğu altında olmaqda və müharibəyə səbəb olacaq hərəkətlər etməkdə ittiham edərək, şiddətli şəkildə tənqid etməyə başladı. [9, səh. 521] Bu səbəblə də, 1950-ci illərin əvvəllərində Türkiyənin xarici siyasətinin əsas prinsiplərini bəzi sovet tədqiqatçıları antikommunizm və antisovetizm kimi izah edir. Lakin, İkinci Dünya Müharibəsinin başlaması, Stalinin Türkiyədən torpaq tələbi və Boğazlardakı rejiminin dəyişdirilməsi tələbləri ilə iki ölkə arasındakı münasibətləri fərqli bir miqyasa yönəltdiyini söyləməliyik. Bu gərginlik sovet liderinin ölümünə qədər davam etmişdir.

1950-ci illərinin başında digər mühüm hadisə isə SSRİ-nin Türk boğazları ilə bağlı istəklərinin Sovet mətbuatında yenidən işıqlandırılması münasibətləri daha da gərginləşdirdi. [3, səh. 54]

1950-ci il avqustun 1-də Koreyaya qoşun yeritmək qərarından beş gün sonra Türkiyə ikinci dəfə NATO-ya üzvlük üçün yenidən müraciət etdi. Lakin sentyabr ayında keçirilən NATO Nazirlər Şurasında ikinci müraciət də rədd edildi. [1, səh. 34] Buna baxmayaraq dünyada inkişaf edən siyasi münasibətlər nəticəsində, 16-20 sentyabr 1951-ci ildə keçirilən NATO Nazirlər Şurasının iclasında Türkiyə və Yunanıstanın Alyansa dəvət edilməsi qərara alındı. Nəhayət, 1952-ci il fevralın 18-də Türkiyə rəsmi olaraq NATO-ya üzv oldu. [6, səh. 140]

Türkiyənin NATO-ya daxil edilməsin əsas səbəbi Türkiyənin başçılığı ilə Yaxın Şərq komandanlığının yaradılması və ABŞ-ın həyata keçirmək istədiyi siyasətin yolunun açılması idi. Bu siyasətində başında isə SSRİ-yə yaxın ölkələrdə aviabazalar yaratmaq siyasəti dururdu. SSRİ-yə yaxın olan Türkiyə bu məqsədlə istifadə olunmağa son dərəcə münasib ölkə idi. Eləcə də, 1951-ci ilin aprelində İranda Müsəddiqin hakimiyyətə gəlməsi, neftin milliləşdirilməsi, ərəb ölkələrində Anti Qərb Baas hərəkatının inkişafı, ərəb və fars dünyasının SSRİ ilə yaxınlaşması Türkiyənin Amerika və Qərbi Avropa üçün əhəmiyyətini artırmışdı. Nəticə də, Türkiyə Yaxın Şərqdəki bu "mənfi" hadisələrə müdaxilə etmək üçün baza kimi istifadə olunmağa son dərəcə uyğun idi. [1, səh. 36]

SSRİ 1951-ci il noyabrın 3-də Türkiyəyə nota göndərməklə NATO-nun hücum məqsədi daşıdığını və hələ də Hitler generallarının komandanlığı altında olan Almaniyanın da bu təşkilata qoşulmasından narahat olduğunu bildirdi. [10, səh. 462] Göründüyü kimi, Türkiyənin NATO-ya üzv olmaq fəallığı Sovet Rusiyasını əvvəldən narahat etmiş və xüsusən 1951-ci ilin payızından Türkiyənin NATO-ya üzv olmaq qərarının qarşısını almaq üçün hər cür səy göstərilmişdir. Türkiyə isə Sovet Rusiyasının təzyiqlərinə boyun əyməmiş, hətta NATO-ya üzv olmaq istəməsinin əsas səbəbinin sovetlərin Türkiyəyə yönəltdiyi təhdidlər olduğunu bəyan etməkdən belə çəkinməmişdir. [11, səh. 265]

Türkiyənində 1950-ci illərin əvvəllərindəki SSRİ-yə qarşı mövqeyini anti qiymətləndirmək olar. Bu dövrdə Türkiyə dövləti kommunizmi qəti şəkildə rədd edirdi. Bura da ABŞ-ında rolu böyük idi. Demokrat Partiyasının hakimiyyətə gəlməsi ilə Türkiyənin daxili və xarici siyasətində bir qədər dinamizm yaşanmağa başlamış və Türkiyə-Sovet münasibətləri ilə bağlı olaraq, o vaxta qədər davam edən kommunist təhdidinə qarşı ölkənin təhlükəsizliyinin necə təmin ediləcəyini araşdırmağa başlanılmışdı. Bu, Türkiyə prezidenti seçilmiş Cəlal Bayarın ən önəmli işlərindən biri olmuşdu. [9, səh. 523]

Stalinin ölümündən sonra SSRİ əvvəllər buraxdığı səhvi düzəltmək, Türkiyə ilə münasibətlərini tənzimləmək istəyirdi. Sovet lideri Stalin 5 mart 1953-cü ildə vəfat etdi. Bu səbəblə, 8 mart 1953-cü ildə Cevat Açıkalın, general-leytenant Fevzi Mengüç və qərargah polkovniki Nurettin Alpkartaldan ibarət türk heyəti 9 mart 1953-cü ildə saat 12:00-da keçiriləcək dəfn mərasimi üçün Moskvaya getmiş və dəfn mərasimində iştirak etmişlərdi. [9, səh. 537]

Stalindən sonra Georgi Maksimilianoviç Malenkov Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi və baş naziri, Kliment Efremoviç Voroşilov Sovet Şurasının sədri, Beriya, Molotov, Kaqanoviç və Bulqanin baş nazirin müavinləri seçildi. Yeni administrasiyada Stalinin tərəfdarları ilə yanaşı, əvvəllər onunla razılaşmayanlar da təyin olundu. [12, səh. 257]

Lakin, Türkiyədə "SSRİ Türkiyənin suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü təhdid edir" kimi çıxışlar ölkə daxilində yenidən artmağa başladı. Şərhlər və iddialar daxildə kapitalist istismar münasibətlərini, xaricdə isə amerikapərəst türk xarici siyasətini qanuniləşdirmək üçün istifadə olundu. Bu iddialar üzərinə 30 may 1953-cü il tarixli notada Moskva rəsmi olaraq Ankaraya boğazlar və ərazilərlə bağlı heç bir tələbinin olmadığını bildirdi. [1, səh. 52]

Bu dövrdə Sovetlərin ilk hərəkətlərindən biri 30 may 1953-cü ildə Molotov imzalı notayla bəyanat verməklə, əvvəlki administrasiyanın Türkiyəyə verdiyi notalardakı fikirlərin onlar tərəfindən qəbul edilmədiyini əsas gətirərək üzr istəməsi oldu. [10, səh. 464] Bununla da SSRİ eyni zamanda boğazlardakı iddialarından əl çəkdiyini rəsmən elan etmiş və bu səylərlə Türkiyənin etibarını qazanmağa çalışmışdır. [13, səh. 184-185] Sovet notasını diqqətlə araşdırdıqda, sətirlər arasında, klassik Sovet Xarici Siyasət elementlərinin yenidən istifadə

edildiyini və İkinci Dünya Müharibəsindən sonra inkişaf edən hadisələrdə Türkiyənin məsuliyyətinində olduğunu söylədiklərini görürük. [9, səh. 541]

Türkiyə ABŞ-ın təklifləri ilə 1954-cü ildə Balkan Alyansına və 1955-ci ildə Bağdad Paktına daxil olmuş, ABŞ-la ikitərəfli razılaşmalarla öz ərazisində Amerika bazalarının açılmasına icazə vermişdir. [1, səh. 52]

1956-cı il fevralın 4-də Sovet İttifaqı Türkiyəyə nota göndərmişdir. "Notada amerikalıların Türkiyə üzərində göndərdiyi müşahidə balonlarından bəhs edilir. Bunun, SSRİ-nin suverenlik hüquqlarını pozduğu qeyd edilir və Sovet hökumətinin aeronaviqasiyasını təhlükə altına aldığı qeyd edilir". Türkiyə Xarici İşlər Nazirliyi bu notaya cavab olaraq "bunun, qəsdən edilmədiyini deyir". [12, səh. 262]

1956-cı il iyunun 8-də Sovet İttifaqının Türkiyədəki səfiri Boris F.Podtserob Türkiyənin xarici işlər naziri Fuat Köprülüylə görüşərək, SSRİ Nazirlər Sovetinin nümayəndəsi N.A.Bulqaninin məktubunu Adnan Menderesə çatdırdı. Məktubda tərksilahdan söhbət gedirdi və Sovet İttifaqının əsgərlərinin sayının və hərbi xərclərinin azaldılması barədə məlumat verilərək, Türkiyə tərəfindən də mehriban qonşuluq münasibətlərinə eyni addımlar atılmasını təmənni edirdi. Eləcə də, SSRİ-nin dünyada sülhün bərqərar olmasına və xalqların təhlükəsizliyinə verdiyi töhfələr vurğulanırdı. [17]

1950-ci illərin sonunda Türkiyənin Eyzenhauer doktrinasını dəstəkləyən ölkələr sırasına daxil olması Yaxın Şərqdə kommunizmin yayılmasının qarşısını almaq məqsədini güdürdü. Bu isə özlüyündə Sovet İttifaqını narazı salan amillərdən idi.

Bununla belə SSRİ-Türkiyə münasibətlərinin inkişaf etdirilməsi 1957-ci il fevral ayında Şepilovun münasibətləri yaxşılaşdırmaq istəyini ifadə etmək üçün "qardaş Türkiyə" ifadəsini işlətməsi ilə başladı. Sonra SSRİ-nin yeni təyin olunmuş səfiri N. S. Rijovun aprel ayında vəzifəyə başlaması ilə Türkiyədən parlament nümayəndə heyəti Moskvaya dəvət olundu. [16, səh. 133]

SSRİ ilə Türkiyə münasibətlərinə mənfi təsir göstərən digər bir hadisə Suriyadakı hadisələr oldu. Bu hadisələr zamanı sovet tərəfdarı çevrilişdən sonra Türkiyənin Suriya sərhəddinə qoşun toplaması Sovetlər tərəfindən mənfi qarşılandı. [10, səh. 467] Belə ki, Qərbin Suriyaya təzyiqlərini azaltmaq üçün SSRİ 1955-ci ilin noyabrında Suriya ilə ilk ticarət müqaviləsini imzalamış və 1956-cı ilin noyabrına qədər Suriya son bir ildə Şərq Blokundan 20 milyon funt sterlinq dəyərində silah almışdı. [16, səh. 87]

1957-ci il avqustun 6-da isə Suriya ilə SSRİ arasında bağlanmış əməkdaşlıq müqaviləsindən sonra ordunun başına kommunist generalın təyin edilməsi Sovetlərlə Qərb arasında gərginliyi dahada artırdı. Sovetlərin Suriyaya silah yardımı onsuzda Qərbin narahatlığına səbəb olmuşdu. Generalın təyinatı isə vəziyyəti daha da gərginləşdirmişdi. Əslində ABŞın özüdə Suriyanın qonşuları olan ölkələri silahla təmin edirdi. [18, səh. 358-363]

Türkiyə 1957-ci il noyabrın 30-da hərbi manevrlərə başlayacağını və Suriya sərhəddində qoşunlarının sayını artıracağını açıqladı. Ardından Türkiyə Suriya sərhədinə qoşun toplamağa başladı. Türkiyənin bu göndərişinə Sovet İttifaqından narazılıq reaksiya gəldi. Sovet İttifaqı hökuməti 1957-ci il sentyabrın 10-da Türkiyəyə xüsusi nota ilə xəbərdarlıq etdi. Notada bildirildi ki, "Yaxın Şərq və Orta Şərqdə müharibəyə başlamaq və Suriyaya qarşı kampaniyada iştirak etmək pis nəticələrə gətirib çıxaracaq". [18, səh. 358-363]

SSRİ 9 oktyabr 1957-ci ildə yeni bir məktub göndərdi. Məktubda qeyd edirdilər ki, "Türkiyənin hərbi vəziyyətinin pis olduğunu bilirlər, müharibə olarsa Türkiyə bir gün belə tab gətirə bilməyəcək. Türkiyəyə ABŞ-dan daha yaxındılar. Silahların partladığı zaman çox gec olacaq". [19, səh. 9] Bu danışıqlar fonunda, həll üçün lazımi şərtlər hazır olduqdan sonra

Suriyanın 16 oktyabr tarixli müraciəti ilə bu məsələ BMT-yə çıxarıldı. Lakin BMT-nin problemin həllini tapmağa belə ehtiyacı olmadan, oktyabrın 29-da Moskvada rəsmi dəvətə qatılan Xruşov "gərginliyin anlaşılmazlıqdan qaynaqlandığını və SSRİ Türkiyəyə hücum etməyəcək" deməsi ilə böhran sona çatdı. [16, səh. 91] 1957-ci ilin noyabrında heç bir problem olmadığına dair təminat verildikdən sonra Türkiyə əsgərlərini sərhəddən geri çəkdi. Suriya böhranı Türkiyə-Sovet münasibətlərində dönüş nöqtəsidir. Əvvəllər təhdidlərlə həyata keçirilən ikitərəfli münasibətlər Suriya böhranı ilə daha ciddiləşərək hər iki tərəfin mövqelərini açıq şəkildə ifadə etməsinin mümkün müharibəyə çevrilə biləcəyini belə qeyd etmək olar.

Türkiyə, 1957-ci ildə qəbul edilmiş Eyzenhauer doktrinasını qəbul etmiş və bu doktrina çərçivəsində o, 1958-ci ilin iyulunda amerikan və ingilis əsgərlərinin Livan və İordaniyaya getməsini dəstəkləmişdir. 1953-cü il İran, 1957-ci il Suriya və 1958-ci il İraq böhranlarında ABŞ-Qərbi Avropa ittifaqının siyasətini dəstəkləmiş, 1958-ci il İraq böhranında ABŞ-la birlikdə hərəkət etmişdir. Fələstin məsələsində ABŞ-Qərbi Avropa ittifaqı, 1958-ci ildə ABŞ-ın tələbi ilə Ətraf Mühit Paktına qoşulmuşdur. [1, səh. 52]

1958-ci ilin aprelində SSRİ-nin Ankaradakı səfiri Nikita Rijov baş nazir Menderes və prezident Bayarı ziyarət etmişdi. Bu səfərin raket bazaları ilə bağlı olduğu bildirilir. Sovet İttifaqının Türkiyədə ABŞ-ın quracağı raket qurğularının iki ölkənin dostluğuna uyğun gəlmədiyini dilə gətirilmişdi. [12, səh. 265]

14 iyul 1958-ci ildə İraqda baş verən çevriliş Türkiyə ilə SSRİ arasında yenidən gərginliyə səbəb oldu. İraqdakı çevrilişdən sonra Türkiyənin İraqa müdaxiləsi gündəmə gəldi. Bu səbəblə Türkiyə bir tərəfdən sərhədə əsgər yığmaqla bərabər, digər tərəfdən diplomatik təşəbbüslərə başladı. [16, səh. 131-132] Bu hadisələr qarşısında SSRİ iyulun 16-da Türkiyəyə şifahi bəyanat verdi. Türkiyənin Yaxın Şərqdə sülhün qorunması üçün səy göstərəcəyinə ümid etdiyini bildirdi. Elə həmin gün Xruşov Yuqoslaviya səfirinin qəbulunda hazırkı vəziyyəti dəyişmək üçün istənilən cəhddə Türkiyəyə hərbi yolla cavab verəcəyini bildirdi. [11, səh. 262] Sovetlər eyni sərtliyi təkcə Türkiyəyə qarşı deyil, Amerika və İngiltərəyə qarşı da göstərdi və bununla da yeni Şərq-Qərb gərginliyi yarandı.

SSRİ-nin Yaxın Şərqdə fəallaşması Türkiyəni daha çox Qərbə doğru yönləndirdi. Çünki sovetlərin Türkiyənin cənubuna enməsi Türkiyə üçün ciddi təhlükəsizlik narahatlığına səbəb olmuşdu. 1958-ci ilin sonunda ABŞ-ın Türkiyədə raket bazaları yaratmağa qərar verməsi Sovet etirazlarına və Türkiyə-Sovet münasibətlərinin yenidən gərginləşməsinə səbəb oldu. [11, səh. 263] Gərginləşmənin əsas səbəbi isə Nüvə başlıqlı silahlarının Türkiyə ərazisinə yerləşdirməsi və imzalanmış ikitərəfli hərbi müqavilə oldu. 1958-ci il dekabrın 13-də SSRİ-nin verdiyi notada Türkiyə ilə ABŞ arasında nüvə silahlarının və raketlərin yerləşdirilməsini tənzimləyən yeni hərbi müqavilənin imzalandığını, Türkiyənin NATO-nun nüvə bazası olmasının SSRİ-nin maraqlarına zidd olduğu bildirdi. [16, səh. 143] 5 oktyabr 1959-cu ildə Türkiyə ilə ABŞ arasında imzalanan müqavilə ilə yuxarıda qeyd edildiyi kimi, lazım gəldikdə SSRİ-yə qarşı istifadə edilmək üçün 15 Yupiter raketi Türkiyə torpaqlarına yerləşdirildi. [1, səh. 52]

SSRİ-nin münasibətləri yaxşılaşdırmaq təkliflərinə qulaq asmayan Türkiyə bu müqavilə ilə özünü hədəfə çevirmiş, üstəlik, iqtisadi depressiyaya düşmüşdü. Türkiyənin ABŞ siyasətini dəstəkləməsi, SSRİ-yə qarşı siyasət yürütməsi və Yaxın Şərqdə baş verən proseslərdə ABŞ-ın tərəfini tutması istər-istəməz Türkiyə-Sovet münasibətlərinə mənfi təsir göstərdi.

50-ci illərdə kommunizm və antisovetizmlə yanaşı, Türkiyədə Pantürkizm hərəkatı da güclənmişdi. Ənvər Paşanın 1920-ci illərin əvvəllərindəki cəhdləri və Almaniyanın 1941-

1943-cü illərdə SSRİ-ni işğalını davam etdirdiyi dövrdə Türkiyədə güclənən bu cərəyan SSRİ-də narahatlıq yaratmışdır. [16, səh. 114] Əslində Türkiyə yarandığı gündən SSRİ-də türk əsilli müsəlmanlara qarşı siyasət yürütməməyə daima diqqət yetirirdi. Türkiyə Xarici işlər naziri Zorlunun İraqdakı çevrilişdən sonra verdiyi açıqlamada da SSRİ-də 50 milyon müsəlmanın və onların yarsından çoxunun türk olduğunu qeyd etmişdiş Bu isə SSRİ-nin verdiyi memorandumda bu bəyanatın pislənməsi ilə yeni tendensiya gündəmə gəlmişdi. [16, səh. 115]

Sov. İKP-nin XX qurultayından sonra SSRİ-də baş verən proseslər və Türkiyədə 27 May hərəkatının nəticələr hər iki dövlətin həyata keçirdiyi xarici siyasətin ikitərəfli münasibətlərinin inkişafında əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Yaşanan gərginliyə baxmayaraq 1956-1960-cı illərin sonunda Baş nazir Menderesin Moskvaya rəsmi səfər qərarını verməsini olumlu inkişaf kimi göstərmək olar. [16, səh. 96]

1960-cı illər Soyuq Müharibənin beynəlxalq mühit baxımından yumşalmağa başladığı dövr oldu. Avropanın müəyyən xətlərlə ikiyə bölündüyü Soyuq Müharibə dövründə texnoloji inkişaflar hər iki super gücün nüvə silahına sahib olması ilə gərginlik vəziyyətini azaltdı. [14, səh. 316] Lakin, hər iki fövqəldövlətin öz bloklarına neytral üçüncü dünya ölkələrini daxil etməyə çalışması davam edirdi. Əslində Sovet İttifaqı Lenin dövründən iqtisadi yardım ad altında bu siyasəti həyata keçirilirdi. Ümumiyyətlə, Lenin qeyri-kommunist millətçi ölkələri dəstəkləməyə üstünlük verirdi. O, bu ölkələrdə milli istiqlal hərəkatlarına dəstək verməklə imperialist Qərbin yeni bazarlar əldə etməsinə mane olmaq məqsədi güdürdü. Bu siyasətin həyata keçirilməsinin ən gözəl nümunələrindən biri də Milli Mübarizə dövründə Türkiyəyə edilən iqtisadi yardımlardır. [15, səh. 472]

Buna baxmayaraq, 1960-cı illərin əvvəllərində Sovet İttifaqı ilə Türkiyə arasında imzalanmış ticarət müqavilələri böyük əhəmiyyət kəsb etsədə, elə həmin ilin may ayında iki ölkə arasında yeni böhran yaşandı. Böhranın səbəbi isə, İncirlik bazasından havaya qalxan NATO-nun silahsız müşahidə təyyarəsini sovetlər vurduqdan sonra Türkiyəni Sovet İttifaqına qarşı düşmənçilik etməkdə şərik olmaqla ittiham etdi. [1, səh. 53] Bu isə vəziyyəti yenidən gərginləşdirdi. Buna baxmayaraq 1960-cı ilin martında Türkiyə SSRİ və Polşa ilə ticarət müqaviləsi imzaladı. Müqaviləyə əsasən 1960-cı ildə SSRİ ilə 21 milyon dollar, Polşa ilə 22 milyon dollar dəyərində mal mübadiləsi aparılacaq, hər iki ölkəyə yun, pambıq, dəri, meyvə və üzüm, maşınqayırma, metal, kimya, kağız sellülozu və şüşə satılacaq və ya alınacaqdı. [12, səh. 269]

Nəhayət, 1960-cı illərdən etibarən Türkiyə çoxşaxəli xarici siyasət strategiyası kontekstində SSRİ ilə münasibətlərini yaxşılaşdırmaq üçün addımlar atdı. 1960-cı il mayın 31-də SSRİ Türkiyədə yeni hökuməti tanıdığını rəsmən bəyan edərək, onun mehriban qonşuluq münasibətlərini qoruyacağına ümid etdiyini bildirdi. SSRİ ilə Türkiyəni bir çox qarşı-qarşıya gətirən proseslər olsada, müsbət yanaşmalarda var idi. Bunlardan biri Türkiyənin Şərqi Anadoluda yaşayan rus vətəndaşlarının SSRİ-yə getməsinə icazə verməsi oldu. 19 yanvar 1962-ci ildə Sov.İKP-yə təqdim edilən hesabata görə, 23 oktyabr 1961-ci il və 15 yanvar 1962-ci il tarixləri arasında əsasən Qarsın Arpaçay rayonunda yaşayan və əkinçiliklə məşğul olan 407 rus əsilli ailə, ümumilikdə isə 2235 nəfər SSRİ-yə köçmüşdür. [16, səh. 205]

SSRİ ilə Türkiyə arasında bağlanan digər müqavilə də iki ölkə sərhədində yerləşən Arpaçay çayı üzərində birgə suvarma bəndinin tikintisi ilə bağlı idi. 1962-ci il iyunun 24-dən iyulun 4-dək İrəvanda toplanan müştərək komissiya Arpaçayda bənd tikmək barədə razılığa gəldi. Daha sonra 1963-cü il aprelin 9-25-də Ankarada aparılan danışıqlarda bəndin xüsusiyyətləri öyrənilmiş və 25 aprel 1963-cü ildə protokol imzalanmışdır. [16, səh. 206]

1962-ci il isə dünyanı Kuba Böhranı sardı. Bu böhranın Türkiyəyə təsiri ikiqat oldu. Belə ki, Türkiyənin həm SSRİ, həm də ABŞ ilə münasibətlərinə Kuba böhranı çox böyük təsir etdi. Kuba Raket Böhranı və ya Türkiyədə qəbul edildiyi kimi Yupiter Raket Böhranı ABŞ-ın Türkiyəyə, Sovet Sosialist Respublikaları İttifaqının Kubaya nüvə başlıqları yerləşdirməsi nəticəsində ortaya çıxdı. [20, səh. 177]

Yuxarıda da qeyd etdiyimiz kimi, 1959-cu il oktyabrın 28-də Türkiyə hökuməti Türkiyə torpaqlarına orta mənzilli nüvə silahı olan 15 Yupiter raketinin yerləşdirilməsi barədə ABŞ-la razılığa gəlmişdi. Türkiyə ictimaiyyətində bu raketlərin SSRİ-ni təhrik edəcəyini əsas gətirərək ona qarşı çıxanlar olsa da, hökumət və hərbi rəsmilər Yupiterin Türkiyənin hərbi gücünü artıracağına inanırdılar. Əslində, raketlər 1957-ci ildən tədricən Türkiyə torpaqlarına yerləşdirilməyə başlansa da, raketlərin atəş sistemi və döyüş başlıqlarının quraşdırılması 1962-ci ilin ortalarında tamamlana bildi. Türkiyə raketlərə "sahibi" olsa da, döyüş başlıqları ABŞ-ın nəzarəti altında olacaq və ABŞ və Türkiyənin birgə icazəsi olmadan istifadə olunmayacaqdı. [21, səh. 177]

Onuda qeyd etməliyik ki, NATO ölkələrinin əksəriyyəti Sovet təzyiqinə məruz qalmaq istəmədiyi üçün Amerika raketlərinin öz ərazilərində yerləşdirilməsini istəməmişdir. Sözügedən raketləri yalnız İngiltərə, İtaliya və Türkiyə öz ərazilərində yerləşdirməyi qəbul etmişdir. Türkiyə rəsmiləri belə bir fikirdə idilər ki, bu raketlər yerləşdirilsə, Türkiyə SSRİ təhlükəsindən qorunacaq, ölkənin strateji əhəmiyyəti artacaq və Türkiyə-Amerika münasibətləri daha da inkişaf edəcəkdir. [22, səh. 98-99]

Türkiyə sözügedən raketlərin yerləşdirilməsinə icazə versə də, təhlükəsizliyi baxımından da böyük riskə getmişdi. Əslində Türkiyədə raketlərin yerləşdirilməsi ilə SSRİ-nin Türkiyəyə qarşı reaksiyası artmağa başlamışdı. 1962-ci ilin mayında Sovet lideri Nikita Xruşşov ABŞ-ın Türkiyəyə raketlər yerləşdirməsini qətiyyətlə pisləmiş və buna cavab veriləcəyini bildirmişdi. Sovetlərin nəzərdə tutduğu "cavab" Kubada Yupiterə bənzər raketlərin yerləşdirilməsi olacaqdı. [20, səh. 179] Nəticədə isə Kuba Böhranı meydana gəlmişdi.

Ərazisində Amerika raketləri olan Türkiyə istər-istəməz bu böhranın ən mühüm aktorlarından birinə çevrildi. SSRİ açıq şəkildə bəyan edirdi ki, Kubadan öz raketlərini ancaq Türkiyədəki Yupiterlərin çıxarılması müqabilində geri çəkəcək. Böhran zamanı SSRİ-nin Kubadakı bazaların çıxarılması müqabilində Türkiyədəki Yupiterləri sökmək təklifi Türkiyədə Sovet İttifaqına qarşı inamsızlıq yaratmışdı. Türkiyəni daha çox narahat edən isə ABŞ-ın böhran boyunca tutduğu mövqedir. Türkiyənin rəyi olmadan Yupiter raketlərinin çıxarılması qərarı ABŞ-la münasibətlərə yenidən baxılmasına səbəb olmuş və SSRİ ilə yeni münasibətlərə yol açmışdır. [20, səh. 180] Məhz, ABŞ-ın Türkiyə və İtaliyada yerləşən Yupiter raketlərini geri çəkməsi müqabilində SSRİ də öz raketlərini Kubadan çıxaracaqdı. Əvvəla, bu sövdələşmə gizli saxlanılacaq və ABŞ SSRİ-nin Kubadakı bazaları müqabilində tədricən Türkiyədəki bazalarını ləğv edəcəkdi. [21, səh. 171-75]

Küba Böhranından sonra Türkiyə çoxşaxəli xarici siyasətə keçməyə başladı. O, mənsub olduğu Qərb Blokunun maraqlarını deyil, öz xarici siyasət məqsədlərini həyata keçirməyə daha çox üstünlük verdi. Ankara bu zaman Moskva ilə münasibətləri normallaşdırmış, sonra əməkdaşlığaı inkişaf etdirməyin yollarını axtarmışdır. Bu müsbət münasibətə qarşılıqda görməyə başlamışdır. Kuba böhranından sonra Xruşov 1962-ci il dekabrın 12-də SSRİ Ali Sovetinin iclasında beynəlxalq vəziyyəti və Sovet xarici siyasətini qiymətləndirərkən Türkiyə haqqında aşağıdakı müsbət fikirləri söyləmişdir: "Biz Türkiyə ilə dostluq içində yaşamaq istəyirik. Qoy Qara Dəniz bizi ayırmasın, birləşdirsin. Bu, SSRİ üçün də, Türkiyə üçün də faydalı olardı. Türkiyə hökumətinin münasibətləri yaxşılaşdırmaq istədiyi bizi sevindirir.

Ümid edirik ki, bu istəklər real addımlarla gücləndiriləcək. Bunun əsası var. Bu əsas Lenin və Atatürk zamanlarına gedib çıxır. [16, səh. 164]

Xarici siyasətdə Kuba böhranının həllindən sonra 1963-cü ildən etibarən SSRİ -Türkiyə münasibətlərində ümumi inkişafa xidmət edən rəsmi səfərlər başladı. 1963-cü ildə SSRİ ilə Türkiyə arasında rəsmi səfərlər ili oldu. SSRİ Türkiyədən parlament nümayəndə heyətini dəvət etdi. Parlament sədri Suat Hayri Ürgüplünün başçılıq etdiyi nümayəndə heyəti 29 may-14 iyun 1963-cü il tarixləri arasında SSRİ-yə səfər həyata keçirmişdir. Parlament nümayəndə heyəti Moskva ilə yanaşı Volqaqrad, Bakı və Daşkənddə olmuşdular. İyunun 12-də Fahri Korutürk qəbul geçirmiş və qəbulda Kozlov və Voroşilov da iştirak etmişdir. [23, səh. 421]

SSRİ Türkiyə münasibətlərinin inkişaf səbələrini araşdıran zaman Kipr məsələsinində qeyd etmək vacibdir. SSRİ Kipr probleminə ilk növbədə müstəmləkəçiliyə qarşı müstəqillik uğrunda mübarizə kimi baxmış və bu mübarizəni dəstəkləmişdir. Kipr məsələsi 14 dekabr 1954-cü ildə BMT-nin Baş Assambleyanın 9-cu iclasında ilk dəfə gündəliyinə gələndə SSRİ problemin həllinin ada xalqlarına aid olduğunu bəyan etmiş və öz müqəddəratını təyinetməni dəstəkləmişdir. [16, səh. 212]

Bilgəh qalası XIII-XIV əsrlərdə Şirvanşahlar dövründə ağdaşdan tikilib. Yalnız bir hissəsi dövrümüzə qədər gəlib çatmış bu müdafiə və müşahidə qalasından uzun müddət mayak kimi istifadə olunmuşdur. Vaxtilə gəmilərin gecə saatlarında sahili tapması üçün qalanın üzərində tonqal yandırılırdı. Elə bu səbəbdən də "Tonqal qalası" da adlandırılırdı (4, s.35-40). Məlum məsələdir ki o dövürdə tikinti materialları çox deyildi. Bu səbəbdən qalanın palçıq və yumurta sarısından tikildiyini deyirdilər. Hazırda dövrümüzə qədər gəlib çıxan qalanın hündürlüyü 21metr, diametri 17 metrdir. Qalanın sol tərəfi dəniz istiqamətinə düşdüyü üçün şoranlıqdan, nəmdən ağarıb, sağ tərəfi isə demək olar ki, uçub. Üç mərtəbəsi geniş zirzəmisi, yanında şirin su quyusu və gili yeraltı yol olan qalanın geniş qapısı olmuşdur. Lakin həmin qapı uçulub dağılmış dövrümüzə qədər gəlib çatmamışdır. Su quyusunun aqibəti haqqında demək olar ki, heç bir məlumat yoxdur.

Qala əvvəllər gəmilərə yol göstərən mayak rolunu oynayıb. Onların yalnız gördüyümüz uçuq-tökük bir hissəsi dövrümüzə gəlib çatmışdır. Qala həm müdafiə, həm də müşahidə rolunu oynayan qala olmuşdur (3, 44-49).

Qala və bürclərdə müşahidə olunarkən su ilə təmin etmək üçün həm qalaların həyətində, lap yaxınlığında , həm də qalanın daxilində su quyuları- çalalar var idi.

Nəzərdən keçirdiyimiz qala-bürclərin memarlığı, onların sadə, həndəsi fiqurlar silindir və ya paralelopiped şəkilində tikilməsi, divarların demək olar ki, tamamilə bəzəksiz və hamar olması, pəncərələrin bir yarıq-mazğal şəklində olması onların öz vəzifələrinə, yəni feodallar üçün çətin alına bilən bir müdafiə qalası olmasına tamamilə uyğun gəlir. Onların içəriyə girməyi üçün çətinləşdirmək üçün qəsdən balaca hazırlanmış giriş qapıları qalanın kənardan baxana daha böyük və əzəmətli görünməsinə səbəb olurdu. Ərazinin təbii şəraitindən bacarıqla istifadə etmiş memar ustalar bu qala və bürclərin memarlıq görünüşünü də müvəffəqiyətlə həll etmişdir.

Ədəbiyyat

1. Aşurbəyli S. Bakı şəhərinin tarixi . Azərbaycan Dövlət Nəşriyyatı – Bakı 1998 356s
2. Dadaşov.C., Useynov M. Bakının memarlıq abidələri. Azərb.SSR EA nəşriyyatı . Bakı-1955 138s
3. Əliyev İ. , Abdullayev F. Naməlum Abşeron. Bakı -128s
4. Salahzadə Q.H Bilgəh. Bakı-2004.

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА АПШЕРОНЕ И ИХ ПРЕДВАРИТЕЛЬНЫЕ РЕЗУЛЬТАТЫ

Бабаев Алибаба Гусейнкулу

Резюме

Оборонительные крепости на Апшеронском полуострове были в основном реликвиями веков. Построенные на Апшероне крепости (Мардакан, Нардаран, Рамана, Бильгях и др) являлись составными частями единой системы обороны и выполняли роль укрытии и сторожевых постов. Если противник захватывал один из фортов, расположенных вдоль побережья, то серьезное сопротивление оказывалось в оборонительных сооружениях в селах Маштага, Забрат, Гала, Рамана в глубине полуострова. По подсчетам исследователей, таких оборонительных сооружений на Апшеронском полуострове было более 30. Если посмотреть на карту Апшеронского полуострова, то можно увидеть последовательность соединения береговых оборонительных сооружений с точками в глубине полуострова.

ARCHAEOLOGICAL STUDIES IN ABSHERON AND THEIR PRELIMINARY RESULTS

Babayev Alibaba Huseyngulu

Summary

Defense fortresses on the Absheron peninsula were mainly relics of the 13th-14th centuries. The fortresses built in Absheron (Mardakan, Nardaran, Ramana, Bilgah etc.) were integral parts of the unified defense system and played the role of shelters and guard posts. The construction of Absheron fortresses along the northeastern coast was due to the expectation of danger from that direction. It the enemy captured one of the forts located along the coast, then there was serious resistance in the defensive structures in the villages of Mashtaga, Zabrat, Gala, and Ramana in the interior of the peninsula. According to researchers calculations, there were more than 30 such defense structures on the Absheron peninsula. If we look at the map of the Absheron peninsula, we can see the connection of coastal defense structures with the points in the interior of the peninsula.

Rəyçilər: T.ü.f.d.dos., Elmira Cəfərova, T.e.f.d.dos., Taleh Əliyev
AMEA, Azərbaycanın orta əsrlər dövrü arxeologiyası şöbəsinin 30.09.2022 tarixli iclasın 09 saylı prot
Daxil olduğu tarix 14 oktyabr 2022-ci il

UOT: 9(4794)

ARRAN MEMARLIĞININ MƏRKƏZİ ŞƏHƏRİNDƏ SƏNƏTİN İNKİŞAFINA DAİR

Əhmədova Türkan Yusif qızı
Lənkəran Dövlət Universitetinin doktorantı
ORCID ID: https://orcid.org/0000-0002-9797-2716
turkan_ahm@mail.ru

Xülasə: *Gəncə şəhəri tarixi əhəmiyyətinə görə Azərbaycanın ikinci böyük şəhəri, ölkənin qərbində yer alan böyük sənaye və mədəniyyət mərkəzidir. Şəhər haqqında ərəb, fars, gürcü, rus və orta əsr Avropa müəlliflərinin əsərlərində rast gəlinir. Gəncə Azərbaycanın digər şəhərləri kimi əlverişli coğrafi mövqeyə, gözəl mənzərəyə sahib olan yaşayış məskəni olub tədricən şəhər kimi formalaşmışdır. X əsrin ortalarından şəhər iri siyasi, iqtisadi və mədəni mərkəzə çevrildi. Gəncənin siyasi mərkəzə çevrilməsi şəhərin iqtisadi həyatına da*

güclü təsir etdi. Atabəylər dövlətinin hakimiyyəti zamanı şəhərdə tikinti daha da genişləndi, Gəncə Arranın paytaxtına çevrildi. X-XI əsrlərdə Gəncə Arran memarlıq məktəbinin mərkəzlərindən biri idi. Bu memarlıq məktəbinin öyrənilməsində Gəncədə aparılan arxeoloji tədqiqatlar mühüm rol oynayır.

Açar sözlər: inşaat texnikası, istehkamlar, arxeoloji qazıntılar, qəbir abidələri, müdafiə sistemi, memarlıq məktəbi.

Keywords: construction equipment, fortifications, archaeological excavations, grave monuments, defense system, school of architecture.

Ключевые слова: строительная техника, фортификационные сооружения, археологические раскопки, могильные памятники, система обороны, архитектурная школа.

Orta əsr Azərbaycan şəhərləri Şərq memarlıq üslubunda olan karvansaralar, qəsrlər, məscidlər, minarələr, ictimai və dini binalar, yaşayış evlərindən və s. ibarət olan sıx tikintilərə malik idi. IX-X əsrlərə aid tikinti qalıqları şəhərlərin memarlıq və inşaat texnikasını araşdırmağa şərait yaradır.

Şamaxı, Bakı, Dərbənd, Qəbələ, Gəncə, Şəmkir, Beyləqan, Dəbil, Xaraba-Gilan və başqa şəhərlərdə aparılan qazıntılar şəhristanda, xüsusilə XI-XII əsrlərdə tikintilərin çoxluğundan, onların sıx yerləşməsindən xəbər verir.

Gəncə ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, burada mədəni təbəqələrin qalınlığı 3-5 m-ə çatır. Bu təbəqələrdə şəhərin qədim və orta əsrlər tarixini öyrənmək üçün zəngin arxeoloji materiallar vardır. Şəhərin bir çox qiymətli memarlıq abidələri və tikililəri olmuşdur ki, onlardan az bir qismi bizə gəlib çatmışdır.

Gəncə şəhərinin mədəniyyətinin öyrənilməsində maddi və yazılı mənbələrin böyük rolu var. Yazılı mənbələrin məlumatına görə XI-XII əsrlərdə Gəncədə təmtəraqlı saraylar, örtülü bazarlar, tacir və əyanların yaraşıqlı evləri var idi.

XII-XIII əsrlərdə Gəncə çox möhtəşəm istehkamlara, memarlıq abidələrinə malik bir şəhər olmuşdur. Bu istehkamların şəhərin xarici basqınlardan müdafiə olunmasında xüsusi əhəmiyyəti var idi. 1221-ci ildə monqollar Gəncəyə hücum etsələr də, buradakı istehkamlar və cəsur əhali şəhəri düşmən basqınından xilas edə bilmişdir.

Gəncə şəhəri ətrafındakı abidələrin, xüsusilə qəbir abidələrinin öyrənilməsi baxımından Y.Hummelin "Arxeoloji oçerklər" adlı əsərinin rolu da ayrıca qeyd edilməlidir. [2; səh-9]

Gəncə X əsrin ortalarında Salarilərin hakimiyyəti altında, daha sonra isə Şəddadilərin paytaxtı olmuşdur.

I Fəzlunun (895-1030) hökmranlığı dövründə Gəncə ən güclü dövrlərini yaşamışdır. Şəddadilər dövründə qala, saraylar, körpülər və karvansaraylar inşa edilmiş və burada pul kəsilməyə başlanmışdır. Şəhəri əhatə edən yeni və daha davamlı qala inşa edildi. 1063-cü ildə dəmirçi İbrahim məşhur Gəncə darvazalarını tikdi. [6]

Gəncə şəhərindən 6 kilometr şimal - qərbdə köhnə Gəncənin qala divarları, saraylar, daşdan, bişmiş və çiy kərpicdən tikilmiş bina qalıqları vardır. Bu xarabalar XII əsrə aiddir. Gəncədə IX əsrə aid olan Comərd Qəssab türbəsi 2004-cü ildə bərpa edilmişdir. Eyni zamanda, qədim şəhərin atributlarından olan qala divarları, Nizami Gəncəvinin türbəsi, xalqın mifoloji təfəkkürünü canlandıran «Şir və Günəş» abidəsi, «Ay ulduz» kompleksi, «Gəncənin gerbi», «Gəncə darvazaları» və s. kimi tarixi yadigarlar qurulub gələcək nəsillərin ərməğanına çevrilmişdir. [7;səh-55]

Gəncə memarlığında üstünlük təşkil edən elementlərdən ən qədimi möhrə inşaat texnikasıdır. Möhrə inşaat texnikası çiy kərpicin ixtirasına qədər və onunla paralel surətdə

uzun müddət davam etmişdir. Şəhərin sahillərini bir-biri ilə birləşdirən çatmatağlı nəhəng körpülər isə ağ daşdan və çınqıldan tikilirdi. Gəncədə bişmiş kərpic istehsalı da geniş vüsət almışdır. Tikililərin divarları hər iki tərəfdən ağ torpaq və saman qarışıq palçıqla suvanıb. Gəncə yaxınlığında gəc yataqlarının olması, tikintidə gəcdən istifadə üçün böyük imkanlar yaradırdı.

Əslən Gəncəli olan arxeoloq-alim İsaq Cəfərzadə 1938-40 – cı illərdə qədim şəhərin ərazisində geniş miqyaslı qazıntı işi aparıb. Zəngin materialları diqqətlə araşdıraraq ilk dəfə olaraq qədim Gəncənin hüdudlarını müəyyən edib. Şəhərin plan-xəritəsini çəkib. Memarlıq quruluşunu, hörgü sistemini öyrənib, üç körpünün yerini dəqiqləşdirib. [3; səh-16]

Görkəmli ərəb səyyahı Abdullah ər-Rumi əl-Həməvinin (1179-1229) "Mucəm əl-buldan " (Ölkələrin əlifba sırası ilə siyahısı) adlı coğrafi lüğəti Arranı öyrənmək üçün əhəmiyyətli mənbədir.

"Mucəm əl-buldan" böyük kompilyativ əsərdir. Burada çoxu bizə gəlib çatmayan yüzdən artıq ilk mənbədən istifadə edilmişdir. Yaqut Azərbaycan və Arran tarixinə dair məlumatında əl-İstəxri, ibn əl- Fəqih və bir çox başqa müəlliflərin əsərlərindən material verir. Özü də demək olar ki, hər yerdə hansı mənbədən istifadə etdiyini göstərir və başqa əsərlərdən götürdüyü materialı öz səyahətləri zamanı topladığı məlumatla tamamlayır. O öz materialını müvafiq ölkə, vilayət, şəhər və kəndlərin adlarına uyğun əlifba sırası ilə sistemə salmışdır. Yaqutun lüğətinin xüsusiyyəti burasındadır ki, müntəzəm olaraq, gətirdiyi coğrafi adların dürüst tələffüzünü müəyyən edir və beləliklə, toponimika cəhətdən düzgün nəticələr çıxarmağa imkan verir. [10; səh-30]

Orta əsrlərdə Azərbaycanın xalq yaradıcılığı həm arxitektura və bədii sənət, həm də poeziya və ədəbiyyat üzrə yüksək inkişaf eləmişdi. XI-XIII əsrlərdə sənət yalnız Zaqafqaziya ölkələrində deyil, həm də ön Şərqin hər yerində çiçəklənmişdi. Şərq isə o vaxt qərbdən çox yüksəkdə dururdu. Mədəniyyət inciləri bizə o vaxtın azərbaycanlı ustalarının əsas sənət növlərindən söhbət açmağa imkan verir. [1; səh-24]

Gəncə şəhərinin orta əsr müdafiə sistemində mühafizə qurğuları, istehkamlar çox vacib yer tutur. Bu günədək qalmış tikililər tarixşünaslıqda nisbətən yaxşı öyrənilib. Lakin adlarına təkcə mənbələrdə rast gəlinən istehkamlar zəif tədqiq edilib. XIII əsrdə (1213 və 1220-ci illərdə) iki dəfə Azərbaycana səyahət etmiş ərəb tarixçisi, səyyah Yaqut əl-Həməvi Gəncəni Arranın ən qədim istehkamlarından biri kimi adlandırmışdır. Onun "Ölkələr haqqında lüğət"ində Azərbaycan şəhərləri haqqında dəyərli məlumatlar yer alıb.

Gülüstan qalası Şərqi Gəncəbasarın müdafiə istehkamları içərisində olduqca əhəmiyyətə malikdir. Qala Murovdağın ətəyində, Şərqi Gəncəbasar ərazisindəki Goranboy rayonunun tərkibində, dəniz səviyyəsindən 1700 m yüksəklikdə yaylada yerləşir.

Şəhər mədəniyyətinin öyrənilməsində yaşayış yerləri ilə yanaşı qəbir abidələrində aparılan arxeoloji qazıntılar da xüsusi rol oynayır. Bunlar içərisində kurqanlar, küp qəbirləri, torpaq qəbirləri Şərqi Gəncəbasarda kifayət qədərdir.

Dəfələrlə Azərbaycanda olmuş böyük türk səyyahı, coğrafiyaşünas Evliya Çələbi öz səyahətnaməsinə yurdumuzun iqtisadi həyatı, yaşayış məntəqələri, tarixi, xalqımızın adət-ənənələri, abidələrimiz haqqında olduqca maraqlı məlumatlar daxil etmişdi.

Səfəvi–Osmanlı müharibələri zamanı dəfələrlə əldən-ələ keçmiş qədim Gəncə bu zaman tənəzzülə uğramışdı. Lakin bununla belə, səyyahın yazdığına görə, altı min ev, çoxlu imarət, cərgə-cərgə dükanlar, abad bazar, hamamlar, çoxlu məscid və b. memarlıq abidələri olan «şəhər çoxlu bağları və üzümlükləri olan bir düzdə yerləşirdi». Evliya Çələbi yazır: «Gəncənin ipəyi hər yerdə məşhurdur». [5; səh-262]

Gəncə şəhəri haqqında ətraflı və daha dəqiq məlumatları tədqiqatçı Arif Məmmədovun "Gəncəbasar IV-XIII əsrlərdə (tarixi arxeoloji tədqiqat)", "Gəncə və onun ətrafının tarixi arxeoloji tədqiqi (ən qədim zamanlardan XIX əsrə qədər)", "Qədim Gəncə (tarixi arxeoloji tədqiqat)" kitablarından əldə etmək olar.

Ədəbiyyat

1. Altman M.M., Gəncə şəhərinin tarixi oçerki, Tovuz, 1991, 63 səh
2. Məmmədov A. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi-arxeoloji təd.) , Bakı-1992-Elm, 205 s.
3. İsayev Ə. Gəncə və gəncəlilər (roman-xronika), Bakı,2008, 596 səh.
4. Əhmədov F. Gəncənin tarix yaddaşı, Bakı, 1998, 196 səh.
5. Mahmudlu Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: 2012, 296 səh.
6. Mövqe qəzeti, 25-26 avqust 2011-ci il.
7. Dostiyev T. Azərbaycanın orta əsr şəhərləri (IX-XIII əsrin əvvəlləri), Bakı,2016, 200 səh.
8. Yusifov M. "Azərbaycançılıq", Elm və Təhsil, Bakı, 2010, 132 səh.
9. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər), Bakı, 2007, 312 səh.
10. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə, Bakı, "Şərq-Qərb", 2007, 424 səh.

О РАЗВИТИИ ИСКУССТВА АРХИТЕКТУРЫ АРРАН В ЦЕНТРЕ ГОРОДА

Ахмедова Тюркан Юсиф кызы

Резюме

Гянджа является вторым по величине городом Азербайджана по своему историческому значению и крупнейшим центром на западе страны. Этот город встречается в произведениях арабских, персидских, грузино-русских и средневековых европейских авторов. Гянджа, как и другие города Азербайджана, имеет выгодное географическое положение с прекрасными видами, постепенно формируя город.

С середины X века город стал крупным политическим, экономическим и культурным центром. Превращение Гянджи в политический центр оказало значительное влияние на экономическую жизнь города. В период правления государства Атабеков строительство в городе было расширено, в результате чего Гянджа стала столицей Аррана. В X-XI веках Гянджа была одним из центров Арранской архитектурной школы. Археологические исследования в Гяндже играют важную роль в изучении этой архитектурной школы.

ON THE DEVELOPMENT OF THE ARRAN ARCHITECTURE ART IN THE CITY DOWNTOWN

Ahmadova Turkan Yusif

Summary

Ganja is the second largest city in Azerbaijan in its historical significance and the largest center in the west of the country. This city is found in the works of Arab, Persian, Georgian Russian, and medieval European authors. Ganja like other cities of Azerbaijan, has an advantageous geographical position with beautiful views, gradually forming a city.

Since the middle of the 10th century, the city has become a major political, economic and cultural center. The transformation of Ganja into a political center had a significant impact on the economic life of the city. During the reign of the state of Atabey, construction in the city was expanded, as a result of Ganja becoming the capital of Arran. In the X-XI centuries, Ganja was one of the Arran School of Architecture centers. Archaeological research in Ganja plays an important role in the study of this school of architecture.

Rəyçi: Dos. S.F.Abdullayeva
ADAU-nun 4 noyabr 2022-ci il tarixli iclasın 03 saylı protokolu
Daxil olma tarixi 14 noyabr 2022-ci il

UOT: 94(479.24).

XOCALI SOYQIRIMINA APARAN YOL - QARADAĞLI FACİƏSİ

Namazova Elminaz Məhərrəm qızı
Gəncə Dövlət Universiteti
elminaznamazova@mail.ru

Xülasə*:* *1989-cu ildən etibarən Azərbaycan Respublikasının Xocavənd rayonunun Qaradağlı kəndinin sakinləri erməni işğalçılarına qarşı dörd il qəhrəmanlıqla mübarizə aparmışlar. Bu dövrdə Qaradağlının ətraf erməni kəndləri və rayon mərkəzi ilə əlaqəsi kəsilmiş, işləyənlər işdən qovulmuşdular.*

1992-ci il fevralın 14-də erməni quldurları xarici muzdluların, xüsusilə, Xankəndində yerləşən keçmiş SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının hərbi qüvvəsinin və texnikasının köməyi ilə əlaqəsi hər tərəfdən kəsilmiş köməksiz qalan Qaradağlı kəndinə hücuma keçdilər.

Kəndə son hücum 1992-ci il fevralın 17-də səhər saat 5:00 radələrində başladı. Kənd uğrunda döyüş on bir saat davam etmiş və Qaradağlı kəndi erməni silahlı dəstələri tərəfindən işğal edilərək yandırılmışdı. Bu hücum zamanı erməni işğalçıları dinc əhaliyə qarşı soyqırımı həyata keçirmişdi. Kənddə olan 118 nəfər əsir götürülmüşdür. Əsir götürülənlərdən əksəriyyəti gənclər olmaqla 33 nəfəri kəndin yaxınlığında vəhşicəsinə güllələnmiş, öldürülənləri və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək üzərlərini torpaqla örtmüşlər. Əsirlikdən xilas edilənlərin böyük əksəriyyəti əsirlikdə verilən ağır işgəncələrdən, onlara vurulmuş naməlum tərkibli iynələrin təsirindən qısa zamanda vəfat edib.

Qaradağlıda törədilən qətliam, kənd sakinlərinə verilən işgəncələr 200 ilə yaxın müddətdə erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı və Azərbaycan türklərinə bəslədikləri nifrətin nəticəsi idi. Bu nifrət xalqınıza qarşı növbəti daha dəhşətli Xocalı soyqırımının törədilməsinə yol açdı. Xocalı soyqırımı ermənilərin necə vəhşi bir xalq olduğunu bir daha bütün dünyaya sübut etmiş oldu.

1992-ci ilin dəhşətli fevral gecəsində Xocalıda törədilmiş qətliamlar elə bir şəkildə həyata keçirilmişdir ki, belə əməlləri insan ağlı nə dərk edə bilər, nə də insan vicdanı onu daşıya bilər. İnsan, Xocalı soyqırımının insan əməli olmasını dərk etməkdə belə acizdir. Bunu yalnız İblis əməli hesab etmək olar.

Açar sözlər: Azərbaycan, Qaradağlı kəndi, Xocalı, soyqırım, terror, faciə, erməni cəlladları

Ключевые слова: Азербайджан, село Гарадаглы, Ходжалы, геноцид, террор, трагедия, армянские палачи.

Keywords: Azerbaijan, Garadagli village, Khojaly, genocide, terror, tragedy, Armenian executioners

Tarix boyu türklərə qarşı soyqırımı həyata keçirməkdən çəkinməyən ermənilər XX əsrin sonlarında bütün bəşəriyyətə və insanlığa ləkə olan növbəti cinayəti-Qaradağlı soyqırımını həyata keçirdilər.

Qaradağlı faciəsi ermənilərin xəstə təfəkkürdən doğan niyyətlərinə çatmaq üçün Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifələrindən biridir.[1]

Qaradağlı faciəsinin qurbanı İslam Dadaşov bildirirdi ki,1988-ci ildən sonra Qarabağ və ətraf rayonlarda yaşayan sakinlərin evində olan silahlar zorla yığılır, kəndlilər məqsədli

şəkildə tərkisilah edilirdilər. Düşmənə qarşı hər kəs əlindən gələni edirdi.Qaradağlının müdafiəsi zamanı kənd sakinləri düşmənə qarşı bütün vasitələrdən istifadə edirdilər Ağır texnikalarlarla silahlanmış ermənilərə qarşı bir neçə avtomat və ov tüfəngimiz var idi. Həmçinin düşmənə qarşı nisbətən iri daşlar atan yerüstü sapanddan da istifadə edirdik. O zaman kimin evində pulu, qızılı var idisə avtomat və güllə alıb, kəndin özünümüdafiə dəstəsinə qoşulub, ermənilərə qarşı vuruşurdu. [2].

1989-cu ildən etibarən kənd üzərinə ermənilərin hücumu başlamışdı. Həmin ilin dekabrında ermənilər kənd yaxınlığındakı fermaya hücum etmiş və oranı yandırmışdılar. 1990-cı il yanvarın 15-də 20 nəfərə qədər silahlı erməni Qaradağlıya yaxınlaşıb kəndin kənarındakı evləri atəşə tutmuşlar. Özünü hadisə yerinə çatdıran müdafiəçilər ilk açıq silajlı döyüşə girərək düşməni geri oturtmuşdular. Erməni quldurları 10 aprel 1990-cı ildə yenidən kənddə hücum etmişdilər. Atışma zamanı kənd sakini İlqar Əliyev ağır yaralanmışdı. 1990-cı il noyabr 24-də saat 17-00 radələrində Qaradağlıdan Ağdama gəlin aparan maşın karvanı, kəndin 5 kilometrliyində rus hərbi paltarı geymiş ermənilərin təcavüzünə məruz qalmış, həmin hadisədə üç nəfər qaradağlılı həlak olmuşdu. Ermənilər hadisə yerini mühasirəyə alaraq meyidləri aparmağa gələnləri irəli buraxmır , Ayaz Mütllibovun gəlməsini tələb edirdilər. İki saatdan sonra , çətinliklə də olsa, camaat meyidləri ermənilərin əlindən ala bilmişdi. Bu hadisədən sonra Qaradağlı müdafiəçiləri kəndin ətrafında güclü müdafiə postları, istehkamlar və səngərlər qurmaq qərarına gəldilər. 1990-cı ilin noyabr ayından başlayaraq bütün postlarda fasiləsiz olaraq silahlı müdafiəçilər keşikdə dayanırdılar. 1991-ci ilin əvvəllərində baş vermiş faciə vəziyyəti daha da gərginləşdirdi. Yanvarın 10-da kəndin sakinlərindən olan Sultan Bayramov ermənilərə qarşı birgə mübarizə tədbirləri hazırlamaq üçün qonşu Əmrallar kəndinə getmişdi. Sultan Qaradağlıya qayıdanda kəndə çatmamış birinci postdan 4 kilometr məsafədə onun mindiyi "UAZ-469" markalı 53-55 AQT dövlət nişanlı minik maşını ermənilər tərəfindən qəfil atəşə tutulur. Maşının sürücüsü Kərəm Tağıyev maşını sürüb kəndə çatdırsa da, Sultan Bayramovun həyatını xilas etmək mümkün olmur. O, iki saatdan sonra aldığı yaralardan dünyasını dəyişir. Sultanın dəfn günü Laçın-Şuşa yolunda jurnalist Salatın Əsgərovanın ermənilər tərəfindən öldürülməsi xəbəri kəndə yayıldı. (3)

Bu faciəli hadisədən sonra qaradağlılar əməliyyat planı hazırladılar. Əməliyyata Ədalət Məmmədov rəhbərlik edirdi. Kəndin müdafiəçiləri tərəfindən Xankəndindən Xocavəndə tələsən, içində 6 erməni quldurun olduğu "UAZ" markalı maşın ələ keçirilərək məhv edildi. Bundan sonra Xankəndi- Xocavənd yolunda ermənilərin hərəkəti dayandı.

1991-ci il martın 9-da erməni quldurları kəndin yaxınlığındakı mal fermasına qəfildən silahlı basqın edib iki nəfəri qətlə yetirdi. Həmin il iyun ayının 28-də gecə saat bir radələrində Qaradağlı kəndi ermənilər tərəfindən toplardan, pulemyotlardan və avtomatlardan şiddətli atəşə tutuldu. Kəndin bir neçə evini alov bürüdü, bir neçəsi isə mərmi zərbəsindən dağıldı. Həmin gecə ən böyük faciə kəndin 5 kilometrliyində Vərəndəli sahəsində yerləşən fermada baş vermişdi. Quldurlar kəndi atəşə tutmaqla yanaşı eyni zamanda fermadakı evlərə soxularaq altı nəfər günahsız ferma işçisini də güllələmiş və izi itirmək üçün onları yanan evlərdən birinin içinə atmışdılar. Bundan sonra onlar kənara çəkilərək ferma tam yanana qədər oranı atəş altında saxlamışlar. Bəyverdi Novruzov başda olmaqla faciə yerinə gələn kənd camaatı yanan otaqların birində üç nəfərin güllədən dəlik-dəlik olmuş, odun-alovun içində yanmış meyidlərini çıxara bilmişlər.Başqa bir otağın odu söndürüldükdən sonra isə tamamilə yanmış digər üç nəfərin cəsədləri aşkar edilmişdi.

Qaradağlı kənd sakinləri Çingiz Məmmədov, Kərəm Ağalarov və Şəfqət Məmmədova Qaradağlının ağır günləri haqqında aşağıdakı məlumatı vermişlər:1991-ci il sentyabr ayının 8-də A.Mütəllibovun prezident seçilməsi günü idi. Qaradağlılar səhər tezdən seçki məntəqəsinə

gəlib səs verirdilər. Səsvermədən sonra bazarlıq etmək üçün kənd sakinləri seçki məntəqəsinin qarşısında dayanmış avtobusa minərək Ağdama getmişlər. Geri qayıdarkən avtobus Xocavənddən 3 kilometr aralıda hər tərəfdən avtomat atəşinə tutulmuş, avtobusda olan 40 nəfərdən 2 oğlan, 6 qadın qətlə yetirilmiş, 23 nəfər yaralanmışdır.[3]

1992-ci il yanvarın 8-də Qaradağlı kəndinin yaxınlığında Böyük Vətən Müharibəsi iştirakçısı Əliyev Qasım Hüseyn oğlu vəhşicəsinə qətlə yetirildi. Həmin gün Milli Ordumuzun döyüşçüsü, 23 yaşlı Məzahir Gülverdiyev ağır döyüşdə şəhid oldu. Kəndin qonşuluğunda olan Xocavənd kəndi 1991-ci il dekabrın 19-da işğal edildi. Kəndə yaxın olan Malıbəyli kəndi isə 1992-ci il fevralın 12-də yandırıldı. Hamıya aydın oldu ki, növbəti hədəf Qaradağlıdır. Kənddə vəziyyət getdikcə çətinləşir, faciənin törədiləcəyi gün hər dəqiqə yaxınlaşırdı. Ağdamda olan kənd sakinləri özlərini oda-közə vursalar da respublika rəhbərliyi onlara kömək etmir, insanları yalançı vədlərlə aldadırdılar. Düşmən isə çirkin niyyətlərini həyata keçirmək üçün yeni planlar hazırlayır, qurbanlar axtarırdı.[4]

1992-ci il fevralın 14-də kəndin bütün yolları kəsilmişdi. Həmin vaxt 104 nəfər kənd sakini və 14 əsgərimiz demək olar ki, son anlarını yaşayırdılar. Ermənilər fevral ayının 14-də hücuma keçdilər. Kənd güclü atəşə tutuldu. Kənxurd, Qağarza, Ağkənd, Aşan, Müşkabad, Ninqi-Xakəndi və digər erməni kəndləri istiqamətində xarici muzdluların, Xankəndində yerləşən keçmiş Sovet ordusunun 366-cı alayın texnikasından və canlı qüvvəsindən istifadə edən ermənilər köməksiz qalan Qaradağlı kəndinə qəti hücuma keçdilər. Az miqdarda sadə silahlarla təmin olunmuş qaradağlılar on dörd nəfər Milli Ordunun əsgəri ilə birlikdə amansız və qeyri bərabər döyüşə girdilər. Qarşıda iki yol dururdu: Şərəfli ölüm və ya təslim olma. Onlar birinciyə üstünlük verdilər. Bu yolu seçən qaradağlılar son patronlarına qədər dörd gün döyüşdülər. Döyüş vaxtı onlarla erməni yaraqlısı məhv edildi. Silah sursatı tükənən soydaşlarımızı sonda ermənilər əsir götürdü.[4]

Kəndin Bəylik bağı adlanan ərazisində iyirmi üç sakin erməni cəlladları tərəfindən güllələndi, əksəriyyəti yaralı halda diri-diri silos quyusunda basdırıldı. Əsirlərin bir hissəsi Qaradağlı- Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülərək güllələndi. İki nəfər Zəki bulağında, iki nəfər Cəmiyyət kəndində öldürüldü. Girovluqda olan səkkiz kənd sakinini ermənilər əzab və işgəncələr verərək amansızlıqla qətlə yetirdilər. Dörd nəfər müxtəlif vaxtlarda şəhid oldu. Beş nəfərin taleyi bu günə qədər məlum deyil.[2]

Belıliklə, 1992-ci il fevralın 17-də Qradağlı kəndi erməni silahlıları tərəfindən işğal olunaraq yandırıldı. Qaradağlıya hücumda Arabo və Aramo birləşmələri, Monte Melkonyanın dəstəsi iştirak etmişdir. Həmçinin kəndə hücum zamanı 366-cı motoatıcı alayın da qüvvələrindən istifadə edilmişdir. 366-cı motoatıcı alayın komando heyəti, əhalinin müqaviməti ilə rastlaşdıqlarına görə alayın sərbəst çıxarılmasını təmin edə bilmədiyini qeyd edirdi. Bu məqsədlə Gəncədə yerləşən desant diviziyasının qüvvələri cəlb edilməli oldu. Ancaq bu qüvvələr gələnədək alayın 103 nəfəri, əsasən ermənilərdən ibarət olan və qırğında iştirak etmiş hərbiçilər əmrə tabe olmaqdan boyun qaçıraraq Qarabağda qaldılar. Alayın komandanlığının cinayət sövdələşməsi və alayın çıxarılmasına məsul olan digər şəxslərin məsuliyyətsizliyi nəticəsində hərbi texnikanın bir hissəsi, o cümlədən zirehli texnika ermənilərə təhvil verildi. Bu qüvvələr Qaradağlı və Xocalı soyqırımlarında iştirak etdilər. Qaradağıl soyqırımının şahidləri də soyqırım aktında 366-cı motoatıcı alayın iştirakını təsdiqləyirlər.[3]

İşğal zamanı kənddə 118 nəfər olub. Onların hamısı əsir götürülüb. Əsir götürülmüş 118 nəfərdən 66 nəfəri amansızlıqla, ağır işgəncələrlə qətlə yetirilib, 52 nəfər çox böyük çətinliklə əsirlikdən azad edilib.

Əsrlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. Erməni cəlladları öldürülənləri və yaralıları bir yerdə təsərrüfat quyusuna töküb, üzərini torpaqlayıblar. Əsir götürülənlərdən 10-u qadın, 2-si məktəbli olub.

Əsirlikdən xilas edilənlərin böyük əksəriyyəti əsirlikdə verilən ağır işgəncələrdən, onlara vurulmuş naməlum tərkibli iynələrin təsirindən qısa zamanda vəfat edib.

Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmlələri zamanı qətlə yetirililənlərin 10-u qadın, 8-i məktəb yaşlı uşaq olub.

İşğal nəticəsində Qaradağlı kəndində 200 yaşayış evi əşyaları ilə birlikdə, 1mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və çoxlu sayda digər obyektlər dağıdılıb.

Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün olub. İki ailədən hər birindən 4 nəfər həlak olub. 42 ailə başçısını itirib, 140-a yaxın uşaq yetim qalıb. Bu müharibədə Qaradağlı kənd sakinlərinin hər 10 nəfərindən biri ümumilikdə 78 nəfər şəhid olub.

Qaradağlı soyqırımı ermənilərin törətdiyi nə birinci, təssüf ki, nə də sonuncu soyqırım aktı deyil...

Ermənistan silahlı qüvvələri Qaradağlıda soyqırım törətməklə bərabər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələri və qəbristanlığı da dağıtmışlar.[5,səh. 5-6]

Erməni quldurlarının törətmiş olduğu Qaradağlı faciəsi, Xocalı soyqırımı və xalqımızın başına gətirdikləri digər qanlı faciələrin qisası xalqımıza Qarabağ Zəfərini bəxş edən bizi qalib xalqa çevirən başda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən qüdrətli Azərbaycan əsgəri tərəfindən 44 günlük müharibədə qətiyyətlə alındı.

Ədəbiyyat

1. http://www.xocavend-ih.gov.az/az/page/59.html
2.https://report.az/qarabag/qardagli-qaradagli-faciesinin-sahidleri-yaralilari-quyuya-tokub-ustunu -bağladilar-6-neferi-diri-diri-yandırdılar/
3.https://az.wikipedia.org/wiki/Qarada%C4%9Fl%C4%B1_q%C9%99tliam%C4%B1ə beynəlxalq axtarış elan edilib.
4. https://www.adalet.az/mobil/164459
5.Qənirə Paşayeva, Şaiq Aslanov ”Qaradağlı soyqırımı şahidlərin dili ilə”. “Elm və təhsil” Bakı-2013.

ДОРОГА, ВЕДУЩАЯ К ХОДЖАЛИНСКОМУ ГЕНОЦИДУ – ТРАГЕДИЯ ГАРАДАГЛЫ

Намазова Эльминаз Магеррам кызы

Резюме

Исторически армянами был совершен бесчисленный геноцид против нашего народа. Одной из страшных трагедий, с которыми столкнулся азербайджанский народ в XX веке, являются кровавые террористические акты и геноцид, совершенные армянскими вооруженными формированиями против мирного населения в селе Гарадаглы Ходжавендского района Азербайджанской Республики 17 февраля 1992 года. Гарадаглинская трагедия является одной из самых страшных трагедий, произошедших в период армяно-азербайджанского нагорно-грабахского конфликта.

В статье «Дорога, ведущая к Ходжалинскому геноциду – Гарадаглинской трагедии» рассматривается дорога, ведущая к Ходжалинскому геноциду – Гарадаглинской трагедии, которая является одной из самых страшных и кровавых страниц в истории нашего народа.

THE ROAD LEADING TO THE KHOJALY GENOCIDE - THE TRAGEDY OF GARADAĞLI

Namazova Elminaz Maharram

Summary

Historically, countless genocides were committed by Armenians against our people. One of the terrible tragedies faced by the Azerbaijani people in the 20th century is the bloody terrorist acts and genocide committed by Armenian armed groups against civilians in Garadagli village of Khojavand district of the Republic of Azerbaijan on February 17, 1992. The Garadaghli tragedy is one of the most terrible tragedies that happened during the Armenian-Azerbaijani Nagorno-Grabagh conflict.

In the article "The road leading to the Khojaly genocide - the Garadagli tragedy", one of the most terrible and bloody pages in the history of our nation and the road leading to the Khojaly genocide - the Garadagli tragedy was investigated.

Rəyçi:dos. A.Cavadov
Azərbaycan tarixi kafedrasının 7 iyul 2022-ci il tarxli iclasının 16 saylı protokolu
Daxil olma tarixi 25 oktyabr 2022-ci il

UOT 94 (479.25)

CƏNUBİ QAFQAZDA MÜNAQİŞƏLƏRİN TARİXİ KÖKLƏRİ

Qasımova Türkan İlqar qızı
Bakı Dövlət Universiteti
turkan.ilqar1990@mail.ru

Xülasə: *XX əsrin sonlarında Sovet İttifaqında tənəzzülün ilkelementləri aydın şəkildə müşahidə olunurdu. Sosial-iqtisadi tənəzzül öz növbəsində ittifaq respublikalarda təlatümlərə səbəb olurdu. Bu cür gərginliklər həm də millətlərarası münasibətləri kəskinləşdirirdi. Cənubi Qafqazda vəziyyət daha gərgin idi. Burada həm ittifaqın qurulmasına qədər mövcud olmuş münaqişə ocaqları, həm də ittifaqın qurulmasından sonra meydana çıxmış bir sıra problemlər var idi. Məhz bunun nəticəsi idi ki, ərazicə elə də böyük olmayan Cənubi Qafqazda üç aktiv münaqişə zonası meydana çıxdı: Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində ErmənistanAzərbaycan münaqişəsi, Gürcüstanda gürcü-abxaz və gürcü-osetin münaqişələri. Sadalanan üç münaqişə zonası SSRİ-nin qurulmasına*

qədərki dövrdə də qaynar nöqtələr olmuşdu. Sözügedən XX əsrin sonlarında olduğu kimi hazırdada öz aktuallığını qoruyur və Qafqazı dünyanın ən qaynar münaqişə ocağı məkanına çevirib.

Açar sözlər: Qafqaz, Azərbaycan, Ermənistan, Gürcüstan, atəşkəs, siyasət, Əsrin müqaviləsi, münaqişə, osetinlər, abxazlar

Ключевые слова: Кавказ, Азербайджан, Армения, Грузия, прекращение огня, политика, договор века, конфликт, осетины, абхазы.

Keywords: Caucasus, Azerbaijan, Armenia, Georgia, ceasefire, politics, Treaty of the century, conflict, Ossetians, Abkhazians

Giriş

Cənubi Qafqaz keçmiş SSRİ məkanının bir hissəsi kimi daim Rusiya, Türkiyə və İranla yanaşı, Avropa ölkələrinin də maraq dairəsində olmuşdur. Bu maraqların regionda millətlərarası münaqişələrin hələ keçən əsrin 80-ci illərinin sonlarından başlamasında rolu və əhəmiyyəti kifayət qədər böyük olmuşdur. Etnosiyasi amillərin təsiri ilə dərinləşən ziddiyyətlər 1986-cı ilin yazında Yakutiyada, dekabrında isə Alma-Atada açıq çıxışlar formasını almış, tədricən sovet imperiyasının bütün ucqarlarını bürüyərək İttifaqın dərin siyasi böhranını şərtləndirmişdi. Cənubi Qafqazda etnosiyasi münaqişələrin başlıca ocaqları Gürcüstanın və Azərbaycanın ərazisində olmuşdur. Əgər Sovet Sovet İttifaqının dağılması nəticəsində ilk münaqişə ocağı Qarabağda yaranmışdısa, Gürcüstanın ərazisində bir neçə etnosiyasi münaqişə ocağı təşəkkül tapmışdı ki, bunlardan gürcü-osetin və gürcü-abxaz münaqişələri bu qonşu xalqlara daha böyük fəlakətlər gətirmişdir.

Qarabağ münaqişəsi

Qarabağ münaqişəsi SSRİ-nin süqutundan sonra Qafqazdakı sabitliyi təhlükə altına alan problemlərin önündə yer almaqdadır. Tarixi bir türk yurdu olan Qarabağa Çar Rusiyası dönəmindən etibarən Ermənilər yerləşdirilərək XIX əsrin sonundan etibarən kiçik münaqişələr başlanmış XX əsrdə isə ciddi problem olaraq ortaya çıxmışdır. Çar Rusiyasının siyasətini davam etdirən Sovet hökumətinin dağılması ilə bölgədəki münaqişələr canlanmışdır. Qafqaz dağlarının cənub şərqində yer alan 4392 km^2 əraziyə malik Qarabağ Azərbaycan Respublikası sərhədləri daxilində Kür və Arazla Göyçə gölü arasında, Qərbdə Ermənistan cənubda isə İran sərhəddinə qədər şimaldan cənuba 120 km, şərqdən qərbə 35-60 km uzunluğunda dağ və düzənliklərdən ibarət bir bölgədir. Əsasən Dağlıq hissələrdən ibarət olması səbəbilə ədəbiyyatda Dağlıq və ya Yuxarı Qarabağ kimi adlandırılır. Dağlıq Qarabağ ərazi olaraq ümumi Azərbaycanın 5% ərazisini əhatə edir. Tarix boyunca Türk boylarının yerləşdiyi bölgələr sırasında yer alan Qarabağ Azərbaycanda hökm sürən dövlətlərin də hakimiyyəti altında olmuşdur.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanmasından sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi kütləvi hal aldı. Bu dövrdə Türkiyədən 86 min, İrandan isə 40 min erməni indiki Ermənistanın ərazisi olan Qərbi Azərbaycan torpaqlarına köçürüldü. Ermənilər əsasən Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirildi. Bundan sonra da Azərbaycanın parçalanması cəhdləri davam etdi və burada erməni vilayəti yaradıldı. Doğrudur, sonralar, 1846-cı ildə bu vilayət ləğv edildi, bununla belə, ermənilərin Azərbaycan ərazilərində məskunlaşdırılması prosesi tarixdə öz mənfi izini qoydu[8, s.418]. Ermənilərin Qafqazda məskunlaşdırılması müxtəlif dövrlərdə mərhələli şəkildə həyata keçirilmişdir. [1]

Təxminən 2 əsr əvvəl Rusiya çarı bir qisim erməni əhalisinin Dərbənd və Qubaya köçürülməsi barədə fərman imzalamışdır. "Dərbənd və Müşkir ermənilərinin imtiyazları və sərbəst hərəkət etmək hüququ haqqında" adlanan bu fərmanda ermənilərə kifayət qədər geniş hüquqlar verilmiş və onların həyat şəraitinin yaxşılaşdırılması üçün münbit torpaqlara köçürülmələrinin vacibliyi qeyd olunmuşdu. 1723-cü ildə isə Rusiya çarı I Pyotr 12 sentyabr tarixli müqavilə əsasında Bakı, Dərbənd və Quba ərazilərinə ermənilərin köçürülməsi üçün

[1] Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının, dissertantı E-mail: turkan.ilqar1990@mail.ru https://orcid.org/0000-0002-8350-8330

xüsusi yerlər ayrılması barədə fərman imzalamışdır. 1726-cı ildə II Yekaterina ermənilərə xüsusi mərhəmət göstərməyin və onları himayə etməyin zəruriliyini ifadə edən fərman vermişdir. 1729-cu ildə Rusiya çarının fərmanı ilə bir qrup erməni məliyi Rusiya təbəəliyinə qəbul olunmuşdur. 1799-cu ildə çar I Pavel ermənilərin Qazax ərazisində məskunlaşdırılmasına kömək üçün Kartli-Kaxetiya çarlığına xüsusi göstəriş vermişdir. Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nəinki ayrı-ayrı fərmanlarda və göstərişlərdə, hətta dövlətlərarası sazişlərdə belə öz əksini tapırdı. 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış Türkmənçay sülh müqaviləsində belə bir maddə də öz əksini tapmışdı ki, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiya ərazisinə keçmək hüququ verilir[8, s.385]. Bununla da əslində ermənilərin Azərbaycan ərazilərinə köçməsi üçün zəmin yaradılırdı. Çünki Rusiya əraziləri dedikdə məhz İrana daha yaxın olan Azərbaycan nəzərdə tutulurdu. 1828-1829-cu illərdə baş vermiş Türkiyə-Rusiya müharibəsindən sonra Türkiyədəki ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi barədə razılıq əldə olunmuşdu. Bunun reallaşdırılmasını sürətləndirmək məqsədilə Rusiyada xüsusi komitə yaradılmış və 12 maddəni əhatə edən ümumi qaydalar müəyyənləşdirilmişdi. Pyotrun vəsiyyətlərinə istinad edən bu siyasətin əsas məqsədi Azərbaycan ərazisini etnik baxımdan parçalamaq və burada xristian xalqlarının yerləşdirilməsini həyata keçirməklə cənubdan gələ biləcək təhlükələrə qarşı sipər yaratmaqdan ibarət olmuşdur. Beləliklə də ermənilər tədricən Azərbaycan ərazilərində yerləşdirilir, onlar üçün burada yaxşı şərait yaradılır və münbit torpaqlar ayrılırdı [12].

X.D.Xəlilov "Qarabağın etnik tarixindən" adlı əsərində ilk öncə o, Qarbağın tərkibinə daxil olan tarixi etnoqrafik vilayətləri sadalayır. Kiçik Qafqaz dağları, Kür-Araz ovalığı, Kürlə-Arazın qovuşduğu yerdən vilayətin cənub sərhədi başlayır, cənubda Araz çayı, Qarabağ dağları-Keşbek, Solvart, Erekli adı ilə məşhur olan və Göyçə gölünə qədər uzanan dağlar, Şərqdə isə Kür və Goran çayları-bütün bunlar sərhədlərdir. X.D.Xəlilov göstərir ki, Qarabağda 17 türk mahalı yerləşirdi: Sisyan, Dəmirçi-Aslanlı, Küparə, Bərgüşad, Bəhabyurd, Kəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbörd, Xırdapara-Dizaq, Otuziki, İyirmi dörd, Qaraçaorlu, Vərənd, Dizaq, Acan. Bir neçə kəndləri nəzərə almasaq 12 mahalda yalnız azərbaycanlılar yaşayırdı. Dizaq, Vərənd, Xaçın, Çiləbörd, Talış mahallarında azərbaycanlılar və ermənilər bir yerdə yaşayırdılar. Çarizmin müstəmləkəçilik planlarından bəhs edərkən müəllif qeyd edir ki, çarizm hər hansı bir yeri tutanda xalqları bir-birinə qarşı qoyurdu. O cümlədən çarizm azərbaycanlılara qarşı ermənilərdən istifadə etdi. "Çar ordusunun komandiri Sisianov 1805-ci il 22 may 19N-li raportunda yazırdı ki, öz coğrafi mövqeyinə görə Qarabağ həm Azərbaycanın, həm də İranın qapısı hesab olunur, ona görə də o, məsləhət görürdü ki, Çar bu yerləri öz əlində saxlasın. Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil olan kimi Sisianov öz mövqelərini möhkəmləndirmək üçün Zaqafqaziyanın başqa yerlərindən olan ermənilər Qarabağa köçürdü " [1, s. 38], [2].

N.İ.Şavrovun "Zaqafqaziyada rus işinə yeni təhlükə" başlıqlı qeydlərində isə bu məsələ ilə bağlı daha ətraflı məlumat vardır. "Biz öz müstəmləkiçilik siyasətimizə Zaqafqaziya qapılarında rusların deyil, digər yerlərdən gələn insanların daxil olması ilə başladıq [1, s. 60]. Hər şeydən əvvəl Şavrov 1819-cu ildə Vyurtemberq almanlarının 500 ailəsinin köçürdüklərini qeyd edir. Hansı ki, almanlar öz vətənlərində lazımsız hesab edilirdilər. Şavrov bunlardan Yelizavetpol və Tiflis quberniyalarında koloniyalar yaratdıqları və əlbəttə ki, bunlara ən yaxşı torpaqlar və imtiyazlar verdiklərini deyir.

Ermənilərin köçürülməsinə hazırlıq barəsində sülh danışıqları ərəfəsində Paskeviç İranda olarkən ermənipərəst siyasətinə ciddi şəkildə əməl edildi. Hər yerdə onu erməni keşişləri Nerses, Stefan, habelə ailəyə yaxın olan Sarkis müşayiət edirdi. Ermənilərin köçürülməsi məqsədilə Paskeviç, ermənilərdən ibarət xüsusi komitə təşkil etdi. Komitəyə

milliyətcə erməni olan Qriqori Davudoviç Lazarev rəhbərlik edirdi. 1828-ci ildə Qarabağ, Şəki, Naxçıvan, İrəvan və Şamaxıdan başqa Bərdəyə 1012 erməni ailəsi köçürüldü. Lazarev ermənilərin İrəvanda yerləşdirilməsinə daha çox çalışırdı,çünki burada ermənilər sayca az idi. Lazarev isə bundan narahat idi, "İrəvanda əhalinin 95%-i azərbaycanlı olduğundan bu çox təşviş doğururdu." Paskeviçin əmrinə əsasən İrəvanda Bebudovun başçılıq etdiyi və köçürülməsi ilə bağlı komitə yaradıldı. "1828-ci ilin may ayında Qarabağa 279 ailə, İrəvana isə 948 ailə köçürülmüşdür [3, s. 35]." Burada Şavrov ermənilərin köçürülməsi ilə bağlı aşağıdakıları qeyd edir: "1826-1828-ci ilin müharibəsi qurtardıqdan sonra biz 2 il ərzində (1828-1830) 40 mindən çox fars ermənisi və 8460 türk ailəsi köçürdük və onları Yelizavetpol və İrəvan quberniyasının ən yaxşı xəzinə torpaqlarında yerləşdirdik." Həmin yerlərdə erməni əhalisi yox dərəcəsində idi. Həmçinin ermənləri Tiflis, Borçalı, Axaltsixi və Axalkalaki bölgələrinə köçürdük. Şavrovun etirafı sübut edirdi ki, o dövrdə Zaqafqaziya quberniyalarında əsasən gürcülər və azərbaycanlılar yaşayırdı. O, göstərirdi ki,ermənləri yerləşdirmək üçün 200 min desyatin xəzinə torpağı ayrılıb və 2 milyon rubl məbləğində müsəlmanların şəxsi mülkləri satın alınıb. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Dağlıq Qarabağ) və Göyçə (Sevan) gölünün ətrafı bu ermənilərlə məskunlaşdırılır. Şavrov göstərirdi ki, bu dövrdə rəsmi şəkildə köçürülmüş 124 min ermənidən başqa, bu yerlərə qeyri-rəsmi surətdə də ermənilər gəlmişdi. Onların sayı 200 mini keçmişdi. Qarabağın da daxil olduğu İrəvan, Naxçıvan, Gəncə kimi Azərbaycan xanıqları 1828-ci ildəki Türkmənçay anlaşması ilə rusların əlinə keçmiş oldu. Bu tarixdən sonra ruslar İran və Anadolu ermənilərini Qafqaza gtirərək Qarabağa yerləşdirdilər. 1832-ci ildə ilk rəsmi rus statistikasına görə Qarabağın 64%-i Azərbaycan türkü, 34%-i isə erməni idi. Xüsusilə də I dünya müharibəsi sonrasında erməni köçlərinin çox olması və bunların da xüsusən Qarabağda yerləşdirilməsi nisbəti artırmış oldu [10, s. 22-23]. Beləliklə süni bir erməni bölgəsi yaradıldı.

Tanınmış rus hərbi tarixçisi Potto qeyd edirdi: "Təkcə 1828-ci ilin martında köçən erməni ailələrinin sayı 5 minə çatırdı." Erməni keşişi Nerses Aştrakeçiyə istinad edən Kuznetsova da Şimali Azərbaycana gətirilən erməni ailələrinin sayının 8 min olduğunu göstərir. İ.Şopenə görə isə İrandan erməni vilayətinə 35560 nəfər, 6946 erməni ailəsi köçürüldü [7, s. 95]. Rus tarixşünaslığında ermənilərin Azərbaycana köçürülməsi məsələsi kifayət qədər aydın, açıq-aşkar göstərilmişdir. Burada az da olsa, çarizmin milli müstəmləkəçilik siyasətinin ünsürləri rus mənbələrində öz dili ilə göstərilir. Təəssüf ki, ermənilərə daim əzabkeş xalq kimi baxan rus müəllifləri onların gələcəkdə Qafqaz xalqlarının, xüsusilə azərbaycanlıların başına gətirəcəkləri müsübətdən ya xəbərsiz idilər, yaxud da bunu əvvəlcədən bilirdilər. Təbii ki, əvvəlcədən bunu bilmələri rus çarizminin, ümumilikdə rus dövlətçiliyinin məqsədlərindən idi. Bölgənin əhali sayındakı dəyişiklik və ermənilərə verilən imtiyazlar yeni münaqişələrə zəmin hazırlamış oldu. XX əsrin ilk illərində İrəvan və Qarabağ ərazisində yerləşən ermənilərin başlatdığı hadisələr 1905-ci ildən etibarən ciddiləşərək Gəncə və Tiflis hadisələrini yaşatmış oldu. Bu məsələlərdə ermənilər Qarabağ və Tiflisdəki rus qarnizonunun əsgərlərindən dəstək görmüş oldular. Osmanlı arxiv qeydlərinə görə isə Qarabağ ermənilərinin həm bölgədə həm də Van, Bəyazid, Muş kimi Anadolu vilayətlərində etdikləri hücumları Ruslar dəstəkləyirdilər [11, s. 199-200] .Bolşevik işğalından sonra da ermənilərin müsəlman əhaliyə qarşı etdikləri hücumlar davam etmiş oldu. Batumi müqaviləsindən sonra minlərlə ailə ermənilərin Qarabağda etdikləri zülmə hökumətin yanaşmasını görüb Qars ətrafına köçmək məcburiyyətində qaldı. Birinci Dünya müharibəsi zamanı Azərbaycanlı əhaliyə kömək edən Osmanlı dövləti Mudros müqaviləsindən sonra Cənubi Qafqazı da tərk etməsindən sonra da onların yerini tutan İngilislər də Qarabağın Azərbaycana aid olduğunu elan etdilər. Sovet hakimiyyəti dönəmində Muxtar respublika olan

Dağlıq Qarabağda aparılan siyasət nəticəsində Azərbaycan türklərinin sayı getdikcə azalmış və ermənilər say üstünlüyünə yiyələnmişlər.

Rusiyanın ermənileri İrandan vəTürkiyədən Zaqafqaziyaya, başlıca olaraq "müsəlman əyalətlərinə" köçürmək siyasəti ermənilərin sayının Azərbaycan ərazisindəəhəmiyyətli dərəcədəartması ilənəticələndi. Rusiya mənbələrinəgörə, artıq 1832-ci ildəermənilər Qarabağ əhalisinin 31,6 faizini (1823-cü ildə 21,7 faiz), Şuşa əhalisinin isə 44,9 faizini (1823-cü ildə 27,5 faiz) təşkil etmişdilər. Ermənilər ərazilərimizdə məskunlaşdıqdan sonra öz dövlətlərini yaratmaq haqqında düşünməyə başladılar [6, s. 125]. Elə bunun nəticəsi idi ki, 1905-1906-cı illərdə Azərbaycanda ermənilər tərəfindən kütləvi soyqırımı aktları həyata keçirilmişdir. Bu illər ərzində onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlıları məhv etmiş, dəhşətli cinayətlər törətmişdilər. Tarixi qaynaqlarda təsdiqlənir ki, ermənilər həmin hadisələr zamanı Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl ərazilərində Azərbaycan kəndini tamamilə yerlə yeksan etmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsini dağıtmışdılar. "Paytaxtsız" respublika yarandığı gündən erməni şovinistləri əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Loru-Pəmbək və Şörəyel qəzalarında, Zəngəzurda, Göyçədə və digər yerlərdə kütləvi qırğınlar törətdilər 1920-ci ilin axırlarında Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra ermənilər əsrlərlə arzu etdikləri erməni dövlətini yaratmaq və qonşulara qarşı ərazi iddiasını irəli sürmək siyasətinə keçdilər. 70 illik sovet hakimiyyəti dövründə Azərbaycan torpaqları hesabına ərazilərini genişləndirən ermənilərin bu istiqamətdə iddiaları get-gedə daha da artdı. Moskvada dövlət idarə aparatında yuva salmış erməni lobbisinin bu yolda həyata keçirməyə nail olduğu mənfur niyyətlərindən biri də müharibədən sonra xaricdən gələn ermənilərin yerləşdirilməsini bəhanə edərək İ. Stalinin xeyir-duası ilə dövlət səviyyəsində azərbaycanlılara qarşı həyata keçirilən deportasiya siyasəti olmuşdur 1920-ci ildə Azərbaycanın Zəngəzur bölgəsinə sahib olan ermənilər 1921-ci ildə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istədilər. Böyük şəxsiyyət, görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun prinsipial mövqe tutması onların planını pozdu. Lakin 1922-ci ilin sonunda N. Nərimanov Moskvaya getdikdən sonra onlar 1923-cü ilin iyulunda Dağlıq Qarabağa muxtariyyət verilməsinə nail ola bildilər. Bununla belə, onlar Dağlıq Qarabağa yiyələnə bilmək iddiasından əl çəkmir, dəfələrlə bu barədə məsələ qaldırırdılar.

XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olan Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin nəticələri milyonlarla insanın taleyinə ciddi təsir göstərmişdir. Münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları, etnik zəmində təxribatları və hərbi təcavüzü ilə başlamışdır. Ermənistan təcavüzkar siyasətini "özünümüdafiə qüvvəsini" müdafiə etmək pərdəsi altında gizlədərək, Azərbaycanda olan daxili qeyri-sabitlikdən istifadə etmiş və Dağlıq Qarabağ Muxtar Vilayətini (ərazisi 4388 km2) və ətraf əraziləri - Ağdamı, Füzulini, Laçını, Kəlbəcəri, Cəbrayılı, Qubadlını, Zəngilanı işğal etmişdi. Ermənilərin adları çəkilən əraziləri işğalı nəticəsində sənaye və kənd təsərrüfatı, kommunikasiya sistemi dağıldıldı, 1 milyondan çox qaçqın, məcburi köçkün kütləsi yarandı. Naxçıvan Muxtar Respublikasını Azərbaycanla birləşdirən yeganə nəqliyyat yolu olan Mehri dəmiryolunu Ermənistanın dağıtması nəticəsində Naxçıvan blokadada qaldı [13].

1994-cü il mayın 12-də Bişkek Protokolu əsasında qərara alınan Atəşkəs haqqında saziş imzalansa da, Ermənistan xaincəsinə hər gün sazişi pozaraq Azərbycan ərazilərini, mülki əhalini atəşə məruz qoyurdu. Ermənistanın isə dekonstruktiv mövqe tutması münaqişənin nizama salınmasına heç cür əsas vermirdi. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti dəfə atəşkəsi pozması Azərbaycan Ordusunun əks hücuma keçməsi ilə nəticələndi.

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin Ermənistan tərəfindən işğal edilən torpaqlarımızın azad edilməsində qətiyyətli mövqeyi və müzəffər Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı, Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrut qəsəbəsini, Suqovuşan qəsəbəsini, 300-ə yaxın yaşayış məntəqəsini birbirinin ardınca azad etməsi və noyabrın 8-də Qarabağın ürəyi, Qafqazın incisi Şuşanın, noyabrın 9-da isə 71 kəndin, 1 qəsəbənin, 8 yüksəkliyin düşmənlərdən azad edilməsi mənfur terrorçu Ermənistanı hərbi kapitulyasiyaya məruz qoydu. Bu qələbələr işğalçı Ermənistanı məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonlarını Azərbaycana siyasi yollarla qaytarsın. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş Naziri müharibənin dayandırılması haqqında üçtərəfli bəyanat imzaladılar. Bəyanata əsasən 2020-ci il 10 noyabr tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. İşğal altında olan digər rayonlarımız - 2020- ci il 15 noyabr tarixinədək Kəlbəcər rayonu, 20 noyabr tarixinədək Ağdam rayonu, 1 dekabr tarixinədək isə Laçın rayonu Azərbaycan Respublikasına qaytarılacaq. Bəyanatda Dağlıq Qarabağın statusu haqqında heç bir kəlmənin olmaması Azərbaycan Ordusunun hərbi qələbəsinin nəticəsidir. Bəyanatın 9-cu bəndinə görə tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin ediləcəyi Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi bir addımdır[13].

Abxaziya

Abxaziya Qara dənizin şərq sahilində yerləşməklə, şimalda Rusiya və Şimali Qafqaz dağları boyunca uzanan bir ərazidə yerləşir. İnzibati idarəetməyə əsasən 7 hissəyə bölünüb: Qaqra, Qudauta, Suxum, Oçamçira, Qulripş, Tquarçal və Qal. Mərkəzi Qara Dəniz sahilində yerləşən Suxumidir. Ərazisi 8600 km2, dini baxımdan isə əsasən islan və ortodoks xrsitianlığı geniş yayılıb. Əsas etnik qruplar isə abxaz, ermənilər, minqrellər, svanslar, gürcülər, yunanlar, ruslar və ukraynlardır. Abxazlar haqda məlumatlar yunan mənbələrində verilir. Onların burda məskunlaşmasına və yaşamasına dair məlumatlar Bizans sənədlərində daha çox rast gəlinir. Məhz Bizans dövründə xristianlıq qəbul olunmuşdur. 1801 – 1804-cü illərdə Gürcüstanın müxtəlif əraziləri (Kartli, Kaxetiya-1801, Minqreliya-1803, İmeretiya və Quria-1804) Rusiyanın idarəetməsinə keçdilər. 1810-cu ildə Çar I Aleksandr Abxaziyaya Rusiyanın tabeliyində olmaqla Muxtariyyət verdi. Bu da regionda birləşmənin qarşısını almaq və parçalanma meyillərini gücləndirmək üçün Çar Rusiyasının atdığı addımlardan idi. Lakin sonradan vəziyyətin dəyişməsi və Abxaziyanın müstəqillik qazanmasından sonra Rusiyanın bu bölgəni ilhaq üçün mübarizəsi uzun sürdü və 1864-cü ildə Rusiya ən sonuncu olaraq Abxaziya knyazlığını tabe etdirə bildi. Bu mübarizədən sonra Abxazlara qarşı Rusiyanın şiddətli şəkildə zülmü onların çoxunun Osmanlıya və Yaxın Şərqə mühacirət etmələrinə səbəb oldu. 1917-1918-ci illərdə Abxaziya Şimali Qafqaz ölkələrinə birləşdi. Menşeviklər Abxaziyanı Gürcüstana birləşdirdilər. 1921-ci ildə bolşeviklər Gürcüstanda Menşevikləri devirib hakimiyyətə gəldilər. 1922-ci ildə isə SSRİ-nin yaranması zamanı Abxaziya suveren respublika kimi bu ittifaqa tərəfdaş olmuşdu. 1925-ci ildə isə Abxaziya ilk konstitusiyanın qəbulu ilə Gürcüstanla "Xüsusi İttifaq Müqaviləsi" ilə birləşdirildi. 1931-ci ildə Stalin və Beriyanın razılığı ilə Abxaziyaya Gürcüstan daxilində muxatriyyət verildi. 1937-1953-cü illərdə məhz bu cütlüyün sayəsində Abxaziyaya Qərbi Gürcüstandan məcburi kütləvi immiqrasiya həyata keçirilmişdir.

Repressiya dövrü də Abxaziyadan yan keçməmişdir. Məhz XX əsrin 30-cu illərində həyata keçirilən gürcüləşdirmə siyasətinə qədərki dövrdə Abxaziyanın demoqrafik

göstəricilərində burada Abxazlardan başqa türk, erməni, yəhudi, yunan və digər xalqların nümayəndələrinin yaşadığı məlumdur. 1945-1946-cı tədris ilində etibarən abxaz dilli məktəb və universitetlərin bağlanması və abxazların gürcü məktəblərində təhsil almağa məcbur edilməsi tezliklə abxaz əlifbasının və dilinin unudulması təhlükəsi ilə nəticələndi. Yalnız 1953-cü ildə hakimiyyətin siyasi xəttində baş verə dəyişikliklərdən sonra 1978-ci ildə abxaz ziyalılarının apardığı mübarizə öz effektini az da olsa vermiş oldu. Belə ki Sovet rəhbərliyinə abxaz ziyalılarının yazdığı məktubda Gürcüstan rəhbərliyi "gürcüləşdirmə" siyasəti aparmaqda ittiham olunurdu. Lixnidə (Abxazların müqəddəs məkanı) keçirilən böyük münaqişələrin nəticəsi olaraq Abxaziyanın Rusiya federasiyasına birləşdirilməsi tələbi qabul edilməsə də, Abxaz universitetlərinin açılması və həftədə iki dəfə abxaz dilində 15 dəqiqəlik verilişlərin verilməsində güzəştə gedildi. 1988-1989-cu illərdə Gürcüstan milli hərəkatı Gürcüstanın SSRİ-dən ayrılması ilə birlikdə həm də Gürcüstan daxili muxtariyyətlər məsələsini də gündəmdə saxlayırdılar. 1990-cı ildə Sovet ittifaqının dağılması ərəfəsində artıq digər müttəfiq respublikalar kimi Abxaziya da öz suverenliyini elan etdi. Bundan dərhal sonra Gürcüstan bu məsələyə sərt mövqeyini bildirdi və suverenlik aktını ləğv elədi. Bu a artıq Sovet hakimiyyətinin dağılması zamanı münaqişə ocağının qızışdırılmasına ilk addım idi[4, s.9].

1992-ci il iyunun 24-də Rusiyanın vasitəçiliyi ilə Gürcüstan və Abxaziya nümayəndələri Rusiyanın Soçi şəhərində atəşkəs barədə 6 maddədən ibarət Soçi sazişini imzaladılar. Soçi sazişinə müvafiq olaraq iyunun 28- dən atəşkəs olmalı idi. Rusiya, Gürcüstan, Abxaziya nümayəndələrinin iştirakı ilə 1993-cü ilin avqust ayında Moskvada keçirilən görüş zamanı bağlanan sazişə əsasən Abxaziya hökuməti Suxumidən Qudauta köçürüldü və burada Rusiya hərbi bazası yerləşdirildi. Abxaziyada Rusiyanın hərbi bazasının yerləşdirilməsi Gürcüstan ilə Rusiya arasında münasibətləri kəskinləşdirdi. Separatçıların Oçamçirı və Qali istiqamətində hücumu nəticəsində 100 mindən çox qaçqın Svaneti dağlarında sığınacaq tapdı. Onlarla insan soyuqdan, aclıqdan həlak oldu. Sentyabrın 19-da təkcə Axaldaba kəndi işğal edildikdən sonra 60 dinc sakin, əsasən qadın və uşaqlar güllələndi, Axaldaba stadionuna qovulan 600 nəfər qoca, qadın, uşağın taleyi isə naməlum qaldı.

1993-cü ilin fevralında Rusiya və Gürcüstan arasında Dostluq və əməkdaşlıq barədə müqavilə imzalansa da, Rusiya Dövlət Duması onu təsdiq etmədi. Oktyabr ayında Gürcüstanda Rusiya hərbi bazalarının statusu barədə müqavilə imzalandı. Bu müqaviləyə görə Gürcüstanın Qudaut, Batumi, Vaziani, Axalkələk ərazilərində Rusiya hərbi bazalarının olması müddəti artırıldı. 1993-cü ilin dekabrında Gürcüstan MDB-yə daxil oldu və rus qoşunlarının müvəqqəti olaraq Gürcüstan ərazisində saxlanılması haqqında razılıq əldə edildi. Lakin Rusiya və Gürcüstanarasında abxaz problemi barədə qarşılıqlı razılıq olmadı. AbxaziyaRespublikası Ali Soveti 1994-cü il noyabrın 26-da özünü respublika elan etdi. Bu zaman artıq silahlı münaqişə sona çatmışdı[13].

Gürcü-Osetiya münaqişəsi

Digər münaqişə ocağı kimi isə Gürcü-Osetiya münaqişəsi sayılır. Cənubi Osetiya coğrafi cəhətdən Böyük Qafqaz dağlarının cənub ətəyində yerləşir və 3900 km^2 ərazini əhatə edir. Şimaldan isə Rusiya ilə sərhəddir. 1989-cu ilin siyahıyaalınmasına görə 98000 osetin Cənubi Osetiya muxtar respublikasında yaşayırdı ki bu da ümumi Gürcüstanda yaşayan osetinlərin 2/3ü qədər idi. Gürüstanda yaşayan osetinlərin ümumi sayı əhalinin 35%-ini təşkil edib. Cənubi Osetiyada isə ümumi əhalinin 2/3 hissəsi osetinlər idi. Digər 295-i gürcülər, qalan 4% isə rus, erməni və yəhudilər idi.

Cənubi Osetiyanın tarixinə gəldikdə bu barədə məlumatlar bir qədər fərqli mənbələrdə müxtəlifdir. Hazırkı Cənubi Osetiya ərazisi 1801-ci ildə Rusiyaya Gürcüstanın tərkibində

qoşulub. Gürcü mənbələri Cənubi Osetiyanın Şimali Osetiyadan nə zaman ayrılması barədə müfəssəl məlumat verməsələr də Cənubi Osetiyanın 1920-ci il Rus işğalı zamanı artıq Gürcü tabeliyində olduğunu qeyd edirlər. Şimali Osetiya isə Terek Sovet Respublikasının tərkibinə qoşulmuşdur. 7 may 1920-ci ildə Rusiya və Gürcüstan arasındakı dostluq müqaviləsində Cənubi Osetiya Gürcüstanın bir hissəsi kimi tanındı. 1920-ci ildə hazırda Şimali Qafqazın paytaxtı olan Alaniyada silahlı qüvvələrini toplamış Rusiya Kommunist partiyasının köməkliyi ilə geniş miqyaslı üsyan qaldırıldı. Gürcüstan hökuməti bu əraziyə qoşun yeritdi, lakin Sovet Rusiyası 7 may Moskva müqaviləsini əsas gətirərək qoşunların burdan çəkilməsini tələb etdi. Həmin ilin iyun ayının 8-də Cənubi Osetiya özünü ayrıca dövlət kimi Rusiyanın tərkibinə daxil olduğunu elan etdi. Gürcüstan isə ərazisinin pozulmasını əsas gətirərək, Osetiya üzərinə hücuma keçdi və Osetiya mənbələrinin yazdığına görə 5000 nəfər öldürüldü və 13000 nəfər aclıq və epidemiyadan öldü.

1921-ci ildə isə Osetiya Gürcüstan daxilində muxtariyyət kimi özünü elan etdi və paytaxtı Çxinveli oldu. Bu hadisədən sonra ərazinin etnik xəritəsində də dəyişikliklər baş verdi. Bu elə sürətlə baş verdi ki, tezlikə burdakı bir çox qədim gürcü şəhərləri osetinləşdi [9, s.49]. 1980-ci illərdə Gürcüstanda yaranan milli azadlıq hərəkatının millətçilik üzərində köklənməsi tezlikə Cənubi Osetiyaya da öz təsirini göstərdi, belə ki burda açılan Suxumi Universitetinin filialında tezliklə tələbələr milli ruhda köklənmiş hərəkat yaratdılar. Bundan sonra yaranan hərəkat Cənubi Osetiyanın Rusiyanın tərkibində olan Şimali Osetiya Muxtar Respublikası ilə birləşdirilməsi uğrunda mübarizəyə başladılar. 1980-ci illərin başlanğıcında Osetinlərin əsas istəyi 1918-1920-ci illərdə Demokratik Gürcüstan Respublikasının Osetinlərə qarşı törətdiyinin soyqırım adlanmasıdır. Osetin tərəfi iddia edir ki, həmin hücumlarda 387 kişi, 172 qadın, 110 uşaq qətlə yetirilmişdir. Ümumilikdə isə bu və ya digər səbəblərdən 1206 kişi, 1203 qadın və 1732 uşağın həyatına son qoyulub. 20 sentyabr 1990-cı ildə Osetiya parlamenti bu hadisəni Gürcüstan Demokratik respublikasının törətdiyi soyqırım kimi qəbul etmişdir.

1992-ci ilin yanvar ayında isə Cənubi Osetiyanın Şimali Osetiyaya birləşməsinə dair Cənubi Osetiyada referendum keçirildi. Cənubi Osetiya 1992-ci il mayın 29-da özünü respublika elan etdi. 1992-ci il iyunun 24-də Daqomısda B.Yeltsin və E.Şevardnadze arasında görüş keçirildi. Rusiya, Gürcüstan, Cənubi Osetiya və Şimali Osetiyanın iştirakı ilə dördtərəfli danışıqların nəticəsi olaraq iyunun 24-də Soçidə atəşkəs barədə bağlanan saziş ("Daqomıs sazişi") müharibəni dayandırdı. Cənubi Osetiya 1992-ci il sentyabrın 25-də Gürcüstandan ayrılmaq barədə qərar qəbul etdi. Avqustun 25-də Rusiya Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıdı, sentyabrın 9-da isə onlarla diplomatik münasibətlər yaratdı[14, s.56].

2009-cu il yanvarın 16-da İqor Ahba Abxaziyanın, Dmitriy Medoyev Cənubi Osetiyanın Rusiyada nümayəndələri təyin olundular. Həmin il fevral ayında Rusiyanın Cənubi Osetiyada, 2010-cu il mayın 17-də Abxaziyada səfirliyi açıldı. 2011-ci il aprelin 7-də Rusiyanın Prezidenti Dmitri Medvedyev Qarşılıqlı vizasız gedişgəliş barədə Abxaziya və Cənubi Osetiya ilə sazişi imzaladı. Rusiyanın bu addımından sonra dünya dövlətləri və beynəlxalq təşkilatlar bu hadisələrə reaksiya verdilər. Nikaraqua, Venesuela, Nauru (Sakit okeanın cənubunda olan ada ölkəsi), Vanuat (Sakit okeanda ada ölkəsi) Abxaziyanın, Tuvalu (Sakit okeanda ada ölkəsi) Abxaziya və Cənubi Osetyanın müstəqilliyini tanıyaraq, onlarla diplomatik münasibətlər yaratdılar [15, s. 3].

N*əticə*

Abxaziya və Cənubi Osetiya Rusiya ilə birləşməyə cəhd edir. Bu iki münaqişə beynəlxalq münaqişəyə çevrilmiş, başlanğıcından Abxaziya problemi, 2008-ci il avqust ayında Rusiyanın Gürcüstanın daxili işlərinə müdaxiləsi nəticəsində baş vermiş 15 günlük

müharibədən sonra isə Cənubi Osetiya problemi BMT çərçivəsində dəfələrlə müzakirə edilmişdir. Hazırda Qarabağ münaqişəsinin yekunu olaraq noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalanması qüvvədədir. Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib. 10 noyabr 2020–ci ildə hərbi əməliyyatlar dayandırıldıqdan sonra, Qarabağ ərazisindəki digər şəhər, qəsəbə və kəndlər üzərində də Azərbaycanın suverenliyi bərqərar olmuş, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmuşdur. Qrabağda bərpa-quruculuq işləri gedir. Mədəni irsin bərpası istiqamətində də böyük layihələr icra olunur.

Ədəbiyyat

1. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, Bakı: 1990. 125 səh.
2. Xəlilov X.D. Qarabağın etnik tarixindən. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, № 3
3. Əsədov F. K., Kərimova S. A. Çarizmi Azərbaycana gətirənlər" Bakı: 1993, 144 səh.
4. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: 2004, 472 s.
5. Hüseynova İ. M. Heydər Əliyev və Qafqazda sülh prosesi, Bakı: 2008, 672 s.
6. Köçərli T. Y. Qarabağ: Yalan və Həqiqət, Bakı: 1998, 153 s.
7. Muradov M. "Çar Rusiyasının Azərbaycana köçürmə siyasəti, Bakı: 2001, 158 s.
8. Гусейнова И. М. История народов Кавказа. Баку: 2018, 1248 с.
9. Anzor Totadze: The Ossets in Georgia: myth and reality, Tbilisi, 2008, p 295
10. S. Gömeç, Türk Cumhuriyetleri ve Toplulukları Tarihi, Ankara 1999, s. 260
11. Y. Sarınay vd., Osmanlı Belgelerinde Karabağ, Başbakanlık Osmanlı Arşivi İstanbul, 2009., s. 385
12. Zaur Adıgözəlov. https://apa.az/az/blog/blog-single/Ermnilrin-Azrbaycanda-mrhlli-mskunlasmasi:-beynlxalq-huquq-msuliyyti-158.İstifadə olunma tarixi.30.11.2022
13. Ramilə Dadaşova //Cənub Qafqazda olan münaqişələrin səbəb və nəticələri. 19.12.2020 https://dergipark.org.tr/tr/download/article-file/1480687 İstifadə olunma tarixi.30.11.2022
14. Виктор Кабышев, "Последствия грузино-юго осетинског вооруженного конфликта 2008 года", Историческая и социально-образовательская мысль, 2(2), 2016, с. 56.
15. Вячеслав Чирикба, Международно-прававой статус Абхазии, Сукум 2013, с. 3.

ИСТОРИЧЕСКИЕ КОРНИ КОНФЛИКТОВ НА ЮЖНОМ КАВКАЗЕ

Гасымова Туркан Ильгар кызы

Резюме

В конце XX в Советском Союзе отчетливо наблюдались первые элементы упадка. Социально-экономический спад, в свою очередь, вызвал потрясения в союзных республиках. Такая напряженность также обостряла межэтнические отношения. На Южном Кавказе ситуация была более напряженной. Здесь были как очаги конфликта, существовавшие до создания Союза, так и ряд проблем, возникших после его создания. Результатом этого стало то, что на не столь большом по территории Южном Кавказе возникли три активных зоны конфликта: армяно-азербайджанский конфликт в результате оккупации Арменией азербайджанских территорий, грузино-абхазский и грузино-осетинский конфликты в Грузии. Три перечисленные зоны конфликта к установлению СССР были горячие точки и в доисторическую эпоху. В настоящее

время он сохраняет свою актуальность, как и в конце XX века, и превратил Кавказ в самый горячий очаг конфликта в мире.

HISTORICAL ROOTS OF CONFLICTS IN THE SOUTH CAUCASUS

Gasımova Turkan Ilgar

Summary

At the end of the twentieth century, the prerequisites for the decline in the Soviet Union were clearly observed. The socio-economic decline, in turn, caused upheavals in the Union republics. Such tensions also exacerbated interethnic relations. The situation in the South Caucasus was more tense. There were both hotbeds of conflict that existed before the establishment of the Union and a number of problems that arose after the establishment of the Union. It was as a result of this that three active conflict zones emerged in the not-so-vast South Caucasus: the Armenianazerbaijan conflict as a result of the occupation of Azerbaijani territories by Armenia, the Georgian-Abkhaz and Georgian-Ossetian conflicts in Georgia. The listed three conflict zones to the establishment of the USSR there were hot spots in the early period. As at the end of the twentieth century, it remains relevant and turned the Caucasus into the hotbed of conflict in the world.

Rəyci: dosent (atesstatsız) Aynur Hüseynova
Qafqaz xalqları tarixi kafedrasının 02 dekabr 2022 çi il tarixli 5 saylı protokolu
Daxil olma tarixi 06 dekabr 2022-ci il

UOT: 94 (479.24)

GƏNCƏ ŞƏHƏRİ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MİLLİ DÖVLƏTÇİLİK MƏFKURƏSİNİN MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

Həsənov Elnur Lətif oğlu
Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi
lnurh273@gmail.com

Xülasə: *Elmi məqalədə qədim tarixə malik olan Gəncə şəhərinin ötən əsrin birinci yarısında milli dövlətçilik tariximizdə sahib olduğu əhəmiyyətli mövqeyi çoxsaylı mənbələr, yazılı sənədlər, arxiv məxəzləri əsasında araşdırılmışdır. Azərbaycanın milli məfkurəsinin yaşadılması sahəsində bu qədim şəhərin tarixi şəxsiyyətlərinin, milli dövlətçiliyimizi mühafizə etmiş və onun inkişafına şərait yaratmış dövlət xadimlərinin xidmətləri elmi əsaslarla tədqiq edilmişdir. Elmi məqalədə qardaş Türkiyə Cümhuriyyəti ilə dövlətimiz arasında mövcud olmuş və bu gün əbədiləşmiş tarixi və milli-mədəni bağlılığımızın daha da möhkəmlənməsində Gəncə şəhərinin əhəmiyyəti məsələsi öyrənilmişdir.*

"Ağıl, kamal bəsləməz igidliyə ədavət,
Hünər də, igidlik də ədalətdir, ədalət!".
Şeyx Nizami Gəncəvi

Açar sözlər: Azərbaycan, Türkiyə, Gəncə, milli dövlətçilik ənənələri, məfkurə.

Ключевые слова: Азербайджан, Турция, Гянджа, традиции национальной государственности, идеология.

Key words: Azerbaijan, Turkey, Ganja, traditions of national statehood, ideology.

Qədim və şərəfli dövlətçilik ənənələrinə, şəhər mədəniyyəti tarixinə, milli-mənəvi dəyərlərə malik olan Gəncə şəhəri daim yadelli işğalçılara qarşı mübarizənin mərkəzi kimi tanınmışdır. Müsəlman Şərqinin və türk dünyasının ilk demokratik dövlətinin birinci paytaxtı olan Gəncə şəhəri milli dövlətçilik tariximizdə monqol və Xarəzmşah istilaçıları əleyhinə Usta Bəndər hərəkatının, işğalçı Çar Rusiyası qoşunlarına qarşı Gəncə xanı Cavad xan Ziyadoğlu Qacarın başçılığı ilə ümumxalq mübarizəsinin əsas meydanı kimi tariximizə həkk olmuşdur.

1918-ci ildə Gəncə Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı və mühüm dövlət qərarlarının imzalandığı əsas mərkəz, ölkəmizi bolşevik və daşnak qüvvələrinin işğalından azad edən Qafqaz İslam Ordusunun yaradıldığı şəhər kimi şöhrət tapdı. Lakin 1920-ci ilin aprelində xəyanət və yalan nəticəsində Azərbaycanı işğal edən Sovet qoşunları xalqın mübarizə əzminin silah gücünə məhv ediləcəyəni düşünərkən, Gəncə şəhərinin mərd sakinləri yenidən ölkəmizin tarixində ən böyük, ən çoxsaylı itkilərlə səciyyələnən ümumxalq mübarizəsinə, üsyana qalxdılar. 1920-ci il 26-31 may tarixlərində şəhər sakinləri dünya xalqlarına nümunə olmuş milli mübarizəyə başladılar. Sovet qoşunlarına ilk və ən böyük itkiləri yaşadan şəhər əhalisi yenə də xəyanət nəticəsində ilk milli Azərbaycan ordusunu yaradan 10 nəfərdən artıq Gəncəli generallar: Xudadat bəy Rəfibəyli, Cahangir bəy Kazımbəyli, Əmir Kazım Mirzə Qacar, Məhəmməd Mirzə Qacar, Feyzulla Mirzə Qacar, Əbdülhəmid bəy Qaytabaşı, Cavad bəy Şıxlinski, İbrahim ağa Usubov, Həbib bəy Səlimov, Əliyar bəy Haşımbəyov və Teymur bəy Novruzovun namərd gülləsi ilə şəhid edilməsinə şahidlik etdi [2-5].

Milli istiqlal tariximizin görkəmli tədqiqatçısı, ədib Ceyhun bəy Hacıbəyli qeyd edirdi:

"Gəncə üsyanı millətimizin şərəf və namusunun yenidən kəsbi-etibar qazandığı bir dastandır. Gəncədə may ayında tökülən qanlar 27 aprel hadisəsi hərəkatında millətimizə atılan ləkəni silib-götürdü" [6, s. 5].

Üsyan ərəfəsində qırmızı ordunun 20-ci atıcı diviziyasının 178-ci və 180-ci atıcı alayları, üçüncü briqadanın rabitə taboru və komendant bölmələri şəhərin daha çox tarixi-memarlıq abidələrinin mövcud olduğu Ozan, Dulusçular, Şərbaflar, Boyaqçılar, Dəmirçilər, Misgərlər, Səbizkar, Əttarlar və digər sənətkarlıq məhəllələrində yerləşdirildi. 40-cı süvari briqadası Zurnabad kəndinin ətrafında dayanmışdı. Həmin günlərdə Taman süvari briqadasının üçüncü alayı da Gəncəyə gətirildi.

Xalq üsyanı 1920-ci il mayın 24-dən 25-nə keçən gecə başladı. Qısa müddətdə şəhərin mühüm obyektləri, əksər məhəllələrdəki işğalçı qoşun hissələri nəzarət altına götürüldü. Hərbi anbar, mərkəzi həbsxana, dəmir yolu stansiyası, fövqəladə komissarlığın binası ələ keçirildi. Üsyanın başlama tarixinin seçilməsi də təsadüfi deyildi. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının 2 ili tamam olurdu. Həmin gün Gəncə üsyanının rəhbərləri və şəhər ictimaiyyəti dairə məhkəməsinin binasına toplaşaraq Azərbaycanın istiqlaliyyətinin elan olunmasının iki illiyini qeyd etdilər. Tarixi sənədlərin tədqiqi nəticəsində müəyyən edilmişdir ki, ümumxalq üsyanında xarici işğalçılara qarşı mübarizə aparmış Gəncənin sənətkarlıq məhəllələrinin əhalisinin milli tərkibi aşağıdakı kimi olmuşdur (kişi cinsindən olan gənc və orta yaşlı əhali nəzərdə tutulur):

Azərbaycanlılar 37 min 436 nəfər, çuvaşlar 4 nəfər, qaraçaylar 6 nəfər, qumuqlar 1 nəfər, türkmənlər 3 nəfər, qırğızlar 1 nəfər, avarlar 13 nəfər, darginlər 1 nəfər, udinlər 3 nəfər, qazıqumuqlar 18 nəfər, çeçenlər 7 nəfər, inquşlar 6 nəfər, çərkəslər 4 nəfər, bidətçi ruslar (molokanlar) 19 nəfər, maloruslar (ukraynalılar) 15 nəfər, beloruslar 1 nəfər, polyaklar 4 nəfər, macarlar 1 nəfər, moldovanlar 1 nəfər, osetinlər 2 nəfər, yəhudilər 23 nəfər, aysorlar 6 nəfər, gürcülər 48 nəfər, acarlar 1 nəfər, lazlar 2 nəfər [3-6].

Yuxarıda adları sadalanan sənətkarlıq məhəllələrində erməni xəyanətkarlarının və onların bolşevik havadarlarının terror və işğalçı əməllərinə qarşı yerli əhalinin güclü müqavimət göstərməsi bir daha sübut edir ki, tarixən olduğu kimi, XX əsrin əvvəllərində də Gəncə əhalisinin əksəriyyəti Azərbaycanlılardan ibarət olmuş, sənətkar məhəllələrinin də sakinlərinin böyük qismi yerli müsəlmanlardan ibarət olmuşdur. Xalq hərəkatının getdikcə geniş miqyas aldığını görən XI Qızıl Ordunun komandanlığı üsyanın yatırılması üçün təcili tədbirlər görməyə başladı. 179-cu alay və 20-ci diviziyanın süvari briqadası dərhal Gəncəyə gətirildi. İki gündən sonra Zaqatala bölgəsindəki 18-ci süvari diviziyası da Gəncə ətrafında yerləşdirildi. Ermənilər elə ilk gündən rus-sovet işğalçılarına yaxından kömək edirdilər. Mayın 29-da qırmızı qüvvələrin üsyançılar üzərinə ilk mütəşəkkil hücumu uğursuzluqla başa çatdı. Üsyançıların əks-hücumları onları ağır vəziyyətə saldı. Belə olduqda XI Qırmızı Ordu komandanlığı Gəncəyə yenə də əlavə qüvvələr gətirməyi qərarlaşdırdı. Mayın 30-da Gəncədə XI ordunun 5 piyada, 6 süvari alayı, 7 əlahiddə hissəsi, 57 ədəd topu və 2 zirehli avtomobili var idi. Bu qüvvələrin çoxu şəhərin şimalında yerləşirdi. Mayın 31-də buradan əsas hücum başladı. Çoxlu sayda canlı qüvvənin, topların və zirehli avtomobillərin işə salınması şəhərdə son dərəcə böyük dağıntılara səbəb oldu. Qüvvələr qeyri-bərabər idi. Təpədən-dırnağa silahlanmış nizami orduya tab gətirmək heç də asan deyildi. Şəhəri tərk etmək imkanı olmayan üsyançılar, habelə dinc əhali mühasirəyə alınaraq kütləvi şəkildə güllələndi. Bir neçə gündən sonra top-tüfəng gücünə üsyan yatırıldı. Çox da dəqiq olmayan məlumata görə, bu savaşda düşmən tərəfdən 8,5 min nəfər ölüb. Üsyançıların itkisi isə 12 min nəfərə çatırdı. Gəncə üsyanının mübarizlərindən Qaçaq Qəmbər, general-mayor Feyzulla Mirzə Qacar, hüquqşünas İsmayıl xan Ziyadxanov, habelə ədəbiyyatımızın mahir tədqiqatçısı Firudin bəy Köçərli, mühəndis Abuzər bəy Rzayev, müəllim Mirzə Abbaszadə və başqaları namərd güllələrinin qurbanı olub. Azərbaycan ordusunun bir neçə generalı, 27 polkovnik və podpolkovniki, 46 kapitanı, ştabs-kapitanı, poruçik və podporuçiki, 146 praporşik və podpraporşiki, 267 digər hərbi qulluqçusu bolşeviklər tərəfindən məhkəməsiz, sübutsuz qətlə yetirildi [7-9].

XX əsrin əvvəllərində Azərbaycan Cümhuriyyətinin qurulması ilə nəticələnən milli-siyasi intibahın beşiyi olan Gəncənin həmin dövrdəki ictimai mühitinin və onun təkamülünə Türkiyə təsirinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Bu mərhələdə Rusiya İmperiyası inqilabi təlatümlər dövrünə qədəm qoyarkən xalqın taleyini düşünən və bu məqsədlə milli təşkilatlanma zərurətini anlayan Azərbaycan liderləri milli-siyasi tariximizin başlanğıc nöqtəsi sayıla bilən bir məqamı gerçəkləşdirdilər. Hadisələrin bilavasitə iştirakçısı olmuş, Azərbaycan Cümhuriyyəti dövründə Milli Təhlükəsizlik idarəsinin rəisi işləmiş Nağı bəy Şeyxzamanlının xatirələrində "Difai"nin yaradılmasının zəruriliyi bu cür vurğulanır:

"... Milli Azərbaycan işləri ilə məşğul olan Əhməd bəy Ağaoğlu Gəncəyə gəlmişdi... O vaxt gizli təşkilatımız ilhamını bir neçə irəli gələn millətpərvərlərimizdən alırdı. Onların başında Rəfibəyli Əliəkbər bəy, iki qardaş Xasməmmədli, Yusifbəyli Nəsib bəy, doktor Həsən Ağaoğlu dururdular. Bu böyüklərimiz Ağaoğlu Əhməd bəyi axşam yeməyinə dəvət edərkən xeyli söhbət apardılar. Azərbaycan xalqının gələcəyi qaranlıq olduğu və qarşıdaruslar ermənilərin əli ilə hər bir pisliyi edə biləcəkləri üçün xalqı birləşdirmək, rus idarəsi ilə mücadilə etmək... üçün gizli bir təşkilat yaratmağa, gizli firqəni "Difai" deyə adlandırmağa qərar verdilər".

Müdafiə mənası verən "Difai"nin rəmzi kimi Gəncənin Rəfibəylilər nəslinin nişanı qəbul edilmişdi. Özünün gizli yaydığı bəyannamələrdə "Difai" qan tökülmənin əleyhinə olduğunu bəyan edir, lakin ermənilər xəbərdar edirdi ki, onlar tərəfindən ola bilən zorakılıqlara zəruri cavab veriləcək.

Təşkilat doğrudan da fərdi cəzalandırma aktlarına əl atırdı. Əsasən ermənilər müsəlmanlar əleyhinə zorakılığa təhrik edən çar hərbi və polis çinovnikləri, həmçinin millətindən asılı olmayaraq ara qızışdıran provakatorlar "Difai"nin qərarı ilə qətlə yetirilmişdilər. Bir qayda olaraq qərar icra olunduqdan sonra Gəncənin küçə və divarlarında "Difai"nin bu haqda məşhur möhürlü elanları vurulurdu.

Difaiçilərin yaratdığı Gəncə Milli Komitəsinin nümayəndəsi Əmiraslan xan Xoyski 1915-ci ilin fevralında gizlincə cəbhə xəttini keçərək, Türk Komandanı Ənvər Paşanın Ərzurumdakı qərargahına gəlmişdi. Məqsəd – tərkibinə Bakı, İrəvan və Gəncə quberniyalarının, eləcə də Terek və Dağıstan vilayətlərinin daxil olduğu Respublikanın yaradılmasına Türkiyənin dəstəyinin təmin edilməsi idi. Lakin hadisələrin sonrakı inkişafı – Türk qoşunlarının 1914- cü ilin noyabrında Qafqaz cəbhəsində uğurla başladığı hərbi əməliyyatın bir neçə aydan sonra məğlubiyyətlə nəticələnməsi bu planın gerçəkləşməsinə imkan vermədi.

Mütləqiyyətin süqutundan cəmi bir neçə gün sonraGəncədə, əvvəllər "Difai"ni yaratmış Gəncə Milli Komitəsinin aparıcı şəxsləri – Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyov, Xasməmmədli, Şeyxzamanlı qardaşları və başqaları Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında Azərbaycan tarixində keyfiyyətcə yeni, ilk dəfə olaraq Avropa mədəni dəyərlərinə istinad məramlı bir partiyanın – "Türk Adəmi-mərkəziyyət firqəsi"nin əsasını qoydular. Buradaca qeyd edək ki, istər lüğəti, istərsə də siyasi mənada "Ədəmi-mərkəziyyət" ifadəsi sərbəstliyi, müstəqil fəaliyyəti, özü-özünə cavabdehliyi bildirən desentralizasiya, qeyri-mərkəziyyətçilik mənasında anlanılmalıdır. Həm də keçmiş difaiçilər öz yeni siyasi partiyalarının adını əvvəllərdən (1906-cı ildən) sıx əlaqədə olduqları Türkiyə Adəmi-mərkəziyyətçi Liqasının adından götürmüşdülər. Bu liqa İttihad və Tərəqqi uğrunda Gənc Türk Komitəsinin liberal (!) qanadı idi.

Elə "ədəmi mərkəziyyət" ifadəsinin özü də Avropadan gəlmə "liberalizm"in o vaxtkı türk dilli üslubunda tərcüməsidir. Və azad, sərbəst cəmiyyət qurulmasının əndoğru təmininin məhz istiqlal və ya muxtariyyət (o tarixi şəraitdə əlbəttə ki, Rusiya üçün federativ quruluş məqbul hesab edilirdi) olduğu partiyanın proqramında vurğulanırdı.

"Türk Ədəmi-Mərkəziyyət firqəsi" öz məqsədləri və proqramı ilə xalqı tanış etmək üçün 1917-ci ilin martında, novruz bayramı günü Gəncənin Şah Abbas məscidinin önündə izdihamlı mitinq keçirdi. Mitinqdə partiyanın lideri N.Yusifbəyli nitq söyləmiş, ilk dəfə olaraq Azərbaycan anlayışı siyasi mənada işlədilərək "Yaşasın Azərbaycan muxtariyyəti!, Yaşasın Demokratik Respublika!, Yaşasın Türk Adəmi-mərkəziyyət partiyası!" şüarları səslənmişdi [8; 12].

Nəsib bəy Yusifbəylinin və onun qeyri-mərkəziyyətçilik ideyalarının istər azərbaycanlıların milli siyasiləşməsində, istərsə də Azərbaycanın coğrafi-siyasi məna kəsb edərək beynəlxalq arenada "gözə çarpdırılması"nda və nəhayət xəritədə olmayan yeni bir Azərbaycan Respublikasının yaradılmasında müstəsna rolu olmuşdur. Cümhuriyyətimizin banilərindən olan M.Ə.Rəsulzadənin aşağıdakı sözlərinə diqqət yetirək: "Azərbaycan ideyasını siyasi bir mətləb maddəsi şəklində formula etmək şərəfi Nəsib bəyindir. O, milli Azərbaycan demokratiyasının yetişdirdiyi elə bir müməssildir (nümayəndə) ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun adı ilə bağlıdır. Sadəcə bu, Nəsib ismini Azərbaycan tarixində ölməz və unudulmaz bir ism halına qoymaq üçün kafidir... Müzəffər istiqlal nəslinin ilk yapacağı şürkan vəzifələrdən birincisi siyasi Azərbaycançılığın ilk mübaşirlərindən (qabaqda gedənlərindən) olan Nəsib bəyin adını əbədtləşdirmək və Bakı və Gəncədə ona abidələr tikməkdən ibarət olmalıdır".

Həqiqətən də, millətin fiziki müdafiəsindən başlayaraq azad yaşama ideyasına gətirən, "Difai"dən "Adəmi- mərkəziyyət"əcən keçən bu yol tarixi şərəf məsələmizin gerçəkləşməsinə – "mövcudiyyətin və gələcəyin yeganə təməli" (Atatürk) olan Cümhuriyyətin qurulmasına aparırdı.

1918-ci ildə Müvəqqəti paytaxt kimi müəyyən olunan Gəncədə Cümhuriyyətin xilası üçün ən təcili məsələlərin həllinə çalışılır. Nuri paşa və onun qüvvələrinin himayəsi sabitlik gətirir və bu şəraitdə, iyunun 26-da Əlahiddə Azərbaycan Korpusu yaradılır, avqustun 11-də ümumi səfərbərlik elan edilir, sentyabrın 1-də Hərbi Nazirlik təsis olunur. Lakin az müddətdə mükəmməl döyüş qabiliyyətli ordu yaratmaq mümkün deyildi və Azərbaycan dövlətçiliyinin hərbi qüdrətinin təsdiqində Türk birləşmələri böyük rol oynadı. Bununla belə, bir sıra nüfuzlu tədqiqatçılar Nuri paşanınkomandanlığı altındakı 16-18 min nəfərlik qüvvələrin üçdə ikisinin (!) məhz azərbaycanlı könüllülərdən formalaşdığını yazırlar.

Gəncədə baza kimi məskunlaşan Qafqaz İslam Ordusu, başqa sözlə, birləşmiş Türk-Azərbaycan qoşunu çoxqısa müddətdən sonra hərbi yürüşlərə başladı.1918-ci ilin iyunun 12-də Şaumyanın əmri ilə Gəncə istiqamətində hücuma keçən Bakı Soveti qüvvələrinin qarşısı iyunun 27- dən iyulun 1-dək davam edən döyüşlərlə qətiyyətlə alındı, düşmən ağır itkilərlə məğlub olub, geri çəkildi. Bir müddət sonra Bakı Soveti süqut etdi, onun yerini cürbəcür siyasi tör-töküntülərdən ibarət Sentrokaspi hökuməti tutdu. Gəncədəki milli qüvvələrinin qarşısında həlledici Bakı yürüşü dururdu!

Azərbaycan Cümhuriyyətinin müvəqqəti paytaxtı Gəncədə ilk növbədə ölüm-dirim sualı olan hərbi məsələlər qəti şəkildə həll olundu. Türkiyə ilə qardaşlığımız Azərbaycanın müstəqil dövlət kimi formalaşma haqqını təmin etdi! Bununla yanaşı, ilkin paytaxt Gəncədə 1918-ci ilin iyunundan sentyabrın ortalarınadək, yəni Cümhuriyyətin burada fəaliyyət göstərdiyi zaman kəsiyində ümumilikdə, dövlətçilik və idarəçiliklə bağlı 210-dək qanun və hüquqi akt qəbul edilib. Bu da onu deməyə əsas verir ki, həmin qısa müddətdə dövlətin ayaqda durması üçün lazım olan hüquqi aktlar işlənib hazırlanmışdı [8-13].

Həqiqətən də Gəncədəki tarixi missiyanın yekunu kimi, elə həmin şəhərdə bəlkə də Türkiyə-Azərbaycan birgə silahdaşlığının simvolu olaraq qəbul edilmiş həmin Hillallı-ulduzlu Al rəngli ilk Cühuriyyət Bayrağı altında Bakı müstəqilliyimizi istəməyən qüvvələrdən təmizləndi. Sentyabrın 15-də Bakı fəth edildi və o, Azərbaycanın Əbədi paytaxtı elan olundu!

Ədəbiyyat

1. Ахмедов Ф.М. Депортация Азербайджанских тюрков. Газета «Новости Гянджи», № 127 (8598). 29 ноября 1990 г., с. 3.
2. Ахмедов Ф.М. Вернуть подлинные имена. Газета «Новости Гянджи», № 9 (8619). 22 января 1991 г., с. 3.
3. Azərb. Respub. Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəh. fil. F.20, s.4, iş 12, v. 3 -5.
4. Azərb.Respub. Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəh.fil. F. 20, s. 1, iş 17, s. 4-6.
5. Azərb. Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı: Lider nəşriyyatı. 2004. s. 425.
6. "Azərbaycan" dərgisi (qəzet). Paris, 1952-ci il. № 2, s. 5.
7. Əhmədova F. Major achievements of Azerbaijan Democratic Republic. Heritage. 22 november 2018.
8. Əhmədov F.M. Gəncənin tarix yaddaşı. Gəncə: Elm, 2007, 246 s.
9. Əhmədov F.M. XIX-XX əsrlərin hüdudlarında Gəncənin yaşayış məhəllələri və ticarət obyektləri. Azərbaycanın qərb regionunun problemlərinə həsr olunmuş elmi-tədqiqat işlərinin yekunları elmi-təcrübi konfransının materialları. Bakı, 1989, s. 247.
*10.*Əmrahov M. XX əsrdə Azərb.milli-azadlıq hərəkatı. Bakı:ADPU-nun nəşriy. 2009, s. 154.

11.Məmmədov F.N. XIX-XX əsrin əvvəllərində Gəncə ş. ərazisi, əhalisi və idarəsi. Azərb. SSR Elmlər Akademiyasının Xəbərləri (Tarix, fəlsəfə, hüquq seriyası), 1976, № 3, s. 30-37.
12.Muradov Z., Həsənov E.L., Əmiraslanoğlu R. Türkiyə-Azərbaycan əbədi amal birliyinin Gəncə səhifələri. Gəncə: Elm, 2022. 111 s.
13.Yusifli X.H., Pişnamazzadə S.P., Həsənov E.L., N.Gəncəvinin şəcərə tarixi. Gəncə:Elm, 2021. 182 s.

ГОРОД ГЯНДЖА КАК ОДИН ИЗ ЦЕНТРОВ ИДЕОЛОГИИ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ В НАЧАЛЕ XX ВЕКА

Гасанов Эльнур Лятиф оглу

Резюме

В научной статье на основе многочисленных источников, письменных документов и архивных источников исследовано важное место древнего города Гянджи в истории национальной государственности в первой половине прошлого века. В области сохранения национальной идеологии Азербайджана на научной основе изучены заслуги исторических деятелей этого древнего города, государственных деятелей, защитивших нашу национальную государственность и создавших условия для ее развития. В научной статье изучен вопрос о значении города Гянджа в укреплении наших исторических и национально-культурных связей, существовавших между братской Турецкой Республикой и нашим государством и увековеченных сегодня.

GANJA CITY AS ONE OF THE CENTERS OF THE NATIONAL STATEHOOD IDEOLOGY IN THE BEGINNING OF THE XX CENTURY

Hasanov Elnur Latif oglu

Summary

Based on numerous sources, written documents and archival sources, the scientific article explores the important place of the ancient city of Ganja in the history of national statehood in the first half of the last century. In the field of preserving the national ideology of Azerbaijan, the merits of historical figures of this ancient city, statesmen who defended our national statehood and created conditions for its development were studied on a scientific basis. In a scientific article, the question of the importance of the city of Ganja in strengthening our historical and national-cultural ties that existed between the fraternal Republic of Turkey and our state and immortalized today is studied.

Rəyçi: t.e.d., prof. Həsənbala Sadıqov
AMEA Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun 14 sentyabr 2022-ci il tarixli 10 saylı iclas protokolu.
Daxil olduğu tarix 29 oktyabr 2022-ci il

UOT:069.

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNƏ AİD EKSPONATLAR VƏ ONLARIN SƏRGİLƏNMƏ VƏZİYYƏTİ

Cabbarova Elnarə Oktay qızı
ADPU-nun Şəki filialı
El_cabbarova1980@rambler.ru

Xülasə: *Məqalədə - Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığı və qazandığı möhtəşəm tarixi zəfərin həm Respublikamızda həmdə Beynəlxalq aləmdə nümayiş etdirilməsində çox mühüm rol oynayan Milli Azərbaycan Tarixi muzeyinin bu sahədədə olan önəmli fəaliyyəti və.s.məsələlərə diqqət yetirilmiş, bu prosesə olan münasibət təhlil olunmuşdur.*

Açar sözlər: Milli Azərbaycan Tarixi muzeyi, 44 günlük Vətən müharibəsi, Vətən Müharibəsi Fondu, Anadır arzulara hər zaman Qarabağ adlı sərgi, şəhid, qazi, eksponatlar

Ключевые слова: Национальный музей Истории Азербайджана, 44-дневная Отечественная война, Фонд Отечественной войны, выставка «Карабах, шехид, ветеран», экспонаты.

Keywords: National Museum of Azerbaijan History, 44-day Patriotic War, Patriotic War Fund, exhibition called Karabakh, martyr, veteran, exhibits

Giriş:Müasir tariximizə qızıl hərflərlə yazılan və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi - xalqımızın 30 illik həsrətinə son qoydu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Nəhayət ki, torpaqlarımız erməni işğalından azad edildi. Vətən müharibəsi xalqımızın həm hüquqi, həm də mənəvi haqqından doğan, beynəlxalq ədalətə söykənən reallığı, eyni zamanda, nəinki ölkəmizin vətəndaşlarının , eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların Vətən sevgisinin, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, milli birliyi möhkəmləndirmək işinə dönməz sadiqliyinin sınağı oldu. Vətən müharibəsi həmvətənlərimizin qəlbinin, ruhunun dərinliklərində öz oyanış vaxtını gözləyən monolit birliyə yol açdı, adi həyatda fərqinə varmadığımız, lakin Vətən torpaqları uğrunda ölüm-dirim mübarizəsi anında baş qaldıran mübarizlik və qəhrəmanlıq xüsusiyyətləri harda yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya sirayət edərək onda vətənpərvərlik hisslərinin bir daha alovlanmasına, torpaqlarımızı mənfur düşmənlərdən hər an qorumağa hazır olduqlarını bir daha sübuta yetirdi.

Sözsüz ki, tarixi qələbənin böyük əhəmiyyəti və əvəzolunmaz yeri xalqımız tərəfindən həmişə yüksək qiymətləndiriləcək, tarixdə əbədi qalacaq və heç vaxt unudulmayacaqdır. Ən əsası isə, bu tarixi qələbəni bizə yaşadan vətən müharibəsində iştirak etmiş bütün əsgər və zabitlərimizə dərin bir minnətdarlıq hissi hər birimizin qəlbində əbədiyyən var olacaq. Vətənimiz naminə canlarından keçən şəhidlərimizin əziz xatirəsi daim yaddaşlarımızda yaşayacaq. Onların hər biri əsl qəhrəman, gələcək nəsillərə rəşadət və qorxmazlıq nümunəsidir. Bu məqsədlədə 2021-ci ildə yanvar ayında-AMEA Milli Azərbaycan Tarixi Muzeyində Vətən müharibəsində iştirak etmiş şəhid və qazilərimizə məxsus materialların toplanması, qorunması, tədqiqi və təbliği ilə məşğul olan Vətən Müharibəsi Fondu, həmin ilin mayın ayının 19-da isə Fondda qorunan eksponatlar əsasında "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin birinci hissəsinin açılışı olmuşdurki, Azərbaycan muzeylərinin anası

hesab olunan Milli Azərbaycan Tarix Muzeyində xalqımızın 44 günlük vətən müharibəsinə aid eksponatların sərgilənməsi Azərbaycanın haqq səsini bütün beynəlxalq ictimaiyyətə çatdırmaq, xalqımızda şəhid və qazi olan həmvətənlərimizə dərin bir hörmət hissinin formalaşması, ən əsası isə hər bir Azərbaycanlı vətəndaşını vətənin tərəqqisi, müstəqilliyi və ərazi bütövlüyü naminə vətənpərvərliyə, fədakarlığa ruhlandırmaq baxımından müstəsna əhəmiyyət kəsb edir. Buna görədə bu mövzunun öyrənilməsi və işlənilməsi xüsusi aktuallıq kəsb edir.

Mövzunun əsas məzmunu

Azərbaycan tarixində bir çox şərəfli anlar olmuş, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. Lakin Müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsindəki zəfəri, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. **[1 s,4].** Bu hadisənin tarixi əhəmiyyəti Möhtərəm prezidentimiz, Ali baş komandan İlham Əliyevin söylədiyi fikirlərdə daha aydın şəkildə görünür:

"44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək, düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik..." Bu fikirlər tariximizin şanlı səhifələrinə qızıl hərflərlə həkk edildi. **[2]**

Xalqımız şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edir. Vətənin igid oğulları heç bir zaman işğal faktı ilə barışmamış, işğalçılara boyun əyməmiş, torpaqlarımızın azadlığı uğrunda ölüm-dirim mübarizəsi aparmışlar. 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsi xalqımıza xas olan bu xüsusiyyəti qabarıq şəkildə nümayiş etdirməklə tariximizə ən şanlı, parlaq səhifə kimi daxil oldu.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Milli Elmlər Akademiyası düşmənə qarşı mübarizədə səfərbər oldu və hərbi əməliyyatlar dövründə ordumuza maddi dəstəyini əsirgəmədi. Xüsusilədə AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları təmas xəttində yaşayan həmvətənlərimizə ianələri ilə yanaşı, humanitar yardımlar (geyim, qida, məişət əşyaları və s.) da yolladılar. Muzeyin əməkdaşları müharibə dövründə distant keçirilmiş beynəlxalq konfranslarda, müxtəlif sosial şəbəkələrdə və forumlarda erməni təcavüzkarlığı, dinc həmvətənlərimizə qarşı qadağan olunmuş raketlərlə hücumlar haqqında dünya ictimaiyyətini məlumatlandırdılar. Milli Azərbaycan Tarixi Muzeyi ordumuza dəstək durmaqla yanaşı, ideoloji işin təşkil olunmasında Ali Baş Komandanın siyasi kursunu əldə rəhbər tutub.

Vətən müharibəsi torpaqlarımızın azad edilməsi ilə başa çatdıqdan sonra döyüşlərdə iştirak edən və şəhid olan həmvətənlərimizin tanıdılması, onlar haqqında məlumatların toplanması və şəxsi əşyalarının yığılaraq gələcək nəsillərə ötürülməsi Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları üçün prioritet məsələlərdən birinə çevrildi. Bu münasibətlə Milli Azərbaycan Tarixi Muzeyi şəhidlərimizə məxsus materialların toplanmasına başladı. Qısa müddət ərzində muzeyin müxtəlif şöbə və fondlarının əməkdaşları sosial şəbəkədə əhaliyə müraciət etdilər və eləcə də ölkəmizin müxtəlif bölgələrindən olan şəhidlərimizə aid şəxsi əşyaların, hərbi geyimlərin, sənədlərin, fotoların və s. toplanması işinə başladılar. Muzeyə daxil olan materialların çoxluğu və müxtəlifliyi Vətən Müharibəsi Fondunun yaradılması zərurətini ortaya qoydu. Bu baxımdan muzeyin Elmi şurası muzeydə tarixi qələbəmizi əks etdirən bu materialların toplanması, qorunması, öyrənilməsi və təbliği üçün yeni fondun yaranması ilə bağlı mühüm qərar verdi. **[3]** Beləliklə, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş

etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə 2021-ci ilin yanvar ayında Azərbaycan Tarixi muzeyində Vətən və ideoloji vəsaitlər də daxil edilmişdir. Hazırda 100-dən artıq inventarı olan Vətən Müharibəsi Fondu yeni materialları qəbul etməkdədir. Fondda yer alan materiallar Birinci Qarabağ müharibəsini, 2016-cı ilin Aprel, 2020-ci ilin Tovuz döyüşlərini və 44 günlük Vətən müharibəsini əhatə edir. Azərbaycanın Milli Qəhrəmanları general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, polkovnik Şükür Həmidov və Çingiz Qurbanova məxsus əşyalar və fotolar mühafizə olunur.

Vətən Müharibəsi fondunun əsas fəaliyyəti I və II Qarabağ müharibəsinə aid tədqiqatçılara fond materialları ilə kömək etmək, elmi-publisistik məqalələr , kataloqlar, kitablar və broşürlar tərtib etməkdir. Fondun digər fəaliyyəti Vətən müharibəsinə aid sərgilərin təşkilndə iştirak etməkdir. Vətən müharibəsində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Dövlət Sərhəd Xidməti, Minatəmizləmə Agentliyi, Müdafiə Sənayesi Nazirliyi və digər qurumların şəxsi heyətlərinin geyim növləri, ləvazimat nümunələri, tədris və ideoloji vəsaitləri də fondda yerləşdirlib". Fonda daxil olunan eksponatların arasında Azərbaycan ordusunun torpaqlarımızın azad edilməsi zamanı erməni silahlılarından hərbi qənimət kimi götürdükləri nümunələr də var. Bu hərbi qənimətlər Dövlət Sərhəd Xidməti və Dövlət Təhlükəsizlik Xidmətinin xüsusi təyinatlıları tərəfindən 44 günlük savaşda düşmən mövqelərinin darmadağın edilməsindən sonra ələ keçirilmişdir. Belə qənimətlərin fondda olması və onların gələcək tədqiqatlara cəlb edilməsi, eləcə də sərgilərdə nümayişi ordumuzun qüdrətinin göstəricisidir. Eyni zamanda 250 şəhidimizə aid materiallar fonda daxil edilib. Ümumilikdə, 2 mindən çox material burada inventarlaşdırılıb. Bu istiqamətdə işlər davamlı şəkildə aparılır. Milli Azərbaycan Tarixi Muzeyi tərəfindən həyata keçirilən bu və ya digər sərgilər tariximizin müxtəlif dövrlərinin təbliğatı üçün xüsusi əhəmiyyət daşıyır. Odur ki, adı çəkilən fondun materiallarının gələcək sərgilərdə nümayiş etdirilməsi hərb tariximizlə yanaşı, müxtəlif televiziya layihələrinin və sənədli filmlərin çəkilməsində etibarlı mənbə rolunu oynayacaq. Müxtəlif dövri mətbuat səhifələrində şanlı qələbəmizin təbliğatı istiqamətində Vətən Müharibəsi Fondunun özünəməxsus rol oynayacağı şübhəsizdir.

Milli Azərbaycan Tarixi Muzeyindəki digər fondlar kimi, yeni yaradılmış Vətən Müharibəsi Fondunun materialları da elmi-tədqiqat işlərinə cəlb ediləcəkdir. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizə aid materiallar əsasında elmi məqalələr, kataloqlar, broşürlar, kitabçalar və s. yazılması üçün də bu fond elmi resurslara malik olacaqdır. Fondun materialları hərb tarixi, hərbi jurnalistika və Qarabağ müharibəsinin tədqiqatı ilə məşğul olanlar üçün qiymətlidir.

Bundan başqa, 2021-ci il mayın ayının 19-da isə Fondda qorunan eksponatlar əsasında "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin birinci hissəsinin açılışı olmuşdur. **[5]** Azərbaycanın Vətən müharibəsində parlaq qələbəsi və torpaqlarımızın azad edilməsinə həsr olunmuş sərgi döyüş iştirakçılarına məxsus olmuş eksponatlar əsasında qurulub. Açılış tədbiri karantin şəraitini nəzərə alaraq məhdud sayda iştirakçı ilə təşkil edilib. **[6]** Tədbiri muzeyin baş direktoru, akademik Nailə Vəlixanlı açaraq qeyd edib ki, sərginin keçirilməsində məqsəd Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsidir.

Sərgidə 2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşlərinin qəhrəmanları general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev və digər qəhrəmanlarımız Anar Əliyev və Adil Əfəndiyevə məxsus şəxsi əşyalar qorunur. **[7]** Həmçinin, sərgidə Vətən müharibəsinin 101 şəhid və qazisinin əşyaları nümayiş olunur. Burada hərbi uniforma, ləvazimat, qəlpə və

güllələr, şəxsi sənədlər, fotoşəkillər göstərilir. Sərginin hər bölməsində müvafiq informasiya panelləri yerləşdirilib. Sərgidə, Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizik Xidməti, Dövlət Sərhəd Xidməti, DİN Daxili Qoşunları, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Mina Təmizlənmə Agentliyi tərəfindən təqdim edilmiş eksponatlar da nümayiş olunur.

Ümumilikdə sərgidə 30 vitrində 557 eksponat, 12 informasiya-məlumat paneli, 7 iriölçülü banner, 204 ədəd fotoşəkil nümayiş olunur. Həmçinin "Anadır arzulara hər zaman Qarabağ" sərgisinin tərkib hissəsi kimi təşkil olunmuş "Ermənistanın dövlət terrorizmi azərbaycanlı fotoqrafların obyektivində" adlı fotosərgidə 44 günlük müharibə dövründə Azərbaycanın dinc şəhər və kəndlərinə atılmış raket-artilleriya zərbələrinin nəticələri, eləcə də 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərdə həyata keçirilmiş siyasəti nümayiş etdirən 7 fotoqrafın çəkdiyi 50 ədəd fotoşəkil, Gəncə və Bərdəyə atılmış raket zərbələrini nümayiş etdirən onlarla eksponat, 4 iriölçülü diorama nümayiş olunur. May ayından başlayaraq muzeyin İnnovasiyalar və təhsil proqramları şöbəsi tərəfindən "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgi çərçivəsində "Xarıbülbül - Qələbə rəmzi" adlı silsilə ustad dərsi keçirilib. Adıçəkilən şöbənin əsas fəaliyyət istiqamətlərindən biri gənclərin vətənpərvərlik tərbiyəsidir. Bu məqsədlə Milli qəhramanlara, şəhidlərə həsr olunmuş tədbirlər silsilə xarakter alıb. Fevralın 9-da Zoom platformasında məktəblilərlə birgə "Mübariz İbrahimov Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzidir", aprelin 7-də onlayn formatda 2016-cı il - Aprel döyüşlərinə, iyunun 9-da Vətən müharibəsi şəhidi Elvin İslamovun anım gününə həsr olunan, sentyabrın 29-da yenə də Vətən müharibəsindən bəhs edən, Gəncə və Bərdə məktəblilərinin iştirakı ilə tədbir keçirilib. İl ərzində şöbənin elmi işçisi, "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun rəhbəri Sahibə Ələkbərovanın klubun üzvləri ilə "Tarix yazan qəhrəmanlar" layihəsi çərçivəsində şəhid Şəhriyar Qasımovun, Yaqub Yaqubzadənin, Tural Abdullayevin ailələri ilə keçirdiyi görüşlər də yaddaqalan olub. Muzeydə may ayının 18-dən başlayaraq, "Yolumuz Qarabağadır! Qarabağ Azərbaycandır!" layihəsi çərçivəsində "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun üzvləri Laçın, Füzuli, Cəbrayıl, Qubadlı, Xocalı, Ağdam tarix-diyarşünaslıq muzeylərini, eləcə də Mahrızlı kəndində fəaliyyət göstərən Rahib Məmmədov adına Ağdam rayon Döyüş Şöhrəti Muzeyini ziyarət etməklə, işğaldan sonrakı illərdə adıçəkilən mədəniyyət müəssisələrinin işləri ilə yaxından tanış olmuşlar ki, bütün bunlar həmdə gənc muzeyşünasların gələcək fəaliyyətlərində mühüm amillərdən hesab edilir.

2021-ci il noyabrın 4-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində "Zəfər günü" münasibətilə "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin ikinci hissəsinin açılışı keçirilib. **[8]** Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbir iştirakçıları ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sərgidə Vətən müharibəsinin 104 şəhidinin və 10 qazisinin əşyaları nümayiş olunur. Burada hərbi uniforma, ləvazimat, qəlpə və güllələr, şəxsi sənədlər, fotoşəkillər göstərilir. Sərginin hər bölməsində müvafiq informasiya panelləri yerləşdirilib. Sərgidə Azərbaycan istehsalı olan "İti qovan" pilotsuz uçuş aparatının orijinal ölçülü maketi qurulub. Vitrinlərdə Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizik Xidməti, Dövlət Sərhəd Xidməti, DİN Daxili Qoşunları, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən təqdim edilmiş eksponatlar da nümayiş olunur. Sərgidə, həmçinin Ermənistan ordusundan qənimət götürülmüş təltif nişanları, hərbi geyim və ləvazimatlar göstərilir. Ümumilikdə 30 vitrində 350 eksponat, 12 informasiya-məlumat paneli, 7 iriölçülü banner, 204 ədəd fotoşəkil sərgilənir.

Nəticə

Beləliklə, mövzu üzərində işlədikdən sonra bir daha o nəticələrə gəlirikki, müasir tariximizə qızıl hərflərlə yazılan və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Qazandığımız möhtəşəm zəfər xalqımızın çoxəsrlik tarixinin ən şərəfli dövrü kimi hər zaman, əbədi olaraq xatirələrdə və salnamələrdə yaşayacaqdır. Xalqımız şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edir. Çox doğru qeyd edilibki "Tarixi insanlar yaradır, muzeylər isə onu qoruyur". Bu məqsədlə də Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə 2021-ci ildə yanvar ayında AMEA Milli Azərbaycan Tarixi Muzeyində Vətən Müharibəsi Fondu, həmin ilin mayın ayının 19-da isə Fondda qorunan eksponatlar əsasında "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin birinci hissəsinin açılışı xalqımızın həm ictimai həmdə mədəni həyatında çox mühüm, əlamətdar hadisələr kimi xarakterizə oluna bilər. Beləki, Azərbaycanda muzey işinin inkişafında, muzeylərin yaradılmasında əvəzolunmaz rol oynayan Azərbaycan muzeylərinin anası hesab olunan Milli Azərbaycan Tarix Muzeyində xalqımızın 44 günlük Vətən müharibəsinə aid eksponatların sərgilənməsi Azərbaycanın haqq səsini bütün beynəlxalq ictimaiyyətə çatdırmaq, xalqımızda şəhid və qazi olan həmvətənlərimizə dərin bir hörmət hissinin formalaşması, ən əsası isə hər bir Azərbaycanlı vətəndaşını vətənin tərəqqisi, müstəqilliyi və ərazi bütövlüyü naminə vətənpərvərliyə, fədakarlığa ruhlandırmaq baxımından müstəsna əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1."İlham Əliyev zəfəri - xilaskarlıq missiyası". Yada düşdü.№ 3(44), Oktyabr, Noyabr-Dekabr 2021-ci il buraxılışı. Ədəbi-bədii, Nostolji jurnal.səh4-11.
2."Tarixi.muzeylər.yaşadır".https://www.azerbaijannews.az/az/posts/detail/1641847348
tehmine.eliyeva@quba.adpu.edu.az

Xülasə: *Cədidçilik İsmayıl bəy Qaspiranlının öndərliyi ilə inkişaf etmişdir. Bu hərəkat XIX əsrin sonu XX əsrin əvvvələrində Rusiya imperiyasının əsasən türk mənşəli müsəlman xalqları arasında təşəkkül tapan ictimai-siyasi və intelektual hərəkat idi. İsmayıl bəy hərəkata yeni üsulda təhsil verən məktəblər açaraq başladı, daha sonra Tərcüman qəzetini çıxartdı. Hərəkat liderləri 1905-ci ildə Rus istilasından sonra ortaya çıxan siyasi fəaliiyyətdə aktiv rol aldılar. Türküstanda cədidçilik hərəkatı ilə özünü göstərmiş, yeni metodla çalışan bölgədəki türk mətbuatıda da tövhəsini vermişdir. İsmayıl bəy Qaspiranlının, Türk xalqlarının "dildə fikirdə və işdə birlik" inteqrasiya məqsədi daşıyan fikri müsəlman türk biriklərinin milli süarını qazanmasında, Türk millətçiliyinin inkişafında və bu ölkədə yaşayan xalqların haqq axtariş mübarizəsində yerinə yetirmişdir. Məqalədə Çədidçilik hərəkatının necə və hansı şərtlərlə ortaya çıxdığı araşdırılmışdır. Cədidçilərin nəşr edikləri qəzet və jurnallar, məqsəd və məzunları, özünəməxsus xüsusiyyətləri və xarekterinə geniş yer ayrılmışdır. Cədidçilərin qarşısında duran Qədimçilərin anti təbliğat işləri, Çar rusiyasının cədidçilərin qarşısını almaq üçün yertidiyi təziqlərdən bəhs olunmuşdur.*

Açar sözlər: Çədidçilik, milli azadlıq hərəkatı, məktəb, ziyalı, qəzet, jurnal, Türküstan
Key Words: Chasidism, national liberation movement, school, newspaper, magazine, intelligent, Turkistan
Ключевые слова: Модернизм, национально-освободительное движение, школа, интеллигенция, газета, журнал, Туркестан

Cədidizim hərəkatı türk milli süurun inkişafı və türk xalalarının müstəqillik mübarizəsinə əhəmiyyətli fikri təsiri olmuş bir hərəkat olaraq xarekterizə edilə bilər. XIX əsrin sonu XX əsrin əvvvələrində Rusiya imperiyasının əsasən türk mənşəli müsəlman xalqları arasında təşəkkül tapan ictimai-siyasi və intelektual hərəkat idi. XIX əsrin 80-ci illərində Krım. Qazan və həmçinin Azərbaycanda 90-ci illərdə isə Orta Asiyada yayılmışdır. [1, s.19] Əvvəllər köhnə müsəlman təhsil sistemini dəyişdirmək və müsəlman üçün Avropa təhsilinin zəruriliyi, islamın və dini məktəblərin məhdud islahatı, islamın milli burjuazıyasının tələblərinə uyğunlaşdırılması xeyrinə çıxış edirdilər.

Türküstan milli hərəkatına təsir edən, yeni cəmiyyətin tələbatına cavab verən siyasi liderlər deyil, ziyalıllar oldu. Dəyişmə mübarizəsi davamlı uduzmaya uğrayan əsgəri sahədən

fikri sahəyə yürüdülmüşdü. Aydındır ki, bu dəyişmə ilk əvvəl ziyalıların özlərindən başlamışdır. Türk dünyasında yenilikçi hərəkat xatırlanarkən yada Volqa-İdil bölgəsi düşür [2, s. 38]. 1905-ci il Türk müsəlman xalqlarının qatıldığı Şurada Mustafa Çokay adlı bir ziyalı qazax türkü tərəfindən hazırlanan və Daşkənddə təşkil edilən Türküstan müsəlmanları qurultayında Türk bölgələrinin soylu ailələrindən gələn özbək, qazax, tatar, qırğız, türkmən və başqırd liderlər Türküstan müsəlman Şurası adı altında birləşmişdir. İçlərində İ.Qaspiranlı, Ə.M.Topçubaşov, Y.Akurça, F.Kərimi, A.Rəşidi, M.C.Bigi, A.Apanay kimi türk xalqlarının öndə gələn şəxsiyyətlərinin liderlik etdiyi Rusiya müsəlmanları qurultayı, müsəlman xalqları arasında birlik yatarmaq qurma istiqamətində əhəmiyyətli iş gördülər.

1905-ci il inqilabın yaratdığı azadlıq mühitindən faydalanan cədidşilər çıxardıqları rus və türkçə "Tərcuman" ("Переводчик") qəzeti yeniləşmə hərəkatının bayraqdarına çevrildi. İ.Qaspiranlının liderliyi ilə acılan məktəblərdə Rusiyanı hər tərəfdən gələn şagirdlər bu yeniləşmə düşüncəsini öz bölgələrinə daşımağa başladılar. Qaspiranlı "Tərcüman" qəzetində mənlik duyğusunun yaradılmasına çalışmışdır.

Bununla da Türküstanda Cədidçilik (Refirmizm) hərəkatı İ.Qaspilanın 1884-cü ildə acdığı ilk cədit məktəbi ilə sürət qazanaraq hərəkətlənmişdir. 1901-ci ildə Münəvvər Qazançı Daşkənddə Üluli-cədit məkətbi açmağa müvəffəq oldu. Türküstan ziyalılarının əksəriyyətinin dəstəklədiyi Cəditçiliyi meydana gətirən islam-türk mövzularnın götürməsi nəticəsində siyasi istiqamətli, mədəni cəhətdən daha ağırlıq təşkil edən bir yenilik hərəkatı halını almışdır. Lakin 1902-ci ildə Buxarada tatar uşaqları üçün Cədit məktəbi acılsa da qısa zamandan sonra qədimçilər və rusiyanın təziqi səbəbilə bağlanmışdır. İ.Qaspiranlının təkidləri ilə 1908-ci ildə yenidən açılmışdı. Bu hal Qədimçilərlə Cədidçilər arasında mübarizəni daha da şiddətli hala salınmışdı. [4. s. 46]

Cəditçilərin qarşısında duran əsas qurplaşma Qədimçiləri idi: Qədimçilər din xadimləri, mollalar və bəzi təriqət sahiblərinin nümayəndələrindən ibarət idilər ki, onlar qətiyyətin dindən kənarda müasirləşmə və yeniliyi qəbul etmirdilər. Onlara görə heç bir yenilik dini təriqətə toxunmamalı idi. 15 noyabr 1913-cü il tarixdə Şaqi Əhmədovun daxil olduğu dini qruplaşma adından sənədlərin yeni metodla oxumağa qarşı çıxmşdır: Bizim müsəlman quruplaşmamız Məhəmmədin davamçılarıdır, elmlə razı deyil: Biz qurana qarşı çıxış edən elmlə razı deyilik..! Peyğəmbərin öyrətdiklərinə və imperatorumuza qarşı çıxa bilmərik" [3, s.195]. Qruplaşma sərtliklə bəyan edir ki, təzə metodla nə öyrənəcək necə öyrənəcək və mollalar dini fənləri tədris etməli inamın vəzifəsini yerinə yetirməli deyil. Türk milli süurunun inkişafında çox əhəmiyyətli yeri olan Türk millətçiliyi düşüncəsi iki böyük qrup trəfindən tərif edilmişdir. Bunlarıdan biri Osmanlı ziyalıları içərisində digəri isə Osmanlı dövlətinə gələn ziyalılardır. 1908-ci il inqilabından bir neçə ay keçikdən sonra İstanbulda Akurça, Ayaz İshaki Halim Sabit kimi ziyalılar tərəfindən mühacir təşkilatları yaratmış, təsis edilən qəzet və jurnalların sayı sürətlə artmışdır. [1, s. 64]

Türküstanda cədidçilik həəkatı ilə özünü göstərmiş, yeni metodla çalışan bölgədəki türk mətbuatıda da tövhəsini vermişdir. 1905-ci ildə "Cədid" qəzeti Daşkənddə, Orta Asiyada nəşrə başlamışdır. Cədidçilər 1906-cı ildən "Tərəqqi" və "Xurşid" adlı qəzetlər nəşr etməyə başladılar. Cədidçiliyin halqavarı yaradılmasında ən təsirli yolu nəşr orqanlarından istifadə edilməsi idi. Bunun üçün də Çədidçilər jurnal və qəzet nəşrinə böyük əhəmiyyət verdilər. Daşkənddə çədidçilər "Şöhrət", "Asiya", "Sadeyə Türküstan" kimi qəzetləri çar hökümətinin təziqlərinə baxmayaraq qısa müddətdə olsa nəşr etdilər. Səmərqənddə isə "Behbudi" və yoldaşları "Səmərqənd" və "Ayna" jurnallarını nəşr etdilər. Fərqanədə "Səda-i Fərqanə", "Əl Bayrağ", "Yurt" kimi qəzetlər işıq üzü gördü. 1905-1907-ci illərdə Özbəkistanda 12 qəzet, 2

jurnal və bir çox kitab və boşuruya nəşr edildi. Mukimi, Fikrət və Zövqü kimi şairlər bu nəşrlərdə islam-türj birliyii və yeniləşmə fikrini işlədirdilər.

Qaspıranlının təməl yanaşmasını, "Dili-i ümumi" adını verdiyi bir dil birliyidir. Bu dövrdə bu birliyi təmin etməyə istiqamətlibir çox jurnalı nəşr olunmağa başlanıldı. İsmayıl Qaspiranlı və digər ziyalıların əslində istədikləri mədəni birlik idi. Danışılan dilin Rusiyada yaşayan türklər tərəfindən başa düşülməsi və ortaq bir əlifbanın reallaşdırılması bu ziyalıların davamçısı qaçınmış və bunu təhlükəli tapmışdır. Onun əsas qayğısı xüsusilə belə bir birliyin ictimai və mədəni infrastrukturunu hazırlaya bilməkdir.

Türk milli süurunun inkişafında çox əhəmiyyətli yeri olan türk millətçiliyi düçüncəsi iki böyük qrup tərəfindən tərif edilmişdir. bunlardan biri Ormanlı ziyalıları içərisində digər isə Rusiyadan Osmanlı dövlətinə gələn ziyalılarıdır. Rus çarının dövləti tərkibində müsəlmanları təziqi altında aldıqdan sonra Türküstan, Azərbaycan, Krım ziyalılarından ibarət bir qrup Türkiyəyə gəlmişdir. 1908-ci il inqilabından bir neçə ay keçdikdən sonra İstanbulda Y.Akçura, Ə.Ağaoğlu, Ə.İbrahimov, A.Halim Sabi kimi ziyalılar tərəfindən mühacir təşkilatları yaratmış, təsis edilən və jurnalların sayı sürətlə artmışdır. [1, s.64]

Cəddiçilik düçüncəsi ilk olaraq Qazaxıstan və şimalı Qırğızıstanda yayılmağa başladı. Qazax şagirdləri məzun olmağa başladığı andan Cədidçi aydın sinfi meydana gəlməyə başladı. Qazax vilayətinin çətinləşən iqtisadi şərtləri əsasında ənənəvi təhsil metodları ilə Rus istismarına və assimlasiyasına qarşı etiraz etmək qeyri mümkün idi.Bu səbəblə bir an əvvəl təhsil sahəsində islahatlar edilməli idi. Bu cür ziyalılar XX əsrin əvvəllərində təhsil və mətbuat həyatında Cədid düçüncəsinin nümayəndəsi oldular. Bunlar arasında T.Comartbayev, M.Cumabayev, İ.Arabayev, M.Maldıyev, M.Orazayev, B.Serkabayev, B.Maylin, M.Şeralin kimi ziyalıllar vardır.

Cədididizm əsas məqsədi Türküstan xalqını yeni zamana görə, yenidən meydana gətirmək idi. Zamanla siyasi sahəni əhatə edən cədididizim düşüncələri və milli işığın mədəni işləri, cəmiyyətin əsasında Rusiya müstəmləkəsinə qarşı gücü ortaya çıxartdı. Cədidçilərin ən əhəmiyyətli xüsusiyyətləri, cəmiyyət həyatına soxmağa çalışdıqları təkamüllü, islahatçı prinsiplər sistemi idi. 1905-ci ildən sonra Rusiyada siyasi çaxnaşmalar başladığı zaman Cədidizm daha da siyasiləşməyə başladı. Müasirlər və ortaçılar olaraq iki yerə ayrılırdılar. Buna baxmayaraq ikisi də cəmiyyətdə islahatlar olmasını istəyirdilər. Görülən işlərin nəticəsində Türkcülük islamçılıq təməlində cədidizm Türküstan cəmiyyətinin önündə gələn qisminin bilik və milli mübarizə süurunu oyandırmağı bacarmışdır.

Yeni sistem oxuma sektorunda bütün digər dərslərin ərəbcə yerinə ana dilində qoyulmuşdur. İ. Qasiranlının inkişaf etdirdiyi bu sistem, bütün Türküstan tərəfindən mənimsənərək 1905-1906-cı illərdə Nijni-Novqorodda Rusiya müsəlmanları qurultayında son halını aldı. Usil-i cədit məktəbləri və mədrəsələrinə təhsil proqramı hazırlandı.

Türküstanda açılan Cədid məktəbləri, köhnə üsuldakı məktəblərə görə daha az rəqəmlə fərqlənirdi. Ancaq rus-yerli məktəblərinə görə şagird və məktəb sayı daha yüksək idi. Ümumi mənada cədidci milli ziyalıları qiymətləndirəcək olsaq: Türküstan cədidci ziyalıları, xalqa dərin bir əlaqə quraraq, onları müstəmləkəçi və təziqçi yerli və rus hakim dairələrinə qarşı qorumağa çalışmışdılar. Milli ziyalıların bu yeni fikirlərlə meydana gəlməsi (Türkçülük, İslamçılıq, Cədidçilik) şəkillənməsi və fəalliyyətləri əsla asan olmadı. XX əsrlə birlikdə özünü siyasi mühitdə hiss etdirən bu yenilikçi ətraf islamçılıq və türkçülük fikirlərindən təsirlənən cədid hərəkatı çərçivəsində Türküstanda açılan məktəb və mədrəsələrdə təhsil alan gənclərdən meydana gəldi. Bu səbəblə Türküstanda Rusiyada yaşayan müsəlman türk xalqları digər müsəlmanların yaşadığı yerlərdə olduğu kimi, milli ziyalıların təhsilli qismi müsəlaman dinini inkişaf etdirərək qorumağa çalışırdı. Bu hərəkatlara din adamları da

(mollalar, işanlar) qatıldılar. Bunlar islamçılıq fikri ilə islamı qoruyaraq, yerli xalqı bu güclü duyğu ilə bir yerdə tutmaq məqsədi ilə müsəlmanlığı təbliğ edirdilər. Bu islamçı və türkçü ətraf xalqa qərbin fəlsəfəsini, texnologiyasını, yeniliklərini süzgəcdən keçirərək əks etdirirdi. Xalqı müsəlman və türk birliyinə çağıraraq Rus təziqinə hər vaxt razı oldular. Çar rəhbərliyi Türküstandakı mədrəsə məktəbləri islami cücərdilən düşmən kimi müəssir və müəllimləri isə təhlükəli sayıb, işlərini izləyib cəzalandıraraq təzyiq altında tutmağa çalışırdılar. Nə var ki, rəhbərliyin təzyiqlərindən Rus Çarlığının 1905-ci il qiyamı ziyalıların fəaliyyətini artırdı və inkişafında bir dönüş nöqtəsini təşkil etdi. Qaspiranlının, Türk xalqlarının "dildə fikirdə və işdə birlik" inteqrasiya məqsədi daşıyan fikri Müsəlman türk biriklərinin milli süarını qazanmasında, Türk millətçiliyinin inkişafında və bu ölkədə yaşayan xalqların haqq axtariş mübarizəsində yerinə yetirmişdir.

Müəyyən proqramı, rəhbərlik mərkəzi və nizamnaməsi olayana cədidçilər Türküstan və Buxarada leqal nəşrlər nəşrlər ətrafında, yeni üsullu məktəblərdə, xeyriyyə cəmiyyətlərində və s. toplanmışdılar. Bəzən cədidçilrə demokratik ziyalılarda qoşulurdu, lakin onların siyasi cəhətdən Cədidizmlə yaxınlığı yox idi. Orta Asiyada Cədidizmin inkişafına 1908-ci ildə Türkiyədə baş vermiş gənc türklər inqilabı güclü təsir göstərmişdir. 1907-ci ilin Fevral inqilabından sonra cədidçilər millətçi partiyalarını yaratdılar.

XX əsrdə birlikdə özünü siyasi mühitdə hiss etdirən bu yenilikçi ətraf islmaçılıq və türkçilik fikirlərindən təsirlənən cədid hərəkatı çərçivəsində Türküstanda açılan məktəb və mədrəsələrdə təhsil alan gənclərdən meydana gəldi. Bu səbəblə Türküstanda, Rusiyada yaşayan müsəlman türk xalqları digər müsəlmanların yaşadığı yerlərdə olduğu kimi, milli ziyalıların təhsilli qismi müsəlman dinin inkişaf etdirərək qorumağa çalışırdı.

Ədəbiyyat

1. Gilpınar C. XVIII-XIX əsrlərdə İslam dünyasındakı İslah haraketleri. – Ankara: TDA, 1999.
2. Özdemir E. 20-cı yüzyılın başlarında Kazakıstanda fikir hareketleri. – Ankara: QU, 2007.
3. Toğan Zeki Velidi: Hatıralar-Türkistan və Diger Müslüman Doğu Türklerinin Milli Varlıq ve Kültür Mücadileleri. – İstanbul: 1969.
4. Saray Mehmet: Qaspiranlı İsmayıl beyden Atatürke Türk dünyasında dil ve kültür birliyi. – İstanbul: 1993.

THE "JADIDISM" MOVEMENT OF INTELLECTUALS AGAINST THE POLİCY OF RUSSİFİCATİON OF TURKESTAN AT THE BEGINNING OF THE XX CENTURY

Aliyeva Tahmina Yasin

Summary

The dedication was developed under the leadership of Ismail Bay Qaspiranli. This movement was a social, political and intellectual movement, which was formed in the late 19th and early 20th centuries among the Muslim peoples of the Russian Empire, mostly of Turkish origin. Ismail Bey started the movement by opening new schools, and then published the Translator newspaper. Movement leaders took an active role in the political activity that emerged after the Russian invasion in 1905. He has made a name for himself in the Turkic movement in Turkey and has made a contribution to the Turkish press in the region. Ismail Bay Qaspiranli's idea that the Turkic peoples' unity of thought and action in the language was integrated into the achievement of the national motto of Muslim Turkic associations, the development of Turkish nationalism and the struggle for the right of the peoples living in this

country. The article examines how and under what circumstances the Mediation movement has emerged. The newspapers and magazines, the goals and alumni, their specifics and charisma are widely covered by the publishers. The antiquities of the Ancients, standing in front of the Jihadists, spoke of the pressures put forward by Tsarist Russia to prevent them.

«ОБНОВЛЕНЧЕСКОЕ» ДВИЖЕНИЕ ИНТЕЛЛИГЕНЦИИ ПРОТИВ ПОЛИТИКИ РУССИНИЗАЦИИ В ТУРЦИИ В НАЧАЛЕ XX ВЕКА

Алиева Тахмина Ясин кызы

Резюме

Модернизм развивался под руководством Исмаил бека Гаспиранлы. Это движение представляло собой общественно-политическое и интеллектуальное течение, сформировавшееся среди мусульманских народов тюркского происхождения в Российской империи в конце 19 - начале 20 веков. Исмаил-бей начал движение, открыв школы, дающие образование по-новому, а позже издал газету «Тарджуман». Лидеры движения принимали активное участие в политической деятельности, возникшей после российского вторжения в 1905 году. Он проявил себя с модернистским движением в Туркестане и внес свой вклад в турецкую прессу в регионе, которая работает по новому методу. Идея Исмаил бека Гаспиранлы о «единстве языка, мысли и труда» турецкого народа с целью интеграции нашла свое воплощение в завоевании национального флага тюркско-мусульманских отрядов, в развитии турецкого национализма и в борьбе за справедливость. народов, проживающих в этой стране. В статье рассматривается, как и при каких условиях возникло движение хадидизм. Много места уделено газетам и журналам, издаваемым модернистами, их целям и выпускникам, их уникальным характеристикам и характеру. Обсуждались антипропагандистская работа древних перед модернистами, давление, оказываемое царской Россией для предотвращения модернистов.

Rəyçi: Mürvət Əliyev ADPU-Quba filalı Tarix, Pedaqogika və sosial elmlər kafedrasının baş müəllimi

ADPU Quba filialı Tarix, Pedaqogika və sosial elmlər kafedrasının 24 noyabr 2022 tarixli iclasın 3 saylı protokolu

Daxil olma tarixi 15 dekabr 2022-ci il

PEDAQOGİKA

UOT:372.0:002

CƏBR FƏNNİNİN E-TƏLİM VASİTƏSİ İLƏ TƏDRİSİNİN METODOLOJİ PROBLEMLƏRİ

Aslanova Natiqə Şikar qızı
Gəncə Dövlət Universiteti
Natiqa.cabbarova@mail.ru

Xülasə: *Məqalədə elektron təlimin vasitəsi ilə cəbr fənninin tədrisinin metodoloji məsələləri tədqiq olunur. Araşdırmalar göstərir ki, tələbə ilə müəllimin E-təlim zamanı bilavasitə ünsiyyətinin olmaması son nəticədə tələbə üçün müəyyən problemlər törədə bilər. Bu problemlərin bir hissəsi hazır internet resurslsrında konkret tələbə kontingentinin elmi-metodiki tələblərinin ödənəbilməməsi ola bilər. Bu ənənəvi təhsilə nisbətən müəllimin daha artıq dərəcədə professional hazırlığa malik olmasını tələb edir.*

Açar sözlər: pedaqoji və psixoloji aspekt, metodologiya, informasiya texnologiyaları, e-təlim, ünsiyyət vasitələri

Key words: pedagogical and psychological aspect, methodology, computer algebra, information technologies, e-teaching, tools of comunication

Ключевые слова: педагогический и психологический аспект, методоло-гия, информационные технологии, э-обучение, средства общения

Azərbaycanda ali təhsilin qarşısında duran əsas məsələlərdən biri günün tələblərinə cavab verən təlim texnologiyalarına yiyələnmiş yüksək ixtisaslı pedagoji kadrların hazırlanmasından ibarətdir. Təlim prosesinin müvəffəqiyyətli təşkili üçün ən vacib şərt təlimin yüksək keyfiyyətini təmin etməkdən ibarətdir. Müasir dövrdə bu tələblərə cavab verən təlim texnologiyası kimi elektron təlimin (qısaca e-təlim) psixoloji, pedaqojivə metodoloji xüsusiyyətlərinin öyrənilməsi zəruridir.

E-təlimin tətbiqi ilə bağlı vacib olan əsas tələblər bunlardır: informasiya resurslarının əlçatan olması, elmi informasiyanın bitkinliyinin və effektivliyinin təmin olunması; müasir informasiya texnologiyalarının tətbiqi; yerli şəbəkənin olması; tələbələrin təlimi lazımi səviyyədə qavramaları üçün oxu zalında istifadəyə verilən ədəbiyyatın kifayət qədər sayı, iş terminallarının kifayət qədər olması, İnternetə giriş ilə (virtual) kompüter laboratoriyalarından istifadənin düzgün təşkili; pedaqoji personalın komplektləşdirilməsi, elmi kitabxanaların istinad informasiyası elektron fondları ilə təmin olunması və s.

İnformasiya və kommunikasiya texnologiyalarının gündəlik həyatımıza durmadan genişlənən nüfuzu tədrisin bütün pillələrində müxtəlif fənlərin tədrisində daha effektiv üsulların meydana gəlməsinə səbəb olmuşdur. İnteraktiv təlim üsulunun kompüterlərdən istifadə edilməklə həyata keçirilməsi tədris prosesini daha da səmərəli etmişdir.

E-təlimin çox da uzaq keçmişlərə yönəlməyən tarixindən məlumdur ki, kompüterlərdən istifadə əyaniliyin daha yüksək səviyyədə həyata keçirilməsini tələb edən həndəsə fənninin tədrisindən başlanmışdır. Fəza fiqurlarının kəsiklərinin qurulması fəza təsəvvürlərinin inkişaf etdirilməsinə kömək edir. Kompüterlərin daha mükəmməl nəsillərinin meydana gəlməsi, hesablama sürətinin böyük dərəcədə yüksəlməsi onların riyaziyyatın və digər təbiət elmlərinin qarşısında duran məsələlərin həllində geniş istifadə olunmasına təkan verdi. Əvvəllər mümükün olmayan məsələlərin müasir dövrdə kompüter vasitəsi ilə həlli artıq mümükün

olmuşdur. Müasir dövrdə elə sahələr vardır ki, onların inkişafını kompüterlərsiz təsəvvür etmək belə mümükün deyil.

İlkin olaraq e-təlimin elementləri bəzi universitet və özəl institutlarda qismən tətbiq olunmağa başlanmışdı və bu imkana ancaq iqtisadi cəhətdən güclü universitetlər malik idi. E-təlim bir tədris texnologiyası kimi 1990-cı illərdə meydana gəlmişdir. İlkin dövrlərdə bu yeni təlim üsulu əsas etibarı ilə kompakt disklər şəklində təklif olunurdu. Müasir təlim texnologiyası kimi electron tədris 2000-ci illərin əvvəllərindən etibarən yaranmağa başladı. Alətlər panelinə malik olan və internetə çıxışı olan ağıllı lövhələrin meydana gəlməsi e-təlimin imkanlarını xeyli artırdı. Kompact disklərdən fərqli olaraq, dərsin gedişinin istənilən mərhələsində bu və ya digər mövzu üzrə hazır materiallar internetdən qəbul oluna bilərdi. Aparıcı ali məktəblərdə tədricən onlayn təlim texnologiyalarının tətbiqinə başlandı. Sonrakı illərdə onlayn təlim üsulları ilə təhsil alan insanların sayı sürətlə artmağa başladı. Yeni onlayn təhsil alan nəsil formalaşmağa başladı. Bu cür təhsil bir sıra səbəblərdən yaşadığı yeri tərk etmədən və işlədiyi müəssisədə heç bir əlavə problem yaratmadan təhsil ala bilmək imkanı verirdi.

Tədricən e-təlim vasitələri daha aktiv şəkildə təhsilə daxil olmağa başladı. Buna baxmayaraq, bu istiqamətdə nəşr edilən tədqiqatın çoxu, yalnız e-təlimin faydalarından bəhs etməyə üstünlük verirdilər. E-təlim konsepsiyasının yaranması və inkişaf etməsinə səbəb olan əsas faktorlardan biri kimi onun nəzəri əsaslarının yaranması, e-təlimin şəxsi davranış, social və mədəni aspektlərin tədqiqi göstərilə bilər.

Tədricən beynəlxaq şəbəkədə insanların və təhsil müəssisələrinin maraqlarını nəzərə alan, e-təlimin metodoloji problemlərinin öyrənilməsini stimullaşdıran tədqiqatlar yer almağa başladı. Bu cəhətdən E-təlimin öyrədənlə öyrənən arasında şəxsi bilavasitə ünsiyyətin olmaması məhdudiyyəti olsa da, onun bir sıra müsbət imkanları vardır ki, bu da geniş informasiya resurslarına girişin olmasından ibarətdir.

Bunlarla yanaşı yeni təlim formasının pedaqoji və psixolji aspektlərinin də öyrənilməsi bir problem kimi özünü göstərməyə başladı. Təbii olaraq, e-təlim sistemlərinin üstünlükləri və çatışmayan cəhətləri və nöqsanları pedaqoji nöqteyi-nəzərdən daim suallar doğururdu. Tamamilə yeni tədqiqat üsulları meydana gəlməyə başladı. Bu tədqiqatın nəticəsində e-təlimin tədricən təkmilləşdirilməsi təmin olunur. Nəticə etibarı ilə bu, yeni konsepsiyanın meydana gəlməsinə səbəb olmuşdur.

Maarifləndirici sistemlərin əsas funksional vəzifələrindən biri tələbələri social həyata hazırlamaqdır. Bu, ənənəvi təlim texnologiyalarında müəllim kollektivinin nəzarəti altında həyata keçirilir. Lakin e-təlim zamanı tələbələr canlı həyatdan çox virtual aləmlə bağlı olurlar və social həyatdan təcrid olunmuş olurlar. Beləliklə, sosial həyatla, virtual maarifləndirici pedaqoji fəaliyyət arasında korrelyasiya yaranır və buna görə də bu istiqamətdə e-təlim metodikasının qarşısında aradan qaldırılması tələb olunan çətinliklər meydana çıxır [3]. Bu çətinliklərin qismən aradan qaldırılması yolu e-təlim texnologiyaları ilə ənənəvi təlimin müəyyən xüsusiyyətlərinin uzlaşdırılmasından ibarət ola bilər. Müasir dövrdə bir çox məsələlərin həlli müxtəlif elm sahələrinin müştərək şəkildə istifadə olunmasını tələb edir. Bu məqalədə həll olunması nəzərdə tutulan əsas məsələ cəbrin tədrisində e-təlim metodlarının yaradılmasının spesifik problemlərinin müəyyən olunmsı və praktik fəaliyyətdə ondan istifadə olunmasını təmin edən yolların müəyyənləşdirilməsindən ibarərdir.

Kompüterlərdən tədris prosesində istifadə olunması da müasir dövrün tələblə-rindən birinə şevrilmişdir. Cəbri struktuların müxtəlif növlərinin öyrənilməsində kompüter texnologiyaları inkar olunmaz üstünlüklərə malikdirlər. Əvvəllər böyük hesablamalar tələb edən və bu səbəbdən də öyrənilməsi böyük çətinliklər yaradan məsələlərin daha sadə həll

üsulları yaranmışdır. Bu sahədə davamlı inkişafın məntiqi nəticəsi kimi elektron təlim üsulları yaranmışdır.

Müasir riyazi modelləşmə məsələlərində riyaziyyatın bütün sahələrində böyük hesablamalar tələb edən məsələlərin kompüter vasitəsi ilə həlli üçün xüsusi tətbiqi proqramlar hazırlanmışdır. Bu proqramlar bəzən həlli bütün dərs prosesinin belə əhatə edə biləcək qədər uzun sürən məsələlərin qısa zamanda həllini tapmağa kömək edir. Burada yenə də məsələnin qoyuluşundan və dərsin xarakterindən asılı olaraq, bəzən kompüterin köməyindən istifadə edərək məsələni həll etmək, bəzən isə materialın daha dərindən qavranması üçün bəzi hesablamaların əllə yerinə yetirilməsi əlverişli olur.

E-təlimin psixoloji və pedaqoji xüsusiyyətləri ilə bərabər onun metodoloji aspektlərinin də həm təlim və həm də elmi xarakterli mövzuların ali təhsil müəssisələrində tədrisi üçün böyük əhəmiyyəti vardır. Buna görə də müasir dövrdə e-təlim vasitəsi ilə cəbrin ali məktəbdə tədrisi metodikasının qarşısında duran əsas məqsədlərdən biri ali təhsil müəssisələrində və universitetlərdə e-təlimin psixoloji və pedaqoji xüsusiyyətləri ilə yanaşı müxtəlif fənlər üçün e-təlimin əsas xarakteristikalarını öyrənməkdən ibarətdir.

Tədris müəssisələrində e-təlimi ali məktəblərdə təşkil edən və icra edən yüksək ixtisaslı əməkdaşlarının işinin cəbrin tədrisi sahəsində daha da optimallaşdırılmasının nəzəri və praktik əsaslarının öyrənilməsi məhz metodoloji problemlərin müəyyən olunmasını tələb edir. Eyni zamanda təlim prosesində həm tədris olunan fənnin təlim nəticələrinin əldə olunmasına diqqət vermək lazımdır, və həm də bunu elektron təlim üsullarının vasitəsi ilə, yəni İKT vasitələri ilə həyata keçirmək tələb olunur. Bu müəllim üzərinə əlavə məsuliyyət qoyur.

Təcrübə göstərir ki, e-təlim zamanı həm müəllim və həm də tələbənin təlim materialı üzərində işi ənənəvi təhsilə nisbətən artmış olacaqdır. Müəllim üçün bu iş ona görə artmış olacaqdır ki, müəllim informasiyanı yalnız görmə və eşitmə orqanları əsasında deyil, aralıq informasiya ötürücüsü (kompüter, noutbuk, internet şəbəkəsi və s.) vasitəsi ilə həyata keçirir ki, bunun hazırlığı əlavə vaxt və enerji tələb edir. Əlbəttə internet vasitəsi ilə yüksək ixtisaslı kadrlar tərəfindən hazırlanmış hazır tədris materiallarından istifadə olunması müəyyən qədər bu işi yüngülləşdirsə də, tələbələrin qavrama xüsusiyyətləri və onların fərdi keyfiyyətləri əlavə iş saatlarının artmasına səbəb ola bilər. Boloniya prosesinin inkişafı ilə, universitetlər arası təcrübə mübdiləsi gücləndikcə, tələbələrin bu sistemdən istifadə bacarıqları yüksəldikcə və inteqrasiya prosesləri artdıqca bu cür əlavə iş saatlarına ehtiyacın azalması baş verə bilər. Lakin müasir dövrdə bu hələlik imkan xaricindədir.

Müəllimin professional keyfiyyətlərinin yüksəlməsinin vacibliyi aşağıdakı araşdırmalardan aydın olur. İKT texnologiyaları vasitəsi ilə interaktiv dərs aparan müəllimin dərs prosesinin müşahidəsi göstərir ki, müəllim İKT vasitələrinin iş prinsipinə yaxşı yiyələnməklə və hazır təlim materialından istifadə etməklə dərsi yüksək səviyyədə aparacağını düşünürsə, çox bəsit bir çap səhvi bütün işi korlaya və onun öz məqsədinə çata bilməməsinə səbəb ola bilər. Belə çap səhvi tədris olunan fənn materialının aralıq daşıyıcılar dilində yazılması nəticəsində mexaniki baş verə bilər. Belə bir səhvi həddən artıq böyük olan texniki yönümlü mətndə aşkar etmək çətindir. İş prosesində belə bir səhvin olmasını ancaq tədris olunan fənni yüksək peşəkarlıqla bilən müəllin görə bilər. Müşahidə olunmuş səhvin texniki xarakterli proqram mətnində təsbit edərək, onu aradan qaldırmaq isə İKT üzrə yüksək biliklərə malik olan müəllim tərəfindən yerinə yetirilə bilər. Beləliklə, müəllimin effektiv işi onun hər iki fənni yüksək səviyyədə bilməsini tələb edir.

Eyni dərəcədə professionallıq materialın möhkımləndirilməsi zamanı, yəni laboratoriya məşğələlərində tələbələrlə iş zamanı meydana çıxa bilər. Materialın tələbə tərəfindən qavranılması üçün və onun təlim nəticələrində qeyd olunan səriştələrə yiyələnməsi

üçün tələbənin nəzəri materialı dərindən qavraması gərəkdir. Müşahidə göstərir ki, məsələn, cəbrdə kub tənliyin həllinin tədrisi zamanı yalnız Kardano düsturlarının təqdimatın köməyi ilə tələbəyə çatdırmaq və onlayn İnternet sistemlərin köməyi ilə təqdim olunan konkret tənliyin həll olunaraq, kökünün tapılması möhkəm bilik əldə olunmasına yardım edə bilməz. Lakin tələbə sərbəst olaraq kub tənliyin həlli üçün proqram təminatı hazırlayarsa, o nəinki Kardano düsturlarını bilməlidir, habelə onlardan düzgün istifadə üçün lazım olan əlavə biliklərə (kompleks kökalma düsturlarına, Myavr düsturlarına, kompleks ədədlərin triqonometrik formasına, kompleks ədədin arqumentinin düzgün müəyyən olunma qaydalarına və s.) dərindən yiyələnməlidir [4, 6, 8]. Belə biliklər isə yüksək professionallığa malik olan müəllimin rəhbərliyi altında qazanıla bilər.

Müəllimin öz işndə istifadə etdiyi əsas metodlar müşahidə, tədqiqat, arxiv-araşdırma üsulu, tələbə anketinin araşdırılması, tələbələrlə aparılan sorğular və s. kimi metodlardan ibarətdir. Tədqiqatın metodoloji əsası aşağıdakı prinsiplərə söykənir: informasiya texnologiyası sistemli, fəaliyyət yönümlü olmalı, fərdi fəaliyyətin dəstəklənməsinə xidmət etməlidir.

Tədqiqatın elmi yeniliyi ali təhsil müəssisələrində e-təlim vasitəsi ilə cəbrin tədrisi zamanı seçilən təlim üsulunun həlli axtarılan problemlə sıx bağlı olmasının aşkarlanması və təlimin psixoloji və pedaqoji xüsusiyyətlərinin düzgün müəyyən olunmasından ibarətdir. Müasir dövrdə e-təlimin müvəffəqiyyətlə həyata keçirilməsi üçün, bu təlimin müxtəlif alt sistemlərinin həyata keçirilməsini təmin edən təlim sistemləri və onlayn təlim texnologiyalarından istifadə edən üsullar hazırlanmalıdır. E-təlim zamanı onlayn proqram paketləri ilə müəllim yaxud tələbələr tərəfindən hazırlanmış proqram paketlərindən yerində istifadə olunması təlimin keyfiyyətinə təsir göstərən əsas amillərdəndir.

Cəbr fənninin məzmunu və strukturu fənn proqramı ilə müəyyən olunur. Müasir Cəbr kursu üç semestrdə deyilən əsas (məcburi) kurs və seçmə fənlərlə əhatə olunan tamamlayıcı kursdur. Materialın seçilməsi və ona ayrılan saatların planlaşdırılması müəllimdən də asılıdır. Cəbr 1, 2, 3 fənləri cəbr üzrə minimal biliklər sisteminin verilməsini nəzərdə tutur. Seçmə fənlərdə isə Cəbrin əlavə bölmələri və bir sıra tətbiqlər üçün vacib olan mövzuları yer alır. Müasir dövrdə onlayn tətbiq proqramları cəbrin və onunla bağlı bir sıra digər sahələrin ən vacib məsələlərinin demək olar ki, hamısını əhatə edən yeni texnoloğiyalarla zəngindir. Bu proqramların əksəriyyəti onlayn təlim üçün və habelə sərbəst şəkildə öyrənmə və istifadə üçün yararlıdır. Müəllimin burada rolu, əsas etibarı ilə, deyilən kursla bağlı olan bikilər sistemini əldə etmək üçün istiqamətverici və yönəldici qüvvə olmasındadır. Bu rolu layiqincə yerinə yetirmək üçün müəllimlərin həmin tətbiq proqramları və onlarla bağlı olan vasitələri dərindən bilmələri vacibdir.

Cəbr kursu olduqca genişdir və əgər nəzərə alsaq ki, bu fənnin hər bir bölməsi ilə bağlı Sage, Magma kimi İnternet mühitlərində kifayət qədər dolğun material vardır, onda bu kursa aid hansı materialların məhdud zaman çərçivəsində öyrənilməsi məsələsi təlimin effektivliyi üçün vacibdir. Burada onlayn proqramlardan istifadə ilə müəllimin rəhbərliyi altında və onun tərəfindən hazırlanan tədris materialının öyrədilməsi arasında düzgün nisbətin olması vacibdir. Tədris prosesində e-təlim nöqteyi nəzərindən vacib olan mövzularda onlayn proqramlardan istifadə məsələsinə və habelə onlayn proqramların nəinki tədrisdə və habelə buraxılış, kurs və sərbəst işlərin hazırlanmasında faydalı ola biləcək tədqiqat xarakterli materialın öyrənilməsinə geniş yer verilməlidir [5, 7].

Bu istiqamətdə uğurun əldə olunması üçün kompüter cəbri adlanan fənnin tədris olunmasına böyük ehtiyac vardır. Araşdırmalar göstərir yuxarıda deyilən çətinliklərin aradan qaldırılmasında bu fənnin tədrisinə böyük ehtiyac vardır. Müəllif öz araşdırmalarnın

nəticəsini olaraq bu fənnin bütün riyaziyyat və informatika yönümlü ixtisaslarında bu fənnin tədrisinin vacibliyini təklif etmişdir.

Kompüter cəbri fənni kompüterin bilavasitə tədrisə və elmi axtarışlara nüfuz etməsi nəticəsi olaraq, yeni meydana gəlmiş bir fəndir. Bu fənn cəbrin simvollar üzərində əməliiyat qaydalarını yerinə yetirə bilən xüsusi proqramların və sistemlərin vasitəsi ilə ümumi cəbr məsələlərinin həllini təmin edən sistemlər haqqında fəndir. Burada söhbət müəyyən bir məsələnin kompüter vasitəsi ilə təqribi həllindən getmir. Həmin məsələ hesablama riyaziyyatı fənnində öyrənilir. Kompüter cəbrində isə baxılan məsələlər sırf cəbri xarakterdə omaqla dəqiq həllolunur. Məsələn, verilmiş cəbri ifadənin eyniliklə çevrilməsi və onun sadələşdirilməsi cəbri məsələdir və onun kompüter vasitəsi ilə həlli kompüter cəbri fənnində həyata keçirilir [2-3].

Yuxarıda deyildiyi kimi kompüter cəbri fənni yeni fəndir və onun yaranması cəbr və ədədlər nəzəriyyəsində həlli yüzilliklərlə məlum olmayan məsələlərin həllində kompüterlərin uğurlu tətbiqi ilə bağlı olaraq meydana gəlmişdir. Diofant tənliklərinin həlli zamanı bir çox hallarda tənliyin həllinin parametrlərin çox böyük qiymətlərində həlli olmadığı ümumi nəticələrlə isbat olunmuşdur. Lakin bu sərhədlər çox böyük olduğu üçün qalan hallarda həllinolub olmaması məsələsinin müasir kompüterlər vasitəsi ilə belə həlli qeyri-mümkün görünür. Lakin XX əsrin 70-ci illərində LLL alqoritm deyilən olduqca mühüm nəticənin əldə olunması bu istiqamətdə çox uğurlu işlərin görülməsi ilə nəticələndi. Bu alqoritmin mühüm cəhəti onun polinomial vaxt ərzində kompüter köməyi ilə həll verə bilən alqoritminin olması ilə bağlıdır. Bu alqoritm vasitəsi ilə qurulan "gətirilmiş bazis" həllərin sərhədlərini "eksponemsial" olaraq azaltmağa və beləliklə yoxlana bilən həllər sərhədlərini kompüterlə hesablana bilən sərhədlərədək endirməyə imkan verir.

Beləliklə, kompüter cəbri fənninin tədris olunması dövrün tələbidir və tədrisin aktual məsələsidir.

Ədəbiyyat

1. Зюзьков В. М. Компьютерная алгебра. Издательство Томского университета, 2014.
2. Шилин И.А. Копьютерная алгебра в задачах. Учебное пособие. МПГУ, Мос., 2018.
3. Мараховская Н.В. Психолого-педагогические средства преодоления познавательных барьеров в дистанционном обучении: Диссертация … канд. пед. наук / Брянский гос. пед. ун-т. М., 2003. 127 с.
4. Aslanova N. Sh. On Calculation of Elements of Continued Fractions for Cubic Algebraic Numbers, Journal of Contemporary Applied Mathematics v.10, №1, 2020, p. 10-13.
5. Aslanova N. Sh. On the Number of Lattice Points in the Shifted Circles, Azerbaijan Journal of Mathematics, v. 10, №2, 2020, p. 175-190.
6. Асланова Н. Ш. Методика преподавания темы «кубические уравнения» в университетах средствами электронного обучения, Вестник Черкасского Национаь ного Университета им. Б. Хмель-ницкого, серия педагогические науки, №3, 2021, 89-99.
7. Aslanova N. Ş. Cəbri tənliklər mövzusunda Şturm sisteminin e-təlim üçün uyğun olan məsələləri, Pedaqoji Universitetin Xəbərləri, Riyaz. və təbiət elmləri seriyası, c.64, №4, 2021.
8. Асланова Н. Ш. Преподования темы «Кубические уравнения» в университетах средствами электронного обучения, XIV Международная научная конференция «фундаментальные и прикладные проблемы математики и информатики», приуроченная к 90-летию Дагестанского государственного университета, 16-19 сентября, 2021, с. 57-59. Махачкала.

МЕТОДОЛГИЧЕСКИЕ ПРОБЛЕМЫ ПРЕПОДОВАНИЯ ДИСЦИПЛИНЫ АЛГЕБРА ПРИ ЭЛЕКТРОННОМ ОБУЧЕНИИ

Асланова Натига Шикар кызы

Резюме

В статье исследуются методологические вопросы преподования предмета алгебры при э-обучении. Исследования показывают, что отсутствие непосредственного контакта между студентами и учителем при э-обучении может порождать некоторые проблемы для студента. Часть этой проблемы может быть обусловлена неудовлетворенностью студентов научно-методическим материалом в ресурсах из интернета.

METHODOLOGICAL PROBLEMS OF TEACHING OF ALGEBRA BY THE METHODS OF E-TEACHING

Aslanova Natiga Shikar

Summary

In the paper the methodological aspects of the teaching of algebra is investigated. Studing shows that the results of the e-teaching depends on absence of direct connection between the student and the teacher. Partially this problem is connected with fully absence of demands in scientific and methodological internet resurses. This demands high professional competences for teachers.

Rəyçi: f.r.e.d.Rövşən Hümbətəliyev
Daxil olduğu tarix 16 noyabr 2022-ci il

UOT:37.

İNGİLİS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİ ZAMANI KURS PROQRAMLARININ HAZIRLANMASINDA LÜĞƏT TESTLƏRİNİN ROLU

p.ü.f.d. Hacıyeva Könül Xanlar qızı
Azərbaycan Dillər Universiteti
hajiyeva.konul83@gmail.com

Xülasə: *Söz ehtiyatı artıq dil öyrənmə prosesinin vacib bir hissəsinə çevrilmişdir və son illərdə bir sıra tədqiqatlar ümumi dil biliyi ilə söz biliyi arasında sıx əlaqənin olduğunu göstərir. Bu gün artan tendensiya, akademik mühitdə təhsillərini davam etdirmək istəyən tələbələr üçün ingilis dilində ən çox işlənən və akademik sözlərin təqdim olunmasıdır. Tələbələrin dil öyrənmə səmərəliliyini artırmaq məqsədi ilə müxtəlif fənlərə əsaslanan bir çox külliyyatlar yaradılmış və təhlil olunmuşdur. Nəticədə sözlərin işlənmə tezliyinə əsasən müxtəlif növ söz siyahıları tərtib edilmişdir. Bir sıra səbəblərə görə söz siyahılarının tərtib olunması dil öyrənərkən vacibdir. Bu siyahılar adətən müvafiq ixtisaslara uyğun sahədə rast gəlinən sözlərin və ya leksik ifadələrin siyahılarını ehtiva edir.*

Açar sözlər: İngilis dilinin xarici dil kimi tədrisi, lüğət testi, tədris planı, kurs proqramı.

Ключевые слова: Преподавание английского языка как иностранного, словарный запас, учебный план, программа курса.

Keywords: Teaching English as a foreign language, vocabulary test, curriculum, course program

Giriş. Söz ehtiyatı artıq dil öyrənmə prosesinin vacib bir hissəsinə çevrilmişdir və son illərdə bir sıra tədqiqatlar ümumi dil biliyi ilə söz biliyi arasında sıx əlaqənin olduğunu göstərir (12; 16; 18). Digər müddəalarla yanaşı, tədqiqatçılar ali təhsil müəssisələrində akademikyönümlü məsələləri icra etmək üçün lazım olan lüğət ehtiyatınının həcmini araşdırmışlar və belə bir qənaətə gəlmişlər ki, tələbələr həm reseptiv, həm də produktiv biliyi nümayiş etdirmək üçün kifayət qədər söz ehtiyatına malik olmalıdırlar. Məsələn, bir sıra tədqiqatlar göstərir ki, ingilis dilində mühazirələr dinləmək üçün ingilis dilini xarici dil və ikinci dil kimi öyrənən (ESL və EFL) tələbələr təxminən 4000-5000 sözailəsi həcmində lüğətə ehtiyac duyurlar (10; 18; 21). Ancaq bu tədqiqatlar bir-birindən fərqli təlim ehtiyacları olan ESL və EFL tələbələri arasında heç bir fərq qoymur və buna görə də yerli kontekstlərin,konkret tələbələrin ehtiyaclarının nəzərdən keçirilməsinin vacibliyi tədqiqatlarda əsaslandırılır (20). ESL və EFL arasındakı fərq ilk baxışda əhəmiyyətsiz görünə bilər, lakin bu tələbələrin ehtiyac və məqsədlərini ödəmək üçün tamamilə fərqli öyrənmə strategiyaları tələb olunur. Davis (4), ingilis dilinin xarici dil kimi (EFL) tədrisinin başqa bir ölkədə eyni ölkədən olan yerli qeyri-ingilis dilində danışanlarla aparıldığını iddia edir. Bunun əksinə olaraq, ingilis dilinin ikinci dil kimi tədrisi (ESL) isə ingilis dilinin rəsmi dillərdən biri olduğu, siyasət və ticarətdə istifadə olunan əsas ünsiyyət vasitəsi olduğu bir ölkədə keçirilir. Məsələn, ingilis dilinin Kanton dilindən sonra ikinci rəsmi dil olduğu və ESL statusuna sahib olduğu Hong Kongu nümunə göstərmək olar. Bu məqamda Nizonkiza və Ngvenia (20, 225) qeyd edir ki, "fərqli mənşəli EFL və ya ESL tələbələrinin ehtiyacları da fərqli ola bilər və mümkün bütün halları nəzərdən keçirmək yarana biləcək problemlərin həlli istiqamətində vacibdir." Bundan əlavə, mövcud ədəbiyyat, ali təhsilli EFL və ESL tələbələrinin lüğət ehtiyatında böyük fərqlər olduğunu göstərir (5; 11; 22; 24). Bu isə o deməkdir ki, sözügedən tələbələrin ehtiyacları və onlara dil tədrisində istifadə olunan üsullar da fərqlidir.

Lüğətin tədris planına daxil edilməsi. Leksik yönümlü proqramların təhlili göstərir ki, 1970-ci illərə qədər ingilis dili tədris proqramları əsasən qrammatika-tərcümə metoduna istinad edirdi, çünki o zaman üstünlük təşkil edən metod qrammatika-tərcümə metodu idi (21). Bu metodun illər ərzində üstünlük təşkil edən təsiri barədə heç bir şübhə yoxdur. 1960-cı illərdə Chomsky bayrağı altında transformasiya dilçiliyinə keçid söz ehtiyatının tədrisinin nizamlı qrammatikada bir qədər periferik, qıcıqlandırıcı bir səhv olduğu fikrini gücləndirdi (3). Başqa sözlə, lüğət dil öyrənmənin, eləcə də lüğət tədrisinin laqeyd komponenti idi və söz öyrənmənin əhəmiyyəti arxa plana keçirildi. O dövrdə lüğət üçün söz ehtiyatının müəyyən olunmasında əsas üstünlük onların tez-tez qrammatik qaydanı təsvir etmək və sintaktik quruluşları ifadə etmək bacarığı idi. Bununla belə, yalnız qrammatikanın tədrisi xarici dil öyrənənlərin məsələn, bilet almaq və ya gecikdiyi üçün üzr istəmək kimi sadə gündəlik tapşırıqları yerinə yetirə bilməsi üçün bilməsi kifayət deyildi. Nəticədə, uzun illər lüğət öyrənilməsi xarici dillərin tədrisində qeyri-müəyyən bir mövqe tutmuşdur. Dil öyrənmə, testlərin aparılması və tədrisində söz ehtiyatının nəzərdən keçirilməsi illərlə təxirə salındı və Meara'nın (12) da təsvir etdiyi kimi, ögey münasibət göstərilirdi. Unudulmuş və laqeyd münasibət görmüş leksikanı canlandırmaq və lüğətlə bağlı mövzuları daxil etmək üçün "Uilkinsin konseptual proqramı" (1976) sadəcə qrammatik strukturlara deyil, yuxarıda göstərilənlər kimi müəyyən gündəlik problemləri həll etmək üçün lazım olan dil növlərinə diqqət yetirməyin də vacibliyini vurğuladı. Lüğətin əhəmiyyətini dərk edərək, lüğətə laqeydliyi aradan qaldırmaq üçün müxtəlif cəhdlər edildi. Dubin və Olşteynin (6) da izah etdiyi kimi, "yaxşı söz ehtiyatına sahib olmaq bir çox öyrənənlərə dil biliklərindən və onların xüsusi ehtiyaclarına uyğun şəkildə səmərəli istifadə etməyə imkan verir". 1980-ci illərin sonlarına yaxın kurikulum nəzəriyyəçiləri lüğətə diqqət yetirməyə başladılar (21). Həqiqətən, bundan sonar lüğət dil öyrənmənin laqeyd və ayrı-seçkilik görmüş elementindən dil öyrənmə prosesinin mərkəzi, vacib komponentinə çevrildi (9). Bu inkişaf zəmnində, EFL tədris

proqramlarında söz ehtiyatının zənginləşdirilməsi üçün artan bir tendensiya müşahidə olunur. Lüğət biliyi hal-hazırda akademik müvəffəqiyyətlə o qədər sıx bağlıdır ki, dil öyrənmənin ayrılmaz bir hissəsinə çevrilmişdir (18; 23). Lüğət dil müəllimləri, tədqiqatçılar və proqram tərtibatçıları üçün kurs proqramlarının və tədris materiallarının əfsəlli təşkili və planlaşdırılması tələbələrin lüğət ehtiyatını müəyyənləşdirmək və onun inkişafını təmin edən bir komponentdir (16). Həqiqətən də, tələbələrə məlum olan sözlərin sayı onun dil öyrənməsindəki irəliləyişinin göstəricisidir (23). Nation, kursun lüğət komponentini planlaşdırmağın əksər müəllimlərin istəksiz etdiyi bir şey olduğunu iddia edir. Buna görə də, əksər hallarda müəllimlər dərsliklərin bununla məşğul olacağını düşünür və təəccüblənirlər ki, dərsliklərin həmişə tələbələrin xüsusi ehtiyaclarına əsaslanmır. Lakin hazırda Azərbaycan universitetlərində tədris proqramlarının tədris vəsaitlərinə – həm çox sayda milli dərsliklərə, həm də beynəlxalq nəşrlərə uyğunlaşdırılması tendensiyası müşahidə olunur. Sinclair və Renouf (23, 146) iddia etdikləri kimi, "konkret bir dərslikdən asılı olan bir proqram, mündəricatdan çox da fərqlənməyən azca dəyişiklik olunmuş bir proqramdır". Balanslı və əhatəli bir kurs qurmaq, müəyyən bir tələbə qrupu üçün ən uyğun söz ehtiyatını seçməyi və öyrənmə imkanlarının uyğun bir tarazlığını təmin etməyi əhatə etdiyindən, müəllimlərin yalnız nəinki kurs proqramının lüğət komponentini, yəni ən çox istifadə olunan sözlərin lüğət siyahısını özləri planlaşdırmaları tövsiyə olunur, həm də mənalı bir kontekstdə ən çox rast gəlinən sözləri təqdim etmək üçün müvafiq təlimdə iştirak etmələri də məqsədəuyğun hesab olunur.

Söz siyahılarının hazırlanması. Bu gün artan tendensiya, akademik mühitdə təhsillərini davam etdirmək istəyən tələbələr üçün ingilis dilində ən çox işlənən və akademik sözlərin təqdim olunmasıdır. Tələbələrin dil öyrənmə səmərəliliyini artırmaq məqsədi ilə müxtəlif fənlərə əsaslanan bir çox külliyyatlar yaradılmış və təhlil olunmuşdur. Nəticədə sözlərin işlənmə tezliyinə əsasən müxtəlif növ söz siyahıları tərtib edilmişdir. Bir sıra səbəblərə görə söz siyahılarının tərtib olunması dil öyrənərkən vacibdir. Bu siyahılar adətən müvafiq ixtisaslara uyğun sahədə rast gəlinən sözlərin və ya leksik ifadələrin siyahılarını ehtiva edir. Bununla birlikdə, Hyland və Jie (7) kimi tədqiqatçılar söz siyahılarının uyğunluğunu və faydalılığını şübhə altına alırlar. Vang, Liang və Ge (2008) və Hsu (8) tibb üçün, mühəndislik üçün Vord (2009), kənd təsərrüfatı ixtisası üçün Martinez, Beck və Panza (2009) kimi tədqiqatçılar xüsusi fənlər üçün bir sıra söz siyahıları hazırlanmışlar. Bu kimi tədqiqat təcrübəsini nəzərə alaraq, ali təhsil müəssisələrində təhsil alan azərbaycanlı tələbələrin akademik ehtiyaclarını ödəmək üçün xüsusi söz siyahısının hazırlanmasının bu tələbələr üçün faydalı olacağını ehtimal etmək olar. Tələbələrin lüğət ehtiyatının zənginləşdirilməsi və öyrənilən bir sıra lüğət vahidləri üzərində operativ nəzarət əldə etmələrinə kömək etmək kursun effektiv lüğət komponentinin ümumi məqsədləridir. Müvafiq olaraq, lüğət baxımından konkret məqsədlər qoymaq üçün şagirdlərin lüğət səviyyəsini, yəni ən çox işlənən və az-az işlənən akademik sözləri bilməsi vacibdir, çünki bütün bu sözlər fərqli öyrənmə qabiliyyətlərini tələb edir (16). Deyilənlərin əksinə olaraq, müəllimlər şagirdlərinin lüğət səviyyəsini qiymətləndirərkən lüğət testinin nəticələrinə deyil, intuisiyalarına etibar edirlər. Belə ki, Mcnail (16) tərəfindən aparılan bir araşdırma göstərir ki, müəllimlər tez-tez şagirdlərinin bildikləri barədə yanlış təsəvvürə malik ola bilərlər.

Ümumiyyətlə, geniş anlamda Richards və Schmidt (20, 242) ehtiyacların təhlilini "bir tələbənin və ya bir qrup tələbənin ehtiyaclarının müəyyən olunması və həmin ehtiyacların prioritetlərə uyğun paylanması prosesi kimi izah edirlər. Carkin (2), müxtəlif tələbələrin ehtiyaclarının qiymətləndirilməsinin tədris planının, materialların hazırlanması, mətn seçimi, təlimin məqsəd və vəzifələri və yekunda tələbələrin və kursların proqramının uğuru üçün qiymətləndirilməsinin əsasını təşkil etdiyini vurğulayır. Ehtiyacların təhlili faktların müəyyənləşdirilməsi və ya məlumatın toplanması tələbini nəzərdə tutur. Məlumatlar, məsələn,

tələbələrin bilik səviyyəsi, daha dəqiq desək, onların lüğəti, öyrənilməsi lazım olan fənlər və s.müxtəlif mənbələrdən gələ bilər və müxtəlif üsullarla toplana bilər. İstifadə olunan bu metodda müxtəlif texnikalardan istifadə olunur: sənədləşmənin aparılması, testlər, anketlər, formalar, müsahibələr, qeydlər və müşahidənin aparılması. Lüğət testi diaqnostik vasitə kimi ehtiyacların təhlilinin vacib komponenti olduğundan, ingilis dilini öyrənən azərbaycanlılarla belə bir testin aparılması əhəmiyyətli ola bilər. Lüğət testindən istifadə həm (i) Azərbaycan tələbələrinin lüğət səviyyəsinin tezlik paylanmasını (ən çox işlənən, az-az istifadə olunan sözlər) müəyyən etməyə, həm də (ii) hansı sözlərin yaxşı tanındığını və hansının daha çox diqqət tələb etdiyini təsnif etməyə imkan verəcəkdir. Bundan əlavə, ingilis dilini akademik məqsədlər üçün istifadə edən tələbələr üçün uyğun bir leksik kurs proqramı layihəsi ilə müşayiət olunan (iii) ən çox istifadə olunan sözlərin universitet lüğət siyahısını hazırlamaq üçün (iv) ehtiyacların təhlili üçün əhəmiyyətli bir vasitə kimi də istifadə oluna bilər. Yuxarıda qeyd edildiyi kimi, testlər ehtiyacların təhlilində və məlumat toplama prosesində istifadə olunan texnikalardan biridir. Leksik biliyi ölçən testlər ehtiyacların təhlilində əvəzolunmaz məlumat mənbəyidir və əlavə olaraq da kurikulum və kurs proqramının ayrılmaz tərkib hissəsidir (1). Məqsədin dil biliyinin müəyyən olunması, yerləşdirmə, diaqnoz və ya nailiyyətlərin ölçülməsi olub-olmamasından asılı olmayaraq, testlər tələbələrin ümumi qabiliyyət səviyyəsi və onların rastlaşa biləcəyi xüsusi dil problemləri haqqında geniş məlumat verə bilər. Paul Nation (14) tərəfindən hazırlanmış və Schmitt, Schmitt və Clapham (22) tərəfindən təsdiqlənmiş, produktiv lüğət biliyinin ölçüsü testi (Laufer & Nation, 1999) və lüğət biliyini ölçən səviyyə testləri, tələbələrin ən çox işlənən və akademik sözlər üzərində kifayət qədər nəzarətə sahib olub olmadığını tez bir zamanda müəyyən edə bilər və sözlər və ya leksik tezlik profili (Laufer & Nation, 1995) haqqında daha ətraflı məlumat verir. Nation-a (16, 383) görə lüğət ehtiyatının təhlili testi aşağıdakı vacib məqamları müəyyən etməyə imkan verir: 1) hansı lüğət növünə (ən çox işlənən, akademik, texniki, az-az işlənən) diqqət yetirilməli olduğu haqqında məlumat; 2) öyrəniləcək sözlər haqqında məlumat; 3) hansı strategiyalara diqqət göstərilməsi haqqında məlumat; 4) ehtiyac duyulan müəyyən ixtisas üzrə xüsusi lüğət ehtiyatının göstəricisi; 5) tələbələrin lüğət istifadəsində və onlardan istifadə strategiyalarında mövcud güclü tərəfləri bilmək.

Bu cür tədqiqatlar ingilis dili mütəxəssislərinin kiçik və çox spesifik hədəf auditoriyasına uyğun olsa da, tətbiq olunan metod daha geniş məqsədlər üçün də tətbiq oluna bilər. Azərbaycan ilə oxşar mövqedə olan bir sıra başqa ölkələrdə də ehtiyacların təhlilinin nəticələri tədris proqramlarının tərtibi zamanı qonşu dövlətlərin – Ukrayna, Qazaxıstan, Özbəkistan və Tacikistan– ali təhsil müəssisələrində də istifadə oluna bilər.

Ədəbiyyat

1. Brown, J.D. (1995). The elements of language curriculum: A systematic approach to program development. United States: Heinle, Cengage Learning.
2. Carkin, S. (2005). English for Academic Purposes. In E. Hinkel (ed.) Handbook of Research in Second Language Teaching and Learning. New Jersey: Lawrence Erlbaum Associates Publishers.
3. Carter, R. & McCarthy, M. (1991). Developments in the teaching of vocabulary. In R.Carter & M. McCarthy. Vocabulary and Language Teaching. Harlow, 39-59.
4. Davies, A. (2005). A Glossary of Applied Linguistics. Mahwah, NJ: Lawrence Erlbaum Associates.
5. Danilovic, J.R. & Grujic T.S. (2014). Vocabulary growth at tertiary level: How much progress can Serbian EFL learners make in a year? Зборник Института за Педагошка Истраживаваньа 46(1): 200–218. doi: 10.2298/ZIPI1401200D.

6. Dubin, F. & Olshtain, E. (1986). Developing Programs and Materials for Language Learning. Cambridge: Cambridge University Press.
7. Hyland, K. & Tse, P. (2007). Is there an 'academic vocabulary'? TESOL Quarterly 41(2): 235–253.
8. Hsu, W. (2013). Bridging the vocabulary gap for EFL medical undergraduates: The establishment of a medical word list. Language Teaching Research 17(4): 454-484.
9. Laufer, B. (1998). The development of passive and active vocabulary in a second language: Same or different? Applied Linguistics 12: 255–271.
10.Laufer, B. & Ravenhorst-Kalovski, G.C. (2010). Lexical threshold revisited: Lexical text coverage, learner's vocabulary size and reading comprehension. Reading in a Foreign Language: 15–30.
11.Laufer, B. & Paribacht, T.S. (1998). The relationship between passive and active vocabularies: Effects of language learning context. 48: 365-391.
12.Meara, P.M. (1996). The dimensions of lexical competence. In G. Brown, K. Meara, P. & Buxton, B. (1987). An alternative to multiple choice vocabulary tests. Language Testing 4(2): 142-151.
13.Meara, P. & Jones, G. (1990).Tests on vocabulary size in English as a foreign language. Polyglot 8(1): 1-40.
14Nation, P. (1990). Teaching and learning vocabulary. New York..
15.Nation, P. (2006). How large a vocabulary is needed for reading and listening?. The Canadian Modern Language Review 63: 59–82.
16.Nation, P. (2011). Research into practice: Vocabulary. Language Teaching 44(4): 529–539.
17.Nizonkiza, D. & Ngwenya, T. (2015). Challenges of testing deep word knowledge of vocabulary: Which path to follow? Journal for Language Teaching, Volume 49, Number 1, pp. 223-253.
18.O'Dell, F. (1997). Incorporating vocabulary into syllabus. In N. Schmitt & M. McCarthy (Eds). Vocabulary: Description, Acquisition and Pedagogy. Cambridge: Cambridge University Press, 258–278.
19.Ozturk, M. (2012). Vocabulary growth of the advanced EFL learner. The Language Learning Journal 1–16. doi:10.1080/0957/1736.2012.7080.53
20.Richards, J.C. & Schmidt, R. (2010). Longman dictionary of language teaching and applied linguistics. Pearson Education Limited.
21.Schmitt, N. (2010). Researching Vocabulary. A Vocabulary Research Manual. United Kingdom: Palgrave Macmillan.
22.Schmitt, N., Schmitt, D. & Clapham, C. (2001). Developing and exploring the behavior of two new versions of the Vocabulary Levels Test. Language Testing 18(1): 55–88.
23.Sinclair, J.McH. & Renouf, A. (1991). A lexical syllabus for language learning. In R. Carter & M. McCarthy (Eds). Vocabulary and Language Teaching. Harlow: Longman, 140–160.
24.Zhong, H. & Hirsh, D. (2009). Vocabulary growth in an English as a foreign language context. University of Sydney Papers in TESOL 4: 85–113.

РОЛЬ СЛОВАРНЫХ ТЕСТОВ В РАЗРАБОТКЕ ПРОГРАММ КУРСОВ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ

Гаджиева Конуль Ханлар кызы

Резюме

Словарный запас является выжным компонентом изучения языка, и в последние годы в ряде исследований была установлена тесная взаимосвязь между общим уровнем

владения языком и знанием слов. В настоящее время наблюдается растущая тенденция уделять особое внимание высокочастотным и академическим словам в английском языке для тех, кто желает продолжить свое обучение в академической среде. С целью повышения эффективности обучения академических учащихся нами было создано и проанализировано множество корпусов, основанных на различных дисциплинах. В результате составлены различные виды списков слов на основе их частотности. Списки слов важны в обучении языку по целому ряду причин: они включают лексемы или лексические обороты, встречающихся в дискурсивной области, часто предоставляя информацию о частоте использования конкретных слов.

THE ROLE OF VOCABULARY TESTS IN THE DEVELOPMENT OF COURSE PROGRAMS IN TEACHING ENGLISH AS A FOREIGN LANGUAGE

Haciyeva Konul Xanlar

Summary

Vocabulary seems to have become an important component of language learning and in the recent years, a number of studies have established a close relationship between overall linguistic proficiency and word knowledge. In the light of these developments, there is now an increasing tendency to focus on high-frequency and academic words in English language for those wishing to continue their studies in an academic environment. A variety of corpora based on different disciplines have been established and analysed in order to improve the learning efficiency of academic learners. As a result, different kinds of word lists were set up on the basis of word frequency. Word lists are important in language teaching for a variety of reasons; they include lists of the words or lexical phrases found in a discourse domain, often including frequency information about the use of particular words.

Rəyçi: A D U-nun Xarici Dillərin Tədrisi Metodikası kaf. müdiri, dosent, Şirəliyeva Günay Xəzail qızı
ADU-nun Təlimdə İnnovasiyalar kafedrasının 15 noyabr 2022-ci il tarixli iclasın 3 nömrəli protokolu
Daxil olduğu tarix 30 noyabr 2022-ci il

UOT:37.

QLOBALLAŞMA, İNFORMASİYA CƏMİYYƏTİ VƏ TƏHSİL

F.ü.f.d., dosent Səlimov Mahir Məhəmmədəli oğlu
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
mahir.selimov0707@mail.ru

Xülasə: *Məqalədə təhsil sistemində mövcud olan problemlərin həllinin bir çox hallarda ölkədə, konkret olaraq təhsil sistemində siyasətdə və ideologiyada həyata keçirilən islahatlardan asılı olduğu qeyd edilir.*

Həmçinin, müəllif, qeyd edir ki, inteqrasiyalaşan cəmiyyətdə təhsilin modernləşməsinin yeni modelinin qurulması ancaq müasir informasiya texnologiyalarının geniş formada tətbiq edilməsindən asılıdır. Məhz sonuncu qloballaşdırmanı səciyyələndirən əsas elementdir.

Açar sözlər: qloballaşma, informasiya cəmiyyəti, təhsil, təhsilin modernləşməsi, neoliberal yanaşma

Key words: globalization, information society, education, educational modernization, neo-liberalization approach

Ключевые слова: глобализация, информационное общество, образования, модернизация образования, неолиберилизационный подход

Müasir dövrdə qlobballşmanı xarakterizə edən liberalizmin əsas istiqaməti, ictimai əlaqələri təyin edəcək səviyyədə olan suveren xüsusiyyətə çevrilmişdir. Əlbəttə ki, neo-liberalizmin bu şəkildə təyinatı, təhsilin məzmununa təsir edən struktur dəyişiklikiləri haqqında təsəvvür yaradır.

Buna görə də təhsil aşağıdakı ümumi çərçivədə: dövlət təhsil prosesini müvafiq qaydada tənzimləməsi cəhdlərinə baxmayaraq, bu sahədə qazanılan biliklər hələ də əmək bazarının tələblərinə cavab vermir. Bu baxımdan Azərbaycanda bir çox istiqamətlər üzrə həyata keçirilən təlim-tədris sistemi ölkənin müəyyən peşə və ixtisaslar üzrə mütəğəssislərə olan tələbatını ödəmir və bu sahədə böyük radikal islahatlara ehtiyac var. Həyata keçirilən bu islahatların səmərəliliyini aparmaq üçün müəyyən bir mexanizmin yaradılmasına ehtiyac vardır. Bu isə təhsilin əmək bazarı ilə əlaqələndirilməsini, qeyri-dövlət strukturu da daxil olmaqla cəmiyyətin peşə-ixtisas həyatı ilə uzlaşdırılmasını tələb edir.

Əgər bir zamanlar dünyanın ən qabaqcıl universitetləri Avropa qitəsində idisə, amma indi onların əksəriyyəti ABŞ-dadırlar (Harvard universiteti, Massaçusets Texnologiya Unviersiteti, Stanford, Yel universitetləri və digər özəl universitetlər). Avropa universitetlərindən fərqli olaraq ABŞ universitetləri təhsilini üç əsas komponent üzərində qurur: - tədris, tədqiqat, cəmiyyətə xidmət. Əgər bu üçüncü komponenti təhsil sisteminə gətirirsənsə, artıq təhsilin istiqaməti və təbiəti tamamilə dəyişir. Əgər bu üçüncü komponent yoxdursa, onda bütün elmlər yaxşıdı, bütün elmləri öyrənmək lazımdır. Əksinə, əgər bu üçüncü komponent təhsildə yer alarsa, onda artıq tədris olunan bilik sahələrini seçməyə məcbursan – belə ki, bəzi biliklərə cəmiyyətin tələbatı daha çoxdur, bəziləri isə ikinci dərəcəli xarakterə malik ola bilər. Belə olan halda, ölkənin təhsil müəssisələri dövlət üçün strateji əhəmiyyət daşıyan sahələri və bilikləri tədris etmək zərurəti qarşısında qalır.

Son dövrlərdə Dünya Bankı mütəxəssislərinin təhsilin sisteminin özünün yeni sərmayə sisteminə çevrilməsi istiqamətindəki fikirlərini müasir dövrdə təhsilin əmtəələşməsinə yönəldirlər. Qloballaşma müddətində həyatın hər sahəsinə nüfuz edən liberal baxışlar şübhəsiz təhsilə böyük təsir edirlər [1].

Bundan əlavə bazar istiqamətli təhsil sistemi, şagirdə məktəbin ona çəkdiyi xərclərin ödənilməsi şərtilə təhsil ala bilməsini ehtiva edir. Bir şirkət işə bir işçi götürərkən qəzetlərə elan verdiyi kimi universitetlər də eyni yolla elan verirlər. İş yerinin təhsil etikası baxımından bu ölçüyə gəlməsi neo-liberal təhsil sisteminin mövcudluq şərtidir.

Bununla əlaqədar təhsilin özəl xarakter alması, fərqli bir müstəvidə, fərqli mülkiyyət əlaqələriylə formalaşdığını ehtiva edir.

Qloballaşma dövründə təhsilə ayrılan büdcə vəsaitlərinin dünya ölkələrində tədricən azalması müşahidə olunur. Təhsilin maliyyə tələbləri ödənilə bilmədiyindən tələbələr informasiya cəmiyyətinin verdiyi imkanlardan istifadə edərək aldıqları təhsil xidmətlərinin qarşılığını bir müştəri kimi ödəmək məcburiyyətindədirlər. Bu baxımdan tələbələr öz qazancları hesabına təhsil xərclərini ödədikləri səbəbindən öz sərmayələrinin idarəedilməsində müstəqillik əldə etmiş olurlar. Xüsusilə, ölkəmiz də daxil olmaqla dünyada yeni, xüsusi mülkiyyətli təhsil qurumlarının təcrubəsinə əsasən öz təhsil xərclərini ödəyən tələbələr daha yaxşı şərtlərlə əmək bazarına daxil ola bilirlər. Beləliklə, bir çox hallarda konservativ idarəetmə meyarlarını əsas götürən dövlət təhsil müəssisələrində kütləvi təhsillə birlikdə keyfiyyət də getdikcə düşməkdə və tələbələrin təhsildəki funksiyası yalnız hazırlanmış proqramlar çərçivəsində verilən məlumatı almaqdan ibarətdir.

Bundan başqa, inkişaf etməkdə olan ölkəmiz kimi başqa ölkələrdə nəzərə çarpan digər bir problem də təhsil sisteminin işsizliyə alternativ olduğunu gənclərə təlqin edilməsidir.

Burada informasiya cəmiyyəti ilə neo-liberal qloballaşmanın təhsildəki ziddiyyəti özünü qabarıq formada göstərir. Digər tərəfdən qloballaşmanın təşkilati strukturunu formalaşdıran BVF və Dünya Bankı kimi qurumların, təkid etdiyi iqtisadi platformaların bir çox ölkələrdə işsizliyə və yoxsulluğa gətirib çıxarmaları azmış kimi "qlobal rəqabət üçün sərişteli işçi qüvvəsi yetişdirin" şəklindəki ifadələri, neo-liberalizmin başqa bir ziddiyyətidir [2].

IMF, Dünya Bankı kimi suveren güclər qloballaşmanın təşkilati strukturundan faydalanırlar. Bu mənada neo-liberal baxışların təhsil sahəsinə daşınması və yayılmasında əlbəttə ki, beynəlxalq qurumlar və Avropa Birliyi kimi regional təşkilatların əhəmiyyətli rolu olmuşdur. Bu səbəbdən təhsilin xüsusiləşdirilməsinə, sektorlaşmasına və liberallaşdırılmasına istiqamətlənən siyasətə bu təşkilatlar tərəfindən böyük qaynaqlar transfer edilir. Buna görə də təhsil, neo-liberal görüşlər baxımından digər əmtəələrdən heç bir fərqi olmayan əmtəə kimi qəbul edilir. Bu "bir çox neo-liberallara görə hər sahədə olduğu kimi, təhsildə də rəqabətqabiliyyətli bazar münasibətlərinin yaradılması qaçılmazdır və təhsil artıq xüsusi bir əmtəə istehsalçısı kimi hazırladığı mütəxəssislər əmək bazarında alınıb-satıla biləcək bir əmtəə növü kimi qəbul edilməlidir" [3].

Son vaxtlarda əmək bazarında iştirak edən işaxtaranların bir və ya bir neçə xarici dil bilməsi tələbləri ilə qarşılaşması problemi bu baxımdan diqqəti çəkir. Qloballaşma ilə birlikdə ingilis dilli akademik ədəbiyyatların dominant (hakim) mövqeyi bu problemi bir daha aktuallaşdırır. İngilis dilinin bilik-informasiya sisteminin əsas dil kontenti kimi çıxış etməsi və beynəlxalq informasiya-bilik sistemi ilə əlaqələndirmə vasitəsi olaraq geniş istifadəsi onun dominantlıq statusunu getdikcə artırır, tədris proqramlarının, kirukulumların istifadəçilərinin başa düşdükləri səviyyədə hazırlanmasını zəruri edir.

Qeyd etmək lazımdır ki, universitetlərin əsas missiyası olan təhsil fəaliyyətinə araşdırma fəaliyyətinin də getdikcə daha çox əlavə olunması universitetləri mənsub olduqları cəmiyyətin gələcəyinə daha məsuliyyətlə yanaşmalarını ehtiva edir. Bu universitetlərin təşəbbüskarlıq missiyasını daha da artıraraq onu dünya innovasiya sisteminin fəal oyunçusuna çevirir. Bu baxımdan, Azərbaycan universitetləri texnoloji inkişaf, fənlərarası müştərək fəaliyyət, təhsil və araşdırma imkanları ilə qlobal rəqabət müstəvisində Azərbaycanı dünyaya təqdim etməlidir. Bu missiya XXI əsrdə universitetlərin üzərinə düşür. Yeni texnologiyaların təsiri nəticəsində universitetlər öz ənənəvi forma və məzmun təmellərini dəyişirlər: tədrisdə məkan anlayışı aradan qalxır. Məsələn, ABŞ-ın Miçiqan Universitetinin professoru Duderstadın "asinxron learning" deyə adlandırdığı yeni üsul insanın istədiyi yerdə istədiyi zaman təhsilə və ya müvafiq biliklərə yiyələnmələrinə geniş imkanlar yaradır. Bu istiqamətdə şəffaf və distant təhsil verən universitetlər milyonlarla tələbəsi olan auditoriyaya sahib olurlar. Artıq ömürboyu oxumaq prinsipi həyatımızın bir parçasına çevrilib. Bunun nəticəsində universitetlər kurikulumlarını və elmi sifarişlərini tədris proqramlarının daha elastik olmasını şərtləndirən və təhsildə təcrübi yanaşmalara önəm verməsinə şəraiti zəruri edən cəmiyyətin tələbləri üzərində qura bilərlər.

Əvvəllər hər hansı bir problem müəyyən bir nöqtədən qaynaqlanırdı. İndi isə electron-rəqəmsal qaynaqlar dövrü olduğundan problemlərin də çoxsaylı mənbəələri diqqəti cəlb edir. Bu hal təhsildə ənənəvi pedaqogikanın əvəzinə kollabrativ (əməkdaşlıq) tədrisi, insan üçün bilik fenomenini və universitetin onlar üçün yaratdığı sosial faydanı önə çıxardı. Gələcəyin universiteti fənlərarası iş birliyinə əsaslanan təşəbbüskar hədəfləri ilə yaranmış problemləri həll etməklə yeni yollar və variantlar ortaya qoymuşdur. Fənlərarası fərqlərin aradan qalxması və universitetlər arasında qlobal miqyasda cərəyan edən rəqabət Azərbaycan ali təhsil

şəbəkəsinin təhsil və elmi-tədqiqat məsələlərinə yenidən nəzər yetirməyə səfərbər edilməlidir. Universitetlərin təhsil, elmi-tədqiqat və innovasiya üçbucağı kimi təsnif edilməsi Azərbaycanda yeni universitet düşüncəsini həm öz ənənəvi prinsipinə çevirməli, həm də universitet - istehsalat əməkdaşlığının yeni istiqamətlərini inkişaf etdirməlidir. Universitetlərin istehsalat və ya işəgötürənlər mühiti ilə əməkdaşlığının tarixi XVII əsrin ortalarına gedib çıxır. XVII əsrin əvvəllərində F.Bekon "history of trades" proqramını hazırlayaraq sənaye məhsullarının necə istehsal olunduğunun təsnifatını və metodologiyasını vermişdir. Bekon hesab edirdi ki, elmi düşüncə istehsalçıların baxış bucağı ilə genişlənəcəkdir. Bekonun bü mülahizələri İngiltərədə universitet-istehsalat əməkdaşlığının əsasını qoyaraq "Royal Society of London" şirkəti timsalında sənaye inqilabına zəmin hazırladı [3, 823–833]. Eləcə də Birləşmiş Ştatların Arizona Əyalət Universiteti fənlərarası təhsil paradiqmasını elm-təhsil müstəvisinə çıxararaq universitetin səmərəlilik göstəricisini son 50 ildə ən yüksək nöqtəsinə qaldıra bilmişdi.

Elmi biliyin təşkilinin yeni formalarının axtarışı təhsil sisteminin islahatının ən mühüm məqsədidir. Hazırda maarifçilik konsepsiyasının normativizminə və unitarizminə zidd olan yeni elm obrazı təşəkkül tapmaqdadır. Bununla yanaşı savadalma ideyasına da yanaşmalar dəyişir. Ənənəvi təsəvvürlərlə yanaşı bu gün pedoqogikada insan və savadlılıq barədə yeni təsəvvürlər təşəkkül tapır, pedoqogikanın antropoloji əsaslarının əvəzlənməsi baş verir. Təhsilli insan bu gün "bilikli adamdan", hətta dünyagörüşü formalaşmış adamdan daha çox, həyata hazır olan, müasir mədəniyyətin mürəkkəb problemlərindən baş açan, həyatda öz yerini başa düşməyə qabil olan insandır.

Təhsil- azad şəxsiyyətin formalaşması, başqalarını başa düşmək, təfəkkürün, ünsiyyətin, nəhayət, insanın praktik hərəkəti və davranışları üçün şərait yaratmalıdır. Elə etmək lazımdır ki, təhsilli insan qarşılaşdığı sınaqlara hazır olsun.

Hazırda "bilikli insan" obrazına qarşı bəzən "şəxsiyyət" qoyulur və qeyd olunur ki, təhsilin əsas məqsədi yaradıcı şəxsiyyət yetişdirməkdir. Həqiqətən də, bilikli insan başqa sözlə, mütəxəssisdir-insanın bir hissəsidir, amma həm də şəxsiyyətdir-həm də mühüm hissəsidir, onun başqa hissələri də var-bədəni (bədən varlığı), psixikası (psixi varlıq), ruh (ruhi varlıq), sosial fərd (nəsli varlıq) və s. Təhsil insanın inkişafı üçün şərait yaratmalıdır, hər tərəfli insan haqqında hələ kifayət dərəcədə bilmədiyimiz insanın inkişafı üçün şərait yaratmalıdır [2, s.86].

Müasir dövrün insanlar qarşısında qoyduğu bir neçə şərtlərə nəzər salsaq, mədəniyyətin humanitar və texniki sahələrə parçalanması prosesini aradan qaldırılması üçün müəyyən cəhdləri görərik. Belə ki, bu iki sahə son dövrlərdə bir-birindən daha çox uzaqlaşırlar və ona görə iki müxtəlif -humanitar və texniki bəşəriyyət formalaşması baş vermişdir (alimlər, mühəndislər, ümumiyyətlə, rasional texniki yönümlü adamlar). Ehtimal var ki, əgər texniki və humanitar mədəniyyətlərin fərqliliyi artarsa, bəşər sivilizasiyasına təhlükə varsa, onda bütün bəşəriyyət özünü onların yaxınlaşması üçün səfərbər etməli, humanitar-texniki tamlığa səy göstərməlidir. Təbii-elmi dünyagörüşü, demək olar ki, hər iki insandan birinə müasir mədəniyyət və təhsillə təlqin edilsə də, hələ də humanitar dünyagörüşünün kifayətsizliyi hiss olunur. Çünki bu başqa pedoqoji paradiqmaya - təhsilin, məktəbin, insanın yeni kontekstdə dərk edilməsinə gətirib çıxarmalıdır.

Ali təhsilin islahatında başlıca istiqamətlərdən biri təhsili sistemini dövlətin inhisarından kənarlaşdırmaqdır. Əgər bu olmazsa, təhsildəki çatışmazlıqlardan, gənclər mənimsədiklərinin reallığa uyğun gəlməməsi kimi qeyri-mütənasiblik vəziyətindən azad etmək mümkün olmayacaq.

Təhsil müəssisəsinin sərbəstliliyinyin olmaması bir tərəfdən müəllimlərin, ali məktəb rəhbərlərinin düşüncələrində formalaşməş xüssusiyyətlərin nəticəsidir. Onlar rəhbərlikdə "yuxarıların" standartları, proqramları və planlarına əməl etməyə öyrəşiblər. Təhsilin məzmunu ilə bağlı məsələləri öhdələrinə götürmək məsuliyyətindən qorxurlar və yuxarıların təlimatlarını gözləyirlər. Təhsilin islahatı ilə bağlı söhbətlərdə ali məktəblərin müstəqilliyi, tədris proqramlarının, çoxpilləli təlimin müxtəlifliyi ideyaları özünə çətin yol açır. Təhsilin maliyyələşdirilməsinin yeni mənbələrinin meydana gəlməsi ilə bu işdə irəliləyişlərin olmasını düşünmək olar. Biz hansı proqramlara ehtiyacın olması, hansı universitetlərin rəqabətqabiliyyətli səviyyədə olmalarını aşkar edə bilərikr.

Bu cür mərkəzləşmənin olmaması ilə eyni zamanda bu və ya digər təlimə, onun keyfiyyətinə obyektiv qiymət vermək olar. Çox zaman mütəxəsisslər bazar islahatları şəraitində fundamental sosial və humanitar təhsilə marağın itməsi təhlükəsindən danışırlar. Ancaq Avropa ölkələrində aparılan təcrübə bunun belə olmadığını göstərir. Araşdırmalar tələbələrdə yüksək səviyyəli mütəxəssis olmaq üçün ixtisas fənləri ilə yanaşı proqramlarda ümumi iqtisadi nəzəriyyə, fəlsəfə,Ş fəlsəfə tarixi, etika, politologiya, sosiologiya, dinşünaslıq və s. kimi fənlərin həcminin azalmasının və ya tamamilə götürülməsinin, məntiqin əsasları kimi fənlər hesabına sıxışdırılmasının əleyhinə olduqlarını bildirirlər. Zaman özü yuxarıda sadalanan fənlərin hazırlanan mütəxəssislərin vətəndaş kimi formalaşmasında əhəmiyyətli rol oynamasına zəruri şəraitin yaradılmasını tələb edir.

Nəticə və Təkliflər.

Nəticə olaraq onu deyə bilərik ki, bizim gündəlik qarşılaşdığımız məhsullar, xidmətlər kompleksi daha çox disiplinlərarası sferanın aktivindədir.Gələcəkdə bu paradiqma daha çox izləniləcək.Bu da universitet şəbəkəsində disiplinlərarası tədris, araşdırma və inkişaf trendlərinin əhəmiyyətini daha da artıracaq. Azərbaycan ali təhsil şəbəkəsində bu yanaşmalar həm elmi metodoloji, həm də novasiyaların yeni invariantları kimi düşünülməli və universitet kurikulumlarının nüvəsini təşkil etməlidir.Araşdırmanın innovasiyaya çevrilməsi universitetdə yaradılan akademik infrastrukturların keyfiyyərcə yeni axtarışlara cəlb etməlidir. Bununla da, ali təhsilin qlobal meyllərini milli inkişaf səmtindən qiymətləndirərək universitetlərin cəmiyyət quruculuğunda yeni rolunu müəyyən etmək gələcək hədəflərin fəth olunmasında mühüm başlanğıcdır.

Müasir dövr inkişaf prosesində qarşımıza çıxan yeni anlayışlar çağdaş dövrümüzün fəlsəfəsidir. Qloballaşma faktı, iqtisadiyyatın öndə olmasını, siyasətdə, mədəniyyət və incəsənətdə, təhsildə və cəmiyyətin digər sahələrində keyfiyyətcə yeni dəyişikliklərə gətirib çıxarır.

Qloballaşma ilə birlikdə ictimai sahədə əsaslı bir paradiqma dəyişikliyi formalaşmır. Nəticədə istehsal şərtləri məzmunca dəyişir, cəmiyyətin müxtəlif sahələrində öz əksini taparaq yeni bir yanaşma modeli yaratmışdır. "Texnologiya" və "informasiya " əsasında formalaşan bu cəmiyyət informasiya cəmiyyəti kimi təsvir olunur. Bu yanaşmada istər cəmiyyətin spesifik xüsusiyyətləri və söykəndiyi qaynaqlar (məlumat, texnologiya, bəşəri sərmayə vs.) istərsə də, inkişaf edən yeni sektorun məşğulluq keyfiyyətinin bir zərurət olaraq "təhsil"i hər zamankından daha çox ön plana çıxır. Ümumiyyətlə, təhsildə inkişafın, gənclərin sosial problemlərinin bir həll variantı olaraq bu məsələlər diqqət mərkəzində olmalıdır.

Son dövrlər ölkəmizdə elektron hökumətin formalaşması kontekstində informasiya cəmiyyətinin üzvlərinin özlərini keyfiyyətli təhsil əsaslı bir müstəvidə inkişaf etdirməyə çalışmalıdırlar. Qloballaşma zamanı informasiya cəmiyyətinin standartlarını mənimsəmək istəyən ölkələr, dövrün ehtiyaclarına cavab verə bilən, araşdırma və inkişaf rulu şəxsiyyətə

sahib fərdlər yetişdirməlidir. Bu səbəbdən də ictimai inkişafın əsası olan təhsilin vəzifəsi yalnız cəmiyyətə formal-diplomlu işçi hazırlamaqla məhdudlaşdırılmamalıdır.

Nəticə etibarilə, bütün bu inkişafı səciyyələndirən müstəvidə, müasir texniki təchizatlı, məlumat-təhli-axtarış keyfiyyətlərinə malik istifdəçi profilinin yaradılması zəruridir. Bu tələblərə cavab verə biləcək mütəxəssislərin yetişdirilməsi təhsilin ən fundamental missiyası olmalıdır.

Ədəbiyyat

1.Б. Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозиро вания. M.Academia,1999, 956 с.
2. 9.Joseph Stiglitz. Globalization and Its Discontents, W.W.. Norton & Company, June 2002,p 282.
3. Всемирный доклад по мониторингу ОДВ. Образование для всех к 2015 году. Добьемся ли мы успеха. Франса, изд.UNESCO,2008, 492 с.

GLOBALIZATION, INFORMATION SOCIETY AND EDUCATION

Salimov Mahir Mammadali

Summary

The article notes that the fundamental importance of solving educational problems to a great extent on the ideology and specific policies in the educational system, implemented in the country.

At the same time, the author emphasizes that the needs and the kind of consensus that will be decisive in the creation of a new model of educational modernization in an integrated society built on the basis of modern information technology. That last is a defining component of the process of globalization.

ГЛОБАЛИЗАЦИЯ, ИНФОРМАЦИОННОЕ ОБЩЕСТВО И ОБРАЗОВАНИЯ

Салимов Махир Магамедали оглы

Резюме

В статье отмечается, что принципиальной важностью решения образовательных проблем в значительной степени зависят от идеологиия и конкретной политики в образовательной системе, проводимая в стране.

В то же время, автор подчеркивает, что необходим и некий консенсус в отношении того, что будет определяющим в создании новой модели образовательной модернизации в интегрированном обществе, построенном на основе современных информационных технологий. Именно последние являются определяющим компонентом процесса глобализации.

Rəyçi: prof.M.Hüseynov
ADPİ-nun Ağcəbədi filialının İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası kafedrasının 12 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu
Daxil olma tarixi 28 sentyabr 2022-ci il

UOT (UDK) 3.37

ŞUŞALI QASIM BƏY ZAKİR YARADICILIĞINDA ƏXLAQİ-TƏRBİYƏVİ KEYFİYYƏTLƏRİN TƏHLİLİ

Məmmədova Vəfa Oktay qızı
Gəncə Dövlət Universiteti
Vafa19731213@gmail.com

Xülasə:*Məqalədə Qasım bəy Zakir oxucunun fikrinə, düşüncəsinə hakim olan, onu düşündürən, real həyat hadisələrini necə varsa eləcə də əks etdirmişdir. Xalq yaradıcılığı çeşməsindən su içmiş qoşma, gəraylı, müxəmməs, mənzum hekayə, təmsil və satirik şeirlərində uşaq və yeniyetmələrin tərbiyəsi ön plana çəkilir. İnsan xarakterində olan mənfi cəhətlərə qarşı mübarizə aparmaq tələb olunaraq yeniyetmələrdə yüksək mənəvi keyfiyyətlərin, bəşəri məzmun kəsb eyləyən dəyərlərin tərbiyə olunması məsləhət bilinir.*

Açar sözlər: Şuşa, xan, xalq, şair, satira, vətən, ədəbiyyat, məhəbbət, qəhrəman, qala
Ключевые слова: Шуша, хан, народ, поет, сатира, родина, литература, любовь, герой, пишера
Key words: Shusha, khan, people, poet, satire, homeland, literature, affection, hero, castle

...Vallah, göz sevinir baxırsan hara,
Öz yaşıl səsiylə çağırır çəmən.
Şuşa ucalmısan boz buludlara,
Vətən torpağının heykəlisən sən...
(Qasım bəy Zakir)

Şuşa-Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən dilbər guşələrdən biridir. Şuşa vaxtilə Azərbaycanın mədəniyyət paytaxtı olub. 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş bu şəhərin yaranmasından 270 il ötür. Şuşa sevgisi hər bir azərbaycanlının:- o cümlədən də mənim mənəvi varlığımın ayrılmaz bir parçasıdır. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Strateji yüksəkliyi və mövqeyi ilə fərqlənən Şuşa respublikamıza qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal edilmiş dövrlərdə şəhərdəki yüzlərlə qiymətli tarixi və mədəniyyət yadigarları ermənilərin vandalizm aktları nəticəsində dağıdılaraq bərbad hala gətirilmişdir. Haqq işi uğrunda ordumuzun Ali baş komandanı İlham Əliyevin rəhbərliyi altında apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli fərmanına əsasən bu ili Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə almış və "Şuşa ili" elan etmişdir. [8]

Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qurtqaşınlı və Mirzə Fətəli Axundovun müasiri və yaxın dostu, satiraları və lirik şerləri ilə tanınan Qasım bəy Zakir...

Şuşada dünyaya göz açmış Qasım bəy Zakirin həyat və yaradıcılığına, eləcə də onun yazmış olduğu satiralarındakı yetişməkdə olan gənc nəslin tərbiyəvi-əxlaqi məsələlərinə nəzər salmağı qərara aldım. Qasım bəy Zakir 1784-cü ildə Qarabağ mahalının Şuşa şəhərində tanınmış bir bəy ailəsində anadan olmuşdur. XIX əsr azərbaycan ədəbiyyatında satirik cərəyanın yaranması onun adı ilə bağlıdır. Zakir Şuşada ruhani məktəbində farsca təhsil almış və fars dilini mükəmməl bildiyi üçün Firdovsi, Xəyyam, Xaqani, Nizami, Sədi, Cəlaləddin Rumi kimi böyük klassiklərin əsərləri ilə tanış ola bilmişdir. Azərbaycan klassiklərindən Füzuli və Vaqifin şerləri ilə daha dərindən tanış olmuş və öz yaradıcılığında bu şairlərdən daha çox istifadə etmişdir.

F.Köçərli öz atası Əhməd bəyin rəvayətinə əsasən Zakirin şəxsiyyəti haqqında bu sətirləri yazmışdır: "O, zati-şərif, xoşsurət və xoşsima, ağ bədənli, uca qamətli zəifül-büniyyə bir vücud imiş. Göyçək, ağıllı və göy rəngə mail gözləri var imış. Simasından, hərəkət və sükənasından acari-nəcabət və rəşadət görünərmiş. Danışığı fəsih, sövti dilkəş olmağa görə çoxlarını özünə mail edərmiş və danışanda ona qulaq asmamaq olmazmış. İnsaf və mürvəttən xaric sözlər və işlər şairi təbii halından çıxarıb onu qeyz və hiddətinə səbəb olarmış. Amma acığı tez sönüb tövbə və istiğfar edərmiş. Adəti halında xoşxülq, həlim, rəhimli və mürüvvətli bir adam imiş" [3, səh.380-381]

Səri-kuyin məhşər, qəddin qiyamət, Qiyamət edərsən səadətbəsəadət,
Hüsnün günəşindən çəkib xəcalət, Çərxin məhi, afitabı çəkildi.
Dün naz ilə qədəm basanda bağa, Şümşadü sənubər düşdü ayağa,
Süsən, sünbül, lalə, üz qoydu dağa, Bərki–külin rənkü abı çəkildi. [1, səh.33]

Zakirin şerlərində təsvir olunan gözəllərin çoxu onun şəxsən gördüyü, tanıdığı Qarabağın gözəl qız və gəlinləridir. Şair bunları quru, cansız deyil, mənəvi keyfiyyətləri, ozünün onlara yüksək münasibəti, adət və ənənələri ilə birlikdə onların əxlaq və tərbiyəsinə də yüksək qiymət verərək təsvir edir. Onun gözəlləri "əhdi dürüst", "iqrarı möhkəm", "məkr" və hiylə bilməyən, həyalı, namuslu, məhəbbətində sədaqətli, hünərli və ağıllı insanlardır.

Uzun müddət elin içərisində yaşayan və öz yaradıcılığında xalq ədəbiyyatının tükənməz xəsinəsindən geniş istifadə edən şair xalqın ruhuna, onun milli xüsusiyyətlərinə, adət və ənənələrinə dərindən bələd idi. Ona görə də o qoşmalarında çox zaman gözəli öz milli xüsusiyyətləri, adət və ənənələri, yerli geyim və bəzəkləri ilə təsvir edirdi.

Barmağında xatəm, belində kəmər, Telində güşvarə, düymə tamam zər,
Qərq olsun yaşıla, ala sərasər, Naz ilə sallana-sallana gəlsin. [1; səh.106]

Zakirin qoşmalarının əksəriyyəti tərbiyəvi, əxlaqi, əməksevərlik, həqiqi məhəbbəti və aşiqin ruhunu tərənnüm edən şerlərdir. Zakir şeirlərinin ədalətli, xeyirxah, vətənpərvər düşüncəli, zirək, mübariz, əməksevər insanlar yetişdirmək motivləri ilə zəngin olmasına baxmayaraq, indiyə qədər pedaqoji fikir tariximizdə onun mövqeyi müəyyənləşdirilməmiş, əsərlərinin tərbiyəvi imkanları təhlil olunaraq araşdırılmamışdır. Şairin əsərləri əsrimizin 20-ci illərindən başlayaraq daha mükəmməl toplanıb nəşr olunmuş, ətraflı tədqiq edilib öyrənilmişdir. Q.Zakirin əsərləri təlim-tərbiyə məsələləri ilə bağlı qiymətli mülahizə və fikirlərlə zəngindir. O, təlim-tərbiyəyə aid ayrıca əsər yazmasa da, bədii irsində bu gün də əhəmiyyətini itirməyən mühüm nəzəri fikirlər irəli sürmüşdür. Zakirin əsərləri şəxsiyyətin formalaşmasında, böyüməkdə olan nəslin mənəvi cəhətdən zənginləşməsində müəyyən əhəmiyyətə malikdir. Belə ki, xalqın mənafeyi ilə yaşamaq elin sevincinə və kədərinə şərik olmaq, həyat həqiqətini, humanist ideaları müdafiə etmək və yaymaq onun sənət idealı, həyat amalı olmuşdur. O, insanları, gəncləri iradəli, mübariz olmağa, el qeyrəti çəkməyə, xalqın adını şöhrətləndirməyə çağırır. Q.Zakir yaradıcılığındakı bəzi ziddiyyətlərə baxmayaraq, həmişə zəhmətkeş kütləyə yaxın olmuş, xalqın istək və arzularına şərik olaraq, onun həyat

tərzinin, mədəni səviyəsinin yüksəldilməsi naminə daim çalışmış, narahatlığını həmişə büruzə vermişdir. Gəncləri sədaqətli, mərd, mübariz, ağıllı şəxslər kimi görmək arzusu Zakir lirikasının, mənzum hekayələrinin, satirik şeirlərinin və təmsillərinin leytmotivini təşkil edir. Q.Zakir öz müasirlərinin tərbiyə haqqında fikirlərindən təsirlənərək tərbiyəni xalqın bəladan xilas olmasının istinadgahı saymışdır. Ona görə tərbiyənin məqsədi dövrün ədalətsizliyinə qarşı çıxan mərd, mübariz, əməksevər, yüksək mənəvi sifətləri özündə birləşdirən, dostluğa, yoldaşlığa sədaqətli, etibarlı insanlar tərbiyə etməkdən ibarətdir. Q.Zakirin əxlaqi sifətlərin formalaşmasında ictimai mühitin və irsiyyətin rolunu yüksək qiymətləndirməsi xüsusilə maraqlıdır. İnsanın tərbiyə olunmasında irsi imkanlara üstünlük verməsi, zamanın tələbi ilə əlaqədar olsa da, "zatı" xarabın məhəbbətinə, sədaqətinə də inanmaq olmaz, deyən şair tərbiyə və mühitin təsiri ilə belə şəxslərin yenidən tərbiyə olunmasının çətin olduğunu söyləyirdi:

Kim ki, zövqi-eşqi eylər inkar,
Sən bil ki, zatında onun şübhə var."

1888-ci ildə Tiflisdə nəşr olunan "Vətən dili" dərsliyində Zakirin "Aslan, Qurd və Çaqqal", "Tülkü və Qurd" təmsilləri, "Dərviş və fəqir" mənzum hekayəsi nəşr olunmuşdur. [1, səh.87] Qasım bəy Zakir Əxlaq tərbiyəsi haqqında da müxtəlif əsərlərində geniş fikirləri ilə diqqət çəkmişdir. Q.Zakir Azərbaycanda feodal münasibətlərini və ona uyğun əxlaqı kəskin tənqid etmiş, insanlarda bəşəri dəyərlər əsasında yaranmalı olan əxlaqi-mənəvi və əqli yetkinliyi, ruhi kamilliyi tərənnüm etmişdir. Onun fikrincə, əxlaq tərbiyəsi şəxsiyyətin bütün fəaliyyətinə nüfuz edərək onun dünyaya və adamlara münasibətində təzahür edir. Etibarlı olmayan dünyada "dərdbilməzlər"lə əhatə olunan, "dərd ilə doludur döşüm"-deyən şair "çərxin sitəmindən, dövrün zülmündən" çıxış yolu axtarır. Dostluq, inam, etibarı olmayan dünyanın acı taleyini qamçılayır. Nəcib keyfiyyətlərdən, gözəl insani sifətlərdən uzaq olanları tənqid edərək mədəni tərəqqi uğrunda mübarizə aparır, Vətən balalarının yüksək əxlaqi keyfiyyətlər ruhunda tərbiyə edilməsini bu mübarizənin mühüm tərkib hissəsi sayır. Bu da humanist şeirin uşaqlara Vətənin, xalqın gələcəyi üçün istinadgah nöqtəsi, ümid çırağı kimi baxmasından irəli gəlirdi. Buna görə də insan adını, onun ləyaqətini yüksək tutan həssas qəlbli şair lap kiçik yaşlarından uşaqların tərbiyəsi ilə məşğul olmağı və onlardan yüksək mənəviyyatlı, əxlaqlı şəxslər yetişdirmək kimi çətin bir işi təxirəsalınmaz bir məsələ kimi irəli sürürdü. Bu işin çətinliyi, hər şeydən əvvəl, qeyri-normal ictimai mühit ilə əlaqədar idi. Şairin yaşadığı mühit istər-istəməz bu işə mane olur, ya da öz mənfi təsirini göstərirdi. Buna görə də satirik şair köhnə cəmiyyətdəki rəzalətləri, mənəvi yoxsulluğu, əxlaqi pozğunluğu feodal patriarxal əxlaqının təzahürlərini, meşşan psixologiyasını, laqeydlik, mərhəmətsizlik, oğurluq, rüşvətxorluq kimi mənfi halları, nöqsan və eybəcərlikləri kəskin tənqid edir [4; səh.336]. Dövrün çatışmazlıqlarının tənqidi Zakirin həm sələflərinin, həm də müasirlərinin yaradıcılıqlarında qabarıq surətdə özünü göstərir. Onların feodal adət-ənənələrinə, geriliyə, milli zülm va sosial ədalətsizliyə, əhalinin hüquqsuzluq və savadsızlığına qarşı çıxışları xalqımızın azadlıq və istiqlaliyyət arzuları ilə qovuşur. "Gözüm yolda qaldı, könlüm intizar", "Dost yolu bağlandı, ümid kəsildi", "Dərdbilməzlər qınar məni, heç deməz", "Qadir allah səbəb sala araya", "Dost yolunda cəfa çəkdim, can üzdüm", "Nə müddətdir dost yolları kəsildi" misraları ilə başlanan şeirlərində yüksək əxlaqi hisslər, vəfa, sədaqət, fədakarlıq kimi nəcib sifətlər aşılanır. Dövrün amansızlığı, "qana susaması", "taleyin ədavəti" kəskin tənqid olunur. Ürək ağrısı ilə bildirilir ki, zəmanənin amansızlığı, ədalətsizlik, zülm və iztirab, insanların əxlaqına, mənəviyyatına pis təsir göstərir, onu pozur.Yaşadığı zəmanədə əmin-amanlığın, səmimiyyətin, yoldaşlığın, dostluğun olmaması, insanın insani səviyyədə yaşamaması, uşaqların tərbiyəsi üçün heç bir imkanın olmaması göstərilir. Buna görə də Zakir səksəkəli, qorxulu, sağlam olmayan ictimai həyatı, onun məhsulu olan, öz hərəkət və

davranışı ilə uşaq və yeniyetmələrin tərbiyəsinə pis təsir edən, əməyə xor baxan, tüfeyliləri, çar məmurlarını, bəyləri və ruhaniləri satiralarının tənqid atəşinə məruz qoyur. [1; səh.341]Oğurluq və quldurluğun hökm sürdüyü bir ölkədə xalqın nifrətinə layiq "gədə-güdələr"in ağalıq etdiyi bir dövrdə paxıllıq, iftira yaxmaq, "həddi aşıb" yoldaşlıq, dostluq münasibətlərində saxtakarlıqla, xəyanətlə, alıb-aldatmaqla məşğul olan "əqli seyrəklər" meydan sulayır, düz sözə, saf əxlaqa məhəl qoymur. Pul hər şeyi həll edir, əxlaqi naqislər min cür oyundan çıxsalar da, "yüz adam öldürsələr də onlara haqq qazandırırlar. İkiüzlülər, yaltaqlar, oğrular, gecə-gündüz sərxoşluqla gün keçirən, fitnəkar bəylərlə birləşib, ölkəni xaraba qoyur, əxlaqi davranışları ilə yetişən nəslə mənfi nümunə göstərir.Namussuz, qeyrətsiz şəxslərdən hər cür çirkin hərəkətlər gözləmək olar. Hətta onlar Vətənini, xalqını atar, ona xəyanətkarlıq da edərlər. Belələrinə Q.Zakir yerli xan, bəy, mülkədar və mollaları misal göstərərək onlara məxsus əxlaqı qamçılayır. Çünki bəy və xanlar, mülkədarlar xalq kütləsi ilə "insaf və mərifətdən" kənar rəftar edir, müftəxor, mənasız həyat sürməklə, öz zövqünə görə yaşayır, şəxsi hissləri, mənfəəti naminə zəhmətkeş xalqa divan tutur. Din pərdəsi altında onlar hər cür əxlaqsızlıqlar edir, qeyri-insani hərəkətləri ilə xalqın mənəviyyatını pozurlar. Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, Zakirə görə hər cür mənəvi çirkinliklərin törədicisi mühitdir. Q.Zakirin bu fikri insanı ictimai mühitin məhsulu hesab edən Avropa maarifçilərinin fikirləri ilə səsləşir. Eybəcər ehtiraslann mənbəyi olan mühit hər şeyi, insanlığı da, nəcabəti də, əqli, əxlaqı da məhv edir, humanist hissləri öldürür, yoldaşlığa, dostluğa məhəl qoymur, pul, var, dövlət hərisliyi insanları insani sifətdən çıxarıb vəhşiyə döndərir. Buna görə də Zakir ictimai həyatdakı neqativ halları, hər cür əxlaqsızlıqları tənqid, nəsihət və tərbiyə yolu ilə aradan qaldırmağa cəhd etmişdir. Bununla da Zakir pis əməllərə malik insanların daxili mərəzlərini açmaqla, oxucuda iyrənc sifətlərə nifrət hissi aşılamağa çalışmışdır. Çünki mənfi əxlaqi hərəkətlərə nifrət edən hər bir gənc bu sifətlərdən uzaqlaşır, nifrət edə-edə onda müsbət əxlaqi keyfiyyətlər formalaşır.

Q.Zakirin uşaqlar üçün yazdığı təmsillər də əxlaq tərbiyəsi üçün xüsusi əhəmiyyət kəsb edir. O, təmsillərində Azərbaycan ictimai həyatının eybəcərliklərini tənqid edir, haqsızlığa, zülmə və əsarətə qarşı çıxır, feodal əxlaq normalarını ifşa edir. Onun mənzum hekayələri, "Dəvə və eşşək", "Qurd, çaqqal və şir", "Tülkü və şir", "İlan, dəvə, tısbağa", "Tülkü və qurd", "Tısbağa, qarğa, kəsəyən, ahu" kimi təmsilləri də nəcib mənəvi sifətlərin formalaşdırılması üçün geniş imkanlara malikdir. Q.Zakir feodal əxlaqını tənqid etməklə yanaşı, gənc nəslə aşılanacaq müsbət əxlaqi keyfiyyətləri də göstərmişdir.

Həsən bəy Vəzirov:-Firudin bəy Köçərli Qasım bəy Zakirin əsərlərini "məişətimizin güzgüsü" adlandırdığını söyləmişdir.[4, səh. 220]

Qasım bəy Zakir 1857-ci ildə Şuşada vəfat etmiş və Mirzə Həsən qəbristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat

1. Qasım bəy Zakir. Əsərləri. Bakı: Elm, 1964
2. Çernyayevski və Vəlibəyov. Vətən dili dərsliyi. Tiflis, 1988-ci il
3. Firuddin bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixi materialları I cild, II hissə.
4. Pedaqoji irsimizdən: M. V.Vidadi, M.P.Vaqif, Q.B.Zakir
5. İnternet resursları.
6. President.az

АНАЛИЗ ТВОРЧЕСТВО О НРАВСТВЕННОМ ВОСПИТАНИИ В ПРОИЗВЕДЕНИИ КАСУМ БЕКА ЗАКИРА ШУШИНСКОГО

Маммадова Вафа Огтай кызы

Резюме

В статье Касым бек Закир отразил события реальной жизни, которые владеют над мыслями читателя и заставляют его задуматься. Воспитание детей и подростков выдвигается на первый план в гошме, гарайли, мухаммасе, стихотворных рассказах, притчах и сатирических поэмах, испивших воду из родника народного творчества. Предлагая бороться с негативными сторонами человеческой натуры, рекомендуется обучение подростков высоким нравственным качествам и ценностям.

ANALYSİS OF THE DİSCUSSİON ON MORAL EDUCATİON İN THE WORK OF QASİM BEY ZAKİR SHUSHİNSKY

Mammadova Vafa Oqtay

Summary

İn the article, Kasym bey Zakir reflected the events of real life that control the reader's thoughts and make him think. The upbringing of children and adolescents comes to the fore in goshma, garaili, mukhammas, poetic stories, parables and satirical poems that have drunk water from the spring of folk art. Dealing with the negative aspects of human nature, it is recommended to teach teenagers high moral qualities and values.

Rəyçi:p.ü.f.d. Nəsibova Saidə Nazim qızı
Təhsilin pedaqogikası və metodikası kafedrasının 16 noyabr 2022-ci il tarixli iclasın 04 saylı protokolu
Daxil olduğu tarix 29 noyabr 2022-ci il

İQTİSADİYYAT

UOT:33.

AQRAR SAHƏDƏ SAHIBKARLIĞLN INKIŞAF ETDIRILMƏSINDƏ BEYNƏLXALQ LAYIHƏLƏRIN HƏYATA KEÇIRILMƏSI

Həsənova Mehriban Cabiqr qızı, İsmayılova Gülnara Zeylim qızı,
Müşkiyev Zaur Arif oğlu
mehriban _adau.@gmail.com, ismayılova gülnaraa@gmail.com
muskiyev@mail.ru
Azərbaycan Dövlət Aqrar Universiteti

Xülasə: *Ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi,aqrar sahədə səmərəli sahibkarlıq fəaliyyətinin formalaşmasına və dayanıqlı inkişafına bir sıra amillər mühüm təsir göstərir.Onlardan biri də bu sahədə tətbiq edilən proqramlar və beynəlxalq layihələrdir.Bu layihələrin həyata keçirilməsinin əsas məqsədi, bazar münasibətləri şəraitində aqrar sahənin dayanıqlı inkişafına, kənd yerlərində yaşayan insanların təşəbbüskarlıq fəaliyyətinin genişlənməsinə müx-təlif maliyyə, texniki, texnoloji, iqtisadi və digər yardımların göstərilməsi, ümumilikdə daim diqqət və qayğı tələb edən bu sahəyə yönəldilmiş investisiya-ların həcminin artırılmasıdır.*

Ölkə iqtisadiyyatının, o cümlədən aqrar sahənin dirçəldilməsi və inkişafı özəl bölmə, sahibkarlıq ilə sıx bağlıdır.Bazar münasibətləri şəraitində dövlətin aqrar siyasətinin– sahibkarlığı inkişaf etdirmək yolu ilə sənayenin və digər iqtisadi sahələrin xammala, əhalinin isə ərzaq məhsullarına olan tələbatını maksimum səviyyədə daxili istehsal hesabına təmin etməkdir.Bu siyasətin vəzifəsi isə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün etibarlı aqrar bazarın yaradılmasıdır.Xarici təcrübə göstərir ki, hər hansı bir ölkədə kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatın ən azı ¾ hissəsi daxili istehsal hesabına ödənilirsə, onda həmin ölkədə yürüdülən aqrar siyasəti etibarlı və düzgün hesab etmək olar.Aqrar münasibətlərin yeni məzmunda bazar tələblərinə uyğun formalaşdırılması və inkişafı müasir islahatlar şəraitində respublikamız qarşsında duran çox ciddi, mürəkkəb, həllini gözləyən məsələlərdir. Beləki, ölkə iqtisadiyyatının digər sahələrinin inkişafı daxili və xarici bazarın səmərəlilik prinsipi əsasında qurulması, həmçinin aqrar sahədə düzgün struktur siyasətinin aparılması ilə də sıx bağlıdır. Digər tərəfdən, aqrar sahədə sahibkarlıq mühitinin bazar standartlarına uyğun qurulması və bu istiqamətdə qabaqcıl xarici təcrübədən beynəlxalq layihələr vasitəsilə geniş istifadə edilməsi, sağlam aqrobiznes mühitinin yaradılmasını tələb edir. Bu mənada aqrobiznes mühitinin formalaşması və stimullaşdırılması üçün aqromarketinq və prolizinq üsulların-dan istifadə olunması, onların qarşılıqlı təsir mexanizminin qurulmasıda aktual məsələlərdən hesab oluna bilər.

Açar sözlər: sahibkarlıq mühitinin formalaşması, kənd təsərrüfatına xarici investisiyaların cəlb edilməsi, aqrar sahənin dayanıqlı inkişafı, sahibkarlığın inkişafında aqrar layihələrin mövcud rolunun müəyyənləşdirilməsi.

Ключевые слова: формирование предпринимательской среды, привлечение иностранных инвестиций в сельское хозяйство, устойчивое развитие аграрной сферы, определение текущей роли аграрных проектов в развитии предпринимательства.

Keywords: formation of the entrepreneurial environment, attraction of foreign investments in agriculture, sustainable development of the agrarian sector, determination of the current role of Agrarian projects in the development of entrepreneurship.

Azərbaycan Respublikasında sahibkarlıq mühitinin formalaşması və inkişafı dövlət tərəfindən müntəzəm şəkildə dəstəklənir, sahibkarlara qayğı və diqqət ölkə rəhbərliyinin bilavasitə nəzarətindədir.Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ilin aprel-may aylarında yerli və xarici sahibkarlarla görüş-məsi, bu görüşlərdə "Azərbaycan Prezidenti bütün sahibkarların himayədarıdır və dayağıdır" deməsi və nəhayət iş adamlarınını narahat edən problemlərin ara-dan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi onlarda böyük ruh yüksəkliyi yaratmışdır.Bu gün həmin kurs ölkə Prezidenti İlham Əliyev tərəfin-dən uğurla davam etdirilir.Dövlət tərəfindən aqrar sahəyə qayğı göstərilməsi, bu sahənin cənab Prezidentin daim diqqət mərkəzində olması iqtisadiyyatın bu mü-hüm və strateji əhəmiyyətli sahəsində beynəlxalq layihələrin uğurla həyata keçirilməsinə təminat yaratmışdır.

Aqrar islahatların düzgün, ardıcıl və qabaqcıl təcrübəyə uyğun aparıl-ması,yeni kənd təsərrüfatı infrastrukturunun təşkili,həmçinin müasir texnolo-giyaların aqrar istehsalatda tətbiqi üçün beynəlxalq qurumların, bu sahədə inkişaf etmiş ölkələrin Azərbaycanda həyata keçirdikləri layihələr və proqramlar geniş istifadə olunur, həmçinin bu sahəyə sərmayəçilər cəlb edilir.[1]

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafına beynəlxalq layihələrin təsiri və tətbiqi xüsusiyyətlərinin öyrənilməsi əsasında, onun mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi, həmçinin bu layihələrin səmərəliliyinin yüksəldilməsi istiqamətini müəyyən etməklə, aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- aqrar sahibkarlığın formalaşması və inkişafında beynəlxalq layihələrin zəruriliyi və onun rolu;
- aqrar sahənin mövcud potensialından istifadə edilməsində və bu sahənin inki-şafında beynəlxalq layihələrin rolunun və onların səmərəliliyinin qiymətləndirilməsi;
- aqrar sahədə tətbiq edilən layihələrin sahənin inkişafına və sosial-iqtisadi nəticə-lərə təsirinin qiymətləndirilməsi;
- beynəlxalq layihələrdən səmərəli istifadənin aqrar sahibkarlığın inkişafına təsir mexanizminin təkmilləşdirilməsi.[4]

Aqrar sahədə beynəlxalq layihələrin aşağıda göstərilən yerlərdə istifadə edilməsi təklif edilir:

- aqrar sahibkarlıq subyektlərinin səmərəli iqtisadi mexanizminin formalaşdırılmasında, onun əsasında kənd təsərrüfatı istehsalının və sahibkarlıq fəaliyyətinin iqtsadi səmərəliliyinin təmin edilməsində istifadə edilə bilər;
- tətbiq edilən layihələrin kənd təsərrüfatı sahəsində məhsuldarlığın və iqtisadi səmərəliliyin yüksəldilməsi amili, qabaqcıl təcrübə və elmi yanaşmaların mühüm forması kimi istifadə edilməsi tövsiyə olunur. Bu layihələrin tətbiqi ilə bağlı əldə olunan yüksək nəticə və təkliflərdən onun tətbiqinə imkan verən aqrar sahənin inkişaf proqramlarında istifadə edilə bilər;
- torpaq mülkiyyətçilərinin və kiçik ölçülü təsərrüfatların müəyyən elmi əsaslara söykənməklə özlərinə inamın aşılanması və bu növ tədbirlərin həyata keçirilməsi ilə uğurlu nəticələrin əldə edilməsinə kömək göstərilə bilər;
- kənd təəsrrüfatında həyata keçirilən beynəlxalq və milli layihələrin düzgün tətbiqi sosial-iqtisadi nəticələrin yaxşılaşdırılmasına əhalinin gəlirlərinin artırılmasına köməklik edə bilər;
- aqrar sahəyə dair bütün layihələrin tətbiqinin keyfiyyətinin artırılmasına, layi-hələrin tətbiqi dairəsinin genişləndirilməsinə, aqrar iqtisadiyyatın inkişafına və digər bu yönümlü tədbirlərə müsbət impuls verərək, sahibkarlıq fəaliyyətin səmərəliliyinin yüksəldilməsinə zəmin yaranar.[2]

Aqrar sahədə sahibkarlıq mühitinin bazar standartlarına uyğun qurulması və bu istiqamətdə qabaqcıl təcrübədən beynəlxalq layihələr vasitəsilə geniş isti-fadə edilməsi, sağlam aqrobiznes mühitinin yaradılmasını tələb edir. Bu mənada aqrobiznes mühitinin formalaşması və stimullaşdırılması üçün aromarketinq və prolizinq üsullarından səmərəli istifadə olunması, onların qarşılıqlı təsir mexanizminin qurulması da aktual məsələlərdən hesab oluna bilər.

Yaranmış mühitdən faydalanaraq ölkəmiz bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, mərkəzlər və agentliklərlə səmərəli əlaqələr qurmuşdur. Ölkəmiz müstəqillik əldə etdikdən sonra, üzləşdiyi bir sıra problemlərin həllində bu bankın müstəsna rolu olmuşdur. Həm də Azərbaycanın beynəlxalq təşkilatlardan aldığı maliyyə yardımlarının böyük bir hissəsi Dünya Bankının payına düşür. Aqrar sahədə həyata keçirilən beynəlxalq layihələr sahənin mövcud potensialından istifadə etməklə onun dayanıqlı və səmərəli inkişaf etdirilməsi, tor-paqların münbitliyinin artırılması, rəqabət qabiliyyətli məhsul istehsalının təmin olunması və aqrar istehsalçılarının ixrac fəaliyyətinin stimullaşdırılması, həmçinin emal və yeyinti sənayesinin xammala, əhalinin isə ərzaq məhsullarına olan tələbatının yerli mənbələr hesabına ödənilməsinə xidmət edir. [1]

Ədəbiyyat

1. Aqrar islahatların nəticələri və dayanıqlı inkişaf problemləri (Respublika elmi, Vout”ansın materialları) Bakı 2006, 320 səh.
2. Alıyev İ.H.Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahat-ların keyfiyyətcə səmərəli aparılması.Bakı,2004, 110 səh.
3. İbrahim İ.H. Aqrar islahatlar və sahibkarlığın inkişafı.Bakı,2005, 220 səh.
4. Aqrar sahənin təkmilləşdirilməsinin əsas istiqamətləri. Bakı,2016,220 səh.

МЕЖДУНАРОДНАЯ ОРГАНИЗАЦИЯ ПО РАЗВИТИЮ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АГРАРНОЙ СФЕРЕ РЕАЛИЗАЦИЯ ПРОЕКТОВ

Гасанова Мехрибан Джабир кызы, Исмаилова Гульнара Зейлим кызы, Мушкиев Заур Ариф оглы

Резюме

Как и в других отраслях экономики страны, на формирование и устойчивое развитие эффективной предпринимательской деятельности в аграрной сфере существенное влияние оказывает ряд факторов. Одним из них являются программы и международные проекты, реализуемые в этой области. Основной целью реализации данных проектов является оказание в условиях рыночных отношений различной финансовой, технической, технологической, экономической и иной помощи устойчивому развитию аграрной сферы, расширению предпринимательской деятельности людей, проживающих в сельской местности, увеличение объема инвестиций, направляемых в эту сферу, что в целом требует постоянного внимания и заботы. Развитие экономики страны, в том числе аграрной, тесно связано с частным сектором, предпринимательством. Целью аграрной политики государства в условиях рыночных отношений – через развитие предпринимательства-является обеспечение потребности промышленности и других отраслей экономики в сырье, а населения в продуктах питания на максимальном уровне за счет внутреннего производства. А задачей данной политики является создание надежного аграрного рынка для реализации намеченных мер. Зарубежная практика показывает, что если в любой стране за счет внутреннего производства удовлетворяется хотя бы ¾ спроса на

Главная цель теорий понимания языка состоит в том, чтобы описать, как люди понимают то, что говорящие имеют в виду, исходя из того, что они говорят. Хотя такие теории редко заявляются явно, они сосредоточены исключительно на носителях языка. Тем не менее, использование неродного языка широко распространено. В настоящее время английский язык является одним из самых распространенных языков в мире. Хотя Английский язык имеет одно из самых высоких показателей по количеству носителей языка, гораздо больше людей используют его как неродной язык. В целом английский язык известен в мире как язык дипломатии, коммерции, научно-технической и массовой информации. Кроме того, фонетическая структура английского языка смогла создать уникальную оригинальную звуковую структуру, пройдя ряд этапов развития.

Обучаемость является основным свойством языка, и поэтому тот, кто изучает и использует язык, может формировать и изменять сам язык. Поскольку структуры, которые изучены более точно, будут размножаться и сохраняться в языке, различия в учащихся среди населения могут формировать структуру и эволюцию языка.

DUNYADA İNGİLİS DİLİNDƏ ANA DİLİ, QEYRİ-ANA DİLİNDƏ DANIŞANLAR VƏ ONLARDA LİNQVİSTİK QAYDALARIN QƏBULU

Məmmədova Susanə Maqsud qızı

Xülasə

Dili anlama nəzəriyyələrinin əsas məqsədi insanların danışanların dediklərindən nə demək istədiyini necə başa düşdüklərini təsvir etməkdir.Nadir hallarda açıq şəkildə ifadə olunsa da,bu cür nəzəriyyələrə yalnız dilin ana dilində danışanlar diqqət yetirir.Lakin,qeyri-doğma dildən istifadə cox yayılmışdır.

Hazırda ingilis dili dünyada ən geniş yayılmış dillərdən biridir.İngilis dili ən çox ana dilində danışılan dillərdən olsa da,daha çox insan ondan qeyri –ana dili kimi istifadə edir.Ümumiyyətlə,ingilis dili dünyada diplomatiya,kommersiya elmi-texniki və kütləvi informasiya dili kimi məşhurdur.Həmçinin,ingilis dilinin fonetik quruluşu bir sıra inkişaf mərhələlərindən keçməklə özünəməxsus orijinal səs strukturu yarada bilmişdir.

Öyrənilmə qabiliyyəti dilin əsas xüsusiyyətidir və buna görə də dili öyrənən və istifadə edən dili formalaşdırmaq və dəyişdirmək potensialına malikdir.Həmçinin,daha dəqiq öyrənilən strukturlar dil daxilində çoxalmağa davam etdiyi zaman,dili öyrənənlər arsındakı fərqlər dilin strukturunu və təkamülünü formalaşdırmaq potensialına malikdir.

Rəyçi: Baş müəllim İsayeva Kəmalə Ramiz qızı
Leksika və ölkəşünaslıq kafedrasının 02 noyabr 2022-ci il tarixli iclasın 3 saylı protokolu.
Daxil olduğu tarix 04 noyabr 2022-ci il

UOT: 811.111.

FREE PHRASES, STABLE NON-PHRASEOLOGICAL PHRASES, PHRASEOLOGICAL PHRASES

Ph.D.,associate professor Gasimova Samira Firudin, Aslanova Maleyka Isfandiyar
Ganja State University
samiragasimova@yandex.ru
maleykaa532@gmail.com

Annotation: *An important problem in the vocabulary of any language is the problem of word compatibility, since the combinational possibilities of a word with other words in a certain environment are not random and not completely arbitrary: they obey special patterns that can be of a different nature - lexical and semantic. This can be seen when studying distribution, which is understood as the totality of all (in this case, lexical) environments in which a given word can occur. Analyzing such an environment of some lexeme, one can notice that there are relations between units of varying degrees of freedom. So, the nouns man, woman, boy, poplar, etc. are combined with the adjective tall, and some rows of nouns can increase freely, for example, the combination a tall girl is possible, this is due only to the semantic compatibility of the direct meanings of two words; members of other series are combined with this adjective in a limited way, for example, it is customary to talk about high poplar a tall poplar, about high cedar - a lofty cedar, and about high grass - high grass. Such compatibility is associated with the peculiarities of the norm of use, with the usage, and not with the meaning of the adjective. These features of distribution are reflected in the classification of combinations of lexemes.*

Key words: words, semantic compatibility, semantic patterns, lexemes, semantic agreement.

Açar sözlər: sözlər, semantik uyğunluq, semantik modellər, leksemalar, semantik uzlaşma.

Ключевые слова: слова, семантическая сочетаемость, семантические модели, лексемы, семантическое согласование.

Semantic compatibility consists in the necessity or possibility of attaching another word to a given word, based on its meaning and meaning. In other words, semantic compatibility is a free combination of lexemes. The semantic patterns of the choice of meaning are connected with the nature of the denotation.

The basic law of semantic connections of lexemes is that in order for combined lexemes to reflect the actual connection of names, they must have a common connecting element (or common semes. For example, common semes can be: animate / inanimate, action\ state, transitivity /intransitivity, concreteness/abstractness. Thus, the word think characterizes an animated person, and therefore the combination The man thinks is semantically compatible, while the combination “The chair thinks” is not correct, since the seme “animation” is absent in the chair lexeme. component (or common seme) in combined lexemes is called **semantic agreement.**

Here is another example illustrating the semantic compatibility of words. In the phrase dim twilight, the combined words do not have contradictory semes. The meaning of the word twilight includes the seme faint (twilight - 1. the faint light or the period of time at the end of the day after the sun has gone down). The same seme is present in the meaning of the adjective dim (dim - 1. not bright). Therefore, the phrase corresponds to semantic agreement.

However, the combination *bright twilight cannot be considered semantically consistent, since the seme faint, present in the noun twilight, is incompatible with the seme shining in the adjective bright (bright - 1. full of light, shining strongly).

On the basis of semantic (free) connections of combined lexemes in the process of speech, free (variable) phrases are formed by the speaker. Each word in a free phrase is characterized by its inherent nominative meaning: a small box, a small town (farm, place, lake, pond, house, room, library, window, door, table, cup, creature, etc.). In free phrases, it is permissible to replace (substitute) one of the components without changing the semantics of the other component of the phrase: to cut cheese - to cut bread; to eat cheese - to eat bread. Free phrases are created in speech, in which the choice of the next component is dictated primarily by extralinguistic factors, as a result of which they cannot be predicted. Since they do not have the property of reproducibility, but are created anew each time, they are called productive phrases.

Thus, a free phrase is a phrase in which independent lexical meanings of all its components are preserved. The syntactic connection of the elements of a free phrase is lively and productive.

Unlike semantic compatibility, lexical compatibility is not a free combination of lexemes.

Phraseological phrases are formed on the basis of lexical (non-free) connections of combined lexemes. Phrases of this type are ready-made phrases, they are introduced by the speaker into speech in a finished form, that is, they are characterized by the integrity of the nomination. First of all, these are idioms: lame duck “loser”, red tape “bureaucracy”, new broom “new broom” in the meaning of “new bosses”.

The non-free combination of words is characterized by phraseological turns of a greater or lesser degree of connectedness. Cf .: petticoat government "woman's kingdom"; to be under petticoat government "to be under the shoe" of his wife; to kick the bucket, to turn up one's heels (or toes) "stretch your legs", die; to turn geese into swans “embellish something, exaggerate”; like a cat on hot bricks “not at ease, like on pins and needles, like on coals”; as like as two peas "are like two drops of water." For all the given phraseological units, the word compatibility is not the sum of their direct nominative meanings, and their general meaning is not derived from the sum of the meanings of the components. Therefore, as a rule, within them it is impossible to replace some words with other words that are close in meaning. The replacement and rearrangement of words can interfere with the recognition of phraseological units and, consequently, the correct understanding of its content and meaning.

Thus, phraseological units are used by speakers as integral verbal blocks corresponding to a single meaning. Only the context serves as a guideline for revealing their meaning.

However, in some cases, within certain limits, the variation of words in the composition of phraseological units is permissible. Compare: good (great) deal; close as an oyster (as wax) "keep your mouth shut"; closed (sealed) book "a book with seven seals"; cast (shed, throw or turn) light on smth "shed light on something".

The possibility of varying lexemes in the composition of phraseological units indicates that the compatibility of words in them is not absolutely fixed.

Thus, a phraseological phrase is a combination of words that are produced in speech in a fixed ratio of the semantic structure and a certain lexical and grammatical composition and therefore are unproductive.

Lexico-semantic connections of lexemes are connections of lexemes that lie on the verge between lexical (non-free, formal) norms of combining words and semantic (free, related to the nature of the denotation) patterns of combined words.

On the basis of this intermediate type of connection of lexemes, stable non-phraseological combinations are formed, that is, formations lying between two types of phrases (free and phraseological). Their main difference from phraseological combinations is that they do not have the integrity of the nomination. Their values are made up of the values of the constituent components: rough sketch "rough sketch", aquiline nose "aquiline nose". Like free phrases, stable combinations of a non-phraseological nature are semantically distinctly distinct, and the combined words realize their free meanings: brilliant example "brilliant example", delicate situation "delicate situation".

Unlike free phrases, they are not created by the speaker anew each time, but are introduced into speech in the form of ready-made formations. Thus, they show signs of both free and phraseological phrases. In this sense, they are transitional - semi-productive or semi-phraseological.

Stable non-phraseological combinations are not homogeneous. They reveal a greater or lesser degree of proximity to phraseological or free phrases. So, for example, among the phrases under consideration, we can distinguish greeting and farewell formulas: good morning, good day, good night, and such as Happy New Year, Merry Christmas, good luck, best wishes; address formulas: dear sir, old boy "old man", old girl "old woman", etc.; combinations in which a narrow and sometimes single compatibility of one of the components is manifested, as in the case of wistful eyes (look, expression), clenched first (teeth), etc.

Of greatest interest among transitive combinations are combinations of the small change type, which are not formulas, and whose components are not necessarily characterized by a specially narrow compatibility, however, they are so regularly reproduced in speech that they can be called traditional. As a rule, the words included in them are ambiguous and have a variety of compatibility: a small voice "timid voice", small nature "small soul", small eater "a person who eats little", small talk "empty social chatter", small hours "pre-dawn hours". However, the use of the word "small" in a certain LSV, which has a limited valency, allows us to classify the above phrases as semi-productive / semi-phraseological, since narrow compatibility ensures regular reproducibility.

Literature

1. Ivanova E. V. Lexicology and phraseology of modern English textbook. allowance for students. institutions of higher prof. education. SPb. - M.: Faculty of Philology, St. Petersburg State University; Academy, 2011. 352 p.
2. Kodukhov V. I. Introduction to linguistics: a textbook for students of ped. in-t on spec. No.2101 “Rus.lang.or T." 2nd edition, revised. and additional Moscow:Education, 1987.288p
3. Nemchenko VN Introduction to linguistics:a textbook for universities. M:Drofa, 2008. 703p
4. Stolbovskaya M. A. Parametric adjectives in compound words (on the example of compound adjectives in aviation English) // Philological Sciences. Questions of theory and practice. 2017. No. 6 (72). Part 3. 157-160. P.

SƏRBƏST İFADƏLƏR, SABİT QEYRİ-FRAZEOLOJİ İFADƏLƏR, FRAZEOLOJİ İFADƏLƏR

Qasımova Samirə Firuddin qızı, Aslanova Məleykə İsfəndiyar qızı

Xülasə

Hər hansı bir dilin lüğətində vacib bir problem sözün uyğunluğu problemidir, çünki müəyyən bir mühitdə bir sözün digər sözlərlə birləşmə imkanları təsadüfi deyil və tamamilə ixtiyari deyildir: onlar fərqli təbiətli ola biləcək xüsusi nümunələrə tabe olurlar - leksik və semantik. Bunu, verilmiş sözün baş verə biləcəyi bütün (bu halda leksik) mühitlərin məcmusu kimi başa düşülən paylanmanı öyrənərkən görmək olar. Bəzi leksemin belə mühitini təhlil etdikdə müxtəlif sərbəstlik dərəcəsi vahidləri arasında münasibətlərin olduğunu görmək olar. Deməli, *man, woman, boy, poplar* və s. isimlər *tall* sifətlə birləşir və bəzi isim cərgələri sərbəst arta bilir, məsələn, *a tall girl* birləşməsi mümkündür, bu yalnız semantik uyğunluqdan irəli gəlir. iki sözün birbaşa mənaları; digər silsilənin üzvləri bu sifətlə məhdud şəkildə birləşir, məsələn, hündür qovaq -*a tall poplar*, hündür palıd - *a lofty cedar,* hündür ot - *high grass* demək mümkündür. Bu cür uyğunluq sifətin mənası ilə deyil, istifadə normasının xüsusiyyətləri ilə, istifadə ilə bağlıdır. Bu paylanma xüsusiyyətləri leksemin birləşmələrinin təsnifatında öz əksini tapmışdır.

СВОБОДНЫЕ СЛОВОСОЧЕТАНИЯ, УСТОЙЧИВЫЕ НЕФРАЗЕОЛОГИЧЕСКИЕ СЛОВОСОЧЕТАНИЯ, ФРАЗЕОЛОГИЧЕСКИЕ СЛОВОСОЧЕТАНИЯ

Касумова Самира Фируддин кызы, Асланова Малейка Исфандияр кызы

Резюме

Важной проблемой в лексике любого языка является проблема сочетаемости слов, так как сочетательные возможности слова с другими словами в определенном окружении не случайны и не полностью произвольны: они подчиняются особым закономерностям, которые могут иметь разный характер – лексический и семантический. Это можно заметить при изучении дистрибуции, под которой понимается совокупность всех (в данном случае лексических) окружений, в которых может встречаться данное слово. Анализируя такое окружение какой-нибудь лексемы, можно заметить, что между единицами существуют отношения разной степени свободы. Так, с прилагательным *tall* сочетаются существительные *man, woman, boy, poplar* и др., причем некоторые ряды существительных могут увеличиваться свободно, например, возможно сочетание *a tall girl*, это связано только с семантической сочетаемостью прямых значений двух слов; члены же других рядов сочетаются с этим прилагательным ограниченно, например, о высоком тополе принято говорить *a tall poplar*, о высоком кедре – *a lofty cedar*, а о высокой траве – *high grass*. Такая сочетаемость связана с особенностями нормы употребления, с узусом, а не со значением прилагательного. Эти особенности дистрибуции нашли отражение в классификации сочетаний лексем.

Rəyçi: f.f.d. Abdullayeva Elnarə Kamandar qızı
"Qrammatika və ingilis dilinin tədrisi" kafedrasının 12.09.2022-ci il tarixli iclasın 1 saylı protokolu
Daxil olma tarixi:13 oktyabr 2022-ci il

UOT: 78.801.81

MƏHƏMMƏD FÜZULİNİN "LEYLİ VƏ MƏCNUN" MƏSNƏVİSİNDƏ MƏHƏMMƏD PEYĞƏMBƏRİN KAMAL VƏ CAMAL SİFƏTLƏRİ

f.ü.f.d. Quliyeva Ruziyə Zaman qızı
AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutu
ruziya.zaman.55@bk.ru

Xülasə: *Məqalədə Məhəmməd Füzulinin "Leyli və Məcnun" məsnəvisində Məhəmməd Peyğəmbərin kamal və camal sifətlərindən bəhs edilir.*

Bu məqsədlə ilk öncə meracnamələr və onların mahiyyəti haqqında bilgilər verilir. Mövzunu daha dərindən tədqiq etmək üçün müqəddəs kitabımız Qurani-Kərimə və Nizami Gəncəvinin "Leyli və Məcnun" məsnəvisinə istinad edilir.

Açar sözlər: klassik ədəbiyyat, Leyli və Məcnun, epik şeir, məsnəvi

Ключевые слова: классическая литература, Лейли и Меджнун эпический стих, маснави

Key words: classical literature, Leyli and Majnun, epic poem, masnavi

Dastan-məsnəvilərdə verilən ənənəvi müqəddimələrdən biri də meracnamələrdir.Meracnamələr bir qayda olaraq tövhid, minacat və Peyğəmbərin nətindən sonra gəlir.

Müqəddəs kitabımız "Qurani-Kərim"in "Əl-İsra və ya Bəni-İsrail" surəsinin 1-ci ayəsində merac haqqında buyrulur: "Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaibliklər) göstərmək üçün bəndəsini (Peyğəmbər əleyhissəlamı) bir gecə [Məkkədəki] Məscidül-həramdan ətrafını mübarək etdiyimiz [bərəkət verdiyimiz] Məscidül- əqsaya [Beytülmüqəddəsə] aparan Allah pak və müqəddəsdir" (1, 249).

Məhəmməd Füzuli "Leyli və Məcnun" məsnəvisindəki meracnaməni "Bu, şəbi merac bəyanidir və tului-aftabi-asimanidir" (Merac gecəsinin bəyanı və göylər günəşinin doğması) adlandırır və həmin bəhsdə Məhəmməd Peyğəmbərin kamal və camal sifətlərini belə təsvir edir:

Çün feyzi-vicudun ilə, ey pak,
Rəşki-fələk oldu ərseyi- xak,
Didarını görməyi məleklər,
Pabusuna yetməyi fələklər,
Çox eyləyib iztirab peyda,
Allahdan etdilər təmənna.

(10, 29).

Maraqlıdır ki, meraca qalxmağı Peyğəmbər özü yox, səma əhli (mələklər və fələklər) Allahdan dilədilər. Bunun səbəbi onda idi ki, Məhəmməd Peyğəmbər adi insan olsa da kamilləşərək paklaşmış, əvvəlcə peyğəmbərlik, sonra isə meraca qalxmaq məqamına yüksəlmişdi. Səma əhli onun cismani vücudunu yox, nurunu görmək arzusunda idi. Bir yaxşı zaman, şərafətli saatda onların duaları qəbul olundu. Cəbrayıl fərman gətirdi:

Cibril yetib, yetirdi fərman,
-Key sərvi-riyazi-elmü irfan!
Xurşidini ərşə sayə qılğıl!
Meraci-büləndpayə qılğıl!

(10, 24).

Bu fərmandakı birinci sözə diqqət yetirsək görərik ki, Füzuli Məhəmməd Peyğəmbəri "sərvi-riyazi-elmü irfan" (elm-irfan bağçasının sərvi) adlandırır.

Məlum olduğu kimi şifati-sübutiyyənin (yalnız Allaha məxsus sifətlərin) ikinci keyfiyyəti Allahımızın ən gözəl adlarından biri olan alimdir. Məhz bu səbəbdən də Füzuli Məhəmməd Peyğəmbəri elm-irfan bağçasının sərvi deyə vəsf edir.

Cəbrailin gətirdiyi fərmanda daha sonra deyilir:

Ey qədri bülənd padişah, dur!
Lütf et, şəbi-qədr qədrini artır!
Rəf eylə hicabı-masəvani,
Seyr eylə məkani-laməkani!

(10, 29).

Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasında həmin fikirlər belə ifadə olunur:

Bu gecə sənin gecəndir,tələs,
Öz qədr gecənin qədrini bil!
Ədəbiyyət bəzəyidir bu gecə,
Məhəmmədin merac gecəsidir bu gecə.
Nə xoşbəxtdir o gecə ki,
Sənin dünyanı işıqlandıran qədəminlə gündüzə döndü.

(11, 26)

Göründüyü kimi Füzuli də öz sələfi Nizami Gəncəvi kimi qədr gecəsini xoşbəxt gecə adlandırır. Bu gecə ona görə xoşbəxdir ki, həmin gecədə müqəddəs kitabımız Qurani-Kərim nazil olmuşdur. Məhəmməd Peyğəmbərin meraci isə həmin gecəni daha da şərəfli etmişdir. Çünki Qurani-Kərimin nurundan yer üzü, Peyğəmbərin nurundan isə göy üzü işıqlanmışdır.

Həm Nizami Gəncəvi, həm də Füzuli Məhəmməd Peyğəmbərin merac gecəsi mindiyi Buraq adlı insan başlı atdan bəhs etmişdir. Nizami Gəncəvidə Buraqla səmaya qalxmaq məqamı daha geniş və ətraflı təsvir olunur:

Pərgari yerə sancdın,
Göyün cədvəlini çəkdin.
Adı Buraq olan şimşəyi
Sənin gedişindəki helm ram etdi.
Əl toxunulmamış taxta (göylərə) yüksəldin.
Bir xoşbəxt kimi uçan oldun [uçdun].

Bir atla elə çapdın ki,
İki atlı [gecə-gündüzlü] dövranı arxada buraxdın.
Fələyin (bağı) dörd bir tərəfdən
Sənin mərhəmətindən min bəhər verdi.

(11, 26)

Göründüyü kimi Nizami qələmində Buraq adlı atı Peyğəmbərin helmi özünə ram edir. Meraca yalnız belə bir atla getmək mümkündür. İki atlı dövran dedikdə zamana tabe olan dünya həyatı, fələyin bağı dedikdə isə ulduzlu səma nəzərdə tutulur.

Paralellər aparsaq görərik ki, Məhəmməd Füzuli qələmində merac gecəsi haqqında daha qısa və yığcam məlumat verilir:

Xoş ol ki, minib Büraqi xoşhal,
Buludun dərəcati-üzünü iqbal.
Basdın ayağın bu çar tağə,
Çıxdın dərəcati-növrağə

(10, 29-30).

"Xoşhal" olub Büraqi minən Peyğəmbər izzət və iqbal dərəcəsinə çataraq dördtağlı göyə ayq basıb doqquzqatlı səmaya yüksəlmişdir. Burada dörd tağlı göy dedikdə göyün dördüncü qatı, doqquzqatlı səma dedikdə isə göyün doqquzuncu qatı nəzərdə tutulur. Onu da qeyd etməliyik ki, türklərin mifoloji təfəkküründə göyün doqquzuncu qatı ən yüksək qat hesab olunmuşdur. Doqquz rəqəminin müqəddəsliyi də məhz bu inamdan irəli gəlmişdir.

Füzuli Məhəmməd Peyğəmbərin pak və müqəddəs olduğunu nəzərə çatdırmaq üçün onun səma səltənətinə Büraq adlı atla getdiyini təsvir edir. "Şamanlarda və qədim türklərdə atın müqəddəsliyi və Məhəmmədin atla göylərə yüksəlişi arasında da maraqlı bir tiploji yaxınlıq vardır. Başqa bir tərəfdən, Azərbaycan əsatir və dastanlarında Xızır obrazı və Boz atın ayaq tozunun şəfaverici olması diqqıti cəlb edir".(3, 311- 312).

Məhəmməd Füzuli Məhəmməd Peyğəmbəri "göylər günəşi" adlandırır. Merac zamanı səma əhli göylər günəşindən nur alır. Təzə ay onun başmağına üz sürtür, Günəş Peyğəmbərin camalından nurlanır:

Nəleyninə sürtdü üz məhi-növ,
Xurşid rüxündən aldı pərtov.

(10, 30).

Daha sonra "sabitlər səfinə"-(hərəkətsiz ulduzlar cərgəsinə) bayraq çəkib o tarlaya məhəbbət toxumu əkən Məhəmməd Peyğəmbər göyün ətləsinə (sabit ulduzların üstündəki qaranlıq qata) rəng vurur və o məclisə özgə bir yaraşıq verir. Lövhü və qələmi bəzəyərək ərs ilə kürsünü işıqlandırır:

Rəyət səfi-sabitatə çəkdin,
Ol məzrəə mehr toxmun əkdin;
Qıldın fələk ətləsini rəngin,
Ol məhfilə verdin özgə ayin.
Lövhü qələmi müzəyyən etdin,
Kürsü ilə ərşi rövşən etdin.

(3, 30).

Merac zamanı Cəbrayıl Məhəmməd Peyğəmbəri müşaiyət edir. Amma ərşin ən yüksək nöqtəsində elə bir məqam yetişir ki, artıq o məqamda Peyğəmbər tək qalmalı idi:

Cibrili qoyub, Büraqı saldın,
Tövhid yolunda tək qaldın.

(3, 30).

Tək qaldığı zaman Məhəmməd Peyğəmbərlə Allah arasında pərdə qalxır və onların arasında yayın ortası ilə bir ucu qədər məsafə qalır:

Rəf oldu sənə hicabi-mabeyn,
Nüzhətgəhin oldu qabi-qövşeyn.

(3, 30).

Məhəmməd Peyğəmbər özü də bəşərdir, insanlar içərisindən seçilmişdir. Onların istədiyindən, arzusundan, əməllərindən, dünya həyatının çətinliklərindən, əzablarından xəbərdardır. Məhz bu səbəbdən də insanlar üçün Allah dərgahında dilək diləyir və Allahdan müjdələr gətirir:

Getdin o yerə ki, getmək olmaz,
Yetdin o yerə ki, yetmək olmaz.
Bizdən həqə ərzlər yetirdin,
Həqdən bizə müjdələr gətirdin.

(3, 30).

Həqq Dərgahında zaman ölçüsü və zaman məfhumu öz dəyərini itirir. Peyğəmbər səfərdən dönəndə hələ yatağı isti idi. Gəldiyi yolların isə tozu hərəkətdə idi. Zamansız bir zaman içində dəryadan coxlu gövhər götürən Peyğəmbər zövq ilə geri dönmüşdü.

Ədəbiyyat

1.Qurani-Kərim. Ərəb dilindən tərcüm edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev. Bakı, Azərnəşr, 1992
2.Qurani-Kerim mealı. Hazırlayanlar: Dok.Dr.Halil Altuntaş, Dr.Muzaffer Şahin. Ankara. Diyanet işleri Bakanlığı yayınları /527. Kaynak Eserler /26, 2008
3.Gümşüdoğlu N. Füzulinin sənət və mərifət dünyası. Bakı – Tehran, 1997
4.Azadə R.Azərbaycan epik şerinin inkişaf yolları (XII-XVII əsrlər), Bakı, 1975
5.Azərbaycan ədəbiyyat tarixi, Altı cilddə, III cild, Bakı, 2009
6.Azərbaycan ədəbiyyat tarixi(Müxtəsər), İki cilddə, I c, Bakı, 1943
7.Azərbaycan ədəbiyyat tarixi, Üç cilddə, I c, Bakı, 1960
8.Səfərli Ə. Yusifli X. Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı, Bakı, 1982
9.Səfərli Ə. Yusifli X. Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı, Bakı, 1998
10.Füzuli M. Əsərləri, II cild, Bakı, 1958
11.Nizami Gəncəvi. Leyli və Məcnun, Bakı, 1981

БЛАГОРАЗУМИЕ И СОВЕРЩЕНСТВО ОБЛИКА ПРОРОКА МАГОМЕДА В МЕСНЕВИ МАГОМЕДА ФИЗУЛИ «ЛЕЙЛИ И МЕДЖНУН»

Куиева Рузия Заман кызы

Резюме

В статье повествуется о благоразумии и совершенном облике пророка Магомеда в месневи Магомеда Физули «Лейли и Меджнун». С этой целью, прежде всего, подаются знания о вознесении и их значении.

Для более глубокого раскрытия темы опираемся на священный Коран и месневи Низами Гянджеви «Лейли и Меджнун».

PROPHET MUHAMMAD`S FACES OF KAMAL AND CAMAL IN MAHAMMAD FUZILI`S MASNAVI OF “LEYLI AND MAJNUN”

Gulieva Ruziya Zaman

Summary

The article talks about prophet Muhammad`s faces of Kamal and Camal in Mahammad Fuzili`s masnavi of “Leyli and Majnun”. With this purpose, first of all we give information about the importance of meracnameler. In order to further investigate the subject it is referenced to our holy book Quran and Nizami Ganjavi`s masnavi in “Leyli and Majnun”.

Rəyçi: professor Xəlil Yusifli
AMEA Gəncə Bölməsi Ədəbiyyat şöbəsinin 18.07.2022-ci il tarixli iclasının 08 saylı protokolu.
Daxil olma tarixi 22.07. 2022-ci il

UOT:821.111

İNGİLİS ƏDƏBİYYATININ ZƏNGİN XƏZİNƏLƏRİNDƏN- C.Q.BAYRONUN "QABİL" PYESİNİN ROMANTİK QƏHRƏMANI

f.ü.f.d. Rüstəmova İlhamə Saleh qızı
Gəncə Dövlət Universiteti
caneli.kesemenli@mail.ru

Xülasə: *Qədim Şərq, Orta Əsrlər dövrü və Renessans Avropası, nəhayət romantizmin özü- bütün bunlar bəşər tarixinin mərhələləri olmaqla yanaşı, həm də nəhəng sosial-kulturoloji məfhumlardır. Romantizm ədəbiyatının, incəsənətin mərkəzində ilk növbədə insan dururdu. Bu insan, yəni romantizm ədəbiyyatında təsvir olunan qəhrəman tarixi hadisələrdən məhdud olmayan imkanlar, yeni yaradıcı fəaliyyət azadlığı gözləyirdi. Bu şəxsiyyət bəşəriyyətin, təbiətin hansı qanunlarla yaşadığını, inkişaf etdiyini dərk etmək, tarixi prosesdə iştirak etmək istəyirdi. Romantik qəhrəman azadlıq idealını ürəyində bəsləyirdi və bu ideal uğrunda döyüşməyə hazır idi. Azadlıq da öz növbəsində çox geniş şəkildə izah edilə bilərdi- ictimai-siyasi azadlıqdan başlayaraq yaradıcılıq azadlığına qədər.*

Açar sözlər: romantizm, konsepsiya, romantik qəhrəman,azadlıq.
Ключевые слова: романтизм, концепция, романтический герой, свобода.
Keywords: romanticism, conception, the romantic hero, freedom.

Romantikləri təkcə insan fərdi maraqlandırırdı. Bu da tam təbii idi, çünki hər bir fərd, hər bir insan təkrarolunmazdır. Romantik sənətin məqsədi də insan qəlbinin xüsusi, unikal xüsusiyyətlərini üzə çıxarmaqdan ibarət idi. Azad yaradıcılıq və sənətkarın, yaradıcı şəxsin sənətdə rolu haqqında ideyasını da məhz romantiklər elan etmişdi. Bu ideyadan yeni bir ideya- yazıb yaratmağa yalnız azad şəxsiyyətin qadir olması ideyası meydana gəlir. Novalisin qeyd etdiyi kimi, " həyatın mənasını yalnız yaradıcı insan, sənətkar dərk edə bilər" [1, s.69]. Şellinqin fikri daha da qətidir. O deyir ki, "sənət adamı, yaradıcı şəxs iki əks qütbün- şüurlu və şüursuz başlanğıcın vəhdətidir" [1, s.73].

Romantik ədəbiyyat öz inkişafında bir neçə mərhələdən keçmişdi. İngilis ədəbiyyatında romantik cərəyanın üç böyük dövrü nümayiş olunur; yəni bu üç dövrdə hakim bədii ruh romantik idi. Bu, əlbəttə ki, klassik ruhun olmadığı anlamına gəlmir; romantik zirvədə belə, kifayət qədər klassik düşüncələr var idi. Beləliklə, ingilis romantizm cərəyanı üç rübə bölünür, paleo-romantizm, meso-romantizm və neo-romantizm, və yaxud Orta əsr, Elizabet dövrü və Müasir romantizm [2, s.13]. Təbii ki, romantik qəhrəman da müəyyən dəyişikliklərə məruz qalmışdı. Belə ki, erkən romantiklər son dərəcə nikbin idi. Buna səbəb Böyük Fransız inqilabının gətirəcəyi "Yeni dünyaya", ümumiyyətlə, insan hüquqlarının olduğu ideal cəmiyyətin qurulmasına bəslənən ümidlər idi [3, s.13]. Lakin, XIX əsrin birinci onilliyində həmin nikbinlik sona yetir, mütləqiyyətin və kubarlığın zülmü pulun, maddi marağın hökmü ilə əvəz olunur. Nəticədə insan şəxsiyyəti, yaradıcı şəxs yenə də reallığın məngənəsində çırpınır. Reallıq insanı özünə tabe edir və insan qəlbinin, ruhunun tam azadlığını əsas tutan dünyagörüşü, ruhun obyektiv reallıqdan asılılığını elan etməsi ilə əvəz edilir[4, s.12].

Ümumiyyətlə, romantik qəhrəman məfhumu çox mürəkkəb bir məfhumdur. Hər bir ədəbi əsərdə baş qəhrəman həlledici rol oynayır. Romantik əsərdə isə baş qəhrəman öz spesifik xüsusiyyətlərinə malikdir. Həmin xüsusiyyətlərin başlıcası- romantik qəhrəmanın onu əhatə edən gerçəklikdən narazı olması, həmin gerçəkliyə qarşı açıq, kəskin etirazı, hətta onunla mübarizə aparmasıdır. Ingilis romantizmi heç vaxt monolit bir cərəyan olmamışdır. İngilis romantikləri iki qola-aktiv (fəal) və passiv romantiklərə bölünürdülər. C.Q.Bayron və

P.B.Şelli ingilis romantizminin aktiv qolunu, V.Bleyk, V.Vordsvort, S.T.Kolric isə - passiv qolunu təmsil edirdilər. Bayron özünün, ədəbiyyatda tam yeni olan insan konsepsiyasını yaratmışdı. Avropa romantizmində Bayron qədər insan şəxsiyyətinin "mütləqiyyətini" təsdiq edən, onu müdafiə edən ədib yox idi. Bayronun yaratdığı şəxsiyyət konsepsiyası Avropa humanist dünya görüşününün, təfəkkürünün, inkişafının mühüm və məntiqi nəticəsi idi. Byron, ekzotik və tarixi şərtlərin şiddət və dramını istismar edən əsərlərlə bütöv Avropaya böyük bir şöhrət gətirdi. Höte Bayron haqqında deyirdi ki: "Şübhəsiz ki, o bizim əsrimizin ən böyük dahisidir" [5, s.215].

Dünya romantizmi tarixində Bayron bəlkə də ən subyektiv romantikdir. Şairin bütün əsərlərində, qəhrəmanların hamısında müəllifin öz şəxsi xarakterinin bir hissəsinin əks olunması daim hiss olunur, duyulur. Eyni zamanda, Bayronun qəhrəmanlarını "bayronik qəhrəmanla" eyniləşdirmək düzgün olmazdı. Bayronun yaradıcılığında romantik qəhrəman məvhumu tam şəkildə formalaşır, onun ən tipik xüsusiyyətləri cəmləşir. Bu qəhrəmanlar nə qədər oxşar cəhətlərə malikdirsə, eyni zamanda dayanıqlı deyil, onlar fərqli xüsusiyyətlərə də malikdir və bu obrazlar böyük və ciddi inkişaf yolu keçir. Həmin inkişaf yolu sözsüz ki, müəllifin dünyagörüşünün təkamülünü özündə əks edirdi. Bayronun yaradıcılığı, onun yaratdığı romantik qəhrəmanlar silsiləsi həmin təkamülün parlaq nümunəsi ola bilər. Şübhəsiz ki, Bayronu onun qəhrəmanları ilə eyniləşdirmək düzgün olmazdı. Lakin, belə eyniləşdirmə vaxtikən mövcud idi və bunun da obyektiv səbəbləri var idi. Eyniləşdirmə Bayronun ilk iri həcmli əsəri "Çayld-Haroldun ziyarəti" poeması nəşr olunandan sonra başlamışdı. Poema nəşr olunduğu gündən oxucular artıq tam əmindilər ki, Çayld-Harold müəllifin özüdür. Bu əlbəttə ki, yalnış fikir idi. Bayronun Avropaya səfəri, " Çayld Haroldun ziyarətləri" (1812) adlı poemanın ilk iki kantosu - bir gəncin Avropanı sərgüzəştləri ilə bağlı bir epik qəhrəmanlıq əsəri ilə nəticələndi. Əsər eyni zamanda London ictimaiyyətinə qarşı kəskin bir satira idi. Bayron poemada 1809-1811-ci illər arasında səfərlərində qazandığı təcrübələrdən də bir sıra hekayələr xətti yaratdığına görə əsər həmçinin, avtobioqrafik cəhətdən düşünülmüş elementləri ehtiva edir [6, s.32].

Bayronun Yunanstanda milli azadlıq hərəkatında iştirak etməsi, onun həyatı, bədii axtarşları onun qəhrəmanlarının daxili aləmini anlamaq üçün həm də bir vasitə hesab oluna bilər. N.A.Dyakonova qeyd edir ki, "Şərq poemalarında qəhrəmanların şəxsi azadlığı heç nə ilə məhdudlaşmır. Ona görə də, şəxsi azadlıq siyasi azadlıqla sıx şəkildə birləşir, qəhrəman artıq düzgün qurulmamış cəmiyyətlə titanik mübarizəyə qalxırdı. Bu da öz növbəsində romantizmdə azadlıq konsepsiyasının özünə artıq tam yeni, ictimai-siyasi məna əlavə edirdi. Buna görə Bayronun Missolungidə vəfatı şairin əvvəlki imicini, simasını, cəmiyyətin ona münasibətini də köklü şəkildə dəyişmişdi. Bayron artıq təkcə "məğrurluq şairi" kimi deyil, əsl döyüşçü əsgər kimi xarakterizə edilirdi. Yəni, romantik şair Bayron öz təxəyyülünün, yaratdığı qəhrəmanlarının, ekzotik və maraqlı süjetlərin qulu deyildi. Bayron o zaman Balkan yarımadasında baş verən və əsasən Böyük Fransız inqilabının nəticəsi olan hadisələrin diqqətli və həssas müşahidəçisi və fəal iştirakçısı idi " [7, s.131].

Romantizmdə şəxsiyyət problemi ön plana çəkilir, mərkəzi problemə çevrilir. Bütün başqa problemlər şəxsiyyətin ətrafında qruplaşır və ilk növbədə şəxsiyyətlə əlaqələndirilir. Romantik sənətin estetikasında dünyanın dərk edilməsi nəticə etibarı ilə, özünü dərk etməkdən ibarətdir. Həqiqətən, klassisist və maarifçilərlə müqayisədə romantik əsərlərdə baş qəhrəmanın obrazı tam yeni şəkildə izah olunuur. Yəni romantik qəhrəman artıq obyekt kimi deyil, subyekt kimi çıxış edir və məhz bu subyekt ətraf gerçəkliyi müəyyən edir, onu formalaşdırır.

Belə qəhrəmanlardan biri, bəlkədə onların ən nümunəvi tipi-Bayronun məşhur drama-misteriyasının baş qəhrəmanı Qabildir. "Qabil" əsərinin taleyi çox mürəkkəb olmuşdu. Buna səbəb də şairin Bibliyadan götürdüyü məşhur süjeti tam yeni şəkildə izah etməsi idi. Bayronun əsərində Qabil Bibliyadan fərqli olaraq müsbət qəhrəmandır. Qabil Yahvanın hökmü ilə barışmaq istəmir və öz valideynləri Adəm və Həvvaya özünü narahat edən sualları verir, bir çox qaranlıq məsələlərə aydınlıq gətirmək istəyir. "Yahva haqlıdırsa, həyatda nə üçün bu qədər haqlısızlıq var? Mən nə üçün atamın, anamın günahı üzündən əzab çəkməliyəm? Həyatın mənası nədədir?" - oğlunun bu sözlərini eşidən Adəm, Həvva dəhşətə gəlirlər. Qabil qardaşı Habilə müraciət edir, qəlbinin çırpıntısı onunla bölüşmək istəyir, lakin qardaş onu başa düşmür. Burada mühüm, ciddi bir məqamı qeyd etmək lazımdır: Qabil Tanrıya qarşı üsyan qaldırmır. O yalnız həyatda mövcud olan mürəkkəbliyin, qarışıqlığın, nəhayət haqsızlığın səbəbini nədə olduğunu dərk etmək istəyir. Bu da yenə də Bayronun dinə qarşı şəxsi münasibəti ilə sıx bağlı olan bir məsələdir. Bayron heç zaman Tanrıdan üz döndərməmişdi və İsa Məsih onun gözündə ideal bir şəxsiyyət idi. Lakin, Bayron rəsmi dindən artıq tələbəlik illərində ayrılır və rəsmi kilsəyə nifrətini açıq bildirməkdən heç vaxt çəkinmirdi. Qabilin də dili ilə Bayron əslində özünü narahat edən fikirləri, düşüncələri oxucularına çatdırmaq istəyir-dünya necə qurulub? Dünyanın mənası nədir? Həqiqət nə üçün tapdalanır? İnsan həyata nə üçün gəlir? Bu suallara cavab tapmaq üçün Bayron öz qəhrəmanı Qabili Lütsiferlə görüşdürür. Görüş Qabilin mənəvi ehtiyacından irəli gəlirdi və o artıq bu görüşə daxilən hazır idi. Lutsiferlə görüş sanki Qabilin gözlərini əsl həqiqətə açır və Qabil çox dərin təəssüflə etiraf edir ki, bilik ona xoşbəxtlik gətirmir, əksinə mənəvi yükünü daha da ağırlaşdırır. Bayronun izahında Qabil qardaş qatili deyil. Qabil bəşər tarixində ilk üsyankardır və o hətta Yahvanın, Tanrının özünün belə hökmünü kor-korana qəbul etmir, onu dərk etməyə çalışır. Bayron Qabil obrazında mühüm bir məsələni vurğulayır-Yahvanın sadiq qulu olan Habilin övladı yoxdur. Qabilin isə oğlu var, demək, bəşər tarixini sadiq qullar deyil, üsyankar, azad idraklı, düşünən insanlar davam edir. Belə nəticə tam məntiqidir və aktiv (fəal) romantiklərin, xüsusəndə Bayronun həyat və yaradıcılıq mövqeyi ilə üst-üstə düşür.

Bayronun qəhrəmanları ciddi təkamül yolu keçir- ilk passiv qəhrəman Çayld-Harolddan, "Şərq poemaları"nın bütün dünyadan qisas alan qəhrəmanlardan, dərin düşünən, intiqam hissindən uzaq, düşünülmüş etiraz sahibi olan Qabilə qədər.

Bayron öz qəhrəmanına birmənalı yanaşmır. Bir tərəfdən Bayron öz üsyankar qəhrəmanlarının - Lütsifer və Qabilin intellektual qüdrətini, onların sonsuz şücaətini və mətinliyini dönə-dönə vurğulayır, digər tərəfdən onların xarakterində olan qəhrəmanlıq xüsusiyyətlərinin faciəvi olaraq quruculuğa yönəlməsini, əksinə hər şeyi viran qoymasını göstərir. Qabilin faciəsi - biliyin zirvəsinə ucalmış və biliyin insana xoşbəxtlik gətirmədiyini dərk etmiş insanın faciəsidir. Qabil nə eqoist, nə də tənha üsyankar deyil. Onun üsyanı bütün bəşəriyyyətin halına yandığından irəli gəlir. Qabil öz yaxınlarına onların qul itaətkarlığına görə nifrət edir və eyni zamanda insanların xoşbəxtliyi üçün hər şey etməyə hazırdır. Lütsiferin mənəvi sarsılmazlığa, gördüyü haqsızlıqla barışmamağa çağırışı Qabilə daxilən çox yaxındır. Belə ki, Bayronun Lütsiferi Qabilin tərəfdarıdır, onun köməkçisidir, o Qabilə dəstək verir və bir üsyankar kimi əsl romantik qəhrəman üçün səciyyəvi olan bütün xüsusiyyətlərə malikdir.

Bayronun yaradıcılığının ali məqsədi insan təbiətinin dərinliyinə gedib, onu anlamaqdan ibarətdir. İnsan təbiətin zirvəsi, onun əşrəfidir. Yer üzündə bütün müharibələri də, zülmü də, pislikləri də məhz insan, yəni təbiətin tacı törədir. Dünyanın bütün bəd əməlləri məhz insanın əlindən gəlir. Bu fikir "Qabilin" sonu ilə üts-üstə düşür. Qabil qardaşı Habil haqqında deyir ki "o (Habil) sonsuz idi" [8, 232]. Yəni, insan nəslini məhz Qabilin

övladı davam edəcək. Bunlar da, Qabil kimi heç vaxt, heç bir qanunu, qaydanı, ehkamı kor-korana qəbul etməyib, dərin düşünüb, həyatın ən çətin suallarına cavab tapmağa çalışacaqlar. Bu cəhətlər bəşər tarixində ən gözəl insanlara xas olacaq.

Hissin və əqlin arasında ziddiyyət Qabilin də xarakterində nəzərə çarpır. Bayronun qəhrəmanı dərin biliklərə yiyələnməklə xoşbəxtlik tapa bilmir, çünki, bu bilik onun halına acıdığı insanlara xoşbəxtlik gətirməmişdi. Drama-misteriya axırda Qabilin faciəsinə çevrilir. Qabil Bibliya əsatirinə uyğun olaraq, əbədi sərgərdan gəzməyə məhkumdur. Lakin, Qabil nə özünün azadlıq idealından imtina edəcək, nə də bununla yanaşı vicdan əzabından qurtula biləcək. Qabil hara getsə, orada azad düşüncə, üsyankarlıq toxumları səpilir, insanların gözü həqiqətə açılır. Qabil, onun kimi insanlar heç nəyə tabe olmamalıdır, tabe ola da bilməz. İnsan oğlu daim həyatda yanılacaq, səhvlər edəcək və bu da bütün bəşəriyyətin keçdiyi yoldur. Bayron Bibliyadan götürdüyü məşhur əfsanədən həyat və bilik, Xeyir və Şər, varlıq və ölüm haqqında fəlsəfi düşüncələrin başlanğıc nöqtəsi kimi istifadə etmişdi. Bu düşüncələr əslində Bayronun öz şəxsi fikirlərinin əksi idi. Bayronun qəhrəmanı da, şairin özü kimi həyatın mənasını dərk etməyə, şərin və haqsızlığın köklərini tapmağa çalışır və bu axtarışların nəticəsində mənəvi zülmdən, həmin zülmə itaətkarlıqdan imtina edir.

Ədəbiyyat

1. Жирмунский В.М. Байрон и Пушкин. М.: Наука, 1978, 423 с.
2. Dr.Harko G. De Maar.A history of Modern English Romanticism. New York:1970, 221 p.
3. David Duff .Romance and Revolution: Shelley and the Politics of a Genre. Cambridge University Press, 1994 , 276 p.
4. Simon Williams. Wagner and the romantic hero. New York:Cambridge University Press, 2004, 193 p.
5. Манн Ю. В. Поэтика русского романтизма. М.: Наука, 1976, 375 с.
6. Rupert Christiansen. Romantic Affinities: Portraits from an Age, 1780–1830. London: Bodley Head, 1988, 215 p.
7. Poems & Poets viewed 12 May 2013.
8. Дьяконова Н.Я. Лондонские романтики и проблемы английского романтизма. Л.: Изд-во ЛГУ, 1970, 232 с.
9. Bayron Corc Qordon. Seçilmiş əsərlər. Bakı: Şərq-Qərb, 2006, 224 s.

ОДНО ИЗ БОГАТЫХ СОКРОВИЩ АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЫ РОМАНТИЧЕСКИЙ ГЕРОЙ ПЬЕСЫ ДЖ. Г. БАЙРОНА «КАИН»

Рустамова Илхама Салех кызы

Резюме

Романтизм представляет собой огромную эпоху в истории развития мировой литературы и культуры. Англию можно считать прародиной романтизма. Именно в Англии ранее буржуазное развитие вызвало первые антибуржуазные устремления, ставшие впоследствии характерными для всех романтиков. Герой пьесы Дж. Г. Байрона «Каин» — первый герой-бунтарь в истории человечества. Его бунт исходит из того, что он разделяет боль всего человечества.

ONE OF THE RICH TREASURES OF ENGLISH LITERATURE-THE ROMANTIC HERO OF THE PLAY G.G. BYRON "CAIN"

Rustamova İlhama Saleh

Summary

Romanticism is a huge era in the history of world literature and culture. England can be considered the ancestral home of romanticism. It was in England that earlier bourgeois development gave rise to the first anti-bourgeois aspirations, which later became characteristic of all romantics. The hero of G.G. Byron's play "Cain" is the first rebel hero in the history of mankind. His rebellion comes from the fact that he shares the pain of all mankind.

Rəyçi: dosent Əliyeva Zahirə
Praktik xarici dillər kafedrasının d 05 dekabr 2022-ci il tarixli iclasın 06 saylı protokolu
Daxil olma tarixi

UOT:811.

MƏTBUAT DİLİNİN LEKSİK-TERMİNOLOJİ TƏRKİBİNDƏ İNFORMATİVLİYƏ GÖRƏ NORMAYA ÇEVRİLƏN SÖZLƏR

Rzayeva Mədinə Əliağa qızı
Gəncə Dövlət Universiteti
madinarzayeva@yahoo.com

Xülasə: *Mətbuat dilində işlənən və normalaşan terminlər ana dilinin leksik-terminoloji potensialını zənginləşdirən dil vahidlərinə çevrilir. Belə terminlərin normalaşmasında mətbuat dilinin kütləviləşdirici funksiyası başlıca rol oynayır. Kütləviləşə bilən terminlər daha çox ictimai-siyasi, mədəni-məişət və informasiya məzmunlu dil vahidlərindən ibarət olur. Normalaşa bilməyən terminlər mətbuat dilində müəyyən müddət ərzində işlənərək sonradan unudulur. Belə terminlər reali məzmunlu dil vahidləri deyil, az müddət işlənib sonra təkrar olunmayan ekzotik xarakterli sözlərdən ibarətdir. Bu tipli terminlər mətbuatda daha çox Avropalılığa meyilliliklə bağlı olan dəb xarakterli dil vahidləri kimi nəzərə alınır.*

Açar sözlər: çeviklik,potensial,meyillilik, unifikasiya, müvafiq
Ключевые слова: гибкость, потенциал, склонность, унификация, соответственный
Key words: flexibility, potential, inclination, unification, corresponding

Mətbuat dilinə daxil olan və alınma kimi işlədilən leksik-terminoloji vahidlərin hamısı mənimsənilmə imkanlarından məhrum deyildir. Sosial-ictimai həyatda baş verən yeniliklər, elmi-texniki inkişafla bağlı olan nailiyyətlər müasir informasiya texnologiyaları vasitəsi ilə çox sürətlə yayılır və ayrı-ayrı dillərdə özünə işləklik mühiti yaradır. Mətbuat dilinə məxsus çeviklik isə belə söz və terminoloji vasitələrin işlədilməsi üçün mövcud imkanları daha da genişləndirir. Əlbəttə ki, müasirliklə və yeni anlayışların ifadə olunması zərurəti ilə söz almanın heç bir neqativ göstəricisi yoxdur. Əksinə bu cür sözlərin alınıb işlədilməsi və

normalaşdırılması dilin leksik-terminoloji potensialını zənginləşdirdiyi kimi, eləcə də ana dilinin beynəlxalq informasiya məkanı ilə təmasının və əlaqəsinin artırılmasına xidmət edir.

Azərbaycan dilinə ayrı-ayrı vaxtarda təmasda olduğu başqa dillərdən ictimai həyatın müəyyən sahələri ilə əlaqədar müxtəlif sözlər daxil olmuşdur. Səlim Cəfərov Azərbaycan dilinə başqa dillərdən daxil olan sözləri və müvafiq normaya uyğun mənşəyinə görə aşağıdakı kimi xarakterizə edir: "Müasir Azərbaycan ədəbi dilində işlənən sözlərin bir qismi başqa dillərdən dilimizə gəlmiş olan sözlərdir. Bu sözlər müəyyən tarixi faktorlar məkan və zaman münasibətləri ilə əlaqədar olaraq müxtəlif dillərdən dilimizə keçmişdir. Belə sözləri öz tarixiliyi etibarı ilə Qafqaz dillərindən gələn sözlər, ərəb dilinlən gələn sözlər, fars dilində gələn sözlər, rus dili və rus dili vasitəsi ilə başqa dillərdən gələn sözlər olmaq üzrə dörd qrupa bölmək olar" [1, s.47]. Muxtar Hüseynzadə alınma sözləri ərəb, fars, rus dili və rus dili vasitəsi ilə daxil olmuş vahidlər kimi təsnif edir [2, s. 7-14].

Nəsir Məmmədov alınma sözləri ərəb-fars, rus və rus dili vasitəsi ilə daxil olmalar kimi göstərir. Nəsir Məmmədov ərəb-fars alınmaları ilə əlaqədar olaraq yazır ki, "Azərbaycan dilinə keçən ərəb-fars mənşəli sözlərin tarixi qədimdir. Tarixdən bizə məlumdur ki, Azərbaycanda - 300 ildən artıq ərəblər, min ildən yuxarı (ayrı-ayrı dövrlərdə) farslar hökmranlıq etmiş və bunların hər biri Azərbaycan xalqının mədəniyyətini və dilini korlamağa çalışmışlar. Ərəb feodalları öz dillərini, əlifbalarını qılınc gücünə Azərbaycan xalqına qəbul etdirdikləri kimi öz dillərini də dilimizə qarışdırmışlar" [3, s.132].

Ancaq onu da demək lazımdır ki, ərəb-fars mənşəli sözlərin bir çoxu zaman-zaman Azərbaycan dilinin nitq normalarının tələbinə uyğunlaşaraq, hətta, öz ilkin quruluşundan fərqli şəklə düşmüşdür. Məsələn, *adam, ağıl, xırman, qayda, fayda, avam, davam, müştəri, rahat, saat, salam, namaz, ramazan, farağat, taxt, cümlə, sinif, hörmət, fikir, şəhər, zəhər, bəhrə, bahar, qiymət, qismət, nasaz, tayfa, kamal, xalq, dəstə* kimi sözlər də əslindən fərqli olaraq Azərbaycan dilinin saitlər sırasına məxsus ardıcıllıq müşahidə edilir. Nəsir Məmmədov və Ağamusa Axundovun müəllifliyi ilə çap olunmuş dərslik kitabında alınmaların mənşəyinin ərəb-fars, rus və rus-Avropa dillərinə məxsus olduğu göstərilir. Alınmalarla əlaqədar burada göstərilir ki, "Əgər alınma sözlər ehtiyac nəticəsində daxil olduğu dilin lüğət tərkibinin zənginləşməsinə kömək edirsə bu müsbət təsirdir. Əksinə, həmin sözlər ehtiyac nəticəsində deyil, zorla keçirilirsə, bunların miqdarı həddindən artıqdırsa dili ağırlaşdırıb onu xalq üçün anlaşılmaz bir vəziyyətə salırsa bu mənfi təsirdir. Belə bir vəziyyətin uzun müddət davam etməsi nəticəsində dil yavaş-yavaş öz keyfiyyətini itirər və ölüb gedə bilər. Buna görə də əcnəbi sözləri qəbul edərkən onlara ehtiyac olub-olmamasını mütləq nəzərə almaq lazımdır" [1, s. 121].

Müasir dövrdə, artıq dil kontaktları sözalmaya icbari təsir göstərmir. Əksinə, xarici sözlərin dilə gəlişində meyillilik təsiri aparıcı rol oynayır.

Buludxan Xəlilov alınma sözlərin tərkibinin ərəb-fars, rus, Avropa və Qafqaz dillərinə aid olduğu barədə nümunələr verir [2, s. 38-70].

Müasir dövrdə dilçi mütəxəssisləri, o cümlədən, ana dilinin qayğıkeşliyinə diqqətlə yanaşan ziyalıları narahat edən məqamlar kütləvi informasiya vasitələrində dilə laqeydliyin baş alıb getməsindən ibarətdir. bu münasibətlə Buludxan Xəlilov yazır ki, "Dilimizdə və dilçiliyimizdə meyillərin, qüsurların qarşısını almaq üçün bir sıra məsələlərə diqqət yetirilsə işin xeyrinə olar. Bunların sırasında məqsədəuyğun hesab etdiklərimizin bəzilərini qeyd etmək istərdik: yazı mədəniyyəti və onları yüksəltmək yolları, tərcümə sahəsindəki nöqsanlar və onların aradan qaldırılması yolları… yazıçılarla dilçilər arasında sıx əlaqə yaratmaq və s." [3, s. 56].

Dilçilikdə sözalma məsələsi çox məsuliyyətli bir iş hesab olunur. Həmişə belə bir sual mütəxəssisləri düşündürür ki, sözalma necə olmalıdır. Hansı sözləri alıb norma hüquqlu bir vahid kimi işlətmək olar, hansılardan imtina edilməlidir? Məmməd Qasımov alınma barədə fikrini belə ifadə edir: "Sözalma deyildikdə, adətən yeni yaranan anlayışları ifadə etmək və mövcud anlayışları bir-birindən dəqiq fərqləndirmək üçün başqa dillərin lüğət tərkibinə müraciət edilməsi, bir dilin digərindən ayrı-ayrı elementləri alıb işlətməsi prosesi nəzərdə tutulur. "Alınma sözlər" anlayışının şərti və nisbi olduğu nəzərdə tutumalıdır. Alınma sözlərin bir qismi məhdud dairədə istifadə edilmək üçün nəzərdə tutulur və axıradək belə vəziyyətdə qalır; bir qismi əvvəlcə məlum səbəblərə görə zəruri hesab edilirsə də sonradan öz zəruriliyini itirir; nəhayət, alınma sözlərin bir qismi də dildəki mövqeyini həmişə eyni dərəcədə saxlayır" [1, s.146].

Məmməd Qasımov internasional terminlərin səciyyəvi cəhətlərini belə şərh edir: "İnternasional terminlərə verilən tələb həmin terminlərlə ifadə olunan anlayışın beynəlxalq xarakter daşımasıdır. Bu və ya digər anlayışın beynəlxalq mahiyyəti isə onun bir sıra xalqların həyat şəraitinə, varlığına olan münasibətində öz əksini tapır. Məhdud yerli anlayışları ifadə edən sözlər internasional terminlər sırasına daxil deyildir" [3, s. 149].

Məmməd Qasımovun fikrincə internasional terminlər o terminlərdir ki, onlar beynəlxalq əhəmiyyətli anlayışları ifadə etsin, dünyanın əksər dillərində (o cümlədən, qohum olmayan dillərdə) işlənsin [4, s. 149].

Onu qeyd etmək lazımdır ki, internasionl terminlər, Məmməd Qasımovun vaxtı ilə dediyi kimi, dünyanın əksər dillərində özünə istifadə məkanı qazanmış sözlərdir ki, onların işlədilməsi dünyada baş verən ictimai-siyasi, elmi-texniki və mədəni məişət hadsiləri barədə informasiya əldə etmək imkanı yaradır. Sayalı Sadıqova beynəlxalq terminlərlə əlaqədar yazır ki, "Beynəlmiləlləşdirmə dünyanın digər dillərinə yaxınlaşma ilə yanaşı dilin özünü də zənginləşdirir, həmin sistemi formalaşdırır" [5, s. 130].

Doğrudan da mətbuat dilində sərbəst şəkildə işlədilən söz və terminlərin o qismi ana dilində normalaşa bilir ki, onlar beynəlxalq informasiya məkanının tam hüquqlu subyektinə çevrilə bilsinlər. Eyni zamanda həmin sözlərin Azərbaycan dilində müvafiq, konkret bir vahid şəklində ifadə edilən qarşılığı mövcud olmasın. Belə sözlərə dair aşağıdakıları nümunə göstərmək olar:

Unikal. *Unikal* söz mənşəcə latın dilinə məxsusdur. Bu söz beynəlxalq termin kimi nadir incəsənət əsərlərinə xas olan bir epitet kimi işlədilir. Mətbuat dilində də *unikal* sözünün həmin mənada işlədilməsi müşahidə olunur: "*Unikal* səsə malik olan müğəninin xatirəsi yad edildi" ("Mədəniyyət" qəz., 29 okt. 2009).

Militant. *Militant* sözü mənşəcə fransız dilinə məxsusdur. Sözün mənası müharibəyə hazırlıq siyasəti anlayışı bildirən militarizm termini ilə bağlıdır. *Militant* sözü mətbuat dilində hərbiləşirilmiş və döyüşə hazırlanmış obyekt mənasında işlədilmişdir. Azərbaycan dili üçün bu termin yeni anlayış bildirən bir vahid şəklindədir və ondan müvafiq məqamlarda istifadə etmək mümkündür:

"Prezident Obamanın Suriya və İraqdakı *militarları* hədəfə alması və amerikalı müsəlmanlardan bəzilərinin bu təşkilata qoşulması bəzi demokrat namizədləri pis vəziyyətə salıb" ("Kaspi" qəz., 6 noy., 2014).

Tolerant. *Tolernat* sözü mənşəcə latın dilinə məxsusdur. Azərbaycan dilində bu sözün mənası rus dilindəki *терпимость* qarşılığına uyğun olaraq dözümlülük kimi ifadə olunur. Lakin *tolerant* sözünün mənası dözüm və ya dözümlülük anlayışından daha genişdir. *Tolerant* sözü ümumi halda dözülə bilmə, yol verilə bilmə, hesablaşma, səbir, səbirlilik kimi özündə birləşdirir. Azərbaycan dilində *tolerant* sözü dini inanclara toxunulmazlıq şəraiti yaratmaq

mənasında işlədilir. Konkret olaraq *tolerant* və ya *tolerantlıq* sözünü Azərbaycan dilindəki ərəb mənşəli *mərhəmanə, mərhəmlilik* sözü ilə qarşılaşdırmaq olar. Lakin tolerantlıq sözü, artıq beynəlxalq informasiya məkanında özünə geniş yer tutduğundan bu sözün termin kimi qəbul edilib işlədilməsi heç bir qeyri-adilik yaratmır. *Tolerantlıq* sözü mətbuat dilində də məhz, *dözümlülükdən, səbirlilikdən* daha artıq mərhəmanə münasibət anlayışına yaxın məna bildirir: "Respublikamızda yaradılmış liberal və *tolerant* mühit bu sahədə heç bir problemin ortaya çıxmasına səbəb olmur". ("Xalq qəzeti", 19 dek., 2012).

Alyans. Mətbuatda son zamanlar işlədilən *alyans* termini mənşəcə fransız dilinə məxsusdur. Hərfi mənası "birləşmək", "ittifaq yaratmaq" deməkdir. *Alyans* sözü, həmçinin müəyyən müqavilə öhdəlikləri əsasına yaradılan birlik, birgə maraqları uyğunlaşdırmaq və nizama salmaq üçün yaradılan ittifaq deməkdir. *Alyans* sözü bir ölkədə mövcud olan və öz hüquqlarını qoruyub saxlamaq iqtidarında fəaliyyət göstərən təşkilatların, həmçinin ictimai-siyasi quruluşların, partiyaların ümumi maraqlarının birləşdirilməsi mənasında işlədilir. Konkret olaraq demək olar ki, Azərbaycan məkanında siyasi partiyalar arasındakı *alyans* dövlət maraqlarının, vətəndaşlıq və vətənpərvərlik maraqlarının qorunması işinə xidmət göstərmək mənasında işlədilir. Bu anlayışı, əlbəttə ki, *ittifaq, birlik, vəhdət, həmrəylik* sözləri ilə ifadə etmək olmur. Üstəlik *alyans* sözü öz mənası etibarilə beynəlxalq səciyyə daşıdığı üçün onun Azərbaycan dilində normalaşdırılaraq işlədilməsinə heç bir ciddi əngəl yoxdur.

Mətbuat dilində *alyans* sözü məhz qarşılıqlı anlaşma əsasında yaradılan termin kimi işlədilir: *"Partiyalararası alyansın yaradılması vətəndaşlıq səylərinin milli özünüdərk səviyyəsinə qaldırılması üçün əlverişli bir üsul kimi qəbul oluna bilər"* [6,s.173].

Gender. *Gender* sözü çox zamanlar mətbuatda tez-tez təsadüf olunan terminoloji vahidlərdəndir. *Gender* sözü mənşəcə latın dilinə məxsusdur. Söz latın dilindən ingilis dilinə daxil olaraq beynəlxalq səviyyədə öz mənasını genişləndirmişdir. *"Gender sözü mətbuatda işlədilərək bir çox hallarda qadın mənasında başa düşülsə də, ingilis dilində onun mənası cins, nəsil, cinsə aidiyyəti olan anlayışından ibarətdir"* [6, s.173]. *Gender* sözünün özünün kökündəki gen sözü nəsil, tayfa, qəbilə cins anlayışlarını əhatə edir. Qulu Məhərrəmli *gender* sözünə aşağıdakı kimi geniş şərh verir: "*1) Kişi və qadınların ictimai həyatın müxtəlif sahələrində sosial davranış qaydalarını formalaşdıran, bu qaydalar arasındakı eynilikləri və fərqləri müəyyənləşdirən xüsusiyyətlərin cəmi; 2) Cinslər daxilində münasibətlər məcmusu və cinslərarası münasibətlərin sosial cəhəti; 3) İnsanın cəmiyyətdəki davranışını, sosial mühitin bu davranışa təsirini cinsə görə müəyyən edən, qiymətləndirən, öyrənən elm sahəsi*" [7, s.66-67].

Gender termini özünün geniş anlayış əhatəsinə görə Azərbaycan dilində norma hüquqlu bir dil vahidi kimi işlənə bilər. Azərbaycan mətbuatında *gender* sözü özünün terminoloji anlayışını qabarıq şəkildə əks etdirə bilir: *"Azərbaycanda həyata keçirilən gender siyasəti uğurlu nəticələr verməkdədir"* [7,s.176].

Legitim. *Legitim* sözü mənşəyinə görə latın dilinə məxsusdur. *Legitim* sözü özünün terminoloji mənasına görə bütün Avropa dillərinə, daha sonra dünyanın bir çox inkişaf etmiş xalqlarının dillərinə daxil olmuşdur. Azərbaycan dilində *legitim* sözü ictimai-siyasi və həm də hüquqi termin kimi normalaşaraq işlədilir. *Legitim* sözünün lüğəti mənası qanuni anlayışını bildirməkdən ibarətdir. Lakin bu söz beynəlxalq informasiya məkanında təkcə bu məna ilə tanınmayıb, əhalinin əksəriyyətinin qəbul etdiyi və beynəlxalq məkanda təqdir olunmaq mənalarını da qazanmışdır.

Legitim sözü ictimai-siyasi və hüquqi termin kimi mətbuat dilində də bu məna üzrə işlədilir: *"Əgər legitim münasibət olmayacaqsa o təşkilatın işini necə qənaətbəxş saymaq mümkündür"* [7,s.158]. "*Seçkilərdə əldə edilən qələbənin legitimliyi müşahidəçilər tərəfindən*

də təsdiq olundu" [7,s.173]; *"Ölkədə gerçək legitimlik siyasətinin doğruluğuna inam formalaşdırırlar"* [7,s.158].

Ekstradisiya. *Ekstradisiya* sözü mənşəcə latın dilinə məxsusdur. Bu söz latın dilindən fransız dilinə və bu dildən də beynəlxalq informasiya məkanına daxil olmuşdur. Sözün mənası "daxildən verilmə" deməkdir. Beynəlxalq informasiya məkanında *ekstradisiya* sözü bir dövlətin qanunlarını pozmuş şəxsin xarici dövlətə verilməsi mənası üzrə işlədilir. *Ekstradisiya* əməliyyatı ayrı-ayrı cinayət növləri üzrə dövlətlər arasında beynəlxalq sazişlərə uyğun olaraq bağlanmış ikitərəfli müqavilələr əsasında həyata keçirilir. Azərbaycan mətbuatında *ekstradisiya* sözü beynəlxalq informasiya məkanında formalaşmış ictimai-siyasi və hüquqi termin kimi işlədilir: *"O deyib ki, oğlunun Azərbaycana ekstradisiyası üçün sənədlər hazırlanır"* [7,s.158].

Treninq. *Treninq* sözü mənşəcə ingilis dilinə məxsusdur. Bu söz beynəlxalq informasiya məkanında məşq etmək, təlim, xüsusi təlim rejimi, nəyisə öyrənmək üçün ardıcıl məşqkeçmə mənaları qazanmışdır. Azərbaycan dilində *treninq* sözünün xüsusi terminoloji vasitə ilə ifadə oluna bilən qarşılığı mövcud deyildir. Odur ki, ardıcıl təlim-məşq işlərinin həyata keçirilməsi mənasında *treninq* sözündən terminoloji bir vasitə kimi istifadə olunur. *Treninq* sözü Azərbaycan mətbuatında həmin mənaları bildirmək üçün qəbul edilmiş bir termin kimi işlədilir: *"Treninq çərçivəsində mövzular üzrə təqdimat keçirilib, iştirakçılara Baş Biznes Tədris mərkəzi tərəfindən hazırlanmış metodiki vəsaitlər paylanıb"* [7,s.173].

Doğrudur, beynəlxalq informasiya terminlərinin Azərbaycan dilinə birbaşa daxil olması imkanları qarşısında məhdudiyyət yoxdur. Ancaq onların bəzilərinin ana dilimizə daxil olmasında rus dili və rus dilinə məxsus kütləvi informasiya vasitələrinin də müəyyən rolu vardır. Bu fikrin təsdiqi onda özünü göstərir ki, Azərbaycan mətbuatında işlənən beynəlxalq terminaloji vahidlər artıq, rus dilinin müasir lüğətlərinə daxil edilmişdir.

Ədəbiyyat

1. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı, "Maarif" , 1970, (235 s.). s. 47
2. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, Azərtədrisnəşr, 1963, (275 s.), s 7-14.
3. Məmmədov N.Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı, "Maarif", 1971, 366 s., s. 132.
4.Sadıqova S. Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı, "Elm",2002, 130
5.Ожегов, С.И. О структуре фразеологии // Лексикографической сборник, –Москва АН СССР. Государств. изд. иностранных и национальных словарей, 1957. вып. 2, с. 31-53.
6.Məmmədli, N. Azərb.dilində alınma terminlər.N.Məmmədli. Bakı:Elm və təhsil, 2017.488 s

СЛОВА ПЕРЕНЕСЕННЫЕ В НОРМУ ЗА ИНФОРМАТИВНОСТЬ В ЛЕКСИКО-ТЕРМИНОЛОГИЧЕСКОМ СОСТАВЕ ЯЗЫКА ПРЕССЫ

Рзаева Мадина Алиага

Резюме

Международные термины, включенные в язык прессы, обычно используются в соответствии с нормами родного языка, а не исходного языка .Азербайджанский язык обогащая свои нормы и внутренние элементы языка тоже могут создать соответствующую структуру использования вместе с международными терминами.

WORDS TRANSFORMED INTO A NORM FOR INFORMATIVENESS IN LEXICO-TERMINOLOGICAL COMPOSITION OF THE PRESS LANGUAGE

Rzayeva Madina Aliaqa

Summary

The usage of international terms their lexical and semantic normality is more connected with the purpose of passing new information in the press language. So, the terms that can and can`t be standardized enter the press language. The terms used in the press language and standardized terms turn into units which enrich lexical and terminological potential of the mother tongue. In standardization of such kind of terms the mass function of press language plays a great role.

Rəyçi: prof. Yusifov Mübariz
Azərbaycan dili kafedrasının 07 dekabr 2022-ci il tarixli iclasın 06 saylı protokolu
Daxil olma tarixi 13 oktyabr 2022-ci il

UOT:811.512.162

MÜASIR AZƏRBAYCAN DILINDƏ VƏ KITABI-DƏDƏ QORQUD DASTANINDA FELIN QRAMMATIK KATEQORIYALARIN ANALITIK IFADƏ ÜSULLARI

Vəliyev Məhəmməd Qərib oğlu
Gəncə Dövlət Universiteti
muhammedveliyev@mail. ru

Xülasə: *Kitabi-Dədə Qorqud dastanı ulu türklərin adət-ənənələri özündə əks etdirməklə yanaşı qədim türk, o cümlədən Azərbaycan dilin inkişaf meyillərini izləmək baxımından da əhəmiyyətli mənbələrdəndir. Məqalədə Kitabi-Dədə Qorqud dastanında felin qrammatik kateqoriyalarının analitik ifadə üsullarından bəhs edilir. Bu analitik konstruksiyalar müasir Azərbaycan dili materiallları ilə müqayisədə tədqiq edilmişdir. Eyni zamanda müasir türk ədəbi dili ilə müaqisələr aparılmışdır. Analitik formaların tarixdən günümüzə inkişafı qeyd edilmişdir.*

Açar sözlər: Kitabi-Dədə Qorqud dastanı, qrammatik kateqoriya, feil şəkilləri, analitik forma, köməkçi feil

Ключевые слова: епос Китаби-Дада Горгуд, грамматическая категория, наклонения глагола, воспамагательный глагол, аналитическая форма,

Key words: The Book of Dede Korkut epic, grammatical category, verb`s mood, analytical form, auxiliary verbs

Kitbabi-Dədə Qorqud dastanı Azərbaycan xalqının tarixən mövcud olmuş məişətini, adət-ənənəsini, düşüncə tərzini, şeriyyatını özündə əks etdirməklə yanaşı dilinin quruluşunu, zaman-zaman inkişaf meyllərinin istiqamətini öyrənmək baxımından da böyük əhəmiyyətə malikdir.

Dastanın dilçilik nöqteyi-nəzəzrindən əhəmiyyəti bir də ondandır ki, o, Azərbaycan dilinin hələ ki tarixə məlum olan ilk yazı nümunəsidir. Məhz buna görədir ki, ədəbi dilimizin, xüsusilə şifahi ədəbi dilimizin (dastanın yazıya alındığı dövrdə Azərbaycan dilinin yazı

norması formalaşmamışdır) tarixən struktur xüsusiyyətlərini əks etdirməsi baxımından dəyərli abidədir.

Varlığın sübutu olan hərəkət, hal, proses bildirməsinə görə fellər dünya dillərində olduğu kimi Azərbaycan dilində də nitq hissələri arasında xüsusi çəkiyə malikdir. Nitqin ən mütəhərrik elementi kimi dilin strukturunda ümumi inkişaf fonunda zamanla ən çox dəyişən nitq hissəsinin də feil olduğunu tərəddüdsüz söyləyə bilərik.

Dilimizdə (istər yazılı, istərsə də şifahi) işlədilən elə fellər vardır ki, onların tarixən işlədilmiş variantları bu günümüz üçün arxaikləşmiş hesab olunur. Bu baxımdan Kitabi-Dədə Qorqud dastanındakı analitik feli konstruksiyaları da forma və məzmun yönündən maraqlıdır.

Dastanda işlədilən analitik feilformalarından biri **-a bilmək** formalı konstruksiyalardır: *Bir yigidin Qaradağ yumrısınca malı olsa, yığar dirər, tələb eylər, nəsibindən artığın* ***yeyə bilməz (D4)*** *–Sərb yürürkən qazlıq ata namərd yigit* ***binə bilməz (D5)****. Necə ki bu duşu gördüm, şumdan bəriıqlim-uşum* ***dirə bilmən****.(D43) Qalanısın* ***yora bilmən****, Allah yoesun dedi.(D43) və s.*

Burada **–a bilmək** elementi köməkçi element səciyəsindədir. *Bilmək* feli müstəqil mənalı feil kimi işlədilə bilir (*məsələn, Elə isə onu* ***bilməlisən*** *ki, Rey Azərbaycan Atabəylərinin əlində olmazsa Həmədanı saxlamaq mümkün deyil, ...* (M.S.Ordubadi)), analitik formada isə qrammatik mənanın dəqiqləşməsinə xidmət edir. Onun qoşulduğu feil isə analitik formanın ifadə etdiyi lüğəvi mənanı əks etdirmək surətilə əsas hesab edilməlidir.

Dilçiliyə dair yazılmış elmi əsərlərdə **-a bilmək** forması felin ***bacarıq şəkli*** olduğu bildirilir. [1; 2] Bu şəklin felin bütün zamanları, bütün şəxsləri və bütün şəkilləri ilə işlənə bildiyi qeyd edilir. [2, 228] Bəzən quruluşca mürəkkəb [2], bəzən də analitik forma olduğu göstərilir. [1] Formanın quruluşu ilə bağlı qeyd edək ki, kombinasiyanın tərəfləri arasında münasibətlərin realizasiyası mürəkkəb sözlərdə olduğu kimi deyildir. Buna görə də **-a bilmək** konstruksiyası analitik forma hesab edilməlidir.

Konstruksiyanın ifadə etdiyi məna ilə onun (konstruksiyanın) tərkibinə daxil olan əsas felin tək başına ifadə etdiyi qrammatik məna arasında fərq çalarları vardır. Belə ki, məsələn, *yeməz* dedikdə feldə göstərilən iş, hal, hərəkətin subyekt (icraçı şəxs) tətəfindən reallaşdırılmasının mümkünlüyü, ancaq hər hansı səbəblə icra edilmədiyi ifadə olunur. Yəni burada subyektin "işin" öhtəsindən gəlib-gəlməməsi mövzu bəhsi deyil. Ancaq *yeyə bilməz* dedikdə subyektin feildəki hərəkəti icara edib-edə bilməyəcəyi məlum deyil, lakin icra edə bilməyəcəyi düşünülür. Başqa deyişlə, əsas feil tək başına işlədildikdə danışan şəxs subyektin feildəki hərəkəti icra edəcəyindən əmindir, analitik formada (bacarıq şəkilndə) işlədildikdə isə hərəkətin icar olunub-olunmayacağıdan əmin deyil.

Ancaq, zənnimizcə, **-a bilmək** analitik formasının məzmunu ona verilən adla – bacarıq şəkli adı ilə, uyğunluq təşkil etsə də, digər tərəfdən onu feil şəkillərindən biri kimi adlandırılması sual yaradır. Çünki hər hansı felin şəklinin formal əlamətini qəbul etmiş söz (feil) eyni zamanda digər şəkilinin morfoloji əlamətini qəbul etmir. Yəni bir feil eyni vaxtda iki feil şəkilin şəkilçisini qəbul etmir. Ancaq **-a bilmək** konstruksiyası felin şəkillərinin morfoloji əlamətlərini qəbul edir. Buna görə də formanın felin şəkillərindən biri kimi (felin bacarıq şəkli) adlandırılması şərti xarakter daşıyır.

-a bilmək analitik konstruksiyası felin şəkil kateqoriyası üzrə təsrifləndikdə kateqoriyanın morfoloji əlamətləri formanın köməkçi elementinə əlavə edilir.

Felin əmr şəklini ifadə etmək üçün heç bir xüsusi şəkli əlamətdən istifadə edilmir, əmrin hansı şəxsə aid olmasını bildirmək üçün yalnız şəxs şəkilçilərindən istifadə edilir: [2] *yaza bilim, yaza bilsin, yaza bilək, yaza bilin, yaza bilsinlər və s.* Qeyd edək ki, **- a bilmək** tipli konstruksiyaların felin əmr şəklində II şəxsin təkində işlədilməsi xarakterik deyidir.

Bu analitik konstruksiya formal olaraq əmr şəklində işlədilsə də məzmununda arzu, istək çalarları varırdır: *Kaş yaza bilim (bilsin, bilək, bilsinlər, biləsiniz) və s.*

Arzu şəklində işlədildikdə: *oxuya biləydim, oxuya biləydin, oxuya biləydi, oxuya biləydik, oxuya biləydiniz, oxuya biləydilər və s.*

Vacib şəklində işlədildikdə: *oxuya bilməliyəm, oxuya bilməlisən, oxuya bilməlidir, oxuya biləliyik, oxuya bilməlisiniz, oxuya bilməlidirlər və s.*

Şərt şəklində işlədildikdə: *oxuya bilsəm, oxuya bilsən, oxuya bilsə, oxuya bilsək, oxuya bilsəniz, oxuya bilsələr və s.*

Lazım şəklində işlədilməsi: *yaza biləsiyəm, görə biləsiyəm və s.* Qeyd edək ki, konstruksiyanın bu şəkildə işlədilməsi ədəbi dilimiz üçün intensiv deyildir. Ancaq Şimal-qərb dialektlətində danışıq dili üçün səciyyəvi xarakter daşıyır.

Bu analitik konstruksiya felin digər şəkilləri ilə müqayisədə daha çox xəbər şəklində işlədilir. Bilindiyi üzrə, əmr şəkli kimi xəbər şəklinin də xüsusi morfoloji göstəriciləri yoxdur, zaman və şəxs şəkilçiləri vasitəsi ilə ifadə olunur. [2, 211]

İstər müasir mətinlərdə, istərsə də Kitabi-Dədə Qorqud dastanında **–a bilmək** analitik formsının felin xəbər şəklində işlədilməsi kifayyət qədərdir: *Xudbinlik, iddialılıq, təkəbbürlülük və sərtlik kimi qüsurlu əxlaqi xüsusiyyətlər heç bir zaman ona yaxın* ***düşə bilməmişdir***. (N.Cəfərov "Könülərdən könüllərə Mövlana") *Lakin bu xəbər xalqı* ***tərpədə bilmədi;...*** *Sən getməsən də Atabəy Cənubi Azərbaycanı səfərbərliyə* ***ala bilər***. *Zəmanə bu məhvər üzündə uzun zaman* ***davam edə bilməyəcəkdir***. (M.S.Ordubadi) *Bir yigidin qara tağ yumrısınca malı olsa, yığar-dərər; tələb eylər, nəsibindən artuğın* ***yeyə bilməz***. *[3,31] Sarb yürürkən Qazlıq ata namərd yigid* ***binə bilməz,*** *binincə binməsə yeg! [3,32] "Bu qızı istəməgə kim* ***vara bilür?****"[3,55] Necə ki, bu düşü gördüm, şundan bəri aklım ussum* ***dərə bilmənəm***. *Qalmısın* ***yora bilmənəm****, Allah yorsun!-dedi*

Maraqlıdır ki, Kitabi-Dədə Qorquda dastanında **–a+bilmək** konstruksiyalı feillər ancaq inkarda işlədilmişdir.

Onu da qeyd edək ki, bu tip analitik feillərin işlədilmə intensivliyi dilin sonrakı inkişaf mərhələsində daha çox vüsət almışdır. Bu da ondan irəli gəlir ki, insan təfəkkürü inkişaf etdikcə müxtəlif hal və vəziyyətin ifadəsi üçün müxtəlif strukturlar yaranmışdır.

Yuxarıda göstərilən nümunələrdən də anlaşıldığı kimi felin inkarlıq kateqoriyasının şəkli əlaməti konstruksiyanın ikinci – köməkçi elementinə əlavə olunur: *düşə bilməmişdir, tərpədə bilmədi, dərə bilmən, dərə bilmən və s.*

Ancaq burada bir müansa da diqqət yetirmək lazımdır. Belə ki, abidədən fərqli olaraq müasir ədəbi dilimizdə inkarlıq morfoloji əlaməti konstruksiyanın birinci - əsas elementinə də artırıla bilər: *yazmaya bilər, oxumaya bilərik və s.* Burada bu iki forma arasında qrammatik-semantik fərq vardır; müvafiq olaraq birinci halda qrammatik subyektin işi icra edə bilmədiyi ifadə olunursa, ikinci halda işi icra etməməyi bacaracağı, belə demək mümkünsə, işi icra edib, etməməyin qrammatik subyektin iradəsindən asılı olduğu bildirilir.

Analitik forma şəxs və zaman kateqoriyasına görə təsrifləndikdə də morfoloji əlamətlər iknar kateqoriyasında olduğu kimi **bilmək** köməkçi felinə əlavə olunur: *yaza bildim, yaza bilirəm, yaza bilərəm, yaza biləcəyəm; oxuya bildin, oxuya bidirsən, oxuya bilir, oxuya bilirlər və s.*

Analitik formanın təsirli və yaxud təsirsiz olması onun tərkibindəki əsas felin hansı növ feil (təsirli yaxud təsirsiz) olmasından asılıdır. Bu kateqoriyanın müəyyənləşdirilməsində köməkçi feil əsaslı rola malik deyil: *yaza bilmək* – təsirli; *gülə bilmək* – təsirsiz

Maraqlıdır ki, felin yuxarıda sadalanan kateqoriyalarından fərqli olaraq növ katqoriyasının morfoloji əlaməti konstruksiyanın əsas elementinə artırılır.

Bilindiyi kimi, felin məlum növünün xüsusi əlaməti yoxdur. [2, 178] Buna görə də şəxsə görə təsrifləmiş analitik forma felin məlum növündə hesab edilməlidir: *yaza bildim, gələ bildin, oxuya bilik, gedə bilərsiniz və s.*

Məchul növ fellərin göstəricisi hesab edilən *–ıl*[4], *-yıl*[4], *-ın*[4], *-n* şəkilçiləri, qeyd etdiyimiz kimi, birinci - əsas tərəfə artırılır: *velilə bilmək, oxuna bilmək, yazıla bilmək və s.*

Analitik felin qayıdış növdə işlədilməsi tərkibindəki əsas felin lüğəvi mənasından asılı olur: *Əsgər irəli at+ıl+a bildi*. və s.

Qayıdış növdə olduğu kimi qarşılıq-birgəlik növdə işlədilməsi də əsas felin lüğəvi mənası ilə bağlı olur: *yaz+**ış**+a bilmək, döy+**üş**+ə bilmək, salamla+**ş**+a bilmək, halallaş+a bilmək və s.*

İcbar növdə: *yazdıra bilmək, oxutdura bilmək, yatırda bimək və s.*

Kitabi-Dədə Qorqud dastanında **...a bilmək** analitik formalı felin sintetik adekvatı da işlədilir: *Adəmilər əvrəni yoldaşına qıyamadı. [3, 83] Altı qatla Oğuz vardı, alımadı (a›ı), "Qazanı sancam", dedi, sancamadı, ötə keçdi. [3, 121]*

Bu faklara əsasən Azərbaycan dilində dilin mofoloji quruluşnun inkişaf meylinin sintetizmdən analitizmə inkişaf edir.

Qeyd edək ki, sözü güdən analitik formanın sintetik adekvatının işlədilməsinə dastanda ancaq inkar variantlarda rast gəlinir. Təsdiq formasının olmaması artıq VII əsrdə Azərbaycan ədəbi dilndə sözügedən kateqoriyanın ifadəsində sintetiklikdən analitizmə keçid mərhələsinin başa çatdığını göstərir.

Bu sintetik formanın işlədilməsi müasir Azərbaycan ədəbi dilində mövcud olmasa da, diallektlərdə buna kifayyət qədər rast gəlmək olar: *oturammadım, gələmmədim* və s. [4, 135; 5,..]

Müqayisə üçün deyək ki, müasir türk ədəbi dilində bu formanın sintetik variantının işlədilməsi xarakterikdir [6, 45] və eyni ilə Kitab-i Dədə Qorqud dastanında işlədildiyi formada işlədilir: *yazamadı, gelemedi, göremedi, gülemedi, bilemedi və s.*

Kitabi-Dədə Qorqud dastanında işlədilən analitik qəliblərdən bir digəri **–a**[2] **+ durmaq** formasıdır. Bu forma ilə işlədilən analitik formalar felin tərz kateqoriyasının, daha doğrusu, davamlı tərzin ifadəsi zamanı istifadə olunur.

*Haq yandıran çırağın **yana dursun.** Dirsə xanın oğlancığı qaçamadı, ağ meydanın ortasında **baqa durdu.***

Bu analitik konstruksiya eyni zamanda felin arzu şəklinin ifadə üsullarındadır. Köməkçi feil mövqeyindəki "durmaq" sözü dessemantikləşərək davamlı tərzin, dolayısı ilə, qramatikalizasiyanın ifadəsinə xidmət edir. Konstruksiyanın məna yükünü **–a+durmaq** qəlibinin əlavə edildiyi "əsas" feil daşıyır.

Sözügedən analitik formalı feillərin müasir Azərbaycan əbəbi dilində işlədilməsi xarakterik deyildir. Canlı danışıq dilində işlədilməsi isə daha çox konstruksiyanın məzmununa (arzu-istək) uyğun olaraq alqış və qarğışlarala bağlıdır.

-a+durmaq analitik konstruksiyasının felin şəkillərində işlədilməsi:

Felin əmr şəklində ilşlədilməsi nümunədə göstərildiyi kimdir. Formaca əmr şəkilində olsa da, məzmunca arzu, istək bildirir.

Vacib və şərt şəklində işlədilməsi (məsələn, yana durmalı və ya yana dursa) xarakterik deyildir.

Arzu şəklində: *yana dura*. Bu formanın işədilməsi forma və məzmun cəhətdən düzgün olsa da, qeyri-intensiv xarakter daşıyır. Demək olar ki, işlədilmir. Feilin arzu şəklinin ifadəsi şəkli Kitabi-Dədə Qorqud dastanında **–sa+dursa** qəlibli analitik forma ilə də ifadə olunur: *Mənim dəxi oğlum olsa, xan Bayandurun qarşusunu **alsa dursa.....***

Daha doğrusu, bu analirik qəlib "arzu, istək" edilən iş, hal və hərəkətin "davamlılığını" bildirir.

Davamlı tərzin dastanda ifadə formalarından biri də ***-a+qalmaq*** qəlibi ilə düzələn analitik feillərdir: *Bazirganlar ardından* ***baqa qaldı.*** *Həqq-Təalanın əmri ilə Dəli Qocarın əli yuqarıda* ***asılı(a) qaldı. və s.***

Durmaq köməkçi feli, feli tərzin, daha doğrusu, davamlı tərzin ifadəsi üçün digər feillərlə də işlənərək analitik konstruksiyalar əmələ gətirir. Belə analitik daha çox – ***ıb+durmaq*** qəlibi ilə formalaşır. Bu feillər müəyyən zaman çərçivəsində, lakin keçmiş zamanda hərəkətin müəyyən müddətə davamlılığını ifadə edir: *Baqdı gördü kəndünün dəniz qulunu Boz ayğır bunda otlub durur. Oğlu Uruz qarşusunda yay(a) söykənib dudur.*

Dastanda *durmaq* elementi ilə əmlə gələn birləşmələrdə hər iki komponent (feil) eyni zaman şəkilçisini qəbul edir: *Ağ meydanın ortasında* ***baxdı durdu.*** *Bən bunun alnına niyə* ***tayaq olubən durayın****-dedi.* Qeyd edək ki, *durmaq* feli dildə danışıq aktını əks etdirmək məqamında işlədildikdə əmələ gələn birləşmə analitik feil hesab edilməməlidir. Yəni *durmaq* feli tərz kateqoriyasının ifadəsinə xidmət etmədikdə konstruksiya analitik feil olmur. Bu daha çox konteksin ümumi semantakisından anlaşılır.

Kitabi-Dədə Qorqud dastanında *-ı*^{4}*+vermək*, qəlibi ilə əmələ gələn feillər hərəkətin anidən, bir an içində baş verib bitməsini bildirən tərz kateqoriyasını ifadə edir: *Şökli Məlikə səni ilətəlüm, sana bəglik* ***alı verəlim.*** *Çoban bir ağaca sara-sara möhkəm bağladı, eylendi,* ***yürüyü verdi.*** *və s.*

Müasir türk əbəbi dilində feil kökünə və ya başlanğıc formasına *–a/-e+vermək* əlavə edilməklə düzələn konstuksiya eyni məqamda işlədilir: *alıvermek, bakıvermek, yapıvermek, anayıvermek.* [7; 1559]

Kitabi-Dədə Qorqud dastanında işlədilən analitik konstruksiyalardan biri də qeryri-qəti gələcək zaman morfoloji əlaməti ilə *olmaq* felin köməyi ilə yaradılan *-ar*^{2}*+olmaq* konstruksiyasıdır. Qeyd edək ki, konsruksiyanın semantik cəhətdən fərqlənməyən qəti gələcək zaman şəkilçli variantı da *(-ır*^{4}*+olmaq)* dastanda işlədilmə tezliyi genişdir. Ümumiyyətlə, bu tip analitik feillərin dastanda işlədilmə intensivliyi digərlərinə nisbətdə çoxdur: *Çağırdılar Dədəm Qorqud* ***gəlir oldu****. Boyu uzun bədöy at vergil,* ***binər olsun****, hünərlidir. Çigni quşlu cübbə-don vergil, bu oğlana* ***geyər olsun,*** *hünərlidir. Atının cilavsın döndərdi ordusuna* ***gəlir oldu****. Nə Qazlıq dağı aqar sənin suların, Aqar ikən,* ***aqmaz olsun.*** *Nə bitər sənin otların Qazlıq dağı, Bitər ikən,* ***bitməz olsun.*** *Qaçar sənin keyiklərin Qazlıq dağı, Qaçarkən* ***qaçmaz olsun****, daşa dönsün.Oğlan ata binər, qılıc* ***qurşanar oldu.****Yarımasın-yarçumasın bu çoban bizim həpimizi* ***qırar olamı****?-dedilər, durmayıb qaçdılar. Bu gəz oğlan şərab içərkən* ***içməz oldu.*** *Altun əyaqi əlindən yerə çaldı. Qarşı yatan qarlı dağdan* ***aşar olsa****, Allah Təala ona aşıt versin. Qanlı-qanlı sulardan* ***keçər olsa*** *keçit versin. Qız-gəlini qas-qas* ***gülməz oldu****. Qızıl qına əlinə* ***yağmaz oldu****. Beyrəyin atası, anası baqdı gördü kim, gərdək* ***görünməz olmuş****. Banıçiçək Yalançı oğlu Yaltacığa* ***varar olmuş****. Tanrı mənə yol verdi,* ***gedər oldum.*** *Yalançı oğlu Yataqcuq deyərlər, ölüsü xəbərin gətirdi, adaxlısın ona* ***verər oldular****.* ***Sorar olsam*** *yaylaq kimin? və s.*

Nümunələrdən də göründüyü kimi **–ar**^{2}**/-ir**^{4}**+olmaq** konsruksiyalı analitik feillər feilin müxtəlif qrammatik kateqoriyalarında işləndikdə qrammatik morfoloji əlamətlər bir qayda olaraq *olmaq* köməkçi felinə artırılır. Bu tip analitik konstruksiyanın ümumi semantikası felin vacib şəklinin ifadə etdiyi mənaya uyğun gəlir. Bilindiyi kimi felin vacib şəkli məzmunca gələcək zamanla bağlı olur. İş, hal, harəkətinin nitq aktının gerçəkləşdiyi zamana nisbətdə hələ baş vermədiyini, gəlcəkdə icra edilmək məcburiyyətində olduğunu bildirir.

Olamq köməkçi feili keçmiş zaman şəkilçilərini qəbul etdikdə (*verər oldular, varar olmuş, gülməz oldu, içməz oldu, gəlir oldu və gəlir oldu və s.)* iş, hal, hərəkətin keçmiş zamanda icarasının "vacibliyini" bildirir.

Dastanda bu tip analitik feilin "əsas" tərəfində gələcək və keçmiş zamana aid olan morfoloji əlamətlərlə formalaşan konstruksiyalar (*Əgər səni hasardan urğanla* ***sallandıracaq olursam****, babana, anana* ***varacaq olarsan****....,* ***gətirməyəcək olursan*** *gözimə görünməyəsən, Bin də qoç diləyibdir qoyuna* ***girməmiş ola****, ... bin dəxi buğra dilədi kim maya* ***görməmiş ola*** *və s.*) indiki zaman şəkilçisi ilə formalaşan tiplərinə nisbətdə daha az istifadə edilmişdir.

Bu analitik formanın inkarı inkarlıq göstəricisinin, adətən, birinci tərəfə artırılması ilə düzəlir. Dastanda ***–ar²+olmaq*** qəlibi ilə yaranan analitik feillərin inkarı geniş dairədə işlədilsə də, ***-ır⁴+olmaq*** qəlibi ilə əmələ gələn formaların inkar forması istifadə olunmur.

Kitabi-Dədə Qorqud dastanlnda ***–ar²+olmaq*** konstruksiyalı analitik feillərin *mı⁴* sual ədatları ilə işlədilməsində fərqli nüanas müşahidə edilir. Belə ki sual ədatı *olmaq* köməkçi felinə əlavə edildikdə sual məzmunu (*Yarımasın-yarçumasın bu çoban bizim həpimizi* ***qırar olamı****?),* əsas tərəfə əlavə edildikdə ritorik sual məzmunu (*Ərəbi atlar olan yerdə, Bir qulunu* ***olmazmı olur****? Qızıl dəvələr olan yerdə, Bir köşəgi* ***almazmı olur****? Sən sağ ol, qadın ana, babam sağ olsun, Bir bənim kibi oğul* ***bulunmazmı olur****? – dedi)* ifadə edilir.

Müasir ədəbi dilimizdə sözügedən analitik konstruksiyanın istifadə dairəsi, demək olar ki, daha çox şeir dilindədir.

Kitabi-Dədə Qorqud dastanında feilin inkarlıq kateqoriyası əsasən, *yox* sözünün köməkçi element qismində əsas felə artıtlımasıyla əmələ gələn konstruksiya ilə ifadə olunur: *Mənim də içində binədim var,* ***Qomağım yoğ*** *qırq namərdə. Mərə yigit, mənim atımı kimsə* ***keçdiği yoq,*** *oxumu* ***yardıqı yoq****. Sorar olsan, Beyrək yaylasıdır, Ağam Beyrək gedəli* ***yayladım yoq****, Ağam Beyrək binədidi, Ağam Beyrək gedəli* ***binərim yoq****, Qaralı-göylü otağı sorar olsan, Ağam Beyrək gedəli* ***köçürüm yoq****. Bizə ozan* ***gəldigi yoq****... Buynuzu burma qoçlarımızı* ***aldığı yoq****. And içmişəm qısır qısraqa* ***bindigim yoq****, Qazəvata* ***var****dığım yoq.və s.*

Nümunələrdən də göründüyü kimi *yox* sözünün köməyi ilə yaranan analitik formalar inkarlıq bildirmək surəti ilə məzmunca eyni olsalar da formaca bir qədər fərqlənirlər. Belə ki, *qomağım yoq* iafdəsi *feil+məsdər şəkilçisi+mənsubiyyət şəkilçisi+yox* mexanizmi üzrə funksionallaşdığı halda, *yardıqı yoq, yayladım yoq* ifadələrində *feil + zaman şəkilçisi + mənsubiyyət şəkilçisi +yox* mexanizmi üzrə reallaşır. Bu tip analitik feillər digərlərindən köməçi sözün tam dessemantikləşməməsi ilə fərqlənir. Və yaxud köməkçi sözün leksik mənası ilə konstruksiyadakı qrammatik mənası ilə üst-üstə düşür. Ancaq hər halda konstruksiya üzvlənmiş şəkildə felin qrammatik kateqoriyasının (inkarlığın) ifadəsinə xidmət etdiyi üçün birləşmə analitik feildir.

Dastanda *feil + zaman şəkilçisi + mənsubiyyət şəkilçisi + çoq* mexanizmi üzrə əmələ gələn birləşmələr də var: *Beyrək gedəli Bam bam təpə başına* ***çıqdığım çoq****. Qarqu kibi qara saçım* ***yolduğum çoq****, Güz alması gibi al yanağım* ***yırtdığım çoq****. Gəlanla gedəndən* ***sorduğum çoq.*** *və s.*

Zənnimizcə, bu birləşmələr analitik feil deyil. Buradakı *çox* sözü daha ziyadə kəmiyyət zərfliyidir. Felin heç bir qrammatik kateqoriyasının realizasiyasına xidmət etmir. *Yardıqı yoq=yarmadı; yırtdığım çoq=çox yıtmışam*.

Kitabi-Dədə Qorqud dastanında analitik konstruksiyada felin təsdiq formasının özünəməxsus ifadə forması müşahidə edilir: *-sa²+olmaz Saya varsan* ***tükənsə olmaz*** *Qalın oğuz bəgləri. Saymaqla Oquz bəgləri* ***tükənsə olmaz*** *– həp yetdilər.* Köməkçi feilin tərkibində qeyri-qəti gələcək zamanın inkar şəkilçisi işlədilsə də forma məzmunca təsdiqdədir. *tükənsə olmaz=tükənməz.*

Bu analitik ifadə vasitəsi müasir ədəbi və canlı danışıq dilimizdə müşahidə edilmir. Həm də maraqlıdır ki, bu analitik feillərin eyni qəliblə təsdiq forması əmələ gəlmir.

Dastanda *–maq*^{2}*+gərək* qəlibi ilə felin vacib şəkili ifadə edilir: *Aydır:-bəglər bilirmisiz Qazana necə* ***heyif eyləmək gərək?*** *Boyu uzun Burla xatununu gətirib sığıraq* ***sürdürmək gərək.*** *Mən qırıma varmadan ol mənə* ***baş gətirmək gərək.*** *Məm qara qoç atıma binmədən ol* ***binmək gərək****. Bəli bəs ağ səqqallı baba,* ***evermək gərək****. Çün böylə oldu həman imdi iləri* ***durmaq gərək.*** *və s.*

Müasir dilimizdə bu tip analitik feillər daha çox şeir dilində işlədilir: *Billur buxaq, ayna qabaq gözəlin, Duruban başına* ***dolanmaq gərək****. Bir evdə ki sən tək gözəl olmaya, O ev viran olub* ***talanmaq gərək.***

Kitabi-Dədə Qorqud dsastanında *gərək* köməkçi felinin yardımı ilə düzələn analitik feillərdən biri də *-sa gərək* qəlibi ilə formalaşır. Bu analitik feillərin funksional-semantik məzmunda lazım şəkilinin ifadəsi ilə yanaşı şübhə, güman çalarları da olur: *Xəbəri yoq ki, alacağı ala gözlü qızın otağı* ***olsa gərək****. Köpək qaçan xəbər* ***versə gərək?*** *Su qaçan xəbər* ***versə gərək?***

Dastanda felin özünəməxsus analitik formalarından biri də *–a+varsan* formasıdır: ***Saya varsan,*** *tükənsə olmaz.* Bu forma müasir dilimizə transformasiya olunsa ş ə r t məzmununu daşıdığını söyləyə bilərik. ***Saysan****, tükənməz.*

Bilindiyi kimi, müasir Azərbaycan ədəbi dilində felin əmr şəklinin hər hansı morfoloji gösrəticisi yoxdur. Feil heç bir şəkilçi qəbul etmədən, "saf"halda əmr şəkilndə olur. Kitabi-Dədə Qorqud dastanında əmr şəkli bir qayda olaraq ***–gil/-ğıl*** (incə saitli hecalara artırılarkən *–gil*, qalın saitli hecalara əlavə edilırkən *–ğıl*) şəkilçilərinin əlavə edilməsi ilə formalaşır. Dastanda "əsas" feilə *"-a*^{2}*+görgil"* qəlibi əlavə edilməklə formalaşan felin əmr şəklində feil var: *Qalqubanı yerindən uru durğıl ... av avlayub, oğlını* ***öldürə görgil.*** *Oğlun səni öldürmədən sən oğlunə* ***öldüri görgil****.* Burada "gör" elementi heç bir qrammatikalizasiyanın, dolayısı ilə əmr formasının ifadəsinə xidmət etmir. Buna görə də formaca analitik feillərə oxşasalar da, məzmunca analitk feil deil. Bunlar daha çox parataksis birləşmələr hüsab edilməlidir.

Müaisr türk ədəbi dilində, daha çox danışıq nitqini ifadə etməklə bu qəlibdən istifadə edilir: *Bir kere sevdaya* ***tutulmaya gör,*** *Ateşlerde yandığın resmidir.*

Ola bilsin ki, dilin hansısa inkişaf mərhələsində "gör" elementi birləşmənin tərkibində köməkçi feil kimi çıxış edib və qrammatik mənanın ifadəsinə xidmət edib.

Eyni məzmunlu cümlə dastanda bir başqa yedə "*Saymaqla Oğuz bəgləri tükənsə olmaz"* şəklində işlədilir. Bilindiyi kimi Kitabi-Dədə Qorqud dastanı VII əsrdən çox daha əvvəlki dövrlərə aiddir. Sadəcə, VII əsrdə yazıya alınmışdır. Görünür dastanın qələmə alındığı bu dövrdə *–a+varsan* forması işləkliyini itirdiyi, yerini sintetik adekvatına ötürdüyü dövrə təsadüf edir.

Qeyd edək ki, dastanda elə feillər də işlədilmişdir ki, bunlar ilk baxışdan analitik feil strukturundadır. Lakin analitik feil deyildir. Məsələn, *Dədəm Qorqud boy boyladı, soy soyladı, bu Oquznaməyi* ***düzdi-qoşdu.*** Bu feillərin işlədilməsi sırf üslubu xarakter daşıyır. Görkəmli alim Q.Kazımov bu barədə yazır: *Ümumən hiss olunur ki, sözün arxaikləşməkdə olduğu və ya dini baxımdan aktuallığını itirdiyini duyan kitab onun mənasını yeni söz və ifadələrlə çatdırmağa çalışmış, yenilik çalarlı sinonim vasitələrdən istifadə etmişdir. Əsasən yeni sözü arxaikləşməkdə olana əlavə kimi işlətmiş, bəzən həmin sözdən əvvələ keçirmişlər: "Oğlanın qırq gündə yarası önəldi, sapasağ oldu" "Oğın sağdır-əsəndir, avdadır" Hətta bu mıqamda sözün termin çalarının zəifliyi də sinonimliyə səbəb olmuşdur.* [8; 501]

Kitabi-Dədə Qorqud dastanında *idi, imiş, ikən* köməkçi feillərinin iştiakı ilə geniş əhatəli analitik feil formaları istifadə olunmuşdur: *Qazana **düşmən imişsən**, bildim!-dedi (KDQ); Bizim eldə **gərək idin**, ağac! (KDQ); Sağ yanında Qazan oğlı Uruz **turmış idi** (KDQ); Ol zəmanda bəglərin alqışı alqış, qarğışı **qarğış idi** (KDQ); On altı yıldır ki, Oğuz içindən **getmiş idik** (KDQ); Pasnik qara Dərvənd ağzına **düş vermiş idik** (KDQ); Dəlü Qarçar dəxi ağ ban evini, ağ otağını qara yerin üzərinə **qurdırmış idi** (KDQ); Zira Dədə Qorqud vilayət **issi idi** (KDQ); Məgər Beyrək buna bir kömlək **bağışlamış idi; geyməz idi**, saqlardı (KDQ); Beyrəgi Qara Dərvənddə **öldürmüş idilər** (KDQ)*

Tarixi qrammatika tədqiqatçılarının fikincə, *idi, imiş* yarımçıq feilləri *etmək, olmaq* mənasını verən *«er»* sözü ilə bağlıdır. Müasir ədəbi dilimizdəki *idi, imiş, ikən, isə* yarımçıq feilləri həm də "irmək" (*çatmaq, qovuşmaq*) feilinin ekvivaleni kimi tədqiq edilmişdir: Belə bir inkişaf formulu müəyyənləşdirilmişdir: *erdi//irdi=idi(di[4])* [9; 39, 10; 136, 11; 160, 12; 280] Həmin forma analitik konstruksiyanın tərkibində kateqorial mənasına görə indiki-gələcək zamanı bildirir.

Belə analitik konstruksiyaların sıfır formaları formal cəhətdən nitq rejimi üçün xarakterikdir, şəkilçili formalar isə navrrativ (nəqli) rejimə xas olan əlamətlərdəndir.

Beləliklə, tədqiqat göstərir ki, analitizm demək olar ki, bütün nitq hissələri sahəsində özünü büruzə verir. Ancaq feillərin analitizmi, daha doğrusu, feilin qrammatik kateqoriyalarının analitik ifadə üsulu daha çox müşahidə olunmaqdadır, belə ki, felin zaman, forma və s. kateqoriyalarının ***idi, imiş, isə, ikən*** hissəcikləri (köməkçi sözləri) ilə yaranaraq rəngarəng məna yükünü daşıyan analitik vahidlər yarada bilirlər.

Q.Kazımov indiyə qədərki izahla (*ikənin* izahı ilə) haqlı olaraq razılaşmır. -ikən şəkilçisinin daha düzgün izahına ehtiyac var. ***İkən*** sözü ***er (mək***) feilindən əmələ gəlsə də, artıq feillik xüsusiyyətini itirmişdir. Feili bağlama şəkilçilərinin ikinci komponenti sabitdir, -*ikən* köməkçi sözünün ixtisar şəklindən ibarətdir (-kən). Birinci komponenti isə dəyişkəndir, zaman mənasına görə fərqlənən feili sifət şəkilçilərindən ibarətdir: *-mış+-kən, -ur+-kən, -ar+-kən* [13; 123]

İdi, imiş, isə, ikən köməkçi feillərinin analitik formalar olub-olmaması bəzi tədqiqatlarda mübahisə doğurmuşdur. Bu mübahisəyə son qoymaq üçün belə bir müddəa əsas sayılmışdır ki, dil elementlərinin (o cümlədən *idi, imiş, isə* hissəcikli) analitik forma sayılmasından ötrü birləşmənin qrammatik məna təzahür etdirməsi, birləşmənin içindəki bir dayaq mənaya malik sözün (əsasən) və bir (məna artıq ola bilər) köməkçi sözün olması şərt hesab edilməlidir.

Bilavasitə bu mövzuya ayrıca məqalə həsr etmiş Azərbaycan türkoloqu F.Zeynalov yazır ki, «Qədim abidələrdə (oğuz-səlcuq) analitik yolla yaranan feillərin böyük bir qismi *idi, imiş, ikən* və *isə* yarımçıq feillərinin rəngarəng feil formalarına əlavə olunması ilə ortaya çıxır. Əslində, xalis analitik feillər elə bu yolla yaranan feillər hesab edilməlidir. [18; 3-19]

Ədəbiyyat

1. A. M. Nağdalıyev "Azərbaycan dilinin feilşəkillərində analitizm və onun ifadə şəkilləri" Gəncə Dövlət Univesiteti, I Beynəlxalq Konqrensin materialları Gəncə, 2010
2. M.H.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973
3. Şamil Cəmşidov "Kitabi-Dədəm Qorqud" Bakı – Elm -1999
4. R.Ə.Rüstəmov "Azərbaycan dilinin Muğan qrupu şivələri", AMEA-nın nəşri, Bakı, 1955
5. M. Şirəliyev "Azərbaycan dialektologiyasının əsasları", Bakı, 2010
6. V.Haqtipoğlu "Türkçenin Sözdizimi", Ankara, 1972
7. *Türkçe sözlük 2 K-Z. Yeni Baskı, 1679 səh., Türk Dil Kurumu*

8. Q.Kazımov Azərbaycan dilinin tarixi Ən qədim dövrdən XIII əsrə qədər. İstanbul. TEAS Press Nəşriyat evi 2017, 678 səh.
9. Cavadova M. Şah İsmayıl Xətainin leksikası. Bakı, 1977, s.39;
10. Mirzəzadə H. Azərbaycan dilinin tarimxi qrammatikası. Bakı, 1990, s.136;
11. Seyidov Y. Seçilmiş əsərləri. III cild, Bakı, 2007,s.160;
12. Əzizxan Tanrıverdi. Azərb. dilinin tarixi qrammatikası. Bakı, «Elm və təhsil», 2010, 458s
13. Kazımov Qəzənfər. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı, «Elm», 2019, 608 s.
14. Смирницкий А.И. Аналитические формы. _ «Вопросы языкознания», 1956, № 2;
15. Гухман М.М. Глагольные аналитические конструкции как особый тип сочетаний частичного или полного слова._ «Вопросы грамматического строя». М., 1955;
16. Аналитические конструкции в языках различных типов. М., 1966
17. Zeynalov F.R. Türk dillərində analitik yolla yaranan feil formaları (Oğuz-səlcuq abidələri üzrə). Müqayisəli-tarixi türkologiyanın aktual problemləri. Bakı, 1984.

THE METHOD OF ANALYTICAL EXPRESSION OF THE GRAMMATICAL CATEGORYS OF THE VERB IN THE BOOK OF DEDE KORKUT EPIC AND MODERN AZERBAIJAN LANGUAGE

Valiyev Mahammad Garib

Summary

The Book of Dede Korkut epic is one of the important sources in following of development trends of the ancient Turkic language, including the Azerbaijani language, in addition to reflecting the traditions of the great Turks. In the article are discussed about the methods of analytical expression of the grammatical categories of the verb in the Book of Dede Korkut epic. These analytical constructions were studied in comparison with materials of the modern Azerbaijani language. At the same time, were made comparisons with the modern Turkish literary language. The development of analytical forms from history to the present is noted.

ПРИЕМЫ АНАЛИТИЧЕСКОГО ВЫРАЖЕНИЯ ГРАММАТИЧЕСКИХ КАТЕГОРИЙ ГЛАГОЛОВ В ЭПОСЕ КИТАБИ-ДАДА ГОРГУД И СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Валиев Магомед Гарибович

Резюме

Эпос Китаби-Дада Горгуд является одним из важных источников с точки зрения отслеживания тенденций развития древнетюркского языка, в том числе Азербайджанского языка, помимо отражения традиций великих тюрков. В статье рассматриваются способы аналитического выражения грамматических категорий глагола в эпосе Китаби-Деда Горгуд. Эти аналитические конструкции были изучены в сравнении с материалами современного Азербайджанского языка. При этом проводились сравнения с современным турецким литературным языком. Отмечается развитие аналитических форм от истории к современности.

Rəyçi: əməkdar elm xadimi, f.e.d., professor Qəzənfər Şirin oğlu Kazımov
Azərbaycan dili kafedrasının 07 dekabr 2022-ci il tarixli iclasın 06 saylı protokolu
Daxil olduğu tarix 12 dekabr 2022 –ci il

UOT:82-09.

ƏDƏBİYYATŞÜNASLIĞIMIZDA AZƏRBAYCAN ROMANTİKLƏRİNİN TÜRK ƏDƏBİYYATINA MÜNASİBƏTİNİN ÖYRƏNİLMƏSİ PROBLEMLƏRİ

f.ü.f.d.Yunusova Günel Kamil q.
AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitunun dissertantı
yunusova_edu@mail.ru

Xülasə: *Azərbaycan romantiklərinin əsas fəaliyyət dövrü XX əsrin ilk onilliklərinə təsadüf edir. Azərbaycanda romantizm ədəbi cərəyanının görkəmli nümayəndələri H.Cavid, M.Hadi, A.Şaiq, A.Səhhətdir. "Füyuzat" jurnalı isə bu ədəbi məfkurənin nəzəri müddəalarını yayan ilk milli mətbuat orqanımızdır. İstər bu jurnalın, istərsə də adı çəkilən romantik sənətkarlarımızın türk ədəbiyyatına özünəməxsus münasibəti olmuşdur. Onlar türk ədəbi prosesinə, onun hadisələrinə, ayrı-ayrı ədəbi simalarına isti münasibət göstərmişlər. Həm türk ədəbiyyatından öyrənmiş, həm də onu Azərbaycan ədəbi-mədəni və ictimai mühitində təbliğ etmişlər. Azərbaycan ədəbiyyatşünaslığında deyilən məsələ əhatəli şəkildə olmasa da, müəyyən qədər diqqət mərkəzində olmuş, araşdırılmışdır.*

Bu məqalədə biz ədəbiyyatşünaslığımızda deyilən problemlə bağlı görülən işlərdən danışmışıq. H.Araslı, K.Talıbzadə, M.C.Cəfərov, Ə.Mirəhmədov, Ş.Vəliyev, V.Osmanlı, M.Əlioğlu, A.Abıyev, K.Əliyev, İ.Qəribli və s. filoloq alimlərimizin bu istiqamətdə gördükləri işləri nəzərə çatdırmağa çalışmışıq. Müstəqillik dövründə problemə marağın armasının səbəblərini də izah etməyə səy göstərmişik.

Açar sözlər: ədəbiyyatşünaslıq, XX əsr, Azərbaycan romantikləri, ədəbi mühit, türk ədəbiyyatı, tədqiqat, ədəbi fikir, mətbuat

Ключевые слова: Литературная критика, XX век, азербайджанские романтики, литературная среда, турецкая литература, исследования, литературная мысль, пресса.

Key words: Literary criticism, XX century, Azerbaijani romantics, literary environment, Turkish literature, research, literary thought, press

XIX əsrin II yarısı və XX əsrin ilk onilliklərində Azərbaycan ədəbi-mədəni mühitində Türk ədəbiyyatına ən çox diqqət yetirən qələm sahiblərindən biri Əli bəy Hüseynzadə, mətbuat orqanı isə Əli bəyin nəşr etdiyi "Füyuzat" jurnalı idi. Sovet dönəmində Əli bəy burjua mühərriri, "Füyuzat" isə burjua və pantürkizm ideyalarını yayan zərərli bir mətbuat orqanı kimi qələmə verilirdi. Onları müsbət mövqedən araşdırma obyektinə çevirmək bir növ yasaq mövzular sırasına daxil idi. Ona görə də istər naşir, istərsə də jurnal ədəbiyyatşünaslıqda, əsasən, ya diqqətdən kənarda saxlanılır, ya da daha bədxah niyyətlə xatırladılırdı. Təbii ki, bu qara rənglimüstəvidə Əli bəyin və jurnalın türk ədəbiyyatına münasibəti də yer alırdı. Müstəqilliyimizi əldə etdikdən sonra onlara münasibət də dəyişdi, intensiv və obyektiv şəkil aldı. Filoloq alimlərimiz bu sahədə müsbət və obyektiv tendensiyalı elmi araşdırmalar aparmağa başladılar. Bunlardan Şamil Vəliyevin, Xeyrulla Məmmədovun, Ofelya Bayramlının, Rasim Mirzəyevin, Kəmalə Nəcəfovanın və b.-nın araşdırmalarını göstərmək mümkündür.

Şamil Vəliyevin "Füyuzat" ədəbi məktəbinin tədqiqinə həsr olunmuş iri həcmli monoqrafiyasında jurnalın yaratdığı ədəbi məktəbin xüsusiyyətləri, ayrı-ayrı prob-lemləri, məfkurəsi, ədəbi-bədii materiallardan bir tərbiyə vasitəsi kimi istifadə missiyası, milli ədəbi-mədəni mühitə təsiri və s. çoxsaylı məsələlər barədə dəyərli araşdırmalar aparılır. Burada müəllif həm Əli bəyin, həm də məcmuənin türk ədəbiyyatına və ədəbi-mədəni mühitinə münasibətini də diqqət mərkəzində saxlayır. Məsələn, Əli bəy Hüseynzadənin Abdulla

Cövdət, Məhəmməd Əmin Yurdaqul, yeni ədəbi dil yaratmaq və s. barədə fikrlərini təhlilə cəlb edir. Məcmuənin turançılıq məfkurəsindən, "türkləşmək, islamlaşmaq, müasirləşmək" siyasi-ideoloji triadasından və bunun türk milli-bədii təfəkküründə inikasından, türk ədəbiyyatını və onun ayrı-ayrı şəxsiyyətlərini təbliğindən, Azərbaycan ədəbi dilini "osmanlılaşdırmaq" cəhdindən, mütərəqqi türk ədəbi düşüncəsini milli mühitdə yaymasından və bu düşüncənin Azərbaycan sənətkarlarına təsirindən və s.-dən söhbət açır [23,14-15, 30-31, 77-78, 112-114, 198-200, 237-238, 301-302].

Şamil Vəliyev XX əsr Azərbaycan ədəbiyyatında poeziya problemlərinin tədqiqinə həsr olunmuş digər monoqrafiyasında da Əli bəy Hüseynzadənin Əbdülhəq Hamid, Naci və s. türk şairləri barədə fikirlərini, həmçinin onun Azərbaycan ədəbi dilini "osmanlılışdırmaq" ideyasını təhlilə cəlb edir [24 ,90-91].

Xeyrulla Məmmədov XX yüzilliyin əvvəllərində Azəraycan ədəbi tənqidində Əli bəyin movqeyindən söz açarkan bu mütəfəkkir şəxsiyyətin qəhrəmanının bəzi türk sənətkarlarına münasibətinə də diqqət yetirir [17,63]. Ofelya Bayramlı "Füyuzat" jurnalının latın əlifbası ilə yenidən nəşrinə yazdığı geniş həcmli ön sözdə Əli bəyin və məcmuənin türk ədəbiyyatına münasibətinə qısaca şəkildə toxunmaqla kifayətlənir [8, IV, XVII-VIII].

Rasim Mirzəyev Əli bəy Hüseynzadənin ədəbi-tənqidi görüşlərinin araşdırılmasına ayrıca dissertasiya həsr etmişdir. Dissertasiyada o, bu görkəmli şəxsiyyətin ədəbi-nəzəri baxışlarını geniş şəkildə elmi analizdən keçirmişdir. Burada Əli bəyin türk ədəbiyyatına münasibətinin bəzi konturları da diqqət mərkəzində saxlanılmışdır [19,116-118].

Kəmalə Nəcəfova "Azərbaycan-Türkiyə ədəbi əlaqələri" adlı kiçik həcmli monoqrafiya yazmışdır. Monoqrafiyada o, daha çox AzərbaycanTürkiyə ədəbi əlaqə-lərinin XX əsr mərhələsinə toxunmuşdur. Burada müəllif "füyuzat"çıların bəzi türk sənətkarlarının, xüsusilə də Tofiq Fikrətin yaradıcılığına münasibətini də nəzərdən keçirmişdir [20,6-7].

XX əsrin əvvəllərində Azərbaycan romantikləri milli ədəbi-mədəni gerçəklikdə türk ədəbiyyatı ilə bağlı olan, ona maraq göstərən və ondan bu və ya digər şəkildə bəhrələnən, təsirlənən ziyalı elitasının ön cərgəsində gedirdilər. Bu əlaqənin detalları müxtəlif parametrlərdə, fərqli çalarlarda özünü göstərir: romantiklərimizin müxtəlif məqalələrində, bədii əsərlərində türk ədəbiyyatının müxtəlif məsələlərinə, ayrı-ayrı ədəbi şəxsiyyətlərinə və onların yaradıcılıq örnəklərinə münasibətdə; Türkiyədəki müxtəlif mətbuat orqanlarına, ədəbi-mədəni hadisələrə və faktlara münasibətdə; türk ədəbiyyatının təsiri ilə meydana gələn ədəbi nümunələrdə və s.-də. Ədəbiyyatşünaslı-ğımızda romantiklərin həyat, yaradıcılıq və fəaliyyətlərinin tədqiqi ilə məşğul olan bəzi alimlərimiz deyilən bu məsələyə də bu və ya digər dərəcədə diqqət yetirmişlər. Həmin romantik sənətkarlarımızdan biri Məhəmməd Hadidir.

Həmid Araslı Tofiq Fikrətlə bağlı tədqiqatında onun Azərbaycan ədəbiyyatına, o cümlədən M. Hadi yaradıcılığına təsirindən də yığcam şəkildə danışır. O, əsasən, Hadinin T. Fikrətə həsr etdiyi şeir və qadın azadlığı problemində onunla həmfikir olması məsələsi üzərində dayanır [3,678, 681, 685].

Əziz Mirəhmədov da Məhəmməd Hadiyə həsr etdiyi fundamental monoqrafiya-sında müxtəlif məqamlarda sənətkarın türk ədəbiyyatı ilə bağlılığına toxunur. Məsələn, şairin Namiq Kamalın "Qəsideyi-qərra" şeirinə nəzirəsindən, Cəlaləddin Rumi haqqında yazdığı məqalədən, Əbdülhəq Hamidin "Ölü" poemasının Hadinin "Əlvahi-intibah" poemasına təsirindən, habelə ümumiyyətlə, türk ədəbiyyatının bəzi Azərbaycan sənətkarlarının yaradıcılığına təsirindən söhbət açır [18,44, 144-145, 162-163, 208]. Maraqlıdır ki, Ə.Mirəhmədov sovet dövründə yazdığı tədqiqat əsərində türk ədəbiyyatının Hadi yaradıcılığına müsbət təsir göstərdiyi kımi, həm də mənfi təsirlər göstərdiyini də qeyd edir

[18,54].Əlbəttə, belə bir yanaşmanın səbəbi sovet ideologiyasının diktə və şablonlarından qaynaqlanır.

Vəli Osmanlı, Kamran Əliyev və s. kimi Azərbaycan romantiklərinin yaradıcılığını araşdıran filoloqlarımız da Hadi və türk ədəbiyyatı məsələsinə az-çox diqqət yetirmişlər. V.Osmanlı "Azərbaycan romantikləri" adlı əsərində təxminən iki səhifə Namiq Kamalın M.Hadi yaradıcılığına təsirindən söhbət açır [21, 9-10].K.Əliyev isə Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşlərinin şərhinə həsr etdiyi monoqrafiyasında M.Hadinin türk ədəbiyyatı ilə əlaqəsindən daha geniş şəkildə danışır. Müəllif Hadinin Tofiq Fikrət yaradıcılığına ədəbi-nəzəri baxışından ayrıca söz açaraq onun türk şairi ilə bağlı yazdığı mətbu məqaləsini təhlilə cəlb edir. Eyni zamanda romantik sənətkarımızın "Həyat" qəzetinin səhifələrində işıq üzü görmüş (1906, 20 yanvar) və ədəbi dil probleminə həsr olunmuş "Bəyani-təsəvvür fi xüsusül-lisan" sərlövhəli məqaləsini elmi analizin hədəfinə çevirir. Məqalədə M.Hadinin Azərbaycan ədəbi dilini "osmanlılaşdırmaq" meylini də xüsusi olaraq vurğulayır. Həmçinin onun Cəlaləddin Rumidən etdiyi tərcümə üzərində dayanır [5, 58-59, 75, 183].

Ədəbiyyatşünaslığımızda M.Hadinin həyat və yaradıcılığını öyrənən məhsuldar tədqiqatçılarımızdan biri İslam Qəriblidir. Onun Hadinin yaradıcılıq problemlərinin araşdırılmasına həsr olunmuş coxlu sayda məqalələri və bir neçə monoqrafiyası vardır. Həmin tədqiqatlarında müəllif Hadi yaradıcılığının rəngarəng problemləri ilə yanaşı onun türk ədəbiyyatı ilə bağlılığına da xüsusi diqqət yetirir. "Hadi və mətbuat" monoqrafiyasında şairin Cəlaləddin Rumi, Ziya Paşa, Namiq Kamal, Tofiq Fikrət, Rza Tofiq və s. türk sənətkarlarına münasibətini şərh edir [13, 32, 41, 61, 69, 103, 141, 249, 333, 362, 379]. Digər bir əsərində İ.Qəribli "M.Hadi T.Fikrət irsinin araşdırıcısı kimi" adlı xüsusi bölmə verir. Eyni zamanda N.Kamalın Hadiyə təsiri üzərində dayanır. Şairin Müstafa Sübhiyə həsr etdiyi şeirin üzərində dayanır və şeiri nümunə verir [14,95-100, 125, 188]. İ.Qəriblinin M.Hadinin publisistikasına və poetik tərcümələrinə aid monoqrafiyasında isə şairin Tofiq Fikrət barədə məqaləsi təhlil edilir [15,139-144].

Aydın Abıyevin, Rüstəm Hüseynovun, Kəmalə Nəcəfovanın tədqiqatlarında da M.Hadi və türk ədəbiyyatı probleminin müəyyən detallarına toxunulur. A.Abıyevin dissertasiyasında romantik şairimizin Namiq Kamal, Tofiq Fikrət və s. türk sənətkarları ilə yaradıcılıq əlaqələrinə də diqqət yetirilir [1,250-255, 295, 297-299]. Adını çəkdiyimiz müəllifin başqa bir tədqiqat əsərində də Hadinin türk ədəbi mühiti ilə bağlılığına müəyyən qədər yer verilir [2,77].Rüstəm Hüseynovun "Tofiq Fikrət" monoqrafiyasında şairin türk sənətkarı ilə yaradıcılıq əlaqəsinə qısaca nəzər salınır və onun T.Fikrətə həsr etdiyi şeir bu qüdrətli türk mütəfəkkirinə məhəbbətin nümunəsi kimitəqdim edilir [10,114]. Onu da əlavə edək ki, həmin şeir M.Hadi İstambulda olarkan ilk dəfə "Sərvəti-fünun" məcmuəsində nəşr olunmuşdur. Kəmalə Nəcəfovanın "Azərbaycan-Türkiyə ədəbi əlaqələrinə dair" kitabında da romantik sənətkarımızın türk ədəbiyyatına münasibətinin bəzi detallarından, o cümlədən T.Fikrətin Hadi yaradıcılığına təsirindən söz açılır [20, 10-15, 53-67].

Azərbaycan romantizminin qüdrətli nümayəndələrindən olan Hüseyn Cavid də türk ədəbi-mədəni mühiti ilə sıx bağlı olmuşdur. Məlum olduğu kimi, o, İstambulda ali təhsil almış, buna görə də müəyyən müddət Türkiyədə yaşamış, türk ədəbi və elmi atmosferi onun nəinki dünyagörüşünün, həyata və ədəbiyyata baxışının, hətta dil-üslub elementlərinin formalaşmasına da güclü surətdə təsir göstərmişdir. Cavidin tədqiqatçıları onun yaradıcılığının bədii faktlarını təhlilə cəlb edərkən bu cəhətləri nəzərə almalı olmuşlar. Yəni lazımi məqamlarda sənətkarın türk ədəbiyyatı ilə əlaqə və münasibətinin müəyyən detallarını, nüanslarını xatırlatmışlar.

XX əsrin 20-ci illərində H.Cavidin "Peyğəmbər" pyesini geniş şəkildə təhlil edən Hənəfi Zeynallı dramaturqun bu əsərinə Tofiq Fikrət, Əbdülhəq Hamid, Rza Tofiq kimi ədiblərin təsirindən söz açır [25,43-45].Həmid Araslı "Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı" adlı qiymətli əsərində türk şairinin H.Cavid yaradıcılığına təsirinin bəzi detallarına toxunur [3,682-683]. Akademik Məmmədcəfər Cəfərov "Hüseyn Cavid" monoqrafiyasında tələbəlik illərində Türkiyə ədəbi mühitinin sənətkarın dünyagörüşünə və gələcək yaradıcılıq ruhuna necə təsir göstərdiyini izah edir [4,44-45, 49].Cavid irsinin həssas tədqiqatcılarından olan Məsud Əlioğlu sənətkarın romantizminə Namiq Kamal, Əbdülhəq Hamid, Tofiq Fikrət kimi qələm sahiblərinin təsirinin bədii-estetik siqlətinə diqqət yetirir [7,4-6, 7-8]. Rüstəm Hüseynov Namiq Kamalla bağlı monoqrafiyasında Cavidin bu türk şairinə münasi-bətinə də diqqət yetirir [9,164].

Hüseyn Cavid və Türkiyə ədəbi əlaqələrindən nisbətən geniş şəkildə danışan müəlliflərdən biri də Kamaran Əliyev olmuşdur. H.Cavidin həyat və yaradıcılığına həsr etdiyi monoqrafiyada o, böyük mütəfəkkirin İbrahim Şinasi, Namiq Kamal, Rza Tofiq, Əbdülhəq Hamid, Tofiq Fikrət və s. sənətkarlara münasibətinə də toxunur [6 ,41-42, 49]. Başqa bir məqaləsində isə K.Əliyev yenə həmin mətləbdən söhbət açır [12,250].Hüseyn İsrafilovun bir məqaləsində də H.Cavidin bəzi türk sənətkarlarının yaradıcılığına münasibəti xatırladılır [12,20-21].Allahşükür Qurbanov isə Əbdülhəq Hamidin həyat və yaradıcılığı ilə əlaqəli monoqrafiyasında Hamid və Cavid yaradıcılığı arasındakı bağlılığın elmi şərhinə müəyyən qədər yer verir [16,94]. Şamil Vəliyev "Füyuzat" ədəbi məktəbi" adlı fundamental əsərində Xalid Xürrəm Səbribəyzadənin Cavid yaradıcılığına təsirindən söz açır [23,266-267].Kəmalə Nəcəfova Azərbaycan- Türkiyə ədəbi əlaqələrindən danışarkan Tofiq Fikrət və Cavid yaradıcılığı arasında bağlılığa da düqqət yetirir [20,15-21].

Elmi araşdırmalarda Azərbaycan romantiklərindən Abdulla Şaiqin də türk ədəbiyyatı ilə bağlılığına müəyyən qədər diqqət yetirilmişdir. Doğrudur, deyilnləri kafi hesab etmək olmaz. Çünki bu sahədə aparılan araşdırmalar əhatəli deyil və lazımi mətləblərin hamısını ehtiva etmir. Bununla belə deyilənlər problemin müəyyən detallarının diqqətdən kənarda qalmadığını göstərir. Belə ki, Həmid Araslı 1966-cı ildə Moskvada rus dilində nəşr olunan "Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı" adlı əsərində T.Fikrətin A.Şaiq yaradıcılığına təsiri məsələsinə də ötəri şəkildə toxunur [3, 686-687].A.Şaiq irsinin tədqiqatçısı Yaqub İsmayılov sənətkarın həyatına və bədii yaradıcılığına həsr etdiyi monoqrafiyada onun "Vətən" şeiri ilə Namiq Kamalın "Vətən" şeiri arasında müəyyən müqayisələr aparır, bənzər cəhətləri üzə çıxarır. Həmçinin Şaiqin "Bir quş" şeirinin Mahmud Əkrəm Rəcaizadəyə nəzirə olmasını diqqətə çatdırır və faktın bəzi detallarını izah edir [11,46-47].Aydın Abıyev XIX əsrin II yarısı və XX əsrin əvvəllərində türk poeziyasında satira və onun Azərbaycan satirik şeirinə təsiri ilə bağlı yazdığı dissertasiyasında Mahmud Əkrəm Rəcaizadənin "Bu da bir şeiri-məhzuni-digər" şeirinə Azərbaycan poeziyasında yazılan nəzirələrdən söz açır. Abdulla Şaiqin, Əli Nəzminin, Mirzə Cabbar Əsgərzadənin türk şairinə yazdığı nəzirələri nəzərdən keçirir [1,272-276].Şamil Vəliyev də "osmanlıdakı ədəbiyyati-cədidənin" A.Şaiq yaradıcılığına təsirini diqqət mərkəzində saxlayır və bu barədə məlumat verir [23,283-284].Kəmalə Nəcəfova isə, əsasən, Azərbaycan şairinin Tofiq Fikrətdən hansı dərəcədə və necə bəhrələnməsinə diqqət yetirir [20,21-25].

Ədəbiyyatşünaslığımızda Azərbaycan romantiklərindən Abbas Səhhətin də türk ədəbiyyatı ilə bağlılığına dair müəyyən mülahizələrə rast gəlirik. Bu mülahizələr, əsasən, Həmid Araslı, Kamal Talıbzadə, Aydın Abıyev, Kəmalə Nəcəfova kimi filoloq alimlərimizin əsərlərində özünü büruzə verir. H.Araslı T.Fikrətlə əlaqəli yuxarıda adını çəkdiyimiz elmi araşdırmasında A.Səhhətin öz yaradıcılığında bu qüdrətli türk şairindən bəhrələnməsinə

diqqət yetirir və bəzi faktları sadalyır [3,686]. K.Talıbzadə "Abbas Səhhət" adlı dəyərli monoqrafiyasında türk poeziyasının Azərbaycan romantiklərindən A.Səhhətə və A.Şaiqə təsirindən danışır. Hər iki şairin Mahmud Əkrəm Rəcaizadənin "Yad et" şeirinə nəzirə yazdığını xatırladır və yığcam izahatlar verir [22,187-188, 259]. A.Abıyev dissertasiyasında Xalid Xürrəm Səbribəyzadənin A.Səhhət yaradıcılığına təsiri barədə məlumat verir [1,303-305]. K.Nəcəfova isə T.Fikrət və A.Səhhət yaradıcılığı arasındakı əlaqədən söz açır [20,25].

Sovet dönəmində siyasi-ideoloji baxışlar və basqılr səbəbindən "Füyuzat" kimi "Yeni füyuzat" jurnalı da tədqiqatdan kənarda qalmışdır. Yalnız müstəqillik dövründə oradakı materialların tədqiqinə müəyyən maraq yaranmışdır Şamil Vəliyevin "Füyuzat" ədəbi məktəbi" monoqrafiyasında jurnaldakı türk ədəbiyyatı nümunələrini və türk ədəbiyyatına münasibət problemini təhlilə cəlb etməsi də həmin marağın nəticəsidir [23,130-136].

"Şəlalə"jurnalının səhifələrində də türk ədəbiyyatına fəal münasibətin şahidi oluruq, bu məsələyə diqqət yetirən Şamil Vəliyev olmuşdur. O, öz monoqrafiyasında "füyuzat"çıların ideya-məfkurə davamçıları kimi "Şəlalə" əməkdaşlarının da türk dlinə və ədəbiyyatına münasibətinin bəzi detallarını şərh etmişdir [23,137-142, 277-288].

Beləliklə, deyilənləri yekunlaşdıraraq belə bir nəticəyə gələ bilərik. Azərbaycan romantiklərinin türk ədəbiyyatına münasibəti indiyə qədər ədəbiyyatşünaslığımızda bir kompleks halında öyrənilməmişdir. Bununla belə sovet döründə və müstəqillik illərində problemin müxtəlif detalları, nüansları, ştrixləri ilə əlaqəli müəyyən fikirlər söylənilmiş, elmi araşdırmalar aparılmışdır. Bu fikir və araşdırmalar, əsasən, türk ədəbiyyatının ayrı-ayrı problemləri, ədəbi hadisələri ədəbi şəxsiyyətləri, onların bəzi əsərləri ilə bağlı olmuşdur. Ədəbiyyatşünaslığımızda bu sahədə müəyyəniş görən alimlərdən Həmid Araslının, Məmmədcəfər Cəfərovun, Əziz Mirəhmədovun, Kamal Talıbzadənin, Aydın Abıyevin, Xeyrulla Məmmədovun, Şamil Vəliyevin, Kamran Əliyevin, Rüstəm Hüseynovun, Ofelya Bayramlının, Allahşükür Qurbanovun, Kəmalə Nəcəfovanın və b.-nın adlarını çəkə bilərik.

Ədəbiyyat

1. Abıyev A. XIX əsrin II yarısı, XX əsrin əvvəllərində türk ədəbiyyatında satira və onun Azərbaycan ədəbiyyatı ilə əlaqəsi. Fil. elm. dok. dis.-sı. Bakı, 1996
2. Abıyev A. Bəzi satirik nəzirə və təhzillər. Bakı, Ozan,1999
3. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, Gənclik, 1998
4. Cəfərov M.C. Hüseyn Cavid. Bakı, Azərnəşr, 1960
5. Əliyev K. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı, Elm, 1985
6. Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, Elm, 2008
7. Əlioğlu Məsud. Hüseyn Cavidin romantizmi. Bakı, Azərnəşr, 1975
8. "Füyuzat" jur. (1906-1907). Tam mətni. İkinci nəşr (Ərəb əlifbasından latın əlifbasına çevirən: Bayramlı O.). Bakı, Çaşıoğlu, 2007
9. Hüseynov R. Namiq Kamal. Bakı, Yazıçı, 1990
10. İsmayılov Y. Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı. Bakı, Az. SSR EA nəşri, 1962
11. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, Elm, 1979
12. Qəribli İ. Məhəmməd Hadi və mətbuat (1905-1920). Bakı, Elm və təhsil, 2011
13. Qəribli İ. Mən bir kitab, hər vərəqim min kitabdır. Bakı, Elm və təhsil, 2013
14. Qəribli İ. Məhəmməd Hadinin publisistikası və poetik tərcümələri. 2018
15. Qurbanov A. Əbdülhəq Hamid. Bakı, Elm, 1978
16. Məmmədov X. Azərb. ədəbi tənqidi XIX-XX əsrlərin hüdudlarında. Bakı, ADPU, 1999
17. Mirəhmədov Ə. Məhəmməd Hadi. Bakı, Yazıçı, 1985
18. Mirzəyev R. Əli bəy Hüseynzadənin ədəbi-tənqidi görüşləri. F.e.n. diss., Bakı,1992

19. Nəcəfova K. Azərbaycan-Türkiyə ədəbi əlaqələrinə dair. Bakı, Elm və təhsil, 2011
20. Osmanlı V. Azərbaycan romantikləri. Bakı, Yazıçı, 1985
21. Talıbzadə K. Abbas Səhhət. Bakı, Gənclik, 1986
22. Vəliyev Ş. "Füyuzat" ədəbi məktəbi. Bakı, Elm, 1999
23. Vəliyev Ş. XX əsr ədəbi tənqidində poeziya məsələləri (1895-1917). Bakı, Elm, 2004
24. Zeynallı H. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1983

ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ РОМАНТИКОВ К ТУРЕЦКОЙ ЛИТЕРАТУРЕ В НАШЕМ ЛИТЕРАТУРОВЕДЕНИИ

Юнусова Гюнель Камил кызы

Резюме

Основной период деятельности азербайджанских романтиков относится к первым десятилетиям XX века. Видными представителями литературного направления романтизма в Азербайджане являются Г.Джавид, М.Хади, А.Шаиг, А.Саххат. Журнал «Фююзат» — первое национальное издание, опубликовавшее теоретические положения этой литературной идеологии. И этот журнал, и вышеупомянутые художники-романтики относились к турецкой литературе своеобразно. Они с теплотой относились к турецкому литературному процессу, его событиям и отдельным литераторам. Они оба учились у турецкой литературы и продвигали ее в азербайджанской литературной, культурной и общественной среде. Хотя этот вопрос не является исчерпывающим в азербайджанском литературоведении, он находился в центре внимания и в определенной степени изучался.

В этой статье мы рассказали о работе, проделанной по этой проблеме в нашем литературоведении. Мы постарались осветить работу, проделанную нашими филологами-Г.Араслы, К.Талибзаде, М.Дж.Джафаров, А.Мирахмедов, Ш.Валиев, В.Османлы, М.Алиоглу, А.Абиев, К.Алиев, И.Гарибли и др. в этом направлении. Мы также попытались объяснить причины интереса к проблеме в годы независимости.

PROBLEMS OF STUDYING THE ATTITUDE OF AZERBAIJANI ROMANTICS TO TURKISH LITERATURE IN OUR LITERARY CRITICISM

Yunusova Gunel Kamil

Summary

The main period of activity of Azerbaijani romantics dates back to the first decades of the XX century. Prominent representatives of the literary movement of romanticism in Azerbaijan are H.Javid, M.Hadi, A.Shaig, A.Sahhat. Füyuzat magazine is the first national media outlet to publish the theoretical provisions of this literary ideology. Both this magazine and the above-mentioned romantic artists had a unique attitude to Turkish literature. They showed a warm attitude to the Turkish literary process, its events and individual literary figures. They both learned from Turkish literature and promoted it in the Azerbaijani literary, cultural and social environment. Although this issue is not comprehensive in Azerbaijani literary criticism, it has been in the center of attention and studied to some extent.

In this article, we talked about the work done on this problem in our literary criticism. H.Arasli, K.Talibzade, M.J.Jafarov, A.Mirahmadov, Sh.Valiyev, V.Osmanli, M.Alioglu, A.Abiyev, K.Aliyev, I.Garibli and others. We have tried to highlight the work done by our philologists in this direction. We have also tried to explain the reasons for the interest in the problem during independence.

Rəyçi: dosent Flora Kamran qızı Namazova
MDU-nun Humanitar fənlər kafedrasının 14 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu
Daxil olduğu tarix 06 oktyabr 2022-ci il

UOT:81.

KƏNGƏRLİ RAYON ŞİVƏLƏRİNDƏ DİSSİMİLYASİYA, YERDƏYİŞMƏ HADİSƏLƏRİ VƏ SÖZ KÖKÜNDƏ SAMİTLƏRİN QOŞALAŞMASI

Zülfiyyə İsmayil
AMEA Naxçıvan Bölməsi
Ismayilzulfiyyye@yahoo.com

Xülasə: *Kəngərli rayonu şivələrində müşahidə olunan dissimilyasiya, yerdəyişmə və eləcə də bəzi sözlərin kökündə samitlərin qoşalaşması kimi fonetik hadisələr özünəməxsus səciyyəvi xüsusiyyətlərə malikdir. Belə ki, bu şivələrdə işlənən müvafiq sözlərdə müşahidə etdiyimiz sözügedən fonetik hadisələr zamanı özünü göstərən bir qisim xüsusiyyətlərə dilimizin tədqiq olunan digər dialekt və şivələrində rast gəlmədik.*

Açar sözlər: Kəngərli şivələri, dissimilyasiya, yerdəyişmə, qoşalaşma
Ключевые слова: Кангарлнские акценты, диссимиляция, метатеза, и парные согласные.
Key words: Kengerli accents, dissimilation, metathesis, pairing

Dissimilyasiya samitlərlə bağlı olan fonetik hadisələrdəndir. Bu hadisə eyni məxrəcdən olan iki səsdən birinin digər məxrəcdən olan səslə əvəzlənməsi ilə səciyyələnir. Bu xüsusiyyətinə görə dissimilyasiya hadisəsinin irəli və geri olmaqla iki növü vardır.

Başqa dialekt və şivələrimiz kimi, Kəngərli şivələrində də dissimilyasiya hadisəsi assimilyasiya hadisəsinə nisbətən az yayılmışdır.

İrəli dissimilyasiya

İrəli dissimilyasiyada eyni məxrəcdən olan səslərdən ikincisi başqa səslə əvəzlənir. Bu hadisə, başlıca olaraq, alınma sözlərdə sonor samitlərlə əvəzlənməsi ilə səciyyələnir.

1. r > *l. zərəl < zərər, xəncəl < xəncər (b.k.), mındal < murdar, braqurul < prokuror, tırtıl < tırtır.*

r > *l* dissimilyasiya hadisəsi Lerik rayonu şivələrində də özünü göstərir (2, s. 50)

2. n > *l: ne:liyim < neyniyim* (nə edim?) *(*Qarabağlar, Yurdçu, Xok, Qıvraq, Şahtaxtı) *dəndələ < dəndənə (K.), mancalax < mancanaq, zindal, zincil < zəncir.*

3. m > *b: Hümbət < Hümmət, ümbət < ümmət* (nəsil) [Çalxanqala,Təzəkənd, Yeni Kərki].

4. l > *m: əlbəhəm < əlbəhəl* (o saat) *(*Böyükdüz, Çalxanqala, Təzəkənd, Xıncab*)*.

Geri dissimilyasiya

Geri dissimilyasiya hadisəsi irəli dissimilyasiyadan fərqli olaraq, yalnız öz sözlərimizə aiddir.

1. r > *n: mındar murdar (b.k.).*

2. r > *l: ülkər < hürkər (*Qarabağlar, Yurdçu, Xok,*)*.

3. c > *ş:* c səsi özündən sonra gələn d səsinin təsiri ilə *ş* səsinə çevrilir: *ağaşda (b.k.), kərpişdər < kərpiclər, çəküşdüx' < çəkiclik (ək.k.).*

Sonuncu iki misalda *(kərpişdər, çəküşdüx', oruşdux)* dissimilyasiya hadisəsinə qədər digər bir hadisə də baş vermişdir. Belə ki, -lər, -lik -lük şəkilçilərindəki l səsi özündən əvvəlki c səsinin təsiri ilə *d* səsinə çevrilmiş, sonra isə həmin d səsi c səsini *ş* səsinə çevirərək dissimilyasiya hadisəsini meydana çıxarmışdır.

4. c > *j*. Şəkilçidəki d səsi özündən əvvəlki c səsini dissimilyasiya edərək *j* səsinə çevirmişdir: *bijdix', güjdü güclü, sajdar saclar gijdər.*

Dissimilyasiyanın bu tipi Kəngərli şəhər və ya Yaycı kənd şivələrindən başqa, digər bütün kənd şivələrində müşahidə olunmuşdur. Vicdan sözündə c səsinin *j* səsinə çevrilməsi şəkilçidəki d səsinin yox, məhz kökdəki d səsinin təsiri ilədir; məs.: *vijdan (b.k.).*

c > j dissimilyasiya hadisəsi missallardan da (*vijdan* sözündən başqa) göründüyü kimi, şəkilçilərdəki (-lik, -lü, -lar-lər) l səsinin *d* səsi əvəz olunması nəticəsində meydana çıxmışdır. Başqa sözlə, c səsinin *j* səsinə keçməsindən əvvəl l səsinin *d* səsi ilə əvəzlənməsi hadisəsi baş vermişdir. Sonra isə həmin *d* səsi əvvəlki c səsini parçalayaraq *j* səsinə çevirmişdir – dissimilyasiya etmişdir.

5. ç > *ş*. d səsi özündən gələn qovuşuq ç səsinə təsir edərək onu *ş* səsinə çevirmişdir: *aşdı, qaşdı p^{s}işdi < biçdi, (b.k.) geşdi < keşdi (*Qarabağlar, Yurdçu, Xok*) üşdüx'(ək.k.) // üşlüx // üşlux (Y.).*

ç səsinin d səsini dissimilyasiya edərək *ş* səsinə çevirməsi 3-cü və 4-cü maddələrdəki sözlərin tələffüzündəki vəziyyətlə eynidir. Burada da *d* səsi dissimilyasiya etməzdən əvvəl l səsini əvəz etmişdir.

Yeni kərki kənd şivəsi c > *j* və ç > *ş* hadisəsinə görə digər Kəngərli rayonu şivələrindən fərqlənir. Belə ki, digər şivələrdə d səsi dissimilyasiya edirsə, Yaycı kənd şivəsində isə l səsi özündən əvvəl gələn c və ç səslərinə təsir edib onları j və ya *ş* səslərinə çevirir; məs.: *bijlıx, gijlıx, üşlüx // üşlux, ağaşlıx* və s.

Ümumiyyətlə, Yaycı şivəsində l səsi ilə başlayan bu və ya digər şəkilçilər dissimilyasiyaya uğramır.

6. *n > r: Hərəqırna < hənəqırna* (üzüm növü) *(K.).*

Yerdəyişmə (metateza) hadisəsi söz tərkibindəki səslərin yerlərini dəyişməsi ilə səciyyələnir. Kəngərli şivələrində geniş yayılmış fonetik hadisələrdəndir. Bu hadisə türk dillərində də çox təsadüf edilən hadisələrdən biridir. (10, s. 100).

Kəngərli şivələrində yerdəyişmə hadisəsi məsafəsinə və səslərin cinsinə görə növlərə bölünür. Məsafəsinə görə; a) yanaşı və b) yanaşı olmayan metateza, cinsinə görə samitlə samitin və c) saitlə samitin yer dəyişməsi hadisəsi.

a) Yanaşı yerdəyişmə

Yanaşı yerdəyişmədə yanaşı səslər öz yerlərini bir-biri ilə dəyişir. Bunun aşağıdakı tipləri vardır:

1. *rb(m)* > br: *kirbit < kibrit (*Şahtaxtı, Qabıllı*), Ərbəqunus < Əbrəqunus, Tərbiz < Təbriz, kirmit < kibrit, irba:m < ibrahim, irbətdi < ibrətdi.*

2. *br* > rb(p): *dəbrətmə (dərbətmə) (K.) < tərpətmə.*

3. *yd* > dy: *bayda (ək.k.) < badya.*

4. ğr > rğ: *doğrama < dorğama (Qarabağlar, Yurdçu, Xök) (yemək növü), arğıdım (B.k.) < ağrıdım.*

Bu iki nümunə eynilə Çənbərək və Karvansaray şivələrində də müşahidə olunmuşdur (8, s. 89).

5. *vl* > lv: *şavlar < şalvar (b.k.), əvlan < əlvan (üzüm növü) (K.), havla (b.k.) < halva*

7. ry > yr: *qiryət // qeryətdi < qeyrətli.*

8. fl > lf: *küflət // kiflət < külfət.*

9. rv > vr: *şovra (Y.) < şorba.*

10. vr > rv: *dəvriş, küvrə < kirvə, kivrəngə (Yeni Kərki) < kirvəngə.*

11. pr > rp: *toprax (Təzəkənd, Xıncab) < torpaq.*

12. pl > lp: *ụıplax < ụılpax.*

13. ys > sy(k): *öysürür < öskürür.*
14. sk > ks: *diskindim < diksindim.*
15. rg(y) yr: örgən öyrən, irgənməx' // iyrəmməx' (Y.). iyrənməx.

Burada yerdəyişmə hadisəsilə bərabər y < *g* əvəzlənməsi də baş vermişdir. y samitinin *g* samiti ilə əvəzlənməsi hadisəsi Orxon-Yenisey abidələrində də müşahidə olunur; məs.: *yegirmi < iyirmi, bilmədügin < bilmədiyin, böglə < böylə (belə)* (9, s. 25, 26.).

16. lb > bl: *qilbə < qiblə, qahım-qəlbə < qohum qəblə.*
17.rf > fr: *sırfa < süfrə.*
18. ş(ç)q > qç: *araşqın // araçqın < araqçın.*
19. zq(ğ) > ğz: *vazqal (ək.k.) < vağzal.*
20. hl > lh: *məhləm < məlhəm.*
21. hş > şh: *məhşur < məşhur.*
22. hr > rh: *Fəhrat <Fərhad, səhrəd < sərhəd.*
23. mş > şm: yamşaxlantı < yaşmaqlandı.
24. mr > rm: *dımrıx (b.k.) < dırmıx.*
25. lm > ml: *yelmix' < yemlik.*
26. rv > vr: *Qırvax < Qıvraq.*
27. vh > hv: *əvhal < əhval.*
28. rh > hr: *mərhəba (dəsmal) <məhrəba.*

b) Yanaşı olmayan yerdəyişmə

Yanaşı olmayan yerdəyişmədə sözdəki müxtəlif məsafələrdə (uzaqlıqda) olan səslər bir-biri ilə yerlərini dəyişir. Bu cür yerdəyişmə yalnız samit səslərə aid olub, Kəngərli şivələrində aşağıdakı tipləri müşahidə olunur:

1. *qf* > fq: *Müşqif // Mişqif < Müşfiq.*
2. *hx* > xh: *xeyirhax < xeyirxah.*
3. *nl* > ln: *nə:lət // nəx'lət < lənət.*

Belə yerdəyişmə hadisəsinə Quba dialektində də rast gəlinmişdir (10, s. 100).

4. *mn* > nm: *mindər (ək.k.) < nimdər.*
5. *nm* > mn: *inta:m < imtahan.*
6. *sr* > rs: *fəsərətdi (Y.) < fərəsətli.*
7. *db* > bd: *dabalax (ək.k.) < badalaq.*

c) Samitlə saitin yanaşı yerdəyişməsi

1. *si* > is: *Sirəfil < İsrafil, Sipəndiyar < İspəndiyar, sima:riş (*Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz, Çalxanqala, Təzəkənd*) < ismaric.*
2. *ur* > ru: *Urquya < Ruqiyyə, turba <truba, doğur(deyir) < doğru.*
3. *iş* > şi: *iş̧şəx' (*Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz, Çalxanqala, Təzəkənd*) < şişək.*
4. *ir* > ri: *birqadir (ək.k.) < briqadir.*
5. *ur* > ru: *urf (Qarabağlar) < ruh.*
6. *ür* > rü: *təcürbə (Y.) < təcrübə.*

Söz kökündə samitlərin qoşalaşması "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" (1962) əsərində samitlərin qoşalaşması üç samitlə səciyyələndirilir (1, s. 69, 70). Lakin toplanmış materiallara əsasən Naxçıvan qrupunun tərkib hissəsi olan Kəngərli şivələrində samitlərin qoşalaşması hadisəsini *m, l, ụ, q, v, r, ş, f, s, c, d* səsləri ilə səciyyələndirmək olar.

1. m samitinin qoşalaşması: *hammı (ək.ş), həmməşə (*Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz, Çalxanqala, Təzəkənd*), təmmiz (ək.k.) < təmiz.*

2. l samitinin qoşalaşması: *illaş (*Böyükdüz, Çalxanqala, Təzəkənd*) // illah (*Qabıllı, Yeni Kərki*) // illac (ə.k.), tağallax < tağalax (quru, bərk) (*Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz*), şallax < şalax (ə.k.), yumallamax (*Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz) < *yumalamaq.*

3. ц samitinin qoşalaşması: *qoццax < qoçaq.*

4. q samitinin qoşalaşması: *həqqidən < həqiqətən, oqqədər (* Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz, Çalxanqala*) // oqqədir (Qarabağlar) // oqqədəm (Y.) // oqqədə (*Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz, Çalxanqala, Təzəkənd*), çıqqılı (K.) // dıqqılı (Y.), dıqqəcər (ə.k.), səqqət (Yeni Kərki) // saġġat* (1. invalid; 2. ipinin üstünə odun yığılmayan adam).

Bu cür qoşalaşma Türkiyə türkcəsinin Ərzurum şivələrində geniş yayılmışdır: *şıqqılda* (şıkırda), *heqqet < hakikat* (həqiqət), *seqqer < sakar* (çolaq), *seqqiz < sekiz* (səkkiz) və s. (6, s. 173).

5. v samitinin qoşalaşması: *əvvam // avvam (ək.ş.), zavval (*Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz, Təzəkənd*) < zaval.*

6. r samitinin qoşalaşması: *pirrindaz < pirindaz (ot adı), qarrınqulu < qarınqulu (*Qarabağlar, Böyükdüz, Çalxanqala, Təzəkənd*), hurra (ək.k.)// urra< ura (b.k.).*

Sonuncu nümunə Meğri şivələrində də özünü göstərir (5, s. 158). Bundan başqa, türkmən və çuvaş dillərində bəzi sözlərdə r samit qoşalaşması mövcuddur; məs.: türkmən dilində: qarrı, arrık (3, s. 262); çuvaş dilində: perre (bir), vunna (on) və s. (3, s. 264) .

7. z samitinin qoşalaşması: *əzzəl < əzəl (ək.k.), təzzəcə (*Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz, Çalxanqala, Təzəkənd*) < təzəcə.*

8. t samitinin qoşalaşması: *battax (*Şahtaxtı, Qabıllı, Çalxanqala, Təzəkənd*) < bataq.*

9. c samitinin qoşalaşması: *micci < mici (milçək qurdu), höccət (*Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yeni Kərki, Böyükdüz*) < höcət.*

10. ş samitinin qoşalaşması: *başşağı < başıaşaxı aşşağı < aşağı (otur), qəşşəx' (*Xok, Qarabağlar, Yurdçu Şahtaxtı, Böyükdüz, Çalxanqala, Təzəkənd*) < qəşəng.*

11. f samitinin qoşalaşması: *tiffil, affərim < afərin.*

12. s samitinin qoşalaşması: *qıssa // k'ıssa < qısa, kəssə < kəsə. (X.gah, S., G.dərə, Göy.), ossa:t < o saat (ək.k.).*

Bu samitin qoşalaşması Şəki dialektində geniş yayılmış fonetik hadisələrdəndir (7, s.55)

13. d samitinin qoşalaşması: *Firuddin < Firudin.*

14. h samitinin qoşalaşması: *nəhhər < nəhər (böyük, yekəpər) (Yurdçu, Qarabağlar).*

15. p samitinin qoşalaşması: *qıppıx < qıpıx, koppo:ğlu < köpək oğlu (b.k.).*

16. m samitinin qoşalaşması: *əmmə* (əminin arvadı)*, mökkəm < möhkəm (ək.k.).*

Samitlərin qoşalaşması hadisəsi Anadolu ləhcələrində də geniş yayılmış fonetik hadisələrdəndir. Bu hadisə Şərqi Anadolu şivələri üçün daha səciyyəvidir. Bu da, fikrimizcə, ərazi baxımından Azərbaycan dili dialekt və şivələrinə yaxın olması ilə əlaqədardır: *saġġal < sakal, doġġuz < dokuz, saġġat < sakat, döşşeh, aşşayı < aşağı, uşşah < uşak, küççüh, hammısı, hemmeşe, illaş // illac < ilac* (dərman) və s. (4, s. 131-132.).

Ədəbiyyat

1. Azər. dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı:Azər.SSR EA nəşriyyatı, 1962, 326
2. Binnətova. G. Azərbaycan diliin Lerik rayonu şivələri. Bakı: Nurlan, 2007, 176 s.
3. Дмитриев Н.К. Дойные согласные в тюркских языках. Исследования…, I. Москва: Наука, 1955
4. Ercilasun A. B. Kars ili ağızları (ses bilgisi). Ankara: Türk Dil Kurumu, 2002, 396 s.

5. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2003, 580 s.
6. Gemalmaz E. Erzurum ili ağızları. Ankara: Türk Dil Kurumu yayınları, 1995, 410 s.
7. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı:Azərb. SSR EA nəşriyyatı,1968, 275 s.
8. Kərimov Ş. M. Azər. dilinin Çənbərək və Karvansaray şivələri. Bakı: Nurlan, 2004, 362 s.
9. Quliyev Ə. A. Orxon-Yenisey abidələrində felin təsriflənməyən formaları. Dərs vəsaiti. Bakı: ADPU nəşriyyatı, 1997, 95 s.
10.Rüstəmov R. Azər. dilinin Quba dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1961, 281 s.

ДИССИМИЛЯЦИЯ В КАНГАРЛНСКИЕ АКЦЕНТАХ, МЕТАТЕЗА И ПАРНЫЕ СОГЛАСНЫЕ В КОРНЯХ

Зульфийя Исмаил

Резюме

Диссимиляция, метатеза и процессы парных согласных в Кангарлнские акцентах обнаруживается в некоторых словах. Во время фонетических разборов над собранных материалов и следы эти процессы в других диалектах и акцентах были определены их характерные черты и совместность диалектов.

При исследовании фонетических разборов акцентных материалов, автором выявлены интересные самобытные фонетические законы в акцентах.

EVENTS OF ASSIMILATION, DISSIMLATION, METATHESIS AND PAIRING OF THE CONSONANTS IN THE ROOT OF WORDS IN J KENGERLİ ACCENTS

Zulfiyya Ismail

Summary

Events of assimilation, dissimilation, metathesis and pairing of the consonants in the root of words in Kengerli accents have been observed in the article. During the phonetical investigation of accent materials by the scientific facts it is proved that these events are exist in other accents of Azerbaijan language. But the materials of Kengerli accents have their specific character.

Rəyçi: AMEA-nın müxbir üzvü Ə.A.Quliyev
Daxil olma tarixi 22 dekabr 2022-ci il

SƏNƏTŞÜNASLIQ VƏ MEMARLIQ

UOT:781.

ARİF MİRZƏYEVİN YARADICILIĞININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

Abbasova Svetlana Cəlal qızı
Gəncə Dövlət Universiteti
Saida_nika@yahoo.com

Xülasə: *İnsan varlığının ruhuna hakim olmaq sənəti Arif Mirzəyevə tabe oldu. Məqalədə Azərbaycanın Əməkdar artisti (2011), Azərbaycan və Rusiyanın Bəstəkarlar İttifaqlarının, Leypsiqdəki İ.S.Bax adına Beynəlxalq Musiqi Cəmiyyətinin və Alman-Azərbaycan Forumunun üzvü, bəstəkar, pianoçu Arif Mirzəyevin yaradıcılığı araşdırılır. Arif Mirzəyevin yaradıcılığı həm miqyasca çox geniş, həm də novatorluğu etibarilə əhəmiyyətlidir. Bəstəkar ölkəmizdə müasir musiqinin polistilistikası (çoxüslubluq) üzrə yeganə bəstəkardır. İ.S.Baxın musiqisini və üslubunu dərindən bilən bəstəkar İ.S.Baxın musiqisinin təbliğatçısıdır.*

Açar sözlər: Arif Mirzəyev, bəstəkar, musiqi, simfoniya, yaradıcılıq
Ключевые слова: Ариф Мирзоев, композитор, музыка, симфония, творчество
Key words: Arif Mirzoev, composer, music, simfoniya, creativity

Arif Abdulla oğlu Mirzəyev 10 aprel 1944-cü ildə Bakıda dünyaya gəlib. Bəstəkarlıq sənətinə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (1965) görkəmli bəstəkar Qara Qarayevin sinfində yiyələnib. P.İ.Çaykovski adına Moskva Konservatoriyasında orqan sənətinin nəzəriyyəsi və tarixinə dair staj keçib. Yaradıcılığını pedaqoji fəaliyyətlə birləşdirib.

Arif Mirzəyevin sözlərinə görə o, özünə söz vermişdir ki, mütləq dahi alman bəstəkarı İ.S.Baxın məzarını ziyarət edəcək. Elə bu səbəbdən Almaniyaya yollandı, sonra isə orada həmişəlik qaldı. Amma doğma Bakıya da tez-tez gəlir.

Araşdırmalar göstərir ki, orqan musiqisinə, daha dəqiq Bax musiqisinə olan sevgisi onun Almaniyaya köçməsinə səbəb oldu. Orada polifoniya kimi ciddi musiqi texnologiyası ilə məşğul olmağa qərar verdi.

Qeyd edək ki, son onillikdə Azərbaycan orqan və dini klassik musiqisinin banisi Arif Mirzəyevin əsərləri dünya musiqi mədəniyyəti tarixinə yeni səhifə yazmışdır.

Konservatoriyada oxuduğu illərdə "Sovetski kompozitor" və Muzıka" mərkəzi nəşrləri ilə əməkdaşlıq edib, bir çox əsərlərini dərc etdirib. Onun sözlərinə görə, dəqiq klassik musiqi, yeni üsullar, Qərb polifoniyası və parlaq Azərbaycan musiqisi Moskvanın bəstəkar-professorlarından ibarət olan komissiyanı heyrətləndirib.

Bəstəkara şöhrət gətirən daha bir əsəri 1984-cü ildə yaratdığı məşhur "İ.S.Baxın xatirəsinə orqan simfoniyası" olub. Dahi alman bəstəkarının 300 illiyinə "ornamental-muğam, xoral və polifonik variasiyalar" formasında bəstələnmiş bu simfoniya son 26 il ərzində dünyanın müxtəlif ölkələrində rekord sayda səsləndirilib.

Beləliklə, bu bəstəkara iki monumental əsər yaratmağa imkan vermişdir- Şərqdə ilk dəfə "İ.S.Baxın xatirəsinə orqan simfoniyası" (1984) və dünya musiqi ədəbiyyatında analoqu olmayan 1990-cı ildə Bakı şəhərində faciəli yanvar hadisələrinin qurbanlarına həsr olunmuş xor, orqan, orkestr, kamança və xanəndə üçün yazılmış islam matəm mərsiyələri olan "Yanvar mərsiyələri" (1992). Almaniyada bu iki əsər əsl musiqi nailiyyəti hesab olunmuş, onların müəllifi bəstəkar Arif Mirzəyev isə "İohann Sebastyan Bax Xatirə Gümüş Medalı"na layiq görülmüşdür. Bu medalı ona dahi bəstəkarın vətəni Ayzenax şəhərində "Bax-Hauz"un direktoru, Tyuring Bax Musiqi Cəmiyyətinin Prezidenti doktor Klaus Ofner təqdim etmişdir.

"Sebastyan Bax Medalı" beynəlxalq statusa malikdir. İ.Bax ənənələrini zənginləşdirən və yaradıcılığını təbliğ edən görkəmli bəstəkar və musiqiçilərə, alman klassik polifoniyasının dahisinə həsr olunmuş əsərlərdəki musiqi nailiyyətlərinə görə nadir hədiyyə kimi təqdim edilmişdir. Medal cəmi 1685 ədəd buraxılmışdır (rəqəm İ.S.Baxın anadan olduğu il göstərilmişdir).

Medalın şəhadətnaməsində "0011" rəqəmi göstərilmişdir. Arif Mirzəyev dünyada belə qiymətli hədiyyə almış on birinci musiqiçidir. Bu Neorenessans Şərq və Qərb meditativ və dini musiqinin polistilistikasıdır. Polistilistika onun bütün bəstələrində aydın görünür.

Bəstəkarın "İ.S.Baxın xatirəsinə orqan simfoniyası" (1984) 20 il ərzində dünyanın müxtəlif ölkələrində səsləndirilib. 1986-cı ildə "Orqan simfoniyası"nın Kiyev şəhərinin Orqan zalında premyerasından sonra Ukraynanın orqan məktəbinin banisi professor Arseni Kotlyarevski demişdir: "Bax musiqisi və Azərbaycan musiqisi onun qədim muğamı, iki əsrdən artıqdır bir müddətdə bir-birinə doğru addımlamışdır.

İki böyük musiqi mədəniyyətinin bu görüşü nəhayət baş verdi. Və onun baş verməsinə nadir istedadı və böyük gələcəyi olan bəstəkar kömək etdi. Bu bütün Bax musiqisini, klassik polifoniyasını dərin biliyi ilə məni və bütün dinləyiciləri valeh etmiş azərbaycanlı Arif Mirzəyevdir". Kiyevdəki premyeradan sonra Baxın özünün bir qayda olaraq bütün konsertlərinin birinci hissəsində səslənən dahiyanə hədsiz rəğbətə dözərək "İ.S.Baxın xatirəsinə orqan simfoniyası" konsert zallarında zəfər yürüşünə başlamışdır. Moskvada, Tallində, Minskdə, Leninqradda, Londonda və nəhayət Budapeştdə bütün konsert zallarında səslənən bəstəkarın "Baxın xatirəsinə Şərq orqan simfoniyası"nı dinləyicilər ayaq üstə alqışlayırdılar. "Azərbaycanlı Sebastyan Bax", "Şərq polifonik musiqisinin nəhəng ustası" – azərbaycanlı bəstəkarın ünvanına belə epitetlər səslənmişdir.

Qeyd edək ki, Arif Mirzəyev musiqi polistilistikasında yeni çoxüslubluluq cərəyanının (istiqamətin) banisidir.

"İ.S.Bax dahi alman bəstəkarı, orqan ifaçısıdır. Onun yaradıcılığı qırılmaz surətdə alman xalqının qədim və zəngin mədəniyyətilə bağlıdır. Lakin Baxın yaradıcılığı təkcə Almanya üçün deyil, ümumdünya miqyasda müstəsna əhəmiyyətə malikdir" [2. s. 4].

A.Mirzəyev orqan alətində virtuoz ifaçı kimi şöhrət tapmışdır. O, orqan yaradıcılığında milli ənənələrə əsaslanaraq zirvələrə ucalmışdır.

A.Mirzəyevin əsərləri sərbəst polifonik üslubun zirvəsidir. Bəstəkar musiqidə yeni istiqamətin banisidir.

Mürəkkəb polifonik üsulların ispan motivlərinin və bayramsayağı lirik rəqs ritmləri ilə kəsişdiyi "24 fortepiano üçün prelüd və fuqa" (1966), skripka və fortepiano üçün (sonata anasına həsr edilib), "Leypsiq" (1969), solo orqan üçün Xocalı uşaqlarına "Layla" (1996), solo orqan üçün "Şahzadə Dianaya sarabanda" (1997). Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin əziz xatirəsinə "Dahi Prezidentin ruhuna kədərli dua" əsəri (2004), simfonik orkestr üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 50 illik yubileyinə həsr olunmuş "Təntənəli Fəxri Himn" (2011), solo orqan üçün Nizami Gəncəviyə həsr olunmuş "Adajio-875" (2016), "Üzeyir Hacıbəyli" üçüncü orqan simfoniyası (2008), simli orkestr üçün üçüncü kamera simfoniyası (2008).

2008-ci ilin oktyabr ayında A.Mirzəyev Azərbaycanda alman mədəniyyəti ilini açaraq Bakıda solo orqan konserti verib.

Beləliklə, bəstəkar böyük yaradıcılıq coşğunluğu vəziyyətindədir. İstedadlı həmyerlimiz bəstəkar Arif Mirzəyevin Almaniyada belə böyük bir ehtimal tanınması və onun İ.S.Bax adına Beynəlxalq musiqi cəmiyyətinin fəxri üzvü qəbul edilməsi Azərbaycan mədəniyyətinin nüfuzunu qaldırmışdır.

1994-cü il 4 iyun Bakıda Kamera Musiqi Evində Alman kirxasında Arif Mirzəyevin 50 illik yubileyi qeyd edildi. Xoşbəxtlikdən mən də orada iştirak edirdim. Demək olar ki, Azərbaycanın bütün bəstəkarları və musiqiçiləri orada idilər.

Arif Mirzəyev səhnəyə qalxıb zalda olanları salamladı və minnətdarlığını bildirdi. O dedi: "Ona baxmayaraq ki, mən Almanyada yaşayıram, Azərbaycan mənim döyünən ürəyimdir. Axır nəfəsimə kimi millətimə, Azərbaycan mədəniyyətinə xidmət edəcəyəm". Sonra Arif Mirzəyevin əsərlərindən ibarət möhtəşəm konsert oldu. Konsertdə bəstəkarın fortepiano üçün "Prelüdləri"ni Fərhad Bədəlbəyli, skripka üçün "Leypsiq" sonatasını (anasına həsr edib) Rəsul Abbasov ifa etdilər.

Mən konsertdən sonra Arif Mirzəyevə yaxınlaşıb öz minnətdarlığımı bildirdim. Onunla söhbət əsnasında gördüm ki o necə sadə, təvazökar insandır. A.Mirzəyev mənə avroqrof verdi.

Professor S.Qurbanəliyevanın "Şəxsiyyət və musiqi" adlı kitabında qeyd edir: "Məktəblilərin musiqi tərbiyə işində musiqidən nə qədər mütəşəkkil, müntəzəm, səmərəli və fəal surətdə istifadə olunsa şəxsiyyətin formalaşması prosesi də bir o orjinal üslubunu yarada bilmişdir.

Məktəblilərin musiqi tərbiyəsi və musiqi inkişafında Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı dünya musiqi mədəniyyətinin görkəmli bəstəkarları haqqında məlumatların verilməsi, onların əsərlərindən nümunələrin dinlənilməsi olduqca vacibdir.

Musiqi dərsində musiqi zamanı əsərlərin emosional qavranılmasına diqqət verilməlidir.

Məktəblilər dinlənilən musiqi əsərlərinin mənəvi-estetik məzmununu şüurlu surətdə qavramalıdır [1. s. 45].

Ədəbiyyat

1. Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, 2010, 160 s.
2. Həsənova S. Musiqi tarixindən mühazirələr. Bakı, 2008, 93 s.
3. Qasımova S. Azərbaycan musiqi ədəbiyyatı. Bakı, 2009, 245 s.
4. Zöhrabov R. Bəstəkarlarımız haqqında söz. Bakı, 1995, 83 s.

Rus dilində:

5. Друскин М. История зарубежных музыки. Москва, 1976, 576 s.

Saytoqrafiya

6. www.az. vikipediya.orq.
7. http: // kayzen.az. /blog/ musiqi
8. http: // mk. Musiqi – dunya.az

ОСНОВНЫЕ ЧЕРТИ ТВОРЧЕСТВА АРИФА МИРЗОЕВА

Аббасова Светлана Джалал кызы

Резюме

Искусство овладения духом человеческого бытия было подвластно Арифу Мирзаеву. В статье рассматривается творчество заслуженного деятеля искусств Азербайджана (2011) Арифа Мирзоева, члена Союзов композиторов Азербайджана и России, Международного музыкального общества имени И. С. Баха в Лейпциге и Немецко-азербайджанского форума, композитора, пианиста. Творчество Арифа Мирзоева и очень масштабно, и значительно по новаторству. Композитор является единственным композитором полистилистики (многогранности) современной музыки в нашей стране. Композитор, глубоко знающий музыку и стиль И. С. Баха, является пропагандистом музыки И. С. Баха.

THE MAİN PECULİARİTİES OF THE CREATİVİ WORK OF ARİF MİRZOEV

Abbasova Svetlana Calal

Summary

The art of mastering the spirit of human existence was subject to Arif Mirzaev. The article deals with the work of the Honored Art Worker of Azerbaijan (2011) Arif Mirzoev, a member of the Unions of Composers of Azerbaijan and Russia, the International Musical Society named after J.S. Bach in Leipzig and the German-Azerbaijani Forum, composer, pianist. The work of Arif Mirzoev is both very large-scale and significant in terms of innovation. The composer is the only composer of polystylistics (versatility) of modern music in our country. The composer, who deeply knows the music and style of J. S. Bach, is a promoter of the music of J. S. Bach.

Rəyçi: müəl.Məhərrəmova S.
GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın 2 saylı protokolu
Daxil olduğu tarix 12 oktyabr 2022-ci il

UOT:781.

"ÇAHARGAH" MUĞAMININ MUSİQİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ

Əliyev Əli Sahib oğlu
Gəncə Dövlət Universiteti
polderak@bk.ru

Xülasə: *Məqalə "Çahargah" muğam dəstgahının musiqi-nəzəri, estetik xüsusiyyətlərinin, ifaçılıq məsələlərinin işıqlandırılmasına həsr olunub.*

Açar sözlər: Azərbaycan, muğam, məqam, Çahargah, ifaçı, bəstəkar
Ключевые слова: Азербайджан, мугам, макам, Джахаргях, исполнитель, композитор
Key words: Azerbaijan, muğam, maqam, Chahargah, performer, composer

Dünyada unikal milli musiqi kimi bəşəriyyətin mədəni irsinin qızıl fonduna daxil olan Azərbaycan muğamı əsrlərlə cilallanmış, böyük təkamül və inkişaf yolu keçərək çağdaş günlərimizədək gəlib çatmışdır.

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev Azərbaycana siyasi rəhbərliyinin bütün dövrlərində həyata keçirdiyi mədəniyyət və təhsil siyasətində milli musiqi irsinə, o cümlədən, muğamlara, onu yaşadan və öyrədən sənətkarlara dərin ehtiram və qayğı ilə yanaşmışdır.

Ulu Öndərin milli mədəniyyətin qorunması və inkişafına, tədqiqi və təbliğinə göstərdiyi diqqət və qayğılar Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi "Muğam İrs", "Muğam dəstgah", "Muğam ensiklopediyası", "Muğam internet", "Muğam antologiyası", "Beynəlxalq Muğam mərkəzi" layihələri "Muğam aləmi" beynəlxalq muğam festivallarının və elmi simpoziumlarının,

“Muğam televiziya müsabiqələri”nin keçirilməsi muğam sənətinin qorunması və inkişafına xidmət edir.

Azərbaycan muğam sənətində “Çahargah” muğamı bir janr olaraq, “Çahargah” məqamı isə lad-məqam olaraq mühüm yer tutur. “Çahargah” sözü iki məfhumdan ibarətdir. Çahar – dörd, gah – məkan, yer deməkdir. Başqa sözlə “Çahargah” dördüncü dayanacaq mənasını daşıyır.

Qeyd edək ki, Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin banisi Ü.Hacıbəyli “Azərbaycan xalq musiqisinin əsasları” adlı fundamental elmi-tədqiqat əsərində Azərbaycan muğamlarının əsaslandığı lad-məqamlara həmin muğamın adını vermişdir.

Ü.Hacıbəyli hər bir muğamı bədii-ruhi təsir cəhətdən xarakterizə edərkən “Çahargah”ın həyəcan və ehtiras hissi oyatdığını bildirir [5].

Azərbaycan musiqisində yeddi əsas məqamdan biri olan Çahargah məqamının quruluşunu Ü.Hacıbəyli belə göstərir: 1/2 - 1. 1/2 -1/2 - ton formullu üç bərabər tetraxordun qovuşuq və yanaşı üsullarla (I və II tetraxordlar – qovuşuq, II və III tetraxordlar yanaşı üsülla) birləşməsindən ibarətdir; səssırası 11 pilləlidir, IV pillə mayə (tonika) pilləsidir.

Məqamın səssırasının II, IV, VI, VIII, IX (IX#), XI pillələri istinad-dayaq pilləsi kimi “Çahargah” muğamının şöbələrinin əsasını təşkil edir; bu məqamda qurulan musiqi nümunələri həmin pillələrə əsaslanır. “Do” mayəli çahargah məqamının səssırası:



Azərbaycanda “Çahargah” əsas muğam dəstgahlarından biridir. Bu muğam dəstgah vokal-instrumental şəkildə xanəndələrimiz, instrumental şəkildə isə milli çalğı alətlərində tarzən, kamança çalanlar tərəfindən böyük şövqlə ifa edilir.

Məlum olduğu kimi, muğam sənəti özünəməxsus improvizə xüsusiyyətinə malikdir. Bununla əlaqədar hər bir xanəndənin və ya sazəndənin ayrı-ayrılıqda ifaçılıq xüsusiyyəti var. Xanəndələr Ələsgər Abdullayev (1866-1929), Seyid Şuşinski (1889-1965), Əbülfət Əliyev (1926-1990), tarzən Şirin Axundov (1878-1927), kamança çalan Fəxrəddin Dadaşov (1950) və bir çox digər muğam ifaçıları “Çahargah” muğamının mahir ifaçıları kimi tanınmışlar.

Muğamın şifahi ənənəyə əsaslanan professioanal musiqi janrı kimi əsrlər boyu inkişaf edərək dövrümüzədək gəlib çatmasında xanəndə və sazəndələrin rolu danılmazdır. Müasir dövrdə muğam sənətinin qorunması, tədqiqi və gələcək nəsillərə ötürülməsi üçün muğamların səs və not yazıları mühüm əhəmiyyət daşıyır. Bu baxımdan muğamların həm vokal-instrumental, həm də instrumental ifa variantlarının səs və not yazılarında əks olunması muğamın ifaçılıq variantlarının təhlilinə, musiqi dilinin öyrənilməsinə əlverişli şərait yaradır.

Professor R.Zöhrabov “Azərbaycan muğamları” adlı kitabında haqlı olaraq yazır: “Çahargah” muğam dəstgahının inkişafı başqa dəstgahlar kimi, eyni adlı lad-məqamda tədricən daha yüksək istinad pillələrini tutmaqla əldə edilir. Bəmdən zilə qədər bu inkişaf prinsipi muğamda qabarıq şəkildə öz təcəssümünü tapır. Onu da deyək ki, “Çahargah”ın oxuma diapazonu “Şur” dəstgahı kimi çox böyükdür – iki oktava yarım. “Çahargah” – parlaq virtuoz, qəhrəmani xarakterli, dərin dramatik məzmunlu bir dəstgahdır” [17, s. 396].

Elmi mənbələr göstərir ki, M.M.Nəvvab öz “Vüzuhül-ərqam” risaləsində “Çahargah” muğamını aşağıdakı şöbə və guşələrə bölmüşdür: “Çahargah”, “Segah”, “Zabul”, “Yeddi hisar”, “Müxalif”, “Məğlub”, “Mənsuriyyə”, “Zəmin-xara”, “Mavərənnəhr”, “Hicazi”,

“Şəhnaz”, “Azərbaycan”, “Əşiran”, “Zəngi-şotori”, “Kərkuki”. Gördüyümüz kimi, M.M.Nəvab burada “Çahargah” dəstgahının tərkibinə digər başqa dəstgahlarında-məqam əsasına uyğun gələn şöbə və guşələrdən istifadə etmişdir.

Bakı muğam məktəbinin görkəmli nümayəndəsi Mirzə Fərəc Rzayevin (1847-1957) muğam cədvəlindəki şöbə və guşələr “Çahargah” məqamına, onun intonasiya xüsusiyyətlərinə qohum olan şöbə və guşələri özündə birləşdirir: “Çahargah”, “Bəstə-Nigar”, “Firuz”, “Manəndi-müxalif”, “Müalif”, “Cövhəri”, “Müxalif” (“Kərimabadı”), “Hasar”, “Gülriz”, “Zirkeş”, “Rubənd”, “Qürrə”, “Müxalif”, “Məğlub”, “Mənsuriyyə”, “Hüzzal”, “Çahargah”.

Məşədi Süleyman Mənsurov (1872-1955) Bakının musiqi məclisindəki “Çahargah” instrumenal muğam dəstgahının quruluşunu belə göstərir: “Çahargah”, “Zabul”, “Müxalif”, “Məğlub”, “Zabul-Ouc”, “Mənsuri”, “Bayatı-türk”, “Bayatı-Qacar”, “Sarənc”, “Zəmin-xarə”, “Zəng-bari”, “Mavəra-ün-Nəhr”, “Hicazi-Əcəm”, “Ləhni-Ərəb”, “Bəstə-Nigar”, “Şüştəri-əsl”, “Şüştəri-Sarənc”, “Şüştəri”, “Şüştəri-Bustan”, “Bazəm Çahargah”.

1925-ci ildə musiqi texnikumu üçün tərtib edilən proqramda “Çahargah”ın tərkibi 11 şöbə və guşədən ibarət verilmişdir: “Maieyi-Çahargah”, “Bali-Kəbutər”, “Bəstə-Nigar”, “Manəndi-müxalif”, “Hasar”, “Qürrə”, “Müxalif”, “Məğlub”, “Mənsuriyyə”, “Hüzzal”, “Müxalif”, “Çahargah”.

1935-1937-ci illərdə Mirzə Mənsur Mənsurov tar üçün tərtib etdiyi tədris proqramda “Çahargah” instrumental muğam dəstgahı səkkiz şöbə və guşədən ibarət idi: “Bərdaşt”, “Mayə”, “Bəstə-Nigar”, “Manəndi-müxalif”, “Hisar”, “Müxalif”, “Mənsuriyyə zərbi ilə”, “Çahargaha ayaq”.

Hazırda “Çahargah” dəstgahı ölkəmizdə aşağıdakı şöbə və guşələrdən ibarət bir dəsgah kimi ifa olunur: “Bərdaşt”, “Mayeyi-Çahargah”, “Bəstə-Nigar”, “Hasar”, “Müalif”, “Qərrə”, “Müxalif”, “Mənsuriyyə”, “Hüzzal”, (“Zərb Mənsuriyyə”) “Çahargaha ayaq”.

“Çahargah” dəstgahının quruluşuna nəzər salaq. “Çahargah” muğamı “Bərdaştla” başlanır. “Bərdaşt” çoşğun xəsiyyətli, cəlb templi, geniş improvizə səciyyəli bir şöbədir. “Çahargah”da da “Bərbaşt” zil registdən başlayıb bəmə düşür və “Mayə” də müvəqqəti yekunlaşır. Sonra isə “Mayeyi” “Cahargah” şöbəsi gəlir. Bu şöbə dəstgahın bünövrəsi sayılır və onun musiqibaxımından inkişafına zəmin yaradır.

“Çahargah” dəstgahında “Bəstə-Nigar” ilk şöbələrdəndir. “Bəstə-Nigar”ın mənası surət, şəkil, gözəl deməkdir. “Bəstə-Nigar”ın musiqisi cazibəli, ahəstə, həzin melodiyalara malikdir. Bu melodiyalar dinləyicini xəyala daldırır, düşündürür.

“Bəstə-Nigar” şöbəsindən sonra “Çahargah” dəstgahında “Hasar”, “Müxalif”, “Qərrə” kimi mərkəz şöbələr ardıcıllaşır.

“Hasar” şöbəsi temperamentli, çoşqun səciyyəlidir. Sanki hücüm xarakterini kəsb edir. Onu da deyək ki, “Hasar” tarın şah pərdəsinə düşür. Şöbənin melodik inkişafı bütünlüklə bu pərdəyə istinad olunur.

“Çahargah” dəstgahının əsas şöbələrindən biri “Müxalif” zidd, uyğunu olmayan mənasını daşıyır. “Müxalif”in oxunub-çalınmasında həyəcan, mübarizlik ruhu da özünü nümayiş etdirir.

Zil registrli “Muxalif”dən daha da zil olan “Mənsuriyyə”yə keçirilir.

“Mənsuriyyə” iki variantda olur. Birinci-sərbəst ölçülü improvizə xasiyyətlidirsə, ikinci-müşayiəti dəqiq ölçüyə əsaslanan orijinal zərb-muğamdır. Hər iki variant “Çahargah”ın ifası zamanı bir-birilə növbələşir.

Qeyd edək ki, “Mənsuriyyə” zərb-muğamının əsas xüsusiyyəti ondan ibarətdir ki, sərbəst ölçülü vokal partiya burada instrumental muşayətin ciddi metrik fonuna əsaslanır.

Bizə "Mənsur" sözünün qələbə çalmış, üstün gəlmiş Mənsur cəngavərin adı ilə adlanması məlumdur. Məhz bu məna "Mənsuriyyə"nin musiqi məzmununun əsasını təşkil edir. Onun musiqisi mərd, qəhrəman, çağırış havasına bənzəyir. Mənsuriyyə: Qələbədir, təntənədir. "Hüzzal"da zəngilələr şaqraq, zəngin və zövnəqli olmalıdır. Bunları ifa etmək üçün xanəndədən həm texniki üsullar, həm də mahirlik və ustalıq tələb olunur.

Ü.Hacıbəyli öz əsərlərində xalqın məzlum vəziyyətini, mübarizəsini ifadə etmək üçün məhz "Çahargah" muğamının intonasiyalarına, "Çahargah" məqamına müraciət etmişdir.

"Çahargah" məqamına əsaslanan musiqi nümunələrini qeyd edək:

Xalq musiqisi

Mahnılar: "Budur, bir cüt qara göz", "Gəl, gəl ay ellər gözəli".

Rəqslər: "Şələxo".

Şifahi ənənəvi professional musiqi

Təsniflər: "Çahargah", "Bəstə-Nigar", "Hasar", "Müxalif".

Rənglər: "Çahargah" ("Mayeyi-Çahargah", "Müxalif", "Hasar", "Bəstə-Nigar").

Muğamlar: "Çahargah".

Zərbi muğamlar: "Mənsuriyyə".

Azərbaycan bəstəkarlarının əsərləri

Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasından Məcnunun atasının ariyası; "Koroğlu" operasından: kəndlilərin xoru "Bu gözəl təbiət"; "Cəngi" pyesi (f-no və orkestr üçün işləyəni – İsmayıl Hacıbəyov); "Çahargah fantaziyası" Xalq çalğı alətləri orkestri üçün.

Müslüm Maqomayev "Şah İsmayıl" operasından: Uvertüra. Aslan şahın ariyası.

Asəf Zeynallı "Çahargah" fortepiano pyesi.

Əfrasiyab Bədəlbəyli "Qız qalası" baletindən: Giriş.

Cahangir Cahangirov "Azad" operasından: "Çahargah" xoru.

Qara Qarayev "Yeddi gözəl" baletindən "Vals".

Cövdət Hacıyev "Sülh uğrunda" simfonik poemasından Giriş mövzu.

Tofiq Quliyev "Bəxtəvər oldum" musiqili qəzəli.

Azərbaycan muğamlarının texniki və bədii cəhətdən dolğun ifası muğam sənətinin qanunauyğunluqlarının qorunmasını təmin edən amillərdəndir.

Ədəbiyyat

1. Abdullazadə G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti: tarixi-fəlsəfi təhlil. Bakı: Qartal. – 1996. – 292 s.
2. Əliyev İ.Q. Muğam və zaman. //Bakı:"Musiqi dünyası" jurnalı.2007, № 3-4 (33) s122-123.
3. Əlizadə F.Ə. Muğam sənəti dünya musiqisi kontekstində. // – Bakı: "Muğam" jurnalı. – 2007, №1. – s. 34-47.
4. Hacıbəyov Ü.Ə. Əsərləri. Dörd cilddə. II cild. Bakı: Azərb. EA nəşri. – 1965. – 412 s.
5. Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Çap və elektron nəşri. – Bakı: Apostrof. – 2010. – 176 s.
6. Həsənova C.İ. Üzeyir Hacıbəyli yaradıcılığında milli musiqinin nəzəri əsasları. Bakı: Mars-Print. – 2009. – 320 s.
7. Həsənova C.İ. Azərb. musiqisinin məqamları. Dərs vəsaiti. Bakı:Elm və təhsil.2012. 230 s.
8. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənilmiş və tamamlanmış nəşr. Bakı: İşıq. – 1984. – 100 s.
9. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. Bakı: Elm – 1991. – 120 s.
10. İzahlı saz-söz lüğəti. Tərtibçi: T.Məmmədov. Bakı: Ol NPKT. – 2015. – 215 s.

11. İzahlı muğam lüğəti. Tərtibçilər: T.Məmmədov, C.Quliyev. Bakı: Ol NPKT. 2015. 214 s.
12. Qurbanəliyeva S. F. Şəxsiyyət və musiqi. Bakı: Aqiloğlu – 2010. – 160 s.
13. Səfərova Z.Y. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: Elm. – 1998. – 584s.
14. Şuşinski F.M. Azərbaycan xalq musiqiçiləri. Bakı: Yazıçı. – 1985. – 478 s.
15. Zöhrabov R.F. Zərbi – muğamlar. Bakı: Mars – print. – 2004. – 406 s.
16. Zöhrabov R.F. Azərbaycan rəngləri. Bakı: Mars – print. – 2006. – 250 s.
17. Zöhrabov R.F. Azərbaycan muğamları. Bakı: Təhsil. – 2013. – 336 s.

МУЗЫКАЛЬНО-ЭСТЕТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА МУГАМА "ДЖАХАРГЯХ"

Алиев Али Сахиб оглы

Резюме

Статья посвящена освещению музыкально-теоретических, эстетических особенностей и исполнительских вопросов мугамного инструмента «Джахаргях».

MUSICAL AND AESTHETIC CHARACTERISTICS OF THE MUGHAM "CHAHARGAH"

Aliyev Ali Sahib oglu

Summary

The article is devoted to the illumination of the musical-theoretical, aesthetic features and performance issues of the "Chahargah" mugham instrument.

Rəyçi: baş müəllim Haqverdiyeva N.
GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın02 saylı protokolu
Daxil olma tarixi 12 oktyabr 2022-ci il

UOT:781.

KÖYKƏB SƏFƏRƏLİYEVA YARADICILIĞININ AZƏRBAYCAN FORTEPİANO MƏKTƏBİNİN İNKİŞAFINDA ROLU

Hacıyeva Mehriban Şövkət qızı
Gəncə Dövlət Universiteti
mehriban.hajıyeva@ mail.ru

Xülasə*:* *Görkəmli pianoçu-pedaqoq Köykəb Səfərəliyeva (1907-1985) Azərbaycanda fortepiano ifaçılığı sənətinin əsasını qoyan musiqi xadimlərindən biri olmuşdur.*

Bir sıra elmi-metodik dərsliklərin, fortepiano üçün külliyatın tərtibçisi, musiqi haqqında məqalələrin müəllifi olan Kövkəb Səfərəliyeva Azərbaycanda musiqi təhsilinin inkişafında böyük rol oynamışdır.

Məqalədə Azərbaycan fortepiano mədəniyyətinin yaranması və inkişafı, bu mədəniyyətin görkəmli nümayəndəsi Köykəb Səfərəliyevanın yaradıcılığının musiqi təhsilinə təsiri ətraflı öyrənilmişdir.

Açar sözlər: fortepiano, musiqi, məktəb, mədəniyyət, tələbə
Ключевые слова:композитор, фортепиано, музыка, культура, студент.
Key Word:coumposer,piano, school, culture, student.

Azərbaycan xalqı özünəməxsus yüksək maddi və mənəvi mədəniyyət yaranmışdır. O bədii yaradıcılığın ən müxtəlif sahələrində, o cümlədən musiqi yaradıcılığı sahəsində də qiymətli sərvətlər meydana gətirmişdir.

XX əsrin əvvəllərindən inkişaf etməyə başlayan Azərbaycan fortepiano tarixi zəngin, çoxtərəfli təhlilə layiq bir sahədir. O dövrdə dövlət sistemində musiqi təhsili mövcud deyildi və musiqi təhsilinin taleyi ictimai təşkilatlardan asılı idi. Buna baxmayaraq qabaqcıl musiqiçilər musiqi təhsilinin əsasını qoymağa çalışırdılar. Bu yolda ilk addım istedadlı pianoçu, Moskva Konservatoriyasının məzunu Antonina Nikolayevna Yermolayeva atmışdır. İlk şəxsi məktəb 1895-ci ilin sonunda açılmış və müdiri A.N.Yermolayeva olmuşdur.

1916-cı ildə bir neçə şəxsi musiqi məktəbləri birləşdirilərək orta ixtisas musiqi məktəbi yaradıldı. Bu məktəbdə proffesional musiqiçilər hazırlanırdı. Məktəbə pianoçu Y.A.Rıjinski rəhbərlik edirdi. Azərbaycanda ciddi və planlı şəkildə musiqiçi kadrlar hazırlanmağa başladı. Musiqiçi kadrların hazırlanmasının surətlə getməsinə səbəb Bakıda istedadlı musiqiçilərin olması idi. Onların arasında yüksək səviyyəli pianoçular da var idi.

1920-ci ildə orta ixtisas musiqi məktəbi Xalq Konservatoriyasına çevrilir, 1921-ci ilin 26 avqust tarixində Azərbaycan Dövlət Konservatoriyası açılır. 1922-ci ildə Üzeyir Hacıbəyli tərəfindən yaradılmış musiqi məktəbi kursları 1926-cı ildə konservatoriyaya birləşdirilir.

1921-1923-cü illərdə konaservatoriyanın ilk rektoru və fortepiano sinifinin rəhbəri M.L.Pressman olmuşdur.

Azərbaycanda fortepiano pedaqoqikasında əhəmiyyətli rol oynayan pianoçular Q.Q.Şaroyev və M.R.Brenner olmuşdur.

1937-ci il Azərbaycan incəsənəti üçün əlamətdar hadisə Üzeyir Hacıbəylinin konservatoriyaya rektor təyin olunması idi. Məhz onun konservatoriyaya gəlişi ilə buraya gənc ixtisasçılar dəvət olundu. Belə ki, 1939-cu ildə xüsusi fortepiano sinifi ilk Azərbaycanlı qadın pianoçu Azərbaycan mədəniyyət xadimləri arasında musiqi və ifaçılıq sənətinin əsasını qoyanlardan biri. Azərbaycan Respublikasının Xalq Artisti, Əməkdar İncəsənət Xadimi, professor Köykəb Səfərəliyevaya tapşırılır.

Qryd etmək lazımdır ki, adı görkəmli yerlərdən birini tutan K.Səfərəliyevanın həyatı və yaradıcılığı XX əsrin 20-30-cu illərdən başlayıb. O, həyatının 60 ilini musiqiyə həsr etmiş, bir neçə nəsil pianoçu tərbiyə etmişdir ki, bu da Azərbaycan fortepiano incəsənətinin ayrılmaz hissəsidir.

Köykəb xanım pedaqoji fəaliyyətə 1926-cı ildə hələ tələbə olarkən başlamışdır. İstedadlı pianoçu konservatoriyaya müəllim-təcrübəçi kimi qəbul olunmuş, eyni zamanda rus dilini bilməyən tələbələrə polifoniya və musiqi ədəbiyyatı fənnlərindən dərs deyməyə başlamışdır. Bir müddət Şaroyevin sinifində assistent işlədikdən sonra Azərbaycan Dövlət Konservatoriyasının xüsusi fortepiano şöbəsinə müəllim qəbul olunnan K.Səfərəliyeva bu dövrdə gərgin pedaqoji fəaliyyətə başlayır.

1935-ci ildə K.Səfərəliyeva Moskvaya musiqiçi müəllimlərin ixtisasartırma kursuna gedir. İki illik kursu bir ildə bitirən gənc musiqiçi vətənə qayıdır və Azərbaycanın qaynar musiqi hətatına daxil olur. O, respublikanın bütün ictimai işlərində iştirak edir, bütün musiqi tədbirlərinin iştirakçısı və rəhbəri olurdu.

Azərbaycanda musiqi təhsilinin inkişafında böyük rolu olan Kövkəb xanım 1937-ci ildə konservatoriyanın nəzdində orta ixtisas musiqi məktəbini yaradıb (indiki Bülbül adına məktəb) və onun direktoru olub.

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru K.Səfərəliyevanı yaxşı tanıyan Yakov İsakoviç Milştyeyn özünün şifahi çıxışlarında Kövkəb xanımı Azərbaycan musiqi mədəniyyətinin unudulmaz simalarından biri, “həyatda daim milli

pianoçuluq sənətinin alovlu entuziastı olan, yüksək intellektual mədəniyyətə malik həssas musiqiçi-pedaqoq" adlandırıb.

O, bir çox Azərbaycan musiçilərinin, o cümlədən dünya şöhrətli müğənnimiz Müslüm Maqomayevin ilk müəllimlərindən biri olub [1,s.2].

Professor Tərlan Seyidov "XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı" kitabında yazır: " Azərbaycan musiqi sənətinin görkəmli nümayəndələri içərisində K.Səfərəliyeva ən şöhrətli yerlərdən birini tutur. Respublikada fortepiano təhsilinin inkişafı, milli fortepiano repertuarının yaradılması bir çox hallarda onun adı ilə bağlıdır. Onun böyük şövq və həvəsi sayəsində Azərbaycan bəstəkarlarının çoxlu sayda pyelər məcmuəsi nəşr olunmuşdur. Üzeyir Hacıbəylinin rəhbərliyi altında onun yazıb, 1946-cı ildə nəşr etdirdiyi "Azərbaycan ladları əsasında pyeslər" adlı vəsaiti xüsusi metodiki və praktiki maraq səsb etmişdir. Bu, respublika tarixində ilk orijinal müntəxəbat adı və yeni başlayanlar üçün azərbaycan xalq musiqisinin səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirirdi. Bu məcmuəni redaktə edən Üzeyir Hacıbəyli ön sözdə aşağıdakıları qeyd etmişdir: "Hazırkı istiqamətdə bu, ilk təşəbbüs olub, fortepianoda çalmağı öyrənmək üçün uşaqların qavramasına daha yaxın olan və eşitmə yolu ilə asanlıqla yadda qalan musiqi materialı üzərində qurularaq, müəllim duyumu nəticəsində əmələ gəlmişdir" [2.s.26].

Aparılan araşdırmalar göstərir ki, K.Səfərəliyevanın zəngin pedaqoji fəaliiyəti rus pianoçululq məktəbi xadimlərinin diqqətindən yayınmayıb. A.B.Qoldenveyzer, G.G.Neyqauz, S.Y.Feynberq, L.N.Oborin, Y.B.Filer onun sinifinin tələbələrinin yüksək akademik səviyyəsinin xüsusi qeyd ediblər.

K.Səfərəliyevanın keçmiş tələbələri arasında böyük istedada malik pianoçular çoxdur. Bunlardan Tamilla Mahmudova, Gülər Əliyeva, Zivər Əliyeva, Svetlana Əliyeva-Korş, Doqyuş Salamzadə, Məryəm Əliyeva, Sara Musabəyova, Elmira Topçubaşova, Validə Yaqubova, Lalə Topçubaşova, Gülər Rzayeva, Adilə Mayılova uzun illər pedaqoji fəaliiyətlə məşğul olmuş onlarla tələbənin yetişməsində mühüm rol oynamışlar.

1940-cı ildə K.Səfərəliyevaya Əməkdar İncəsənət Xadimi, 1972-ci ildə Azərbaycan Respublikasının Xalq Artisti fəxri adları verilmişdir.

1952-ci ildən Köykəb xanım Azərbaycan Dövlət Konservatoriyasının xüsusi fortepiano kafedrasına rəhbərlik etməyə başlayır. Dəflərlə ifaçıların Respublika və Zaqafqaziya müsabiqələrinin münsiflər heyətinin üzvü seçilir.

Köykəb xanımın pedaqoji fikirləri haqqında çox danışmaq olar. İlk növbədə onun sinifində həmişə tələbələr arasında rəqabət, sağlam ruh hökm sürürdü. Hər bir tələbə özünü yaşlılara bənzətməyə çalışırdı. Köykəb xanım da tələbələrdə gələcəyə həvəs yaradır, onları ruhlandırırdı. Onun tələbələri Bakıda və başqa şəhərlərdə müsabiqələrdə, konsertlərdə çıxışlar edir, yüksək nailiyyətlər əldə edirdilər.

Sinifdə təlim-tərbiyə ciddi idi. Köykəb xanım işə vicdanla yanaşması ilə başqalarına nümunə idi. Onun sinifdə öyrənilən əsərlərin repertuar diapazonu geniş idi. Bu, qədim klavesin musiqisindən Azərbaycan və xarici ölkə bəstəkarlarının müasir musiqisinə qədər idi. Bə əsərlərin notlarını Köykəb xanım özü əldə edir və bəzən bu əsərləri tələbələr əlyazmadan çalırdılar.

Qeyd etmək lazımdır ki, tələbələrlə işdə Köykəb xanım klassik fortepiano məktəbinin ən yaxşı ənənələrinə əsaslanırdı. Klassik musiqinin öyrənilməsinə xüsusi diqqət yetirir, Haydn, Motsart, Bethovenin əsərləri mütləq proqrama daxil edilirdi. İ.S.Baxın prülüdiya və fuqaları bir-bir deyil, bir dəfəyə bir neçəsi ifa olunub səhnəyə çıxarılırdı. Burada Köykəb xanım mövcud olan bütün redaksiyalarla maraqlanırdı. Xüsusi hallarda əsərin düzgün ifa olunmasına əmin olmaq üçün notları Moskvaya A.B.Qoldenveyzerə göndərirdi. Tələbələrin

repertuarına L.Qodovskinin transkripsiyasında J.F.Ramo, J.B.Lülli və başqa bəstəkarların əsərlərini daxil edirdi.

Tələbələrin texniki cəhətdən inkişafını üçün sinifdə çoxlu etüdlər keçilir, qammaların ifası məcburi idi.

Ritm, musiqinin dinamizasiyası əsas faktorlardan biri idi. Applikatura üzərində işdən passajların aydınlığı, düzlüyü,səsin keyfiyyəti və gücü asılı idi.

Əsərin öyrənilməsi onun əvvəlcə bütövlüklə qavranılmasından, onun ideya bədii məzmununun dərindən mənimsənilməsindən, ifaçılıq-kompozisiya planının düşünülməsindən başlanırdı.

"Əgər 70-ci illərdə tələbələr "Köykəb xanım bizə nəyi öyrədir?" sualına cavab verə bilmirdilərsə sonralar onlara aydın oldu ki, eşitmə qabiliyyətinin inkişaf etdirilməsi, musiqiyə "qulaq asmaq", ifa etdiyi əsərəri qavraya bilməyi öyrəndiklərini etiraf edirdilər"[3.s.21]

Azərbaycan fortepiano musiqisində təbliğatı xüsusilə qetd etmək lazımdır. Bütün yaşlı nəslin bəstəkarları Köykəb xanımla yaradıcılıq əlaqəsində idi. O, tez-tez bu əsərləri redaktə edir və estradaya vəsiqə verirdi. Bir çox bəstəkarların əsərlərinin ilk ifaçıları da məhz Köykəb xanımın tələbələri olmuşdur. Belə ki, Qara Qarayevin fortepiano əsərlərinin ilk ifaçısı Fəridə Quliyeva , Svetlana Korş-Əliyeva ("24 prelüd" silsiləsinin I və II dəftəri), Azərbaycan bəstəkarlarının bir çox əsərlərinin ifaçısı Tamilla Mahmudova olmuşdur.

Azərbaycan fortepiano musiqisinin məşhurlaşmasında böyük rolu olmuş professorun 1971-ci il, dekabrın 2-də Azərbaycan Dövlət Konservatoriyasının (Bakı Musiqi Akademiyasının) böyük zalında tərtib edib, çap etdirdiyi "Azərbaycan bəstəkarlarının fortepiano pyesləri məcmuəsi"ndən ifa olunan əsərlərin konserti keçirilmişdir. Bu konsertdə bəzi əsərlər ilk dəfə səslənirdi.

Köykəb xanım Qara Qarayevin anadan olmasının 60 illiyi münasibəti ilə təşkil olunmuş fortepiano prelüdlərinin ən yaxşı ifaçısı müsabiqəsinin təşkilatçısı olmuşdur.

Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycanın Xalq Artisti, Respublikanın Əməkdar İncəsənət xadimi, professor K.Səfərəliyeva milli fortepiano məktəbinin yaradıcılarından biri kimi tarixə düşüb və onun yaradıcılığı milli musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.

Ədəbiyyat

1.Seyidov T. "XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı". Bakı, "Təhsil", 2016. 336 s.
2.www.musiqi-dünyası.az
3.Маилова А. "Методика преподования профессора К.К.Сафар-Алиевой". (учебное пособие). Баку, "Elm və təhsil", 2018. 127 с.
4.Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, "Adiloğlu" 2010. 160 s.
5.Абаскулиева Л.Г. Основные тенденции формирования и развития азербайджанской профессиональной фортепианной культуры. Автореф. дисс… канд. искусств. Баку, 2005. 28 с.

Saytoqrafiya

http://uzeyir.musigi-dunya.az
http://menevi.musigi-dunya.az
http://epistolyar.musigi-dunya.az
www.ganja-ih-gov.az
www.gencekitab.az

РОЛЬ ТВОРЧЕСТВА К.САФАРАЛИЕВОЙ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ ФОРТЕПИАННОЙ ШКОЛЫ

Гаджиева Мехрибан Шовкет кызы

Резюме

Пианист-педагог К.Сафаралиева (1907-1985) была одним из выдающихся музыкантов, заложивших основы фортепианного искусства в Азербайджане.

К. Сафаралиева, составитель ряда научно-методических пособий, сборника для фортепиано, автор статей о музыке, сыграла большую роль в развитии музыкального образования в Азербайджане.

В статье подробно рассматривается возникновение и развитие Азербайджанской фортепианной культуры, влияние творчества видной представительницы этой культуры Койкаб Сафаралиевой на музыкальное образование.

THE ROLE OF KOYKEB SAFARALIYEVA'S CREATIVITY IN THE DEVELOPMENT OF THE AZERBAIJANI PIANO SCHOOL

Hajiyeva Mehriban Shovkat

Summary

Prominent pianist-pedagogue Koykab Safaraliyeva was one of the prominent musicians who laid the foundation of the art of piano performance in Azerbaijan.

K. Safaraliyeva, the compiler of a number of scientific-methodical textbooks, the compendium for the piano, and the author of articles about music, played a major role in the development of music education in Azerbaijan.

The article examines in detail the emergence and development of Azerbaijani piano culture, the impact of the work of Koykab Safaraliyeva, a prominent representative of this culture, on music education.

Rəyçi: baş müəllim Haqverdiyeva N.
GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın02 saylı protokolu
Daxil olma tarixi 12 oktyabr 2022-ci il

UOT:781.

KONSERTMEYSTER BACARIQLARININ MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

Haqverdiyeva Nərgiz Əli qızı
Gəncə Dövlət Universiteti
nargizhaqverdiyeva.@gmail.com

Xülasə*: Konsertmeyster sənəti musiqi təhsilinin və ifaçılığının mühüm və ayrılmaz hissəsidir. Konsertmeysterin əsas məqsədi musiqi ifasının gözəlliyini və emosionallığını dinləyicilərə daha dolğun şəkildə çatdirmaqdan ibarətdir.*

Məqalədə konsertmeyster sənətinin inkişaf mərhələləri və əsas xüsusiyyətləri təhlil edilmiş, konsertmeyster bacarıqlarının mahiyyəti, əhəmiyyəti və onların istifadə sahələri öyrənilmişdir. Konsertmeyster peşəsi pianoçuların peşəkar fəaliyyətində layiqincə məhəbbət və rəğbət qazanmışdır.

Açar sözlər: konsertmeyster, müşayiətçi, ustalıq, pianoçu, musiqi, baçarıqlar
Ключевые слова: концертмейстер, аккомпаниатор, мастерство, пианист, музыка, навыки
Key words: concertmaster, accompanist, professionalism, pianist, music, skills

Müasir ifaçılıq sənətini pianoçu-müşayiətçinin iştirakı olmadan təsəvvür etmək mümkün deyil. Konsertmeyster peşəsi pianoçular arasında ən geniş yayılmış peşədir. Konsertmeyster sənəti müxtəlif ifaçılıq (ansambl və solo, vokal və instrumental, xoreoqrafiya, kamera və opera) janrları ilə sıx bağlı olduğu üçün, əvəzolunmazdır və çox əhəmiyyətlidir . Təsadüfü deyil ki, bütün ixtisaslar üzrə tədris prosesi, konsert və musiqi müsabiqələri, opera və xoreoqrafik tamaşaları konsertmeysterlə birgə iş prosesi üzərində qurulmuşdur.

Qeyd edək ki, "Konsertmeyster" və "Müşayiətçi" (akkompaniator) terminləri eyni deyil, baxmayaraq ki, təcrübədə, elmi-metodik ədəbiyyatda biz bu anlayışlarin sinonim kimi istifadə olunmasına rast gəlirik. "Müşayiətçi" (akkompaniator) (fransızca "akkompagner"- müşayiət etmək deməkdir) səhnədə müşayiət partiyasını ifa edən musiqiçidir. Pianoçu-müşayiətçinin fəaliyyəti adətən konsert fəaliyyətini nəzərdə tutur. Akkompaniatorun əsas məqsədi musiqi əsərlərdə solistə harmonik, ritmik dəstəyin verilməsindən ibarətdir .

Konsertmeyster anlayışı daha genişdir. "Konsertmeyster" (almanca konzertmeister) sözü iki sözün birləşməsindən - konzert - "konsert" və meister- "usta" sözlərindən yaranıb. XVII əsrdə orkestrdə hər hansı alətlər qrupunun rəhbəri olan, musiqiçiləri öz ardınca aparan, onlara ifaçılıq üsullarını öyrədən ifaçıya (məsələn, birinci skripka) konsertmeyster deyilir. Vokalçıları, müğənniləri və müxtəlif alətlərdə solo ifaçılarının məşq prosesində yaxından iştirak edən, onları müşayiət edən, konsert və müsabiqələrdə solistlərlə birgə çıxış edən pianoçuları da konsertmeyster adlandırırlar [9]. Bununla yanaşı qeyd etmək lazımdır ki, peşəkar konsertmeyster təkcə musiqiçi kimi deyil, həm də təşkilatçı, müəllim və psixoloq kimi çıxış etməli və onun bu keyfiyyətləri tədris, konsert və müsabiqələr şəraitində solo ifaçıya dəstək və kömək etməlidir.

Konsertmeyster peşəsinin tarixinə nəzər saldıqda, bu sənətin mərhələli şəkildə formalaşması və inkişafı özünü aydın göstərir. Qədim dövrlərdən başlayaraq insanlar müxtəlif zərb və nəfəs alətlərdə melodiyanı, mahnıları, rəqsləri ən sadə (melodiyanın bir oktava aşağı və ya yuxarı təkrari) üsullarla müşayiət edirdilər. Qədim yunanlar müşayiət sənətini daha yüksək səviyyəyə qaldırmışlar. O dövrdə musiqi sənətinin ən mühüm hissəsi vokal musiqi sayılırdı. Qeyd etməliyik ki, qədim yunanlar melodiyanı poetik misralarının metrinə uyğun olaraq tərtib etməyi başlamışdılar.

Konsertmeyster sənətinin növbəti inkişaf mərhələsi-improvizasiya şəklində müşayiətdir. Pedaqoq - konsertmeyster Yuliya Borisovna Akbari "Müşayiət sənətinin tarixinə dair" ("К истории искусства аккомпанемента") dərsliyində yazır: "XIV əsrin musiqisində melodiya unison (yaxud oktava) üsulu ilə müşayiət olunurdu. Bir qayda olaraq müşayiət hansısa musiqi alətində improvizasiya üsulu ilə ifa olunurdu və melodiyadan fərqli səslənməli idi"[3, s. 19].

Barokko dövründə müxtəlif klavişli alətlərin (virdjinal, xarpsixord, klavesin) yaranması konsertmeyster sənətinin tarixində böyük rol oynamışdır. Bu dövrdən başlayaraq, ifaçının əsas məqsədi - müşayiət olmuşdur. Lakin o, hələ ayrıca bir fəaliyyət növü deyil, pianoçu-ifaçıların bacarıqlarının zəruri komponenti kimi qəbul olunurdu. XVII-XVIII əsrlərdə ifaçılıq sənətinin əsasını improvizasiya təşkil edir və intensiv sürətdə inkişaf edir.

Görkəmli pianoçu-virtuoz Fransua Kuperen (1668-1733) "Klavesin ifa sənəti" ("Искусство игры на клавесине", (1717)) traktatında "Müşayiət qaydaları" adlanan əlavədə müşayiət sənətinə dair bəzi tövsiyələr verir. O, yazır: "Musiqiçi üçün yaxşı müşayiətçi

olmaqdan cəlbediçi heç nə yoxdur" [4, s. 71]. Müşayiət sahəsində metodik ədəbiyyatın ilk nümunələrindən biri Karl Filip Emanuil Baxın (1714-1788) "Klavir ifaçılığının əsl sənətinin təcrübəsi" ("Опыт истинного искусства клавирной игры",(1753)) adlı traktatı sayıla bilər. K.F.E.Bax yazır: "Solist peşəkar olmasa da, yaxşı müşayiətçi onun uğur qazanmasına kömək edir. ...Bir sözlə, yaxşı müşayiət etmək üçün əsl musiqi ruhu, yaxşı baş və xoş niyyət lazımdır"[5, s. 56].

Konsertmeyster sənətinin inkişafının növbəti mərhələsi fortepianonun yaranması dövrü ilə bağlıdır. Bu dövrdə ifaçılar fortepiano alətini ən yaxşı müşayiət aləti hesab edirdilər. Yozef Haydn (1732-1809), Volfqan Amadey Motsart (1756-1791) və Lyudviq Van Bethovenin (1770-1827) əsərləri (sonatalar, divertismentlər, duetlər, triolar və s.) Avropa kamera-instrumental musiqisinin dəbdə olan əsərlərinə çevrilmişdir. Qeyd etmək lazımdır ki, bu dövrdən başlayaraq bəstəkarlar öz əsərlərinə (romans, mahnı, kamera- instrumental) müşayiət mətnini notla yazmağa başlayırlar. Tanınmış pedaqoq-konsertmeyster İrina Aleksandrovna Ravçeyeva "Профессия концертмейстера: к истокам" məqaləsində yazır: "L.V.Bethovenin yaradıcılığında müşayiətçinin obrazı və onun əsas xüsusiyyətləri formalaşmış və bu günə qədər qorunub saxlanılmışdır" [7, s. 412].

XVIII əsrin sonu XIX əsrin əvvələrində romantizm cərəyanı dövründə müşayiət partiyası yüksək bədii səviyyəyə catdırılmışdır. Frans Şubertin (1797-1828), Robert Şumanin(1810-1856), Edvard Qriqin (1843-1907), Pyotr Çaykovskinin (1840-1893), Sergey Raxmaninovun (1873-1943) romanslarında, mahnılarında və instrumental əsərlərində müşayiət partiyası melodiya ilə birlikdə vahid bir musiqi obrazı yaradır. Bu bəstəkarların əsərlərində fortepiano partiyası bədii obrazın bir hissəsi kimi çıxış edir və konsertmeyster musiqi əsərinin psixoloji obrazının açılmasında aparıcı rol oynayır. Müşayiət partiyalarının materialı inkişaf etdirilərək, kulminasiyaya çatdırılır, musiqi dramaturgiyasının hərəkətveriçi qüvvəsinə çevrilir.

XIX əsrin sonu XX əsərin əvvəllərində konsertmeyster sənəti ayrıca bir peşə kimi görkəmli musiqiçiləri, solo ifaçıları cəlb etməyə başladı. Təsadüfi deyil ki, bütün böyük pianoçuların yaradıcılıq taleyi konsertmeyster sənəti ilə bağlıdır. Anton Rubinşteyn (1829-1894), Konstantin İqumnov (1873-1948), Serqey Raxmaninov (1873-1943) Svyataslav Rixter (1915-1997) yaradıcılığını buna nümunə kimi, göstərmək olar. Tədqiqatçı Aleksandr Naumoviç Yudin qeyd etdiyi kimi, "S.Raxmaninovun yaradıcı obrazının unikallıgı ondadır ki, o, bəlkə də musiqi tarixində böyük bəstəkarın, böyük pianoçu-solistin və böyük müşayiətçinin bir musiqiçidə birləşməsinin yeganə nümunəsidir" [7, s.10]. Görkəmli musiqi tənqidçisi Boris Asafyev (1884-1949) S.Raxmaninovu "öz romanslarının ən yaxşı müşayiətçisi" və hətta "müşayiətçı-tərcüməçi" adlandırırdı [6, s.24]. Bununla yanaşı, XX əsrdə konsertmeyster sənətinə aid xüsusi ədəbiyyat yaranır. V.Hikkinin "Fortepiano müşayiəti" (1925, London), R.Hartmanın "Müşayiətin işi" (1934, Berlin), C.Murun "Mugənninin işi"(1953, London) və s. əsərləri qeyd etmək olar.

Rusiyada konsertmeyster sənətini Qərbi Avropa elmi əsərləri əsasında formalaşır və inkişaf edir. Bu əsasən Rusiyada vokal musiqisinin inkişafı ilə bağlıdır. Rus konsertmeyster sənətinin əsasını Vasiliy Paşkeviş (1742-1797), Dmitri Bortnyanski (1751-1825), Evstiqney Fomin (1761-1800) kimi musiqiçilər qoymuşlar. Bir çox rus bəstəkarları Aleksey Verstovski (1799-1862), Aleksandr Barlamov (1801-1848), Aleksandr Darqomıjski (1813-1869) yüksək səviyyəli, professional müşayiətçi olmuşlar. Tanınmış pedaqoq A.N.Yudin "Консертмейстерская практика русских композиторов XIX- начала XX вв." metodik vəsaitində yazır: "Mixayil Qlinka musiqi salonlarında müşayiətçi bacarıqlarını təkmilləşdirirdi. Bəstəkar özü partiyaları gələcək ifaçıları ilə hazırlayır, təkçə musiqi mətninə

deyil, həm də səsin quruluşuna, ifadəsinə fikir verdi"[7, s. 9]. 1867-ci ildə A.Rubinşteyn Sankt-Peterburq konservatoriyasında ifaçılıq vərdişlərini və başarıqlarını təkmilləşdirmək üçün xüsusi siniflər açmağı təklif edir.....

Göründüyü kimi, konsertmeyster peşəsi universal peşədir və heç də bütün pianoçular üçün səciyyəvi deyildir. Təəssüf ki, bu peşənin əhəmiyyətini və mürəkkəbliyini bir çox musiqiçilər dərk etmir və konsertmeysterlərə təvazökarlıqla yanaşaraq, fikir bildirirlər ki, "solistin kölgəsində" ifa etmək böyük bacarıq tələb etmir. Lakin bu səhv fikirdir. Solo və müşayiətçi fəaliyyətinin xüsusiyyətləri fərqli olsa da, bunlar bir-biri ilə çox əlaqədardır. Konsertmeyster ustalığı pianoçudan yüksək musiqi - bədii mədəniyyət, fortepiano ifaçılığının əsas prinsiplərini və müşayiətçi üçün zəruri olan xüsusi, spesifik vərdiş və bacarıqları tələb edir. Konsertmeyster zəngin musiqi dünyagörüşünə, ansamblda ifa etmək, dinləmək, sərbəst üzdən (notdan) ifa və transpozisiya etmək bacarıqlarına malik olmalıdır. Bununla yanaşı konsertmeyster nəzəri (harmoniya, polifoniya, musiqi əsərlərin təhlili) və musiqi tarixi, müxtəlif üsluba və janrlara aid olan vokal, xor, instrumental, həmçinin opera və simfonik musiqi əsərlərini bilməlidir

Hər bir solistin, musiqi alətinin (skripka, fleyta, tar və s.) orijinallığı konsertmeysterin iş prosesinə böyük təsir göstərir. Müxtəlif üsluba aid ariya və reçitativ, vokal və ya alətlər ansamblının müşayiət partiyaları konsertmeysterdən ifa zamanı müxtəlif "çalarlar" və bacarıqlar tələb edirdi. Konsertmeyster ifa zamanı səs balansını pozmadan solo alətinin tembr-dinamik koloritini fortepiano müşayiət partiyası ilə əlaqələndirməyi bacarmalıdır. Bu baxımdan daim dəyişən şərtlər pianoçu - konsertmeysterdən solistin peşəkar hazırlığının, fərdi xüsusiyyətlərinin bilməyini və onlara tez uyğunlaşmağını tələb edir. Odur ki, xor və solistin, teatr və kamera musiqisinin uğurlu ifası konsertmeysterin mükəmməl bacarığından asılıdır.

Konsertmeysterin işi yalnız fortepianoda və ya başqa alətdə sadə müşayiətlə məhdudlaşmır. Konsertmeysterin peşə keyfiyyətləri daha genişdir və özündə bəzi insani keyfiyyətləri də birləşdirir. Belə ki, konsertmeyster yaxşı sinir sisteminə malik olmalı, özünə nəzarəti itirməməli, istənilən "sürprizlərə" tez reaksiya verməli və konsert zamanı "fövqəladə" vəziyyətinin düzəltməyin yollarını bacarmalıdır. Mobillik, sürət, aktivlik, rasionallıq, analitik təfəkkür - bu keyfiyyətlər konsertmeysterin peşəkar fəaliyyəti üçün çox vacibdir və zəruridir, çünki o, bəzən məşq etmədən ifa etmək məcburiyyətində qalır.

Elmi ədəbiyyatın təhlili göstərir ki, professional konsertmeyster peşəsinə yiyələnmək üçün pianoçular ciddi və uzunmüddətli hazırlanması, müşayiətçi üçün zəruri olan keyfiyyətlərin tədricən toplanılması vacibdir. XX əsrin əvvəllərində tədris proqramlarına yeni fənn-"Konsertmeyster sinfi" daxil edilmişdir. 1930-cu illərin əvvəllərində isə təhsil müəssisələrində konsertmeyster bir vəzifə kimi tətbiq olundu. Hal - hazırda ali və orta təhsil pillələrində pianoçulara "Konsertmeyster sinfi", "Fortepiano ansamblı", "Kamera ansamblı" fənləri əsas fənn kimi tədris olunur. Nəticədə konsertmeysterlərin məqsədyönlü hazırlanması həyata keçirilir.

XXI əsrdə konsertmeyster peşəsi musiqi ifaçılığının və pedaqogikanın ayrılmaz hissəsinə çevrilmişdir. Təəssüflə etməliyik ki, Uşaq Musiqi Məktəblərində təhsilin ilkin mərhələlərində belə, ansambl ifaçılığının əsaslarına, o cümlədən konsertmeyster sənətinə az diqqət yetirilir. Ona görə də, praktiki ansambl ifaçılıq bacarıqlarının olmaması gənc ifaçıları peşəkar kimi formalaşmasına və inkişafına mənfi təsir göstərir.

Təqdirə layiq haldır ki, əməkdaşı olduğum Gəncə Dövlət Universitetinin "Musiqi fənləri" kafedrasında Pedaqoji fakültədə "Konsertmeyster sinfi və ansambl" fənni peşə hazırlığı blokuna daxildir və "Musiqi müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələrə uğurla

tədris olunur. Pedaqoji təcrübə göstərir ki, bu fənn "Musiqi müəllimliyi" ixtisası kadr hazırlığında olduqca vacibdir və tələbələr bu fənnə böyük maraq göstərir.

Beləliklə, biz konsertmeyster yaradıcılığının vacibliyini və mürəkkəbliyini, qeyri-adi çoxşaxəliliyini bir daha vurğulaya bilərik. Konsertmeyster hər zaman yadda saxlamalıdır ki, o, peşəkar pianoçu, ifaçı, müşayiətçi, müəllim, solisti ruhlandıran, ona dəstək verən yüksək səviyyəli musiqiçidir. Qeyd etmək lazımdır ki, konsertmeyster fəaliyyətinin uğurlu olması üçün, zəruri olan vərdiş və bacarıqlarının formalaşması və inkişafı mühüm əhəmiyyət daşıyır. Düşüncənin çevikliyi, müxtəlif musiqi sahələrində biliklərin dərindən mənimsəmək bacarığı, özünün və solist partiyalarının özəlliklərindən geniş məlumatlılığı – bütün bunlar konsertmeysterə mövcud musiqi materialının ən yüksək səviyyədə ifa etməyə köməklik edir. Konsertmeyster solist üçün ilham mənbəyi olmalıdır. Müasir texnologiyaların yayılması ilə bir çox ifaçılar hazır səsyazma (fonoqramm) ilə çıxış etməyə üstünlük verirlər. Ancaq, bu yenilik "canlı" müşayiətin unikal keyfiyyətlərini, konsertmeyster peşəsinin əhəmiyyətini azaltmır, əksinə onu ən çox tələb olunan peşələrdən birinə çevirir. Odur ki, konsertmeyster fəaliyyəti insanlarda yaradıcı təxəyyülü oyatmaq qabiliyyətinə malikdir və bu funksiyada onu heç nə ilə əvəz etmək mümkün deyil.

Ədəbiyyat

1. Dadaşova M.R. "Musiqi müəlliminin hazırlığının metodikası". Dərs vəsaiti, Bakı, 2010, 256 s.
2. Dadaşova M.R. "Musiqi müəlliminin pedaqoji hazırlığında fərdi məşğələlər". Dərs vəsaiti, Bakı, 2016, ADPU, 55 s.
3. Qurbanəliyeva S.F. "Şəxsiyyət və musiqi". Bakı, Adiloğlu, 2010,160 s.

Rus dilində:

4. Акбари Ю.Б. "К истории искусства аккомпанемента". Учебное пособие, Владимир: Изд-во ВлГУ, 2012, 116 стр.
5. Куперен Ф."Искусство игры на клавесине", Москва, Музыка, 1973, 98 стр.
6. Бах К.Е.Э. "Опыт истинного искусства клавирной игры". Санкт- Петербург, Издательский дом EARLYMUSIC, 2005, 102 стр.
7. Бабюк В.Л. "Становление концертмейстерской деятельности в России XVII-XX веков". Магнитагорск, 2003, 184 стр.
8. Равчеева Н.А. "Профессия концертмейстера: к истокам". // Мир, наука, образование Санкт-Петербург, 2013, №6, 417 стр.
9. Юдин А.И. "Консертмейстерская практика русских композиторов XIX- начала XX вв". Санкт- Петербург, 2010, 28 стр.

Saytoqrafiya

10. www. konservatoriy.az.
11. www. musiqi-dünyası.az.

ЗНАЧЕНИЕ И СУТЬ КОНЦЕРТМЕЙСТЕРСКИХ НАВЫКОВ

Хагвердиева Наргиз Али кызы

Резюме

Концертмейстерское искусство является важной и неотъемлемой частью системы музыкального образования и исполнительства. Среди пианистов профессия концертмейстера является самой распространенной формой деятельности. Главная цель

концертмейстера – донести до слушателей красоту и эмоциональность музыкального исполнения.

В данной статье проанализированы исторические этапы и основные особенности формирования и развития концертмейстерского мастерства, изучены суть и значение навыков и их использование в концертмейстерской практике. Профессия концертмейстера заслуженно завоевала широкую любовь и признание в профессиональной деятельности пианистов.

THE ESSENCE AND IMPORTANCE OF CONCERTMASTERS' SKILLS

Haqverdiyeva Nargiz Ali

Summary

The art of accompaniment plays an important role in the system of music education. Among the professional pianists the profession of accompanist is considered one of the main and important. The main goal of the concertmaster is to convey to the audience the beauty and emotionality of music performance.

The article analyzes the stages, essence, importance and main features of the development of accompanist skills, studied the areas of use of accompanist practice. The profession of an accompanist deservedly won wide love and recognition in the professional activity of pianists.

Rəyçi: baş müəlllim Hacıyeva M.

GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın 02 saylı protokolu

Daxil olma tarixi 12 oktyabr 2022-ci il

UOT:78.

QARA QARAYEVİN FORTEOİANO YARADICILIĞINDA UŞAQ MUSİQİSİNİN YERİ

Məmmədova Qəsirə Tofiq qızı
Gəncə Dövlət Universiteti
qasira.mammedova@gmail.com

Xülasə: *Azərbaycan bəstəkarlarının fortepiano üçün uşaq musiqisi musiqi tarixinin inkişafında mühüm yer tutur. Uşaq fortepiano musiqisinin inkişafında Azərbaycanı dünyaya tanıdan milli bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Qara Qarayevin xüsusi yeri var. Bəstəkarın uşaq fortepiano musiqisi onun yaradıcılığında aparıcı janrlardan biridir.*

Məqalədə Q.Qarayevin uşaq fortepiano üçün "6 uşaq pyesi","6 orta çətinlikli pyes" nəzərdən kecirilmiş və səciyyəvi xüsusiyyətləri təhlil edilmişdir. Pyeslərdə məqam-intonasiya xüsusiyyətlərinin təhlili verilmiş, onların rəngarəng obrazlı olması və məzmunun açılmasında musiqi dilinin ifadə vasitələri ilə necə xarakterizə edilməsi göstərilmişdir.

Açar sözlər: Qara Qarayev, bəstəkar, fortepiano musiqisi, uşaq musiqisi , fortepiano pyesləri

Ключевые слова: Кара Караев, композитор, фортепианная музыка, детская музыка, фортепианные пьесы

Key words: Kara Karayev, composer, fortepiano music, children's music, piano strings

Uşaq fortepiano pyesləri, albomları, silsilələri klassik dünya musiqisində əhəmiyyətli yer tutur. Qeyd etmək lazımdır ki, uşaq musiqisi bir çox görkəmli bəstəkarların yaradıcılığında xüsusi yer tutur. İ.S.Bax (1685-1750), L.V.Bethoven (1770-1827), R.Şuman (1810-1856), P.İ.Çaykovski (1840-1893), K.Debüssi (1862-1918) kimi dahi bəstəkarlar uşaqlar üçün əbədiyaşar musiqi əsərləri yazmışlar. Uşaqların həyatından bəhs edən hadisələri, uşaq oyunlarının xüsusiyyətləri vasitəsilə çatdırmaqla xüsusi bir şəkildə təqdim edərək bəstəkarlar uşaqlar üçün pyeslər yazırdılar. Uşaq fortepiano musiqisinin mövzusu genişdir – uşaq həyatında baş verən hadisələr, oyunlar, təbiət, emosional-psixoloji vəziyyətlər, insan portretləri, nağıllar, folklor, müasir dünyanın əks edilməsi və s. Bu kimi fortepiano pyesləri ilk addımlarını atan kiçikyaşlı musiqiçilər üçün zəngin tədris vəsaitidir.

XX əsrin 20-30-cu illərindən başlayaraq, Azərbaycanda uşaq fortepiano musiqisinin inkişafına maraq artır. Azərbaycanda ilk dəfə uşaq həyatı ilə bağlı mövzuları Asəf Zeynallı (1909-1932) öz "Uşaq süitası" nda əks etdirir. Ondan sonra uşaq musiqi yaradıcılığına müraciət edən bəstəkarlarımız üçün A.Zeynallının əsəri nümunə olmuşdur. Bu işdə xüsusi xidmətləri olan Azərbaycan klassiklərinin–Q.Qarayevin "Altı uşaq pyesi" (1950) və "Altı orta cətinlikli pyesi" (1965), "Qəmli hekayə" (1969), "Anadan olma gününə marş" (1979), "Fil və Alabaş" (1979), "F.Əmirovun "12 miniatür" (1954) və "Uşaq lövhələri" (1957), V.Adıgozəlovun uşaqlar ücün "Pyeslər" (1959), "24 uşaq pyesi" (1961), M.Mirzəyevin "Gənclik albomu" (1960), T.Quliyevin "Cəmilənin albomu" (1984) və s. uşaqlar ücün yazılmış fortepiano musiqisinin nümunələri tədris ədəbiyyatının əsasını təşkil edir.

Bu baxımdan Q.Qarayevin (1918-1982) yaradıcılığında mühüm yeri olan uşaq musiqisinin tədqiqi tədris prosesində geniş şəkildə təqiq olunmaqdadır. Q.Qarayevin "Altı uşaq pyesi" fortepiano musiqisi həm bədii, həm də pedaqoji baxımdan dəyərli musiqi nümunəsidir. Səciyyəvi musiqi obrazlarının dəqiq şəkildə təqdim edilməsi pyeslərin uşaqlar tərəfindən qavranılması ücün çox maraqlıdır. Hər bir pyes özündə müəyyən pedaqoji funksionallıq daşıyır. Qeyd etmək lazımdır ki, bütün əsərlərində olduğu kimi uşaq pyeslərində də bəstəkarın musiqi dili olduqca özünəməxsusdur və öz dəst-xətti ilə seçilir. "Qara Qarayevin pyesləri öz təbiəti etibarı ilə melodik xaraktrli olub, uşağın fortepiano fakturasının sirlərini tədricən öyrınmısinə xidmət edir. Burada Çaykovskinin musiqi obrazı üzərindəki iş təcrübəsi, Baxın polifonik musiqisinin əsasları, Prokofyevin müasir dissonans səslənməsi öz əksini tapmışdır. Ən əsas xüsusiyyət isə musiqinin milli koloritidir. Q.Qarayevin pyesləri qeyri-adi dərəcədə dinamik və parlaqdır" [4, s. 168-173].

Q.Qarayevin "Altı uşaq pyesi" məhz uşaqların ifası üçün nəzərdə tutulmuşdur. Əsərin əhəmiyyəti də elə bundadır ki, uşaqlar üçün pyeslər silsiləsi Azərbaycanda uşaq musiqisi ədəbiyyatını və uşaq musiqi məktəblərinin tədris repertuarını zənginləşdirməklə yanaşı, uşaqların musiqi qavrayışının, musiqi təxəyyülünün və ifa texnikasının formalaşmasında mühüm rol oynayır.

Məhz bu silsilənin uşaqlar tərəfindən ifasını nəzərdə tutan bəstəkar pyesləri uşaqların qavraya və ifa edə biləcəyi səviyyədə, sadə faktura, üslub və formada bəstələmiş, mümkün qədər mürəkkəb səs birləşmələrindən, melodik inkişafdan, akkordlardan, harmonik və polifonik üsullardan istifadə etmişdir. Uşaq həyatını və psixologiyasını əks etdirən bu pyeslərin hər biri proqramlı musiqidir. Ayrı-ayrılqda hər bir pyes uşaq düşüncəsinə xas olan fərqli bədii obrazlara malikdir. Bu fortepiano miniatürlərində bəstəkar sadə ifadə vasitələrilə uşaq həyatının səhnələrini təsvir etmişdir. Bu obrazlar müəllif tərəfindən uşaqların bədii

zövqün qəbul edə bildiyi tərzdə, sadə melodiya, faktura, harmoniya ilə yaradılmışdır. Digər tərəfdən, 6 pyes bir-birilə obraz, ifadə əlaqəsinə malik olub, silsilənin quruluşunu təşkil edir. "Q.Qarayevin fortepiano pyesləri öz təbiəti etibarilə melodik xarakterli olub, kiçik yaşlı ifaçının sirlərini tədricən öyrənməsinə xidmət edir. Bəstəkar sırf texniki çərçivəni genişləndirərək, pianoçunun pyesdə təcəssüm olunan kiçik bədii obraz üzərində düşünməyə çağırır. İfadə tərzinin sadəliyinə baxmayaraq, Q.Qarayevin uşaq pyesləri kiçik musiqiçinin dünyagörüşünü inkişaf etdirən intelektual patensiala malikdir və ona müəyyən mənəvi keyfiyyətlər aşılayır" [1, s. 116].

"Kicik vals", "Fırfıra", "Oyun", "Şən əhvalat" - məişət pyesləri olub, uşaqların daxili aləmini əks etdirir. "Düşüncə", "Hekayə" pyesləri ilə uşaq psixologiyasını incəliklə ifadə edərək nəzərə catdırılır."Altı uşaq pyesi" silsiləsinin hər bir pyesində bəstəkar kiçikyaşlı uşaqlarda müəyyən ifaçılıq bacarığının inkişafını nəzərdə tutur. Bəstəkar altı pyesdə milli lad xüsusiyyətlərini geniş tətbiq edərək , onları özünə xas olan, dərin fərdi üslubu ilə növbələşdirir – məsələn, bəstəkarın yaradıcılığı ücün səciyyəvi olan polifonik musiqini qeyd etmək olar. Musiqi tədqiqatşısı professor T.Seyidovun yazdığı kimi: "Bəstəkar altı pyesdə milli lad xüsusiyyətlərini geniş tətbiq edərək, onları özünə xas olan, dərin individual üslubu ilə növbələşdirir-məsələn, bəstəkarın yaradıcılığı üçün səciyyəvi olan harmonik polifuksionallığı qeyd etmək olar" [5, s. 115] .

"Kicik vals" (c-moll) adlı ilk pyesin ifası ifaçıdan musiqi təfəkkürün yetişmsini tələb edir. "Düşüncə" pyesində isə polifoniklik daha qabarıq ifadə olunmuşdur. Əgər birinci pyesdə faktura ücsəsliliyə qədər mürəkkəbləşirsə, bu zaman ikinci pyes dördsəsli şəkildə ifadə olunmuşdur. Bu pyesləri bir - birinə həm də ümumi janr yaxınlaşdırır. Yalnız fərq ondadır ki, "Düşüncə" adlı pyesdə valsvarilik gizli tərzdədir və bu, xanənin güclü təqtisində dayaq nöqtələrinin olmaması ilə bağlıdır.

İkinci pyes "Fırfıra" (a-mol) etüd xarakterlidir. Faktura etibarilə o, Qarayevin I dəftər, 1 № li C-dur prelüdünə yaxındır. Öz obrazlı məzmununa görə bu pyes fırlanan fırfıranın musiqi təsviridir. Bu cür effekt dörd onaltılıqlardan təşkil olunmuş eyni bir fiqurasiyalı - ritmik şəklin coxsaylı təkrar olunma üsulu ilə əldə olunur. Bu ifacılıq üsulu həm də vacib metodik faktordur. İnstruktiv baxımdan bu pyesin ifası zamanı əllərin eyni pozisiyada hərəkətlərin oynaq texnikasını inkişaf etdirir.

Üçüncü pyes "Fikirli" (d-moll) çox sakit tərzdə "andatino" tempində təqdim olunur. Bəstəkar buraada kiçik yaşlı musiqiçilıri sanki polifonik musiqini duymağa, hiss etməyə və fortepianoda ifa etməyə hazirlayır. Hər bir xanən sonu üçsəsin birlikdə ifası ilə bitir. Bu isə pyesin məzmununun, uşağın dərin xəyal dünyasının məzmununu açır. "Fırfıra"da olduğu kimi, "Oyun" da da eyni bir ifacılıq üsulu təkrar olunur. Bundan başqa, sol əlin ifası ilə başlayaraq güçlü təqtiləri vurğulamaq olduqca vacibdir ki, bu da pyesin ümumilikdə qavranılmasını asanlaşdırır.

"Oyun" (C-dur) adlanan dördüncü pyes tarantella tərzlidir. Pyesin quruluş üslubu klavesinistlərin (məsələn, D.Skarlatti) üslubunun ifasına olduqca yaxındır: mülayim, zərif və şəffafdır. Bu pyeslə ilk tanışlıq zamanı və xüsusilə onun üzərində gedən növbəti iş zamanı müəyyən cətinliklər meydana cıxır. Urəyində pyesin xəyalən ritmik və melodik cizgilərinə gorə bir-birinə bənzər olan motivlərini iki, uc, dörd xanəyə, iki dörd xanəyə və s. ayırmaqla bu cətinlikləri dəfet mək mümkündur. Aydın ifadəsini tapmış periodiklik, onun yeknəsəqliyi "Fırfıra"nı xatırladır. Yalnız fərq ondadır ki, birinci pyes də iki xanə məhdudiyyəti müşahidə olunur, bu pyesdə isə ritmik quruliş daha mürəkkəbdir.

Beşinci "Hekayə" (f-moll) fortepiano pyesində uşaq düşüncəsinin sanki "zümzümə etmək" kimi ön plana çəkilməsi aydın görünür. O, ballada ruhlu olub rəvayətedici

xarakterdədir və sanki gizli bir hadisə haqqında həyəcanlı etiraf kimi səslənir. "Bayatı-Şiraz" ladının intonasiyaları üzərində qurulan mövzu, on bir xanə boyu ümumi liqa ilə birləşdirilmişdir ki, bu ona elə həmin bəstəkarın lya minor sonatinasının ikinci hissəsindəki rəvan melodiyanı xatırladan "uzun" lirik mövzu xüsusiyyəti bəxş edir. Buna baxmayaraq, melodiya bir sıra qısa motivlərə ayrılır ki, bu da musiqiyə bir qədər tələş, həyacan gətirir. Təbii ki, şagird qarşısında pyesin xarakterinin ayrılmaz hissəsi olan "qısa" nəfəsi dəf etmək məsələsi durur. Bununla yanaşı, mövzunun ikinci kecidi zamanı, mövzu aşağı registrində səslənkən, əllərin "çarpazlaşması" üsulu ilə əlaqədar, əlavə çətinliklər meydana gəlir. Beləliklə, müəllif kompozisiyanı tədricən mürəkkəbləşmə üsulu üzərində qurur. Rəvanlığa nail olmaq, təbii, sərbəst ifaya yiyələnmək də xeyli güc tələb edəcək – burada ritmik şəklin şıltaqlığını (sinkopalar, triollar, uzun və qısa ritmlərin növbələşməsi), eləcə də xromatikləşmiş melodik xətti eyni vaxtda ifa etmək lazımdır.

Sonuncu "Şən əhvalat" (D-dur) pyesi silsilədə daha mürəkkəb pyesdir, belə ki, öz daxilində təzadlı musiqi mətnini cəm edir. "Şən əhvalat"ın musiqi mətni yumorlu, həyat coşqunluğu ilə nur sacır. O, qızğın, xəfif, çevik xarakteri ilə fərqlənir və özündə mahnıvari və rəqsvari cizgiləri cəmləşdirir. Bu xarakter öz ifadəsini hələ iki epizodlu rondo mövzusunun başlanğıcından götürür. Birinci epizod refrenlə (təkrarla) nəzərə carpacaq dərəcədə təzadlıliq təşkil edir. Əgər refrendə başlanğıc intonasiyasının müxtəlif lad variantlarında təkrarı rol oynayırdısa, bu zaman epizodda sekvensiyalı inkişaf üstünlük təşkil edir. İkinci epizod daha böyük və əhəmiyyətli tərzdə təqdim edilir. Burada mövzuya janr (marş) cizgiləri əlavə olunur. Bu mövzu ücün xanənin güclü və zəif hissələrinin aksentlə göstərilməsi səciyyəvidir. Pyes sona çatır, onunla birgə Qarayev tərəfindən ən cox sevilən qısa kadensiyalı harmonik funksiyaların qarşılaşdırılması ilə zarafatyana silsilə də bitir. Umumiyyətlə, pyes möhkəm stakkato və ritmik təmkinliliyin təkmilləşdirilməsinə kömək edir.

Qeyd etmək lazımdır ki, Q.Qarayev pyeslərində "Bayatı-Şiraz" məqamına üstünlük verir, eyni zamanda, "Rast", "Segah" məqamlarına da rast gəlinir ki, bu da çox zaman əsərin xarakteri ilə bağlı olur. Pyeslərdə məqamlar arası keçidlər də özünü göstərir və əhval-ruhiyyənin dəyişməsinə işarə edilir: "O, xalq musiqisindən sitat kimi istifadə etməyi də sevmirdi, xalq musiqisinə yaradıcılıqla yanaşırdı. Bu onun xalq musiqisinin incilərindən, xüsusilə qədim musiqidən necə məharətlə istifadə etdiyini görərik." [2, s. 29].

Məlum olduğu kimi, ilk addımını atan musiqicilər ücün "Altı uşaq pyesi" nin məntiqi davamı olaraq Q.Qarayev "Orta cətinlikli altı pyesi" bəstələmişdir. Özündən əvvəlki silsilə kimi, bu silsilə də ki, pyeslərində adı təbiət ilə bağlıdır.

"Yağış yağır" (C-dur) adlı birinci pyesdə yağış damcılarını duymaq mümkündür. Müəllif damcı tıqqıltısı effektini gücləndirərək, buna melodik xətlərdəki ayrı-ayrı səslərin müxtəlif əllər vasitəsilə otürülməsi ilə nail olur.

İkinci pyes "Kicik hekayə" (a-moll) iki mövzu üzərində qurulmuş balaca fuqatodur. Demək olar ki, bütün səs istiqamətləri mümkün olduğu qədər saxlanılır ki, bu da pyesin səslənməsini Qarayevi cox cəlb edən qədim polifonik formalara yaxınlaşdırır.

Üçüncü "Dağlarda" pyesini qədim polifoniyaya aid nümunələrdən biri kimi nəzərdən kecirmək olar. Lakin burada sona qədər saxlanılan "basso ostinato" (italyanca- davamlı bas) prinsipi pyesin əsas bünövrəni təşkil edir.

Dördüncü "Qarışıq fikir" (a-moll) adlı pyes eyni bərabərliklə təkrar olunan, tez-tez öz yüksəkliyini dəyişən çərəklər fonunda harmonik müşayiətdəki ostinato formalarını cəm edir. Melodiyada isə eyni bir musiqi frazası saxlanılmaqla, üst səsdə uzanan oktavalar bəzəyir. Bu pyesi "ideya fix" in (köhnə fikir) musiqi ifadəsi kimi müəyyən etmək olar.

Beşinci pyes "Unudulmuş vals" (gis-moll) XIX əsrə aid olan janrın klassik nümunəsi ruhunda təqdim edilmişdir. Özundən əvvəlki üc pyesdə olduğu kimi, Qarayev bu pyesdə də neoklassisizmin, qədim və klassik forma və janrların sadiq ardıcılı kimi cıxış edir.

"Xəzri əsir" (C-dur) adlanan silsilənin sonuncu pyesi faktura cəhətdən etüdü xatırladaraq, müxtəlif səpgili texniki passajların ifası ilə təqdim edilib. Obrazlı məzmun nöqteyi-nəzərdən müəllif şimal küləyinin sürət və gücünə görə fəzada daim dəyişən, gah yaxınlaşan, gah da uzaqlaşan cırpıntıları təsvir edir. Silsilənin pedaqoji dəyəri çox yüksəkdir, uşaqlara həm texniki bacarığı inkişaf etdirməyə imkan verir, həm də müxtəlif növ polifonik üsullarla işləmək qabiliyyətini üzə cıxarır. "Q.Qarayev fortepianonun imkanlarından, obraz məzmunu ilə sıx bağlı ən müxtəlif faktura üsullarından ifadəli istifadə edir. Çox vaxt bu və ya digər ifadə üsulu bütün pyesin surətini müəyyənləşdirir" [3, s. 221].

Beləliklə, hər bir fortepiano ifaçısı Azərbaycan bəstəkarlarının o cümlədən, Q.Qarayevin yaradıcılığını, eyni zamanda fortepiano uşaq musuqisi ilə tanış olmalıdır. Çünki o, insanı zənginləşdirir, həyatın fəlsəfəsini dərk etməyi öyrədir.

Ədəbiyyat

1.Azərbaycan musiqi tarixi. 5 cilddə. 3-cü cild. (red. Z.Səfərova), Bakı, Elm, 2018, 752 s.
2.Həsənova C. Musiqi həyatımız. Məqalələr. Bakı, Elm və təhsil, 2021, 544s.
3.Qasımova S., İmanova Ü., Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. Elm və Təhsil, Bakı, 2017, 488 s.
4.Sayutkin Y. Q.Qarayevin pedaqoji prinsipləri. "Musiqi dünyası" jurnalı, №1-2/15, 2003.
5. Seyidov. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika . ifaçılıq və bəstəkarlıq yaradıcılığı. Bakı, Təhsil, 2016, 336 s

Notoqrafiya

1. Q.Qarayev. Fortepiano əsərləri. Bakı, İşıq, 1979, 92 s.
2. К.Караев. Избранные пьесы. Москва, Советский композитор, 1988, 48 с.

МЕСТО ДЕТСКОЙ МУЗЫКИ В ТВОРЧЕСТВЕ КАРА КАРАЕВА

Мамедова Гасира Тофик кызы

Резюме

Детская музыка Азербайджанских композиторов для фортепиано занимает важное место в развитии истории музыки. Особое место в развитии детской фортепианной музыки занимает Кара Караев, один из выдающихся представителей национальной композиторской школы, прославивший Азербайджан во всем мире. Детская фортепианная музыка композитора является одним из ведущих жанров в его творчестве.

В статье рассмотрены «6 детских пьес» и «6 пьес средней сложности» для фортепиано и проанализированы их характерные особенности. Анализируются особенности лада и интонаций в пьесах, показывается их красочная образность и дается характеристика выразительности музыкального языка фортепианных пьес.

THE PLACE OF CHILDREN'S MUSIC IN THE WORKS OF KARA KARAYEV

Mammeadova Qasira Tofiq

Summary

Children's music for piano by Azerbaijani composers occupies an important place in the development of music history. Kara Karayev, one of the outstanding representatives of the

national composition school that introduced Azerbaijan to the world, has a special place in the development of children's piano music. The composer's children's piano music is one of the leading genres in his work.

In the article, K.Karayev's "6 children's plays" and "6 medium difficulty plays" for children's piano were reviewed and their characteristic features were analyzed. The analysis of the features of the moment-intonation in the plays is given, their colorful imagery and how to characterize the musical language with means of expression in the opening of the content is shown.

Rəyçi: baş müəllim Məmmədova R.
GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli iclasın 02 saylı protokolu
Daxil olma tarixi 12 oktyabr 2022-ci il

UOT:781.

MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ "ŞÜŞTƏR" MUĞAMINDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

Məmmədova Rəşidə Hamlet qızı
Gəncə Dövlət Universiteti
rashida.mamedova.68@mail.ru

Xülasə: *Muğam kamilliyə gedən yolun başlanğıcıdır, həyatı, kainatı dərk etmək üçün Allah tərəfindən insanlara verilmiş nemətdir.*

Muğamlar Azərbaycan xalq musiqisinin digər janrlarından əsaslı şəkildə fərqləndiyi üçün məktəblilərin musiqi qabiliyyətinin, mənəvi zənginliyinin inkişafına təsir imkanları da spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərin əsas mahiyyətini açmaq, pedaqoji istiqamətlərini daha aydın şəkildə nəzərə çatdırmaq çox mühüm vəzifələrdən sayılır.

"Şüştər" muğamının məktəblilərin milli estetik şüurunun formalaşmasında, klassik milli dəyərlərin təkrarolunmaz gözəlliyini nümayiş etdirmək yönəmində böyük tərbiyəvi əhəmiyyəti vardır.

Açar sözlər: musiqi, bəstəkar ,muğam, məktəbli, Şüştər
Ключевые слова: музыка, композитор, мугам, ученик, Шуштер
Key words: music, composer, mugham, shcoolchildren, Shushtar

Muğam əcdadlarımızın yaşadığı qədim dövrdən xəbər verən, uzaq və yaxın keçmişimizi özündə əks etdirən bu günümüzlə səsləşən və gələcəyə cəsarətlə addımlayan musiqi janrıdır.

Azərbaycan musiqisinin bütün şərqdə böyük şöhrət qazandığını qeyd edən orta əsr mütəfəkkirlər, şairlər və musiqişünas alimlərimizdən: Bəhmənyar (XI əsr), Qətran Təbrizi (XI), Nəsirəddin Tusi (XII), Nizami Gəncəvi (XII), Xaqani Şirvani (XII), Səfiəddin Urmavi (XIII), Əbdülqadir Marağai (XIV), Mir Möhsün Nəvvab (XIX) musiqi, musiqi alətlərimiz ilə yanaşı muğam haqqında söylədikləri elmi- fəlsəfi fikirlər çox zəngindir.

Professor Sevda Qurbanəliyeva yazır: "Azərbaycan muğamı əsrlərlə cilalanmış, böyük təkamül və inkişaf yolu keçərək çağdaş günlərimizədək gəlib çatmışdır. Muğam təkcə uzaq keçmişin abidəsi deyil, o müasir həyatımızın da ayrılmaz hissəsidir" [6.11].

Muğam bu gün milli Azərbaycan təfəkkürlü insanlar formalaşdırmaq üçün ən yaxşı vasitədir.

“.....Azərbaycan musiqisi muğamat üzərində qurulmuşdur. Eyni zamanda Azərbaycan zövqü deyil, bütün Qafqaz, Şərq xalqlarının bədii zövqüdür...”[7.22]

Müasir ümumtəhsil məktəblərinin musiqi dərslərində digər janrlarla bərabər, klassik muğamlarımız (“Şüştər”) vasitəsilə məktəblilərdə Vətənə məhəbbət, cəsurlur, qoçaqlıq, qəhrəmanlıq, doğruçuluq, düzgünlük, əqidə saflığı, namusluluq, şərəflilik kimi mənəvi keyfiyyətlərin musiqi dərslərində tədris olunan muğamlar vasitəsilə mənəvi-estetik tərbiyyənin formalaşdırılması prosesində daha səmərəli şəkildə istifadə olunurlar.

Vətənə, doğma yerlərə məhəbbət qədim zamanlardan Azərbaycan xalqına xas olan xüsusiyyət olmuşdur. Bu xüsusiyyət el arasında böyüklərdən kiçiklərə bir varislik kimi keçmişdir.

Klassik muğamlarımızın bir sıra şöbələri (“Şüştər”) məktəblilərdə vətənpərvərlik, xalqa, Vətənə, ata-anaya,torpağa sevgi kimi hissləri özündə əks etdirir.

Azərbaycan muğamlarının hər bir nümunəsi (“Şüştər”)mənəvi tərbiyə prosesində böyük potensial imkanlara malikdir. Bu əvəzsiz sənət nümunələrindən dərs prosesində, habelə fənnlərarası əlaqə yolu ilə digər incəsənət nümunələrindən də kompleks şəkildə istifadə etmək, tərbiyəvi amilləri daha aydın şəkildə üzə çıxarmaq mümkündür.

Muğamlarımızın tədrisi prosesində verilən tarixi məlumatlar öz növbəsində məktəblilərin bilik dairəsinin genişlənməsinə,mənəvi zənginliyinin artmasına qüvvətli təsir göstərir.

“Şüştər” - əsas Azərbaycan muğam dəstgahlarına aiddir. Şüştər termini bir muğam adı kimi yayılmışdır. Bildiyimiz kimi şüştər ruhi təsir cəhətdən dinləyiciyə dərin kədər hissi oyadır. “ "Şüştər” muğamı təzadlı muğamdır. Çünki qəmgin hisslər doğuran bu muğam insanları,dinləyiciləri nikbin olmağa ruhlandırır. Dinləyici sanki dərdini bölüşməyə, qüssəsinin hərarətini soyutmağa adam və ya yer axtarır. İnsan xəyala dalır, düşünür, hisslərə qapılır” [8.185].

R.Zöhrabov qeyd edir: “ “Şüştər” eyni zamanda dünya, kainat mənasını da daşıyır” [8.147].

“Şüştər” muğamı mənəvi və estetik – emosional təsirinə görə insanlara qəmginlik aşılayır. Dinləyicini düşünməyə, xəyala dalmağa təhrik edir, xalqımızın başına gəlmiş müsibətləri, ata-babalarımızın qəmli, qara günlərini sanki göz önünə gətirir. Muğamlar haqqında aşağı siniflərdən başlayaraq məktəblilərə onların başa düşəcəyi şəkildə məlumat verilməsinə N.Məlikməmmədovun II sinif üçün yazdığı “ Musiqi” dərsliyində də xüsusi diqqət yetirilmişdir. Bu cəhətdən həmin dərslikdə “Şüştər” muğamı haqqında verilən nəzəri məlumat böyük maraq doğurur : “Şüştər”, xalqımızın çox qədimdən dinlədiyi muğamlardan olub, təkcə Azərbaycanda deyil, bir çox başqa qonşu ölkələrdə də yayılmışdır. Bu muğam başqa muğamlardan fərqli olaraq,yalnız instrumental ifa edilir, yəni oxunmur.”Şüştər” muğamı iki şöbədən ibarətdir. “Şüştər”in mayesi və tərkib. Bu muğam kamançada xüsusilə gözəl səslənir”.[8.16] Dərslikdə verilən həmin mətn müxtəsər şəkildə olsa da “Şüştər” muğamının bədii-estetik mahiyyəti haqqında müəyyən təsəvvür yaradır. Məktəblilərə muğamlarımız haqqında dərsliklərdə bu cür anlaşıqlı məlumatların verilməsi təqdirə layiqdir.
Mənəvi və estetik-emosional təsirinə görə bu muğam insanlarda qəm,qüssə,dərin kədər hissi oyadır.Vaxtilə zülm altında inləmiş xalqımızın,nakam oğul və qızlarımızın əzablı günlərini yada salır, insanları birliyə çağırır.

Dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyli muğamlarımızın milli musiqi sənətimizin inkişafındakı mövqeyini, geniş imkanlarını çox gözəl duyaraq bütün yaradıcılığı boyu bu əvəzsiz sənət incilərinə, onların lad əsaslarına xüsusi diqqət yetirmiş, hissi - emosional təsir xüsusiyyətlərini müəyyən etmişdir:

"Bədii ruhi təsir cəhətindən "Rast" dinləyicidə mərdlik və gümrahlıq hissi, "Şur" şən, lirik əhvalı - ruhiyyə, "Segah" məhəbbət hissi, "Şüştər" dərin kədər, "Çahargah" həyəcan və ehtiras, "Bayatı - Şiraz" qəmginlik, "Humayun" isə "Şüştər"ə nisbətən daha dərin bir kədər hissi oyadır" [9.15].

Böyük şairimiz Səməd Vurğun Azərbaycan muğamlarının əhəmiyyətindən bəhs edərək demişdir: "Bizim muğamlarda bədbinlik yoxdur. Nə üçün mən "Rast"a, "Şüştər"ə qulaq asanda ağlayım? Mən heç bədbin olmaram, ruhdan düşmərəm. "Şüştər" rast çalandıqda onun elə əzəmətli yeri var ki elə bil ki qarşından karvan keçir, həyatı, təbiəti hiss edirəm" [7.23].

"Şüştər" muğamı Vətənimizin, xalqımızın başına gəlmiş dəhşətli hadisələrdən danışır."Şüştər" muğamını dinləyən məktəblilər ruhdan düşməməli,əksinə Vətənin gələcək xoşbəxtliyi uğrunda mübarizəyə qoşulmalı, daha çox oxuyub öyrənməli, geniş biliyə malik olmalıdırlar.

Akademik T.Bünyadov yazır: "...Laylamdı, qeyrətimdi muğamlar. Tərbiyəmdi, qəmli gözləri yaşarandı muğamlar. Bəli, Allah vergisi,tanrı payımız, ilahi qismətimizidir muğamlar.Qaranlığa işıq salan, insanlara nur paylayan günəşdi, aydı, ulduzdu, təlim-tərbiyə lisanımızdı muğamlar..." [2.60-61]

Muğamlarımız mübarizə ruhu yaratmaq imkanlarına malikdirlər. Xalqımızın başına gələn müsibətlər, bütövlükdə Vətənin faciəsi ilə əlaqədar hisslər yarada bilən muğam və muğam şöbələri də vardır. Bu mənada müxtəlif tarixi hadisələri, o cümlədən xalqımıza zülm edilən 20 yanvar 1990-cı ilin dəhşətlərini əks etdirməklə "Şüştər" muğamı daha səciyyəvi təsir imkanlarına malikdir.

Göründüyü kimi klassik Azərbaycan muğamlarının ("Şüştər") şöbələri,mənəvi estetik təsiri müxtəlifdir. Buna görə də aşağı siniflərdən başlayaraq çox gözəl, bitkin, dəyərli əsər təsiri bağışlayan muğamlarla məktəbliləri tanış edərkən əyaniliyə, daha maraqlı iş formalarına, yeni təlim üsullarından istifadə etməyə diqqət yetirilməlidir. Hər bir muğam və onun müvafiq şöbəsi ilə əlaqədar verilən maraqlı məlumatlar məktəblilərin musiqi-estetik görüşlərini inkişaf etdirir.

Fəlsəfə elmləri doktoru, professor Gülnaz Abdullazadə yazır: "Muğamlarımızın fəlsəfi-estetik mahiyyəti ilə bağlı deyilən fikirlər eyni zamanda təlim- tərbiyə prosesində, muğamlar haqqında söhbət açılan onların dinlənilməsi təşkil olunan müxtəlif xarakterli musiqi dərslərində geniş istinad olunmalıdır, çünki muğamlar zəngin musiqi sərvəti olmaqla yanaşı eyni zamanda mənəvi zənginlik, mənəvi tərbiyə vasitəsidir [1.9].

Müasir Azərbaycan xalq musiqisinin məqam əsasları ilk dəfə böyük bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən işlənilmiş və müəyyən sistemə salınmışdır. Azərbaycan məqamları sistemini 7 əsas və 3 əlavə məqam təşkil edir. Rast, şur, segah, şüştər, çahargah, bayatı- şiraz və humayun Azərbyacan musiqisinin 7 əsas məqamıdır. Üç əlavə məqam şahnaz, sarənc və II növlü cahargahdan ibarətdir. Üzeyir Hacıbəyli xalq musiqimizin əsaslandığı 7 müxtəlif lad-məqam müəyyən etmiş və onları muğamların adı ilə adlandırmışdır. Üzeyir Hacıbəyli tərəfindən müəyyənləşdirilən bu məqamlar ola bilsin ki, tamamilə başqa cür adlana bilərdi, lakin hər belə məqam hansı muğamın əsasını təşkil edirsə, Üzeyir Hacıbəyli onu həmin muğamın adı ilə də adlandırmışdır.

Beləliklə, məlum olmalıdır ki, eyni adlı məqam ilə muğam arasında müəyyən fərq vardır, yəni Rast məqamı Rast muğamı demək deyildir və yaxud da Şur muğamı Şur məqamı olmayıb, bir - birindən müəyyən xüsusiyyətlərinə görə də fərqlənir [3.16].

Bu məqamlarda eyni adlı muğamların fərqi ondan ibarətdir ki, onlardan biri-muğam bədii estetik təəsürat doğuran canlı musiqi nümunələri olduğu halda,digər məqam isə muğamların bir növ fərəqə sütununu təşkil edən müəyyən səs sıralarından ibarətdir, yəni

“ Şur” muğamı eyni adlı “ Şur” məqamında “Rast” muğamı “Rast” məqamında, “Şüştər” muğamı “Şüştər” məqamında və s.qurulur və ona əsaslanır.[4.9-10.]

“Şüştər” lad – məqam kimi də Azərbaycanda özünə təşəkkül tapmış 7 əsas muğamdan biridir. XIX əsrin sonlarında bu muğam dəstgahı 13 şöbə və guşəni özündə cəmləşdirirdi. Ü.Hacıbəylinin rəhbərliyi ilə 1925-ci ildə “Muğam şurası” tərəfindən qəbul edilmiş proqramda “Şüştər” 8 şöbə və guşəni əhatə etmişdir. Bu dəstgaha 5 şöbə və güşə daxildir. Ümumtəhsil məktəblərinin musiqi proqramlarında digər muğamlarla birgə öz əksini tapan “Şüştər” muğamı daha həyati mövqedən,anlaşıqlı şəkildə şərh edilməsi üçün ayrı-ayrı şair və yazıçılarımızın müvafiq əsərlərindən də istifadə olunur. Hər bir muğam və onun müvafiq şöbəsində əlaqədar verilən maraqlı məlumatlar məktəbllilərin musiqi-estetik görüşlərinin inkişaf etdirir. Məktəblilərin bir sıra muğamların (“Şüştər”) onların müvafiq şöbələrinin dinlənilməsinin təşkilində, bu yolla tədrisində əsas məqsəd milli musiqi ladlarımız əsasında yaranan eyni adlı muğamlarımız vasitəsilə məktəblilərin estetik tərbiyəsini, mənəvi zənginliyini, musiqi inkişafını, bədii-estetik qabiliyyətlərini inkişaf etdirməkdən ibarətdir.

Muğamların təhsil və tərbiyəvi əhəmiyyəti bu janrlardakı ayrı-ayrı nümunələrin, o cümlədən digər muğamlarla bərabər “Şüştər” muğamı eyni adlı ladların məktəblilərinin musiqi- estetik inkişafındakı rolu , imkanları pedaqoji-metodik vəsaitlərdə daha çox nəzərə çarpmışdır.

Klassik muğamlarımızın (“Şüştər”) əksəriyyəti “Musiqi” dərsinin müxtəlif mərhələlərində özünə yer tapmışdır ki, bunun da məktəblilərin estetik tərbiyəsi sistemində, onların musiqi mədəniyyətinin formalaşmasında böyük əhəmiyyəti vardır.

Muğamlarımızın dinlənilməsi prosesində klassik ladlarımız və bəstəkarlarımızın bu ladlar əsasında yaratdıqları kiçik və iri həcmli vokal və instrumental əsərlərdən, xüsusilə Azərbaycan bəstəkarlarının simfonik muğamlarından gətirilən nümunələr üzərində dayanılması, xarakterik müqayisələrin aparılması, nəzəri məlumatların verilməsi, məktəblilərin musiqi hafizəsini, fikir mühakimə yürütmə qabiliyyətlərini inkişaf etdirir.

“Şüştər” muğamının tərbiyəvi əhəmiyyətini məktəblilərə daha əlverişli şəkildə çatdırmaq məqsədilə bu janrın bədii – estetik mahiyyətini açıqlayan hikmətli fikirlərə, bədii əsərlərə, müvafiq elmi-tədqiqat işlərindən nümunələrə və yeni təlim üsullarından lazımi yer verilməsi və istifadə olunması məktəblilərin estetik mədəniyyətinin inkişafına. Formalaşmasına möhkəm zəmin yaradır.

Professor N.K.Kazımov yazır : “ Muğamların məna dəyərləri, estetik mahiyyəti haqqında təsəvvürlərin formalaşdırılması çox mühüm məsələdir...”[5.7]

Muğam bizim azadlığa və müstəqilliyə qovuşduğumuz məsud anların fərəhi, sevincidir. Muğam dərdli günlərimizdə – Yanvar qırğını, Xocalı soyqırımı, Qarabağ faciəsinin qara günlərində təskinliyimiz, Şəhidlərimizin tökdüyü qanımız, torpaqlarımızın alınmasında çaldığımız zəfərimizdir. Muğam bunu əsrlər, minilliklər boyu qoruyub saxlayan xalq kimi ölməzdir, əbədidir.

UNESCO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın yazdığı kimi: "Muğam bizim qəlbimizin xüsusi məqamıdır… Muğam dəryasının sualtı cərəyanları çoxdur, bu cərəyanlara daldıqca biz insan hisslərinin sirli yelpazəsinin istiliyini hiss edə bilirik, varlığı onun bütün müxtəlifliyində dərk edirik. Elə buna görə də biz muğama dönə-dönə qayıdırıq. O artıq bizim həyatımızın bir hissəsi deyil, o bizim özümüzdür”.

Ədəbiyyat

1. Abdullazadə Q. “Muğam” , Bakı, 1983, 120 s.
2. Bünyadov T. Əsrlərdən gələn səslər. Bakı.1993.297 s.

3. Xəlilov V. “Muğamların tədrisinə dairf metodik tövsiyyələr”, Bakı, 1982,67 s.
4. İsmayılov M.S. Azərbaycan xalq musiqinin janrları. Bakı,1984.100 s.
5. Kazımov N.K. Ümumtəhsil məktəblərində muğamların tədiri məsələləri. Bakı,2000. Səh.7
6. Qurbanəliyeva S. “Şəxsiyyət və musiqi”, Bakı, 2010, 160 s.
7. Qasımov Q. “Xalq şairi və xalq musiqisi” , “Elm və həyat jurnalı”,Bakı, 1966, № 10, 22 s.
8. Məlikməmmədov N. Musiqi II sinif üçün dəslik. Bakı, 1974.132 s.
9. Zöhrabov R. “Muğam”,Bakı, 1991, 219 s.

Saytoqrafiya:

10. www .musiqi-dünya.az

ПУТИ И ВОЗМОЖНОСТИ ИСПОЛЪЗОВАНИЯ МУГАМА “ ШУШТАР” В МУЗЫКАЛЪНОМ ВОСПИТАНИИ ШКОЛЪНИКОВ

Мамедова Рашида Гамлет кызы

Резюме

Мугам – это начало пути к совершенству, божий дар к пониманию и осмыслению жизни вселенной. В силу того, что мугамы коренным образом отличаются от других жанров Азербайджанской народной музыки, они обладают специфическими возможностями воздействия на музыкальные способности и нравственное обогащение школьников. Одной из основных задач является подробное рассмотрение значения этих особенностей, наглядный показ и описание педагогических направлений.

Мугам «Шуштар» имеет большое воспитательное значение в формировании национальных эстетических представлений и сознательности школьников, и в аспекте демонстрирования неповторимой красоты и величия классических национальных ценностей.

POSSIBLITIES AND WAYS OF USING “ SHUSHTAR MUGHAM IN MUSIC EDUCATION OF SCHOOLCHILDREN

Mammadova Rashida Hamlet

Summary

Mugham is the beginning of the path to perfection, a blessing given to people by God to understand life and the universe. Since mughams are fundamentally different from other genres of Azerbaijani folk music, they also have spesifik features to influence the development of musical ability and spiritual richness off schoolchildren. It is considered one of the most important tasks to reveal the main essence of these features, to more clearly concider their pedagogic directions.

“Shushtar” mugham has great educational importance in the formation of the national aeshetic consciousness of schoolchildren, in the direction of demostratinc the inimitable beauty of classical national values.

Rəyçi: baş müəlllim Məmmədova Q.
GDU-nun “Musiqi fənləri” kafedrasının 26 oktyabr 2022-ci il tarixli içlasın 02 saylı protokolu
Daxil olma tarixi 12 oktyabr 2022-ci il

UOT:78.

AĞABACI RZAYEVANIN YARADICILIĞINDA UŞAQ MUSİQİSİ

Məhərrəmova Səma Bəşir qızı
Gəncə Dövlət Universiteti
Semameherremova74@mail.ru

Xülasə: *Azərbaycan bəstəkarlarının uşaq musiqisi musiqi tarixini inkişafında özünəməxsus yer tutur. Uşaq musiqisinin inkişafında Azərbaycanın görkəmli bəstəkarı A.Rzayevanı xüsusi qeyd etmək olar.*

Ağabacı Rzayevanın uşaq üçün yazdığı "Kukla", "Şən yolka", "Göyərçinim", "Vətən" və s. mahnıları uşaqlara nəciblik, xeyirxahlıq, vətənpərvərlik hissləri aşılayır.

Məqalədə Ağabacı Rzayevanın uşaq musiqisi nəzərdən keçirilmiş və səciyyəvi xüsusiyyətləri təhlil edilmişdir.

Açar sözlər: bəstəkar, yaradıcılıq, musiqi, musiqi tərbiyəsi, mahnı.

Ключевые слова: композитор, творчество, музыка, музыкальное воспитание, песня.

Key words: composer, creativity, music, music education, song

Ağabacı Rzayeva (1912-1975) Azərbaycanda eləcə də bütün Şərqdə ilk professional qadın bəstəkar kimi musiqi tarixinə daxil olan simadır. Əməkdar incəsənət xadimi Ağabacı Rzayeva yaradıcılığında musiqinin bir çox janrlarına müraciət etmiş, musiqili səhnə əsərləri, müxtəlif alətlər üçün pyeslər, xalq çalğı alətləri orkestri üçün əsərlər yazmışdır.

Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəylinin kompozisiya sinifində təhsil almış, onun ən sevimli tələbələrindən biri olmuşdur. Musiqi-nəzəri fənlərdən isə ona Ü.Hacıbəyli, Ə.Bədəlbəyli və C.Hacıyev dərs deyirlər. Bir il sonra o, Ü. Hacıbəylinin yaratdığı ilk notlu xalq çalğı alətləri orkestrinə qəbul olunur, 1938-ci ildə isə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında iştirak edir. O, həm Azərbaycanda, həm də bütün Şərqdə peşəkar musiqi təhsilini almış ilk qadın-bəstəkardır.

Üzeyir Hacıbəyli Ağabacı haqqında bu sözləri demişdir: "Xalqını sev. Əsərlərini xalqın başa düşəcəyi dildə yaz ki, xalq da səni sevsin. Sən sübut etdin ki, qadın da bəstəkar ola bilər" [1, s. 25].

1942-ci ildə onu Azərbaycan Bəstəkarlar İttifaqına uzv seçirlər. Artıq o, daha məsuliyyətli, daha məhsuldar işləməyə başlayır. Biri-birinin ardınca mahnı-romanslar yazır. 40-cı illərin mahnı-romansları arasında Mirvarid Dilbazinin sözlərinə yazılmış "Partizan oğlu", "Qəhrəman ananın qəhrəman oğlu" və s. göstərmək olar. 1944-cü ildə Tbilisi şəhərində keçirilən Zaqafqaziya Respublikalarının musiqi onqünlüyündə o vaxt Azərbaycanın qənc bəstəkarları olan Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Fikrət Əmirovla birlikdə A.Rzayevanın da əsərləri böyük müvəffəqiyyətlə səslənmişdi. Onun orkestr üçün yazdığı "Yallı" instrumental əsəri ilə yanaşı görkəmli müğənnimiz Bülbülün ifasında mahnı-romanslarından "Gözləyirəm sevgilim" (sözləri Cəfər Xəndanın), "Gözlərin" (söz.İsmayıl Soltan), "Dilbərim" (söz. Zeynal Cabbarzadə) ifa olunmuş və böyük müvəffəqiyyət qazanmışdı.

Araşdırmalar göstərir ki, A.Rzayeva respublikanın ictimai həyatında da fəal iştirak etmişdir. O, bir neçə çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuş, 2 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf Nişanı" (1972) ordeni və müxtəlif medallarla təltif olunmuşdu. 1960-cı ildə ona əməkdar incəsənət xadimi fəxri adı verilmişdir.

Ümumiyyətlə A.Rzayeva o xoşbəxt sənətkarlardan idi ki, onun mahnı-romanslarını Bülbül, Şövkət Ələkbərova, Firəngiz Əhmədova, Rəhilə Cabbarova, Sona Aslanova kimi müğənnilər ifa etmişdilər.

A.Rzayeva söz sərrafı idi. Poeziyanı, şeriyyatı gözəl bildiyi ücün mahnı və romanslarında sözlərə böyuk əhəmiyyət verir, klassik şairlərə müraciət edirdi. Onun romanslarında daha çox Nizami Gəncəvi, M.Füzuli, İmaməddin Nəsimi, M.P.Vaqif, X.Natəvan, M.Ə.Sabir, M.F.Axundov, Səməd Vurğun, M.Müşfiq N.Hikmət və başqalarının şerlərinə rast gəlmək olur. Bəstəkar Rus poeziyasına da böyuk məhəbbətlə yanaşırdı.

Maraqlıdır ki, Azərbaycan bəstəkarı rus poeziyasının əlçatmaz zirvəsində möhkəm dayanan A.Puşkin və M.Lermontovdan edilmiş tərcümələrdən də ilham almış, Balakirev və Raxmaninov kimi "Oxuma, gözəl" şerinə müraciət etmişdir. Romans böyük müğənni Bülbülün təfsirində geniş dinləyici rəğbəti qazanmışdır.

Qeyd edək ki, A.Rzayeva musiqinin digər janrlarına da muraciət edib. Bəstəkarın yaradıcılıq portfelində həmkarı İsmayıl Quliyevlə birlikdə yazdığı "Höcət eləmə" musiqili komediyası, bir sira instrumental əsərlər, Xalg Çalğı Alətləri üçün "Şənlik süitası", "Rəqs", "Yallı", "Cəngi", simli kvartet üçün variasiyalar, tar, kamança, qaboy üçün pyeslər və s. əsərlər vardır.

F.Xalıqzadə "Azərbaycanın ilk qadın bəstəkarı" adlı məqaləsində qeyd etmişdir ki, "Ağabacı Rzayevanın özünəməxsus dəst-xətti sənətdə atdığı ilk addımlardan müəyyənləşir. Xalq musiqisinə yaxınlıq, ifadəli melodik üslub, daxili hisslər aləmini səslər vasitəsilə dinləyicilərə çatdırmaq və şerlərin ruhuna həssaslıqla yanaşmaq istəyi, şübhəsiz, Ü.Hacıbəyli sənətinin müsbət təsirinin nəticəsi idi" [10, s. 32].

Mahnı janrı musiqinin mürəkkəb formalarından biridir. Çünki, kiçik bir əsərdə böyük bir fikri ifadə etməyi hər bəstəkar bacarmır. Mahnı janrının öz formaları, öz üslubları var. Bəstəkar A.Rzayevanın yaradıcılığının əsas və ən böyük bir qolunu mahnı və romanslar təşkil edir. Onun yazdığı hər bir romansı hər bir mahnısı ilk ifasından xalq tərəfindən sevilib, dillər əzbəri olub.

Bəstəkarın mahnı və romanslarında müasir şerimiz o qədər geniş təmsil olunmuşdur ki, həmin əsərlər vasitəsilə poeziyamızın müxtəlif simaları, əsas təmayülləri və ümumi inkişafı barədə müəyyən təsəvvür əldə etmək olar. N.Rəfibəyli, İ.Səfərli, Ş.Qurbanov, M.Rahim, Z.Cabbarzadə, Z.Xəlil, M.Dilbazi, T.Elçin, M.Araz, T.Mütəllimov və başqalarının şerləri onun bəstəkar qəlbini ilhamlandırmışdı. Bundan başqa, bəzən Ağabacı Rzayeva özü də şairliyə meyl etmiş, bəzi mahnıları öz sözlərinə bəstələmişdir – "Durna qatarlı qızlar".

Bəstəkarın vokal yaradıcılığında müxtəlif səpkili romanslar (o cümlədən, qəzəl-romans janrı), vətənpərvərlik və sülh, əmək və məhəbbət mövzuları, eləcə də uşaq həyatının müxtəlif səhnələrini canlandıran mahnılar çoxsaylı nümunələrlə təmsil olunmuşdur.

Əziz müəllimi, ölməz Ü.Hacıbəyli sənətinin güclü təsiri ilə A.Rzayeva Azərbaycan şairlərinin qəzəllərinə bir sıra musiqi yazmışdır – "Könlüm" (Nizami), "Afəti cansan" (Füzuli), "Zülfi pərişan olmasın" (Sabir), 70-ci illərdə isə Nəsiminin 600 illik yubileyi münasibətilə dahi şairin sözlərinə eyni qəbildən olan silsilə əsərlər yaranır ("Gəl, nigarım", "Bahar oldu", "Gül açıldı"). Bu barədə müəllif deyirdi: "Məni Nəsimi şerinə musiqi bəstələməyə vadar edən şairin incə lirikası, misralarındakı ahəngdar bağlılıq, bir də sərpa soyularkən ağlamayan mərdanəliyidir" [10, s. 32].

Onu da qeyd edək ki, professor S.Qurbanəliyeva "Nizami Gəncəvi poeziyasının Azərbaycan bəstəkarlarının vokal əsərlərində təcəssüümü" kitabında Ağabacı Rzayevanın "Könlüm" və "Qəmər nə lazım" romans-qəzəlləri haqqında yazmış və bu qəzəllərin təhlilini vermişdir [2, s. 71-75].

A.Rzayeva başqa həmkarlarından fərqli olaraq, Üzeyir Hacıbəylinin ölümünün ildönümü ilə əlaqədar Hüseyn Abbaszadənin sözlərinə "Sənin xatirən" adlı qəzəl-romans yazır və unudulmaz müəlliminin əziz xatirəsini əməli yaradıcılıq işilə anaraq, ona qarşı bəslədiyi səmimi hisslərini ifadə edir.

A.Rzayevanın mahnılarının başlıca qəhrəmanı parlaq sabahımızın qurucuları olan əmək adamlarıdır.

Araşdırmalar göstərir ki, A.Rzayeva 10 mart 1964-cü il tarixli "Böyük qayğı" məqaləsində yazırdı: "Mən bu mahnıları yazmazdan əvvəl ayrı-ayrı kəndlərə gedir, kolxozçuların həyatı ilə yaxından tanış oluram. Əlbəttə ki, bu da əsərlərimə öz müsbət təsirini göstərir. Yaxşı yadımdadır, rayonların birində qoyunçuluq fermalarında çobanlarla görüsüb, qoyun-quzuların içində gəzib, təmiz dağ havasını udandan sonra yazdığım "Çoban Qara" mahnısı daha real, daha təsirli çıxdı" [1, s. 49]. O, qəhrəman neftçilərimizi də unutmayıb. 50-ci illər yaradıcılığına nəzər salanda görürsən ki, bəstəkarın neftçilərə həsr olunmuş bir sıra silsilə mahnıları vardır. "Neftçilər", "Bizim Fərman", "Məzəli neftçi", "Neftçi Qurban" bu qəbildən olan mahnılardır. Mahnılarını yazarkən şairlərlə birlikdə işləməyi xoşlayan bəstəkar, özü də bir sıra mahnılarına sözlər yazmışdı. Məsələn, "Durna qatarlı qızlar", "Bizim sahə milisi" və s.

Əmək mahnıları ilə yanaşı A.Rzayevanin yaradıcılığının böyük bir qismini lirik mahnılar tutur. Onların arasında dillər əzbəri olan "Evimizə gəlin qəlir", "Toy mahnısı", "Telli sazım", "Kəklik", "Şuşanın yolları" və başqalarını göstərmək olar.

Bütün bu əsərlərdə bəstəkarın özünə məxsus dəsti-xətti hiss olunur. Onun musiqi dili sadə, harmoniyaları dolğundur. Xalq musiqisinə yaxınlıq, həzin melodiya əsərlərinin qayəsini təşkil edir.

Qeyd edək ki, A.Rzayeva yaradıcılığında uşaq musiqisi əhəmiyyətli yerlərdən birini tutur. 30 dekabr 1965-ci il "Azərbaycan müəllimi" qəzetində çıxan "Uşaqların tərbiyəsinə dair" məqaləsində Ağabacı Rzayeva yazırdı: "Uşaqların bədii-estetik zövqünü inkişaf etdirməkdə, onlarda nəcib sifətlər yaratmaqda musiqinin boyük rolu oldugu hamıya məlumdir. Təsadüfi deyil ki, bir çox elləri gəzən, dillər əzbəri olan "Kukla" mahnısı uzun illərdir Azərbaycan musiqi xəzinəsinə daxil olan ən yaxşı uşaq mahnılarından biridir" [1,s.6].

1965-ci ildə Ağabacı Rzayeva bəstəkar İsmayıl Quliyev ilə birlikdə Həzi Məmmədovun librettosu əsasında "Höcət eləmə" musiqili komediyasını yazır.

"Bakı" qəzetinin 3 noyabr 1965-ci il tarixli nömrəsində musiqişünas Xanlar Məlikov musiqili komediyaya həsr olunmuş məqaləsində yazırdı: "Əsəri komediyanın həyat sevər musiqisi oldiqca zənginləşdirir. Bütün musiqili komediya boyu A.Rzayevanın "Kukla" uşaq mahnısının melodiyası eşidilir. Bu melodiya əsərin uvertürasında, xor və rəqs nömrələrində səslənir. "Kukla" uşaq mahnısının əsərdə səslənməsi heç də təsadüfi deyil. Çünki komediyada hadisələr uşaq oyuncaqları fabrikində baş verir. Ümumiyyətlə bəstəkarın "Kukla" uşaq mahnısının taleyi çox uğurlu olmuşdir. Bu mahnı yarandığı gündən populyar olmuş və bu günə qədər uşaqların sevimli mahnısı olaraq qalmışdır" [1, s. 42].

Uşaqlara aid mövzular bəstəkarı daim maraqlandırmış və düşündürmüşdür. Gənc dostları olan məktəbliləri, kicik yaşlı uşaqları unutmayaraq onlar uçun biri-birindən gözəl mahnılar yazmışdı. "Kukla", "Qaranquş", "Bakı metrosu", "Qərənfiləm mən", "Ağ göyərçinim", "Balaca kapitan" və s. Bütün bu mahnılar bu günə gədər də öz əhəmiyyətini itirməyib, məktəb proqramlarında öz yerini tutub və uşaqların sevimli mahnılarına çevriliblər. Çunki, bəstəkar A.Rzayeva bu mahnıları uşaqların anladığı dildə yadda qalacağı tərzdə yazıb, melodiyalarının gözəlliyi ilə onları özünə cəlb edib.

Sevimli bəstəkarın son iri həcmli əsəri Azərbaycanın xalq şairi Mirvarid Dilbazinin eyniadlı poeması əsasında bəstələdiyi "Günəş eşgi" adlı uşaq operasıdır.

Bəstəkarın yaradıcılığı gənc nəsillər üçün gözəl bir məktəbdir.

Bəstəkarın mahnılarına ümumtəhsil məktəbləri üçün "Musiqi" dərsliklərində verilən yeri əyani olaraq cədvəl vasitəsilə göstərək:

Sinif	Mahnının adı	Dərsliyin müəllifləri, nəşr ili	Dərslikdə yeri
I	Sözləri M.Seyidzadənin "Göyərçinim"	O.Rəcəbov, T.Babayeva	Bakı, 2020,səh.54
II	Sözləri H.Ziyanın "Bakı metrosu"	O.Rəcəbov, N.Kazımov, N.Rəcəbova	Bakı, 2018,səh.45
II	Sözləri T.Mütəllibovun "Şən yolka"; "Vətən"	O.Rəcəbov, N.Kazımov, O.İmanova	Bakı,2018, səh.28; 45
II	Sözləri M.Ə.Sabirin "Gəl, gəl a yaz günləri"	O.Rəcəbov, N.Kazımov, O.İmanova	Bakı, 2020,səh.48

A.Rzayeva uşaq mahnı mədəniyyətinin inkişafına əhəmiyyətli dərəcədə xidmət göstərmişdir. Onun rəngarəng, müstəsna orijinallığına malik uşaq musiqisi saysız-hesabsız dinləyicilərin qəlbinə yol tapmışdır.

Beləliklə, Ağabacı Rzayevanın yaradıcılığı müasir üslubda yazan gənc qadın bəstəkarlarımız üçün bir örnək olmuşdur.

Ədəbiyyat

1. Babayeva H. Ağabacı Rzayeva. Bakı, Aspoliqraf, 2013, 104 səh.
2. Qurbanəliyeva S. Nizami Gəncəvi poeziyasının Azərbaycan bəstəkarlarının vokal əsərlərində təcəssüümü. Bakı, Elm və təhsil, 2021. 264 səh.
3. Rəcəbov O., Babayeva T. I sinif üçün "Musiqi" dərsliyi. Bakı, Təhsil, 2005, 80 səh.
4. Rəcəbov O., Kazımov N., Rəcəbova N. Ümumtəhsil məktəblərinin II sinfi üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, Təhsil, 2018, 82səh.
5. Rəcəbov O., Kazımov N., İmanova O. Ümumtəhsil məktəblərinin III sinfi üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, Təhsil, 2018, 66 səh.
6. Rəcəbov O., Kazımov N., İmanova O. Ümumtəhsil məktəblərinin VII sinfi üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, Təhsil, 2018, 97 səh.
7. Bağırova T. "Uşaq musiqi yaradıcılığı". Dərslik. ADPU, Bakı, 2012, 413 səh.
8. Rəcəbov O. "Uşaqlar və mahnılar". Bakı, İşıq, 1985, 177 səh.

Saytoqrafiya

9. www. konservatoriy.az.
10. www.musiqi-dunya.az.

ДЕТСКАЯ МУЗЫКА В ПРОИЗВЕДЕНИЯХ АГАБАДЖИ РЗАЕВОЙ

Магеррамова Сяма Башир кызы

Резюме

Особое место в развитии истории музыки занимает детская музыка азербайджанских композиторов.В развитии детской музыки можно особо отметить известного композитора Азербайджана Агабаджи Рзаеву. Ее песни воспитывают чувство благородства, доброжелательности, патриотизма у детей. В статье рассмотрена детская музыка Агабаджи Рзаевой и проанализированы ее отличительные черты.

CHILDREN MUSIC IN AGABAJI RZAYEVA'S CREATIVITY

Maharramova Sama Bashir

Summary

Children music of Azerbaijani composers has a special place in the development of musical history. In the development of children music, the great composer of Azerbaijan, Agabaji Rzayeva can be specially mentioned. Agabaji Rzayeva's children songs "Kukla (A doll)", "Shen Yolka (Merry Christmas)", "Goyerjinim (My Pigeon)", "Veten (Motherland)" etc. instill in children the feelings of nobility, kindness and patriotism. Agabaji Rzayeva's children music and its characteristic features is considered and analysed in the article.

Rəyçi: baş müəlllim Həsənova S.

GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın çıxarışı 02 saylı rpotokolu

Daxil olma tarixi 12 oktyabr 2022-ci il

UOT: 781.

FORTEPİANO İFAÇILIĞINDA TEXNİKİ MƏŞĞƏLƏLƏRİN MAHİYYƏTİ

Quliyeva Ülviyyə Elbrus qızı
Gəncə Dövlət Universiteti
morten.harket85@gmail.com

Xülasə*:* *Məqalədə fortepiano ifaçılığının əsasını təşkil edən texniki məşğələlərin yaranma tarixinə nəzər yetirilmiş, görkəmli bəstəkarların, pianoçu-pedaqoqların təcrübələri əsasında onların mahiyyəti ətraflı işıqlandırılmışdır.*

Texnika- qamma,akkord və arpecioları, ikili notları, oktavaları və digər ifa növlərini özündə birləşdirən ümumi bir anlayışdır. Müxtəlif üslub və dövr bəstəkarlarının əsərlərinin fakturasının mürəkkəbliyi musiqi fikrinin texniki ifadə vasitəsinin mənimsənilməsini müasir pedaqogikanın aktual məsələlərindən biri kimi təyin edir.

Açar sözləri: fortepiano, qamma, texniki məşğələ, akkord və arpecio

Ключевые слова:фортепиано, гамма, технические упражнения, аккорд и арпеджио

Key words: piano, gamma, technical exercises, chord and arpeggio

Fortepiano pedaqogikası özünün təkamül prosesində uzun bir inkişaf yolu keçmişdir. XVI-XVII əsr klavir ifaçılarının elmi əsərlərində ifa texnikası, alət arxasında oturmaq qaydası, hərəkətlər,applikatura haqqında mülahizələr izlənilirdilər. Texniki məşğələlər üzərində işin məzmunu və metodikası J.F.Ramonun (1683-1764) "Barmaq texnikası üsulu" (1724) və F.E.Baxın(1714-1788) "Klavirdə ifa etmək sənəti haqqında təcrübə" (1753-1762) adlı risalələrində təsvir edilmişdir.

Elmi araşdırmalar göstərir ki, qədim dövrün klavir pedaqogikasında, klavişli-simli çembalo, klavikord və klavesin kimi alətlərdə ifanın tədrisi zamanı qammaların öyrənilməsi musiqi tərbiyəsinin bir hissəsi kimi qəbul olunurdu. Erkən klavir ifaçılığı dövründə

musiqiçilər ifa zamanı ümumiyyətcə baş barmaqdan istifadə etmirdilər. Buna səbəb o dövrdə musiqi sənətində hökmlük edən musiqi quruluşu və klaviaturanın kiçik ölçüləri idi.

Yalnız 19-cu əsrin əvvəlində qamma fortepiano tədrisinin əsasını təşkil etməyə başlayır.Zaman keçdikcə bizim hal-hazırki dövrdə istifadə etdiyimiz qamma kompleksinin tərkib hissələri və ifa qaydası tədricən formalaşırdı.

Bildiyimiz kimi, qamma - yunan əlifbasının 3-cü hərfinin adıdır. XI əsr italyan musiqiçisi Qvido D`Aretso (992-1050) ardıcıl pilləli səs düzümünü məhz bu cür adlandırmışdır. Yeddi notun adına görə də biz bu dahi şəxsiyyətə borcluyuq. Avropa dillərində, fransız dilindən başqa,"pilləkən", "musiqili pilləkən"," tonların pilləkəni" kimi sözlər də mövcuddur.Görkəmli polyak pianoçusu və ixtiraçısı İosif Hofman (1876-1957) qammanın applikaturasını "musiqinin vurma cədvəli" adlandırırdı [3, s.116].

Zaman keçdikcə texnika inkişaf edir və pianoçuların qarşılarına qoyulan məsələlər ilə bağlı olaraq müxtəlif dəyişikliklərə uğrayırdı. Eyni zamanda onun təsnifatı da dəyişirdi.Görkəmli rus pianoçusu və pedaqoqu H.Neyqauz (1888-1964) fortepiano texnikasının bir neçə növünü ayırd edir:

1. Bir notun götürülməsi.
2. Trel.
3. Qamma.
4. Arpecio.
5. İkili notlar.
6. Akkord texnikası.
7. "Tullanmaqlar və " sıçrayışlar" .
8. Polifoniya.

Dahi macar bəstəkarı, pianoçusu və pedaqoqu F.List(1811-1886) isə texniki çətinlikləri 4 sinifə bölürdü:

1. Oktava və akkordlar.
2. Tremolo və trellər.
3. İkili notlar.
4. Qamma və arpeciolar.

Qammaların öyrənilməsinə başlamazdan öncə hər şeydən əvvəl, şağirdi major və minor qammalarını eşitməyə, onların hər səsdən ifa etməyin mümkün olduğunu, onları eşitmə vasitəsilə ifa etməyi öyrətmək lazımdır. Tədqiqatçılar haqqlı olaraq qeyd edirlər ki, qammalar üzərində iş mexaniki sürətdə deyil, şüurlu, müntəzəm olaraq aparılmalıdır [1,s.4].

Hal-hazırki dövrdə heç bir pianoçu texniki inkişafının vacib effektli vasitəsi olan qammalar, akkord və arpeciolardan imtina etmir. Qammaların vacibliyi ondadır ki,onlar əsas faktura formaları,pianistik çətinliklərin üzərində işləməyə imkan verir.

Dahi polyak bəstəkarı F.Şopen (1810-1849) hesab edirdi ki, qammaların öyrənilməsinə Mi major qammasından başlamaq lazımdır. Belə ki, qammanın öyrənilməsinə başlayarkən şagird klaviaturanın mərkəzinə uyğunlaşır və klavişlərin kənarlarına düşmür.Uzun barmaqları 4 dildə yerləşdirərkən bilək təbii, əzələlərin sıxılmasını istisna edən sərbəst formanı alır. Onu da qeyd etməliyik ki, H.Neyqauz bu ifa üsulunu "Şopenin düsturu" adlandırırdı [4,s.104].

Tanınmış pianoçu-pedaqoqlar T.Leşetitski(1830-1915), V.Safonov(1852-1918) və digərləri qammaları müxtəlif nyuanslarla ifa etməyi tövsiyə edirdilər. Məsələn:

1. Qammanı yuxarı istiqamətdə pianissimodan (pp) başlayaraq kreşendo (crescendo), aşağı istiqamətdə fortedən (f) başlayaraq, pianissimo (pp) edərək ifa etmək.
2. Qammanı sol əldə piano (p), sağ əldə isə forte (f) və əksinə edərək ifa etmək.

3. Daha çətin üsul - qammanı yuxarı istiqamətdə sağ əldə kreşendo (crescendo), sol əldə diminuendo, aşağı istiqamətdə sağ əldə kreşendo, sol əldə isə diminuendo edərək ifa etmək.

Artikulyasiyalı, dinamikli variantlarla yanaşı, qamma üzərində işləyərkən müxtəlif ritmik variantlarla öyrənmək böyük fayda verir. Beləki qamma:

1. Punktir ritm ilə ifa olunur.
2. Aksenti 1-ci və 2-ci səsə edərək duollar ilə ifa olunur.
3. 3 səs tez,3 səs asta ifa olunur və əksinə.
4. 4 səs tez,4 səs asta ifa olunur və əksinə.

Pianoçu texnikası üzərində işin əsasını təkrarlama metodu təşkil edir. Bununla yanaşı,işin aparılmasının keyfiyyətinin səviyyəsi bir sıra şərtlərin yerinə yetirilməsindən asılıdır.Bu şərtlərdən biri material seçimidir. Buraya məşğələ və yaxud əsərlərdə rast gəlinən texniki çətin hissələr, passajlar aid edilə bilər. Çalışmalar ifa üçün kifayət qədər asan və rahat olmalıdırlar. Məşğələlər üzərində iş bütün diqqəti ifanın ritmik tərəfində,düzgün hərəkətlərdə, səsin keyfiyyətində cəmləşdirməyə imkan yaradır.

Musiqi - səsli və fakturalı məsələlərdən asılı olaraq pianoçunun əlləri müxtəlif cür vəziyyətlər alır, yəni, musiqi nə cürdürsə, əl hərəkərləri də o cürdür. Əgər musiqi sakit, yumşaqdırsa, o zaman əllər sakit və yumşaq hərəkət edirlər. Musiqi təntənəli, parlaqdırsa, əllər "ağırlaşmalıdır" və s. Musiqi parçasının bütün elementlərinə fortepiano ifaçılığının müxtəlif üsulları uyğun olur.

Müasir metodika bu məşğələləri pianoçunun inkişafının vacib və effektli üsulu kimi dəyərləndirir. Onlar pianoçu üçün vacib olan texniki ve eşitmə bacarıqlarını aşılayan texniki formaların əsas elementləri hesab olunurlar.

Qeyd etmək lazımdır ki, texniki inkişafın müəyyən prinsiplərini nəzərə alan sistemli, planlı və məqsədyönlü iş prosesi təhsil alanların texniki imkanlarının zənginləşməsinə kömək edir,eşitmənin inkişafına təsir edir,elementar nəzəri bilikləri möhkəmlədir, üzdən oxumaq bacarıqlarını inkişaf etdirir.

Fortepiano ifaçılığında sistematikləşdirilmiş texniki iş böyük əhəmiyyət kəsb edir. Texnika və onun bütün bölmələrinin inkişafı üzərində iş hər gün aparılmalıdır. Texnika-barmaqların cəldliyi, hamarlığı, dəqiqliyidir. Aparılan iş keyfiyyətli və məqsədyönlü olmalıdır.

Beləliklə, musiqi təhsilinin müxtəlif mərhələlərində qammalar, akkord və arpecioların öyrənilməsi təhsil alanların musiqi və texniki inkişafına böyük fayda verməyə qadirdir. Bunların ifası şağirdlərdə ifaçılıq texnikasını inkişaf etdirməklə yanaşı, həmçinin, hər hansı əsərin tonallığının təyin edilməsində, alterasiya işarələrinin mənimsənilməsində çox zəruri olan bir vasitədir.

Ədəbiyyat

Azərbaycan dilində:

1. Qurbanəliyeva S.F. Fortepianoda qamma, akkord və arpecioları çalmaq üçün vəsait. Bakı, 2006, 42 s.
2. Seyidov T. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Bakı, "Təhsil", 2016, 336 s.

Rus dilində:

3. Гофман И. Фортепьянная игра. Ответы на вопросы о фортепьянной игре. Москва, 1961, 152 стр.
4. Нейгауз Г. Об искусстве фортепианной игры. Москва, Музыка, 1987, 240 стр.

Saytoqrafiya:

www. musigi-dunya.az
www. musicacademy.edu.az
www. millikitabxana.az

ЗНАЧЕНИЕ ТЕХНИЧЕСКИХ УПРАЖНЕНИЙ В ФОРТЕПИАННОМ ИСПОЛНИТЕЛЬСТВЕ

Кулиева Улвийя Эльбрус кызы

Резюме

Техника – это общее понятие, включающее в себя гаммы, аккорды и арпеджио, двойные ноты, октавы и другие виды исполнения. Сложность фактуры произведений композиторов разных эпох и стилей определяет овладение техническими средствами выражения музыкальной мысли как одну из актуальных задач современной педагогики. В статье рассматривается история технических упражнений, лежащих в основе фортепианного исполнительства, подробно раскрывается их сущность на основе опыта выдающихся композиторов, пианистов-педагогов.

THE IMPORTANCE OF TECHNICAL EXERCISES IN PIANO PERFORMANCE

Kulieva Ulviya Elbrus

Summury

Technique is a general concept that includes scales, chords and arpeggios, double notes, octaves and other types of performance. The complexity of the texture of the works of composers of different eras and styles determines the mastery of technical means of expressing musical thought as one of the urgent tasks of modern pedagogy. The article discusses the history of technical exercises underlying piano performance, reveals their essence in detail based on the experien ce of outstanding composers, pianists-teachers.

Rəyçi: baş müəllim Haqverdiyeva N.
GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın02 saylı protokolu
Daxil olma tarixi 12 oktyabr 2022-ci il

UOT:78.

SOLTAN HACIBƏYOVUN UŞAQ MUSİQİSİ VƏ MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ ONDAN İSTFADƏNİN İMKAN VƏ YOLLARI

Şabanova Sevil Ağaəli qızı
Gəncə Dövlət Universiteti
sevashabanova62@gmail.com

Xülasə:*Məqalədə görkəmli Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun yaradıcılığının yeri və uşaqların musiqi tərbiyəsində ondan istifadənin imkan və yolları araşdırılırmışdır.*

S.Hacıbəyovun yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində özünə məxsus yer tutur. Onun musiqisi melodikliyi və milli koloriti ilə fərqlənir. O, öz yaradıcılığında müxtəlif janrlara müraciət etmiş, musiqili komediya, kantata, mahnı və romanslar, simfoniyalar,

simfonik variasiyalar, ən məşhur əsərlərindən olan "Karvan" simfonik lövhəsi, müasir mövzuda yazılmış ilk "Gülşən" baleti və.s əsərlər yaratmışdır.

S.Hacıbəyov uşaqlar üçün mahnıların("Oynaq topum,","Lay lay", "Bənövşə", "Bahar gəldi","Yolka","Pioner marşı") və Nizami Gəncəvinin "İskəndərnamə" əsərinin bir parçası əsasında yazılmış "İskəndər və çoban" ilk uşaq operasının müəllifidir.

Açar sözlər: bəstəkar, uşaq musiqisi, musiqi tərbiyəsi, janr, əsər.

Ключевые слова: композитор, детская музыка, музыкальное воспитание, жанр, произведение.

Key words: composer,childrens musik, musical education, genre,work

"Musiqi çox ecazkar qüvyyə malik bir nemətdir. O, ətraf aləmi, xüsusilə insan təəssüratını, hiss və ideyalarını ritm və intonasiya cəhətdən mütəşəkkil səslərlə ifadə edən sənətdir,ən kütləvi incəsənət növlərindəndir. Mütəxəssislərin təbirincə desək, musiqi-qəlbin səslərlə ifadə olunmuş həyatıdır.

Musiqi səs incəsənətidir, təfəkkürün səs obrazıdır, gerçəkliyin bədii səslər vasitəsilə inikasıdır. Musiqi ən qüvvətli təsir gücünə malik incəsənət növüdür. Musiqi yüksək emosiyanal gücə malikdir, insanların hisslərinə hakim kəsilən incəsənətdir" [1, s.19].

"Musiqi sənəti, hər bir xalqın, hər bir ölkənin mədəniyyət tarixinin tərkib hissəsini təşkil edir. O, tarixən mühüm ictimai məna daşıyıb, insanın əxlaqi tərbiyyəsi, əqidə və dünyagörüşünün , estetik zövq və ideallarının formalaşmasında mühüm rol oynamış və indidə bu vəziyfəyə xidmət edir.

Musiqi nəinki şagirdlərin estetik tərbiyəsinə xidmət edir, o, həmçinin şagirdlərin əqli, fiziki və mənəvi tərbiyəsində də mühüm rol oynayır.

Musiqi dərslərində şagirdlərin musiqi mədəniyyətinin inkişafı, onlarda mənəvi-estetik hisslərin də formalaşmasına səbəb olur. Məktəblilərin musiqi yaradıcılıq qabiliyyətini inkişaf etdirməklə müəllim onlarda incəsənət əsərlərini düzgün başa düşmək və qiymətləndirmək kimi keyfiyyətlər yaradır. Musiqi tərbiyəsinin həyatla əlaqəsi, musiqi incəsənətinə marağın artırılması, onun tərbiyəvi əhəmiyyətini artırır.

Şagirdlərə müəyyən bilik, bacarıq və vərdişlər verməklə yanaşı, onlarda yaradıcılıq fəallığı yaratmaq da musiqi tərbiyəsinin əsas vəzifələrindən biridir. Yaradıcılıq qabiliyyətlərinin formalaşması və inkişaf etdirilməsi isə bilavasitə şagirdlərin mənimsədikləri biliklərlə, əldə etdikləri bacarıq və vərdişlərlə sıx əlaqədardır.

Şagirdlərin musiqi zövqlərini inkişaf etdirmək, onlarda həm milli musiqiyə, həm digər xalqların musiqisinə və eləcə də peşəkar musiqiyə həvəs və maraq oyatmaq musiqi tərbiyəsinin vəzifələrindən biridir" [2, s.15-16].

Uşaqların dinlənilməsi və ifası üçün nəzərdə tutulan musiqiyə - uşaq musiqisi deyilir. Bu musiqi müxtəlif janrlarda ola bilər: mahnı, musiqi pyesi, simfoniya, opera, balet. Uşaqlar üçün yazılmış musiqi əsərlərinin əsasını xalq nağılları, təbiət rəsmləri, heyvanat aləminin obrazları təşkil edir. Uşaqların ifası üçün yazılmış əsərlərdə onların ifaçılıq imkanları, vokal əsərlərdə səs diapazonu, səs yaratmanın xüsusiyyətləri, müxtəlif yaşlı uşaqların diksiyası və xorla oxuma vərdişləri, instrumental pyeslərdə texniki cəhətdən hazırlığı nəzərə alınır.

Ümumtəhsil məktəblərində musiqi tərbiyəsinin əsas növü musiqi fənnidir. Şagirdlər məktəbdə məhs bu fənn vasitəsi ilə Azərbaycan musiqisinin fəxri Ü.Hacıbəylinin, Q.Qarayevin, S.Hacıbəyovun, F.Əmirovun, A.Məlikovun, eləcə də xarici ölkə bəstəkarlarının ecazkar əsərləri ilə tanış olurlar.

S.Hacıbəyov Azərbaycan musiqi mədəniyyəti tarixinə istedadlı bəstəkar, pedaqoq, musiqi içtimai xadimi kimi daxil olmuşdur. Yaradıcılıq siması aydınlığı, dünya görüşü, saflığı ilə fərqlənir. S.Hacibəyov musiqidə peyzaj rəsmlərinin gözəl ustası kimi tanınır, musiqidə parlaq milli koloritli janr obrazları üstünlük təşkil edir. Öz yaradıcılığında U.Hacıbəylinin mütərəqqi ənənələrini davam etdirən S.Hacıbəyovun yaradıcılıq yolu 1930-cu illərin axıri, 1940-cı illərin əvvəlinə təsadüf edir.

S.Hacıbəyov 1919-cu ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşa şəhəri 07.05.2021 il tarixli Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərancamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Bəstəkarın yetişməsində, formalaşmasında xalq musiqisinin böyük təsiri olmuşdur. Onun yaradıcılıq fəaliyyəti hələ musiqi texnikumunda oxuduğu illərdən başlayır. Bəstəkarın ilk əsəri xor və simfonik orkestr üçün yazılmış "Pioner kantatası" və "Qızıl gül" musiqili komediyasıdır. Konservatoriyada oxuduğu illərdə bəstəkar seçdiyi sənətin texnikasına daha dərindən yiyələnmək üçün müxtəlif janrlara müraciət edir. O, "İki prelüd" və fortepiano üçün sonata, "Çiçəklərin söhbəti", "Neft haqqında nəğmə" mahnılarını, "Quşcuğaz", "Tənha yelkən ağarır" romanslarını, simli kvartet, simfonik variasiyaları yazır.

1941-1945-cı il Vətən müharibəsi ilə əlaqədar S.Hacıbəyov "Döyüşcülər nəğməsi", 416-cı Taqanroq diviziyasına həsr edilmiş xalq çalğı alətləri orkestri üçün marş əsərlərini bəstələyir. 1940-cı ildə S.Hacıbəyovun birinci simfoniyasi bu dövrdə yazılmış simfoniyalar arasında mühüm yer tutur. 1945-ci ildə Türkmənistan Opera və Balet Teatrının sifarişi ilə "Kəminə və Qazı" operasını yazır. Həmin əsərin simfonik parçası "Karvan" adlanır. 1955-ci ildə əsər yenidən nəşr olunaraq müstəqil şəkildə repertuara daxil olur. 1946-ci ildə ikinci simfoniya meydana çıxır.

1950-ci ildə S.Hacıbəyov müassir mövzuda olan "Gülşən" baletini yazır. 1950-53 illərdə bir sıra xalq mahnı və muğamlarını xalq çalğı alətləri orkestrı üçün işləyir. "Sarı bülbül", "Leyla", "Qarabağ şikəstəsi" buna misaldır. Bu illərdə ən məşhur əsərlərdən biri uvertüradır. Bu əsər milli musiqidə janr simfonizmi xəttini davam etdirir. Bəstəkar Azərbaycan, rus musiqi klassiklərinin ənənələrini öz fərdi yaradıcılıq süzgəncindən keçirərək, müasir ruhlu, milli koloritli əsər yaratmağa nail olub.

1950-ci illərdə bəstəkar "Bolqar süitası" və "Çex rəqsi" əsərlərini bəstələyir. 1964-ci ildə S.Hacıbəyov ən parlaq əsərini orkestr üçün "Konsert"ini yazır. Əsər müasir musiqi dili, qeyri-adi , parlaq koloritli orkestrofkası ilə fərqlənir. Bəstəkar bir çox tamaşalara musiqi yazmışdır "Məhəbbət", "Kəndçi qız", "İnsan", "Eşq və intiqam", "Əliqulu evlənir".

S.Hacıbəyov uşaqlar üçün yazdığı əsərlərin mövzuları müxtəlifdir. Burada həm pioner həyatı həm də təbiət təsvirləri vardır. 1953-ci ildə bəstəkar 6 uşaq nəğməsi yazır: "Oynaq topum", "Laylay", "Bənövşə", "Bahar gəldi", "Yolka", "Pioner marşı".

"İskəndər və çoban" ilk uşaq operası Bakı pionerlər evinin sifarişi ilə yazılıb. Onun əsasını Nizami Gəncəvinin "İskəndarnamə" əsərinin bir parçası təşkil edir (Librettosu M.Seyidzadənindir).

Ümümtəhsil məktəblərinin "Musiqi" dərsliklərini araşdırarkən belə nəticəyə gəlmək olar ki, S.Hacıbəyovun uşaq mahnılarından O.Rəcəbov, N.Kazımov, N.Rəcəbovanın (Bakı, 2018) müəllifləri olduqları 2-ci sinif "Musiqi" dərsliyinin "Mahnı öyrənək" bölməsində M.Seyidzadə nin sözlərinə yazılmış "Oynaq topum" mahnısı, sözləri və mahnıya aid rəngli şəkil verilmişdir [4, s.48].

O.Rəcəbov, Y.Axundova , O.İmanovanın (Bakı, 2020) müəllifləri olduqları 5-ci sinif "Musiqi" dərsliyinin "Mahnı öyrənək" bölməsində M.Seyidzadənin sözlərinə yazılmış "Bənövşə" mahnısı, sözləri və mahnıya aid rəngli şəkil verilmişdir [5, s.59].

O.Rəcəbov, N.Kazimov, A.Babayevanın müəllifləri olduğu (Bakı, 2019) 8-ci sinif "Musiqi" dərsliyində M.Seyidzadənin sözlərinə yazılmış "Laylay" mahnısı və sözləri verilmişdir [6, s.41].

Azərbaycan musiqisində uşaqlar üçün səhnə əsərlərinin yaranma tarixi XX əsrin 40-cı illərindən başlayır. Dahi Nizami Gəncəvinin "İskəndarnamə" poemasının II kitabının novellaları və "İskəndər Zülqərneyn" Azərbaycan nağılı əsasında S.Hacıbəyovun tələbəlik illərində (1947) uşaqlar üçün "İskəndər və çoban" operasını yazmışdır. Opera Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinə həsr edilmişdir. Operanın əsas özəlliyi onunla izah edilir ki, burada uşaq operası janrına fəlsəfi məzmunlu şərq mövzusu gətirilmişdir. Bəstəkarın uşaqlar üçun yaratdığı musigidə Şərq İntibahını öz əsərlərində təcəssüm etdirən Nizami Gəncəvinin yaradıcılıq irsinə müraciət etməsi, gənc tamaşaçılarda öz vətəninin tarixi keçmişinə zəngin ədəbi irsinə maraq və məhəbbət hisslərini formalaşdırır. Librettonun müəllifi Mirhehdi Seidzadədir. Operada xalq musigisindən qaynaqlanan rəqs nömrələri uşaqların musiqi duyumunun milli zəmində inkişafına müsbət təsir göstərir. Əsərdə bədii süjetin lakonikliyi, vokal və instrumental partiyaların mürəkkəb olmaması bütövlükdə bu əsərin gənc ifaçılar üçün nəzərdə tutulmasından irəli gəlir. Bu opera dərin mənalı, sadə aydın milli ruhlu musiqisi ilə əbədi həqiqətlər haqqında, şəxsi nöqsanların güc və qorxu hissləri ilə gizlətməyin mənasız olması haqqında fikillər irəli sürür. İlk milli uşaq operası hesab olunan "İsgəndər və çoban" operasının ilk tamaşası 1947-ci ildə olub. Əsəri M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Bakı musiqi məktəblilirinin 100-ə yaxın şagirdi səsləndirib.

"İskəndər və çoban" operasının premyerası 1991-ci ildə BMA-nın məktəb studiyasının Uşaq Musiqi Teatrının şagirdlərinin təşəbbüsü ilə tamaşaya qoyulmuş və uğur qazanmışdır. Operanın premyarası o qədər müvəffəqiyyətlə keçmişdir ki, Dövlət Televiziyası dəfələrlə onun videoyazısını yayımlamışdır.

Məktəb-studiyanın 35 illiyi ilə əlaqədar SSRİ və Azərbaycanın xalq artisti, professor Fərhad Bədəlbəyli və əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Tərlan Seyidovun təşəbbüsü ilə Uşaq Musiqi Teatrı yenidən S.Hacıbəyovun "İskəndər və çoban" operasına müraciət etmişdir və bu premyera bəstəkarın anadan olmasının 95 illiyinə həsr olunmuşdur.

Apardığımız araşdırmalar göstərir ki, musiqi dərsliklərində S.Hacıbyovun uşaq mahnılarına az yer verilmiş, ilk milli uşaq operası "İskəndər və çoban" operası haqqında heç bir məlumat verilməmişdir.

Yaxşı olardı ki, görkəmli Azərbaycan bəstəkarı S.Hacıbəyovun yaradıcılığına, onun uşaqlar üçün yazdığı mahnılara və "İsgəndər və çoban" operasından musiqi parçalarına ümumtəhsil məktəblərinin "Musiqi" dərsliklərinin "Mahnı öyrənək" və "Musiqi dinləyək" bölmələrində geniş yer verilsin.

Ədəbiyyat

1. Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, Adiloğlu, 2010,160 s.
2. Qədimova J. Musiqinin tədrisi metodikası. Dərslik. Bakı, ADPU, 2007, 350s.
3. Rəcəbov O., Kazımov N., Rəcəbova N. Ümumtəhsil məktəblərinin II sinif üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, 2018, 55 s.
4. Rəcəbov O., Kazımov N., Axundova Y., İmanov O. Ümumtəhsil məktəblərinin V sinif üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, 2020,79 s.
5. Rəcəbov O., Kazımov N., Babayeva A., Ümumtəhsil məktəblərinin VIII sinif üçün "Musiqi" fənni üzrə dərslik. Bakı, 2019,95 s.

Saytoqrafiya:
1. www.musigi-dunya.az.
2. www.oxu.az
3. www.portal.azertag.az

ПУТИ И ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ДЕТСКОЙ МУЗЫКИ С.ГАДЖИБЕКОВА В МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ УЧАЩИХСЯ

Шабанова Севиль Агаали кызы

Резюме

В статье рассматриваются роль и пути использования творчества Солтана Гаджибекова в музыкальном воспитании учащихся. Творчество С.Гаджибекова занимает определённое место в музыкальной культуре Азербайджана. Его музыка отличается своей мелодичностью и национальным колоритом. В своём творчестве композитор обращался к таким жанрам как музыкальная комедия, песни и романсы, симфонии, симфонические вариации. Одним из самых известных произведений композитора являются симфоническая гравюра “Карван” и написанный на современную тему балет “Гюльшан”. С.Гаджибеков является автором нескольких песен для детей *(“Oynaq topum,”,”Lay lay”, “Bənövşə”, “Bahar gəldi”,”Yolka”,”Pioner marşı”*) в том числе детская опера «Искендер и пастух», написанная по сюжету поэмы Низами Гянджеви «Искендернаме».

WAYS AND POSSIBILITIES OF USING CHILDRENS MUSIC BY S.HAJiIBEYOV IN THE MUSICAL EDUCATION OF STUDENTS

Shabanova Sevil Aqali

Summary

The article examines the role and way of using Soltan Hajibeyov creativity in the musical education of students. The work of S. Hajibeyov occupies a certain place in the culture of Azerbaijan. His music is distinguished by its melodiousness and national flavor. In his work , the composer turned to such genres as musical comedy, songs and romans, symphonies, symponic variations. One of the composers most famous works is the Symphonic engraving "Karvan" and the ballet "Gulshan" written on a modern theme . S.Hajibeyov is the author of several song for children (“Oynaq topum,”, ”Lay lay”, “Bənövşə”, “Bahar gəldi”,”Yolka”,”Pioner marşı”) , including the childrens opera "Iskender and the shepher ", based on the plot of Nizami Genjevis poem " İskerdername ". The use of these works by a co-composer is important in the musical education of students.

Rəyçi: müəl. Abbasova S.
GDU-nun “Musiqi fənləri” kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın 02 saylı protokolu
Daxil olma tarixi 12 oktyabr 2022-ci il

UOT:73/76.

CANLI İNSAN BAŞININ RƏSM EDİLMƏSİ ARDICILLIĞI

Allahverdiyeva Raziyyə Qiyas qızı, Kazımova Səriyyə Eyvaz qızı
Gəncə Dövlət Unuversiteti
tunzalehuseyinova70@gmail.com

Xülasə: *Portret rəsmləri bədii təlimdə mühüm mərhələ sayılır. Baxmayaraq ki, bu mərhələ ən çətin sahələrdən biridir, peşəkarlıq bacarıq və vərdişlərinin formalaşmasında çox böyük əhəmiyyətə malikdir. Portret rəsmi xarici oxşarlığın verilməsi ilə məhdudlaşmır. Başlıca vəzifə - təsvir olunan şəxsin xarakterik xüsusiyyətlərini, obraz həllini, daxili aləmini əks etdirməkdir.*

Açar sözlər: rəsm, portret, yaradıcılıq, bacarıq
Ключевые слова: рисунок, портрет, творчество, умение
Key words: drawinq, portrait, creativity , skill

Ali məktəblərdə “Rəsm” fənninin tədrisinin əsas məqsədi və vəzifəsi rəssamlıqla yanaşı, hərtərəfli biliyə malik müəllim hazırlamaqdır.

Rəsm metodu naturadan rəsmə əsaslanır. Buna görə də rəsm müəllimi həm rəssam, həm də dünyagörüşü geniş olan pedaqoq olmalıdır.

Rəsm təsviri sənət növlərinin əsasıdır. Buna görə rəsm istər dəzgah rəssamlığı və ya heykəltəraşlıq, istər qrafika, dekorativ-tətbiqi sənət növü və dizayn olsun, rəssamlıqda əsas rol oynayır. Arxitektura sahəsində də rəsm çəkməyin böyük əhəmiyyəti vardır.

Rəsm fənninin tədrisi və metodikası, əsasən, naturadan rəsmə əsaslanır. Rəsm kursu sadə natürmort çəkilişindən başlayır, insan fiqurunun təsvirində qurtarır. Naturadan rəsm zamanı tələbələr çəkdikləri rəsm ətrafında axtarışlar aparır, müqaisə edir və onu (rəsmi) təkmilləşdirir. Bu da tələbələrdə təfəkkürün, təxəyyülün və hafizənin inkişafına kömək edir.

Ümumtəhsil məktəblərinin gələcək təsviri incəsənət müəllimlərinin estetik tərbiyəsində və bədii pedaqoji təhsili sistemində rəsm əsas tədris fənnidir. Rəsm sərbəst tədris fənni kimi tələbələrin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsində, estetik zövqlərinin formalaşdırılmasında, həyat gerçəklərinin real təsviri bacarıq və vərdişlərinin əldə edilməsində geniş imkanlara malikdir.

Akademik rəsmin əsasında təsviri savadın öyrədilməsinin mühüm prinsipləri və realist təsvir bacarıq və vərdişlərinin formalaşdırılması durur. Bu xüsusiyyətlər ixtisaslı təsviri incəsənət müəllimi hazırlığı işində mühüm vasitələrdir.

Ümumtəhsil məktəblərinin təsviri incəsənət müəllimləri qarşısında şagirdlərin estetik tərbiyəsi, bədii zövqlərinin inkişafı, yaradıcılıq qabiliyyətinin formalaşdırılması kimi mühüm vəzifələr durur. Bütün bu vəzifələri ancaq həyat gerçəklərinin realist təsviri bacarıq və vərdişlərinə yiyələnməklə həll etmək olar.

Təsviri incəsənət müəllimi ancaq bu bacarıq və vərdişlərə malik olmaqla kifayətlənməməli, həm də realist rəsmin və yaradıcılıq işinin mahiyyətini, bədii obrazın formalaşmasıprossesini mükəmməl mənimsəməlidir.

Ümumtəhsil məktəblərinin gələcək təsviri incəsənət müəllimləri rəsm etməni həyat gerçəklərinin dərk edilməsinin bir nəticəsi kimi təsəvvür etməli, təsviri savadın verilməsində onun yerini bilməlidirlər. Bu baxımdan rəsm fənninin tədrisi zamanı portret rəsmlərinə geniş yer verilir. Tələbələr rəsm fənninin tədrisi zamanı portretin çəkilməsi ardıcıllığını dərindən öyrənməlidirlər.

İnsanın başının forması kəllə sümüyünün formasından əzələ və piy təbəqələrindən asılıdır. Başın quruluşunda fərqləndirici əlamətlər alın, boyun, göz, burun, ağız, qulaqlar, yanaqlar və çənəyə məxsusdur.

Alının forması əsasən alın sümüyünün formasından asılıdır. O hündür, alçaq, düz, qabarıq ola bilər. Alın forması həm də alın qabarcıqlarından asılıdır; əgər onlar bir-birindən aralıdırsa alın geniş görünür, əgər yaxındırsa – nazik.

Başın aşağı hissəsinin forması kəllə sümüyünün üz hissəsinin əzələ və sümüklərindən asılıdır. Sifəti təsvir etmək üçün zəruri olan 15 sümükdən ən əsasları aşağıdakılardır.

1. Üst çənə sümüyü
2. Alt çənə sümüyü
3. Burun sümüyü

Burun sümükləri, burunun formasını təyin edir. Əsas burun formalarına bunları misal göstərmək olar:

1. Düz burun
2. Donqar burun
3. Fındıq burun
4. Uzun burun

Burunlar xarakterinə, ölçüsünə, sümüklərin yerləşməsinə görə bir-birindən fərqlənir.

Üst dodaqlar formasına görə prizmatikdir. Onun burun altında yerləşən ensiz kənarları ağız küncünə tərəf əyilir və alt dodaqla birləşir. Üst dodağın alt dodaqla toxunma xətti ağızın orta xətti adlanır. Alt dodağın forması orta hissədən çəkilmiş qövs şəklindədir. 4 cür dodaq tipi vardır:

1. Qalın dodaq
2. Nazik dodaq
3. Orta dodaq
4. Qabarıq dodaq

Ağızın formasına dişlərin yerləşməsi təsir göstərir. Göz alması, göz yuvusında yerləşir, onun görünən ağ hissəsi-göz ağı, rəngli yumru hissəsi göz bəbəyi, lap ortadakı qara hissə isə - göz didəsi adlanır. Göz almasını alt və üst tərəfdən kipriklər əhatə edir. Kipriklərin birləşdiyi yerə göz küncləri deyilir. Burun tərəf olan künc daxili, o biri isə xarici künc hesab edilir.

Üst kipriklər aşağıdakılara nisbətən daha mütəhərrikdir. Gözün yuxarı hissəsində qaş yerləşir. Onun daxili hissəsinə qaşın başlanğıcı, xarici küncünə qaşın ucu deyilir. Qaşlar bir neçə cür olur:

1. Enli qaş
2. Nazik qaş
3. Uzun qaş
4. Qısa qaş
5. Düz qaş
6. Əyri qaş
7. Qövsvari qaş

Çənənin forması alt çənənin formasından, əzələ və piy təbəqəsindən asılıdır. Sifətin dairəsi almacıq sümüklərinin arasındakı məsafədən asılıdır. Məsafə böyük olduqda sifət enli, kiçik olduqda isə ensiz görünür. Sifət əzələləri nəinki üzün formasını müəyyən edir, həm də insanın müxtəlif hissələrini ifadə edir.

Başın rəsm edilmə ardıcıllığını, onun hissələrinin qarşılıqlı əlaqəsini və yerləşmələrini mənimsəmək üçün başın öndən və yandan sxematik rəsmlərini çəkmək lazımdır ki, naturadan rəsmə keçmək mümkün olsun.

Başın ümumi həcmi frontal vəziyyətdə təsvir olunarkən ovoidi (yumurta formalı dairə) xatırladır. Elə bir ovoidi ki, eni hündürlüyünün təxminən 4/5-nə bərabərdir. Ovoidin hündürlük və enini yarıya bölməklə sifətin mərkəz xətti alınır. Sonra ovoidin bütün hündürlüyü aşağıdan yuxarıya doğru $3\frac{1}{2}$ hissəyə bölünür. Aşağı hissə çənənin və dodaqların hündürlüyünü, orta hissə - burunun uzunluğu və qaşların yerini, yuxarı hissə - alınan hündürlüyünü və başın tüklü hissəsi ilə sərhəddi, yuxarıda qalan 1/7 hissəsi isə başın tüklü hissəsinin hündürlüyünü müəyyən edir.

Kəllənin mərkəz xəttini hündürlüyü boyunca 7 hissəyə bölərək 1/7-ni gözün mərkəz xətti boyunca mərkəzdən 3 dəfə ölçdükdə gözlərin daxili və xarici küncləri alınır. Göz almasını, kiprikləri, göz qapaqlarını, göz bəbəyi və qaşları qeyd etməklə, burun xəttində burunun qalınlığı, burun qanadları rəsm edilir.

Ağızı rəsm etmək üçün başın hündürlüyünün aşağı hissəsi 3 bərabər hissəyə bölünür: yuxarı hissə ağızın mərkəz xəttini, aşağı hissə çənənin alt dodaqla birləşən hissəni müəyyənləşdirir. Bundan sonra dodaqların qalınlığı müəyyən edilir. Ovoidin yuxarı hissəsində isə saç çəkilir.

Baş yandan təsvir edilərkən hündürlük və en bərabər götürülür. Alın, qaşların, gözlərin, burunun, ağız və çənənin yeri köməkçi xətlərlə qeyd edilir. Burunun eni adətən hündürlüyündə 2 dəfə yerləşir.

Bunu nəzərə alaraq insan başının çəkilməsi ardıcıllığına dərindən nəzər yetirək. Başın mərhələlərlə işlənməxi ardıcıllğını aşağıdakı qaydada göstərmər olar.

I mərhələ

Başın çəkilməsinə başlamazdan öncə naturaçını diqqətlə müşaiyət etmək lazımdır. Burada əsas mövqe modeli hərtərəfdən izləmək və modeli, xarakterini yadda saxlamaqdır. Baş və çiyinin vəziyyətini diqqətlə müşaiyət etmək, onların bir-biri ilə əlaqələrini müəyyənləşdirmək üçün çalışmaq lazımdır. Başın və boyunun duruşuna diqqət yetirin, canlışın onların oxu təyin olunsun. Bu oxların düzgünlüyü əsasən, plastik kompozit həlldən asılıdır.

II mərhələ

Çəkmə yerini təyin etdikdən sonra başın və boynunun ümumi kompozisiyalı yerləşdirilməsi ilə məşğul olmaq lazımdır. Kağız üzərində yerləşdirmə zamanı kağızı bölməyi, formanı format üzərində düzgün yerləşdirməni öyrənmək lazımdır. Başın 3/4 vəziyyətdə çəkilməsinin komponovkası zamanı üzün baxan səmtində boş yeri çox saxlamaq lazımdır. Başın üz hissəsini çəkərkən vərəqin ortasında yerləşdirilir. Baş və boyunu vərəqin şaquli ortasından bir az yuxarıda yerləşdirmək lazımdır. Vərəqin aşağı hissəsini yükləməyin, çünki bu kompozisiyalı balansı pozur. Baş və boyunun düzgün bölüşdürülməsi ilə rəssam qarşıya qoyulan tapşırığın həllinə uğurla nail olur.

III mərhələ

Növbəti mərhələ başın quruluşunun qurulma mərhələsidir. Bu mərhələdə ön hissələrin yeri müəyyənləşir. Bunun üçün yerləşdirmə zamanı ön hissədən çənəyə qədər frontal bir xətt çəkilir. Üzün orta profil xəttinin düzgün təyin olunması başın qurulması işində müsbət nəticə verir. Şaquli profil xəttinin təyinindən sonra, başın quruluşunda olan fərqləndirici əlamətlərə - üz, burun, ağız, qulağın çəkilməsinə keçirik.

Onların yerini düzgün təyin etmək üçün başın proporsiyalarını və aşağı – yuxarı hissələri ayıran göz xəttini təyin etmək vacibdir.

IV mərhələ

Başın hissələrinin dəqiqləşdirilməsinə keçərkən, əzələ və sümüklərin ümumi anatomik strukturunun qanunuyğunluğunu diqqətlə izləyin. Üzün çətin formasını əmələ gətirən əzələlər bu canlı sürətlərdə aydın ifadə olunur. Bütün mərhələlərin çəkilməsində əsas prinsip üzərində dayanmaq gərəklidir – ümumidən xüsusiyə, xüsusidən ümumiyə. Ondan başqa hissələrin formalarıyla ətraflı tanış olmaq, vaxtaşırı şəkilin ümumi quruluşuna qaytarmaq lazımdır. Belə yanaşma şəkilin bütövlüyünə ümumiləşdirilmiş və artıq detallaşma imkanı verir.

V mərhələ

Bu mərhələ başın forması və detallarının tonla üzə çıxardılmasını özündə cəmləyir. İşıq mənbəyinin obyektə yaxınlaşması zamanı işıqlanma dərəcəsi güclənəcək, əksinə uzaqlaşma zamanı isə zəifləyəcək.

İşıq mənbəyinə yaxın olan obyektlərin yerləşdirilməsində işıq və kölgə ziddiyəti uzaqlaşdırılmış obyektlərə nisbətən güclü olacaq. Bu qanunlara riayət etməklə rəsmdə işıq-kölgə prespektivini təqib edəcəksiniz. İşıq - gölgə ön planda arxaya nisbətən daha intensiv, ortada güclü, arxada qabağa nisbətən daha az olmalıdır. Beləliklə, işıq və gölgənin intensivliyi arxa planda obyektin bütün səthi üzrə dəyişir. Hər hansı obyekti uzaqlaşdıraraq və yaxınlaşdıraraq görəcəksiniz ki, işıq sərhəddi və işıq, və ya əksinə arasındakı sərhəd necə çətindir.

Rəsmin tonallığını işləyən zaman tələbələr məkan dərinliyinin ötürülməsində problemlə, yəni məkan planlarıyla qarşılaşırlar. Məkan planlarını saxlamaq üçün yuxarıda deyilən ton prespektivinə riayət etmək lazımdır. Arxa planın detallarının aydınlığı ön plana nisbətən az işlənmiş olmalıdır. Əgər arxa planın detalları irəli "çıxarsa" onları yumşaltmaq, önü isə gücləndirmək lazımdır. Bu rəsmin detallarının formasını aid olduğu kimi başın ümumi formasınada aiddir.



VI mərhələ

Bu mərhələ işlərin yekunlaşdırılması mərhələsi adlanır. Yekunu işləyərkən hər şeydən əvvəl formaların xarakterinin yoxlanılmasından başlayaraq, başın ölçülərinin və başın həcminin dəqiqləşdirilməsini, işıq və gölgənin nisbətlərinin güzgün ötürülməsini yoxlamaq lazımdır.

Bu mərhələ mürəkkəb və zəhmətli mərhələdir və şəklin sona çatdırılması üçün çox güc və zaman tələb edir.

Bu mərhələyə başlayaraq, beləliklə, ümumi formanı və başın xarakterini yoxlayın ki, heç bir xırdalıq olmadan ona bütöv baxılsın. Başın formasının bütövlük qavrayışı rəsmin aparılmasının bütün mərhələləri boyunca təqib edilməlidir. Şəkili bütövlüklə başlayırlar, bütövlüklə bitirirlər. İnsan başının rəsminin çəkilməsində detallar mühüm rol oynayır.

Sonuncu mərhələdə ümumi tonallığı yoxlayarkən, reflekslərdə yoxlamağı unutmayın. Kifayət qədər tez - tez tələbələr refleks üzərində işləyərkən tonallıq dərəcəsini pozurlar, bununla şəkildə ümumi tonallığı və bütövlüyü pozaraq refleksin tonunun gücünü işığın gücünə bərabər edirlər.



Ədəbiyyat

1. Barçai Yene. İnsan anatomiyası İzd.-Eksmo, 2007
2. Qofrid Bammes Bədii plastik insan atomiyası – Drezden,1988
3. N.N. Rostovsev İnsan başının rəsm çəkilməsi - Dərslik, M., Təsviri incəsənət, 1989
4. N.Q.-mi. Tədris akademik şəklinin əsasları Dərslik M., İzd-vo Eksmo, 2006
5. N.N. Anisimov Rəsm çəkmənin əsasları, Ali məktəblər üçün dərslik M., Stroyizdat, 1974
6. A.M. Serov “Risunok” Moskva ,1975
7. A.Deyneka “Yçutes risovat” Moskva 1981

ПОСЛЕДОВАТЕЛЬНОСТЬ РИСОВАНИЯ ГОЛОВЫ ЖИВОГО ЧЕЛОВЕКА

Аллахвердиева Разийя Гияс кызы, Казимова Сарийя Эйваз кызы

Резюме

Портретная живопись - важный этап в художественном воспитании. Хотя эта стадия является одной из самых сложных областей, профессионализм играет огромную роль в формировании навыков и привычек. Портрет не ограничен формальным внешним сходством. Основная задача - отразить характер, образ и внутренний мир представляемого человека.

THE SEQUENCE OF DRAWING THE HEAD OF A LIVING PERSON

Allahverdiyeva Raziyya Giyas., Kazimova Sariyya Eyvaz

Summary

Portraiture is an important stage in art education. Although this stage is one of the most difficult areas, professionalism plays a huge role in shaping skills and habits. The portrait is not limited to formal external resemblance. The main task is to reflect the character, image and inner world of the person represented.

Rəyçi:dosent Hüseynov Akif
Təsviri incəsənət kafedrasının 20 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu
Daxil olma tarixi 18 oktyabr 2022-ci il

UOT:746:75-051

AZƏRBAYCAN XALÇAÇILIQ SƏNƏTI ƏNƏNƏLƏRI

Verdiyeva Esmira Hüseyn qızı
Gəncə Dövlət Universiteti
Verdiyefvaesmira@mail.ru

Xülasə: *Qədim zamanlardan Azərbaycan xalçaları dünyanın bir çox ölkələrində məşhur olmuşdur. Azərbaycan xalçaları xovlu və xovsuz olmaqla iki yerə bölünür. Xovlu və xovsuz xalçaların orta əsrlərdə istehsal edildiyini deyə bilərik. Azərbaycan xalçalarının mənşə və mövcudiyyəti daha qədim dövrlərə təsadüf edir.*

Azərbaycan xalça sənətini öyrəndikdə, Azərbaycan xalçalarının naxışını, rəngini və kompozisiyasını həmişə nəzərə almaq lazımdır. Bir-biri ilə sıx əlaqədə olan bu üç amil ümumiyyətlə xalçaların o cümlədən də Azərbaycan xalçalarının bədii xüsusiyyətlərini təyin edir.

Kompozisiya cəhətdən xalçalar müxtəlifdir. Xalçanın harada işləyəcəyindən asılı olaraq onun kompozisiyası, yəni göllərinin və xanalarının yeri, onların miqdarı və rəngi dəyişir

Açar sözlər: xalça, naxış,rəng,sənət,ornament,kompozisiya
Key words: carpet, pattern , colour, art, ornament,composition
Ключевые слова: ковер, узор, цвет, искусства, орнамент, композиция

Xalça toxumaq sənətinin kökü çox qədimdir; bu sənət qədim olması ilə bərabər, Azərbaycan xalq yaradıcılığının gözəl bir nümunəsidir. Xalçaçılıq sənətinin əmələ gəlməsi, lazımi xammal bazası olmaqla, insanların təsərrüfat ehtiyacı ilə izah edilir. Azərbaycanda istər təsərrüfat şəraiti, istərsə də təbii şərait xalçaçılığın inkişafı üçün əlverişli olmuşdur, yun parça istehsalından ötrü tükənməz bir mənbə olan qoyunçuluğun geniş yayılması, gözəl təbii boyaqların olması Azərbaycanda zərif xalçaçılıq sənətinin inkişafı üçün lazımi imkan yaratmışdır. Köçəri həyat tərzinin rahatlığına kömək edən xalçaçılıq, sonralar oturaq quruluşa da xidmət etməyə başladı. Azərbaycanda xalça istehsalı əsrlər boyu inkişaf edərək orta əsrlərdə bir əmtəə kimi, beynəlxalq satış bazarına çıxarıldı. Azərbaycanda xalça toxumaq sənətinin keçdiyi inkişaf mərhələlərinin dəqiq tarixini göstərməyə imkan verən faktlar yoxdur. Hər halda qətiyyətlə söyləmək olar ki, xalça toxumaq sənəti parça toxumaqdan sonra meydana çıxmışdır. Görünür, əvvəlcə qaba, yun parça sonralar əlvan naxışlı parça meydana çıxmış, daha sonralar saya və onun ardınca da əlvan və naxışlı palaz toxunmuşdur. Xovlu xalça isə nisbətən sonrakı dövrə aiddir. Azərbaycanın xovlu xalçalarının meydana gəlməsini uzaq keçmişdə axtarmaq lazımdır. Bir çox ədəbiyyat mənbələri Azərbaycanda çox qədim zamanlarda xalçalar olduğunu xəbər verir. Azərbaycan tarixindən məlumdur ki, hələ III-IV əsrlərdə Azərbaycanda xalça və xalça məmulatı olmuşdur. Bunu 1945-1950-ci illərdə Mingəçevirdə aparılan qazıntılar aşkar etmişdir. Buradakı qəbirlərdən birindən keçə, çürümüş palaz və xalça parçaları tapılmışdır. V-VI əsrlərdə, Sasanilər dövründə, Azərbaycan bədii sənəti əmtəə istehsalı dairəsinə daxil olmağa başlayırdı. Başqa bədii məmulat növləri ilə yanaşı böyük bir məharətlə zərif parçalar və xalçalar da hazırlanırdı. VII-VIII əsrlərdə Azərbaycanda ərəb xilafəti ağalıq etdiyi dövrdə azərbaycanın ərazisində xalça istehsalı nəinki kəsilmədi, əksinə daha da inkişaf etdi.Bunu ondan görmək olar ki, əhali hər il xəlifəyə yüksək vergilər verərək, başqa qiymətli şeylərlə bərabər bədii xalçalar da göndərirdi. X əsrdə yaşamış ərəb tarixçiləri xəbər verirlər ki, Azərbaycanın toxuma və basma parçaları ilə bərabər xalçaları da çox şöhrət tapmışdı. Məsələn, Təbriz xalıları Azərbaycandan çox-çox uzaqlarda belə

məşhur olmuşdur. Beləliklə, bu məlumatlar orta əsrlərdə Azərbaycanda xovlu xalılar istehsal edildiyini tam yəqinliklə göstərir.

Lakin həmin dövrlərdə istehsal edilmiş xalıların nümunələri və ya onların şəkilləri hələlik əlimizdə olmasa da, XIV-XV əsrlərdə bir çox Qərbi Avropa və Şərq ölkələri bazarlarında Azərbaycan xalılarının geniş yayıldığını bildirən çoxlu faktlar mövcuddur. Bunları təsdiq etmək üçün Türkiyə və İran miniatürçü rəssamlarının, renessans və barokko dövrlərində yaşamış rəssamların əsərlərində Azərbaycan xaslçalarının şəklini göstərmək olar. Qərbi avropada məşhur olan, 1472-ci ildə çəkilmiş " Məryəm ana uşağı ilə birlikdə" tablosunu müəllifi, Niderland rəssamı Hans Memlinq Məryəmin ayaqları altında Quba-Şirvan tipli xovlu Azərbaycan xalçasını təsvir etmişdir.

XIII-XV əsrlərdə İran və Türkiyənin bir çox miniatürçü rəssamlarının əsərlərində Azərbaycan xalq naxışlarından və bəzəklərindən istifadə olunmuşdur. Bir qədər əvvəl adını çəkdiyimiz məşhur Azərbaycan rəssamı Sultan Məhəmməd bir çox müxtəlif kompozisiyalarda gözəl çeşnilər yaratmışdır. Beləliklə, yuxarıda göstərilən tarixi faktlar çox yüksək qiymətləndirilən Azərbaycan xalçalarının mənşə və mövcudiyyətini daha qədim dövrlərdə axtarmağa imkan verir. Beynəlxalq bazarlar vasitəsi ilə Azərbaycan xalılarının XV-XVI əsrlərdə Avropanın və Şərqin bir çox ölkələrinə yayıiması və bu yerlərin rəssamlarının əsərlərində əks etdiriliməsi tamamilə inkar olunmaz bir faktdır. Azərbaycan xalçalarının təsnifatına tədqiqatçılar müxtəlif cür yanaşırlar. Bəzi tədqiqatçılarımız Azərbaycan xalçalarını coğrafi əlamətinə görə təsnif edərək onların istehsal edildiyi yerlərə əsasən 2 tipə ayırır, bəziləri isə Azərbaycan xalçalarını 6 tipə ayıraraq onlara toxunduğu yerin adını verirlər. Qərbi Avropa tədqiqatçılarına gəldikdə isə vəziyyət daha pisdir. Çox zaman onlar Azərbaycan xalçalarını ayıra bilməyib, onları İrana və ya Türkiyəyə aid edir, ya da ən uzaq başı "Qafqaz xalçaları" deyə ümumi adla adlandırırlar. Bizə belə gəlir ki, bir çox Qərbi Avropa və rus tədqiqatçıları Azərbaycan xalçalarının düzgün təsnifatını və xüsusiyyətlərini öz əsərlərində lazımınca əsaslandıra bilməmişlər. Məsələ burasındadır ki, Azərbaycan xalçalarının təsnifatına, onların bədii tərtibatı və toxunma texnikası nöqteyi-nəzərindən yanaşmaq lazımdır. Bu cəhətdən Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnistitutunun qiymətli işini göstərmək olar. Bu inistitut xovlu və xovsuz xalçaların qruplaşdırılmasına dair çox mürəkkəb bir sxem işləyib hazırlamışdır: Həmin sxemə görə Azərbaycan xalçaları əsasən dörd tipə bölünür: Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Təbriz xalçaları. Hər tipə də müəyyən xalçalar daxil olur ki, bunlar da toxunduqları yerə görə adlanır. Məsələn, Quba-Şirvan tipli xalçalara yeddi xalça qrupu daxildir. Bakı, Şamaxı, Quba, Dəvəçi, Qonaqkənd, Xızı və Qusar xalça qrupu. Bunların yalnız Bakı qrupunda müəyyən üslubda toxunmuş məşhur "Xiləputa", "Suraxanı", "Xiləəfşan", "Görədil", "Fatmayı", "Novxanı" xalçaları vardır. (Bu xalçalar toxunduqları yerə görə adlanmışdır). Gəncə-Qazax, Qarabağ və Təbriz xalçaları da təxminən bu qaydada təsnif olunur. Beləliklə, Azərbaycan xalçalarının, Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnistitutu tərəfindən əsaslı surətdə qruplaşdırılması və təsnifatı, onların bədii və texnologi xüsusiyyətlərini nəzərə alıb, Azərbaycan xalçalarının hər tipini dəqiqləşdirməyə imkan verir. Bu sxemə əsasən qəti surətdə söyləmək olar ki, Ərdəbildə Şeyx Səfi məscidində toxunmuş və Nyu-Yorkda " Metropoliten" muzeyində saxlanan birinci xalı (1530) və Londonda "Viktoriya Albert " muzeyində saxlanan ikinci xalı (1539), Azərbaycan xalılarıdır. Eyni sözü Vyanadakı, XV əsrə aid, " İncəsənət və sənaye" muzeyində saxlanan naxışlı Quba-Şirvan tipli xalça haqqında da söyləmək olar. Adətən bu xalça səhvən Türkiyəyə aid edilir, halbuki onun Azərbaycan xalçası olmasına heç bir şübhə yoxdur. Azərbaycanın xalça sənətini öyrəndikdə, Azərbaycan xalçalarının naxışını, rəngini və kompozisiyasını həmişə nəzərə almaq lazımdır. Bir-birilə sıxı

əlaqədə olan bu üç amil ümumiyyətlə xalçaların, o cümlədən də, Azərbaycan xalçalarının bədii xüsusiyyətini təyin edir. Azərbaycan xalçaları kompozisiya cəhətdən müxtəlifdir. Xalçanın harada işləyəcəyindən asılı olaraq onun kompozisiyası, yəni göllərinin və xanalarının yeri, onların miqdarı və rəngi dəyişir. Mövcud Azərbaycan xalçaları məişətdə işlədilməsinə görə cürbəcürdür. Məsələn: a) həcmcə balaca olan namazlıq xalça. Bunu dindarlar namaz qılan zaman yerə salırlar. b) xüsusi divar xalçaları və c) qonaq otaqlarını bəzəmək üçün bir neçə xalçadan ibarət dəstə xalçalar. Bunlar ölçüsünə, formasına və kompozisiyasına görə müxtəlif olur. Ortada sərilmiş iri xalça (xalı), evin yuxarı başında (kəlləyi) və otağın ortasındakı iri xalçanın yanlarına salınan (kənarı) xalçalardır.

Yuxarıda sadalanan xalçalardan göründüyü kimi, onlar həm məişətdə işlənmə cəhətdən, həm də kompozisiyalarına görə bir-birindən fərqlənir. Azərbaycan xalçalarının kompozisiyası, bir qayda olaraq bir-birindən asılı olan iki elementdən ibarətdir: göl (xalçanın ortası) və haşiyə (xalçanın kənar bəzəkləri). Bu göl və haşiyələr, adətən Azərbaycan xalçalarının kompozisiyasının əsas xarakterini müəyyənləşdirir, naxışları isə onun kompozisiyasını tamamlayır. Hər hansı xalçanın ortasının və kənar naxışlarının kompozisiyalarının xarakterik xüsusiyyəti, ondakı rənglərin və ornomentlərin bir-birinə olan tənasübü ilə səciyyələnir. Azərbaycan xalçalarındakı bu cəhət onların keyfiyyətini müəyyənləşdirir və bunlar bir-birinə üzvi surətdə bağlıdır.

Azərbaycan xalçalarının naxışları olduqca müxtəlifdir. Biz arxeoloji üsulla bu xalçalardakı çoxlu lay və qatları tapa bilərik. Xalça naxışlarının səciyyəvi xüsusiyyətlərindən biri də onda təsvir olunan mühit əşyalarının verilməsidir. Bu cəhətdən bitki, heyvanat, həşərat və quşların stilizə edilmiş təsvirləri, həmçinin ulduz, paxlava, üçbucaq, dördbucaq, beşbucaq, altıbucaq, səkkizbucaqlı və s. həndəsi formaların təsviri Azərbaycan xalçalarının əsas naxışlarını təşkil edir. Azərbaycan xalçalarında “buta”, “qüppə”, “çaygülü”, “sarmaşıq”, “çiçək”, “qonça” və başqa bitki növləri daha çox işlənir. Bizim xalçalar rənglərinə görə də müxtəlifdir. Onlar üçün hər şeydən əvvəl çoxrənglik (polixromiya) daha xarakterikdir. Müxtəlif, həm də bir-birinə zidd (kontrast) rənglərin əlaqədar və ahəngdarlıqla işlənməsi Azərbaycan xalçalarının tipik xüsusiyyətlərindəndir. Azərbaycan xalça ustalarının rəng xəzinəsi spektrin bütün rənglərini əhatə edir. Maraqlı burasıdır ki, bizim ustaların rəng xəzinəsində bulanıq və qatışıq -solğun rənglər yoxdur. Elə buna görə də təsadüfi deyil ki, Azərbaycan xalçalarının rəngliliyi onları Şərq ölkələri xalçalarının çoxundan fərqləndirilir. Azərbaycan xalqının çoxsahəli, rəngarəng sənətinin inqilabdan əvvəlki dövrlərdə artması, inkişaf etməsi üçün lazımi zəminə yox idi. Xalçalar ayrı – ayrı adamlar tərəfindən kustar yollarla toxunurdu: bəzi hallarda isə bu sənətkarlar ayrı – ayrı sahibkarların emalatxanasında işləyirdi. Bu səbəbdən də, əməyin kapitalistcəsinə istismar olunduğu bir şəraitdə xalçaçılıq sənəti nəinki irəliləyib inkişaf etmirdi, əksinə get-gedə daha da geriləyirdi.

1924-25-ci illərdə xalçaçılıq yeni üsulla işləməyə başlamışdır. Sənaye kooperasiyası sistemində bir sıra xalçaçılıq artelləri əmələ gəlmiş və onların nəzdində bədii şuralar yaradılmışdır. Bütün bunlar xalçaçılıq sahəsində əsaslı dönüşə və yüksəlişə səbəb olmuşdur. Azərbaycanın Şamaxı, Gəncə, Qarabağ, Quba və Abşeron kimi xalçaçılıq məzrkəzi ölkəyə yüzlərcə, minlərcə yüksək keyfiyyətli, bədii ornomentli xalça istehsal edib vermişdir. Əməyin mexanikləşdirilməsi, fəhlə qüvvəsinin düzgün yerləşdirilməsi, yüksək texniki üsullardan, xammaldan və istehsalatda tətbiq edilən bir sıra başqa tədbirlərdən səmərəli istifadə edilməsi- bütün bunlar, buraxılan xalçaların yüksək keyfiyyətini təmin etmişdir.

Xalça ustaları bəzəkli və naxışlı xalçalarla yanaşı mürəkkəb məzmunlu, kompozisiyalı və portret xalçalar da toxuyurlar. Xalq ustalarımız peşəkar rəssamlarla birlikdə 1930-cu ildən bəri bir sıra olduqca gözəl xalçalar yaratmışlar. Bu xalçalar respublikamızdan çox-çox

uzaqlarda belə böyük şöhrət qazanmışdır. Azərbaycanın süjetli xalçaları 1935-37-ci illərdə respublika bədii sərgilərində, 1940-50-ci illərdə Ümumittifaq sərgilərində, 1937-38-ci illərdə Paris və Nyu Yorkda açılmış Ümumdünya sərgilərində, 1956-cı ildən başlayaraq müxtəlif ölkələrində və 1959-cü ildə Çində və başqa yerlərdə keçirilmiş sərgilərdə nümayiş etdirilmişdir.

Göstərilən xalçaları Azərbaycanın xalçatoxuyan qadınlarının məharətli əlləri yaratmışdır. Bu işdə xüsusilə Sona Əhmədova, Gülnanə Mustafayeva, Ruqiyyə İsgəndərova, Zeynəb Ələkbərova, Rəxşəndə Teymurova və bir çox başqaları fərqlənmiş və xalqın böyük hüsn-rəğbətini qazanmışlar. Məzmunlu xalçaların yaradılması, onlarca yüksək bədii keyfiyyətli, son dərəcə qəşəng və əlvan xalçaların müəllifi olan, Azərbaycanın nəqqaş-rəssamı, görkəmli xalçaçılıq ustası Stalin mükafatl laureatı Lətif Kərimovun adı ilə sıx bağlıdır.

Lətif Kərimovun bilavasitə rəhbərliyi ilə Nizami poemalarının motivləri əsasında hazırlanmış xalçalar, V.İ. Leninə və İ.V.Stalinə həsr olunmuş böyük xalılar, habelə bir çox başqa portretli xalçalar, müəllifi xalçaçılıq sənəti ustalarının ön sırasına çıxarmışdır. Lətif Kərimovun xalçaçılıq sahəsində böyük elmi-bədii tədqiqatları, xüsusən müasir xalçaçılıqda müvəffəqiyyətlə tətbiq edilən motiv və element yaratmaq sahəsində görkəmli xidmətləri vardır.

Xalçaçılıq məmulatına, xovlu xalçadan əlavə, bir neçə başqa toxumalar da daxildir. Bu toxumalar ancaq texnoloji cəhətlərinə görə xalçadan və eyni zamanda bir-birindən ayrılırdı. Xalçalarda olduğu kimi, bunların da rəngləri eynidir. Lakin toxumalar kompozisiya quruluşları və naxışları etibarilə xalçalardan ayrılır. Aşağıda izah edəcəyimiz bu növlər əsas etibarilə həndəsi motivli naxışları əhatə edir və düz, üfüqi zolaqlarla, üçkünc, dördkünc, paxlava və müxtəlif formalı göl və haşiyələrlə bəzənir. Bəzi hallarda son dərəcə stilizə olunmuş heyvanat, nəbatat və s. motivlərə də rast gəlirik.

Xalçaçılıq məmulatına daxil olan növlər də əsas etibarilə xalça toxunan yerlərdə hazırlanır. Bu növlər aşağıdakılardır: Sumax-Məlum olduğu üzrə, xalça toxunan zaman ona ilmə vurulur və sonra müəyyən hündürlük saxlanılıb, sapın ucu kəsili. Sumaxda isə əksinə, ilmələr ərişə tərsinə dolandırılır. Müxtəlif rəngli yun sapları istənilən qədər toxuduqdan sonra sumaxın arxasına keçirirlər. Sumax tipinin müxtəlif növləri Qubada, Qusarda, Qarabağda və Bakıda toxunur. Bəzi yerlərdə bu, “zili” və “vərni” də adlanır. Palaz-bu növ toxumada, nə xalçadakı kimi yun sap ilmələnir, nə də, sumaxdakı kimi ilmələr ərişə dolandırılır. Burada rəngli arqaclar ərişin üzərinə keçirilir. Bu səbəbdən palazda saya rəngli yer yoxdur. Al - əlvan sapları düzməklə palazda həndəsi naxışlar toxunur. Ən çox rast gəldiyimiz palazlar paxlava naxışlı palazlardır. Palaz Qazax, Qarabağ, Şamaxı, Quba və s. rayonlarda geniş surətdə toxunur. Bəzi yerlərdə ona “kilim” də deyilir.

Cecim-Eyni ilə palaz kimi toxunur. Lakin bunun fərqi-iplərinin incəliyindədir. O səbəbdən cecimi çox zaman ipək saplardan və xam ipəkdən toxuyurlar. Bunun naxışları ayrı-ayrı rənglərdə olan zolaqların içərisində toxunur. Əsas rənglər çəhrayı, qara, yaşıl, sarı, tünd abı və bənövşəyi rənglərdir. Cecimdən çanta, çiyin heybələri və yəhər heybələri, müxtəlif örtüklər və torbalar toxunur. Əsas toxunan yerləri Ağcabədi, Lənbəran, Şuşa və Qazaxdı

Bunlardan əlavə, bir sıra məişət şeyləri, o cümlədən xurcun, fərməş, çuval, yəhər üstləri və s. sumax üsulu ilə toxunur. Yuxarıda göstərilən xalçaçılıq məmulatının növləri müəyyən artellərdə və emalatxanalarda indi də toxunur. Bu növlər, xüsusən palaz, hal-hazırda kütləvi surətdə hazırlanıb məişətdə işlədilir. Toxuma vasitəsilə yaradılan məişət şeylərindən bir də müxtəlif yun və ipək corablardır. Corab növləri ümumiyyətlə iki cür olur: saya, yəni birrəngli və rəngbərəng naxışlı corablar. İstər saya, istərsə də naxışlı əlvan corablar mil vasitəsilə

toxunur. Dörd və yaxud beş mildən ibarət "dəzgah" sapları keçirib ilmələmək vasitəsilə corab hazırlanır. Corab ilmələrinin rəngləri qırmızı, qəhvəyi, yaşıl, çəhrayı, sarı, ağ, narıncı, qara, abı, bənövşəyi, boz və s. olur. Corab ən çox Şamaxı, Quba, Lənkəran, Naxçıvan, Qarabağ və digər yerlərədə istehsal edilir. Corablar əsas etibarilə Azərbaycan corablarının naxışları müxtəlif motivlərdən ibarətdir. Əsas motivlər həndəsi formalarda olur. Bəzi hallarda həddindən artıq stilizə olunmuş nəbatat və heyvanat motivlərinə də rast gəlirik. Çox zaman üçkünc, dördkünc, yarımpaxlava və başqa formalı naxışlar şaquli və üfüqi əlvan zənciri xətlər və zolaqlarla əhatə olunur. Ölkəmizin böyük şəhərlərində olan muzeylərdə, o cümlədən respublika muzeylərində, bir çox gözəl corab nümumələri saxlanılır.

Ədəbiyyat

1.Vidadi Muradov. Azərbaycan xalçaları. Qarabağ qrupu. Bakı: Elm, 2010, 272 s.
2.Bakı, Şirvan, Quba xalçaları Bakı "Ziya" 2013-176 səh.
3.Bakı xalçaları (yeni çeşniler) Zirə Mədəniyyət Mərkəzi - Eko-Park. Bakı xalçaları. 2018-ci il. 276 səhifə ral, 2007 Paris 152 səh

ТРАДИЦИИ АЗЕРБАЙДЖАНСКОГО КОВРОВОГО ИСКУССТВА

Вердиева Эсмира Гусейн гызы

Резюме

История ковроткачества очень древняя,наряду с этим является наглядным примером азербайджанского народного творчеста.Создание коврового искусства связано с хозяйственной потребностъю людей и с наличием нужного сыръя.

В Азербайджане всегда были выгодные хозяйственные и природные условия для развития ковроткачества широкое распространение овцеводства для производства шерстяных материалов, наличие красивых натуральных красителей создали нужные условия для развития коврового искусства в Азербайджане.

TRADITIONS OF AZERBAIJANI CARPET WEAVINQ ART

Verdiyeva Esmira Huseyn

Summary

The roots of the art of carpet weavinq are very ancient,this art is ancient but it is also a beautiful example of the art of carpet weainq is explaned by the economic needs of people , beinq the necessary raw material base, Both economic conditions and necessary raw material base, conditions in Azerbaijan have been favorable for the delelopmeht of carpet weavinq,the wide spread of sheep breedinq,which is an inexhanstible source for the production of wool,and the presense of beautiful natural dyes are necessary opportunities for the development of the fine art of carpet weavinq in Azerbaijan created.

Rəyçi: Rəsulova Elnarə
Təsviri incəsənət kafedrasının 20 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu
Daxil olma tarixi 18 oktyabr 2022-ci il

UOT:75.

FƏZANIN RƏSMDƏ VƏ RƏNGKARLIQDA TƏSVİRİ

dosent Hüseynov Akif Əlirza oğlu
Gəncə Dövlət Universiteti
gceferova@rambler.ru

Xülasə: *Tələbələrin təsviri sənət fənləri üzrə bilik və bacarıqların təhlili göstərir ki, onların arasında öz ixtisasını sevən, onun incilərini dərindən mənimsəməyə çalışan qabiliyyətli tələbələr vardır. Bununla yanaşı təsviri sənətə və müəllimlik peşəsinə davamlı marağı olmayan tələbələrdə vardır. Belə ki, tələbələrin rəsm və rəngkarlıq sahəsindəki bilikləri səthi, natamam olub, çox zaman praktik bacarıqlara çevrilə bilmir.*

Məhz buna görə də ali məktəblərdə təsviri incəsənət müəllimliyi iztisası üzrə təhsil alan tələbələr bu sahədə çalışmalı, rəsmin və rəngkarlığın işlənməsinin sirlərini daha dərindən öyrənməlidirlər.

Müasir zamanda isə rəsm, rəngkarlığın nəzəriyyəsini bir tədris fənni kimi ali məktəblərdə keçirilməsi zəruridir. Çünki bir tərəfdən tələbələrin dünya görünüşünü formalaşdırır, ictimai və fərdi sərbəstliyini təmin edir, digər tərəfdən isə təcrübə texnikasını artırır, üsul və vasitələrdən istifadə etmə qabiliyyətini təkmilləşdirir.

Açar sözlər: ellips-dairəvi masanın səthi, trapesiya-kvadrat masanın səthi, perspektiva-mənzərənin uzaqdan görünüşü, abris-çevrə, kontur

Ключевые слова: эллипс-поверхность круглого стола, трапеция квадратная поверхность стола, перспектива-дистанционный просмотр пейзажа, абрис-круг, контур

Key words: ellipse-the surface of the round table, trapezoid-square table surface, perspective-remote viewing of the landscape, outline-circle, contour

Ali məktəblərdə təsviri incəsənət müəllimliyi ixtisası üzrə təhsil alan tələbələr üçün vacib xüsusiyyətlərdən biri də odur ki, ətraf mühiti dərk edib kətan səthində təsvir etməyi bacarsınlar. Rəsm və rəngkarlığın işlənməsi sahəsində tələbələrin tərbiyə məsələsi bədii tərbiyənin ən mürəkkəb və çətin məsələsidir.

Məhz buna görə də ali məktəblərdə təsviri incəsənət müəllimliyi iztisası üzrə təhsil alan tələbələr bu sahədə çalışmalı, rəsmin və rəngkarlığın işlənməsinin sirlərini daha dərindən öyrənməlidirlər.

Tələbələrin təsviri sənət fənləri üzrə bilik və bacarıqların təhlili göstərir ki, onların arasında öz ixtisasını sevən, onun incilərini dərindən mənimsəməyə çalışan qabiliyyətli tələbələr vardır. Bununla yanaşı təsviri sənətə və müəllimlik peşəsinə davamlı marağı olmayan tələbələrdə vardır. Belə ki, tələbələrin rəsm və rəngkarlıq sahəsindəki bilikləri səthi, natamam olub, çox zaman praktik bacarıqlara çevrilə bilmir.

Bu problemin həlli üçün pedaqoji və sənətkarlığa aid bir çox ədəbiyyatlar nəzərdən keçirilməlidir.

Gənc nəslin estetik dünya görünüşünün formalaşmasına, təsviri incəsənət müəllimi kimi kadrların hazırlanmasına Ş.Məmmədov, M.Abdullayev, Q.Beda, T.Salahov, Ə.Verdiyev, T.Nərimanbəyov və başqalarının əsərlərinə və pedaqoji fəaliyyətlərinə böyük diqqət yetirilməlidir.

Müasir zamanda isə rəsm, rəngkarlığın nəzəriyyəsini bir tədris fənni kimi ali məktəblərdə keçirilməsi zəruridir. Çünki bir tərəfdən tələbələrin dünya görünüşünü formalaşdırır, ictimai və fərdi sərbəstliyini təmin edir, digər tərəfdən isə təcrübə texnikasını artırır, üsul və vasitələrdən istifadə etmə qabiliyyətini təkmilləşdirir.

Gözümüzün, görmə qabiliyyətimizin bir çox cəhətləri vardır. Məs: yaxın əşyaları uzaq məsafədə olanlardan böyük görürük.

Dəmir yolu relsləri uzaqlaşdıqca sanki birləşir, qarlı dağlar sanki qarşıdakı təpədən sonradır, teleqraf dirəkləri getdikcə kiçilir, hətta nöqtəyə dönür.

Başqa misal: Uzaq məsafədə olan əşyalar, tikintilər və s. öz həcmi əhatəsini itirir və səthi düz görünürlər. Realist rəssamların əsərlərində əşyaların fəzada yerləşməsinin son dərəcə gözəl təsvir edilməsini biz çox görmüşük. Həqiqətin tam təsvir edilməsinə nail olmaq üçün daim müşahidə etmək, gördüklərimizi müqayisə etmək və görmə qabiliyyətimizin xüsusiyyətlərini bilmək, dərk etmək lazımdır.

Dairəvi masanın səthi – ***ellips,*** kvadrat masanın səthi – ***trapesiya*** kimi görünür. Baxış xəttindən aşağı olduqda, düz bucaqlar sanki yuxarı qalxan, baxış xəttindən yuxarı olduqda isə aşağı düşən kimi görünürlər. Otaqda bizə elə gəlir ki, tavan aşağı gəlir, yaxud karniz və plintuslar yaxınlaşır və s. həqiqətdə gördüyümüz (naturada) əşyaların fəzada yerləşməsini düzgün təsvir etməyə kömək edən elmə ***perspektiva*** (mənzərənin uzaqdan görünüşü) deyilir.

Perspektiva qanunları üzərində dahi rəssamlar, sənətkrlar işləmişlər.

Bizim gözümüz əşyaları 53^0 bucaq altında görür. Əşya ilə gözümüz arasında yaranan xəttlərə ***baxış şüaları*** deyilir. Əks şüa mərkəzdə yerləşir və baxış bucağını iki hissəyə, bərabər hissəyə bölür. Biz gördüyümüz əşyalar yığımı baxış sahəsini təşkil edir. Əlbətdə, yaxın məsafədə biz az əşya, uzaq məsafədə isə nisbətən çox əşya görürük. İki gözlə görükdə biz əşyanı yek, bütöv, həcm kim dərk edirik. Sağ yaxud sol gözlə baxdıqda isə əşyanı yalnız birtərəfli görürük. Əlbətdə, mərkəzdə yerləşən əşyaları kənardakılara nisbətən daha aydən görürük.

Perspektiva elmində rəssamın mənzərəni müşahidə etdiyi yerə ***baxış nöqtəsi deyilir.*** İş zamanı kağız üzərinə əyildikdə mənzərə ilə tablo üzərində olan uyğunluğu, tənasüblüyü ***düzgün duymaq,*** görmək olmur. Ona görə iş zamanı düz durmaq lazımdır.

Tələbə elə yer, elə nöqtə seçməlidir ki, vəziyyətini dəyişmədən işləyə bilsin, naturanıbütöv bir baxışla əhatə etsin. Kağız, yaxud kətan, baxış istiqamətinə perpendikulyar olmalıdır. Təsəvvür edək ki, pəncərədən baxırıq.

Pəncərə ilə məhdud olunan sahə, mənzərə ***şəkil sahəsi*** adlanır. Əsas şüa şəkil sahəsinin ortasından keçməlidir. Onun istiqamətini müəyyən etmək üçün qələmi göz qabağında elə saxlamaq lazımdır ki, onun 6 künclüyü görünsün. İşləməzdən əvvəl tələbə üfüq xəttini müəyyən etməlidir. Əgər təpələr, çay, ağac, tikintilər üfüq xəttini örtürsə, su ilə dolu stəkanı göz önünə gətirib, elə saxlamaq lazımdır ki, su səthi düz xətt kimi görünsün.

Üfüq xətti aşağıdan, yaxud yuxarıdan görünən əşyaların, sərhəddini bildirir. Üfüqə maili olan xəttlər üfüq xəttindən aşağı yaxud yuxarı bir nöqtədə yığılır. Üfüqdən yuxarı olan nöqtələr – hava, aşağı nöqtələr isə - yer nöqtələri adlanır. Şəkil sahəsinə perpendikulyar xəttlər yaxınlaşan və kəcişən (fərz edilir A nöqtə - məqkəzi, əsas kəsişmə nöqtəsi adlanır) və P ilə işarə olur . Bu nöqtə baxış nöqtəsinin rəsmə olan proyeksiyasıdır. 45^0 bucaq altında olan üfüqü xəttlər, P nöqtəsindən bərabər məsafədə aralı olur və D_1, D_2 ilə işarə olunur.

Bir çox hallarda, ilk növbədə tikinti, yaxud otaqları təsvir etdikdə, düz bucaqlar, kvadrat və kub formalı əşyaları frontal vəziyyətdə göstərmək lazım gəlir. Frontal vəziyyət şəkil sahəsinə paralel vəziyyət hesab edilir.

Təsəvvür edək ki, gördüyümüz kvadratdan tədricən uzaqlaşırıq. Bu zaman, uzaqlaşan kvadrat yanları proyeksiyası mərkəzi kəsişmə nöqtəsinə yönəlir. Kvadrat sahəsi bu zaman trapesiya kimi görünür.

Bir tərəfi bizə yönələn kuba baxdıqda biz onu dəyişilməmiş görürük. Kubun yanlarını biz üfüqü və şaquli xətləri kimi görürük. Ancaq elə hallar da olur ki, əşyalar müəyyən bucaq

altındadır. Bu zaman kvadrat formanın yan xəttləri sanki qısalıb və kəsişmə nöqtəsinə yönəliblər. Kvadrat, demək olar ki, qeyri – bərabər yanları olan dördbucaqlı kimi görünəcək.

Kvadratın düz bucaqları isə ikisi iti bucaq, digər ikisi isə küt bucaq kimi görünür.

Əgər kubu şəkil səthi əsas oxunda yerləşdirsək, kubun görünən yan xəttləri bərabər miqdarda kiçik, kəsişmə nöqtələri orta, mərkəzi oxdan eyni məsafədə yerləşir. Bu zaman kəsişmə nöqtələri uzaqlaşma nöqtələri adlanır. Mənzərənin quruluşunu dəqiqləşdirmək üçün kəsişmə nöqtəsi kimi, uzaqlaşma nöqtəsi də əhəmiyyətlidir.

Rəssamlar rəsm əsəri yaratdıqda tez – tez çevrəni, yaxud silindrik əşyaları təsvir etməli olurlar. Əgər stəkanı gözümüz səviyyəsinə qaldırsaq, yaxud ondan aşağı salsaq onun altını ellips şəkilli, hətta üfüq xəttindən aşağı olduqda nisbətən enli elllips şəklində görərdik. Yadda saxlamaq lazımdır ki, silindri çəkdikdə ellipsin böyük radiusu həmişə fırlanma perpendikulyardır. Baxış nöqtəsini seçdikdə bilmək lazımdır ki, məsafədən asılı olaraq obyektlər öz görünüşünü dəyişir. Rəssamlığa başlayanlar baxış nöqtəsini əksər hallarda yaxud seçirlər, bu isə müəyyən səhvlərə gətirir. Eyni ilə çox uzaqdan baxmaq da səhvlərə səbəb olur. Küçələrin və çayların təsviri zamanı, onların uzaqlaşdıqca ensizləşməsi, perspektiva tələbidir, qanunudur.

Binaların, pəncərələrin, dirəklərin və s. kiçilməsi müvafiq olmalıdır.

Kölgələr nəzəriyyəsi haqqında ilkin məlumat

Əşyalar üzərinə işıq mənbəyindən şüalar düşürsə, əşyalar işıqlanmış sayılır. Hava mühitində işıq şüaları düz xəttlə istiqamətlənir. İşıq səmtində olan sahə işıqlanmış, əks tərəflər isə kölgədə olurlar.

Əşyanın işıqlanması işığın parlaq olmasından, şüaların düşmə bucağından və əşya səthinin xüsusiyyətlərindən asılıdır.

Kölgələr əşyanın özününkü və onun üzünə düşən olur.

Əşyanın işıqlanmayan tərəfi əşyanın öz kölgəsi adlanır. İşıq – kölgə sərhədi daha da qaranlıq olur.

Əşya üzərinə düşən şüadan alınan kölgə, əşyanın işıq mənbəyindən aralı sahəyə atdığı kölgəyə deyilir. Əşya üzərinə düşən şüadan alınan kölgə sərhədi, əşyanın formasından və sahənin, səthin xüsusiyyətindən asılıdır.

Sənətkarların işlərində bu növ kölgələr qara, yaxud tünd batıq kimi deyil, hətta (tünd boyalarla çəkilməsinə baxmayaraq) şəffaf görünürlər. Məsələn, M.Abdullayevin "Uşaq dalınca", "Rəfiqələr", "Hospitala", "Əsgər", "Pambıq" əsərləri misal ola bilər.

Adətən əşyanın öz kölgəsi əşya üzərinə düşən şüadan alınan kölgədən açıq olur (işıq gücünə görə).

Relyefin, rəng və boya keçidləri, çalarları ilə göstərilməsi zamanı işıqlı və kölgəli tərəflər unudulmamalıdır. Həm də qeyd edək ki, bunlar hamısı əşyanın həcmi formasını təsvir etmək üçün vasitədir.

Rəsmdə kölgələrin göstərilməsi işıq mənbəyindən (günəş, ay və süni şüalar) asılıdır. Günəş və ay işığı şüaları (planetlər uzaq olduğuna görə) demək olar ki, paralel gəlir. Süni işıq mənbəyi isə yaxındır. Şüalar radial (yəni radiysa paralel) yayılır.

Naturadan işlədikdə işıq mənbəyinin vəziyyətini dəyişmək olmaz, çünki o zaman kölgələrin vəziyyəti dəyişir. Günəş işığında işlədikdə, çəkdikdə, kölgələrin baxış nöqtəsini seçmə ilə eyni vaxtda qeyd edirlər, sərhədləri müəyyənləşdirirlər, çünki kölgələr də günəşlə sürünür.

Beləliklə, qeyd edək ki, qayda belədir: kölgələrin yerləşməsini baxış nöqtəsi ilə bir vaxtda müəyyən etmək lazımdır.

İlkin kompazisiyalarda tələbələr kölgələrin yerləşməsini sərbəst təsvir edirlər, yəni istədikləri kimi, ancaq kölgələr nəzəriyyəsini bilmək olduqca vacibdir.

Kölgələr təbii işıqlanmada

Günəş şüaları paralel olduğuna görə, onların istiqamətləri rəsmdə paralel düz xəttlərin vasitəsi ilə kompazisiya perspektivini yaratma qaydalarına uyğun olmalıdır.

Əşya üzərinə düşən şüadan alınan kölgəni təsvir etmək üçün səthin vəziyyətini və onun üzərinə düşən şüanın istiqamətini nəzərdə saxlamaq lazımdır. Əgər səth işıq şüalarına perpendikulyardırsa, əşya üzərinə düşən şüadan alınan kölgənin sərhədləri əşyanın abrisini təkrar edəcəkdir.

Abris – çevrə, kontur deməkdir. Əgər səthinə düşən şüalar iti bucaq altındadırsa, kölgələr öz sərhədini dəyişər, xeyli uzunsov olarlar. Perpendikulyar şüalar daha parlaq, daha şəffaf işıqlanma verirlər. Bucaq altında düşən şüalar isə işıq qüvvəsi intensivliyini nisbətən az miqdarda verirlər. Günorta günəş şüaları perpendikulyar olduğu üçün əşyaların kölgələri ən gödəkdir. Günəş qürub etdiyi zaman isə kölgələr uzundur, həm də işıq intensivliyi azdır, çünki şüalar bucaq altında düşür.

İşıq mənbənin vəziyyətindən asılı olan bir neçə səciyyəvi misala müraciət edək:

1.Işıq mənbəyi yandan işıq saldıqda, (işıq mənbəyi günəş rəsmdə özü görünmür) şüalar rəsm səthinə paralel olur, günəş şüaları proyeksiyası isə şəkilin oturacağına paralel olur. Düşən kölgələrin sərhədini müəyyən etmək üçün əşyaların özümlü ilə üfüqi xətt kölgələrin düşəcəyi istiqamətində çəkilir. Əşyaların yuxarı nöqtələrindən isə (günəş şüaları bucağına uyğun) xətlər çəkib proyeksiya ilə kəsişən yerdə, kölgələrin sərhədini təyin etməyə imkan verir.Günəşin, solda, sağda olmasına misallar.

Məsələn, T.Salahovun “Səhər eşalonu”, “Qladiosi”, “Bəstəkar Qara Qarayevin portreti”, “Pəncərə. Moskva şəhəri”, “Bəstəkar Fikrət Əmirovun portreti”, “Rəsul Rzanın portreti” misal ola bilər.

2.Günəş tamaşaçının qarşısında hər hansı bir yüksəklikdə olduqda, biz əşyaların işıqlanan və işıqlanmayan hissələrini görürük. Düşən şüalar isə tamaşaçı istiqamətindədir. İşıq mənbəyi proyeksiyası üsə üfüqi xəttindədir, şüaların kəsişmə nöqtəsi isə (yeni günəş) üfüq xəttindən yuxarıda olur.

Polenovun “Moskva məhəlləsi” rəsmi, T.Salahovun “Günəşli səhər”, M.Abdullayeüvin “Sevinc”, “Pambıq” əsərləri buna misal ola bilər.







3.Günəş tamaşaçıdan arxada olduqda isə əşyaların işıqlanan tərəfləri görünür. Məsələn:T.Salahov “Nardaranda məsçid”, K.F.Yuon “Mart günəşi” rəsmi.

Günəş arxa və sol tərəfdədir. Budaqların kölgəsi kəsişmə nöqtəsinə yönəlib. 0 nöqtə üfüqi xəttindən hündürdür. Günəş çoxda hündürdə deyil, bunu günəş şüasının maili düşməsi ilə təyin etmək mümkündür. Atlıların kölgəsi nə nəzər salaq. Kölgələrin istiqaməti yerin relyefini bildirir. Kölgələrin abrisi, atlıların silueti ilə eynidir.

Əgər bir neçə işıq mənbəyi vardırsa, ikiqat, üçqat kölgələr əmələ gəlir. Məsələn: V.V.Pukirevin "Qeyri – bərabər nikah"əsəri buna misal ola bilər.

Güzgü əksi.

Rəssamları, ilk növbədə, təbiət mənzərəsi çəkənləri tez – tez çay, göl, dəniz sahilində suyun əks etdirməsi cəlb edir.

Güzgüdə əksi təsvir etmək üçün bir neçə kitabı üst – üstə yığıb güzgünün qarşısına qoymalı və müxtəlif hündürlükdə olan kitab ların əks olunmasını təsvir etmək lazımdır. Tikinti və ağacların əksini nisbətən qısa çəkmək lazımdır, sahildə əkslərin və kölgələrin sərhədi kəskin kəsildiyini nəzərə almaq lazımdır. Daha sonra – bəzi hallarda əks olunmalar tərsinə aşağıda görünür. Məsələn: ağacın çətiri əks olunanda suyun dərinliyində yəni aşağıda görünür. Dalğalar olduqda əks olunma təkrarlanır.

Demək olar ki, güzgüdə və suda əks olunma eyni qaydalarda baş verir.

Fəza dərinliyini, açıq hava, yaxın – uzaq əşyaları təsvir etdikdə tədricən çalarların yumşaq, ilıq, birçalarlı, birtonlu olmasına nəzər salmaq lazımdır.

Məsələn: Yaxından baxanda ağacların gövdəsi yarpaqların kölgəsinə nisbətən açıq işıqlı görünür.

Meşədən aralandıqca ağaclar yaxınlaşır, eyni çalarlı olur və nəhayət bir zolaq kimi görünür. Məsələn, işlədiyim "Göy - göl" mənzərəsi buna misal ola bilər. Biz əvvəl, xətti perspektivadan danışanda, dedik ki, uzaqlaşdıqca insan, tikinti və s. kiçilir, səthi görünür. Rəssamlar ilk planda əşya və tikintiləri uzaqlaşan təbiət mənzərəsi fonunda (arxa planı) verdikdə rəsmi sanki geniş, dərinləşmiş təəssüratı bağışlayır.



Yəni, tələbələr unutmamalıdır ki, açıq və tünd rəngli əşyalar tabloda uzaqlaşdıqca fərqli görünür.

Beləliklə, rəsm və rəngkarlıq mədəniyyətinin yüksəldilməsi və tədrisin kifayət qədər ciddi qoyuluşu məsələsi yalnız o vaxt müvəffəqiyyətlə həll edilə bilər ki, gələcək təsviri incəsənət müəlliminin müvəffəqiyyətinin inkişafı üçün möhkəm əsas qoyulmuş olsun.

Ədəbiyyat

1. Бесчатсов Николай Петрович «Светная графика» Учебн. Пособие для студентов вузов. Москва. Гуманитар изд. Центр ВЛАДОС 2014. 176 стр.
2. Билл Мартин «Правила рисования» Минск. Попурин. 2014. 144 стр.
3. И.Головенко. «Техника рисунка» Москва.Эксимо. 2014. 40 стр
4. Питер Грей. «Рисуем пейзажи». Москва. Эксимо. 2015. 48 стр
5. И.А.Сергеевой., А.Й.Бороновиской. «Лучшие уроки. Светы» Москва. АСТ -2015. 80

ИЛЛЮСТРАЦИЯ ПРОСТРАНСТВА И ЖИВОПИСИ

Гусейнов Акиф Алирза оглы

Резюме

Анализ предметов изобразительного исскуства показывает, что есть талантливые студенты, которые любят свою профессию и глубоко осваивают его. В то же время есть студенты, которые продолжительно не интересуются изобразительным искусством и педагогической деятельностью. Таким образом, знания студентов в живописи и живописи поверхностны, неполны и часто не могут быть преобразованы в практические навыки.

Вот почему студенты, обучающиеся изображительному искусству преподавания в вузе, должны работать в этой области и постигать секреты живописи.

В наше время необходимо преподавать живопись, теорию живописи как предмет в высшем образовании. Потому что, с одной стороны, он формирует мировоззрение студентов, обеспечивает общественные и индивидуальные навыки, а с другой стороны, улучшает способность использовать технику и методы.

ILLUSTRATION OF SPACE AND PAINTING

Huseynov Akif Alirza

Summary

An analysis of the subjects of fine art shows that there are talented students who love their profession and master it deeply. At the same time, there are students who are not interested in the visual arts and teaching activities for a long time. Thus, the knowledge of students in painting and painting is superficial, incomplete and often cannot be converted into practical skills.

That is why students studying the visual art of teaching at a university should work in this area and comprehend the secrets of painting .

Nowadays, it is necessary to teach painting, the theory of painting as a subject in higher education. Because, on the one hand, it forms the students' worldview, provides social and individual skills, and on the other hand, improves the ability to use technique and methods.

Rəyçi: dosent Əbülfət Əliyev
Təsviri incəsənət kafedrasının 20 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu
Daxil olma tarixi 18 oktyabr 2022-ci il

UOT -37.01

ARİF MİRZƏYEVİN YARADICILIĞININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

Allahverdiyeva Raziyyə Qiyas qızı
Gəncə Dövlət Universiteti
Tunzalehuseyinova70@Gmail.Com

Xülasə: *XI-XV əsr Azərbaycan memarlığının üçüncü əhəmiyyətli məktəbi olan Şirvan-Abşeron memarlığı üçün səmərəli bir dövrdür. Şirvan dövlətinin ərazisi təbii inşaat daşı ilə zəngin olduğu üçün bu ərazidə əhəng daşı bir inşaatvasitəsi və binaların bəzəyində oyma şəklində tətbiq edilən yeganə material olmuşdur. Buna görə də Şirvan-Abşeron memarlığının üslub xüsusiyyətləri daş və onun üzərində tətbiq edilən ornamentlə formalaşmışdır. Bu dövrün ən qiymətli abidələri Bakıda içərişəhərdə yerləşən abidələrdir.*

Açar sözlər:memarlıq, abidələr, oyma bəzəklər, üslub
Ключевые слова:архитектура, памятники, резные украшения, стиль
Keywords: architecture, monuments, carved ornaments, style

XI-XV əsr Azərbaycan memarlığının üçüncü əhəmiyyətli məktəbi olan Şirvan-Abşeron memarlığı üçün də səmərəli fəaliyyət dövrü idi. Şirvanşahlar dövlətinin Kəsranilər sülaləsi zamanı möhkəmlənməsi və beləliklə, inşaat üçün əlverişli şərait yaranması yerli memarlıq məktəbinin çiçəklənməsi üçün zəmin yaradır. Şirvan dövlətinin ərazisi təbi inşaat daşı ilə zəngin olduğu üçün bu ərazidə hələ qədin dövrdən başlayaraq əhəng daşı bir inşaat vasitəsi və binaların bəzəyində oyma şəklində tətbiq edilən yeganə material idi.

Təbiidir ki, Şirvan-Abşeron memarlığının üslub xüsusiyyətiarı daş və onun üzərində tətbiq edilən ornamentlə oymanın birlikdə təsiri əsasında formalaşmışdır. Gözəl yerli daşın diqqətlə yonulması və onun səthinin hamarlanması Şirvan tikililərinin hörgüsünə xüsusi bir görkəm verir. Belə hörülmüş səthlərin üzərində yerləşdirilən zərif daş oymaları kompozisiyan gözəçarpan nöqtələrində mər- kəzləşdirilir və öz bədiiliyilə diqqəti cəlb edir. Şirvan memarlığının belə bir istiqamətdə inkişafı burada kompozisiyaların sadəliyini müəyyənləşdirmiş, əsas diqqət isə ayrı-ayrı ünsürlərin dürüst şəkildə işlənməsinə verilmişdir.

Bu dövrün ən qiymətli abidələrindən biri Bakıda. İçərişəhərdə yüksələn **Sınıqqala minarəsidir.** Üzərindəki kitabədən *1078-ci ildə ustad Əbubəkr oğlu Məhəmməd* tərəfindən tikildiyi məlum olan bu minarənin ilk məscidi zəmanəmizə qədər qalmamışsa da, minarə özü dini memarlığın inkişafını izləmək cəhətdən olduqca qiymətlidir.

Sınıqqala Azərbaycan memarlığında ən qədim minarədir. Minarənin quruluşunda qala tikintilərinə məxsus cəhətlər görünür. Onun gövdəsi olduqca geniş olduğundan müdafiə bürclərini xatırladır. Lakin memar minarənin gövdəsini memarlıq qanunları ilə incələdir, onun şərəfəsinin oturacağını təşkil edən stalaktitləri diqqətlə işləyir, şərəfənin balkon sürahisini daşdan oyma həndəsi ornamentlə örtür. Nəticədə dolğun və klassik bir tikinti yaranmış olur. Bu yeni memarlıq tikintisinin memar tərəfindən belə mükəmməl şəkildə yaradılması bizə Abşeron və Şirvanda Sımqqaladan daha əvvəl də minarələr tikildiyini irəli sürməyə haqq verir. Görünür ki, Şirvanda minarə inşaatı müəyyən inkişaf yolu keçmiş və nəticədə **XI** əsrdə Sınıqqala kimi mükəmməl bir minarə yaratmaq mümkün olmuşdur.

Kitabədə abidənin ustad Əbubəkr oğlu Məhəmmədin sifarişi ilə tikildiyi bildirilir. Burada ustad Məhəmməd binanın sifarişçisi kimi göstərilmişsə də, ehtimal etmək olar ki, binanın memarı da bu şəxsin özüdür. Çünki "ustad" sözü Məhəmmədin sənətkar olduğunu aydm göstərir. O biri tərəfdən ustad adlanan bir sənətkann abidənin sifa- rişçisi olaraq çıxış etməsi bu sənətkann yüksək ictimai (dini) mövqe tutduğunu da göstərir.

Qız qalası. Nəzərdən keçirdiyimiz dövrün və ümumiyyətlə, Azərbaycan memarlığının ən görkəmli abidələrindən biri Bakıda, İçərişəhərdəki Qız qalası adı ilə şöhrət tapmış binadır. Bu abidə İçərişəhərdə orta əsr Bakısının bir simvolu kimi yüksəlir. Eyni zamanda yaradıldığı dövrdə müdafiə inşaatının yüksək səviyyədə olduğunu aydın göstərir. Qız qalası qüdrətli, əzəmətli bir müdafiə tikintisi olmaqla bərabər ümumi həcm quruluşunun, nisbətlərinin ve nəhayət, hörgüsünün düşünülmüş şəkildə işlənməsi cəhətdən də yüksək səviyyəli memarlıq bədii qiymətə malik bir tikintidir.

Qalanın adının əfsanəvi hadisələrlə əlaqələndirilməsi haqqında müxtəlif mülahizələrə burada yer verməyə ehtiyac yoxdur. Orasını qeyd etməklə kifayətlənmək lazrm gəlir ki, Qız qalası şəklində müxtəlif Şərq ölkələrində, türkdilli xalqların yaşadığı ölkələrdə, xeyli miqdarda qala tikintiləri məlumdur.

Bu ad, şübhəsiz ki, bir mənanı ifadə edir. Qüdrətli, sarsılmaz qalalanın yenilməz, alınmaz olduğu anlayışını xalq çox zaman bakirə mənasında "qız" termini ilə ifadə edir. Beləliklə, Qız qalası yenilməz, fəth edilməz mənasını daşımışdır.

Qız qalası yerli əhəng daşından hörülmüş qüdrətli bir tikilidir. Abidə iki əsas hissədən ibarətdir: Qız qalasının hündürlüyü giriş tərəfdən 32 m, dəniz tərəfdən isə 35 m bərabərdir. Divarların qalınlığı kürsü hissəsində 5 m olub, yuxarıdan isə 4 m qədər azalır. Qalaya özünəməxsus görkəm verən çıxıntı hissəsinin Azərbaycan memarlığında analoqu yoxdur. Qız qalasının əsas silindrik hissəsi daxildən yastı günbəzlərlə 8 mərtəbəyə bölünmüşdür. Bu mərtəbələrdən ancaq birincisi hündürdür. Birinci mərtəbədən ikinci mərtəbəyə daxil olmağı çətinləşdirmək üçün birinci mərtəbə ilə ikinci mərtəbə arasında pilləkən yoxdur. İkinci mərtəbədən başlayaraq pillələr divarın qalınlığında yerləşdirilmişdir. Mərtəbələr pillələr vasitəsilə əlaqələndirilmişdir. Hesab edilmişdir ki, Qız qalasının səkkiz mərtəbəsində 250-yə qədər adam yerləşdirmək olar. Qız qalasının daxili quruluşunda diqqəti cəlb edən bir xüsusiyyət mərtəbələrin saxsı boru vasitəsilə vertikal istiqamətdə əlaqələndirilməsidir. Bu saxsı borunun kürəbənd məqsədi üçün və yaxud mərtəbələr arasında danışıq üçün istifadə edilməsi haqqında fikirlər vardır.

Şirvanşahlar Sarayının tarixindən

Azərbaycanın orta əsr memarlığının şah əsərlərindən biri olan Şirvan hökmdarlarının iqamətgahı Şirvanşahlar Sarayı Kompleksi Bakının tarixi özəyi olan «İçəri şəhər»də dominant rol oynayır. Şirvanşahlar dövləti VI əsrin I yarısında Azərbaycanın şimali-şərq bölgəsində XVI əsrədək hökm sürmüş ən böyük feodal dövləti olmuşdur. Onun sərhədləri şimaldan Samur çayı, Dərbəndlə, şərqdən Xəzər dənizi, cənubdan Kür çayı, qərbdən isə Şəki, Gəncə ilə əhatələnmişdi.

Bu dövlətin güclü, qüdrətli, son dərəcə savadlı hökmdarları olmuşdur. Axsitan, Fəriburz, Şeyx İbrahim, Xəlilullah və digərləri görkəmli diplomat və dövlət başçıları olmaqla bərabər, həm də bacarıqlı sərkərdələrdi.

Şirvan dövlətinin ilk paytaxtı Şamaxı şəhəri olmuşdur. Artıq XIII-XV əsrlərdə Şamaxı beynəlxalq ipək ticarətində əhəmiyyətli mövqe tuturdu. «Talaman ipəyi» adıyla məşhur olan Şirvan ipəyi Kiçik Asiyaya, Suriyaya, İtaliyaya, Çinə, İngiltərəyə və bir çox başqa ölkələrə göndərilirdi.

Seysmik zonada yerləşən Şamaxı 1192-ci ildə zəlzələdən dağıldıqdan sonra Şirvanşah I Axsitan Bakı şəhərini öz iqamətgahına çevirmiş və Bakı həmin vaxtdan Şirvanşahlar dövlətinin II paytaxtı olmuşdur.

İki şahın – Şirvanşah İbrahimin və onun oğlu Şirvanşah I Xəlilullahın dövründə saray şairi olmuş Bədr Şirvaninin yazdığına görə, Şirvanşahlar dövlətinin bayrağı qızılı rəngdə olmuşdur.

İki şir və onların arasında bir öküz başının təsviri isə Şirvanşahlar dövlətinin gerbidir. Təsvirdəki şirlər Şirvanşahlar dövlətinin güc və qüdrətinin, öküz başı isə ölkədəki bolluğun rəmzi idi.

Hal-hazırda saray kompleksinin ümumi sahəsi 0.7 ha-dır. Bütün Yaxın Şərqdə özünün analoquna malik olmayan bu kompleksdə 52 sayda otağı olan saray binası, hələ orta əsrlərdən xarici alim və səyahətçiləri valeh etmiş «Divanxana», ərəb dilində yazmış olduğu elmi əsərləri hazırda dünya kitabxana və muzeylərini bəzəyən XV əsr saray alimi Seyid Yəhya Bakuvinin türbəsi, «Şərq» portalı, gözəl memarlıq elementləri ilə diqqəti cəlb edən saray məscidi, şahın ailəsinə mənsub türbə, maraqlı şərq memarlıq xüsusiyyətlərini özündə daşıyan qədim saray hamamı, 34 sayda pilləsi olan büllur sulu yeraltı su anbarı – şah ovdanı vardır.

Səbayıl kitabələri

Qoruq-muzeyin orta həyətində sərgilənən Səbayıl kitabələrinin Şirvanşahlar Sarayı ilə birbaşa əlaqəsi vardır. Bütün bu daş kitabələr Bakı buxtasından, suyun altından çıxarılmışdır.Bakı buxtasında, sahildən təxminən 300 metr aralı kiçik bir ada vardır. Orta əsrlərdə bu ada üzərində qəsr inşa edilmişdir. Salnamələrin verdiyi məlumatlara görə, 1306-cı ildə dənizdə güclü zəlzələ baş vermiş, suyun səviyyəsi qəflətən yuxarı qalxdığı üçün ada və onun üzərindəki qəsr suyun altında qalmışdır. Yalnız XVIII əsrdən dəniz suyunun səviyyəsi aşağı düşməyə başlamış və bu prosses XX əsrin əvvəllərinə qədər davam etmişdir. 30 il müddətində -- 1939-cu ildən 1969-cu ilə qədər suyun altında arxeoloji tədqiqat işləri aparılmış, məlum olmuşdur ki, uzun əsrlər suyun altında qaldığından qəsr dağılmış, onun təkcə özülləri və epiqrafik abidələri qalmışdır. Onların hündürlüyü 70, eni 25-50, qalınlığı isə 12-15 sm-dir. Suyun altından 699 ədəd epiqrafik abidə tapılmışdır. On beş yarımdairəvi bürclə əhatə olunmuş qəsrin uzunluğu 180, eni isə 40 m-dir. Səbayıl kitabələri qəsrin xarici divarlarının yuxarısında, sanki bir kəmər kimi dövrələnmişdir. Daş kitabələr üzərindəki yazılar ərəb qrafikası ilə əsasən fars dilində həkk edilmişdir.

Qalanın tikilməsi vaxtının I göstəricisi divarın hörgüsündən tapılmış, XIII əsrin I rübündə zərb edilmiş şirvanşah III Fəriburzun sikkələri olmuşdur. Şirvanşah III Fəriburz 1225-1243-cü illərdə hökmranlıq etmişdir və qalanın tikilib başa çatdırılması vaxtı onun hakimiyyət illərinə düşür. Arxeoloji tədqiqatlar zamanı 632 hicri tarixli (1234-1235) yazı parçası tapılmışdır.Məlum olmuşdur ki, qəsrin memarının adı Əbdülməcid, epiqrafik abidələrinin müəllifinin -- xəttatın adı isə ustad Zeynəddin bin Əburəşiddir. Səbayıl qəsri təyinatına görə, dəniz müdafiə qalası olmuşdur.

Şirvanşahlar türbəsi

Şirvanşahların ailəvi türbəsi hicri 839-cu, miladi təqvimlə isə 1435-ci ildə Şirvanşah Xəlilullahın tapşırığı ilə memar Məhəmməd Əli tərəfindən Şirvanşahın anası Bikə xanım və 6 yaşlı oğlu Fərrux Yəminin dəfni üçün inşa edilmişdir. Sonradan türbədə Şirvanşah Xəlilullahın özü, zövcəsi Xanikə Sultan, oğlanlarından Məhəmməd İbrahim, Əmir Bəhram, Şeyx Saleh torpağa tapşırılmışdır.

1946-cı ildə abidədə arxeoloji tədqiqat işləri aparılarkən, qəbirlərdən bəzi əşyalar tapılmışdır.Bu əşyalar qazıntı işlərini bilavasitə həyata keçirmiş «Azərbaycan Tarixi» muzeyində saxlanılır.

Türbədə 2002- 2003-cü illərdə bərpa işləri aparılmışdır.

Saray hamamı

Şah ailəsinə mənsub olmuş bu hamam 1939-cu ildə aparılmış arxeoloci qazıntı işləri zamanı torpağın altından aşkar edilmişdir. O, 1953-cü ildə qismən torpaqdan təmizlənmiş, 1961 və 2005-ci illərdə isə konservasiya edilmişdir.

Saray hamamı bütün orta əsr şərq hamamlarının səciyyəvi xüsusiyyətini özündə daşımışdır. Hamam yarı-yerin altında, yarı-yerin üstündə inşa edilməklə, qışda istiliyi, yayda isə sərinliyi qoruyub saxlamışdır. Səyahətçilərin şəhadətinə görə, hamam həm daxildən, həm də xaricdən yaxşı bəzədilibmiş. Bunu otaqların birinin divarlarında qorunub saxlanmış əlvan rəngli kaşı parçaları da təsdiqləyir. Su «xəznə» adlanan su tutumu yerlərindən yuyunma otaqlarına bir-birinə paralel şəkildə çəkilmiş 2 saxsı boru vasitəsilə paylanırdı. Bəzi yerlərdə qismən qorunub saxlanmış bu boruların birindən «külxana» otağında qızdırılmış isti su, digərindən isə soyuq su keçirdi. Hamamın isidilməsi yuyunma bölməsinin döşəməsi aaltından, eləcə də divar qalınlığından keçən buxar kanalları vasitəsilə həyata keçirilirdi.

Saray alimi Bədr Şirvaninin «Divan»ına əsasən, hamamın əsası hicri 840-cı (1438-ci) ildə qoyulmuşdur.

Saray ovdanı

Şirvanşahlar Sarayı Kompleksinin tərkibinə daxil olan ovdan Abşeron yarmadasındakı ən iri ovdanlardan biridir. Hələ qədimdən xalq arasında «Şah ovdanı» adı ilə məşhur olmuş bu yeraltı su anbarı-ovdan, nəinki sarayı, həm də qədim şəhərin əhalisini içməli su ilə təchiz edirdi.

Su ovdana çeşmələrdən çəkilmiş kəhriz su sistemi vasitəsi ilə daxil olurdu.

Saray şairi Bədr Şirvaninin «Divan»ına əsasən, ovdanın bünövrəsini hicri təqvimi ilə 840-cı ildə, miladi təqvim ilə 1436/37-ci ildə Şirvanşah Sultan Xəlilullah qoydurmuşdur.

Ədəbiyyat

1. R. Əfəndi “Azərbaycan incəsənəti ” Bakı -2007
2. R. Əfəndi “ Azərbaycan xalq sənəti” Bakı-1984
3. Ş.Fətullayev-Fiqarov-Bakının memarlıq ensiklopediyası. Bakı-Şərq-Qərb Nəşriyyatı, 2015
4. Ş.Məmmədova. “Azərbaycanın tarixi – memarlıq abidələri”. Bakı – 2008
5. K.Fərhadoğlu. Bakı- İçərişəhər. Bakı “ş-q” “Çinar” çap 2006.
6. G.Məmmədova., Z.Məmmədova. Orta əsrlər memarlığı. Bakı, 2013

АРХИТЕКТУРНЫЕ ПАМЯТНИКИ ШИРВАНА-АБШЕРОНА В XI-XV ВЕКАХ

Аллахвердиева Разия Гияс кызы

Резюме

XI-XV века являются плодотворным периодом для ширвано-абшеронского зодчества, которое является третьей по значимости школой азербайджанского зодчества. Поскольку территория Ширванского государст ва богата природным строительным камнем, известняк был единственным материалом, используемым в виде резьбы в этой области в качестве строительного инструмента и украшения зданий. Поэтому стилистические особенности ширвано-абшеронской архитектуры формируются камнем и нанесенным на него орнаментом. Наиболее ценные памятники этого периода находятся в Старом городе Баку.

ARCHITECTURAL MONUMENTS OF SHIRVAN-ABSHERON IN THE XI-XV CENTURIES

Allahverdiyeva Raziya Giyas

Summary

The 11th-15th centuries are a fruitful period for the Shirvan-Absheron architecture, which is the third most important school of Azerbaijani architecture. Since the territory of the

Shirvan state is rich in natural building stone, limestone was the only material used in the form of carvings in this area as a building tool and building decoration. Therefore, the stylistic features of the Shirvan-Absheron architecture are formed by a stone and an ornament applied to it. The most valuable monuments of this period are located in the Old City of Baku.

Rəyçi:dosent Əliyev Əbülfəz
Təsviri incəsənət kafedrasının 22 noyabr 2022-ci il tarixli iclasın 04 saylı protokolu
Daxil olma tarixi 13 dekabr 2022-ci il

UOT:746.

QARABAĞ XALÇA MƏKTƏBİ

Verdiyeva Esmira Hüseyn qızı, Kazımova Səriyyə Eyvaz qızı
Gəncə Dövlət Universiteti
Verdiyefvaesmira@mail.ru

Xülasə: *Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda da xalçalar xovlu və xovsuz texnika ilə toxunmaqla iki qrupa bölünür. Birinci qrupa xovsuz texnika ilə toxunan həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax kimi xalçalar daxildir. Qarabağın dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa ilə yanaşı, Daşbulaq, Dovşanlı, Çanaqçı, Tuğ, Tağlar və digər kəndlər əsas rol oynamışlar.*

Qarabağ xalçalarının kompozisiyası zəngin olub, mürəkkəb kompozisiya quruluşuna malikdir. Qarabağ xalçaları kompozisiyalarının müxtəlifliyi, həndəsi və nəbati eementləri ilə fərqlənir. Başqa tipli xaçala nisbətən də daha böyük ölçülərdə olur. Qarabağ xalçalarında ümumi kompozisiyada əsas yer tutan və ən çox gözə çarpan elementlər bütün xalça kompozisiyalarında olduğu kimi beş qrupa bölünür.

Açar sözlər: Qarabağ xalçaları, xovlu xalçalar, xovsuz xalçalar, kompozisiya, xalça ilmələri

Key words: Karabadh carpet,

Ключевые слова: Карабахские ковры, ворсововые ковры, без ворсововые ковры, композиция, ковровые петля

Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda da xalçalar xovlu və xovsuz texnika ilə toxunmaqla iki qrupa bölünür. Birinci qrupa xovsuz texnika ilə toxunan həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax kimi xalçalar daxildir.

Xovsuz xalçaların qrupuna daxil olan xalça və xalça məlulatlarının toxunuşu arğacların əriş iplərinə "sadə keçirtmə", "mürəkkəb keçirtmə" ə sadə dolama üsulu ilə əmələ gəlir. Bu bölgədə zili, vərni, kilim, cecim, şəddə, adı, məfrəş, duz torbası, xurcun, at çulu kimi xovsuz xalçalar da toxunur.

İkinci qrup xovlu xalçalardır. Bu qrupa xalı və xalçalar daxildir. Xovlu xalçaların toxunuşu düyünləmə üsulu, yəni dolama ilmə və yaxud qullabı ilmə ilə əmələ gəlir. "Çələbi", "Malıbəyli", "Açma-yumma", "Balıqlı", "Xançərvənd", "Xanlıq", "Qasımuşağı", "Qoca" adlı xalçalar Qarabağ qrupuna aid məşhur çeşnilərdir

Qarabağın dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa ilə yanaşı, Daşbulaq, Dovşanlı, Çanaqçı, Tuğ, Tağlar və digər kəndlər əsas rol oynamışlar. Dağlıq zonaya nisbətən, şübhəsiz ki, xammalla daha yaxşı təmin olunmuş aran rayonları Cəbrayıl Ağdam, Bərdə,

Füzuli, Ağcəbədi və Beyləqan xalça istehsalında əsas yer tutur. Bu mərkəzlərin hər birində əhalisi satış üçün intensiv şəkildə xalça toxuyan müəyyən miqdarda kəndlər mövcud olmuşdur. Qarabağın xovlu və xovsuz xalçalarının ölçüsü başqa xalçalara nisbətən böyükdür. Bu qrupa aid olan xalçalar 300x200, 600x200, 600x100, 350x150 sm ölçüsündə toxunur

Bu bölgənin xalçalarında bir kv. metrdə 90.000-dən 160.000-ə qədər ilmə yerləşir. Bəzən bir kv. metrdə 200.000 ilməsi olan xalçalara da təsadüf edilir. Bu xalçalar qullabı ilmə toxunuşlu olur. Qarabağ qrupuna daxil olan xalçaların ilmə hündürlüyü, yəni qalınlığı 6 mm-dən 10 mm-ə qədər olur. Burada toxunan xalçalar əksər hallarda uzunsov olur. Bu xalçaların sıxlığının orta və az olmasına baxmayaraq onlar möhkəm, qalın və xeyli davamlıdırlar. Qarabağ xalçalarının kompozisiyası zəngin olub, mürəkkəb kompozisiya quruluşuna malikdir.

Qarabağ xalçaları kompozisiyalarının müxtəlifliyi, həndəsi və nəbati eementləri ilə fərqlənir. Başqa tipli xaçala nisbətən də daha böyük ölçülərdə olur. Qarabağ xalçalarında ümumi kompozisiyada əsas yer tutan və ən çox gözə çarpan elementlər bütün xalça kompozisiyalarında olduğu kimi beş qrupa bölünür:

a) Butalar. Azərbaycan ornamentlərində çox geniş istifadə olunan buta Qarabağın həm xovsuz, həm də xovlu xalçalarında təsvir edilir. Azərbaycanın müxtəlif bölgələrində xalça kompozisiyasında kök salmış buta Qarabağ xalçalarında da müxtəlif formalarda işlənmişdir. Qarabağın "Şabalıd buta" adlanan kompozisiyası öz bədii tərtibatına görə digər bölgələrin "buta" təsvirli xalçalarından seçilir.

b)Kətəbələr. Xalça kompozisiyasında kətəbə doldurucu rolunu oynayır. Adətən uzunsov kətəbələrin üzərində toxucular müxtəlif yazılar, süjetli kompozisiyalar və yaxud müstəqil quruluşlu ornametlər yerləşdirirlər. Anagüllər. Xalça kompozisiyası üçün xarakterik olan bu elementlərin xalçaların adlarının müəyyənləşdirilməsində olduqca əhəmiyyətli rolu vardır. Qarabağın "Qoca" adlı xalçasında "anagüllər" çox təkrar olunur.

ç) Göl və ya kiçik xonçalar. Qarabağ xalçalarında tez-tez rast gəlinən "göl", "xonça", "podnos" istilahları medalyon mənasını daşıyır. Azərbaycanın bütün bölgələrində toxunan xalçalarda təsadüf edilən göllər öz formalarına görə müxtəlif olduğu kimi, Qarabağda toxunan xalçalarda da müxtəlif formalarda təsvir edilirlər.

b) Qübbələr. Bunlar əsas elementlər qrupuna daxildir və adətən xalça kompozisiyasında böyük göllərin başında (qurtaracağında) yerləşdirilir. Toxucular bu elementləri "başlıq" və yaxud "heykəlbaşı" adlandırırlar.

Qarabağ xalçalarının rəng palitrası çox zəngindir. Bu xalçalarm rəngləri şux və parlaq olur. Bu rənglər Qarabağın təbii coğrafi şəraiti, gözəl mənzərələri, bağları, meşələri və yaşıl çəmənlikləri ilə əlaqədar olaraq meydana gəlmişdir. Bu bölgədə qırmızı və çəhrayı rənglər boyaq ("marena") bitkisindən və qırmızı rəng bəzən "qırmızı" adlanan qurddan, sarı və sarımtıl rənglər sarıçöp, sarıgüldən, noxudu və ya şəkəri rənglər-soğan və alma qabığından, palıdı rəng - qoz qabığından, sürməyi və göy rənglər - təbii indiqodan alınırdı.

Qarabağ bölgəsində toxunan xalçalar əsasən Baharlı, Birinci Alıbəyli, Hacallı (Zəngilan), Necefler, Ördəkli, Kəbir- (Ağcabədi), Pərioğullar, Qaravəlli Ağcabədi), Qiyaməddinli, Şahsevən Ağcabədi), Cəmilli (Tərtər), Hacıqərvənd, Seydimli, Səhləbad,) Cəmilli (Xocalı), Dəmirçilər (Xocalı), Həsənabad (Xocalı), Kosalar (Xocalı), Kərkicahan, Mehdibəyli, Meşəli (Xocalı), Mədətkəndə, Qayaba- şx (Xocalı), Aşıqalılar, Baharabad, Birinci Aşıqlı, Dünyamallar, Eyvazlılar (Beyləqan), Qaralılar, Tatalılar, Yuxarı Kəbirli, Ağdaban, Bağılpəyə, Başlıbel, Dəvədaşı, Kərəmli, Mollabayramlı, Qamışlı (Kəlbəcər), Qanlıkənd, Qaraxançallı, Qılıçlı, Seyidlər (Kəlbəcər), Taxtabaşı, Zar, Zəylik (Kəlbəcər), Arayatlı, Böyük Bəhmənli, Dövlətyarlı, Gorazıllı, Kürd- mahmudlu (Füzuli), Qoçəhmədli, İşıqlı (Füzuli), Ələskərli, Balahəsənli, Eyvazlı (Qubadlı), Həkərli, Xanlıq, Əliquluuşağı, Aşağı

Mərcanlı, Cocuq Mərcanlı, Məstalıbəyli, Qumlaq (Cəbrayıl), Süleymanlı, Boyəhmədli, Mahrızlı (Ağdam), Mirəşəlli, Muradbəyli (Ağdam), Mərzili, Qalayçı- lar, Qiyaslı (Ağdam), Şıxbabalı, Malıbəyli, Mirzələr, Qaybalı, Səfixanlar, Xəlfəli (Şuşa), Yuxarı Quşçular, Əmillər, Alpout (Bərdə), Ağalı (Bərdə), Kələntərli, Mir- zəxan, Mustafaağalı, Məşədiibişli, Qara-dırnaq, Qaraqoyunlu (Berdə), Qaratəpə (Bərdə), Qazaxlar (Bərde), Tehlə, Uğurbəyli kimi kəndləri əhatə edir.

Xalça sənətinin tədqiqi ilə məşğul olan sənətşünaslar Qarabağ xalçalarını üç qrupa bölürlər:

1. Aran qrupu. Bu qrupa Bərdə və Ağcabədi rayonlarının xalçaları daxildir. Bərdə rayonunun keçmişdə məşhur olan "Bərdə", "Xan Qərvənd", "Açma yumma", "Qoca", "Buynuz", "Dəryanur", "Balıq", Şabalıt buta" adlı xovlu xalçaları və şəddə, vərni və zili kimi xovsuz xalçaları olmuşdur. Bu qrupa daxil olan xalçaları xalça ustaları Aran xalçası da adlandırmışlar. Ağcabədinin xovlu xalçalarından "Lənbəran", "Qarabağ", "Xantirmə" və xovsuz xalçalarından cecim zililər də çox yayılmışdır.Bu rayonda "Qaraqoyunlu" xalçası da toxunmuşdur.

2.Şuşa qrupu. Bu qrupa "Malıbəli", "Ləmpə", "Bağçada güllər", "Saxsıda güllər", "Nəlbəki gül", "Bulud" məşhur xalçalar daxildir. Burada "Atlı-itli", "Rüstəm və Söhrab", "Dəryanur" adlı xalçalar da toxunurdu.Şuşa qrupuna daxil oan "Ləmpə" xalçası Qarabağın bütün xalçaçılıq mərkəzində toxunmuşdur.

3.Cəbrayıl qrupu. Bu qrupa "Xanlıq", "Qaraqoyunlu", "Qubadlı", "Kürd", "Qasımuşağı", "Bəhmənli" Muğan", "Talış" xovsuz xalçalardan isə palaz və kilimlər daxildir.

Qarabağ xalçalarının kompozisiyası zəngin olur, yəni bu xalçalar mürəkkəb kompozisiya quruluşuna malikdir. Qarabağ qrupuna daxil olan xalçaların ilmə hündürlüyü, yəni qalınlığı 6 millimetrdən 10 mm.-ə qədər olur. Burada toxunan xalçalar əksər hallarda uzunsov olur. Bu xalçaların sıxlığı orta və az olmasına baxmayaraq möhkəm, qalın və xeyli davamlı olur. Azərbaycanın digər bölgələrində olduğu kimi Qarabağ bölgəsində də xalça sənətinin inkişaf dövrünü təşkil edən xovlu xalçaların kompozisiyası müxtəlif formalı elementlərdən qurulmuşdur. Ümumiyyətlə, xalça kompozisiyası iki hissədən ibarət olur:

c) ara sahə;

d) haşiyə qurşağı.

Ara sahə ilə haşiyə ornamentləri bir-biri ilə üzvü surətdə bağlı olur.

Qarabağ xalçalarının ara sahəsinin bəzəyini bitki elementləri, məişət əşyalarının təsvirləri, canlıların təsvirləri (insan təsvirləri, heyvan təsvirləri), müxtəlif formalı elementlər (pilləlilər, kvadrat və düzbucaqlılar, çoxbucaqlılar, qarmaqlılar, dilikli-itibucaqlılar, sancaqlılar və ya tikanlılar, dəyirmilər, səkkizguşəli ulduzlar, qeyri-müəyyən formalılar) təşkil edir.

Qarabağ xalçalarında təsvir edilən bitki elementləri öz formalarına görə iki növə bölünür.

1.Həndəsiləşmiş elementlər

2. Əyri xətli elementlər

Həndəsləşmiş elementlər əsasən xalça kompozisiyasında doldurucu elementlər kimi və yaxud köməkçi, bağlayıcı rolunu oynayırlar. Bu elementlər Azərbaycanın digər bölgələrinə nisbətən Qarabağ qrupun daxil olan xalçalarda daha çox işlədilir.

Əyrixətli həndəsiləşmiş bitki elementlərinə nisbətən daha da stilləşmiş formada olur. XV-XVI əsrlərdə Təbriz xalça məktəbinin nümunələrində daha çox tətbiq ediən bu formalar nəinki "Qarabağ" hətta Yaxın Şərq və Kiçik Asiya xalça məktəbinə də qüvvətli təsir göstərmişdir. Qarabağ xalçalarında müxtəlif heyvan təsvirlərinə - ev heyvanlarına, vəhşi

heyvanlara o cümlədən quş və həşarat təsvirlərinə rast gəlmək olur. Qarabağ xalçalarında tez-tez rast gəlinən maral bütün türklərin eyni rəmzi mənası olan ümumi totem idi. Türkdilli xalqların təsəvvüründə maral yüksəliş rəmzi və böyük güc nişanəsi idi. Maralın dövri olaraq təzələnən ağacabənzər buynuzları cavanlaşdırma, daima təzələnmə və zamanın gedişini genişləndirmə rəmzi kimi yozulur. Qarabağ xalçalarında təsvir edilən pələng türk xalqlarının anlayışında qüvvə təcəssümü, insana xas olan bütün hisslərin daşıyıcısı idi. Qarabağ xalçalarında rast gəlinən qartal (tərlan) günəş, işıq mənbəyi totemidir. Türk xalqlarının incəsənətində qartal günəş, od, ildırım və şimşək hökm- darı sayılır.

Qarabağ xalçalarında tez-tez rast gəlinən əjdaha totemi Azərbaycanda, Türkmənistanda, habelə Sibir ərazilərində xalqların məişətində və incəsənətində geniş yayılmış mifik heyvandır. Əjdaha totemi insanın həyatının uğurlu keçməsi üçün ona yardımçı olan heyvan ruhudur. Azərbaycanın bir çox bölgələrində toxunan xalçalarda təsvir edilən at fiquruna Qarabağ bölgələrində toxunan xalçalarda da tez-tez təsadüf edilir. At köçəri oğuz qəbilələrində əsas totemlərdən biri olmuşdur.

Qarabağ xalça sənətinin rəng xüsusiyyətlərindən biri də budur ki, xalq ustaları onların isti-soyuqluğunu, kontrastlılığını, rəng ahəngdarlığını, qanunauyğunluğunu yaxından hiss etmişlər və nəticədə göz oxşayan, xoşagəlimli rəng palitrası yaratmışlar.

“Sehrli ilmələr” qalereyasının Qarabağ kolleksiyasına daxil olan xalçalardakı zəngin naxış tərtibatı, rəng uyğunluğu buna bir daha sübutdur. Zəngin kolleksiyaya malik olan qalereyada Azərbaycanın qocaman xalça ustalarının qədim dövrlərdən bu günümüzədək yaratdıqları kompozisiyalar ənənəvi surətdə bu günkü xalçalarda tətbiq edilirdi. Qarabağ bölgəsinin demək olar ki, bütün kom- pozisiyaları toxucular tərəfindən yüksək peşəkarlıqla toxunur və bu sənətin sirləri bu günkü və gələcək nəsillərə ötürülür.

Qədim tarixə, zəngin naxış tərtibatına və ahəngdar rəng quruluşuna malik olan Qarabağ xalçaları əsrlər boyu bu diyara səfər etmiş səyahətçilərin, tədqiqatçıların diqqətini cəlb etmişdir. Məişətə rahatlıq gətirən və gözəllik bəxş edən Azərbaycan xalçaları müxtəlif dövrlərdə əcnəbilərin zövqünü oxşamış və onlarda alıcılıq həvəsini oyatmışdır. Əcnəbilərin, əsasən, Amerika və avropalıların məişətinə nüfuz edən xalça və xalça kompozisiyası əsasında toxunan tikmələr bu gün dunyanın bir çox ölkələrində yaşayan kolleksionerlərin və muzeylərin sənət əsərləri içərisində ən dəyərli və nadir incilər kimi saxlanılır və nümayiş edilir.

Ədəbiyyat

1.“Azərbaycan incəsənəti”, uşaqlar üçün ensiklopedik məlumat kitabı, I cild, Bakı, 2010.
2.Esmira Fuad Azərbaycan xalça sənətinin Kamili Bakı Altun Kitab -2006, 128 səh.
3.Azərbaycan xalçası Azərbaycan Xalça Sənəti" mövzusunda IV beynəlxalq simpoziumun materialları Fevral, 2007 Paris 152 səh.
4.Vidadi Muradov. Azərbaycan xalçaları. Qarabağ qrupu. Bakı: Elm, 2010, 272 s.

КАРАБАХСКАЯ ШКОЛА КОВРА

Вердиева Эсмира Гусейн гызы, Kazimova Sarıя Eyvaz гызы

Резюме

Как и в других регионах Азербайджана и в Карабахе ковры в ворсовой и безворсовой технике вязания делятся на две группы. К первом группе связанные по ворсовой технике относятся хасир, чатан ,бурия, палаз,джеджим,килим,верни, шадда, зили,сумах. Ковры входящие в группу безворсовых ковров создаются простым способом вязки «простого переноса»и «сложного переноса» на основы нитей утков. В

этом регионе вяжут такие безворсные ковры как зили, килим, верни, джеджим, шадда, ады, мефреш, мешок для соли, конская попона, хурджун.

KARABADH CARPET SCHOOL

Verdiyeva Esmira Huseyn, Kazimova Sariya Eyvaz

Summary

As other reqion of Azerbaijan in Karabadh. Carpets are devided into two qroups by weavinq with pile and non-pile technique. The first qroup inqludes carpets such as mat, hemp, buriya, palaz, cecim, kilim, verni, shadda, zili, sumac woven with pileless technique. The weavinq of carpets and carpet made bythe method of simple threadinq and such as zili, kiulim, cecim, shadda, adi, mashraf salt, baq, khurcun, horse sack are also woven in this reqion.

Rəyçi: Rəsulova Elnarə
Təsviri incəsənət kafedrasının 22 noyabr 2022-ci il tarixli iclasın 03 saylı protokolu
Daxil olma tarixi 23 noyabr 2022-ci il

TƏLİM-TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI

UOT:37.

TƏHSILIMIZIN SABAHINI DÜŞÜNƏN ULU ÖNDƏR HEYDƏR ƏLIYEV

T.ü.f.d. Həmzəyeva Nurlana Qərib qızı, Məmmədova Sevda Nəsib qızı
Gəncə Dövlət Universiteti
hemzeyeva_nurlana@mail.ru

Xülasə: *Təhsilimizin sabahını düşünərkən bugünkü reallıqlar tam əminliklə deməyə imkan verir ki,bilavasitə dövlətimizin başçısı Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən köklü islahatların məqsədi təkcə hərtərəfli biliyə və savada malik insanlar yetirmək yox, həm də müstəqil,demokratik,açıq cəmiyyət quruculuğu işində,fəal iştirak edən,Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da dərinləşdirməyə kömək edən əsl vətəndaşlar, şəxsiyyətlər tərbiyə etməkdir. Çünki adi vətəndaşlardan tutmuş prezdentlərədək hamı təhsil ocağının məhsuludur.*

Açar sözlər: ağıl və intellekt, təhsil əsri, "Azərbaycan tarixi" dərslikləri, təhsil strategiyası, tarix, zaman, kadr hazrlığı, ilk orta və ali hərbi sistem

Ключевые слова: мудрость и интеллект, возраст образования, учебники «История Азербайджана», стратегия образования, история, время, кадры, первая средняя и высшая военная система

Key Words: Wisdom and Intelligence, Education Age, "History of Azerbaijan" textbooks, education strategy, history, time, cadres, first middle and upper military system

XXI əsrin özünəməxsus xüsusiyyətlərindən artıq dünya güc, qüvvə tətbiq etməklə deyil, ağıl və intellektlə idarə ediləcək. Hər bir dövlətin qüdrəti onun cəbbəxanasındakı silah potensialı ilə ölçülməyəcək. Gücün, qüdrətin yeganə meyarı elm, bilik, təhsilin səviyyəsi hesab olunacaq. Məhz buna görə də Birləşmiş Millətlər Təşkilatı XXI yüzilliyi ``Təhsil əsri`` elan etmiş, biliyi, ağlı, idrak və intellekti ön plana çəkmişdir.

Azərbaycan gerçəkliyinə gəlincə təhsil dünyada baş verən qlobal dəyişikliklərlə, qabaqcıl ölkələrin təhsil sahəsindəki mütərəqqi təcrübəsinin öyrənilib mənimsənilməsi ilə paralel inkişaf edir, milli dövlətçiliyimizin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi kimi şərəfli bir işin keşiyində durub. Dövlət təhsil starategiyasına uyğunlaşdırmış, vahid mərkəzdən planlı şəkildə həyata keçirmək üçün şərait yaratmışdır. Bu gün iftixarla demək olar ki, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin yorulmaz və ardıcıl səyləri, tükənməz dühası və enerjisi sayəsində keçid dövrünün problem və çətinliklərinə baxmayaraq təhsilimizin inkişfaına nəinki dövlət təminatı verilmiş, hətta milli inkişafımızın öncül istiqaməti kimi səciyyələndirilmişdir.[1,26]

XX əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük tarixi şəxsiyyət Heydər Əliyev uzaqörən və müdrik siyasəti nəticəsində güclü kadr potensial yaratmaqla milli təhsil quruculuğu istiqamətində sonrakı uğurların bünövrəsini qoymuşdur. O, özünün bütün şüurlu həyatı boyu istər əməli, istərsə də şəxsi nümunəsi sübut etməyə çalışmışdır ki, maarif və mədəniyyətimizin, elm və təhsilimizin yorulmaz fədaisi, təşəbbüskeş himayəçisidir. Digər sahələrdə olduğu kimi, Azərbaycanın təhsil sisteminin son 30 illik inkişafı tarixində əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar, müxtəlif mərhələlərdə, xüsusən 80-ci illərdə və müstəqillik dövründə aparılan təhsil islahatlarının hazırlanması və həyata keçirilməsi Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinin bəhrəsidir. 70-80-i illərdə

respublikada iqtisadiyyat tərəqqi etdikcə, xalqın sosial rifahı yaxşılaşdıqca, təhsilin səviyyəsi də durmadan yüksəlirdi. [2,7]Azərbaycan bir sıra ali məktəblərinin şöhrəri keçmiş SSRİ hüdudlarından çox-çox uzaqlarda yayılmışdı. Bəzi ali məktəblərimiz Avropa, Asiya, Afrika, Latın Amerikası qitəsindən olan bir çox ölkələr üçün yüksək ixtsaslı kadrlar hazırlayırdı.həmin dövrdə respublikaya rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə ali məktəblərə qəbul zamanı yol verilən mənfi halların-rüşvətxotluğun, qohumbazlığın, proteksiyanın kökünü kəsmək istiqamətində barışmaz mübarizə aparılır, ali məktəblərə qəbul zamanı bilik əsas meyar kimi götürülürdü. Hər il yüzlərlə gənc ali təhsil almaq üçün SSRİ-nin ən nüfuzlu, ən mötəbər universitetlərinə göndəriş alırdı. Bir sözlə, təhsilin səviyyəsinə, savadsızlığın ləğv edilməsinə görə Azərbaycan nəinki bütün başqa müsəlman ölkələrini, hətta bir çox Avropa dövlətlərini xeyli qabaqlamışdı.

Buradaca o illərin mənzərəsini əks etdirən bəzi faktlara və rəqəmlərə müaciət etmək yerinə düşərdi: 1970-1980-ci illərdə Heydır Əliyevin təşəbbüsü ilə respublikadan kınarda keçmiş Sovet İttifaqının 50-dən çox böyük şəhərinin 170-dən çox böyük şəhərinin ən məşhur ali məktəbində ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc təhsil almış, onlar yüksək ixtisaslı mütəxəssislər kim hazırda ölkəmizdə və onun hüdudlarından kənarda çalışmaqdadırlar. Müqayisə üçün deyək ki, 1970-ci ildə başqa şəhərlərin ali məktəblərinə 60 nəfər tələbə göndərilmişdisə, cəmi 5 il sonra , 1975-ci ildə 674 nəfər, yəni 11 dəfədən çox tələbə göndərilmişdi. Zaman arasındakı fasiləsiz əlaqə, yəni keçmişin,bu günün və sabahın qırılmaz tellərlə bir-birinə bağlı olması nə qədər təzadlı səslənsə dəŞ heç vaxt təkistiqamətli daşımayıb. Düzdür,zamanı geriyə döndərmək mümkün deyil, lakin gələcəyin yolu bu gündən keçdiyi kimi,bu gün də keçmişin davamıdır.[3,30]

Təməli hələ XIX əsrin sonlarında “Realnı”, ”Üsuli-cədid” məktəbləri ilə qoyulmuş müasir təhsil sistemi sonrakı illərdə daha da inkişaf etdirilərək gəlib müasir səviyyəyə çatmışdır. Əgər 70-80-ci illərdə yaranmış zəngin təhsil ənənələri olmasaydı, bu gün ən qabaqcıl ölkələrdəki təhsil sisdemləri ilə rəqabətə girə bıləcək səviyyədə təhsilədə malik ola bilməzdik. Bu uğurlar isə 30 ildən çox Azərbaycana rəhbərlik edən və bu gün də xalqımızı öz arxasıyca aparan mahir siyasətçi, uzaqgörən lider Heydər Əliyevin müstəsna xidmətlərinin nəticəsidir. Onun rəhbərliyi altında keçən 30 ildən artıq bir dövr Azərbaycanın qədim və zəngin tarixinin ən şərəfli səhifələrindən bütöv bir epoxadır-tariximizin Heydər Əliyev epoxası.

Tarix, zaman daim insanları sınağa çəkir, bərkə-boşa salır. Heydər Əliyevin yüksək dövlət vəzifələrindən müvəqqəti uzaqlaşdırılması onun başladığı uzun illər boyu həyata keçirdiyi quruculuq işlərinin dayanması ilə nəticələndi.Azərbaycan ikincidəfə müstəqillik qazandıqda təbii olaraq meydana çıxan çətinliklər həyatın bütn sahələrində olduğu kimi, təhsilədə öz mənfi təsirini göstərməyə bilməzdi. 80-cı illərin sonu, 90-cı illərin əvvəllərində republikada həyat bir növ donmuşdu. Bu bir tərəfdən yaranmış tarixi situasiya ilə bağlıydısa, digər tərəfdən ölkəni idarə eden insanların mövcud şəraitindən baş çıxara bilməyib çaşaraq qalmalrının, səriştəsizlik və təcrübəsizliyinin nəticəsi idi. Illər boyu ağr və yorğun zəhmət bahasına əldə olmuş nailiyyətlər, milli-mənəvi dəyərlər bir göz qırpımında tarmar oldu. Cəmiyyətdə elmə, təhsilə maraq azaldı. Millilik pərdəsi altında tələmtələsik həyata keçirilən düşünülməmiş tədbirlər işə xeyir vermək əvəzinə, ziyan vurdu. Mədəniyyətimizi, təhsilimizi ayaqüsdə saxlayan ümum bəşəri, dünyəvi dayaqlar sındırıldı. Cəmiyyət dünyada gedən mütərəqqi proseslərdən təcrid edilərək tənəzzülə yuvarlandı.

Ən dəhşətlisi isə o idi ki, həmin üzdniraq rəhbərlər dialektik qanunların ziddinə olaraq savadsızlıqları üzündən gələcəyi deyil keçmişi idealizə edir, tarixin təkərini geri itəlməyə çalışırdılar. Onların “Donkixotluğu”ona gətirib çıxardıki, təhsil öz vətənini, millətini sevən

vətənpərvərlər tərbiyə etmək kimi ümumilli missiyasından məhrum edildi. Bu anlayışı Azərbaycan tarixini 1993-1994 cü illərə şamil etmək yerinə düşərdi.Cəmiyyti dərinləşən tənəzzüldən şixarmağ üçüc tale dövlətin idarə etmə sükanını Heydər Əliyevə qismət etdi. Bakı da cəmiyyət həyatının bütün sahələrində gerilmə, tənəzzül prosesi getdiyi bir vaxtda Naxçıvan Muxtar Respublikasında rəhbəri cenab Heydər Əliyev milli kadr hazırlığına, elmə, təhsilə yaranmış yeni tarixin şəraiti prizmasından baxrdı. Çünki o böyük uzaqgörənliliklə, ”Yeni iqtisadi-siyasi sisdem, yeni quruluş özünə uyğun kadr tələb edir”. 1992-ci ilin martnda Naxçıvan MR ilə Türkiyyə Cumhuriyyəti ilə arasında bağlanmış əməkdaşliq pratakoluna görə, o 100 nəfər naxçıvanlı gəncin Turkiyə ali məktəblərində oxumağa gündərilməsinə razılıq ala bilmişdi. Heydər Əliyevin yenidən qayıdışı XX əsrin sonunda öz xilaskarlıq missiyasini yerinə yetirməsi ölkəmizi böhran və depresiyalar girdabına yuvarlanmaqdan xilas etdi ölkədə həyat öz məcrasına düşdü. İctimai-siyasi sabitlik bərpa olundu. Elmin mədəniyyətin təsiri inkişafı intensiv xarakter almağa başladı. Diqqətlə araşdıranda məlum olurdukı qüvvətli dövlət quruculuğunun ana yolu təhsildən keçir. Təhsili milli tərəqqinin aparıcı amilinə çevirmək üçün bu sahədə əsasali və geniş miqyaslı islihatlara eytiyac duyulurdu. 1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycan təhsili vahid strategiya, kankret dövlət praqramı əsasında aparılır. Azərbaycan prezdentini sərəncam və gösdərişlərinə müvafiq olaraq hazrlanmış ”Təhsil sayəsində islahatın dövlət praqrami” həm məzmun,həm də formaca daha mükəmməl və mütərəqqi təhsil sisdemi yaratmaq yolunda yeni addımdır. Təhsil möhtəşəm bir saraydısa, onun özünün, dayağı orta məktəb təhsilidir. Prezdent Heydər Əliyevin təbirincə desək “Bütün təhsil sisdemində orta məktəb mühüm yer tutur”. Azərbaycan Konustutisiyasi hər bir vətəndaşa icbariorta təhsil hüququ verir. Şagirdlərin dərsliklərlə mərhələ mərhələ dövlət təminatına keçməsi barədə qərar çıxarılıb.

Ümumi orta təhsil məktəblərində oxuyan isdedadli uşaqlarin aşkara çıxarılması və onlara dövlət qayğısının gösdərilməsi, vətəndaşlarımızın konustutisiyada təsbid edilmiş hüquqlarının tərkib hissəsidir.

Yeni təhsil islahatı praqramında xüsusi ilə isdedalı uşaqların təhsilinə geniş imkanlar yaradan yeni tipli təhsil müəsisələrnin yaradılması başlıca məqsəd kimi qoyulmuşdur. “Azərbaycanda genc isdedadlara düvlət qayğısı haqqında” Prezdent fərmanı,həmin fərmana uyğun olaraq Azərbaycanın gənc isdedadlarının “Qızıl Kitabı” n yaradılması, prezdentin xüsusi təqaüdünün təsis edilməsi təhsilimizin sabahsına verilen qiymətin ən bariz ifadəsidir.

Qəhrəmanlıqla dolu keçmişimizi gənc nəslə obyektiv və dolğun şəkildə çatdırmaq, doğma dilimizi onlara sevdirmək və onu yaşatmaq barədə müəllimlərə, təhsil işçilərinə verdiyi dəyərli məsləhətlər bu böyük insanın ta qədimdən üzübəri gələn milli adət və ənənələrimizə, tarixi keçmişimizə, dilimizə, mədəniyyətimizə sədaəqəti həmin sədaqəti özündön sonra gələn nəsillərə estafet kimi ötürmək amalını şərtləndirən mühüm amildir. 2000-2001-ci dərs ilinin başlanması münasibətilə Bakıdakı 82 saylı məktəbdə Azərbaycan tarixinə və Azərbaycan dilinə dair dərsliklərlə tanış olarkən onun dediyi sözləri yada salaraq.[4,15] Heydər Əliyev həmin fənlərin gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında müstəsna əhəmiyyətini vurğulayaraq demişdir: Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşıı bilsin. Əgər bunu bilməsə, o, millətəni qiymətləndirə bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə isdənilən səviyyədə fəxr edə bilməz. Ancaq təkcə tarix deyil bizim zəngin ədəbiyyatımızda var. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsəsıdır. Ona görədə hər bir gənc öz ana dilini, gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin.

Prezidentin bu göstərişindən sonra orta məktəblər üçün "Azərbaycan tarixi" və "Ümumi tarix" dərslikləri tamamilə yenidən yazılaraq onlar müsəqil dövlət quruculuğumuzun əsas istiqamətlərinə uyğunlaşdırıldı. Ən vacibi isə çağdaş düvrümüzün ən mümühüm hadisələri, proseslər yeni tarix dərsliklərimizdə öz əksini tapdı. Heydər Əliyevin elmə, təhsilə verdiyi yüksək qiymətin daha bir təzahürü özünü təhsilə ayrılan maliyyə vəsaitinin həcmində göstərir. 1993-cü ildən başlayaraq təhsilin inkişafına ayrılan büdcə vəsaitinin məbləği ardıcıl olaraq artan xətt üzrə inkişaf edir. Müəllimlərin sosial müdafiəsi istiqamətində ciddi addımlar atılmışdır.

Müqayisə üçün deyək ki, ölkədə 1995-ci ildə təhsilə ayrılan vəsait ümumi dövlət büdcəsinin 17 faizini, 1997-ci ildə 20 faizini, 1998-ci ildə 22 faizini, 2001-ci ildə isə 23 faizini təşkil etmişdir. Rəqəmlərdən göründüyü kimi, ölkə iqtisadiyyatı inkişaf etdikcə, ümumi daxili məhsulun adambaşına həcmi artdqca təhsilə və onun inkişafına ayrılan təsisatların məbləğidə paralel şəkildə yüksəlmişdir. Təhsil işçilərinin sosial müdafiəsi də ölkə rəhbərinin diqqətindən kənarda qalmayıb. Son illərdə müəllimlərin və tərbiyəçilərin əmək haqları 9 dəfə artmışdır. [5,61] Proses hələ davam edir. Təhsil işçilərinin aör və olduqca faydalı əməyi bundan sonrada gərəyincə qiymətləndiriləcək və onlara dövlət qayöısı bir an diqqətindən kənarda qalmayacaq. Azərbaycan prezdenti Heydər Əliyevin imzaladığı "Təhsil sisteminin təkmilləşdirilməsi barədə" məlum fərman da nəhz bu reallıqdan irəli gələn və çox vaxtında atılmış addımdır. [6,29] Həmin fərmanda keyfiyyət məsələəsinə xüsusi yer ayrılmış, keyfiyyətə nəzarıtin müasir mexanizimin hazrlanması bir vəzifə kimi qarşıya qoyulmuşdur. 2001-2002-ci dərs ilinin "Tehsil keyfiyyət ili" kimi şərtləndirilməsidə məhz həmin zərurətdən doğmuşdur.

Ötən il bu istiqamətdə aparılmış əsaslı islahatlarla yaddaşlarda qalacaqdır. Respublika Təhsil Nazirliyi rəhbərinin proqram xarakterli müddəa və gösdərişlərini nəzərə alaraq maddi-texniki bazası zəif olan bir neçə təhsil müəssisəsində bəzi ixtisaslar üzrə kadr hazrlığını dayandırmışdır. Gəncə Elm-Təhsil Mərkəzi, San-Marino Beynalxalq Elmlər Akameyası Akamedik Mərkəzinin Azərbaycan Filialı və Naxçıvan Universtetinin fəaliyyətinə xitam verilmişdir. Bundan başqa respublikada qanunsuz, "qaçaq" yolla fəaliyyət gösdərən təhsil müəssisələrinə qarşıda prinsipial mübarizə aparılır.

1998-ci il avqustun 31-də 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəsislərin respublika toplantısında möhtərəm prezdentimiz Heydər Əliyev mütəxəssis hazırlığı sahəsində qarşıda duran vəzifələrdən danişarkən dediyi aşağıdakı sözlər bir növ proqram səciyyəsi daşıyırdı: "Azərbaycanın ali məktəblərini, təhsil sisteminin səviyyəsini qaldırmalıyıq. Eyni zamanda dünyanın inkişaf etmiş ölkələrinin, yüksək səviyyəli universtetlərinin inistutların imkanlarından Azərbaycan gələcəyi, dəyərli kadrlar hazrlanması üçün bundan sonrada səmərəli istifadə etməliyik".

Heydər Əliyevin ən böyük xidmətlərindən biri hərbi milli kadrların yetişdirilməsi sahəsində gösdərdiyi tarixi səylərdir. [7,11] Məlum olduğu kimi, hələ çar Rusiyası zamanında azərbaycanlıları "etibarsız" "qeyri-döyüşkən" xalq kimi hərbi xidmətə çağırmır, əvəzində onlardan vergi alınırdı. Lazm olandan-olana isə onlardan nizami ordu kimi yox, "vəhşi divizya" altında pərakəndə şəkildə istifadə olunurdu. Lakin tarixən döyüşkən, qəhrəman xalq olan azərbaycanlılar dünya hərb tarixinə neçə-neçə yenilməz, cəsur və bacarıqlı sərkərdələr. Azərbaycanlıların həqiqətən qəhrəman bir xalq olduğunu 1941-1945-ci illər müharibəsi də bir daha sübut etdi. Azərbaycanlılardan ibarət 416-cı, 77-ci divizyalar həqiqi əsgəri rəşadət gösdərərək ikinci cahan müharibəsi salnaməsinə qızıl hərflərlə daxil oldular. Azərbaycan oğullarından 120 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, 170 mindən şox əsgər və zabit orden və medallarla təltif edildi. Lakin təəssüflər olsun ki, müharibə bitdikdən sonra

azərbaycanlılara olan münasibət əvvəlki şəklini aldı. Onları əsasən inşaat batalyonlarında xidmətə çağırı, taktiki və strateji ordu hissələində xidmət etmələrinə əngəl törədirdilər.

Belə bir münasibət millətinin, xalqinin qızğın təəssübkeşi olan Heydər Əliyevə, əlbəttə, toxunmaya bilməzdi. [8] Onun şəxsi təşəbbüsü və bilavasitə iştirakı ilə republikamızda ilk orta və ali hərbi sisdemi yaradldı. Bunadan başqa azəbaycanlı gənclər sisdemli şəkildə SSRİ-nin ali hərbi məktəblərinə göndərilməyə başladı. Düzdür, o vaxtlar Heydər Əliyevin bu sahədəki siyasətinin mahiyyətinə və əhəmiyyətinə yetərincə qiymət verilmirdi. Lakin müstəqillik əldə etdikdən sonra, Dağlıq Qarabağla bağlı hadisələr baş verdikdən sonra bu müdrik dövlət rəhbərinin nə qədər uzaqgörən olduğunu başa düşdük.

Ədəbiyyat

1.Heydər Əliyev və Gəncə. Bakı, 1999
2.“Elm və həyat” jurnalı, 2012
3.Bəhruz Quliyev. Azərbaycan naminə çalışan böyük şəxsiyyət // “Azərbaycan 2020: inkişafın yeni hədəfləri”. Bakı, Azərnəşr, 2012
4.Nizami Cəfərov. Heydər Əliyevin “Azərbaycan xalqına müraciəti”ndə dil, ədəbiyyat və mədəniyyət məsələsi” // “Azərbaycan 2020: inkişafın yeni hədəfləri”. Bakı, Azərnəşr, 2012
5.Hüseynbala Mirəlimov. Mənəviyyatın ekologiyası // “Azərbaycan 2020: inkişafın yeni hədəfləri”. Bakı, Azərnəşr, 2012
6.Heydər Əliyev və Azərbaycan.Bakı, 2009
7.Əliyev H. Müstəqilliyimiz əbədidir, I – XIII kitablar. Bakı, 1996 – 2005.
XXI əsrdə reklam artıq sadəcə əmtəə və xidmətlərin təşviqi vasitəsi deyil, ən son texnologiyalar sayəsində bir növ sənətə çevrilir, müxtəlif sahələrdən olan peşəkarlar-psixoloqlar, sosioloqlar, marketoloqlar, eləcə də nəhəng yaradıcı qruplar-rəssamlar, bəstəkarlar, rejissorlar, ssenaristlər və s. reklamların ərsəyə gəlməsi prosesi üzərində işləyir. Reklamın özəlliyi onun "elm və incəsənət, iqtisadiyyat və siyasətin həmhüdud sahəsində" yerləşməsidir [5, s. 12].

İstehlak və xidmətlər bazarında mövcud olan nəhəng rəqabət reklamçıları təkcə reklam və ya reklam çarxları deyil, insanlara psixoloji təsir göstərə bilən, istək və davranışları idarə edə biləcək diqqətlə düşünülmüş əsərlər yaratmağa məcbur edir. Müasir reklam müxtəlif elmi biliklərdən istifadə edərək ictimai şüuru manipulyasiya etməyi öyrənir. "Məlum olur ki, reklam çarxlarında səsləndirmə zamanı danışanın nitqi intonasiyasına əlavə edilən yaltaqlıq, yalvarış və tələbkarlıq yumşaq və sakit bir şəkildə auditoriyaya təzyiq göstərir, və bu təsir nə qədər təsirli olsa, bir o qədər az hiss olunur. Bu, nəinki bu cür təsir altında olan insanı başqalarının arzuladığı şeyi etməyə sövq edir, həm də onu bunu etməyə həvəsləndirir!" [3, s. 723].

Müasir reklama "milli mədəniyyətin elementi, onun formalaşmasının əsas mexanizmlərindən biri kimi baxmaq lazımdır. Üstəlik, kütləvi mədəniyyət fenomeni kimi meydana çıxan reklam özünün ən yaxşı təzahürləri ilə ən yüksək mənada mənəvi mədəniyyəti formalaşdırmağa qadirdir. [13, s. 7]. "Reklam insanların şüuruna müəyyən dəyərləri daxil etməklə, müəyyən həyat tərzini də təbliğ edir" [9, s. 10].

Elmi mənbələrin birində gətirilən sitata görə, Uinston Çörçill deyirdi ki, "Reklam insanların istehlakçı qabiliyyətlərini qidalandırır. Daha yüksək həyat səviyyəsinə ehtiyac yaradır. İnsanın qarşısında özünü ən yaxşı mənzil, ən yaxşı paltar, ən yaxşı yeməklə təmin etmək məqsədi qoyur. Bu, onun çalışqanlığını və məhsuldarlığını stimullaşdırır" [8, s. 22].

Cəmiyyətin mədəniyyətinə təsir etmək bacarığı reklamla daha diqqətli davranmağa vadar edir, vicdanlı reklamçılar onu yaratmaq üçün müxtəlif sahələrdən mütəxəssisləri cəlb edir, dövlət isə öz növbəsində reklam məhsulunun keyfiyyətinə nəzarət etməyə çalışaraq reklam haqqında qanunlar yaradır. Nəzərə alsaq ki, reklamı böyüklərdən başqa, demək olar ki, bütün uşaqlar da görür və qavrayır. Günümüzün reallığı da ondan ibarətdir ki, reklamlar yeni nəslin tərbiyəsində vacib amilə çevrilmişdir.

Hal-hazırda, reklamın cəmiyyətin həyatına bu cür təsiri ilə, o, böyüklərlə yanaşı, uşaqlar və yeniyetmələri də fəal istehlakçılara çevirərək, onları da bazar münasibətlərində fəal iştirak etməyə sövq edir. Nəticə etibarilə, onlar reklam kampaniyalarının obyektinə çevrilirlər, uşaqlıq dövrünün xüsusiyyətlərini nəzərə alaraq reklam dəyişməyə başlayır və bu məqamda qeyd edilməlidir ki, müasir dövrdə yeni bir reklam kateqoriyası — uşaq reklamının da formalaşmasından danışmaq mümkündür. Bu reklam tipləri, əsasən, uşaqlar və yeniyetmələr üçün hazırlanır və xüsusilə uşaq və yeniyetmələr üçün nəzərdə tutulan məkanlarda, əsasən də, uşaq telekanallarından yayımlanır.

Reklamın çoxtərəfli olması bu terminlə bağlı təklif edilən çoxsaylı təriflərdə də əks olunur və müzakirə olunan fenomeni daha yaxşı başa düşmək üçün reklamın bir neçə tərifini nəzərdən keçirmək lazımdır. "Reklamın tarixi" («История рекламы») adlı tədqiqatda haqlı olaraq qeyd edildiyi kimi, "maraq dairəsinə daxil olan predmetlə başlı çoxsaylı təriflərin olması tədqiqatçını çaşdırmamalıdır, belə ki, gerçək aləmin çoxşaxəli fenomenlərinə xas olan xüsusiyyətlərdən biri də ona müxtəlif yanaşmaların olmasıdır" [21, s. 8].

İlk öncə qeyd edilməlidir ki, bu termin latın mənşəli "*reklamare*" sözündən törəmiş, mənası "bərkdən qışqırmaq, xəbər vermək"dir. Reklam əsas funksiyası da elə bundan ibarətdir. Belə ki, Qədim Roma və Yunanıstanda elanlar insanların gur olduğu küçələrdə uca səslə deyilir və ya insan kütləsinin toplaşdığı meydanlarda yüksək səslə oxunurdu. Reklamın məlumat vermə funksiyası "Böyük Ensiklopedik Lüğət"də də qeyd edilir: "Reklam-malların satılması və onlara tələbatın yaradılması məqsədilə onların istehlak xassələri və xidmət növləri haqqında məlumat; istehsalın, ədəbiyyatın, incəsənətin məşhurlaşdırılması və s." [6, s. 1123]. Reklam mütləq şəkildə informasiya daçıyıcısıdır, lakin "reklam hər zaman informasiyadırsa, informasiya hər zaman reklam ola bilmir" [19, s. 4]. İ.Ya.Rojkovun fikrincə, reklam "istehsal və ya xidmət müəssisələrinin, ictimai təşkilatların və ya ayrı-ayrı şəxslərin marketinq və ya digər məqsədlərini həyata keçirən, onlar tərəfindən maliyyələşdirilən məlumatı yaymaq yolu ilə həyata keçirilən fəaliyyət növü və ya onun nəticəsində istehsal olunan informasiya məhsuludur. Reklam-seçilmiş auditoriyanın müəyyən reaksiyasına səbəb olmaq üçün kütləvi və ya fərdi şüura gücləndirilmiş yönəldilmiş təsir göstərmək yoludur" [15, s. 34].

Məlumatın ötürülməsinin bu və ya digər yolları S.İ.Ojeqov və N.Yu.Şvedovanın verdiyi şərhdə öz əksini tapır: "1. Geniş populyarlıq yaratmaq, istehlakçıları, tamaşaçıları cəlb etmək üçün müxtəlif yollarla bildiriş: bunlara ticarət reklamı, afişa vəelanları aid etmək olar. 2. Xəbərdarlıq elanı: bunlara elektron lövhələr üzərindəki işıq reklamları daxildir" [14, s. 299].

1968-ci ildə işıq üzü görmüş "Ticarətdə reklam" («Реклама в торговле») adlı kitabda onun müəllifləri olan D.V.Bekleşov və K.G.Voronov "reklam" anlayışının mahiyyətini açıqlamaqla yanaşı, onun təqdimat üsullarını da qeyd edirlər: "Reklam satışları artırmaq, müştəri bazasını genişləndirmək, seçki prosesində səslərin toplanması və ya ictimaiyyət

tərəfindən bəyənilmə məqsədi güdən tərəfdən açıq şəkildə təqdim edilən və bunun üçün bəlli bir ödəniş həyata keçirilən şəxs, mal, xidmət və ya ictimai hərəkat haqqında çap formatlı, əlyazma şəklində mövcud ola bilən, şifahi və ya qrafik məlumatdır.” [2, s. 11].

D.E.Rozental və N.N.Koxtev tərəfindən reklamla bağlı bir çox məsələlərin işıqlandırılması zamanı diqqət daha çox reklam sübyektinə, yəni reklam verən şəxsə yönəldilir: “Reklam-istehlakçıları bu istehsal, ticarət, nəqliyyat, sığorta, maliyyə-kredit və digər müəssisənin təklif etdiyi mal və xidmətlərlə tanış etməkdir.” [16, s. 27].

K.L.Bove və U.Arens isə “reklam” anlayışının izahı zamanı onun obyektini (məhsul, xidmət, ideya) ön plana çəkirlər: “Reklam məhsul, xidmət və ya ideya haqqında, adətən, pullu və bir qayda olaraq, inandırıcı məlumatın tanınmış reklamçılar tərəfindən müxtəlif media vasitəsilə qeyri-şəxsi çatdırılmasıdır.[1,s. 5].

Reklamlarda əsas məqam reklamçıların daha çox ödənişli əsaslara geniş yer ayrılmasıdır: “Reklam, aydın şəkildə müəyyən edilmiş maliyyə mənbəyi ilə ödənişli yayım vasitələri vasitəsilə həyata keçirilən qeyri-şəxsi ünsiyyət formasıdır.” [11, s. 10]. İ.Ya.Qoldman və N.S.Dobrobabenko qeyd edirlər ki, “Reklam kommersiya ideyalarının, məhsulların və xidmətlərin açıq şəkildə müəyyən edilmiş reklamçı tərəfindən ödənilən istənilən qeyri-şəxsi təqdimat və təşviqat formasıdır.” [7, s. 10]. Dünya üzrə marketinq sahəsində tanınmış simalardan biri olan F.Kotlerə görə, “ehtiyacları və ya istəkləri ödəyə bilən və diqqəti cəlb etmək, satmaq, almaq və istehlak etmək məqsədi ilə bazarda təklif olunan hər şey” reklam edilən məhsul qismində təqdim edilə bilər. “Məhsullar, fiziki obyektlər, şəxslər, yerlər, təşkilatlar və ideyalar” məhsul kimi çıxış edə bilər. [10, s. 11]. Reklam edilən xidmət dedikdə isə, “istək və ehtiyacları ödəyən, dəyərlərin mübadiləsi ilə əlaqəli və maddi məhsul əldə etmək mənasında əldə edilmiş dəyər üzərində mülkiyyət formasına səbəb olmayan hər hansı bir fəaliyyət” növü nəzərdə tutulur [4, s. 173].

Amerikalı tədqiqatçılardan Ç.Sendic və onun həmkarları reklam haqqında dərc edilən ilk kitablardan biri olan “Reklam: nəzəriyyə və praktika” («Реклама: теория и практика») adlı kitabda reklam haqqında onun mahiyyətini daha dəqiq ifadə edən belə bir tərif verirlər: “Reklam məhsul və xidmətlərin keyfiyyətini, eləcə də ideyaları istehlakçının ehtiyac və tələblərinin dilinə çevirməyə cəhd edən, reklam mesajında əks olunan inamın xarakterinə diqqət yetirən ünsiyyət formasıdır.” [20, s. 64].

D.Rossiter və L.Persi isə reklamı “məhsulun faydalarının məlumat və ya emosional təsvirinə əsaslanan dolayı inandırma forması” kimi dəyərləndirrək qeyd edirlər ki, “Onun əsas məqsədi istehlakçılar arasında məhsul haqqında müsbət təəssürat yaratmaq və “fikirlərini alış-verişə yönəltmək”dir.” [18, s. 15]. Bu fikri R.Hərris də dəstəkləyərək, reklamı “inandırmaq üçün nəzərdə tutulmuş ünsiyyət növü (yəni dinləyici və ya tamaşaçıya müəyyən təsir göstərir)” kimi müəyyən edir. “Bu təsir davranışla (reklam edilən məhsulu alırsınız), münasibət (məhsulu bəyənirsiniz) ilə ola bilər və / yaxud reklam sizə koqnitiv təsir göstərəcək, siz də bu məhsulun xüsusiyyətlərini öyrənəcəksiniz,” - deyə qeyd edir [24, s. 128]. O.A.Feofanov isə yazır ki, reklam “reklam edilən məhsulun təyinatı və xarakterindən, istehlak sahəsindən asılı olmayaraq, reklam obyektlərini fəal şəkildə təbliğ etmək, habelə şirkət, təşkilat və ayrı-ayrı qurumlar üçün müsbət imic yaratmaq məqsədilə potensial istehlakçıların şüuruna təsir göstərən psixoloji tədbirlər kompleksidir.” [23, s. 55].

Reklamın təsir prinsiplərinə V.V.Uçenova və N.V.Starıxın elmi araşdırmasında aydınlıq gətirilir: “Reklam kütləvi kommunikasiyanın elə bir qoludur ki, ona uyğun olaraq reklamçı üçün düzgün seçim etməyə və hərəkət etməyə sövq etmək məqsədi ilə məlumatlı və obrazlı, ekspressiv-suqqestiv xarakterli mətnlər yaradılır ki, bunlar da müəyyən qrup insanlara ünvanlanır.” [21, s. 9]. Reklamın təsir prinsipləri haqqında qeyd edilən bu fikri Ye.V.Romat

da öz araşdırmasında bir daha təsdiq edərək yazır: "Reklam, reklam verənlərin müəyyən vəzifələrinin həllinə kömək etməklə fərqli auditoriyalara fəal təsir göstərmək məqsədi ilə reklam verənlərlə reklam mesajlarının ünvanlandığı müxtəlif auditoriyalar arasında ictimai-kütləvi kommunikasiyanın xüsusi sahəsidir." [17, s. 84].

"Şirkət fəaliyyətini birbaşa və ya dolayı yolla dəstəkləyən insanlar tərəfindən həyata keçirilən birtərəfli ünsiyyətdir" [12, s. 50]. "Reklam, auditoriyanı inandırmaq (bir şey etmək) və ya təsir etmək (müəyyən şəkildə) məqsədi ilə mediadan istifadə edən ödənişli, qeyri-şəxsi ünsiyyət formasıdır." [22, s. 35].

Ədəbiyyat

1. Аренс, В.Ф., Вейголд, М.Ф., Аренс, К. Современная реклама / В.Ф.Аренс, М.Ф.Вейголд, К.Аренс; [пер. с англ. (11-е изд.) В.Кузина]. Москва: Эксмо, 2011. 875 с.
2. Беклешов, Д.В., Воронов К.Г. Реклама в торговле / Д.В.Беклешов, К.Г.Воронов. – Москва: Международные отношения, 1968. – 163 с.
3. Бессонов, Б. Пропаганда и манипуляция / Б.Бессонов // Реклама: внушение и манипуляция. – Москва: Издат.Дом «БАХРАХ-М», 2001. – С. 703-727.
4. Благоев, В. Маркетинг в определениях и примерах:Пер.с болг [Пер. и авт. предисл. проф. А.М.Немчин]; Н.Ц. «Корпорации Двадцатый трест». СПб.: ДваТрИ, 1993. – 377 с.

О СУТИ ПОНЯТИЯ «РЕКЛАМА»

Мусаева Ельзана Мамед кызы

Резюме

В рамках данной статьи анализируются трактовки понятия «реклама» в научных источниках и делается попытка раскрыть основную сущность рекламы. Поскольку реклама стала неотъемлемым элементом нашей повседневной жизни, а также экономического рынка, она отличается особой актуальностью для рассмотрения и изучения с иной точки зрения. В рамках статьи реклама привлекается к исследованию как особая форма коммуникации, что свидетельствует о научной новизне исследования. В рамках статьи используется метод научно-теоретического анализа, анализируются идеи и мнения, выдвинутые мировыми мыслителями относительно рекламы, раскрываются предмет рекламы и объект рекламы, разъясняются понятия о видах рекламы. Наконец, подводятся итоги.

ABOUT THE ESSENCE OF THE CONCEPT OF "ADVERTISING"

Musaeva Elzana Mammad

Summary

Within the framework of this article, the interpretations of the concept of "advertising" in scientific sources are analyzed and an attempt is made to reveal the main essence of advertising. Since advertising has become an integral part of our daily life, as well as the economic market, it is particularly relevant to consider and study from a different point of view. Within the framework of the article, advertising is involved in the study as a special form of communication, which indicates the scientific novelty of the study. The article uses the method of scientific and theoretical analysis, analyzes the ideas and opinions put forward by world thinkers regarding advertising, reveals the subject of advertising and the object of advertising, explains the concepts of types of advertising.

Rəyçi: dos. Məhərrəmova Suqurə İbrahim qızı
Praktik xarici dillər kafedrasının 06 iyun 2022 tarixli iclasın 12 saylı protokolu
Daxil olduğu tarixi 14 iyul 2022-ci il

UOT:94.

ATƏT-IN MINSK QRUPUNUN YARADILMASI VƏ IŞ FƏALIYYƏTI

Şahmarova Dilşad
BDU-nun Qazax filialı
dilshad.shahmarova@.bk.ru

Xülasə: *Bu gün Dağlıq Qarabağ konfilktini müharibə yolu ilə həll etdik. Buna görə dünya dövlətlərində ikili fikirlər yarandı. Bu məsələ sülh yolu ilə həll edilə bilərdi deyə adekvat yoluna üstünlük verənlər oldu. Tarixi işıqlandırmaq lazımdı ki, ATƏT-in Minsk qrupunun iş fəaliyyətini işıqlandıraq. Bu yolda hansı addımlar atıldığı göstərilsin.*

ATƏT-in Minsk qrupunun yaradılmasında Azərbaycan aktiv iştirak edirdi. Sulh yolu ilə bu məsələnin həll olunmasında da qrupa ümidləri boyuk idi. Hər qəbul etdiyi, atdığı addımda da ciddi yanaşdı. Bu məsələnin Azərbaycanın yaralı yeri olduğunu həmişə vurğuladı. Lakin bəslənən ümidlər özünü bu gün doğrultmadı. Yarandığı ilk gündən belə Azərbaycan Minsk qrupu daim bu tərfdən dəstək aldı.

Acar sozler: Minsk qrupu,Dağlıq Qarabağ,həmsədrlər,sülhməramlı
Ключевое слово: Группа Минск, Нагорный Карабах, Сопредседатели , миротворцы .
Key words: Group Minsk,peacemaker,Nagorna -Karabakh

70 ilə yaxın dünyada əsən SSRI rüzgarı nəhayət kəsdi. Bu fırtına dövrünün gətirdiyi dağıntıların biri də Azərbaycana düşdü. SSRI ittifaqda yaratdığı 30-dan çox münaqişə ocaqlarından ən qarışıq hala salınan konfiliktlərdən biri Qarabağ məsələsi oldu. Azadlıq hərakatı başlayanda yenidən gündəmə gətirilən Qarabağ məsələsi 1988-ci ildən aktivləşdirildi. 1992-ci ildən aktiv hərbi əməliyyatlar başlanıldı.

1992-ci ildən başlayaraq Dağlığ Qarabağ konfilikti beynəxalq aləmin əsas probleminə çevrildi.1992-ci ildə 30 yanvarda Azərbaycan Respublikası ATƏM-in üzvü seçildi. 10 iyulda Helsinskidə qarşılıqlı dokumentlər imzalandi. Bundan sonra təşkilatın tam hüquqlu üzvünə çevrildi. Bundan sonra Dağlıq Qarabağ konfilikti təşkilat üzvü dövlətlərin əsas diqqət mərkəzində oldu. 24 martda ATƏM-in Xarici işlər Nazirlərinin Şurasında Dağlıq Qarabağ probleminə həsr olunmuş konfiliktli ərazilərdə sülhü təmin edilməsinə dair müzakirələr aparıldı.Sülhün təşkil edilməsi və həlli üçün nəzarətçi qrupun yaradılması nəzərdə tutuldu. Əsas nizamnamənın yaradılması sülhə xidmət etməsi nəzərdə tutulurdu. Minsk qrupu adlandırılan qrupun tərkibinə 11 dövlət daxil idi: ABS, Rusiya,Türkiyə, Fransa, Almaniya, Italiya, Çexiya, Slovakiya, Isveç, Azərbaycan, Ermənistan.

1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən isğal edilməsi vəziyyəti dəyişdi və yeni siyasi problemlər yaratdi. Minsk qrupunun yolunda yeni maneələr yaratdi. Minsk çərçivəsində münaqişənin sülh yolu ilə həlli onsuz da çox cətin və müşkül məsələ idi. Ermənistan tərəfi də qeyrikonstruktiv mövqe seçərək məsələni həll edilməz vəziyyətə salmaq uçun hər yoldan istifade edirdi. Bu da onsuz da dondurulmuş vəziyyəti daha da çıxılmaz vəziyyətə salırdı.

Tarixə nəzər salsaq görərik ki, azərbaycan-erməni konfiliktini mərhələlərə bölsək bu məsələ həmişə Rusiya-Qərb münasibətlərindən asılı olub. 1992-ci il martın əvvəllərində Minsk qrupu yaradılana kimi Rusiya bu insidenti dəstəkləmişdi amma vəziyyət gərginləşdikcə beynəlxalq siyasi don aldıqdan sonra Rusiya və onun siyasi ətrafını narahat etməyə və ciddi məşğul etməyə başladı. Bu şərtlərdə Rusiya çalışdı ki, bu insidetnti

beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən alsın özü bu işdə əsas faktora çevrilsin. Bununla da beynəlxalq aləmdə və bu regionda zəifləmiş mövqeyini yenidən möhkəmlətsin.

Bu məqsədinə nail olmaq uçun Rusiya Azərbaycana siyasi təzyiq göstərməyə başladı. Özünün sülhməramlı qüvvələrini konfiliktli zonaya gətirməyə çalışdı. Bu məqsədinə nail ola bilməyəndə başqa yol seçdi. Ermənistandakı öz ordusunun sayını artırdı, gizli açıq yolla ordunu silahlandırdı. Hansı ki, həmin qüvvələrlə də Azərbaycan torpaqlarını işğal etməyə başladı.

1997-ci ilin əvvəllərində məlum oldu ki, Rusiya qeyri qanuni yolla Ermənistana 1 milyard dollar dəyərində müasir silahlar satmişdı. Elə o vaxtlar da bəlli oldu ki, 1993-cü ildə Azərbaycan-Ermənistan konfiliktinin qaynar vaxtlarında hərbi əməliyyatlar getdiyi vaxtda yerləsdirməyə başlayıbdır. Erməni silahli qüvvələrinin əli ilə Azərbaycan torpaqlarının isğalına şərait yaratdi. Ermənistanı silahlandırmaqla Rusiya bu isğala atəşkəsdən sonra da davam etmişdir.

1993-cü ildən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xarici siyasətin əsas özəyinə çevirmişdi. Hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev bu konfiliktin həlli yolunda ikitərəfli və coxtərəfli göruşlərin sayını artıraraq daha səylə işləməyə başladi. ATƏT-in həmsədrlərinin dövlət başçılarının yüksək səviyyəli görüşləri təşkil olundu. Beynəlxalq formlarda belə Qarabağ problemi aktivləşdirilirdi. Ermənistan dövlətinin başçıları ilə də belə debatlar təşkil olundu. Dövlətmizin xarici siyasətinin ana xəttini təşkil etdi. Heyder Əliyevin təxirəsalınmaz əsas tapşırığı Azərbaycanın müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpa edilməsi idi. Dövlət çərvçivəsində siyasi sabitliyi təşkil etmək çox vacib məsələ olduğu dövrün olduğunu da unutmayaq. Iki dövlət arasında bu konfiliktin həlli yolunda qərarlı addımın atılması şərt idi. Sağlam düşünmək, dövlətin gücünü bərpa etmək itrilmiş hərbi qüvvələr üçün vaxt lazım idi. Buna görə də bizə Azərbaycan Respublikasına sülh daha çox lazım idi. Bu vaxtı qazanmaq üçün şərtlər və zaman Azərbaycanın xeyrinə işləmədiyi bir vaxtda bu sülh ən vacib missiya idi.

1994-cü ildə 12 mayda atəşkəs elan olundu. Amma ATƏT-in Minsk qrupu çərçivəsində problemin həlli yolunda daimi danişiqlar aparılmağa başladı. 1994-cü il 5-6 dekabrda ATƏT-in Budapeşt sammitində konfiliktli ərazilərdə problemin həlli üçün beynəlxalq sülhməramlı qrupun yaradılmasına qərar verildi. Bundan başqa xüsusi dövlətlərin təşkili ilə qrup yaradılması nəzərdə tutuldu. Bu ərazidə Rusiyanın daha maraqlı olduğunu nəzərə alsaq Rusiya bu fikri daha cox dəstəklədi. Bura Rusiya Finlandiyanın daxil olması nəzərə alındı. Bu həm də Rusiya-Qərb münasibətlərini biraz yumşalda bilərdi. Ancaq Rusiyanın təkcə bu konfiliktdə istirak etmə cəhdinin boşa cıxması demək idi. ATƏT-in Lissabon sammitində 1996-cı il 2-3 dekabrda sənəd qəbul olundu. Bu siyasi yolla azərbaycan –ermənistan arasındakı konfiliktin həlli yolunda boyuk nailiyyət idi. Konfiliktlərin sülhlə həll olunması yolunda bu sənəd beynəlxalq huquqi bazaya malik xüsusi material idi. Gərgin əməyin sayəsində və siyasi talantla Heydər Əliyev Lissabon sammitində xüsusi elan qəbul olundu. Siyasi hüquqlar çərçivəsində konfiliktin həlli müəyyən olundu. Bu elanı dünyanın 53 dövləti dəstəklədi (Ermənistandan başqa).

Bu sammitdən sonra Minsk qrupunun həmsədrləri müəyyən edildi. Rusiya bəlli idi. Tarixboyu Qafqazda siyasi nüfuzunu saxlamaq və qorumaq uçun hər yoldan istifadə etdiyi bəllidi. Bununla yanaşi ABŞ və Fransa dövlətləri müəyyən olundu. Bu dövrlərdə Minsk qrupu çox aktiv fəaliyyət göstərməyə başladı. 1997-ci ilin ikinci yarısında bunu daha çox görürük. Lissabon prinsiplərinə dayanaraq problemin həllini 2 hissəli həyata keçirmək təşkil etmək istədilər. Isğal olunmuş ərazilərdən 7 rayonun hansı ki, Dağlıq Qarabağ ərazisinə daxil deyildi onların qaytarılmasının müzakirələrinə başlanıldı. Bu təklifdə "paket" lə həll edilməli idi. Bu

zaman eyni vaxtda bütün ərazilərin həmçinin Dağalıq Qarabağ ərazisinin də taleyi muzakirə olunub həll edilməli idi. Ikinci təklifdə mərhəllərlə həll təklif olunurdu. Azərbaycan prezidenti buna razı olmasa da konfiliktin həlli yolunda addıma ehtiyac olduğu uçun bu təklifə belə razılaşdı. Ancaq Ermənistan tərəfi həmişəki kimi bu məsələnin həll olunmaması üçün əlindən gələni edirdi, buna da bir addım atmayıb məsləni zorlaşdırırdı.1998-ci ildə dünya praktikasında mövcud olmayan "ümumi dövlət" təklifini dövlət basçısı qəbul etmədi. 1999-cu ildə Azərbaycan prezidenti Heydər Əliyev rəsmi yazılı surətdə Minsk qrupunun həmsədrlərinə müraciət edib fəaliyyətlərini ciddi tənqid etdi."Ümumi dövlət " prinsipini tənqid etdi və bu konfiliktin həllində yeni maneə olduğunu bildirdi.

Ədəbiyyat

1. Əli həsənov muasir beynelxalq munasibətlər və Azərbaycanin xarici siyasəti.b.2007
2. M.Baxışov.Beynəlxalq həyat.b.2003.
3. Azərbaycan tarixi.7cild.b.2007

СОЗДАНИЕ И ФУНКЦИОНИРОВАНИЯ МИНСКОЙ ГРУППЫ ОВСЕ

Шахмарова Дильшад

Резюме

Конфликт между двух стран пришлось решить мирным путем. Для урелигурования этой проблемы создали Минскую группу ОВСЕ. Назначили структуру рабочего мероприятия.

THE CREATION AND ACTIVITY OF MINSK GROUP OF OSCE

Shaxmarova Dilshad

Summary

Great confilikt has between two country.Founder new group which called Minsk in OSCE .They must decide this confilikt with peace way.

Rəyçi dos.Arif Veyisov
Daxil olduğu tarix 12 dekabr 2022-ci il

UOT: 80

LES DIFFICULTES RENCONTRES DANS L' ACQUISITION DES ERREURS DE GRAMMAIRE DES ETUDIANTS AZERBAÏDJANAIS

Orucova Ruqiyyə
Gəncə Dövlət Universiteti
Ruqiyyə.orucova@mail.ru

En tant d'évaluation des connaissances des étudiants,le professeur rencontre les diverses fautes.Le professeur jette un regard sur ces feuilles,et analyse ces fautes.C'est mieux si le professeur corrige les fautes avec les étudiants.Tour à tour les étudiants disent leurs propres versions et puis il choisit les meilleures,et donne une bonne explication qui doit etre claire pour les autres.Comme ça,le proffeseur est à la disposition des étudiants et ils peuvent poser les questions qui les intéressent beacoup.Dans ce cas l'interaction se fait entre professeur –étudiant étudiant-étudiant.Chaque étudiant doit pouvoir trouver les démarches et

les outils qui lui paraissent les plus efficaces.Les exercices de Campus proposent un large éventail d'instruments didactiques :textes et documents,favorisant la compréhension écrite.

L'autonomie de fiche d'évaluation permet d'effectuer des choix en fonction des intérêts et des besoins et rend possibles des anticipations sur la progression.Elle permet de courir de viser l'acquisition d'une compétence de compréhension écrite.

Bien qu'il ait saisi le sens de la situation ,il n'est pas arrivé à formuler une phrase totale.L'étudiant utilise un lexique ,il a taché d'utiliser des expressions et il fait quelques fautes d'orthographe.

Prenons aussi comme exemple l'autre étudiant.La lettre de demande qu'elle a rédigée nous montre que cette étudiante éprouve la difficulté de construction de phrases correctes.Elle n'est pas en mesure de faire ça,elle ne trouve pas comment on peut poser une question concernant son travail.

La présence de formulations propres à la lettre de demande et l'orthographe n'était pas bien respectées.

Pour éviter ces problèmes le professeur donne plusieurs ecemples pour les formations des lettres et oblige les étudiants à rédiger de brèves lettres.Concernant la production d'une lettre ,d'une texte on a posé une telle question:Que faut –il apprendre pour écrire un texte?Les réponses des étudiants ont été classées en deux catégories:

-respect du code :par exemple :écrire des phrases ,l'orthographe ,écrire lisiblement:(évoqué 10 fois par les étudiants).

-expression :par exemple :avoir des idées,penser ,imaginer,plaire aux autres,inventer une histoire:(évoqué 20 fois par les étudiants).

Parmi 19 étudiants qui ont déjà respecté les règles suivantes.

J'ai ressenté les difficultés des étudiants.Avec 2 où 3 cours exercices présentés dans Campus étudiants ne pourront jamais assimiler ce matériel.J'ai demandé au proffesseur de faire deux sondages sur l'utilisation de deux pronoms en même temps.Les résultats ci-dessous m'ont inquiété.

Les étudiants sont-ils capables de maîtriser les doubles pronoms?

Test	*Nombres d'etudiants*	*Réponses positives*	*Réponses négatives*	*Le taux d'assimilation*
I	*14*	*8*	*6*	*57*
II	*14*	*7*	*7*	*50*

Le taux d'assimilation prouve que presque la moitié de la classe montre ses méconnaissances sur le matériel grammatical.Le professeur est obligé d'expliquer le matériel en cherchamt d'autres solitions.Par exemple je propose d'expliquer cette règle comme la suivante:

Personne(s) ou	*Le*	*Je le regarde.*
Chose (s)	*La*	*Je la regarde.*
	Les	*Je les regarde.*
à+personne(s)	*Lui*	*Je lui téléphone.*
	Leur	*Je leur téléphone.*
à+lieu ou chose(s)	*Y*	*J'y vais.J'y pense.*
De+chose(s)quantite	*En*	*J'en parle.J'en ai trois.*

Par exemple:Samira a recu une lettre de ses parents .Les amies de Samire ont voulu regarder cette lettre .Samira la leur a montrée.

Pendant l'explication serait préférable que le professeur ait le recours à la classe

Samira valideynlərindən mektub aldı.Samirenin dostlari bu mektuba baxmaq istediler.Samirə onu onlara gostərdi.

Sujet + Me	*Le*	*+Verbe*
Te	*La*	*Lui*
Se	*Les*	*Leur*
Nous	*vous*	

Comme nous voyons ci dessus en azéri les pronoms compléments se situent aussi comme en francais.

En deuxième année le professeur m'a autorisé à enseigner le subjonctif.Après avoir expliqué le thème j'ai proposé aux étudiants les exercices suivants.Les étudiants devaient écrire les verbes entre parenthèses au subjonctif.On rencontre souvent des fautes que les étudiants font en conjuguant les verbes au subjonctif .Même les français eux-même font des erreurs dans la conjugaison des verbes au subjonctif (Présent,Passé,Imparfait*)*.

Exercice.

1.Je me réjouis qu'il(partir)enfin

2.Il sont très étonnés que vous (être)encore à Bakou.

3.Elle est fâchée que tu ne lui (répondre)pas.

Par exemple :Samira a reçu une lettre de ses parents.Les amies de Samira ont voulu regarder cette lettre.Samira la leur a montrée.

Samira valideynlərindən məktub aldı.Samirənin dostları bu məktuba baxmaq istədilər.Samirə onu onlara gostərdi.

Pendant l'explication serait préférable que le professeur ait le recours à la langue maternelle.

Sujet +	Se	Le	Lui	+ verbe
	Nous	La	Leur	
	Vous	Les		
		Se		
			En	

Comme nous voyons ci-dessus en azéri les pronoms compléments se situent aussi comme en français.

En deuxième année le professeur m'a autorisé à enseigner le subjonctif. Après avoir expliqué le thème j'ai proposé aux étudiants les exercices suivants. Les étudiants devaient écrire les verbes entre parenthèses au subjonctif.

On rencontre souvent des fautes que les étudiants font en conjuguant les verbes au subjonctif. Même les français eux-même font des erreurs dans la conjugaison des verbes au subjonctif (Présent, Passé, Imparfait.)

Exercices.

1.Je me réjouis qu'il (partir) enfin.

2.Ils sont très étonnés que vous (être) encore à Bakou.

3.Elle est fâchée que tu ne lui (répondre) pas.

Le contrôle des fichiers nous montre que parmi les étudiants, certains confondent les conjugaisons. On fait surtout des fautes dans la conjugaison des verbes du troisième groupe.

Test	Nombre d'étudiants	Réponses positives	Réponses négatives	Le taux d'assimilation
I	19	13	6	68
II	19	16	3	84

Le taux d'assimilation prouve peu d'étudiants ont compris le matériel grammatical. L'une des étudiantes n'a rien fait, ce qu'a crée une situation délicate pour le professeur.Le professeur est obligé d'expliquer le matériel en cherchant d'autres solutions.L'une de ces solutions est d'expliquer le sens du subjonctif.Le professeur fait écrire à ces étudiants faibles quelques verbes irréguliers au tableau, et les fait conjuguer, puis il demande s'ils ont compris la définition.

Si c'est claire, alors le professeur fait écrire plusieurs faits en comparaison de l'indicatif. Chaque fois que les étudiants écrivent, ils forment des phrases, il faut que les étudiants s'habituent aux règles. L'expression des pensées par écrit est le genre de travail le plus difficile pour l'étudiant de l- année ce qui peut être expliqué par les processus psychologiques très compliqués qui l'accompagnent. Ce sont:La création d'une grande quantité de liaisons nerveuses: auditives, motrices, le discours intérieur.

Le manque de situations concrètes et d'interlocuteurs. Il n'y a ni mimique, ni intonation. Tout cela exige dans un travail écrit plus de détail que dans une écolution orale. N. I. Jinquinc attire notre attention sur la complexité des mécanismes de la langue écrite.Pour exposer ses pensées, l'étudiant doit choisir les mots, mettre en relief l'essentiel dans la structure sémantique de la phrase, organiser les liaisons de mots dans la proposition et en outre lier deux ou plusieurs propositions.Si dans la langue maternelle, l'image sonore du mot est claire et précise, dans une langue étrangère on la représente d'une manière imprécise, ce qui mène à une langue écriture ralentie et à des fautes fréquentes. C'est pourquoi il est préférable d'étudier tout ce matériel d'abord oralement. Il faut écrire ce qui a été étudie et répété au cours de la pratique orale.Au degré inférieur on demandera à l'étudiant de répondre à des questions posées sur le texte, de compléter toutes sortes de narrations, de reproductions, de petits récits fait par le professeur. On peut demander à l'étudiant de raconter ses occupations personelles, de faire par écrit le plan d'un morceau lu en classe, de citer un fait d'actualité, de composer un Les exercices faits à la maison doivent être corrigés par le professeur après la leçon. Ils seront l'objet d'une correction collective au cours de la leçon suivante. De très courts exercices préparés la maison peuvent être corrigés sur la place (un étudiant écrit au tableau et ensuite on corrige collectivement.) Le professeur doit toujours mettre les étudiants en état de se corriger eux-mêmes, c'est alors que cette correction sera vraiment profitable utile dans l'assimilation de matériel. Pourquoi? Simplement parce que leur attention est plus captivée. En corrigeant des fautes eux-même les étudiants se rappeleront les règles de grammaire passées, ils comprendront d'où, comment, pourquoi viennent les erreurs. De plus, cette autocorrection restera une expérience profondément fixée parce qu'elle utilise de grammaire.Pour cela il faut avoir recours à l'analyse d'orthographique et aux tableaux indiquant les relations entre les lettres et les sons, les difficultés de l'orthographe, les modèles de la langue .

Bibliogrphie

1.Jean-Pierre Astolfi, “ L’erreur un outil pour enseigner” Paris, Retz 1998.p.82
2.Singleton:«Le rôle de la forme et du sens dans le lexique mental en langue2, Aile n®1994.
3.AA.Léontyev : « Mots dans les discours. « Moscou 1965.p.124.

4.AA.Léontyev : « La langue, le discours. « Moscou 1969.p.144-145.
5.Ch.De Marez. F.Desmarchelier, D.Gonfei « Le précis d'orthogrphe. » 1990.p.104.
6.Christine Tagliante. « La classe de langue » CLE international. Paris 1994.p.36
7.Jacky Girardet, Jean-Marie Cridlig « Cahier d'exercices » p.101

К ВОПРОСУ О ТРУДНОСТЯХ, ВСТРЕЧАЮЩИХСЯ ПРИ УСВОЕНИИ СТУДЕНТАМИ- АЗЕРБАЙДЖАНЦАМИ ГРАММАТИЧЕСКОГО МАТЕРИАЛА

Оруджова Ругийя

Резюме

В статье анализируются трудности при усвоении грамматического материала студентами- азербайджанцами и предупреждении встречающихся препятствий, а также ошибок. Автор обращает внимание на то, что преподаватель, исправляя грамматические ошибки, должен опираться на имеющие базовые знания студентов.

Выполнение грамматические упражнений нацелено на углубленное усвоение категории времени глагола. В статье представлены таблицы по теме спряжение глаголов в прошедшем времени. Одновременно в ней приводится сравнительная характеристика грамматических определений и правил.

THE QUESTION ON THE DIFFICULTIES OF AZERBAIJANI STUDENTS IN ASSIMILATING GRAMMAR MATERIALS

Orujova Rugayya

Summary

This article analyzes the difficultées in assimilating the grammatical mistakes of Azerbaijani students. The author states that while the teacher correts the students' mistakes he/she should use the students' own help/

The explanation of teuse forms in the process of doing grammatical exercises is also reflected in the article.Table on the use of verbs in the past tense form is also given in the article.The grammatical rules given in the article are compared with the mother tongue.

Rəyçi: Məhərrəm Orucov
Fransız dili kafedrasının 14 dekabr 2022-ci il tarixli iclasın 07 saylı protokolu
Daxil olma tarixi 16 dekabr 2022-ci il

UOT:373.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARA FİZİKİ TAPŞIRIQLARIN ÖYRƏDİLMƏSİ METODİKASI

Qazaxova Şahnaz Xəlilhacı qızı, Haqverdiyev İlqar Arif oğlu
Gəncə Dövlət Universiteti
Shahnaz_qazaxova@mail.ru

Xülasə: *Məktəbəqədər yaşlı uşaqlara fiziki hərəkətlərin öyrədilməsi metodları üç qrupa bölünür : əyani, şifahi, praktik.*

Əyanilik metodları fiziki tapşırıqların bilavasitə hiss edilməklə qəbul olunmasına əsaslanır.

Bütün metodiki prinsiplər bir-biri ilə sıx bağlıdır. Yalnız bütün prinsiplərdən istifadə etmək, fiziki tərbiyədə yüksək nəticələr əldə etməyə imkan yaradacaqdır.

Açar sözlər:məktəbəqədər yaşlı uşaqlar, əyanilik metodları, iradi keyfiyyətlər, metodiki prinsiplər, fiziki hazırlıqlar

Key words: preschool children,vizualization methods, voluntary qualities, methodical principles, pyusical tasks

Ключевые слова:дети дошколъного возраста, методы визуализации, доброволън качества, методическое принципы, физические задачи

Hərəkətverici vərdişlərin formalaşmasının effektivliyi əsasən təlim metodlarının düzgün tətbiq edilməsindən asılıdır. O,üsullardan ki, hansıların köməyi ilə hərəkətverici bacarıq və vərdişlər formalaşır.

Məktəbəqədər yaşlı uşaqlara fiziki hərəkətlərin öyrədilməsi metodları üç qrupa bölünür : əyani, şifahi və praktik (əməli). Hərəkətverici vərdişlərin formalaşmasında metod qruplarının hər biri xüsusi əhəmiyyətə malikdir.

Təlimin əyani metodları. Əyanilik metodları fiziki tapşırıqların bilavasitə hiss edilməklə qəbul olunmasına əsaslanır və ondan uşaqlarda hərəkətləri görmə təsəvvürü oyatmaq üçün istifadə olunur.

Əyanilik metodları balaca uşaqların öyrədilməsində xüsusi yer tutur, bu onunla bağlıdır ki, məktəbəqədər yaş dövründə uşaqlarda yeni hərəkətverici vərdişlərin əsası qoyulur. Əyaniliyin vacibliyi uşaqların təfəkkür xüsusiyyətləri ilə də diktə olunur.

Əyanilik metodlarına aiddirlər: fiziki tapşırıların bilavasitə göstərilməsi, təqlid etmə - səni əhatə edən həyatdakı obrazları yamsılama,görmə və eşitmə orientirlərinin tətbiqinə kömək və əyani vəsaitlər (şəkillər, rəsmlər, kinoqramlar, videonümayişlər).

Fiziki tapşırıqların nümayişi. Nümayiş zamanı (təbii nümayiş) uşaqlarda görmə orqanları vasitəsi ilə fiziki tapşırıqları haqqında görmə təsəvvürü yaranır.

Uşaqlar yeni hərəkətlərlə tanış olduqları zaman, nümayiş bütün yaş qruplarında tətbiq oluna bilər.

Fiziki tapşırıqların nümayişinə müəyyən metodiki tələblər irəli sürülür. Onlar uşaqların yaş xüsusiyyətlərini nəzərə almaqla, müxtəlif mərhələlərdə təlimin konkret vəzifələrindən meydana çıxır. Hərəkətverici vərdişlərin formalaşmasının birinci mərhələsində uşaqlarda hərəkətlər haqqında tam düzgün görmə təsəvvürü yaratmaq və daha yaxşı yerinə yetirilmə üçün onları oyatmaq üçün, fiziki tapşırıqları yüksək texniki səviyyədə, var gücü ilə (maksimal cəhdlərdə), normal tempdə, qeyd olunan yüngüllükdə nümayiş etdirmək lazımdır.

Nümayiş üçün əsas tələb tapşırığını dəqiq və düzgün yerinə tetirilməsidir. Pis nümayiş zamanı uşaqlarda hərəkət haqqında düzgün olmayan təsəvvür yaranacaqdır.

Geniş dairədə bacarıq və vərdişlərin əldə olunması üçün tədricən daha çətin hərəkətlərə malik olmaq vacibdir. Hərəkətverici bacarıq və vərdişlərin böyük ehtiyatı hərəkətverici fəaliyyətin yeni formalarının mənimsənilməsinə imkan yaradır. Müxtəlif hərəkətlərin mənimsənilməsi zamanı meydana çıxan çətinliklərin aradan qaldırılması nəticəsində hərəkətverici fəaliyyətin əlaqələndirmə və mükəmməlləşmə qabiliyyəti inkişaf edir.

Fiziki tərbiyə prosesində fiziki yükləmə tədriscən artmalıdır. Bu fiziki keyfiyyətlərin inkişafı üçün əhəmiyyətlidir. Daimi işə uyğunlaşma nəticəsində orqanizmin yüksələn imkanları yol verir ki, o həmin işin öhtəsindən daha qənaətlə, funksiyaların minimal gərginliyi ilə gəlsin. Yüklənməyə uyğunlaşma baş verir.

Yüklənmə adət halını aldıqdan sonra, o, orqanizmdə müsbət dəyişikliklər amili kimi fəaliyyət göstərə bilmir. Funksional imkanların sonrakı yüksəlməsini təmin etmək üçün, yüklənmələri sistematik yüksəldərək, onların həcmini və intensivliyini artırmaq lazımdır.

İradi keyfiyətlərin tərbiyə olunmasında da analoji qanunauyğunluqlar fəaliyyət göstərir.İradi keyfiyyətlər, bu keyfiyyətləri tələb edən fəaliyyətin nəticəsində inkişaf edir. Bu halda iradi təzahürün dərəcəsi psixoloji çətinliklərin aradan qaldırılmasının həcminə bərabərdir. İradənin tərbiyə olunması, fiziki yüklənmələr və xüsusi tapşırıq vasitəsi ilə meydana gələn, tədriclə artan çətinlikləri aradan qaldırmadan mümkün deyil.

Tələbələrin tərəqqisi, yeni tapşırıqların və onunla bağlı olan yüklənmələrin, məşğul olanların gücü çatan qədər olduqda, orqanizmin funksional imkanlarını ötüb keçmədikdə, yaş cinsi və fərdi xüsusiyyətlərə uyğun gəldikdə, müsbət nəticələrə gətirib çıxardacaqdır. Məşğələlərin müntəzəmliyi, ardıcıllığı və yüklənmələrin istirahətlə optimal əvəz olunması da vacib şərtlərdəndir.

Metodiki prinsiplərin qarşılıqlı əlaqəsi. Bütün metodiki prinsiplər bir-biri ilə sıx bağlıdır. Yalnız bütün prinsiplərdən istifadə etmək, fiziki tərbiyədə yüksək nəticələr əldə etməyə imkan yaradacaqdır.

Tapşırıqlar dəfələrlə nümayiş olunur. Bununla əlaqədar olaraq nümayişin xarakteri dəyişir. Əgər başlanğıcda nümayiş tapşırıq haqqında ümumi görmə təsəvvürü yaratmaqdırsa, sonra isə hərəkət texnikasının ayrı-ayrı elementlərini dəqiqləşdirməkdir. Tapşırıq tam, lakin yavaş tempdə nümayiş etdirilən zaman uşaqların diqqətini texnikanın bu və ya digər elementi cəlb edir. Məsələn, uzağa tullanmada, əvvəlcə diqqət çıxış vəziyyətinə yönəlir, sonra isə təkana və tullanmağa.

Nümayişdən əvvəl, uşaqlara nəyi müşayiət etməyi göstərmək lazımdır. Tapşırığın mənimsəmə dərəcəsinə görə, texnikanın o elementləri nümayiş edilir ki, hansılara ki, bu dərsdə diqqət yetirilir.

Uşaqlarda fiziki tapşırılar haqqında düzgün və əzələ - hərəkətverici təsəvvürlərin yarandığı vaxtda, xüsusilə hərəkətverici vərdişlərin möhkəmləndirilməsində nümayişdə sui istifadə etmək olmaz, bu onların mexaniki təkrarlanmasına gətirib çıxardır. Fiziki tapşırı obrazlı nümayiş etdirərək, sonra verilən hərəkətin sözlə obrazını yaradıb və bununla uşağın təfəkkürünü aktivləşdirmək məqsədəuyğundur.

Fiziki tapşırıqların nümaiyişinə müəllim cıddi hazırlaşır. İlk əvvəl uyğun gələn şəraiti yaratmaq, müşahidə etmək üçün uşaqları təşkil etmək lazımdır. Bəzi uşaqların nümunəvi yerinə yetirilməsi üçün xüsusi şərait tələb olunur: uzağa tullamaq üçün lazımi qədər sahə lazımdır; zal şəraitində qaçaraq hündürlüyə və uzununa tullanmaq üçün gimnastik döşəklər, rezin cığırlar, açıq havada isə qumla doldurulmuş xəndək olmalıdır.

Fiziki tapşırıqların nümayiş etdiriləcəyi yeri elə seçmək lazımdır ki, uşaqların hamısı üçün görünən olsun. Məsələn, ümumiinkişaf hərəkətlərini yüksək yerdə, qrupdan bir qədər kənarda nümayiş etdirmək məqsədəuyğundur.

Fiziki tapşırıqları nümayiş etdirərəkən tərbiyəçi uşaqlara münasibətdə müxtəlif vəziyyətlərdə ola bilərlər.(üzü, arxası,yanı uşaqlara tərəf). Ümumiinkişaf hərəkətlərin üzü uşaqlara tərəf vəziyyətində nümayişində "güzgüvari" nümayişdən istifadə olunur, məsələn, əgər uşaq2lar sola tərəf əyilirsə, əyilmə sağa tərəf yerinə yetirilir.

Dairədə düzülərkən tərbiyəçi yerini uşaqların yanında tutmalıdır.Əgər tərbiyəçi tapşırığı tək cərgədə yeriş zamanı nümayiş etdirirsə, onda o uşaqlara qarşı gəlməlidir.

Düz qamətlə oturuşu, gövdəni qabağa və arxaya əyməni uşaqlara yanakı vəziyyətdə duraraq göstərirlər. Əllərin bel və baş arxasındakı vəziyyətlərlə olan tapşırıqları sağa,sola və hərlənərək dönmələri arxası uşaqlara tərəf vəziyyətdə nümayiş etdirmək məqsədəuyğundur.

Daha çətin tapşırıqları (tullanmalar,atmalar və s.), gövdənin, əllərin və ayaqların vəziyyəti haqqında düzgün təsəvvür yaratmaq üçün, müxtəlif müstəvidə göstərmək lazımdır.

Fiziki tapşırıqların uşaqlar tərəfindən daha effektiv qəbul olunması üçün onları düzgün qurub yerləşdirmək lazımdır. Əgər tapşırıqlar bağlı cərgə qarşısında nümayiş etdirilirsə, onda boyu balaca uşaqlar cərgənin əvvəlində durmalıdırlar.

Fiziki tapşırıqların effektiv nümayişi uşaqların diqqətlilik aktivliyindən asılıdır. Tərbiyəçi uşaqlarda fiziki tapşırığın verilən növünə maraq oyadır və nümayişdən əvvəl diqqətin nəyə ayrılmasını qeyd edir. İlkin göstərişlər aktiv, məqsədəuyğun dərk etmə üçün şərait yaradır və dəqiq görmə təsəvvürünün yaranmasını təmin edir.

Uşaqların tapşırıqları əsasən mənimsədikləri zaman onlara yoldaşlarının yerinə yetirdikləri hərəkətləri müşahidə etmək və səhvlərini qeyd etmək tapşırığı vermək çox xeyirlidir. Bu zaman hər bir uşağa kimin mşahidə edəcəyi göstərilir.

Fiziki tapşırıqların nümayişinə uşaqları da cəlb etmək lazımdır. Uşaqların düzgün nümayişi, başqaları üçün nümunə kimi xidmət edir,öyrənilən tapşırığa qarşı maraq oyadır, əminlik yaradır, özlərini tapşırıqları necə daha yaxşı yerinə yetirmələri üçün təşəbbüsləndirir.

Bundan başqa uşaqlar üçün tapşırıqları uşaqlar nümayiş eləyirsə : öz yaşıdlarının fiziki hərəkətləri yerinə yetirdikləri zaman bədənin ayrı-ayrı hissələrinin vəziyyətini daha yaxşı görmək üçün uşağın kiçik həcmli görmə qabiliyyəti olmalıdır.

Fiziki tərbiyə vasitələrinin tərbiyəsinin boy ölçülərinə uyğun gəlmədiyindən o tapşırıqları yerinə yetirə bilmir və bu zaman uşaq nümayişindən istifadə olunur, məsələn: gimnastik divarda hərəkətlər, kəndir altından keçmə, gimnastika halqasına daxil olma, gimnastika ağacları üzərindən addımlama və başqaları.

Əgər tərbiyəçi özü sağlamlıq və ya fiziki hazırlıq baxımından daha çətin tapşırıqları nümayiş eləyə bilmirsə (dərinliyə tullanma, uzununa tullanma, qaçaraq hündürlüyə tullanma və s.) fiziki tapşırıqların nümayişi üçün yenə uşaqlar cəlb olunurlar.

Əgər tərbiyəçiyə hərəkəti eyni zamanda göstərib və başa salmaq çətin və narahat olursa, həmçinin fiziki tapşırıqların texnikasının ayrı-ayrı elementlərinin spesifikliyini uşaqlar üzərində göstərmə daha asan olduğu üçün, o bunu uşaqların hamısının özləri etmələrini təklif edir.

Təqlid. Təqlid-heyvanların, quşların, həşəratların hərəkətlərini, təbiət hadisələrini və ictimai həyatı yamsılamaq, məktəbəqədər yaşlı uşaqlara fizika tapşırıqları öyrədərkən böyük yer tutur. Məlumdur ki, bu yaşda uşaqlara, onlara söylənənləri, oxuduqlarını, gördüklərini təqlid etmək, yamsılamaq xas olan xüsusiyyətdir.

Dovşanı, siçanı və başqa canlıları yamsılayaraq, uşaqlar böyük həvəs və çalışqanlıqla fiziki tapşırıqları yerinə yetirirlər. Yüklənmənin artması öz növbəsində hərəkətverici vərdişin möhkəmlənməsində, fiziki keyfiyyətlərin tərbiyələnməsində, uşağın fiziki inkişafında yaxşı nəticələrin əldə olunmasına səbəb olur.

Ədəbiyyat

1.Həsənov A.M. Məktəbəqədər Bakı, Maarif 1977
2. Əliyeva Ş. Məktəbəqədər Pedaqogika., Bakı, ADPU, 2010.
3.Mursaqolova R., Rüstəmova N., Məktəbəqədər pedaqogika., Bakı, ADPU, 2012.
4. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı., Bakı, 1998.
5. Qurbanov N.N., Bağırov S.S. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi.

METHODOLOGY OF TEASHİNG PRSCHOOL CHİLDREN PHYSİCAL TASKS

Gazaxova Shahnaz Xalilhaci, Hagverdiyev Ilgar Arif

Summary

The methods of teashing physical movements of preschool shildren are divided into three groups: visual and verbal practical.

Visualization methods are based on direct perception of physical tasks.All methodical principles are closely related to each other.

Only using all the principles will make it possible to achieve high results in physical education.

МЕТОДИКА ОБУЧЕНИЯ ДЕТЕЙ ДОШКОЛЪНОГО ВОЗРАСТА ФИЗИЧЕСКИМ УПРАЖНЕНИЯМ

Газахова Шахназ Халилхаджи кызы, Хагвердийев Ильгар Ариф Оглы

Резюме

Методы обучения фтзическим движениям дошколъников делятся ра три группы : наглядные и словеснопрактические.

Методы визуализации основаны на непосредственном восприятии физических задач.Все методические принципы тесно связаны друг с другом.

Толъко исползование всех принципов позволит добитъся высоких резултатов в физическом воспитании.

Rəyçi: b/m. İ.Haqverdiyev
Bədən tərbiyə və İdman kafedrasının 17 noyabr 2022-ci il tarixli iclsın 03 saylı protokolu
Daxil olma tarixi 23 noyabr 2022-ci il

UOT:355.

MÜASİR MƏRHƏLƏDƏ GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN TƏŞKİLİ

Məmmədova Mahnur Qafar qızı, Məmmədov Şahmar Rüstəm oğlu,
Əmiraslanov Sərxan Nail oğlu
Gəncə Dövlət Universiteti

Xülasə: *Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, hərbi-idman oyunlarının kütləviliyinin artırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Gənclərin Hərbi vətənpərvərlik tərbiyəsi ordu sıralarında hərbi xidmətə çağırış öncəsi hazırlığı təmin etməyə yönəlmişdir və onların vətənpərvərlik tərbiyəsində onun özünəməxsus yeri vardır.*

Vətənpərvərliyin ali təzahürü xalq kütlələrinin cəmiyyət quruluşu məqsədyönlü fəaliyyəti, Vətənin müdafiəsi yolunda fədakar əməyindən ibarətdir. Ölkə qarşısında duran vəzifələrin yerinə yetirilməsi sahəsində əsas şərt xalq kütlələrinin hərbi vətənpərvərlik tərbiyəsinin, onların vətənin müdafiəsinə hazırlığından ibarətdir.

Açar sözlər: hərbi vətənpərvərlik, gənclər siyasəti, təlim-tərbiyə işi, vətənin müdafiəsi, hərbi xidmət

Ключевые слова: военный патриотизм, молодежная политика, подготовка, защита Отечества, военная служба.

Key words: military patriotism, youth policy, training, defense of the Fatherland, military service

Gənc nəslin vətənpərvərlik tərbiyəsi dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biridir. Vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Bu baxımdan təhsil müəssisələrində təlim-tərbiyə işinin düzgün təşkili mühüm əhəmiyyətə malikdir.

Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Bu, ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən hesab olunur. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda da gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb etmişdir. Heç şübhəsiz, bu məsələdə ümumtəhsil məktəblərinin X-XI siniflərində tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" fənni mühüm rol oynamışdı. Belə ki, bu fənn öz məzmunu etibarı ilə şagirdlərə Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatların, hərbi nizamnamə qaydalarının mənimsədilməsini, onların ordu həyatı ilə tanış olmalarını, hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmalarını, şagirdlərdə Azərbaycanın Silahlı Qüvvələrində xidmətin müqəddəs borc və şərəf işi olmasına inamın yaradılmasını, vətənpərvərlik, əqidəlilik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirilməsini, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırılmasını hər zaman nəzərdə tutulmuşdur.

Gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, hərbi-idman oyunlarının kütləviliyinin artırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Gənclərin Hərbi vətənpərvərlik tərbiyəsi ordu sıralarında hərbi xidmətə çağırış öncəsi hazırlığı təmin etməyə yönəlmişdir və onların vətənpərvərlik tərbiyəsində onun özünəməxsus yeri vardır. Lakin, vətənpərvərlik duyğularının aşılanması, gənclərin bu ruhda tərbiyəsi yalnız bu vəzifə ilə bitmir.

Əlbəttə, gənclərin vətənpərvərlik tərbiyəsini yalnız bir fənnin tədrisi ilə məhdudlaşdırmaq fikri reallıqdan uzaqdır. Belə ki, bütün fənlərin tədrisində, xüsusilə də humanitar-ictimai fənlərin tədrisində vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar vardır. Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş şəxslərin,Silahlı Qüvvələrimizin şərəfli döyş yolları , beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət xadimlərinin, alim, yazıçı və incəsənət xadimlərinin şəxsi nümunələri də şagirdlər üçün əsl həyat, tərbiyə məktəbidir.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Milli Qəhrəmanları ilə, müharibə iştirakçıları ilə gənclərin mütəmadi görüşləri keçirilir,məktəblilərə torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının həyatı və qəhrəmanlıqları barədə ətraflı məlumatlar verilir.

Gənclərin vətənpərvərlik və dövlətçilik ruhunda tərbiyəsinin əhəmiyyətini, eləcə də ilkin hərbi bilik, bacarıq və vərdişlərin gənclərin inkişafına böyük təsirini nəzərə alaraq, aidiyyəti təşkilatlarla birlikdə ümumtəhsil məktəblərinin şagirdləri arasında ənənəvi "Cəsurlar", "Şahin", "Sərhəd" hərbi-idman və turizm respublika oyunları keçirilir. Elm və Təhsil Nazirliyinin Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Könüllü Hərbi Vətənpərvərlik Texniki-İdman Cəmiyyəti Respublika Şurası və Respublika Veteranlar Şurası ilə işgüzar əlaqələri mövcuddur.

Ümumi təhsil müəssisələrində çağırışçı gənclərin vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv xarakter alması, bu sahədə həyata keçirilən tədbirlərin davamlılığının təmin olunması, gənclərdə fəal vətəndaş mövqeyi və doğma torpağa sədaqət hissinin formalaşdırılması vacib məsələlərdən biridir.

Vacib məqamlardan biri kimi gənclərin əsgər həyatı ilə yaxından tanış olmasını təmin etmək üçün onların daha sistemli şəkildə hərbi hissələrə aparılması nəzərdə tutulur. Əsas məqsəd hərbi hissələrdəki müasir silah və hərbi texnikalarla çağırışçı gəncləri tanış etmək, onlardan istifadə qaydaları barədə məktəblilərə ətraflı məlumatlar vermək və əsgərlik xidməti barədə təsəvvürlərini genişləndirməkdən ibarətdir. Eyni zamanda çağırışçı gəncləri hərbi xidmətə başlayan əsgərlərin andiçmə mərasimlərində iştirakıda planlaşdırılmalıdırdır.

Hökumətimiz ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsinə, şəxsi heyətin nailiyyətlərimizi qorumaq əzminin, sayıqlığının artmasına daim qayğı göstərir. Vətənin qorunması erməni qəsbkarlarının nəyin bahasına olursa olsun öz çirkin niyyətlərinə çatmaq üçün hərbi üstünlüyü əldə edərək öz iradələrini zorla qəbul etdirməyin qarşısını almaq səbəbindən irəli gəlir. 1980-ci illərin axırı, 1990-cı illərin əvvəlində erməni millətçilərinin və onların havadarlarının təcavüzkar fəaliyyətləri geniş vüsət alaraq, ölkəmizə qarşı açıq hərbi əməliyyatların keçirilməsi ilə nəticələndir. Ölkəmizin mövcud problemlərə konstruktiv mövqeyi SQ-in döyüş qabiliyyətinin, Azərbaycan xalqının sayıqlığının, onun ölkənin müdafiəsinə qalxmaq əzminin artması ilə müşahidə olundu.

Müdafiə qabiliyyətinin artması istiqamətində ölkə rəhbərliyinin fəaliyyətinin əsas sahələrindən biri də gənclərin hərbi-vətənpərvərlik tərbiyəsidr. O, əhlinin, xüsusən gənclərin Vətənin müdafiəsi sahəsində, mənəvi-psixoloji, hərbi və fiziki hazırlıq üzrə çoxşaxəli vəzifələri həyata keçirməyə xidmət edir. Vətənpərvər olmaq ölkənin iqtisadi, hərbi potensialını artırmaq, öz əsgəri borcunu layiqincə yerinə yetirmək deməkdir. Bunun üçün isə xalqa, ictimaiyyətə zidd hərəkətlərə qarşı barışmaq olmaz, ordu xidmət məktəbini keçərək müasir silah və döyüş texnikasını mənimsəyib, vətənin müdafiəsinə hazır olmaq lazımdır.

Müasir gənclər ata və babalarımız tərəfiindən bizə qalmış zəngin ideya-nəzəri örnəyə malikdirlər. Xalq kütlələrinin vətənpərvərlik tərbiyəsi, onların Vətənin müdafiəsinə hazırlığı bu örnəyin əsasını təşkil edir. Vətənə məhəbbət geniş xalq kütlələrinin qəlbində həmişə yaşamalıdır. Bu yadelli işğalçılara qarşı mübarizə öz təzahürünü mübariz şəkildə göstərmişdir.

27 sentyabr 2020-ci ildə Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələrinin döyüş mövqelərini, mülki obyektləri ağır artilleriya silahlarından atəşə tutması, düşmənin cəbhəboyu hücuma keçməsi xəbəri Azərbaycan xalqının səbr kasasını daşırdı. İldırımsürətli əks-hücum əməliyyatı ilə düşmən geri oturduldu və 44 gün davam edən qanlı savaş Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı.Vətən müharibəsinin Azərbaycan Ordusunun qələbəsilə başa çatmasını Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezident İlham Əliyev 10 noyabr tarixində gecə xalqa müraciətində xəbər verdi. Son 30 ildə ölkəmizin ən ciddi problemi sayılan Dağlıq Qarabağ münaqişəsi Azərbaycan xalqının istədiyi kimi həll olundu. Bəli, bu gün bütün dünyanın gözü Azərbaycandadır. Çünki 44 günlük Vətən savaşında Müzəffər

Azərbaycan Ordusu böyük qəhrəmanlıqla Ali Baş Komandan cənab İlham Əliyevin hərbi sərkərdəliyi və siyasi liderliyi sayəsində Azərbaycan torpaqlarını işğaldan azad edərək düşmənin belini qırdı. Azərbaycan xalqı müharibənin qalibidir və heç kim, heç nə xalqın bu qələbəsinə kölgə sala bilməz.

Vətən, onun işinə sədaqət, vətənpərvərliyin mahiyyəti olaraq, qüdrətimizin əsas mənbəyidir. Sistematik, məqsədyönlü tərbiyə işi geniş xalq kütlələrinin əzəli maraqları əsasında qurularaq, dinc ictimai quruluşun bərqərar edilməsinə xidmət edir.

Hərbi Vətənpərvərlik Tərbiyəsi – ümumi tərbiyənin tərkib hissəsi olaraq, insanlarda yüksək mənəvi-psixoloji, fiziki vərdişlərin, həmçinin Vətənin müdafiəsi üçün lazımi keyfiyyətlərin məqsədyönlü, planauyğun fəal prosesdir. Hərbi Vətənpərvərlik Tərbiyəsinin əsas məqsədi – Vətənə sadiq silahlı müdafiəçilərin hazırlanmasıdır.

Hərbi Vətənpərvərlik Tərbiyəsi işinin ideya-nəzəri əsasları milli ideologiyamız üzərində qurulmuşdur. Bu ideologiya xalqımızda Vətən, millət, cəmiyyət, vətənpərvərlik kimi anlayışlar formalaşdıraraq, şüurlu surətdə vətənin müdafiəsi sahəsində xalq kütlələrinin rolunun vacibliyinin mənimsəməsinə kömək edir. Hərbi Vətənpərvərlik Tərbiyəsi işində obyektiv amillərlə yanaşı subyektiv amillər də əhəmiyyətli rola malikdirlər. Bu kütləyə xalq kütlələrinin müxtəlif təbəqələri, partiyalar, ayrı-ayrı şəxsiyyətlər aiddirlər. İndiki dövrdə subyektiv amillərin rolu daha da artır. Belə ki, cəmiyyətimizin istiqamətverən qüvvəsi olan dövlətin rolu artmaqdadır.Dövlət Milli ideologiyamızın təbliğatçısı kimi Hərbi Vətənpərvərlik Tərbiyəsi işinin bütün sisteminə rəhbərlik edir.

Vətənin müdafiəsi dövlətin əsas vəzifələrindən biri olmaqla ümumxalq işidir. Azərbaycan Respublikasının Vətəndaşları-dövlət maraqlarını qorumalı, onun müdafiə qabiliyyətini, şan-şöhrətini artırmağa borcludurlar.

Hərbi Vətənpərvərlik Tərbiyəsinin ümumi prinsipi vahid məqsəd və məqsədə çatmaq üçün vəzifələrdən ibarətdir. Belə ki, Hərbi Vətənpərvərlik Tərbiyəsi ümumi tərbiyənin tərkib hissəsi olub, onun məqsədlərinə malikdir və bu məqsədlər ümumi tərbiyə işinin əsas vəzifələrindən ibarətdir.

Hərbi Vətənpərvərlik Tərbiyəsinin ümumi prinsiplərindən biri konkret-tarixi baxış prinsipidir. Tarixi şəraitdən asılı olaraq, Hərbi Vətənpərvərlik Tərbiyəsi forma və məzmununu dəyişmiş, inkişaf etmiş və konkretləşmişdir. Konkret tarixi baxış prinsipi keçmiş və indiki hadisələrdə bilavasitə və ya əlaqələrin seçilməsinə şərait yaradaraq inkişafın ana xəttinə və əsas meyllərini göstərməyə kömək edir. Məhz buna görə də bu prinsipə daim riayət etmək Hərbi Vətənpərvərlik Tərbiyəsinin inkişaf etdirilməsinə böyük rola malikdir.

Silahlı Qüvvələrdə və bütövlükdə hərbi işin inkişaf meyllərinin müxtəlif dəfişikliklərinin Hərbi Vətənpərvərlik Tərbiyəsi işinin uçotnun aparılması prinsipi özünün əvvəlki prinsipi ilə sıx əlaqədardır. Belə ki, ən etibarlı müdafiə edilməsi baxımından çıxış edilərək hadisələrin tez zamanda inkişaf etdirilməsini nəzərə alaraq düşmənə layiqli cavab vermək üçün mənəvi-siyasi psixoloji, hərbi-texniki və fiziki keyfiyyətlərdən kompleks istifadə edərək qabaqcıl təcrübədən və yeniliklərdən bəhrələnmək lazımdır.

Əslində milli müstəqilliyimizin əsası Heydər Əliyev Azərbaycanda ilk dəfə hakimitə gəldiyi zaman yaratmağa başlamış, 70-80-ci illərdə onu daha da inkişaf etdirmişdir. Vətənpərvər, yaradıcı, qurucu bir şəxsiyyət olan Heydər Əliyevin respublikanın hərtərəfli inkişafı və tərəqqisində xidmətləri əvəzsiz olmuşdur. Müstəqilliyimizin ilk illərində ölkədə özbaşınalığın, xaosun baş alıb getdiyi, “olum ya ölüm” günlərinin yaşandığı bir vaxtda Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gətirildi. Dağıdılmış ölkəni, məhv edilmiş milli ləyaqəti, milli qürüru bərpa etmək üçün Heydər Əliyev vətəndaş həmrəyliyinə nail oldu. “Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram!” deyən Heydər

Əliyev 1993-cü ildən müstəqilliyimizin qarantı, dövlətimizin Ordu quruculuğumuzun memarı, yaradıcısı və qurucusu kimi Azərbaycan tarixinin şanlı səhifəsini yazdı.

Dövlətçiliyimizin, müstəqilliyimizin qorunub saxlanması, demokratiyanın inkişafı, insan hüquqlarının, iqtisadiyyatın bərpası və s.-də əldə edilən nailiyyətlər məhz onun gərgin əməyinin nəticəsidir. Heydər Əliyev vətənpərvərliyin, sülhün, əmin-amanlıgın təminatçısı, xalqının rəhbəri, türk dünyasının lideri, millətin ümid və inam yeri idi.

O, harada olmağından asılı olmayaraq vətən mənafeyini bütün mənafelərdən üstün tutmuşdur. Müasir gəncliyin Hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirən H.Əliyev göstərirdi ki, "bizim gənclər gərək hazırlaşsınlar ki, XXI əsrdə Azərbaycanın inkişafını təmin edə bilsinlər. Bunun üçün biliklənmək. təlısil almaq, sağlam həyat tərzi keçirmək, mənəvi milli dəyərlərimizə söykənmək və ümumbəşəri dəyərlərdən səmərəli istifadə etmək lazımdır".

Cəmiyyətin hərtərəfli inkişafında biliyə, təhsilə xüsusi diqqət yetirən Heydər Əliyev yaxşı bilirdi ki, bunlar olmazsa ölkədə heç bir uğur qazanıla bilməz. Məhz bu meyarları əsas tutan ulu öndərin yüksək döyüş qabiliyyətinə malik silahlı qüvvələrin yaranmasında, formalaşmasında və inkişaf etməsində xidmətləri əvəzsizdir. Müharibə istəməyən Heydər Əliyev atəşkəsi tez-tez pozan nankor düşmənə hiddətlənib göstərirdi ki, "bu gün hamı, ən əvvəl əli silah tuta bilən vətənin müdafiəsinə qalxmalıdır. Vətənin müdafiəsi hər bir kəsin müqəddəs borcudur".

Nəhayət, gənclərin Hərbi vətənpərvərlik tərbiyəsində əsrlərlə haqqında danışılacaq, şəninə dastanlar, qəhrəmanlıq, zəfər nəğmələri qoşulacaq, tarixi salnamələrdə öz əksini tapacaq 44 günlük Vətən savaşımız qalibiyyətlə başa çatdırıldı. Terrorçu Ermənistan dövləti Ali Baş Komandanımız İlham Əliyevin bütün şərtləri, tələbləri ilə qeyd-şərtsiz razılaşmalı oldu. 15 noyabrda Kəlbəcərin, 20 noyabrda Ağdamın, 1 dekabra qədər Laçın rayonunun işğaldan azad edilməsi ilə Azərbaycanın dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olundu,xalqımızın 30 illik həsrətinə son qoyuldu.

44 günlük Vətən savaşının bir günü bəlkə də hər birimiz üçün 1 il qədər gərgin və həyəcanlı keçdi. Çünki Azərbaycan xalqının adına yazılmış ləkəni Azərbaycan oğulları döyüş meydanında qanı, canı bahasına təmizləyirdi. Bu ləkə adımızdan da, alnımızdan da, şərəfimizdən də silindii. Bunu bizə bəxş edən Rəşadətli Ordumuza və Müzəffər Ali Baş Komandana eşq olsun deyirik! Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və bundan sonra da müzəffər xalq, qalib dövlət kimi əbədi yaşayacaq. 44 günlük Vətən müharibəsində Zəfər Günü Xeyirin Şər üzərində qələbəsi və tarixi ədalətin təntənəsidir. Xalqın "dəmir yumruq"da birləşərək düşmənə zərbə vurması tarixin əbədi yaddaşına yazılmışdır. Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" şüarı altında birləşən xalqın qəhrəmanlığı dünyaya bizim birliyimizi, iradəmizi və əzmkarlığımızı nümayiş etdirmişdir. Vətən uğrunda şəhid olanlar əsla unudulmayacaq, çünki onlar özlərindən sonrakı nəsil üçün silinməz, unudulmaz dastan yazdılar.

ОРГАНИЗАЦИЯ ВОЕННО-ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ МОЛОДЕЖИ НА СОВРЕМЕННОМ ЭТАПЕ

Мамедова Махнур Гафар кызы, Мамедов Шахмар Рустам оглы, Амирасланов Сархан Наил оглы

Резюме

Являясь одним из важнейших направлений государственной молодежной политики, воспитание молодого поколения в патриотическом духе всегда находится в центре внимания страны. Принимаются постоянные меры в направлении укрепления патриотических чувств у молодежи, увеличения массовости военно-спортивных игр.

Военно-патриотическое воспитание молодежи направлено на обеспечение подготовки к военной службе в рядах армии и занимает особое место в воспитании их патриотизма.

Высшим проявлением патриотизма является целеустремленная деятельность народных масс в общественном строю и самоотверженный труд на защиту Родины. Главным условием в области выполнения стоящих перед страной задач является воспитание воинского патриотизма народных масс, их подготовка к защите Родины.

ORGANIZATION OF MILITARY PATRIOTIC EDUCATION OF YOUTH IN THE MODERN STAGE

Mammadova Mahnur Gafar, Mammadov Shahmar Rustam,
Amiraslanov Sarkhan Nail

Summary

As one of the most important directions of the state youth policy, education of the young generation in a patriotic spirit is always in the center of attention in our country. Continuous measures are being taken in the direction of strengthening the feelings of patriotism among young people and increasing the mass of military-sports games. Military patriotism education of young people is aimed at providing preparation for military service in the ranks of the army, and it has a special place in their patriotism education.

The highest manifestation of patriotism consists of purposeful activity of the masses of the people in the social structure and selfless work for the defense of the Motherland. The main condition in the field of fulfilling the tasks facing the country is the education of military patriotism of the masses of the people, their preparation for the defense of the motherland.

Rəyçi: dosent Nəbiyev Niyazi
Mülki müdafiə və çağrışa qədərki hazırlıq kafedrasının 22 dekabr 2022-ci il tarixli iclasın 04 saylı protokolu
Daxil olma tarixi: 23 dekabr 2022-ci il

UOT:37.

NİZAMİ GƏNCƏVİNİN FİZİKİ TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Qazaxova Şahnaz Xəlilhacı qızı, Cəfərov Urfan Xəlil oğlu
Gəncə Dövlət Universiteti
Shahnaz_qazaxova@mail.ru

Xülasə*:* *Dahi şair və böyük Alim olan Nizaminin əsərlərində Fiziki tərbiyə, təbiətşünaslıq, riyaziyyat, astronomiya, kosmologiya, fəlsəfə, ilahiyyat, tibb, psixologiya, musiqi və s. elmlərə aid zəngin və dərin elmi mahiyyətə malik olan məlumatlara rast gəlirik. Bütün bunlar ona dəlalət edir ki, Nizami Gəncəvi öz dövrünün bütün elmlərinə dərindən yiyələnən böyük alim olmuşdur.*

Müasir elmi pedaqogikaya görə tərbiyənin başlıca tərkib hissələrindən biri də fiziki tərbiyədir. "Fiziki bacarıqların və fiziki keyfiyyətlərin, habelə gigiyenik bilik və bacarıqların insanlara məqsədyönlü və planlı surətdə aşılanması prosesi fiziki tərbiyədir".

Fiziki tərbiyə, şübhəsiz ki, ümumi fiziki inkişafın təmin olunmasında fiziki kamilliyin əldə edilməsi prosesində mühüm rol oynayır.

Fiziki qabiliyyətlər, bacarıq və vərdişlərin icra olunması, formalaşması haqqında fikirlər bildirmişdi. Nizami Gəncəvi fiziki sağlamlığın əhəmiyyətini çox yüksək qiymətləndirərək yazdıgı əsərlərdə göstərirdi ki, insanın cismani cəhətdən sağlam və möhkəm olması onun əqli və əxlaqi inkişafına və ruhuna da müsbət təsir göstərir.

Açar sözlər: bədən tərbiyəsi, fiziki keyfiyyət, fiziki şücaət, Nizami Gəncəvi, fiziki qabiliyyət

Key words*:* physical education, physical quality, physical skills, Nizami Ganjavi, physical ability

Ключевые слова: Физическая культура, физическое качество, физическое мастерство, Низами Гянджави, физическая способность

İlyas Yusif oglu Nizami 1141 ci il avqust ayının 17-də Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Gəncə şəhərində öz dövrü üçün kifayət qədər nüfuzlu və ziyalı bir ailədə dünyaya göz açmışdır. Ömrünün axırına qədər Gəncədə yaşamış yazıb-yaratmışdır. Nizami Gəncəvi 1209-cu ildə vəfat etmişdir.

Kamil insanın formalaşmasında elmin, təhsilin, biliklərə yiyələnməyin çox böyük rol oynadığını dönə-dönə qeyd edən şair insanı heyvanlardan fərqləndirən əsas əlamət onun ağlı, kamalı və ağlın çırağı isə elmdir, bilikdir: oldugunu bütün, əsər, poema, şer və qəzəllərində əks etdirmişdir.

"Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" və ya başqa misrada

- İnsana arxadır onun kamalı,
- Agıldır hər kəsin dövləti, malı.

Dahi şair Nizami Gəncəvi eyni zamanda dövrünün görkəmli filosofu idi. Yaradıcılığının Fəlsəfi spektdə tədqiqi göstərir ki, Nizami dünyanın Allah tərəfindən yaradıldığını qəbul etmiş, ömrünü Allaha ibadətlə və yazıb-yaratmaqla keçirmişdir. İnsan həyatının yaşadıgımız dünyadan ibarət olmadıgını şerlərində qeyd etmişdir və ölümü bu cür vəsf etmişdir.

Hərçənd ki dünyada ölüm gerçəkdir,
Ölüm ölmək deyil, yer dəyişməkdir.

Dahi şair və böyük Alim olan Nizaminin əsərlərində Fiziki tərbiyə, təbiətşünaslıq, riyaziyyat, astronomiya, kosmologiya, fəlsəfə, ilahiyyat, tibb, psixologiya, musiqi və s. elmlərə aid zəngin və dərin elmi mahiyyətə malik olan məlumatlara rast gəlirik. Bütün bunlar ona dəlalət edir ki, Nizami Gəncəvi öz dövrünün bütün elmlərinə dərindən yiyələnən böyük alim olmuşdur.

Müasir elmi pedaqogikaya görə tərbiyənin başlıca tərkib hissələrindən biri də fiziki tərbiyədir. "Fiziki bacarıqların və fiziki keyfiyyətlərin, habelə gigiyenik bilik və bacarıqların insanlara məqsədyönlü və planlı surətdə aşılanması prosesi fiziki tərbiyədir".

Dahi şairin "Kamil insan" konsepsiyasına görə hər bir bəşər övladı hərtərəfli inkişaf etməli, həm əqli cəhətdən zəngin, həm mənəviyyatca saf, həm də fiziki cəhətdən sağlam və möhkəm olmalıdır.

Fiziki tərbiyə, şübhəsiz ki, ümumi fiziki inkişafın təmin olunmasında fiziki kamilliyin əldə edilməsi prosesində mühüm rol oynayır.

Fiziki qabiliyyətlər, bacarıq və vərdişlərin icra olunması, formalaşması haqqında fikirlər bildirmişdi. Nizami Gəncəvi fiziki sağlamlığın əhəmiyyətini çox yüksək qiymətləndirərək yazdıgı əsərlərdə göstərirdi ki, insanın cismani cəhətdən sağlam və möhkəm olması onun əqli və əxlaqi inkişafına və ruhuna da müsbət təsir göstərir:

Heç də təsadüfü deyil ki, fiziki tərbiyəyə belə yüksək qiymət verən şair - pedaqoqun yaratdığı müsbət obrazların demək olar ki, hamısı (Xosrov, Fərhad, Bəhram, İsgəndər və s.) özünün ağıllı və mənəviyyatca zəngin olması ilə yanaşı, fiziki bacarıq və keyfiyyətləri: At çapmaları, ox atmaları, hünərliliyilə, cəldliyi, çevikliyi, güclülüyü, cəsarətliyi, dözümlüyü və s. ilə fərqlənirlər.

"Yeddi gözəl" əsərinin baş qəhrəmanı Bəhram da ağılı, əxlaqı ilə yanaşı fiziki bacarıq və keyfiyyətləri ilə diqqəti cəlb edir. Belə ki, gənc Bəhram başqalarından "Qüvvətli əli", At çapmağı, "Canavarın boynunu qırmağı", "Şirin pəncəsini qırmağı", Atdığı oxla "Qart daşı" bir-birinə tikməyi ilə fəqlənir:

Nizami Gəncəvi bütün poemalarında fiziki bacarıq və keyfiyyətlərin əhəmiyyətini və insan sağlamlığı üçün zəruriliyini dönə-dönə qeyd etməklə bərabər, onların aşılanmasının bəzi yollarını da göstərmişdir. Bu baxımdan "Yeddi gözəl" poemasında "Bəhramın öz kənizi ilə macərası" adlı hekayə fikrimizə parlaq misaldır.

Hekayədə deyilir ki, Bəhram Gur bir gün çox sevdiyi Fitnə adlı kənizi ilə ova çıxır. Ovda Bəhram nə qədər çox məharət göstərsə də ədalı Fitnə onu tərifləmir. Şah bunu görüb Fitnəyə deyir: – Qabaqdan qaçıb gələn ceyranı necə ovlasam mənim məharətimi qiymətləndirərsən? Qız cavab verir ki: "Inanaram qüdrətinə mən, onun dırnağını başına tiksən". Bəhram Gur ovu böyük məharətlə yerinə yetirdikdən sonra qızdan soruşur:" Necədir hünərim?" Fitnə şaha belə cavab verir: ***Söylədi:***

"Şah buna etmişdir Adət,
Sayılmaz heç yerdə Adət Məharət.
Insan etsə əgər bir işə Vərdiş,
Çətin olsa belə, görülər bu iş.

Şah Fitnənin bu cavabından bərk qəzəblənir və bir sərhəngə tapşırır ki, onu aparıb öldürsün. Lakin sərhəngin Fitnəyə yazığı gəlir, onu öldürmür, öz evində gizlədir. Şahın ov edərkən ceyranın dırnagını başına tikməsinin vərdiş oldugunu, Bəhram şaha sübut etmək üçün, Fitnə burada hər gün körpə buzovu boynuna alaraq, altmış pilləli eyvana qaldırır. Bu iş hər gün-körpə buzov altı illik nəhəng öküzə çevrilənədək təkrar olunur. Şair burada həmin "möcüzə"nin sirrini belə şərh edir:

Hər gün sənət oldu o güləndama,
Çıxarmaq öküzü tövlədən dama.
Eylədi beləcə bu işdə adət,
Yükündən görmədi zərrə əziyyət.
Böyüyən öküzün artdıqca əti,
Qızın da artırdı gücü, qüvvəti.

Bu misralarda dahi şair bildirir ki, hər gün eyni hərəkətin təkrarlanması nəticəsində buzovun altı il müddətində öküz olma müddətinə qədər tövlədən dama çıxarmaqla bu işin adətə, vərdişə çevrilməsini və öküzün böyüyəyərək çəkisinin artması, eyni zamanda Fitnənin də fiziki qabiliyyətlərinin gücünün, qüvvətinin, dözümlüyünün artmasına səbəb olmuşdur. Fitnənin tapşırığı ilə sərhəng Bəhram Guru qonaq çagırır və o burada Qızın nəhəng öküzü boynuna alıb altmış pillə yuxarıda yerləşən eyvana qaldırdıgının şahidi olur. Fitnə şaha deyir ki, öz gücümlə öküzü yuxarı qaldırdım, elə güclü adamın varsa gəlib onu aşağı salsın. Şah qıza belə cavab verir: ***Şah dedi:***

"Gücündən deyil bu, əlbət
Əvvəldən bu işə etmisən adət.
Vərdiş eyləmisən hər il başabaş,
Öyrənmisən buna sən yavaş-yavaş.

Ölçüb çıxarmısan belə sınaqdan,
Odur ki, olmursan əldən-ayaqdan”.

Fitnə şaha bildirdi ki, nə üçün öküzü qaldırmaq adət, vərdiş sayılır, ancaq balaca ceyranı ovlamaq yox? Bəhram Gur Fitnəni tanıyır və onu öldürmək qərarı verdiyindən peşiman olur.

Beləliklə, bu səhnədən aydın görünür ki, şair-pedaqoq fiziki bacarıq və vərdişlərin aşılanmasında məşq üsulunun rolunu çox yüksək qiymətləndirir və öyrədir ki, fiziki hərəkətlərin dönə-dönə təkrarlanması, yəni məşq etdirilməsi sayəsində insan böyük uğurlar əldə edə bilər. Nizami Gəncəvi, “Xəmsə”də Çövkan, Nərd, Şahmat və s. oyunların adını çəkmiş, həmin oyunların səciyyəvi xüsusiyyətlərini göstərmişdir.

Ədəbiyyat

1. N.Gəncəvi. “Sirlər Xəzinəsi”
2. N.Gəncəvi “Xosrov və Şirin”
3. N.Gəncəvi “Leyli və Məcnun”
4. N.Gəncəvi “Yeddi gözəl”
5. N.Gəncəvi “İsgəndərnamə”
6. B.Apoyev “Nizami Gəncəvinin pedaqoji görüşləri”

THOUGHTS OF NIZAMI GANJAVI ABOUT PHYSICAL CULTURE

Gazaxova Shaxnaz Xalilhaci, Cəfərov Urfan Xalil

Summary

Physical education, natural education, mathematics, astronomy, cosmology, philosophy, apology, medicine, psychology, music, etc. In the work of the ingenious poet and the great scientist. We are in information that has a rich and deep scientific nature of science. All this indicates that Nizami Gandjavi was a great scientist who deeply acquired all the sciences of his time.

According to modern scientific pedagogy, one of the main components of upbringing is physical education. "The process of physical skills and physical qualities, as well as targeted and planned instillations of hygienic knowledge and skills - is physical education."

Physical education, of course, plays an important role in the process of acquiring physical excellence in ensuring general physical development.

He expressed his opinions about the execution and formation of physical abilities, skills and habits. Nizami Gandjavi also appreciates the importance of physical health in the works that the person is physically healthy and strong, the fact that it has a positive effect on his mental and moral development and spirit.

МЫСЛИ НИЗАМИ ГАНДЖАВИ О ФИЗИЧЕСКОЙ КУЛЬТУРЕ

Газахова Шахназ Халилхаджи кызы, Джафаров Урфан Халил оглы

Резюме

Физическое воспитание, натуральное образование, математика, астро-номия, космология, философия, богословия, медицина, психология, музыка и т.д. в работе гениального поэта и великого ученого. Мы находимся в информации, которая имеет богатую и глубокую научную природу науки. Все это указывает на то, что Низами Ганджави был великим ученым, который глубоко приобрел все науки его времени.

Согласно современной научной педагогии, один из основных компонентов воспитания - это физическое воспитание. «Процесс физических навыков и физических

качеств, а также целенаправленные и планируемые инстилляции гигиенических знаний и навыков - это физическое воспитание».

Физическое воспитание, конечно, играет важную роль в процессе приобретения физического совершенства в обеспечении общего физического развития.

Он выразил мнения о казни и формировании физических способностей, навыков и привычек. Низами Ганджави также ценит важность физического здоровья в произведениях, что человек физически здоров и сильный, тот факт, что он положительно влияет на его психическое и моральное развитие и дух.

Rəyçi: b/m. İ.Haqverdiyev
Bədən tərbiyə və İdman kafedrasının 17 noyabr 2022-ci il tarixli iclsın 03 saylı protokolu
Daxil olma tarixi 23 noyabr 2022-ci il

UOT:796.

BOKS İDMAN NÖVÜNDƏ TƏLİM-MƏŞQ PROSESİNİN GİGİYENİK ŞƏRTLƏRİ

Əliyev Tofiq Bəndər oğlu, Əliyev Orxan Tofiq oğlu
tofiqliyev2@gmail.com
Gəncə Dövlət Universiteti

Xülasə:*Təlim-məşq prosesi boksçunun sağlamlığının möhkəmlənməsinə maksimal dərəcə təsir etməlidir. Buna görə də yüksək idman nailiyyətlərinə doğru yönəldilən məşqlər müəyyən gigiyenik şəraitlərdə və daim həkim-pedaqoji nəzarətlə həyata keçirilməlidir.*

Boksçu həkimin məsləhətlərinin və özünə-nəzarətin göstəriciləri əsasında öz orqanizminin xüsusiyyətlərini öyrənməli və fiziki hərəkətlərin köməyi ilə sağlamlığın möhkəmləndirilməsi üçün ən optimal təsir vasitələri seçməlidir.

Orqanizmin yüksək iş qabiliyyətinə, normal sağlamlıq vəziyyətinə və lazım olan məşqlilik səviyyəsinə nail olması üçün həmin qida maddələrinin qəbul edilməsi zəruridir.

Açar sözlər: Təlim-məşq, sağlamlıq, gigiyena, boks, masaj, orqanizm
Ключевые слова: Тренировки, здоровье, гигиена, бокс, массаж, тело
Keywords: Training, health, hygiene, boxing, massage, body

Təlim-məşq prosesi boksçunun sağlamlığının möhkəmlənməsinə maksimal dərəcə təsir etməlidir. Buna görə də yüksək idman nailiyyətlərinə doğru yönəldilən məşqlər müəyyən gigiyenik şəraitlərdə və daim həkim-pedaqoji nəzarətlə həyata keçirilməlidir.

Boksçunun şəxsi gigiyenası. Boksçu həkimin məsləhətlərinin və özünə-nəzarətin göstəriciləri əsasında öz orqanizminin xüsusiyyətlərini öyrənməli və fiziki hərəkətlərin köməyi ilə sağlamlığın möhkəmləndirilməsi üçün ən optimal təsir vasitələri seçməlidir. Məşq günü elə rejim müəyyən edilməlidir ki, onun məzmununu əmək fəaliyyətinə və idman məşqinə müsbət təsir göstərə bilsin. Bu zaman şəxsi gigiyena və qida rejimlərinə əməl etməklə sağlam həyat tərzinə verilən hərəkətlərin gözlənilməsinə xüsusi diqqət yetirilməlidir.

Bədənin təmizliyi sağlamlığın qorunması üçün ən vacib şərtlərdən biridir. Boksla məşğul olanlar öz bədənlərinin təmizliyinə xüsusi diqqət yetirməlidirlər.

Məlum olduğu kimi, boksçuların bədəni məşq zamanı həddən artıq tər ifraz edir. Bu fakt boksçunun sanitar gigiyenik qaydalara əməl etməsini tələb edir. Məşqdən sonra bədəndə qurumuş tərin saxlanılması yol verilməzdir. Çünki tozla qarışan tər dərini çirkləndirməklə onu qıcıqlandırır. Hər bir praktik məşğələdən sonra duşun qəbul edilməsi zəruridir. Suyun temperaturu bədən temperaturundan bir qədər yüksək (38-39°) olmalıdır. Tərin təmiz yuyulması üçün mütləq sabun və ya şampundan istifadə olunmalıdır.

Boksçu özünün bütün şəxsi əşyaları (əlcəklər, maska, bandaj, diş qoruyucusu, tənzif, məşq paltarı) ideal təmizlikdə saxlamalıdır. Dəri xəstəliklərinə tutulmamaq üçün məşq zamanı heç vaxt əlcəkləri və maskanı tozlu yerə qoymaq olmaz. Bir qayda olaraq boksçunun şəxsi əşyaları məşq zalında və eləcə də evdə asılı vəziyyətdə saxlanılır. Əlcək və maskada tərin qurumuş vəziyyətdə saxlanılması yol verilməzdir. Hər bir məşqdən sonra bu əşyalar ilıq su ilə yuyulmalı və odekolonla silinməlidir. Əlcəklərin daxili hissəsi mütəmadi qaydada dezinfeksiya edilməlidir. Boksçunun məşq paltarları və tənzifləri isə müntəzəm qaydada yuyulmalıdır.

Su prosedurları. Boks məşğələlərində su prosedurlarının böyük gigiyeniki əhəmiyyəti vardır. Boksçu müxtəlif temperaturlu sudan istifadə etməklə bədənin təmizliyini təmin edir və eyni zamanda onun möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Boksçunun istifadə etdiyi əsas su prosedurlarına aiddir: Duş, yuyunmaq, buxar hamamı və çimmək. Hər bir praktik məşğələdən sonra duş qəbul etməyin zəruri olması haqda biz artıq məlumat vermişik.

Səhərlər sərin su ilə yuyunma orqanizmin oyanmasına yaxşı təsir göstərir. Yuyunduqdan sonra dərinin fəaliyyətini tam hazır etmək üçün cod dəsmalla bədəni qızana qədər silmək lazımdır.

Boksçuların məşq prosesinə gigiyenik vasitə kimi ən yaxşı təsir vasitələrindən biri də buxar hamamı hesab olunur. O, boksçunun ümumi fiziki vəziyyətinə gümrahlaşdıran təsir göstərir və tərlədici vasitə kimi dərini təmizləməklə onun soyuqdəyməyə qarşı müqavimət göstərmək qabiliyyətini artırır. Lakin buxar hamamının əks effektlə nəticələnməməsi üçün ondan həddən artıq istifadə etmək məqsədə müvafiq deyil. Bir qayda olaraq buxar hamamına məşq olmayan günlərdə gedilir (həftədə bir və ya iki dəfə).

Buxar hamamında uzun müddət oturmaq məsləhət görülmür. Çünki bu prosesin uzun müddət davam etməsi nəticəsində orqanizm haldan düşür. Buxarla zəngin və istiliyi 60-65° temperatura qədər olan şəraitdə həddən artıq tər ifraz olunur və nəticədə orqanizm zəifləyir. Buxar hamamında insanın nəbz vurğusu orta hesabla 120-yə, bədənin temperaturu isə 39°-yə qədər artır.

Çox enerji sərf etmədən tez tərləmək üçün buxar hamamına quru daxil olmaq lazımdır. Əvvəlcədən yuyunduqda tərləmə prosesi bir qədər ləng gedir. Buxar olan yerdə sakit halda 7-10 dəqiqədən artıq oturmaq məsləhət görülmür. Dəridə gedən oyanma prosesini sürətləndirmək üçün bədəni xüsusi süpürgə ilə çırpmaq lazımdır.

Müəyyən müddət buxar olan yerdə oturduqdan sonra sərin su ilə yaxalanmaq lazımdır. Komanda ümumi masaj və özünü masajın tətbiq olunması faydalıdır. Sonra isti duş qəbul edilməli və suyun temperaturu sərinlik səviyyəsinə qədər. (30-28°) aşağı salınmalıdır.

Yay vaxtı təbii şəraitdə olan su hövzələrində çimmək boksçunun ümumi fiziki vəziyyətinə çox yaxşı təsir göstərir. Bu proses orqanizmin və sinir sisteminin möhkəmlənməsində müsbət rol oynayır. Gün ərzində iki dəfədən artıq çimmək məqsədəuyğun deyil. Yaxşı olar ki, çimmə proseduru nahardan əvvəl həyata keçirilsin.

Uzun müddət soyuq suda çimmək nəticəsində orqanizmin həyat fəaliyyəti aşağı düşə bilər. İsti hava şəraitində sərin suda 20 dəqiqəyə qədər durmaq olar. Sərin suda passiv dayanmaq olmaz. Bu zaman idmançı üzməli və topla oynamalıdır.

Masaj. Boksçuların idman praktikasında masaj əzələlərin möhkəmləndirilməsi, haldan düşmənin bərpa edilməsi, iş qabiliyyətini artıran və bir sıra zədələnmələri müalicə etmək üçün gigiyenik vasitə kimi istifadə edilir. Mütəxəssislər idman masajını bir neçə növ üzrə təsnifatlandırırlar.

Gigiyenik masaj - orqanizmin ümumi tonusunu yüksəltmək üçün səhərlər özünə-masaj formasında yerinə yetirilir. Məşq masajı - ümumi və fərdi masaj kimi məşqdən 4-5 saatdan sonra yerinə yetirilir. Onun əsas məqsədi boksçunun idman formasını təmin etməkdən ibarətdir.

Əvvəlcədən yerinə yetirilən masaj döyüşdən əvvəl idmançının iş qabiliyyətini artırmaq və sinir oyanmalarını aşağı salmaq məqsədi ilə həyata keçirilir. Bərpaedici masaj - yarış zamanı döyüşdən 20-30 dəqiqə keçdikdən sonra tətbiq edilir. Bu masajın əsas məqsədi yorulmuş əzələlərin iş qabiliyyətini bərpa etməkdən ibarətdir.

İdman zədələnmələri zamanı masajın məqsədi əzələ və bağlarda yaranan problemlərin aradan qaldırılmasından ibarətdir. Xüsusi idman təhsili alan hər bir məşqçi adətən bu masaj növlərinin texnika və metodikasını bilir.

Boksçunun qidalanması. Boksçular məşğələlərdə kifayət qədər enerji sərf edir. Buna görə də boksçu öz qidalanmasına diqqət yetirməlidir. Boksçunun qida rasionuna müəyyən miqdarda əsas üzvi maddələr (zülallar, yağlar, karbohidratlar), vitaminlər və mineral duzlar daxil edilməlidir. Orqanizmin yüksək iş qabiliyyətinə, normal sağlamlıq vəziyyətinə və lazım olan məşqlilik səviyyəsinə nail olması üçün həmin qida maddələrinin qəbul edilməsi zəruridir.

Boksçunun gün ərzində sərf etdiyi enerji onun iş fəaliyyətindən və məşq zamanı aldığı fiziki yükdən asılıdır. Boksçu gündə ən azı 3 dəfə qida qəbul etməlidir. Səhər yeməyi üzvi maddələrlə kifayət qədər zəngin olmalıdır. Nahar yeməyinin vaxtı günün 2-ci yarısında və məşqdən təxminən 2-3 saat əvvəl olmalıdır. Axşam yeməyinin vaxtı yuxudan ən azı iki saat əvvəl olmalıdır. Məşq dövründə həddən artıq suyun içilməsi məqsədə müvafiq deyil. Həddən artıq yemək də düzgün deyil. Çünki normadan artıq yemək həzm prosesini pozmaqla orqanizmin iş qabiliyyətini aşağı salır. Yarış günlərində qida qəbulu rinqə çıxmazdan ən azı 4 saat əvvəl olmalıdır.

Boksçunun qida rasionu vitaminlərlə xüsusən S və B-vitaminləri ilə zəngin olmalıdır. Çünki gərgin idman fəaliyyəti zamanı bu vitaminlərə tələbat daha da artır. Onların kifayət qədər olmaması nəticəsində ümumi zəiflik, iş qabiliyyətinin aşağı düşməsi və iştahanın pozulması halları baş verir.

Vitamin çatışmamazlığını aradan götürmək üçün qida rasionuna meyvə, tərəvəz, süd, qara çörək və müxtəlif bitki mənşəli şirələr daxil edilməlidir. Əgər zəruriyyət yaranarsa həkimin göstərişi ilə həmin vitaminlər süni preparat formasında qəbul etmək olar. Boksçunun çəkisi boks yarışlarında çəki dərəcələri ilə əlaqədar qaydaların olması məcbur edir ki, boksçu öz çəkisini daim nəzarətdə saxlasın. Hər bir boksçu yarışlarda müəyyən çəki dərəcəsində iştirak edir. Bədənin təbii çəkisinin obyektiv göstəriciləri artıq piy qatının olmaması və yaxşı inkişaf etmiş əzələlərdir. Subyektiv göstəricilər isə özünü yaxşı hiss etmək və yarışlarda boksçu üçün zəruri olan fiziki keyfiyyətlərin təzahür edilməsidir.

Ağır çəkili boksçularda çəki artdıqda qüvvə də artır. Lakin onların çeviklik və dözümlülük səviyyəsi aşağı düşür. Digər çəki dərəcələrində də çəkinin artması qüvvənin artmasına səbəb olur. Lakin bu artım piyin çoxalması hesabına olmamalıdır. Əgər boksçu

(xüsusən yeniyetmə) boyunun və çəkisinin təbii yolla artması səbəbindən növbəti çəki dərəcəsinə keçirsə onun qarşısının süni yolla alınması yolverilməzdir.

Bəzi boksçular (xüsusən yüngül çəki dərəcəli) yarışdan əvvəl öz çəkilərini aşağı salırlar. Bu zaman buraxılan səhvlər nəticəsində sağlamlığa mənfi təsirlər edilir. Bəzi boksçular elə zənn edirlər ki, aşağı çəki dərəcəsində çıxış etməklə daha yaxşı nəticələr əldə edə bilərlər. Lakin o bilməlidir ki, bədən çəkisinin süni surətdə aşağı salınması orqanizmi zəiflədir. O, bu prosesdə istər-istəməz aclıq və susuzluq hissi keçirir ki, bu da sinir gərginliyinə səbəb olur. Bu fakt onu göstərir ki, bədən çəkisinin süni surətdə normadan artıq aşağı salınması zərərli olduğu üçün yolverilməzdir.

Süni surətdə çəki salmaq boksçunun sağlamlığına mənfi təsir göstərməklə tədricən onun döyüş qabiliyyətini aşağı salır. Buna görə də süni surətdə çəkinin aşağı salınmasına heç cür yol vermək olmaz boks təcrübəsində çəki salmağa görə zəifləmiş və özündən aşağı səviyyədə olan boksçuya uduzmaq hallarının sayı kifayət qədərdir.

Çəki ancaq əlavə piy ehtiyatı olan zaman salına bilər. Çünki əlavə piyin olması boksçunun hərəkətlərini məhdudlaşdırır.

Bəzi boksçular çəkilərini sabit qaydada saxlamaqda çətinlik çəkirlər. Bu problem bilavasitə orqanizmin fərdi xüsusiyyətlərindən asılıdır.

Bunun üçün ən yaxşı üsul məşq prosesində çəkinin tədricən aşağı salınmasıdır. Bu proses bir-birilərini tamamlayan bir sıra tədbirlərlə həyata keçirilir. Bunlara aiddir: Qida və su rejimi, dözümlülüyü inkişaf etdirmək üçün hərəkətlər, buxar hamamı, masaj və s. Açıq hava şəraitində ümuminkişafetdirici hərəkətlər və zalda keçirilən xüsusi məşqlər tərləmə yolu ilə çəkini təbii formada aşağı sala bilər. Bu zaman bədəni isti saxlayan və hava keçirməyən xüsusi məşq paltarı geymək daha məqsədəuyğundur. Boksçunun pəhriz saxlaması üçün yağlı xörəklərin məhdudlaşdırılması kifayət edə bilər.

Çəki salan zaman boksçu buxar hamamından istifadə etməli və su içməyi azaltmalıdır. Buxar hamamı bədəndən yorğunluğu çıxarır. Lakin onun normadan artıq istifadə edilməsi məqsədə müvafiq deyil. Tərin həddən artıq ifraz edilməsi, orqanizmə mənfi təsir göstərməklə onun funksiyalarını pozur və ümumi iş qabiliyyətini aşağı salır. Əgər boksçu üçün çəkini sabit saxlamaq çətindirsə, onun növbəti çəki dərəcəsinə keçməsi daha yaxşı olar.

Boksçunun məşqə qədər olan çəkisi öz çıxış etdiyi çəki dərəcəsindən az olarsa çəkini bir qədər artırmaq lazımdır. Əgər boksçu öz çəkisini süni surətdə növbəti çəki dərəcəsinə çatdırarsa onun iş qabiliyyəti aşağı düşə bilər. Çünki artıq çəki bir qayda olaraq boksçunun sürət və dözümlülüyünə mənfi təsir göstərir.

Çəkini artırmaq üçün əsas vasitə düzgün rejim hesab olunur. Bunun üçün ilk növbədə məşq zamanı dözümlülüyün inkişaf etdirilməsi üçün nəzərdə tutulmuş hərəkətləri məhdudlaşdırmaq lazımdır.

Çəkinin əzələ kütləsinin artırılması hesabına çoxaldılması daha məqsədəuyğundur. Qəbul edilən qidanın tərkibinə əzələ liflərinin artırılmasına səbəb olan zülallı maddələr (kəsmik, yumurta, pendir, ət, yağ) əlavə edilməlidir. Qida az miqdarda lakin adi vaxtlarla müqayisədə tez-tez qəbul edilməlidir. Yeməkdən sonra mütləq istirahət etmək lazımdır.

Ədəbiyyat

1. A.Q.Abiyev., T.X.Babanlı., E.A.Hüseynov. Boks - (dərslik) Bakı-2006
2. Q.N.Cəbrayılov. Boks məşğələlərinin metodiki əsasları (dərs vəsaiti). Bakı-2014
3. Hüseynov E.A.., Mərdanov N.A., Abdullayev N.S. “Boksda hərtərəfli hazırlığının elmi metodiki əsasları”. Dərs vəsaiti. Bakı, 2012

ГИГИЕНИЧЕСКИЕ УСЛОВИЯ ТРЕНИРОВОЧНО-ТРЕНИРОВОЧНОГО ПРОЦЕССА ПО БОКСУ

Алиев Тофиг Бандар оглы, Алиев Орхан Тофик оглы

Резюме

Тренировочный процесс должен максимально влиять на укрепление здоровья боксера. Поэтому занятия, направленные на высокие спортивные достижения, должны проводиться в определенных гигиенических условиях и под постоянным врачебно-педагогическим контролем.

Опираясь на рекомендации врача и показатели самоконтроля, боксер должен изучить особенности своего организма и выбрать наиболее оптимальные средства укрепления здоровья с помощью физических движений.

Чтобы организм достиг высокой работоспособности, нормального самочувствия и необходимого уровня физической нагрузки, необходимо принимать эти нутриенты.

HYGIENIC CONDITIONS OF TRAINING AND TRAINING PROCESS IN BOXING

Aliyev Tofig Bandar, Aliyev Orkhan Tofig

Summary

The training process should have the maximum impact on strengthening the health of the boxer. Therefore, classes aimed at high sports achievements should be carried out in certain hygienic conditions and under constant medical and pedagogical supervision.

Based on the doctor's recommendations and self-control indicators, the boxer must study the characteristics of his body and choose the most optimal means of strengthening health through physical movements.

In order for the body to achieve high performance, normal well-being and the required level of physical activity, it is necessary to take these nutrients.

Rəyçi: dosent Hüseynzadə Zaur
Bədən tərbiyə və İdman kafedrasının 17 noyabr 2022-ci il tarixli iclsın 03 saylı protokolu
Daxil olduğu tarix 24 noyabr 2022-ci il

Çapa verildiyi tarix 15.12.2022
Çap vərəqi: 23,12 ç.v. Tiraj :300 ədəd
Gəncə Dövlət Universitetinin nəşriyyatı
Ünvan: Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429
E-mail: ***elm@gdu.edu.az,*** *(+99422) 266 01 88*